NATO MƏLUMAT KİTABI

NATO
İctimai Diplomatiya Şöbəsi
1110 Brüssel, Belçika

Kitabın Azərbaycan dilinə nəşri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və NATO Azərbaycan Beynəlxalq Məktəbi (NİSA) tərəfindən hazırlanmışdır.

ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ TƏŞKİLATI (NATO)

ÜZV DÖVLƏTLƏR

ABŞ, Albaniya, Almaniya, Belçika, Bolqarıstan, Böyük Britaniya, Çex Respublikası, Danimarka, Estoniya, Fransa, Xorvatiya, İslandiya, İspaniya, İtaliya, Kanada, Latviya, Litva, Lüksemburq, Macarıstan, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Türkiyə, Yunanıstan

1949-cu ilin Aprelində Vaşinqtonda imzalanmış Şimali Atlantika Müqaviləsi Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsinə istinadən kollektiv müdafiə naminə Alyans yaratdı. Bu müqavilə qeyri müəyyən müddətlidir.

NATO-nun emblemi 1953-cü ilin oktyabrında Şimali Atlantika Şurası tərəfindən Atlantik Alyansın simvolu kimi qəbul olunub. Dairə birlik və əməkdaşlıq rəmzi, kompasın əqrəbləri isə üzv dövlətlərinin tutduqları ümumi sülh yolunun göstəricisidir.

TƏŞƏKKÜR

İctimai Diplomatiya İdarəsi öz vaxt və təcrübələri ilə NATO Məlumat Kitabının nəşrinə töhfə vermiş Beynəlxalq Katiblik üzvlərinə öz təşəkkürünü bildirir. İdarə həmçinin NATO Məlumat Kitabının yaradıcısı cənab Nikolas Şervenə təşəkkürünü bildirir. Onun Alyansa sadiqliyi və Alyansı dərk etməsi illər boyu bu daima dəyişən təşkilatın qaranlıq məqamlarında oxuculara bələdçilik etmişdir.

NATO Məlumat Kitabı NATO İctimai Diplomatiya İdarəsi tərəfindən Baş Katibin rəhbərliyi altında Alyans və onun siyasəti haqqında yaddaş kitabı kimi nəşr edilmişdir. İstifadə olunmuş ifadələr Alyansın bütün qərarlarının əsasını təşkil edən, üzv dövlətlər arasındakı konsensusu mümkün qədər yaxından əks etdirir. Hər halda Məlumat Kitabı rəsmi NATO sənədi deyil və bu səbəbdən müzakirə olunan hər bir məsələ üzrə ayrı-ayrı dövlətlərin rəsmi fikir və mövqelərini ifadə edə bilməz.

M Ü N D Ə R İ C A T

Təşəkkür 4
Ön söz..... 9

I HİSSƏ - Alyansla Tanışlıq

NATO nədir? 15
Alyansın Yaranma Tarixi 17
NATO-nun əsas təhlükəsizlik məsələləri 18
Dəyişən Təhlükəsizlik Mühiti ilə qarşılaşma 21
Nəticə 31

II HİSSƏ - Siyasət və Qərarların Qəbulu

1-ci Fəsil: Əsas siyasət və qərar qəbul edən təsisatlar 35
2-ci Fəsil: Böhranların idarə edilməsi..... 45
3-cü Fəsil: Müdafiənin planlaşdırılması sahəsi 53
4-cü Fəsil: Ümumi maliyyə resursları, büdcə,
maliyyənin idarə edilməsi 60
5-ci Fəsil: Nüvə siyasəti 68
6-cı Fəsil: İqtisadi sahə 70

III HİSSƏ - NATO-nun Mülki və Hərbi təsisatları

7-ci Fəsil: Mülki təşkilat və təsisatlar 75
8-ci Fəsil: Beynəlxalq Katibliyin əsas funksiyaları..... 78
9-cu Fəsil: Hərbi təşkilatlar və təsisatlar 87
10-cu Fəsil: Beynəlxalq Hərbi Qərargahın əsas funksiyaları..... 104
11-ci Fəsil: İxtisaslaşmış təşkilatlar və agentliklər..... 110
12-ci Fəsil: NATO-nun əsas komitə və siyasi orqanlarına
çıxış..... 115

IV HİSSƏ - Sülhün Qorunması və Sülhün Dəstəklənməsində Alyansın Rolu

13-cü Fəsil: NATO-nun Bosniya-Herseqovinada rolu…….. 141
14-cü Fəsil: Kosovo münaqişəsi və KFOR-un rolu…….. 147
15-ci Fəsil: NATO-nun keçmiş Yuqoslaviya Respublikası Makedoniyada* rolu…… 151
16-cı Fəsil: NATO-nun Əfqanıstanda rolu……. 153
17-ci Fəsil: NATO-nun İraqda rolu…….. 158
18-ci Fəsil: NATO-nun Darfurda rolu…….. 161

V HİSSƏ - Yeni Təhlükələrə Qarşı Mübarizə və Yeni Qabiliyyətlərin İnkişaf Etdililməsi

19-cu Fəsil: Terrorizmə və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizədə Alyansın rolu…..... 165
20-ci Fəsil: Yeni qabiliyyətlər……..... 174

VI HİSSƏ - Alyansın Yeni Üzv Dövlətlər üçün Açılması

21-ci Fəsil: Genişlənmə prosesi ……..... 183
22-ci Fəsil: Üzvlüyün Fəaliyyət Planı ……..... 189

VII HİSSƏ - Tərəfdaşlıq və Əməkdaşlıq

23-cü Fəsil: Avro-Atlantika tərəfdaşlığı: Avro-Atlantika Tərəfdaşlıq Şurası və Sülh Naminə Tərəfdaşlıq……..... 193
24-cü Fəsil: NATO və Rusiya……..... 210
25-ci Fəsil: NATO və Ukrayna……. 220
26-cı Fəsil: Aralıq dənizi regionu və geniş Orta Şərq ölkələri ilə əməkdaşlıq……..... 231
27-ci Fəsil: Cənub Şərqi Avropa ölkələri ilə əməkdaşlıq……. 238

---

* *QEYD: Bu Məlumat Kitabında keçmiş Yuqoslaviya Respublikası Makedoniyaya aid istinadlar ulduzla (*) işarələnmişdir ki, bu da aşağıdakı qeydlə izah olunur: "Türkiyə Makedoniya Respublikasını onun konstitusiya adı ilə tanıyır".*

VIII HİSSƏ - NATO-Avropa İttifaqı Əlaqələri

28-ci Fəsil: NATO və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq 243

IX HİSSƏ - Təhlükəsizliyin Daha Geniş Təşkil Olunmuş Strukturu

29-cu Fəsil: NATO-nun Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələri..... 255
30-cu Fəsil: NATO və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı..... 260
31-ci Fəsil: Digər beynəlxalq təşkilatlarla əməkdaşlıq..... 264
32-ci Fəsil: Parlament və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq..... 267

X HİSSƏ - Proqramlar, Fəaliyyətlər, Təşkilatlar və Agentliklər

33-cü Fəsil: Hava müdafiəsi 275
34-cü Fəsil: Havadan erkən xəbərdarlıq 278
35-ci Fəsil: Hava məkanı və hava nəqliyyatının idarə olunması..... 281
36-cı Fəsil: Silahlanma sahəsində əməkdaşlıq və planlaşdırma 283
37-ci Fəsil: Silahlara nəzarət və tərksilah..... 288
38-ci Fəsil: Mülki fövqəladə planlaşdırma..... 297
39-cu Fəsil: Rabitə və informasiya sistemləri..... 303
40-cı Fəsil: Təhsil və təlim..... 307
41-ci Fəsil: Elektron mübarizə 317
42-ci Fəsil: Maddi-texniki təchizat 318
43-cü Fəsil: Meteorologiya..... 324
44-cü Fəsil: Hərbi Okeanoqrafiya..... 326
45-ci Fəsil: İctimai Diplomatiya kommunikasiya və məlumat proqramları..... 328

46-cı Fəsil: İctimai Diplomatiya, elmi və ətraf-mühit proqramları…….. 331
47-ci Fəsil: Elmi tədqiqat və texnologiya …….. 339
48-ci Fəsil: Standartlaşdırma ……..... 341

ƏLAVƏLƏR

ƏLAVƏ 1 Abreviaturalar (qısaltmalar)..... 347
ƏLAVƏ 2 Şimali Atlantika Müqaviləsi..... 385

ÖN SÖZ

NATO 1949-cu ildə Vaşinqton Müqaviləsinin imzalanması ilə yaradılmışdır. Yığcamlıq və aydınlıq modeli olan müqavilə, daim dəyişən beynəlxalq təhlükəsizlik dinamikasının Alyans tərəfindən mənimsənilməsinə zəmin yaratdı. O, yeni problemlərin qarşısını almaqdan ötrü, eləcə də onların dəyişən ətraf mühiti əks etdirən həlli yollarının axtarılması üçün özünəməxsus çeviklik və çərçivənin müəyyən olunmasını təmin edir. 9–cu maddədə müəlliflər Alyans üçün çevik təşkilatlanmağa hesablanmış bir struktur nəzərdə tutmuşlar ki, bu da müqavilənin yerinə yetirilməsi və zəruri ola biləcək belə yardımçı orqanların yaradılmasında məsul olan Şura timsalında vahid, nüfuzlu bir institutdur. Bu uzaqgörənlik Alyansa tarixi boyunca özünü inkişaf etdirmək və yeni şəraitə uyğunlaşmaq imkanı verir.

NATO öz mövcudluğunun ilk 40 ili ərzində bir sıra islahatlar, yenidənqurmalarla üzləşmiş və bu cür islahatlar, yenidənqurmalar üzv dövlətlərin təhlükəsizliyini daha müsbət və daha sabit özül üzərində qurmaq üçün NATO-nu Soyuq Müharibə sərhədləri ilə məhdudlaşmayan təsadüfi imkanlara uyğunlaşdırmaq məqsədi daşıyırdı. Soyuq Müharibənin qurtarmasından sonra qısa müddət ərzində Alyans çoxlarının təhlükəsizlik mühitində ilk illərdə əvvəlcədən görə bilmədiyi imkan və intensivliklərin dəyişikliklərinə uyğunlaşaraq daha əsaslı yenidənqurmalara məruz qaldı.

Məhz 1990-cı illərdə NATO ilk dəfə olaraq Avro-Atlantika məkanında məlum Şərq-Qərb bölgüsünün və onu müşayiət edən ideoloji, siyasi və hərbi rəqabət münasibətlərinin sonuna və təhlükəsizliyə ənənəvi hərbi hədələrin yoxa çıxmasına reaksiya verdi. İttifaq yeni strateji konsepsiya müəyyən etdi, digər dövlətlərlə, həmçinin köhnə rəqibləri ilə intensiv tərəfdaşlığa başladı və öz sıralarına yeni üzv dövlətlər qəbul etdi. Bundan əlavə və ilk dəfə olaraq NATO çoxmillətli böhranların idarə olunması üzrə əməliyyatların və digər təşkilatlarla geniş birgə tədbirlərin həyata keçirilməsində aparıcı rola yol açan, Alyans sərhədlərindən kənarda münaqişə zonalarında sülhməramlı tədbirlər həyata keçirdi.

11 sentyabr 2001-ci ildə ABŞ-a qarşı hücumlar terrorizm əleyhinə mübarizəni NATO da daxil olmaqla beynəlxalq ictimaiyyətin gündəliyində əsas məsələ etdi. Nəticədə Soyuq Müharibə dövrünün qurtarmasından sonrakı ilk 10 ili xarakterizə edən transformasiya prosesi daha hərtərəfli və böyük zərurət tələb etdi.

Bu gün Alyansın yeni – 11 Sentyabrdan sonrakı təhlükəsizlik mühitinə cavabı üzv hökumətlərlə razılaşdırılmış aydın prinsiplər toplusuna əsaslanır.

Müttəfiqlər razılığa gəliblər ki, özlərini xarici terror hücumlarından kollektiv şəkildə qorumaq, müdafiə etmək, təcrid etmək və mühafizə üçün bir-birilərinə kömək etməyə hazır olmalıdırlar. Bu razılaşma terrorçuların və onlara sığınacaq verənlərin və ya müdafiə edənlərin əleyhinə aktiv tədbirlər görməyi də nəzərdə tutur. Onlar həmçinin razılaşıblar ki, Alyans əvvəlcədən müəyyənləşdirilmiş coğrafi sərhədlərlə məhdudlaşmamalıdır: onun tələb olunan qaydada və yerlərdə hərəkət etmək imkanı olmalıdır. Eyni zamanda onun digər beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən əməliyyatlara və ya NATO üzv dövlətlərinin də daxil olduğu koalisiyalara yardım etmək məqsədilə bəzi hallarda öz qüvvə və imkanlarını təmin etməsinə ehtiyac ola bilər.

Bu qərarlar Alyansın üzərinə böyük hədəfli tələblər qoyur ki, bu da yalnız zəruri imkanların əldə olunması yox, həmçinin üzv dövlətlərin qəbul etdikləri siyasətdən nəticə çıxarmalarını və onun həyata keçirilməsi naminə vasitələrlə təmin etmək üçün davamlı siyasi iradələrini nəzərdə tutur. Siyasətin və təsisatların yenidən nəzərdən keçirilməsi və yenilənməsinə tələbat hazırkı vəzifələrin yerinə yetirilməsi ilə bitməyəcək. Müasirləşmə və rasionallaşma daimi olaraq mübarizə aparmaq üçün əsas amil olaraq qalacaq, ən azı ona görə ki, təhlükəsizliyə və sabitliyə qarşı hədələr özləri sabit deyil.

Alyansın keçmişdə problemlərlə necə qarşılaşdığı və gələcəkdə eyni çətinliklərə qarşı özünü necə hazırlaması NATO Məlumat Kitabının hazırkı yeni nəşrinin mövzusudur. Kitab Alyansın 2005-ci ilin payızına qədərki təkmilləşməsinin müfəssəl təhlilini aparır. NATO-nun rəsmi internet səhifəsi (www.nato.int) isə Alyansa aid sonrakı məlumatlara çıxışı təmin etməklə rəsmi məlumatlar, kommünikelər, müstəqil qiymətləndirmə və təhlillərini təklif edən ixtisaslı şərhçilərin məqalə və nitqlərini özündə əks etdirir.

Məlumat kitabının **I Hissəsi** qısaca olaraq Alyansla tanışlığı əks etdirir və onun mənşəyinin və mühüm vəzifələrinin, həmçinin yarandığı dövrdən əsas inkişaf sahələrinin izahını verir. Bu hissədə xüsusilə, Soyuq Müharibə erasından bir qədər sonrakı vaxtlarda NATO üzv dövlətlərinin çoxmillətli təhlükəsizliyə münasibətdə götürdükləri siyasi kursların qısa təsviri və 21-ci əsrin ilk illərində Alyansın gündəliyində olan ən əsas mövzuların tədqiqi öz əksini tapıb. Alyansı idarə edən əsas qərarverici orqanlar, mühüm prinsip və siyasətlər **II Hissədə** təsvir olunub. Bunlar Məlumat Kitabının **III Hissəsi** ilə tamamlanmışdır ki, bu hissədə NATO-nun vəzifələrinin həyata keçirilməsini təmin etmək üçün onun tərəfindən yaradılmış mülki, hərbi təsisatlar və agentliklər izah olunub.

Alyansın sülhü qorumaq və sülhü dəstəkləməklə bağlı operativ rolu **IV Hissənin** mövzusudur ki, burada Alyansın Bosniya və Herseqovina, Kosovo, və keçmiş Yuqoslaviya Respublikası Makedoniya*, Əfqanıstanla bağlı NATO

qərarlarının tətbiqi, NATO-nun İraqdakı Təlim Missiyası və Sudan, Darfurdakı missiyası tədqiq olunur. **V Hissə** terrorçuluq təhlükəsinə və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə aparmaq üçün Alyans tərəfindən görülmüş tədbirlərə ünvanlanıb və inkişafda olan yeni imkanları izah edir.

1990-cı illərin əvvəllərindən etibarən NATO strategiyasının əsas aspekti Alyansın yeni üzvlərə açıq elan edilməsi **(VI Hissə)** və ikitərəfli və çoxtərəfli münasibət və tərəfdaşlıqlar vasitəsilə qeyri-üzv dövlətlərlə əlaqə və əməkdaşlığın genişləndirilməsidir. Bu tərəfdaşlıqların və əməkdaşlığın praktiki formalarının inkişafı və rolunun icmalı **VII Hissədə** verilmişdir və burada Avro-Atlantika Tərəfdaşlıq Şurası və Sülh Naminə Tərəfdaşlıq Proqramının dayaqlarına əsaslanan Avro-Atlantika Tərəfdaşlığının təkmilləşməsi, həmçinin NATO-nun Rusiya, Ukrayna, Aralıq Dənizi Dialoqu ölkələri, cənub-şərqi Avropa və İstanbul Əməkdaşlıq Təşəbbüsü vasitəsilə bu yaxınlarda Orta Şərq dövlətləri ilə münasibətləri və əməkdaşlığının müxtəlif formaları müzakirə olunur.

İnstitusional əməkdaşlıq regional təhlükəsizliyin təkmilləşdirilməsində geniş rol oynamışdır və xüsusilə də NATO və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq **VIII Hissənin** mövzusudur. NATO ilə Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar arasında təhlükəsizliyin və əməkdaşlığın daha geniş təşkil olunmuş strukturu **IX Hissədə** təsvir olunub.

X Hissə bu gün təhlükəsizliyin gündəmini təşkil edən planlaşdırma və əməkdaşlığın bir çox müxtəlif sahələrində Alyansın effektivliyinin dayağı olan proqram və fəaliyyətlərə həsr olunub. NATO üzv və tərəfdaş dövlətlərinin qüvvələrinin birgə fəaliyyətinin mümkün edən maddi-texniki təminat, standartlaşdırma, kommunikasiya, silahlanma, hava məkanı və hava nəqliyyatının idarə olunması və hava hücumundan müdafiə fəaliyyəti haqqında məlumat verilir. Həmçinin, yeni təhlükəsizlik təhdidlərinə birbaşa cavab vermək məqsədilə cəmləşdirilmiş, fövqəladə mülki planlaşdırma, fəlakətlər zamanı yardım, ictimai diplomatiya, kommunikasiya, informasiya proqramları, elmi, ətraf-mühit və ictimai sahələrdə əməkdaşlıq haqqında məlumat verilir.

Abreviaturalara (Qısaltmalar) aid digər məlumatlar **1-ci Əlavədə** siyahıya alınıb.

I HİSSƏ

ALYANSLA TANIŞLIQ

I HİSSƏ

NATO NƏDİR?

Şimali Atlantika Müqaviləsi Təşkilatı 1949-cu il 4 apreldə Vaşinqtonda imzalanmış Şimali Atlantika Müqaviləsinin məqsədlərini həyata keçirmək üçün yaradılmış Şimali Amerika və Avropanın 28 dövlətindən ibarət olan İttifaqdır.

Müqaviləyə əsasən, NATO-nun əsas rolu üzv dövlətlərin müstəqillik və təhlükəsizliyini siyasi və hərbi vasitələrlə qorumaqdan ibarətdir. NATO Müttəfiqlərin demokratiya, fərdi azadlıq, hüququn aliliyi və mübahisələrin sülh yolu ilə həlli kimi ümumi dəyərlərini qoruyur və bu dəyərləri Avro-Atlantika məkanı boyunca təbliğ edir. O, təhlükəsizlik məsələləri üzrə birgə məsləhətləşərək ümumi razılığa gəlmək və onlara doğru birgə addımlar atmaq üçün Şimali Amerika və Avropa dövlətlərinin müzakirələrini təşkil edir.

Alyansın Şimali Amerika və Avropa üzvləri arasındakı münasibətlər NATO-nun təməl daşıdır. Bu dövlətlər eyni əhəmiyyətli dəyərləri və maraqları bölüşür və Avropanın, eləcə də Şimali Amerikanın təhlükəsizliyini bölünməz edən demokratik prinsiplərin qorunub saxlanmasına sadiqdirlər.

Alyans öz üzv dövlətlərini zor və zorla təhdid əleyhinə müdafiə etməkdə və “bir və ya bir neçə üzvə qarşı hücum hamıya qarşı hücum hesab olunacaq” prinsipinə sadiqdir.

NATO hər bir üzvün öz suverenliyini saxladığı hökumətlərarası təşkilat olmaqda qalır. Bütün NATO qərarları üzv dövlətlərin iştirakı ilə konsensus əsasında qəbul olunur. NATO-nun ən mühüm qərar qəbul edən orqanı səfirlər, nazirlər, dövlət və hökumət başçıları səviyyəsində bütün müttəfiqlərin nümayəndələrini bir araya gətirən Şimali Atlantika Şurasıdır. Hər bir üzv dövlət ölçüsündən, siyasi, hərbi və iqtisadi gücündən asılı olmayaraq bərabər əsasda qərar qəbul etmə prosesində iştirak edir.

Müttəfiqlər buna görə ümumi qərar və fəaliyyətlərə hörmət etmək şərti ilə müstəqil hərəkət etmək imkanını saxlayır. Bununla belə, Müttəfiqlərin qəbul olunmuş qərarları siyasi həmrəyliklə möhkəmləndirilmiş ümumi və birgə addımlara şərait yaradır. Məsələn, 11 Sentyabr 2001-ci il hücumlarından sonra Amerika Birləşmiş Ştatlarına yardım göstərmək üçün qəbul olunmuş qərarda öz aydın əksini tapmışdı. Bütün tarixi ərzində ilk dəfə olaraq NATO Vaşinqton Müqaviləsinin 5-ci maddəsinə müraciət etdi. Bu maddədə göstərilmişdir ki, Alyansın bir və ya daha artıq üzvünə qarşı silahlı hücum bütün üzvlərə qarşı silahlı hücum hesab olunur. Alyansın bütün

üzvləri hücumları sərt mühakimə etdilər və Birləşmiş Ştatlara bu işdə dəstək verdilər.

Xüsusi missiyaları həyata keçirmək məqsədilə üzv dövlətlər tərəfindən təyin olunmuş və ya tərəfdaş dövlətlərin töhfə verdiyi operativ qüvvələrdən başqa NATO öz qüvvələrinə malik deyil. Onun sərəncamında bu məqsəd üçün bir çox mexanizmlər mövcuddur – Alyans çərçivəsində əməkdaşlığın əsasını yaradan müdafiə planlaşdırılması və resursların planlaşdırılması, təkmilləşdirilmiş imkanlarla bağlı siyasi öhdəliklərin yerinə yetirilməsi, çoxmillətli qüvvə planlaşdırılmasının təşkili ilə bunun üçün təyin olunmuş Alyans boyu hərbi qüvvələrin komanda və nəzarət sistemini birləşdirən hərbi struktur. Başqa sözlə, ümumi razılaşdırılmış qüvvələrin planlaşdırılması prosesinə uyğun olaraq, Təşkilat NATO-nun strateji komandirlərinin komandanlığı altında üzv dövlətlərin təqdim etdiyi qüvvələrin birgə planlaşdırılması, təlim və əməliyyatlarda istifadə olunmasını təmin edir. Xülasə, müvafiq tələbləri yerinə yetirmək üçün qüvvələrin istehsalı və üzv dövlətlərə onların təklikdə öhdəsindən gələ bilməyəcəyi böhranların idarə olunmasında iştirak imkanı yaratmaq üçün katalizator rolunu oynamaq NATO-nun rolunun əsas hissəsidir.

NATO üzvü olmayan dövlətlər ilə dialoq və əməkdaşlıq Soyuq Müharibə dövrü ixtilaflarının öhdəsindən gəlməyə və təhlükəsizlik və sabitlik rifahının NATO sərhədlərini aşaraq genişlənməsinə kömək etmişdir. Alyans Rusiya və Ukrayna, digər tərəfdaş dövlətlərlə (bunlardan bəziləri artıq üzv olmuşlar) həmçinin, Aralıq Dənizi Dialoqu proqramı və Orta Şərq regionuna daxil olan ölkələrlə əməkdaşlığını dərinləşdirir və genişləndirir. O həmçinin, digər beynəlxalq təşkilatlar, xüsusən də strateji tərəfdaşlığı inkişaf etdirdiyi Avropa İttifaqı ilə əməkdaşlığını gücləndirir. NATO-nun təsisatları və mexanizmləri Alyansın gündəlik fəaliyyətinin ayrılmaz hissəsi olan bu müxtəlif əməkdaşlıq növləri üçün çərçivəni təmin edir.

Alyansın Yaranma Tarixi

1945-1949-cu illərdə təxirəsalınmaz iqtisadi yenidənqurmalarla üzləşən Qərbi Avropa dövlətləri və onların Şimali Amerikadakı müttəfiqləri SSRİ-nin ekspansionist siyasət və metodlarını narahatlıqla izləyirdilər. Müdafiə təsisatlarını azaltmaq və hərbi qüvvələrini ixtisar etməklə bağlı müharibədən sonrakı vədlərini yerinə yetirmiş qərb dövlətlərinə sovet rəhbərliyinin öz hərbi qüvvələrini tam tərkibdə saxlamaq niyyəti məlum olduqda həyəcan daha da artdı. Bundan əlavə, Sovet İttifaqı Kommunist Partiyasının öz ideoloji məqsədlərini elan etməsindən sonra aydın oldu ki, BMT Nizamnaməsinə və ikinci dünya müharibəsinin sonunda əldə olunmuş razılaşmalara əməl etmək çağırışları ilə xarici təcavüz və daxili təxribatçı fəaliyyət təhlükəsi ilə üzləşmiş demokratik dövlətlərin milli suverenliyinə təminat vermək mümkün olmayacaq. Bir çox Mərkəzi və Şərqi Avropa ölkələrində, həmçinin dünyanın müxtəlif regionlarında qeyri-demokratik idarəetmə formalarının həyata keçirilməsi və aktiv müxalifətin repressiyası və əsas insan və vətəndaş hüquq və azadlıqlarının pozulması bu narahatçılığın əsassız olmadığını göstərdi.

1947-1949-cu illərdə dramatik siyasi hadisələr silsiləsi vəziyyəti gərginləşdirdi. Bu gərginliyə Norveç, Türkiyə, Yunanıstan və digər Qərbi Avropa ölkələrinin suverenliyinə birbaşa təhlükələr, 1948-ci ilin iyununda Çexoslovakiyanın devrilməsi və həmin ilin aprelindən başlamış Berlinin qeyri-qanuni mühasirəsi aid idi. 5 Qərbi Avropa dövləti – Belçika, Fransa, Lüksemburq, Niderland və Böyük Britaniya 1948-ci ilin martında Brüssel müqaviləsini imzalamaqla, öz təhlükəsizliklərinə qarşı olan ideoloji, siyasi və hərbi hədələrə müqavimət göstərmək imkanını yaradacaq ümumi müdafiə sistemini inkişaf etdirmək və öz aralarında əlaqələri gücləndirmək niyyətlərinin qətiyyətli olduğunu nümayiş etdirdilər.

Brüssel Müqaviləsi Qərbi-Avropa təhlükəsizliyinin müharibədən sonrakı bərpasında ilk addım oldu və Qərb İttifaqı Müdafiə Təşkilatının əsasını qoydu. Bu həmçinin, 1949-cu il Şimali Atlantika Müqaviləsinin imzalanması və Şimali Atlantika Alyansının yaradılmasına aparan prosesdə də ilk addım oldu.

Birləşmiş Ştatlar və Kanada ilə aparılan danışıqlar sonradan Avropa və Şimali Amerika arasında təhlükəsizlik təminatları və qarşılıqlı öhdəçiliyə əsaslanan vahid Şimali Atlantika Alyansının yaradılması ilə müşayiət olundu. Danimarka, İslandiya, İtaliya, Norveç və Portuqaliya bu prosesdə iştirak etmək üçün Brüssel Müqaviləsi dövlətləri tərəfindən dəvət olundular. Bu danışıqlar 1949-cu ilin aprelində həmin 12 dövlətin arasında tərəfdaşlığa

əsaslanan ümumi təhlükəsizlik sistemini işə salan Vaşinqton Müqaviləsinin imzalanması ilə nəticələndi. 1952-ci ildə Yunanıstan və Türkiyə də müqaviləyə qoşuldular. Almaniya Federativ Respublikası 1955-ci ildə Alyansa qoşuldu, 1982-ci ildə isə İspaniya da NATO-nun üzvü oldu. 1990-cı ildə Almaniyanın birləşməsi nəticəsində keçmiş Almaniya Demokratik Respublikası vahid dövlətin ayrılmaz hissəsi kimi Alyansın təhlükəsizlik mühafizəsi altına keçdi. Çexiya Respublikası, Macarıstan və Polşa 1999-cu ildə NATO-ya qoşuldular. 2003-cü ildə daha yeddi dövlət (Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya və Sloveniya) qoşulma ilə bağlı danışıqlara dəvət edildilər və 2004-cü ildə rəsmi olaraq müqaviləyə qoşuldular.

Şimali Atlantika Alyansı üzv dövlətlər arasında bağlanan müqavilə əsasında yaradılmışdır. Bu dövlətlərin hər biri öz iradəsi ilə ictimai müzakirə və müvafiq parlament prosesinin nəticəsində təşkilata üzv olmuşlar. Müqavilə onların fərdi hüquqları və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində göstərilmiş beynəlxalq öhdəliklərini müdafiə edir. O, hər bir üzv dövlətin üzərinə kollektiv müdaxilə ilə bağlı hədə və məsuliyyəti bölüşmək öhdəliyini, həmçinin müqavilə ilə ziddiyyət təşkil edə biləcək digər beynəlxalq öhdəlikləri öz üzərilərinə götürməmək vəzifəsini qoyur.

NATO yarandığı yarım əsrlik vaxtdan bəri onun diqqət mərkəzi öz üzv dövlətlərinin müdafiə və təhlükəsizliyini birbaşa təmin edilməsində olub. Bu gün bu onun əsas vəzifəsi olaraq qalır, lakin Alyansın yeni təhdidləri qarşılamaq və yeni hədələrlə üzləşmək imkanlarını yaratmaq üçün onun başlıca diqqət mərkəzi əsaslı dəyişikliklərə məruz qalıb.

NATO-nun əsas təhlükəsizlik məsələləri

NATO-nun Vaşinqton Müqaviləsində əks etdirilmiş mühüm və daimi məqsədi bütün üzvlərinin azadlıq və təhlükəsizliyini siyasi və hərbi vasitələrlə müdafiə etməkdir. Alyans demokratiya, insan hüquqları və hüququn aliliyi kimi ümumi dəyərlərə əsaslanaraq yarandığı andan Avropada daimi sülhü möhkəmləndirmək uğrunda çalışmışdır. Bununla belə, bu məqsədin nailiyyətləri Avro-Atlantika məkanından kənarda baş verən böhran və ya münaqişə vasitəsilə təhlükəyə məruz qala bilər. Buna görə də Alyans nəinki yalnız öz üzvlərinin müdafiəsini təmin edir, eyni zamanda Şimali Atlantika Müqaviləsi məkanı kimi müəyyən edilmiş coğrafi ərazidən kənarda da tərəfdaşlıq və böhranın idarə olunması əməliyyatları vasitəsilə sülh və sabitliyə şərait yaradır.

Alyansın öz fəaliyyəti zamanı əsaslandığı mühüm prinsip bütün üzvlərin bölünməz təhlükəsizliyinə dəstək olaraq suveren dövlətlər arasında ümumi məsuliyyət və qarşılıqlı əməkdaşlıqdır. Alyans çərçivəsindəki həmrəylik və birgəlik, həm siyasi, həm də hərbi sahələrdəki gündəlik əməkdaşlıq vasitəsilə heç bir üzv dövlətin başlıca təhlükəsizlik təhdidləri ilə münasibətdə yalnız öz milli səylərinə ümid etməyə məcbur olmadığına təminat verir. Müdafiə sahəsində üzv ölkələrin öz suveren öhdəliklərini yerinə yetirmək hüququ və vəzifələrini əllərindən almayaraq, Alyans onlara kollektiv səylər vasitəsilə başlıca milli təhlükəsizlik məqsədlərini qarşılamaq imkanını vermiş olur.

NATO-nun əsas təhlükəsizlik məsələləri Alyansın Strateji Konsepsiyasında təsvir olunub. Bu, Alyansın məqsədlərinin rəsmi bəyanatı olmaqla yanaşı, həmin məqsədlərə nail olmaq üçün istifadə olunan siyasi və hərbi vasitələrlə ən yüksək rəhbərlik səviyyəsini təmin edir. Bu konsepsiya bütövlükdə Alyansın siyasətini həyata keçirmək üçün əsas olaraq qalır. Bununla belə, müasir təhlükəsizlik problemlərinin öhdəsindən gəlmək üçün lazım olan siyasi çərçivə, hərbi strukturlar və hərbi imkanların hamısının qaydasında olmasını təmin etmək üçün dəyişən təhlükələr və bu təhlükələrin dərk edilməsi strategiyanın davamlı uyğunlaşması prosesi ilə nəticələndi.

İlk dəfə 1991-ci ildə nəşr edilmiş Strateji Konsepsiya məzmun və formasına görə əvvəlki sənədlərdən kəskin şəkildə fərqlənirdi. O öz üzvlərinin təhlükəsizliyini NATO-nun əsas məqsədi kimi saxlayır, lakin bunu keçmiş rəqiblərlə tərəfdaşlıq və əməkdaşlıq vasitəsilə bütövlükdə Avropa üçün təkmilləşdirilmiş və geniş təhlükəsizlik istiqamətində işləmək kimi xüsusi bir öhdəliklə birləşdirirdi. Bundan əlavə, bu konsepsiya parlamentlər, təhlükəsizlik sahəsi üzrə mütəxəssislər, jurnalistlər və geniş ictimaiyyətin müzakirə və şərhləri üçün açıq olan ictimai sənəd kimi nəşr edilmişdi. 1999-cu ildə Strateji Konsepsiyaya Alyansı yalnız ümumi müdafiə deyil, həm də geniş Avro-Atlantika məkanında sülh və təhlükəsizliyə öhdələndirən düzəlişlər edildi. Bu aşağıdakı siyasi elementləri ibarətdir:

- Siyasi, iqtisadi, ictimai və ətraf mühit məsələləri, həmçinin Alyansın müdafiə ölçüsünü əhatə etməklə təhlükəsizliyə daha geniş yanaşma;
- Transatlantika münasibətlərinə güclü məsuliyyət;
- Hərbi əməliyyatların səmərəliliyini təmin etmək üçün Alyansın hərbi imkanlarının saxlanılması;
- Alyans çərçivəsində Avropanın imkanlarının inkişafı;

- Münaqişələrin qarşısının alınması və böhranların idarə olunması üzrə adekvat struktur və proseduraların qorunub saxlanılması;
- Qeyri-NATO dövlətləri ilə əməkdaşlıq və dialoqa əsaslanan səmərəli tərəfdaşlıq;
- Alyansın genişlənməsi və potensial yeni üzvlərə münasibətdə açıq qapı siyasəti;
- Geniş yayılmış silahlara nəzarət, tərksilah və nüvə silahlarının yayılmasının qarşısının alınması sazişləri üzrə səylərin davam etdirilməsi;

Təhlükəsizliyin bu geniş tərifi müdafiə sahəsindən əlavə siyasi, iqtisadi, ictimai və ətraf-mühit amillərinin vacibliyini etiraf edir. Digər dövlətlərlə tərəfdaşlıq və əməkdaşlıq, Birləşmiş Millətlər Təşkilatı kimi digər regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq, NATO və Avropa İttifaqı arasında inkişaf edən strateji tərəfdaşlıq – bunlar hamısı qarşılıqlı gücləndirmənin və bir-birini tamamlayan münasibətlərin qurulması, münaqişələrin daha təsirli həlli və böhranların daha təsirli idarə olunmasına öz töhfəsini verir.

Strateji Konsepsiyada Alyansın xüsusi vəzifələri də öz əksini tapmışdır. Bunlar aşağıdakılardır:

Sabit Avro-Atlantika **təhlükəsizlik** məkanı üçün demokratik təsisatların inkişafı və dövlətlərdən heç birinin digərini qorxutmaq və güc tətbiq etmək və ya hədələməklə təzyiq göstərmək imkanına malik olmayaraq mübahisələrin dinc yolla həllinə əsaslanan həyati əhəmiyyətli özüllərdən birini təmin etmək.

Vaşinqton Müqaviləsinin 4-cü maddəsində göstərildiyi kimi, üzv dövlətlərin təhlükəsizliyini risk altına salan mümkün hadisələr və ümumi narahatlığa səbəb olan məqamlarda səylərinin müvafiq şəkildə əlaqələndirilməsi daxil olmaqla həyati maraqlarını əks etdirən məsələlər üzrə Alyans **məsləhətləşmələri** üçün mühüm transatlantika forumu rolunu oynamaq.

Vaşinqton Müqaviləsinin 5 və 6-cı maddələrinə müvafiq olaraq NATO üzv dövlətlərinin istənilən birinə qarşı təcavüzkar **təhlükəni müəyyən etmək və qarşısını almaq**.

Avro-Atlantika məkanında təhlükəsizlik və sabitliyi möhkəmləndirmək naminə isə:

Vaşinqton Müqaviləsinin 7-ci maddəsinə müvafiq olaraq, hər bir konkret hal üzrə və konsensus əsasında münaqişələrin qarşısının effektiv alınması, o cümlədən böhranlara cavab əməliyyatları da daxil olmaqla **böhranların idarə olunması**nda fəal iştiraka hazır olmaq.

Şəffaflıq, qarşılıqlı etimad və Alyansla birgə hərəkət imkanı məqsədilə Avo-Atlantika məkanındakı digər dövlətlərlə geniş **tərəfdaşlıq**, əməkdaşlıq və dialoqu inkişaf etdirmək.

Birləşmiş Ştatlara qarşı olan 11 sentyabr hücumlarının arxasınca terrorçuluqdan doğan təhlükə ilə əlaqədar kəşfiyyat əlaqələrinin daha yaxşı paylanmasına və Alyansdan kənarda qalan dövlətlərlə və digər təşkilatlarla əməkdaşlıq və tərəfdaşlığın gücləndirilməsinə üstünlük verilmişdir. Burada hər şeydən öncə, terrorçuluqdan doğan təhdidin cavablandırılması, Kütləvi Qırğın Silahları təhlükəsi əleyhinə hərbi hazırlıq və KQS mühitində əməliyyat aparmaq qabiliyyətinə, qüvvə strukturlarının uyğunlaşdırılmasına və digər müvafiq sahələrdə hərbi imkanların təkmilləşdirilməsinə töhfə olaraq NATO-nun Kütləvi Qırğın Silahları Mərkəzinin rolu gücləndirilmişdir.

Dəyişən Təhlükəsizlik Mühiti ilə qarşılaşma

Vaşinqton Müqaviləsinin 5-ci maddəsinə müraciət etmək və 11 sentyabr 2001-ci il hadisələrindən sonra Birləşmiş Ştatlara öz yardım əlini uzatmaq barədə NATO tərəfindən qəbul edilmiş tarixi qərar Alyansın fəaliyyətinin demək olar ki, hər bir sahəsinə toxunan NATO-nun transformasiya prosesi üçün təkan oldu.

Terrorçuluqla mübarizə ilə yanaşı, bir çox digər amillər də Alyansın strukturunun və siyasətinin uyğunlaşmasına olan ehtiyacı gücləndirdi. Buraya kütləvi qırğın silahlarının törətdiyi artmaqda olan təhlükə və gərgin bölgələrdə yeni operativ imkanlara olan tələbat daxildir. NATO-nun genişlənməsi tələbi, o cümlədən Rusiya, Ukrayna və tərəfdaş dövlətlərlə tərəfdaşlığın inkişaf etməkdə olan rolu, Aralıq Dənizi Dialoqu və İstanbul Əməkdaşlıq Təşəbbüsünün əhəmiyyəti və Avropa İttifaqı ilə strateji əməkdaşlıq da öz təsirini göstərdi. NATO-nun Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrində rəhbər rolu və Balkanlarda davam edən rolu Təşkilatın özünü bu əməliyyatların, eləcə də İraq və Sudandakı missiyaların və Pakistanda xilasetmə cəhdlərinin tələblərinə cavab vermək üçün uyğunlaşdırmasına səbəb oldu.

Transformasiya prosesini həyata keçirmək üçün həyata keçirilməli olan bir çox dəyişikliklər NATO-nun 2002-ci il 21-22 noyabr Praqa Zirvə Görüşündə təqdim olundu və 2004-cü il 28-29 iyun İstanbul Zirvə Görüşündə davam etdirildi. 5 əsas sahəyə toxunuldu: Alyansa üzvlük, NATO-nun mülki və hərbi strukturlarında islahat, yeni rolların qəbulu, yeni imkanların inkişafı və yeni əlaqələrin təbliğ edilməsi.

Yeni üzvlərin qəbulu

1999-cu ildə ilk 3 Şərqi Avropa dövlətinin qəbulu Alyansın həmin ilin aprelində Vaşinqton Zirvə Görüşündə qeyd olunan 50-ci ildönümünə təsadüf etdi. Bunun davamı olaraq 2004-cü ildə NATO-nun yarandığı vaxtdan bəri ən böyük genişlənmə dalğası ilə yeddi yeni üzv dövlət təşkilata qəbul olundu. Bu Alyansın beşinci genişlənmə dövründən sonra ilk dəfə olaraq 26 üzv dövlətin rəhbərlərinin bir araya gəldiyi İstanbul Zirvə Görüşündə baş verdi. Müttəfiq liderləri yenidən təsdiqlədilər ki, Vaşinqton Müqaviləsinin 10-cu maddəsinə müvafiq olaraq NATO-nun qapıları üzvlük məsuliyyətini və vəzifələrini öz üzərinə götürmək istəyən və buna qadir olan Avropa demokratiyası üçün açıq olacaq. 2009-cu ildə Alyans daha 2 ölkəni – Albaniya və Xorvatiyanı öz sıralarına qəbul etdi.

NATO-nun mülki və hərbi strukturlarının islahatı

Genişlənmə prosesi Brüsseldəki siyasi qərargahda ehtiyac duyulan fiziki iş yerinə də öz təsirini göstərdi və 1999-cu ildə yeni, daha geniş qərargahın inşa edilməsi razılaşdırıldı. Bundan əlavə, 2002-ci ildə Beynəlxalq Heyət və Beynəlxalq Hərbi Heyəti Alyansın yeni missiyalarına və prioritetlərinə uyğunlaşdırmaq üçün bir sıra daxili islahatlar həyata keçirildi.

Paralel olaraq NATO-nun hərbi komandanlıq strukturu Alyansın düşüncəsindəki əsaslı dəyişikliklərə uyğun olaraq tamamilə yenidən təşkil olundu. Komandanlıq strukturu əvvəllər, bir strateji komandanlıq Avropanı, digəri isə Şimali Amerikanı əhatə etməklə iki əsas coğrafi əraziyə bölünmüşdü. Bu komandanlıqlar Müttəfiq Əməliyyatlar Komandanlığı (ACO) adlanan operativ komandanlıq və Müttəfiq Transformasiya Komandanlığı (ACT) adlanan funksional komandanlıqla əvəz olundular. Müttəfiq Əməliyyatlar Komandanlığı (ACO) bütün NATO əməliyyatları üçün strateji komandanlıq olduğu halda, Müttəfiq Transformasiya Komandanlığı (ACT) isə NATO-nun hərbi imkanlarının davamlı transformasiyasına və qarşılıqlı uyarlığının yüksəldilməsinə görə məsuliyyət daşıyır. Komandanlıq strukturunun Soyuq Müharibənin sonundan etibarən artıq əhəmiyyətli şəkildə dəyişməsinə baxmayaraq, bu islahat yeni ehtiyaclar müəyyən olunduqca davamlı şəkildə hərbi imkanların transformasiyasının asanlaşdırılmasına sistemli şəkildə vurğu etmək imkanına malik strukturla təmin etmişdir. Əslində onun rolu vəzifələrini həyata keçirmək üçün Alyansa zəruri olan imkanlara yiyələnmək və yeni öhdəliklərə cavab verə biləcək qüvvələrin NATO üçün tez və etibarlı şəkildə əldə olunmasını təmin etməkdən ibarət olmalıdır.

NATO-nun hərbi əməliyyatlarının geniş miqyası

NATO tərəfindən həyata keçirilən əməliyyatların miqyası onun ilk dəfə olaraq 1990-cı illərin əvvəllərində Bosniya və Herseqovinada sabitliyin bərpasına cəlb olmasından etibarən əhəmiyyətli dərəcədə artmışdır. O vaxtdan etibarən NATO ənənəvi səlahiyyəti çərçivəsi daxilində və xaricində bir sıra sülhün qorunması əməliyyatlarını öz üzərinə götürdü və terrorçuluqdan irəli gələn və artmaqda olan təhdidin qarşısını almaq üçün öz səylərini artırdı.

Balkanların sabitləşməsinə yardım

NATO-nun cənub-şərqi Avropadakı uzunmüddətli sabitlik üzrə öhdəliyinin əvvəlki kimi güclü olaraq qalmasına baxmayaraq, keçmiş Yuqoslaviyadakı rolunun təbiəti dəyişir. Məqsəd regionda təhlükəsiz mühiti bərpa etmək və cənub-şərqi Avropanın Avro-Atlantika strukturlarına inteqrasiyası istiqamətində öz tərəfdaşları ilə işləməkdir. Bu, davamlı çoxmillətli demokratiyanın qurulması, mütəşəkkil cinayətkarlıq və korrupsiyanın kökünün kəsilməsi, hüququn aliliyinin əsasının qoyulması, regional əməkdaşlıq və keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalı da daxil olmaqla beynəlxalq öhdəliklərlə tam uyğunlaşmaya çağırır.

2002-ci il noyabrında Praqa Zirvə Görüşündə Alyans regionda mövcudluğunu saxlamaq niyyətini və ölkələrə fərdi yardım proqramları vasitəsilə kömək etməyə hazır olduğunu təsdiq etdi. Bosniya və Herseqovina, Serbiya və Monteneqro NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramında iştirak etmək arzularını bəyan etdilər və keçmiş Yuqoslaviya Respublikası Makedoniya* Albaniya və Xorvatiya ilə birgə gələcək potensial üzvlüyə hazırlıq üçün NATO-nun Üzvlük Fəaliyyət Planına qoşuldular.

Əsrin dəyişməsi ilə bir vaxtda NATO Avro-Atlantika məkanındakı əməliyyatları öz üzərinə götürdü. Bununla belə, 14-15 May 2002-ci ildə İslandiya, Reykyavikdəki görüşdə NATO məsuliyyəti altında olan ənənəvi məkandan kənarda olan əməliyyatlarda iştirak etmək üçün hazır olduğunu qeyd edərək Rubikonu keçdi. Bu qərar Alyans üçün sonradan Əfqanıstan, İraq, Sudan və Pakistanda baş verən yeni təhdidlər və imkanlara yol açdı.

Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (ISAF) Rəhbərlik

Nyu-York və Vaşinqtonda baş vermiş terror aktlarından dərhal sonra Birləşmiş Ştatlar Əfqanıstanda terroristlər əleyhinə, 2 ay sonradan BMT mandatlı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) tərəfindən tamamlanmış, Azadlığı Dəstək Əməliyyatına başladı. ISAF-ın başlıca məqsədi Əfqanıstanı, onun ərazisini terrorçu təlimləri üçün münbit şəraitə çevirmiş 40 ilə yaxın hökm sürən avtoritar idarəçilikdən, xarici işğaldan və vətəndaş müharibəsindən xilas etməkdir. İlk növbədə ayrı-ayrı dövlətlər NATO-nun texniki dəstəyi ilə qüvvələrə komandanlıq etməyi rotasiya əsasında öz öhdələrinə götürdülər. Bununla belə, NATO 2003-cü ilin avqustunda davamlılıq problemini həll edərək ona rəhbərlik məsuliyyətini tamamilə öz üzərinə götürdü. 2003-cü ilin payızında BMT Təhlükəsizlik Şurası ISAF əməliyyatının Əyalət Bərpa Qrupları vasitəsilə Kabuldan kənarda yerləşən ərazilərdə yayılmasına imkan verən yeni qətnamə qəbul etdi.

NATO Əfqanıstanın müxtəlif hissələrində artmaqda olan Əyalət Bərpa Qrupları proqressiv şəkildə öz üzərinə götürür və baxmayaraq ki, BMT mandatı ISAF missiyasının azad və ədalətli seçkilərə imkan verən sağlam və təhlükəsiz mühitin yaradılması, hüququn aliliyinin genişlənməsi və ölkənin bərpa olunmasında Əfqanıstan Hökumətinə yardımdan ibarət olduğunu aydın şəkildə əsas şərt kimi qoyur, bu NATO-nun terrorçuluqla mübarizə səylərinin bir hissəsi kimi hesab oluna bilər. Xüsusilə də bir sıra NATO dövlətlərinin hər iki əməliyyatı qüvvə və təchizatla təmin etməsindən sonra, Azadlığa Dəstək Əməliyyatı və ISAF arasında birgə fəaliyyətin nə dərəcədə əldə oluna biləcəyinin araşdırılması üzrə müzakirələr aparılır.

İraqda təlim missiyasının yaradılması

NATO İraqa müxtəlif formada dəstək göstərməyi öz üzərinə götürüb. 2002-ci il 8 noyabrda BMT Təhlükəsizlik Şurası kütləvi qırğın silahlarına malik olmaqda şübhəli sayılan İraqa son şans verən və Təhlükəsizlik Şurasının əvvəlki qətnamələrində dəfələrlə öz əksini tapmış tərksilahla bağlı öhdəliklərini yerinə yetirməyi təklif edən 1441 saylı qətnaməni qəbul etdi. 21-22 noyabrda Praqa Zirvə Görüşündə qəbul olunmuş xüsusi bir bəyannamədə NATO liderləri də bu qətnamənin həyata keçirilməsinə dəstək olacaqlarını vəd etdilər. Buna baxmayaraq, İraq rəhbəri Səddam Hüseyn bu öhdəliyə əməl etmirdi və bu Şura üzvləri arasında şübhələrin baş qaldırmasına səbəb oldu. Bu şübhələr onların bir qisminin təxirəsalınmaz hərbi addımları dəstəkləməyə, digərlərini isə silahlara nəzarət üzrə müfəttişlərə öz işlərini

aparmaq üçün daha çox vaxt verməkdə təkid etməyə tələsdirdi. Beynəlxalq fikir müxtəlifliyi NATO-da da özünü göstərdi, və bu arada Türkiyə Hökuməti İraqdan təhlükənin gəlməsi halında Şimali Atlantika Müqaviləsinin 4-cü maddəsi çərçivəsində məsləhətləşmələri tələb etdi. Gərgin müzakirələrdən sonra Türkiyəyə Qarşısını almanın Nümayişi Əməliyyatına uyğun olaraq kömək etmək üçün müdafiə tədbirləri həyata keçirildi.

Birləşmiş Ştatlar 2003-cü ilin martında İraqın Azadlığı Əməliyyatına başladı və Səddam Hüseyn rejimini devirdi. Polşa İraqda istifadə olunan beynəlxalq sabitləşdirmə qüvvələri çərçivəsində çoxmillətli diviziya yaratmaq məsuliyyətini öz üzərinə götürməyə razılıq verdi və 2 iyun 2003-cü ildə Şimali Atlantika Şurası bir sıra sahələrdə bu əməliyyatı dəstəkləməklə bağlı Polşanın sorğusunu müsbət cavablandırdı.

Bir il sonra NATO liderləri İraq Müvəqqəti Hökumətinin təhlükəsizlik qüvvələrinə təlim keçməkdə köməklik göstərməyə razılıq verdilər və NATO-nun Təlim Həyata Keçirmə Missiyası yaratdılar. Döyüş qüvvələrinin cəlb olunduğu əməliyyat missiyalarından fərqli olaraq, NATO-nun təlim missiyası İraq hakimiyyəti, o cümlədən Birləşmiş Ştatların İraqdakı çoxmillətli qüvvələri ilə yaxından işləyir. Missiyanın özünün təhlükəsizliyinin və müdafiəsinin bir qismi Çoxmillətli Qüvvələr, digər qismi isə NATO tərəfindən təmin olunur. O vaxtdan etibarən digər tədbirlər də görülmüşdür. Bunların sırasına NATO tərəfindən dəstəklənən İraq təhlükəsizlik heyəti üçün liderlik təlimi üzərində diqqətini cəmləşdirən Təlim, Təhsil və Doktrina Mərkəzinin yaradılması, müxtəlif üzv dövlətlər tərəfindən həm İraq daxilində, həm də onun xaricində ikitərəfli şəkildə təmin olunan təlimlərin əlaqələndirilməsinə NATO-nun dəstəyi də daxildir.

Sudanda Afrika Birliyinin maddi-texniki təchizatla təmin olunması

Bu yaxınlarda, 2005-ci ilin aprelində Afrika Birliyi Komissiyasının sədri cənab Alfa Omar Konaré NATO Baş Katibinə Sudanda Darfurun qərb regionunda Afrika Birliyinin sülhün qorunması qüvvələrinin regionda davam edən zorakılıqları dayandırmaq cəhdlərinin genişlənməsinə NATO-nun kömək göstərməsi ilə bağlı müraciət etmişdir. Alyans 9 iyunda NATO müdafiə nazirlərinin Brüsseldəki görüşündə rəsmi olaraq hava daşıması və təlimlə dəstəyini elan etdi və 1 iyulda ilk hava daşıması əməliyyatlarına başladı. Bundan əlavə 2005-ci ilin oktyabrında Pakistan hökumətinin müraciətinə əsasən NATO Pakistanın zəlzələdən zərər çəkmiş regionlarına yardım daşımaq üçün hava körpülərinə başladı. Daha sonra NATO müvəqqəti əsaslarla mühəndisləri, çoxmillətli tibbi qruplarını və açıla bilən qərargahları da göndərdi.

Terrorçuluğa qarşı mübarizə

Müttəfiq hökumətlər bilavasitə beynəlxalq terrorçuluqdan irəli gələn və artmaqda olan təhlükə ilə qarşılaşmaq üçün fərdi və kollektiv səyləri qismində həmçinin, NATO tərəfindən Aralıq dənizində keçirilən Fəal Cəhd Əməliyyatı və Qartal Yardım Əməliyyatı ilə yanaşı, Balkan regionundakı terrorçu fəaliyyəti azaltmaq məqsədi daşıyan və NATO qüvvələri tərəfindən quruda həyata keçirilən təşəbbüslər irəli sürmüşlər.

Fəal Cəhd Əməliyyatı Aralıq dənizində terrorçu fəaliyyəti aşkar etmək və onun qarşısını almaq üçün NATO-nun dəniz qüvvələri tərəfindən aparılan dəniz əməliyyatıdır. Əməliyyat 2001-ci ilin oktyabrında başlanmış və müvəffəqiyyət və effektivliyinə görə daha iki hala tətbiq edilmişdir - birinci 2003-cü ilin mart ayında Cəbəllüttariq boğazı, daha sonra 2004-cü ilin mart ayında bütün Aralıq dənizinə. İlkin əməliyyat şərqi Aralıq dənizi ilə məhdudlaşırdı.

Qartal Yardım Əməliyyatı 11 Sentyabr hadisələri nəticəsində Birləşmiş Ştatlar tərəfindən tələb olunan tədbirlərdən biri idi. NATO-nun AWACS (Hava Xəbərdarlığı və Nəzarəti Sistemi) tipli təyyarəsi Amerika hava məkanına 2001-ci il ortalarından 2002-ci il mayın ortalarına qədər yeddi ay müddətində nəzarət etdi. 13 NATO ölkəsindən təxminən 830 ekipaj üzvü 4300 saata yaxın və 360-dan çox əməliyyat uçuşları etdilər.

NATO-nun Hava Xəbərdarlığı və Nəzarəti Sistemi təyyarəsi hədəf təyyarələri kimi adlanan təyyarələrin istifadəsi ilə növbəti terrorçu hücumlarının mümkünlüyünə qarşı bir sıra müdafiə hallarında istifadə edilmişdir və başlıca NATO və Aİ tədbirləri əlavə müdafiə tələb etdiyi hallarda onlardan adi qaydadan daha çox istifadə olunmuşdur. Müvafiq hökumətlərin müraciəti ilə, Portuqaliyada Avropa Futbol Çempionatının və Yunanıstanda Olimpiya Oyunlarının keçirilməsi ilə əlaqədar 2004-cü ilin iyulunda təhlükəsizliyin müdafiəsi daha da genişləndirildi.

NATO-nun hərbi imkanlarının müasirləşdirilməsi

NATO hərbi əməliyyatlarının genişlənmiş miqyası Alyansın hər-bi tələblərini kəskin şəkildə dəyişdirmişdir. Keçmişin geniş müdafiə qüvvələrinin çevik, mobil və normal əməliyyat bazalarından uzaq məsafələrə işləmək qabiliyyəti olan kiçik miqyaslı böhrana cavab əməliyyatları ilə dəyişdirilməsinə ehtiyac yarandı.

Praqa Zirvə Görüşündə üzv hökumətlər NATO-nun 21-ci əsrin təhlükəsizlik təhdidlərinə effektiv cavab verməsini təmin etmək üçün hazırlanmış müasirləşdirmə prosesinə başladılar. Alyansın hərbi operativ bacarıqlarını gücləndirmək üçün tədbirlər paketi razılaşdırıldı. Buraya Praqa İmkanları Öhdəliyi adlanan yeni imkanlar təşəbbüsü, NATO Cavab Qüvvəsinin yaradılması və Alyansın hərbi komandanlıq strukturunun müasirləşdirilməsi daxil idi. Bunlar NATO hərbi imkanlarının uyğunlaşdırılması üçün vacib olan üç əsas hərbi transformasiya təşəbbüsləridir.

Bundan əlavə, NATO dövlət və hökumət başçıları kəşfiyyat məlumatlarının bölgüsü və böhrana cavab tədbirlərində səylərin artırılması, həmçinin terrorçuluğun nəticələrinin aradan qaldırılmasına yardım sahəsində, kimyəvi, bioloji və ya radioloji (CBR) maddələr vasitəsilə mümkün hücumlara qarşı mülki hazırlıq üçün mülki fövqəladə planlaşdırma (CEP) fəaliyyət planının həyata keçirilməsi daxil olmaqla, Tərəfdaş dövlətlərlə Terrorçuluğa qarşı Tərəfdaşlıq Fəaliyyət Planı çərçivəsində daha geniş əməkdaşlığı tələb etdilər. Beş nüvə, bioloji və kimyəvi (NBC) silahlarından müdafiə təşəbbüsləri təsdiq edildi: açılabilən NBC analitik laboratoriyası, NBC tədbirlərinə cavab verə bilən komanda, NBC Silahlarından Müdafiə üzrə təcrübənin artırılması üçün virtual Mərkəz, bioloji və kimyəvi hücumlardan NATO-nun müdafiə ehtiyatları və xəstəlikləri müşahidə sistemi. Digər təşəbbüslərə çoxmillətli CBRN taborlarının yaradılması, kiber hücumlara qarşı müdafiə və Alyansın ərazisini, qüvvələrini və məskunlaşma mərkəzlərini raket təhlükəsindən qoruma variantlarını öyrənmək üçün yeni NATO Raket Hücumundan Müdafiə Vasitələri üzrə İşlərin (MDFS) başlaması daxil oldu.

Praqa İmkanları Öhdəliyi həyata keçirilməsi təhlükəli ərazilərdə strateji dəniz və hava daşması, havada yanacaq doldurma və Alyansın yer nəzarət sistemi kimi mühüm sahələrdə hərbi imkanlarının genişləndirilməsi məqsədi daşıyan bir sıra çoxmillətli layihələrin başlanması ilə 2004-cü il iyun ayında İstanbul Zirvə Görüşündə davam etdirilmişdir. Alyansın əməliyyatlarında öz qüvvələrinin böyük hissəsinin dözümlülük və istifadə qabiliyyətini həmişə saxlamaqla bağlı üzv dövlətlərin öhdəliklərini əks etdirən “Praktikilik” məqsədləri təsdiq olundu. NATO-nun müdafiə planlaşdırılması və ordu varisliyi proseslərində dəyişikliklər elan edildi. Bu, o dəyişiklikləri həyata keçirmək üçün lazım olan qüvvələrin təmin edilməsi əməliyyatını başlamaq üçün siyasi saziş bağlamaq məqsədilə edilmişdir. Buna baxmayaraq, terrorçuluqdan doğan təhdidlərə qarşı mübarizə aparmaq üçün təkmil tədbirlərin inkişaf etdirilməsi, iflasa uğrayan ölkələr və kütləvi qırğın silahlarının dövlət və qeyri-dövlət aktorları tərəfindən yayılması kimi vacib problemlər qalmaqdadır.

NATO rəhbərləri həm mülki, həm də hərbi qüvvələri terror hücumlarından qorumaq üçün yüksək texniki imkanları inkişaf etdirmək razılığına gəldilər. Bu imkanlara kütləvi qırğın silahlarına qarşı müdafiə, iri füzelajlı təyyarələrin raketlərdən qorunması, vertolyotlara qarşı yerdən gözlənilən təhlükələrdən müdafiə, limanların və gəmilərin qorunması, improvizasiya edilmiş partlayıcı qurğulara qarşı müdafiə və təkmilləşdirilmiş minaların tapılması daxildir. Bundan əlavə kəşfiyyat məlumatlarının bölgüsünü təkmilləşdirmək və NATO-nun hal-hazırkı kəşfiyyat strukturlarına yenidən baxış həyata keçirməklə bağlı razılıq əldə olundu. 11 Sentyabr ABŞ-a qarşı terror hücumlarından sonra yaradılmış Terror Təhlükəsizliyinə qarşı Kəşfiyyat Birliyinə verilmiş mandat daimi saxlanıldı və NATO-nun xüsusilə hədəfə aldığı terror təhlükələrindən əlavə bütünlüklə terror təhlükələrinin təhlilini əhatə etmək üçün genişləndirildi. Bundan başqa NATO hökumətləri təşkilatın istənilən üzv dövlətə terror təhlükələri və ya terror hücumlarının nəticələri ilə bağlı kömək göstərmək qabiliyyətini yüksəltmək üçün razılıq əldə etdilər. NATO-nun AWACS tipli təyyarəsi, Təbii Fəlakətlərin Cavablandırılması üzrə Avro-Atlantika Əlaqələndirmə Mərkəzi və Çoxmillətli Kimyəvi, Bioloji, Radioloji və Nüvə Silahlarından Müdafiə Taboru kimi vasitə və imkanları kömək üçün müraciət etmiş üzv dövlətlərə təqdim edilə bilər.

Tərəfdaşlıqların gücləndirilməsi və genişləndirilməsi

Bugünkü təhlükəsizlik mühitində, xüsusilə də terrorçuluq və kütləvi qırğın silahlarının yayılması ilə mübarizə sahəsində böyük həmrəyliyə olan ehtiyacla əlaqədar olaraq, NATO-nun Tərəfdaşlıq siyasəti çoxsaylı dövlətlər və beynəlxalq qurumlarla daha yaxın və daha effektiv münasibətlərin qurulması yolu ilə davamlı olaraq genişləndirilmişdir. Buraya Avro-Atlantika məkanında Tərəfdaş dövlətlər, geniş Aralıq Dənizi regionu ölkələri, Yaponiya, Avstraliya, Pakistan və Çin kimi “əlaqə dövlətləri” və Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Birləşmiş Millətlər kimi beynəlxalq təşkilatlar daxildir. Bu siyasətlər güclü əməkdaşlığın təklif edə biləcəyi beynəlxalq təhlükəsizliyə olan böyük töhfəni ön plana çəkmişdir.

NATO - Rusiya əlaqələri

NATO-Rusiya tərəfdaşlığının ümumi təhlükəsizlik problemlərinə ortaq yanaşma tapmaq istiqamətində inkişafı da NATO-nun transformasiya gündəminin əhəmiyyətli elementlərindən biri hesab olunur. 2002-ci ilin mayında NATO-Rusiya Şurasının yaradılması terrorçuluqdan müdafiə,

müdafiə sahəsində islahatlar, kütləvi qırğın silahlarının yayılmaması, hərbi əməkdaşlıq və təlim, mülki fövqəladə planlaşdırma, raketlərdən müdafiə və mümkün yeni birgə sülhün qorunması əməliyyatların hazırlanması kimi fəaliyyətlərdə cəmlənən daha praqmatik əlaqələrin başlanğıcını qoydu.

NATO - Ukrayna əlaqələri

Ukraynaya münasibətdə, NATO müttəfiqləri bu dövləti onun Avro-Atlantika təhlükəsizlik strukturlarına tam inteqrasiyası kimi uzunmüddətli məqsədinə nail olması üçün əhəmiyyətli ola biləcək vacib islahatları aparmaq və zəruri tədbirlər görməyə həvəsləndirirlər. 2004-cü il noyabr Narıncı İnqilabı bu prosesi tezləşdirmək ümidini sürətləndirdi və ölkənin NATO-ya üzvlüyə can atmasına cavab olaraq, xarici işlər nazirləri 2005-ci ilin aprelində Ukrayna ilə İntensiv Dialoqa başladılar. Buna baxmayaraq, onlar demokratik islahatda ardıcıl və ölçülə bilən irəliləyişə olan ehtiyacı bir daha qeyd etdilər və təkrar etdilər ki, irəliləyişin sürəti Ukraynanın əlindədir.

Tərəfdaş dövlətlərlə münasibətlər

Yeddi keçmiş tərəfdaş dövlət 2004-cü ilin martında NATO-ya üzv olduqdan sonra, Avro-Atlantika Tərəfdaşlıq Şurası və Sülh Naminə Tərəfdaşlıq çərçivəsində əməkdaşlıq edən tərəfdaş dövlətlərlə üzv dövlətlər arasında tarazlıq əhəmiyyətli dərəcədə dəyişdi. Bundan başqa, qalan tərəfdaş dövlətlər müxtəlif regionlardadır və çox fərqli təhlükəsizlik tələbləri var. Bəziləri gələcəkdə NATO üzvlüyünə namizəd olaraq qaldığı halda, digərləri gələcəkdə üzv olmaq planları qurmayaraq NATO ilə xüsusi inkişaf proqramlarını inkişaf etdirmək niyyətlərini nümayiş etdirmişlər. Bu tərəfdaşlıqların keyfiyyəti təkmilləşdirilmiş və onların imkanları genişləndirilmişdir. Eyni zamanda, Alyans Qafqaz və Mərkəzi Asiyaya olan diqqətini artırmışdır və bu bölgələrdə Tərəfdaş dövlətlərlə yaxın əməkdaşlığı inkişaf etdirmək istiqamətində praktiki addımlar atır. Bu addımlara həmçinin, hər iki regiona NATO-nun xüsusi nümayəndəsinin və bölgələrin hər birinə əlaqələndirici zabitlərinin təyin olunması da daxildir.

Aralıq Dənizi Dialoqu

1994-cü ildə yaradılmasından etibarən Aralıq Dənizi Dialoqu NATO və yeddi iştirakçı ölkə - Əlcəzair, Misir, İsrail, İordaniya, Mavritaniya, Mərakeş və Tunis arasında etimadın qurulması və əməkdaşlığa töhfə vermişdir. Bu proqramın siyasi və praktiki ölçüləri terrorçuluq daxil olmaqla ümumi maraq

doğuran təhlükəsizlik məsələləri üzrə effektiv qarşılıqlı fəaliyyətin təbliği üçün mütərəqqi şəkildə təkmilləşdirilmiş və beləliklə də, əlaqələr dialoqdan tərəfdaşlığa doğru irəliləmişdir.

İstanbul Əməkdaşlıq Təşəbbüsü

2004-cü ilin iyununda İstanbulda Alyans rəhbərləri həm də İstanbul Əməkdaşlıq Təşəbbüsünü irəli sürdülər. Bu, maraqlı ölkələrlə praktiki əməkdaşlığı inkişaf etdirmək üçün Körfəz Əməkdaşlıq Şurası ölkələrindən başlamaqla geniş Orta Şərq regionuna çatmaq məqsədi daşıyır. Təşəbbüsün diqqət mərkəzi müdafiə islahat, müdafiə büdcəsi, müdafiə planlaşdırılması və mülki-hərbi əlaqələr kimi məsələlər üzrə hər bir ölkənin spesifik tələblərinə müvafiq məsləhətlər təklif etməkdir. Təşəbbüs həmçinin, "hərbi-hərbiyə" əməkdaşlığın inkişafı, məlumat mübadiləsi və dəniz əməkdaşlığı vasitəsilə terrorçuluqla mübarizə, kütləvi qırğın silahlarının yayılması və onun daşınması vasitələrinə qarşı mübarizə məsələlərini əhatə edir.

Digər beynəlxalq təşkilatlarla iş

İnstitusional səviyyədə Birləşmiş Millətlər, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi beynəlxalq təşkilatlar bütün mümkün vasitələrlə terrorçuluq kimi təhlükənin qarşısını almaq üçün ayrıca bir təşkilatın vasitələrinə arxalanmaq əvəzinə bu səyləri birləşdirməyə olan ehtiyacı qəbul edirlər.

NATO - Avropa İttifaqı münasibətləri çox qısa müddət ərzində sürətli inkişaf edib. 2002-ci il 16 dekabrda Avropa İttifaqı və NATO Avropa Təhlükəsizlik və Müdafiə Siyasəti (ESDP) üzrə böhranların idarə olunması və münaqişələrin qarşısının alınması sahəsində əməkdaşlığın formal əsasını təmin edən birgə bəyannamə qəbul etdilər. 13 dekabr 2003-cü ildə Şimali Atlantika Şurasının üzv dövlətləri NATO-nun bütövlükdə hərbi cəhətdən cəlb olunmadığı əməliyyatlarda Avropa İttifaqına Alyansın kollektiv fəaliyyət və imkanlarından yararlanmaq üçün yol açmaq mövqeyində olduqlarını bəyan etdilər və bu qərarla bağlı bir sıra müvafiq tədbirlər elan etdilər. Bu qərarlar hər iki təşkilatın NATO tərəfindən 2003-cü ildə keçmiş Yuqoslaviya Respublikası Makedoniyada* və 2004-cü ilin dekabrından Bosniya və Herseqovinada aparılan hərbi əməliyyatların Avropa İttifaqının öhdəliyinə keçirilməsinin dəqiq detallarını işləyib hazırlaması üçün əsas yaratdı.

Nəticə

Ortaq dəyərləri, onları müdafiə etmək üçün ümumi qətiyyəti və lazımi imkanların istənilən yerdə və istənilən vaxtda əldə edilməsini mümkün etmək üçün inkişaf etdirilmiş tədbirləri olan hökumətlərarası bir təşkilat kimi NATO bu günün təhlükəsizlik problemləri üzərində diqqətini cəmləyə bilir. Balkanlarda və Əfqanıstanda aparılan əməliyyatlar, İraq və Darfurdakı tədbirləri, qeyri-NATO dövlətləri və digər təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıqlarının artan gücü onun davam edən səmərəliliyini nümayiş etdirir.

Buna baxmayaraq, problemlərdən qorxma qalmaqdadır. 2004-cü ilin yanvarında NATO-nun yeni baş katibi vəzifə öhdəliklərini həyata keçirməyə başlamış Yaap de Hoop Sxeffer bu problemlər ünvanlanarkən nəyə xüsusi əhəmiyyət verməyin lazım olduğunu qeyd etmişdir: Alyansın xüsusilə Kosovo və Əfqanıstanda hazırkı əməliyyatlarının müvəffəqiyyətlə həyata keçirilməsi, Alyansın rolunun İraqda artırılması barədə üzv dövlətlərin istənilən qərarına görə məsuliyyət, transformasiya prosesinin həyata keçirilməsinin davam etdirilməsi və praqmatik, realistik və etibarlı transatlantika əlaqələrinin qurulması.

II HİSSƏ

SİYASƏT və QƏRARLARIN QƏBUL EDİLMƏSİ

1-ci Fəsil: Əsas siyasət və qərar qəbul edən təsisatlar

2-ci Fəsil: Böhranların idarə edilməsi

3-cü Fəsil: Müdafiənin planlaşdırılması sahəsi

4-cü Fəsil: Ümumi maliyyə resursları, büdcə, maliyyənin idarə edilməsi

5-ci Fəsil: Nüvə siyasəti

6-cı Fəsil: İqtisadi sahə

1-ci Fəsil

ƏSAS SİYASƏT VƏ QƏRAR QƏBUL EDƏN TƏSİSATLAR

Alyansda konsensus əsasında qərar qəbul etmə prinsipi tətbiq edilir və bu da onu göstərir ki, qərarı qəbul edənlər üzv dövlətlərdir və onların hər biri qərar qəbul etmə prosesinə cəlb olunmuşlar. Bu prinsip Təşkilatın hər bir səviyyəsində tətbiq edilir.

Alyansın əsas siyasət və qərar qəbul edən institutları Şimali Atlantika Şurası, Müdafiə Planlaşdırma Komitəsi və Nüvə Planlaşdırma Qrupudur. Bunların hər biri NATO-nun təmsil etdiyi üzv dövlətlər arasında əməkdaşlığın, birgə planlaşdırmanın, birgə təhlükəsizliyin təməli olan məsləhətləşmə və qərar qəbul etmə prosesində mühüm rol oynayır.

Bu orqanların hər birinin qəbul etdiyi qərarlar hansı səviyyədə qəbul edilməsindən asılı olmayaraq eyni statusa malikdir və üzv dövlətlərin razılaşdırılmış siyasətini əks etdirir. Öz dövlətlərini təmsil edən rəsmilərdən ibarət ixtisaslaşmış komitələr bu baş orqanlara tabedir. Bu komitə strukturu hər bir üzv dövlətin NATO fəaliyyətinin istənilən sahə və səviyyəsində iştirak etmək imkanından əmin olaraq Alyansı məsləhətləşmə və qərar qəbul etmə imkanları verən əsas mexanizmlə təmin edir.

Konsensus əsasında qərar qəbul etmə

NATO qərarları üzv dövlətlər arasında müzakirə və məsləhətləşmələrdən sonra konsensus əsasında qəbul edilir. Konsensus əsasında verilmiş qərar ümumi razılıqla əldə olunmuş və hər bir üzv dövlətin dəstəklədiyi sazişdir. Bu o deməkdir ki, NATO-da qərar qəbul edilibsə, o Alyansın üzvü olan suveren dövlətlərin kollektiv iradəsinin ifadəsidir. Məhz bu qərar qəbul etmə prosesi NATO-ya güc və etibar qazandırır.

Fikir ayrılığı olduqda müzakirələr qərar qəbul edilənə qədər davam edir və bəzi hallarda bu qərar razılığın qeyri-mümkün olmasını qəbul etməkdən də ibarət ola bilər. Ümumiyyətlə, buna baxmayaraq, adətən qarşılıqlı münasib həll yolları tapılır. Proses sürətlidir, çünki üzvlər davamlı olaraq məsləhətləşirlər və çox vaxt əvvəlcədən digərlərinin mövqeyini bilir və anlayırlar. Məşvərət qərar qəbul etmə prosesinin mühüm hissəsidir. Bu, əsas məqsədi kollektiv şəkildə qəbul edilmiş qərarların onların milli maraqlarına uyğun olmasını təmin etmək olan üzvlər arasında münasibəti asanlaşdırır.

Şimali Atlantika Şurası

Şimali Atlantika Şurası (NAC) səmərəli siyasi hakimiyyətə və qərar vermə səlahiyyətinə malikdir və bütün üzv dövlətlərin həftədə bir dəfədən az olmayaraq görüşən daimi nümayəndələrindən ibarətdir. Şura həmçinin, xarici işlər nazirləri, müdafiə nazirləri və dövlət və hökumət başçılarının daxil olduğu daha yüksək səviyyələrdə də görüşür. Lakin bu səviyyədə də o, eyni hakimiyyətə və qərar qəbul etmə səlahiyyətinə malikdir və onun qərarları hansı səviyyədə görüşməsindən asılı olmayaraq eyni statusa və qüvvəyə malikdir. Şuranın mühüm ictimai profili var və Alyansın siyasət və qərarlarını ictimaiyyətə və NATO-ya üzv olmayan dövlətlərin hökumətlərinə izah edən bəyannamə və kommünikelər qəbul edir.

Şura Alyansda hakimiyyətinin aşkar mənbəyi Şimali Atlantika Müqaviləsi olan yeganə orqandır. Köməkçi orqanları yaratmaq vəzifəsi müqaviləyə əsasən şuranın özünə verilmişdir. Bir çox komitələr və planlaşdırma qrupları Şuranın işinə dəstək olmaq və ya hərbi planlaşdırma, nüvə planlaşdırılması, hərbi məsələlər kimi spesifik sahələr üzrə məsuliyyəti öz üzərinə götürmək üçün yaradılmışdır.

Beləliklə, Şura üzv hökumətlər arasında onların təhlükəsizliyinə toxunan bütün məsələlər üzrə hərtərəfli məsləhətləşmələr üçün özünəməxsus forum rolunu oynayır və NATO-da ən mühüm qərar qəbul etmə orqanıdır. NATO-nun bütün üzv dövlətləri Şuranın masasının arxasında fikirlərini ifadə etməkdə bərabər hüquqlara malikdirlər. Qərarlar üzv hökumətlərin ümumi razılıqla əldə etdikləri kollektiv iradənin ifadəsidir. Bütün üzv hökumətlər Şurada və ya onun hakimiyyəti altında formalaşdırılmış siyasətə tərəfdaşdırlar və qərarların əsaslandığı konsensusu bölüşürlər.

Şuranın üzv dövlətlərin səfirləri və ya daimi nümayəndələri səviyyəsində görüşü çox zaman “Daimi Şura” adlandırılır. İldə iki dəfə və bəzən daha tez-tez o rəsmi və ya qeyri-rəsmi sessiyalarda nazirlər səviyyəsində görüşür. Bu görüşdə hər bir dövlət xarici işlər naziri ilə təmsil olunur. Şuranın iclasları, həmçinin müdafiə nazirlərinin sessiyası formasında da baş tutur. Xüsusi əhəmiyyətli məsələlərin müzakirəsinə zərurət yarandıqda və ya Alyansın təhlükəsizlik siyasətinin təkmilləşdirilməsi ilə bağlı konstruktiv məqamlarda dövlət və hökumət başçılarının iştirak etdiyi zirvə görüşü keçirilir.

Şuranın adətən həftədə bir dəfə görüşməsinə baxmayaraq, zərurət yarandığı halda o qısa müddət ərzində verilmiş xəbərlə da çağırıla bilər. Bu iclaslara NATO-nun Baş Katibi, o olmadıqda isə onun müavini sədrlik edir. Şurada ən uzunmüddətli xidmət göstərmiş daimi nümayəndə Şura Dekanı (Duayen) adlandırılır. İlk növbədə mərasim funksiyası daşıyan Duayen

(Dekan) yeni baş katib seçkiləri zamanı iclasları təşkil etmək və müzakirələrə sədrlik etmək kimi rəhbər rol oynamağa çağırıla bilər.

Xarici işlər nazirlərinin görüşlərində dövlətlərdən birinin xarici işlər naziri fəxri prezident rolunu öz üzərinə götürür. Bu vəzifə hər il ingilis əlifbası sırasına uyğun olaraq üzv dövlətlər arasında dəyişir. Daimi Şurada birincilik qaydası xidmət müddətinin uzunluğuna əsaslanır, lakin Şuranın istənilən səviyyədə görüşündə daimi nümayəndələr masa arxasında milliyyətlərinə müvafiq olaraq ingilis əlifbası sırası ilə əyləşirlər. Eyni proseduraya NATO-nun komitə strukturlarında da əməl olunur.

Şuranın iclaslarında müzakirə olunan məsələlər və qəbul edilən qərarlar Təşkilatın fəaliyyətinin bütün aspektlərini əhatə edir və çox vaxt Şuranın sorğusu əsasında köməkçi komitələr tərəfindən hazırlanmış məruzə və tövsiyələrə əsaslanır. Eyni zamanda, mövzu milli nümayəndələrin istənilən biri və ya Baş Katib tərəfindən qaldırıla bilər. Daimi nümayəndələr paytaxtlarından gələn təlimatlara müvafiq hərəkət edirlər və hökumətlərinin fikirlərini və siyasi qərarlarını masa arxasında əyləşən həmyoldaşlarına izah edir və onları məlumatlandırırlar. Əvəzində, onlar digər hökumətlərin ifadə etdiyi fikirləri və seçdiyi mövqeyi öz milli rəhbərliklərinə çatdırır və vacib məsələlərdə və ya milli mövqelərin parçalandığı sahələrdə onları yeni vəziyyət barədə məlumatlandırır və konsensusa doğru irəliləmə xəttini qoruyub saxlayırlar.

Qərar qəbul etmək zərurəti yarandıqda fəaliyyət yekdillik və ümumi razılıq əsasında razılaşdırılır. Səsvermə və ya əksəriyyətin qərarı yoxdur. Şura masasında və ya onun köməkçi komitələrində təmsil olunan hər bir üzv dövlət öz qərarlarına görə suverenliyini və məsuliyyətini saxlayır.

Şuranın işi köməkçi komitələr tərəfindən siyasətin xüsusi sahələrinə münasibətdə məsuliyyətlə hazırlanır. Bu işin çox hissəsi daimi nümayəndələrin müavinlərindən, bəzən isə məsələdən asılı olaraq müvafiq milli ekspertlərdən ibarət Baş Siyasi Komitə (SPC) tərəfindən həyata keçirilir və bu cür halda o, geniş tərkibli Baş Siyasi Komitə SPC(R) adlanır. Baş Siyasi Komitə Şura tərəfindən qəbul ediləcək bir çox bəyanat və ya kommünikelərin hazırlanmasına görə xüsusi məsuliyyət daşıyır və nazirlərin iclaslarından əvvəl Şura tərəfindən təsdiqlənməsi üçün belə mətnlərin layihəsini hazırlamağa toplaşır. Siyasi işin digər aspektləri milli nümayəndəliklərin siyasi konsulları və məsləhətçilərindən ibarət müntəzəm Siyasi Komitə tərəfindən həyata keçirilə bilər. Eyni şəkildə Müdafiə Planlaşdırma Komitəsi və Nüvə Planlaşdırma Qrupunun (NPG) işi müvafiq olaraq, Müdafiənin Təhlili Komitəsi və Nüvə Planlaşdırma Qrupunun Katiblik heyəti və digər rəhbər komitələr tərəfindən hazırlanır.

Şura müdafiə nazirləri səviyyəsində görüşəndə və ya müdafiə məsələləri və müdafiə strategiyası ilə bağlı məsələlərlə məşğul olduqda İcraçı İşçi Qrupu kimi digər baş komitələr əsas məsləhətçi orqanlar qismində cəlb oluna bilər. Şuranın gündəliyində maliyyə məsələləri dayandıqda Resurslar üzrə Rəhbər Şura və ya Mülki və Hərbi Büdcə Komitələri və ya İnfrastruktur Komitəsi kimi orqanlar, hansının münasib olmasından asılı olaraq Şuranın işini təşkil etməkdə onun qarşısında məsuliyyət daşıyır. Müzakirə edilən mövzudan asılı olaraq həmin məsələ üzrə məsul olan müvafiq baş komitə Şuranın iclaslarını hazırlamaqda və onun qərarlarının icrasına nəzarət etməkdə əsas rolu öz üzərinə götürür.

Şuranın işi Beynəlxalq Katibliyin müvafiq bölmələri və idarələri, xüsusilə də Şuranın fəaliyyətini əlaqələndirən və onun mandatının icra edilməsini, qərarlarının qeydə alınmasını, yayılmasını təmin edən Şura Katibliyi tərəfindən dəstəklənir.

Müdafiə Planlaşdırma Komitəsi

Müdafiə Planlaşdırma Komitəsi (DPC) adətən daimi nümayəndələrdən təşkil olunur, lakin müdafiə nazirləri səviyyəsində ildə iki dəfədən az olmamaq şərti ilə görüşür, bir çox müdafiə məsələləri və kollektiv müdafiə planlaşdırılmasına dair mövzularla məşğul olur. Fransa istisna olmaqla bütün üzv dövlətlər bu forumda təmsil olunur. Müdafiə Planlaşdırma Komitəsi NATO-nun rəhbər hərbi orqanlarının fəaliyyətini istiqamətləndirir və öz səlahiyyəti çərçivəsində olan məsələlərdə Şura ilə eyni funksiyaları həyata keçirir, eyni hüquq və səlahiyyətlərə malikdir.

Müdafiə Planlaşdırma Komitəsinin işi xüsusi səlahiyyətli bir sıra alt komitələr və xüsusilə də NATO çərçivəsində qüvvə planlaşdırma prosesini müşahidə edən və inteqrasiya edilmiş strukturlarla bağlı digər məsələləri tədqiq edən Müdafiənin Təhlili Komitəsi tərəfindən hazırlanır. Şura kimi Müdafiə Planlaşdırma Komitəsi də öz qərarlarından irəli gələn hazırlıq və əlavə işlər üzrə konkret istiqamətlərə görə məsul olan baş komitəyə tapşırıq verir.

Nüvə Planlaşdırma Qrupu

Müdafiə Planlaşdırma Komitəsinin işində iştirak edən NATO üzv dövlətlərinin müdafiə nazirləri Nüvə Planlaşdırma Qrupu çərçivəsində müntəzəm iclaslar keçirirlər və burada nüvə qüvvələri ilə bağlı konkret siyasi məsələləri müzakirə edirlər. Bu iclaslar nüvə silahı sahəsində, o cümlədən təhlükəsizlik, nüvə silahlarının davamlılığı və qorunması, rabitə və informasiya sistemləri, nüvə qüvvələrinin istismarı kimi siyasi məsələlərin geniş dairəsini və nüvə

silahlarına nəzarət və onların yayılması ilə bağlı ümumi maraq kəsb edən daha geniş məsələləri əhatə edir. Alyansın nüvə silahı sahəsində siyasəti daim təhlil prosesindədir və onun yeni şəraitlə əlaqədar dəyişdirilməsi və uyğunlaşdırılması, həmçinin planlaşdırma və məsləhətləşmə proseduralarının müasirləşdirilməsi və uyğunlaşdırılması üçün birgə qərarlar qəbul olunur.

Nüvə Planlaşdırma Qrupunun işi onda iştirak edən dövlətlərin milli nümayəndəliklərinin üzvlərindən təşkil olunmuş Nüvə Planlaşdırma Qrupunun Katiblik Qrupu, Beynəlxalq Hərbi Katibliyin üzvləri və Strateji Komandanlıqların nümayəndələri tərəfindən hazırlanır. Katiblik Qrupu Nüvə Planlaşdırma Qrupunun daimi nümayəndələrinin tapşırığına uyğun praktiki işi həyata keçirir. Onun iclasları müntəzəm olaraq həftədə bir dəfə, zərurət yarandıqda isə daha tez-tez keçirilir.

Yüksək Səviyyəli Qrup (HLG) Nüvə Planlaşdırma Qrupunun nüvə siyasəti və planlaşdırma məsələləri üzrə baş məşvərətçi orqanıdır. Bu qrupun səlahiyyətlərinə həmçinin nüvə silahının təhlükəsizliyinin, qorunmasının və davamlılığının təmin edilməsi də daxildir. Qrupa sədrliyi Birləşmiş Ştatlar həyata keçirir və o, NATO dövlətlərinin paytaxtlarından göndərilmiş milli siyasəti müəyyənləşdirən şəxslərdən və ekspertlərdən, o cümlədən NATO-nun Beynəlxalq Katibliyi və Strateji Komandanlıqların nümayəndələrindən ibarətdir. O NATO-nun nüvə siyasətinin aspektləri, planlaşdırma, qüvvələrin vəziyyəti və nüvə silahlarının təhlükəsizliyi, qorunması və davamlılığı ilə bağlı məsələləri müzakirə etmək üçün ildə bir neçə dəfə toplaşır.

Hərbi Komitə

Hərbi Komitə NATO-da Şuranın, Müdafiə Planlaşdırma Komitəsinin və Nüvə Planlaşdırma Qrupunun ümumi siyasi hakimiyyəti altında olan baş hərbi orqandır. Bu, Alyansın siyasət və qərar qəbul etmə aparatının ayrılmaz tərkib hissəsidir və Şimali Atlantika Şurası, Müdafiə Planlaşdırma Komitəsi, Nüvə Planlaşdırma Qrupu və Alyansın hərbi əməliyyatlarının həyata keçirilməsi və onun növbəti hərbi transformasiyasına məsul olan NATO-nun inteqrasiya edilmiş komanda strukturları çərçivəsində siyasi qərar qəbul etmə prosesində mühüm əlaqəni təmin edir.

Hərbi Komitə həmçinin, NATO-nun hərbi siyasəti və doktrinasının inkişafına nəzarət etməyə və NATO Strateji Komandanlıqlarına rəhbərlik etməyə görə məsuliyyət daşıyır. Strateji Komandanlıqlar Hərbi Komitənin qarşısında öz səlahiyyətləri çərçivəsində Alyansın hərbi məsələlərinin bütünlüklə istiqamətləndirilməsinə və idarə edilməsinə görə məsuliyyət daşıyırlar. Hərbi Komitə öz fəaliyyətində Beynəlxalq Hərbi Katiblik tərəfindən dəstəklənir.

Məşvərət prosesi

Müstəqil suveren dövlətlərin Alyansında siyasətin formalaşdırılması və tətbiqi bir-birinin hərtərəfli siyasəti, niyyətləri və onları əmələ gətirən təsəvvürlər barədə tam xəbərdar olan bütün üzv hökumətlərdən asılıdır. Bu, milli qərarların qəbulundan əvvəl müzakirələrin siyasətin formalaşması mərhələsi zamanı mümkün olan hər bir zaman müntəzəm siyasi məsləhətləşmələri tələb edir.

NATO-da siyasi məsləhətləşmə sistematik bir vəzifə kimi Şimali Atlantika Müqaviləsinin qüvvəyə minməsindən az sonra Şuranın 1949-cu ilin sentyabrında ilk görüşündə başladı. O zamandan etibarən bu, yeni hadisələrə uyğunlaşmaq üçün güclənir və uzlaşır. Şura siyasi məsləhətləşmələr üçün əsas forum olaraq qalır. Onun iclasları minimum rəsmiyyətlə keçir; müzakirə səmimi və birbaşadır. Baş Katib öz sədrliyi vasitəsilə onun müzakirələrində mühüm rol oynayır və ayrı-ayrı hökumətlərlə əlaqələrdə və ictimai işlərdə onun əsas nümayəndəsi və natiqi kimi hərəkət edir.

Məsləhətləşmə həmçinin, öz səlahiyyətlərini Şuradan götürən digər forumlarda da müntəzəm surətdə baş tutur. Siyasi Komitə ali və digər səviyyələrdə, Siyasi Əlaqələndirmə Qrupu, Atlantika Siyasəti üzrə Məsləhət Qrupu və digər xüsusi komitələr hamısı üzv hökumətlər arasında siyasi məsləhətləşmələrin asanlaşdırılmasında birbaşa rol oynayırlar. Şura kimi, onlara da NATO-nun Baş Katibi qarşısında məsul olan Beynəlxalq Katiblik köməklik göstərir.

Alyansın üzvləri arasında siyasi məsləhətləşmə yalnız Avro-Atlantika məkanı çərçivəsində baş verən hadisələrlə məhdudlaşmır. Digər yerlərdə baş verən Alyansla mümkün əlaqəsi olan hadisələr Şuranın və onun alt komitələrinin gündəliyində müntəzəm olaraq öz əksini tapır. NATO-nun məsləhət aparatı asanlıqla əldə olunandır və üzvlər tərəfindən belə vəziyyətlərdə təhlükəsizlik və sabitlik maraqlarına uyğun olaraq əlaqələndirilmiş addımların atıla biləcəyi sahələrin ilkin mərhələdə müəyyənləşdirilməsi üçün geniş şəkildə istifadə olunur.

Məsləhətləşmə yalnız siyasi mövzularla məhdudlaşmır. Hərtərəfli məsləhətləşmələr bir çox digər sahələrdə də keçirilir. NATO-da təmsil olunan milli nümayəndələrin eyni qərargahda yerləşməsinin nəticəsi olaraq proses davamlıdır və nəinki rəsmi, həm də qeyri-rəsmi əsaslarda çox qısa fasilələrlə və rahat şəkildə həyata keçirilir. Ehtiyac duyulduqda o, bütün müvafiq hökumətlərin nümayəndələrinin tam iştirakı ilə xüsusi əhəmiyyət daşıyan və təxirəsalınmaz məsələlər üzrə intensiv işin aparılmasına şərait yaradır.

Alyans çərçivəsində məsləhətləşmə bir çox formalara malikdir və ən sadə formada o, məlumat və fikir mübadiləsindən ibarət olur. Digər bir səviyyədə o, hökumətlərin qəbul etdikləri və ya qəbul edəcəkləri və öz müttəfiqlərinin maraqlarına birbaşa və ya dolayısı ilə aidiyyəti olan qərarların və fəaliyyətlərin əlaqəsini əhatə edir. Bu həmçinin, hökumətlər tərəfindən gələcəkdə əldə ediləcək qərar və göstəriləcək fəaliyyətlər barədə əvvəlcədən xəbərdarlıq edilməsinin təmin edilməsini də əhatə edə bilər. Bu xəbərdarlıq digər hökumətlərə imkan verir ki, onlar həmin addımları təsdiq və ya şərh etsinlər. O həmçinin, qəbul edilməli olan siyasətlər və ya birgə atılmalı olan addımlar barəsində konsensus əldə etmək məqsədilə aparılan müzakirələri də əhatə edə bilər. Nəticə etibarilə, bu üzv dövlətlərə kollektiv müzakirələr və ya bütövlükdə Alyansın fəaliyyətinə dair qarşılıqlı şəkildə qəbul oluna bilən razılıqların əldə olunmasına imkan yaratmaq üçün hazırlanmışdır.

Birgə qərar qəbul etmə prosesini konsensus və ümumi razılıqdan asılı etməklə, Alyans üzvləri hər bir dövlətin fərdi təcrübəsi və nöqteyi-nəzərini mühafizə edir və eyni zamanda, şəraitin tələb etdiyi hallarda birgə, sürətli və qəti hərəkət etməyə imkan verən mexanizm və proseduralardan özləri faydalanırlar. Gündəlik olaraq informasiya mübadiləsi və birgə məsləhətləşmələr praktikası ümumi siyasətlə bağlı razılaşmaq üçün hökumətlərin lazım olan vaxt qısa zamanda verilmiş xəbərlə bir araya gəlməsini təmin edir ki, belə hallarda dövlətlər çox zaman bir-birilərinin fikirləri barədə əvvəlcədən məlumatlı olurlar. Onlar arasında fikir müxtəlifliyi yaranarsa, birgə fəaliyyətin bütün üzv hökumətlərin imza atdığı qərarların tam gücünə əsaslanması üçün bu mövqelərin barışdırılması məqsədilə səylər göstərilir. Qəbul olunmuş bu cür qərarlar bütün razılaşmış ölkələrin onların tamamilə icrasında ümumi qətiyyətini əks etdirir. Siyasi cəhətdən mürəkkəb olan və ya resurslar tələb edən qərarlar beləliklə də əlavə qüvvə və etibar əldə edir.

Bütün NATO üzv dövlətləri Alyans çərçivəsində əməkdaşlığın siyasi səviyyəsində tam iştirak edir və Şimali Atlantika Müqaviləsinin şərtlərinə uyğun bərabər öhdəliklər daşıyırlar. Bu öhdəliklərdən 5-ci maddədə göstərilmiş qarşılıqlı vəd, daha dəqiq desək, bir və ya daha artıq dövlətə qarşı hücumun onların hamısına qarşı hücum hesab olunması onların bölünməz təhlükəsizliyini simvolizə edir.

Alyansın inkişaf qaydası təmin edir ki, üzv dövlətlərin siyasət və tələblərindəki fərqlər onların Alyans çərçivəsindəki mövqelərində nəzərə alınsın. Bu çeviklik müxtəlif yollarla özünü göstərir. Bəzi hallarda, müxtəliflikər daha çox prosedura xarakteri daşıyır və asanlıqla uyğunlaşdırılır. Məsələn, İslandiyanın hərbi qüvvələri yoxdur və bu səbəbdən öz arzusuna uyğun olaraq NATO-nun hərbi forumlarında mülki qaydada təmsil olunur. Digər hallarda müxtə-

liflik daha müstəqil təbiətə malik ola bilər. 1949-cu ildən Alyansın təsisçi üzvü olan Fransa 1966-cı ildə Alyansın inteqrasiya edilmiş hərbi strukturundan çıxmışdır, amma buna baxmayaraq onun siyasi strukturlarının tam hüquqlu üzvüdür.

NATO üzv ölkələri arasında fərqlər həm də onların coğrafi, hərbi və ya konstitusion şəraitinin nəticəsi kimi mövcud ola bilər. Məsələn, Norveç və Danimarkanın NATO-nun hərbi qaydalarında (dislokasiyalarında) iştirakı onların sülh dövründə dövlət ərazisində əcnəbi orduların və nüvə silahlarının yerləşdirilməsinə yol verməyən milli qanunvericiliyinə tabe olmalıdır. Başqa sözlə, inteqrasiya edilmiş hərbi strukturlar çərçivəsində hərbi komandalar yalnız həmin komandaların yaradıldığı xüsusi funksiyada iştirak etməkdə birbaşa maraqlı və hazırlıqlı olan dövlətlərin ordularından ibarət ola bilər.

Tərəfdaş, digər qeyri-üzv və əlaqə dövlətləri ilə məsləhətləşmələr

NATO-nun qeyri-üzv dövlətlərlə əməkdaşlığı Alyansın təhlükəsizlik siyasətinin ayrılmaz tərkib hissəsidir və onun gündəlik işində mühüm rol oynayır. Qeyri-üzv dövlətlərlə əməkdaşlıq və tərəfdaşlığın müxtəlif növlərinin davam etdirilməsi yolu ilə NATO nəinki öz tərəfdaş dövlətlərinin təhlükəsizlik və sabitliyini artırır, o həmçinin, öz təhlükəsizliyini də gücləndirir. Bu səbəbdən əməkdaşlıq və tərəfdaşlıq həm tərəfdaş dövlətlərin, həm də üzv dövlətlərin mənafeyinə xidmət edən ikitərəfli prosesin hissəsidir. Bu, sabitliyin pozulmasına və münaqişəyə səbəb ola biləcək parçalanmaların və potensial narazılıqların öhdəsindən gəlməyə kömək edərək onların hər biri üçün təhlükəsizlik məsələlərini müzakirə etmək və müxtəlif sahələrdə əməkdaşlıq etmək imkanı yaradır.

Avro-Atlantika Tərəfdaşlıq Şurası kontekstində Tərəfdaş dövlətlərlə, Rusiya ilə NATO-Rusiya Şurası vasitəsilə, Ukrayna ilə NATO-Ukrayna Komissiyası və NATO Aralıq Dənizi Dialoqu ilə Aralıq Dənizi Əməkdaşlıq Qrupu vasitəsilə müvafiq siyasi məsələlər üzrə müntəzəm məsləhətləşmələr aparılır. NATO həmçinin İstanbul Əməkdaşlıq Təşəbbüsü vasitəsilə geniş Orta Şərq ölkələri ilə əməkdaşlıq çərçivəsini təklif etmişdir və Cənub-Şərqi Avropa Təşəbbüsü vasitəsilə Balkan ölkələri ilə əməkdaşlıq üçün məsləhətçi forum olaraq qalır.

Bu forumlarda məsləhətlərin aparılmasına rəhbərlik edən prinsiplər uzun müddət birbaşa Alyans çərçivəsində gedən məsləhətləşmələrin bazasını formalaşdıran prinsiplər əsasında hazırlanıb və eyni aşkarlıq və əməkdaşlıq ruhu ilə həyata keçirilməkdədir. Bu institutlardan hər birinin rolu,

NATO tərəfindən həyata keçirilən və tərəfdaş və digər qeyri-üzv dövlətlərin töhfə verdikləri əməliyyat və fəaliyyətlərə münasibətdə onların qərar qəbul etmə prosesində iştirak etmə qaydası təfsilatı ilə VII Hissədə təsvir olunub. Nəhayət, Sülh Naminə Tərəfdaşlıq proqramının fəal iştirakçısı olan və öz ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya təhlükəsizliyinə birbaşa təhlükə hiss edən hər bir Tərəfdaş ilə NATO-nun məsləhətləşmələri üçün qeyd şərtlər mövcuddur.

Milli səviyyədə tərəfdaşlıq prosesi NATO və bir çox digər çoxmillətli təşkilatlar arasında təhlükəsizlik məsələləri üzrə əməkdaşlıqla möhkəmləndirilir. Buna görə də NATO özünü təcrid şəraitində işləmir. Həyata keçirilməsində mühüm rol oynadığı vəzifələrə əlavə olaraq o, iqtisadiyyatın və fərdlərin çiçəkləndiyi daha sağlam, daha sabit və daha dinc beynəlxalq mühiti yaratmaqda digər təşkilatların işinə dəstək verir və onu tamamlayır. Xüsusilə də, NATO BMT-nin prinsip və qətnamələrini dəstəkləmək üçün hərbi əməliyyatlar həyata keçirib. O, Alyans və Avropa İttifaqı arasında effektiv strateji əməkdaşlığın inkişafı istiqamətində Avropalı üzv dövlətləri ilə yaxından işləyir. Alyans həmçinin, müxtəlif kontekstlərdə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər beynəlxalq və qeyri-hökumət təşkilatları ilə yaxından işləyir. Bu müxtəlif münasibətlər IX Hissədə təsvir olunub.

Yuxarıda təsvir olunmuş ikitərəfli və çoxtərəfli strukturlar çərçivəsindən kənarda ayrı-ayrı dövlətlərlə formal institusional əlaqələrinin olmamasına baxmayaraq, bu gün dünya təhlükəsizliyində Alyansın rolu digər dövlətləri NATO siyasəti və fəaliyyəti haqqında gündəlik məlumat axtarmağa, əlaqə saxlamağa və müəyyən layihələrdə iştirakını nəzərdə tutmağa sövq edir. Həmçinin, Alyans tərəfindən həyata keçirilmiş müxtəlif əməliyyatlar bu cür səylərə töhfə verən ölkələrlə əlaqələri artırmağa xidmət etmişdir.

Belə hallarda, Şimali Atlantika Şurası tərəfindən həyata keçirilən idarəçiliyə əsasən, hər bir konkret hal üçün əməkdaşlıq nəzərdə tutulub. Qərarlar qarşılıqlı maraqlar, potensial xərclər, tərəfdaş dövlətlərlə əməkdaşlığa verilən üstünlük və Alyansın təmsil etdiyi və bölüşdüyü dəyərlərin dərəcəsi nəzərə alınaraq qəbul edilir.

Alyansla dialoq yaratmaq istəyini bildirmiş və “Əlaqə dövlətlər”i kimi istinad edilən bir sıra ölkələrlə əlaqə və mübadilə həyata keçirilir. Uzun illər ərzində NATO Yaponiya ilə müntəzəm olaraq bütün səviyyələrdə fikir mübadiləsində iştirak etmişdir. Bu yaxınlarda, Alyans Çinin qeyri-rəsmi əlaqələrdə marağına müsbət cavab vermişdir. Yeni Zelandiya və Avstraliya kimi dövlətlərlə də bütün səviyyələrdə müntəzəm əlaqələr inkişaf

etdirilmişdir. Bir sıra hallarda, bu dialoqlar müəyyən NATO fəaliyyətlərində iştirak və tədbirlərdə birgə iştirakla tamamlana bilər.

NATO-nun Balkanlarda, Aralıq Dənizində apardığı əməliyyatlar, həmçinin 2004-cü ilin iyununda razılaşdırılmış İraqda təlim missiyası Alyansla nə üzv, nə də ki, rəsmi tərəfdaşlıqla əlaqəsi olmayan ölkələr arasında praktiki əməkdaşlığa konkret misallardır. Bu əməliyyatlar üçün ordu təqdim etmiş dövlətlərə Argentina, Avstraliya, Çili, Yeni Zelandiya və Birləşmiş Ərəb Əmirlikləri daxildir.

2-ci Fəsil

BÖHRANLARIN İDARƏ EDİLMƏSİ

Alyansın 1999-cu il Strateji Konsepsiyası böhranın idarə edilməsini NATO-nun fundamental təhlükəsizlik vəzifələrindən biri kimi müəyyən edir. O, Alyansın üzərinə böhrana cavab əməliyyatları da daxil olmaqla, münaqişələrin qarşısının səmərəli şəkildə alınmasına töhfə vermək və böhranların idarə edilməsi ilə məşğul olmaq üçün hazır olmaq öhdəliyini qoyur. Bu tələb effektiv məsləhətləşmə proseduralarının, böhranın idarə olunması tədbirlərinin, hərbi imkanların və mülki fövqəladə planlaşdırma hazırlıqlarının əlaqələndirilməsi vasitəsilə yerinə yetirilir.

Mövcudluğunun ilk illərindən NATO-nun əsas vəzifəsi Müqavilənin 5-ci maddəsinə müvafiq olaraq Alyansın kollektiv hərbi əməliyyatlarla məşğul olmaq bacarığının təmin edilməsi üçün zəruri olan hərbi imkanlarla əlaqələndirilmiş hərbi planlaşdırma prosesini inkişaf etdirməkdir. Lakin, yalnız yaxın keçmişdə NATO üzv dövlətlərinin sərhədləri xaricində 5-ci maddəyə aid olmayan əməliyyatların həyata keçirilməsi ilə bağlı qərarlar qəbul etdi. Bu əməliyyatlar münaqişənin regionda digər dövlətlərə, o cümlədən NATO üzv və tərəfdaş ölkələrinə yayılmasının və sabitliyin pozulması təhlükəsinin qarşısının alınması üçün hazırlanmışdı. Eyni zamanda, Alyans 5-ci maddədə nəzərdə tutulmuş münaqişə vəziyyətlərinə cavab vermək qabiliyyətlərini inkişaf etdirmək üçün bir sıra tədbirlər görmüşdür.

1990-cı illərin əvvəllərindən etibarən baş verən hadisələr

Soyuq Müharibənin sonundan etibarən NATO-nun rolunun əhəmiyyətli hissəsi onun münaqişələrin baş verməsinin qarşısının alınması və baş verdikdə isə sülhün bərpası və qorunması üçün geniş beynəlxalq ictimaiyyətin səylərinə verə bildiyi özünəməxsus töhfədən ibarət olmuşdur. 1992-ci ilin iyununda Osloda Şimali Atlantika Şurasının iclasında NATO, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (1995-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) oldu) səlahiyyətində olan sülhməramlı və digər əməliyyatlara öz proseduralarına uyğun dəstək təklif etmişdir. Bir neçə ay sonra BMT-nin səlahiyyətində olan sülhməramlı əməliyyatlara münasibətdə eyni öhdəlik götürüldü. Alyans BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsində NATO-nun yardımını istəyən BMT Baş Katibinin təşəbbüslərə müsbət cavab verməyə hazır oldu.

1992-1995-ci illərdə BMT Təhlükəsizlik Şurasının keçmiş Yuqoslaviyada davam edən böhranla və vəziyyətin pisləşməsi ilə əlaqədar Qətnamələrinin dəstəklənməsi istiqamətində NATO ardıcıl olaraq bir sıra nəzarət və məcbur etmə əməliyyatları həyata keçirmişdir. Bununla belə, 1995-ci ilin dekabrında, Bosniya münaqişəsini sona çatdıran Dayton Sülh Sazişinin hərbi aspektlərinin həyata keçirilməsi üçün yaradılmış NATO-nun rəhbərlik etdiyi Bosniya və Herseqovinada Həyata keçirmə Qüvvələr (IFOR) bu siyasətin ilk əsas təzahürü olmuşdur. O vaxtdan etibarən Alyans Bosniya və Herseqovinada, Kosovoda, keçmiş Yuqoslaviya Respublikası Makedoniya* və Əfqanıstanda BMT, ATƏT və Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində digər sülhü dəstəkləyən əməliyyatlar və böhranın idarə olunması vəzifələrini yerinə yetirmişdir. 2003-cü ilin avqustunda o, Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (ISAF) rəhbərliyi öz üzərinə götürmüşdür. 2004-cü ilin avqustunda NATO-nun İraq üçün Təlim Missiyası İraq hökumətinə, onun milli təhlükəsizlik qüvvələrinin təlimi və qurulmasında kömək etmək üçün yaradılmışdır. 2005-ci ilin mayında NATO Afrika Birliyinə Sudanda kömək etmək qərarına gəldi. Bu əməliyyatlar IV Hissədə daha ətraflı təsvir olunmuşdur.

Böhranların və böhrana cavabların müxtəlif növləri

Böhranın idarə olunması mili və beynəlxalq təhlükəsizliyə hədə yaradan böhran vəziyyətlərinə həm hərbi, həm də qeyri-hərbi vasitələrlə cavab tədbirlərindən ibarət ola bilər. Böhran mahiyyətcə təbiətinə görə siyasi, hərbi və ya humanitar ola bilər və ya siyasi mübahisələrdən, silahlı münaqişələrdən, texnoloji qəzalardan və təbii fəlakətlərdən irəli gələ bilər. Böhranın idarə olunması bu müxtəlif böhran növləri ilə məşğul olan fərqli vasitələrdən ibarət ola bilər.

Təcrübədə böhrana və ya böhrana çevrilmək təhlükəsinə doğru inkişaf edən vəziyyətə olan milli və beynəlxalq reaksiya həmin vəziyyətin xarakteri, miqyası və ciddilik dərəcəsindən asılıdır. Bəzi hallarda böhranı diplomatiya vasitəsilə əvvəlcədən görmək və onun qarşısını almaq mümkün ola bilər. Digər hallarda, hərbi əməliyyat da daxil olmaqla daha kobud tədbirlərin görülməsi zəruri ola bilər. Bundan əlavə, böhranın xarakterindən asılı olaraq milli hökumət tərəfindən müxtəlif növ böhranın idarə olunması əməliyyatları nəzərdə tutula bilər.

NATO çərçivəsində hal-hazırda üzv dövlətlərin nəzərə ala biləcəyi iki geniş böhranın idarə olunması əməliyyatları kateqoriyası mövcuddur.

Bunlardan biri kollektiv müdafiə tələb edən əməliyyatlar, ikincisi isə kollektiv müdafiənin cəlb olunmadığı digər böhrana cavab əməliyyatlarıdır.

Kollektiv müdafiə əməliyyatları Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsinin tələbinə əsaslanır və onlara "5-ci Maddə əməliyyatları" kimi istinad olunur. O, bir və daha artıq üzvə qarşı hücum və ya təcavüz aktını bütün üzvlərə qarşı hücum hesab etmək haqqında NATO üzvləri tərəfindən kollektiv şəkildə qəbul edilmiş qərar fikrini irəli sürür. NATO öz tarixində ilk dəfə olaraq 5-ci maddəyə 2001-ci ilin sentyabrında Birləşmiş Ştatlara qarşı terror hücumlarından sonra müraciət etmişdir.

Digər böhrana cavab əməliyyatları Alyansın 5-ci maddəyə aid olmayan vəziyyətləri idarə etmək üçün qərara aldığı bütün hərbi əməliyyatları əhatə edir. Onlar münaqişə ərazisində sülh prosesini dəstəkləmək məqsədilə yaradıla bilər və belə vəziyyətlərdə onlara sülhə dəstək əməliyyatları kimi istinad olunur. Lakin onlar münaqişələrin qarşısının alınması, sülhü qoruma, sülhə məcburetmə, sülh yaradan, sülh quran, preventiv açılma və humanitar əməliyyatlar kimi digər geniş imkanları əhatə edə bilər. NATO-nun Balkanlarda və Əfqanıstanda iştirakı bu kateqoriyadan olan böhranların idarə olunması əməliyyatlarına misaldır. Digər misallara NATO-nun İraqda Beynəlxalq Sabitləşdirmə Qüvvələrində iştirak edən Polşa qoşunlarına dəstəyi və İraq hökumətinə onun milli təhlükəsizlik qüvvələrinə təlim keçilməsində yuxarıda qeyd olunan İraqda NATO Təlim Missiyasının yaradılması vasitəsilə yardım etmək üçün məsuliyyəti öz üzərinə götürməsi aiddir.

Təbii fəlakətlər, texnogen qəzalar və humanitar fəlakətlər, böhranlara cavab kateqoriyası çərçivəsində olan və böyük qəzaların qurbanı olan üzv və tərəfdaş ölkələrə yardım əməliyyatlarını nəzərdə tutan müdaxilə ilə nəticələnə bilər. NATO 2005-ci ilin oktyabrında baş vermiş faciəvi zəlzələdən sonra Pakistana yardım etdi və fərqli hallarda, tez-tez daşqınların dağıntısına məruz qalmış Ukraynaya da yardım göstərdi. Digər nümunələr növbəti fəsillərdə göstərilmişdir.

Digər təşkilatlar və qeyri NATO ölkələri ilə əməkdaşlıq

NATO böhranın idarə olunması əməliyyatı ilə hər bir konkret hal üzrə məşğul olmaq qərarını verir. Alyansın digər qərarları kimi belə qərarlar da üzv dövlətlər arasında konsensusa əsaslanır. Məsuliyyətini öz üzərinə götürdüyü bir çox əməliyyat hallarında digər təşkilatlarla əməkdaşlıq və tərəfdaşlıq mühüm fakt olmuşdur. BMT və BMT agentlikləri ilə səmərəli əməkdaşlıq, ATƏT-lə əməkdaşlıq, Avropa İttifaqı ilə böyüyən strateji

tərəfdaşlıq, hansı ki, NATO vasitə və imkanlarından istifadə edən Aİ əməliyyatlarına yardımı təmin edir – bunlar hamısı müxtəlif böhran növlərinin xüsusi ehtiyaclarının qarşılanmasında mühüm rol oynayıb. Alyansla Avro-Atlantika Tərəfdaşlıq Şurasında (EAPC) və ya Alyansın Aralıq Dənizi Dialoqunda tərəfdaşı olan qeyri NATO ölkələri ilə böhran idarə olunması vəziyyətlərində genişlənən əməkdaşlıq da eyni əhəmiyyətə malikdir.

Siyasətin inkişafı

Müqavilənin 5-ci maddəsinə müraciət edərək üzv dövlətlərin təhlükəsizliyini hədələyən böhrana cavab üçün hazırlıq və maddənin tələb etdiyi qarşılıqlı zəmanətin yerinə yetirilməsi əvvəldən NATO dövlətlərinin əsas vəzifəsi olmuşdur. Bu həmçinin, NATO-nun hərbi planlaşdırma tədbirlərinin ayrılmaz tərkib hissəsidir. Hərbi planlaşdırma tədbirləri mümkün təhlükəni müəyyən etmək və hazır dayanmaq, təhlükənin qarşısını almaq uğursuz olduqda isə, üzv dövlətlər tərəfindən siyasi səviyyədə qərara alınmış addımı atmaq və Şimali Atlantika məkanında təhlükəsizliyi bərpa etmək və onu qorumaq üçün nəzərdə tutulmuşdur. Soyuq Müharibə illərində güman edilirdi ki, yalnız 5-ci maddəyə müraciət etməyi tələb edən hallar Avropa Müttəfiqlərinin təhlükəsizliyini hədələyən böhran ola bilər. Lakin 5-ci maddənin işə salındığı yeganə hal, 2001-ci il 11 sentyabr terror hücumlarının ardınca müttəfiqlərin ABŞ-a köməyi oldu.

5-ci maddəyə aid olmayan vəziyyətlərə cavab üçün hərbi əməliyyatlar həyata keçirilməsinin Alyans tərəfindən nəzərdə tutulmasına ehtiyac Soyuq Müharibənin qurtarması, Varşava Paktının buraxılması və Sovet İttifaqının dağılmasından sonra yarandı. Keçmiş Sovet İttifaqı və Balkanların daxilində və sərhədlərində yarım əsr ərzində hüquqları bir çox hallarda boğulmuş etnik qruplar arasında keçmiş gərginliklər üzə çıxdı və silahlı münaqişələr baş verdi. Bundan əlavə, bir çox yeni yaranmış dövlətlərin müstəqillik uğrunda mübarizəsi gərginlik və münaqişə potensialı yaratdı.

1992-ci ildə keçmiş Yuqoslaviyada böyük etnik münaqişə baş qaldıranda və bu münaqişəni həll etməyə çalışan təkrar beynəlxalq səylər uğursuz olduqda, NATO üzv ölkələri Alyansın hərbi imkanlarından əməliyyat qismində istifadə etmək haqqında presedenti olmayan bir sıra qərarlar qəbul etdilər. Digər 5-ci maddəyə aid olmayan böhranların idarə edilməsi əməliyyatları V Hissədə öz əksini tapmışdır.

Təbii fəlakətlər və qəzalarla bağlı xilasetmə əməliyyatları

Böhranın idarə olunması hərbi əməliyyatlardan kənara çıxan və əhalini təbii və ya insanlar tərəfindən törədilən fəlakətlərin qurbanı olmaq təhükəsindən qorumaq kimi məsələləri əhatə edən geniş bir konsepsiyadır. NATO mülki müdafiə tədbirlərini mümkün nüvə münaqişələrinə görə hələ 1950-ci illərdən etibarən inkişaf etdirməyə başlamış və böyük daşqınlar, zəlzələlər kimi fəlakətlərin, böyük sənaye və ya texnogen qəzaların və humanitar böhranların təsirini azaltmaq üçün bu sahədə imkanlar üstünlüyünü ələ ala bilmişdir.

1953-cü ildə fəlakətlə bağlı ilk yardım layihəsi Şimali Avropada dağıdıcı daşqından sonra tətbiq edilmişdir və 1958-ci ildə NATO fəlakət baş verdiyi hallarda üzv ölkələr arasında yardımın əlaqələndirilməsinin dəqiq prosedur qaydalarını hazırladı. Bu proseduralar yerində qaldı və sonrakı illərdə mülki fövqəladə planlaşdırma işi üçün əsas rolunu oynadı. Onlar NATO üzv dövlətlərindən əlavə Tərəfdaş dövlətlərə də tətbiq olunduğu zaman 1995-ci ildə bir daha hərtərəfli şəkildə nəzərdən keçirildi.

1998-ci ildə Rusiyanın müxtəlif üzv və tərəfdaş ölkələr tərəfindən onların istənilən birinin fəlakətə məruz qalmış ərazisində yardımın təmin edilməsini əlaqələndirmək haqqında təklifi əsasında Təbii Fəlakət və Qəzalara Cavab üzrə Avro-Atlantika Əlaqələndirmə Mərkəzi (EADRCC) yaradıldı. Həmçinin fəlakət baş vermiş ərazidə istifadə olunmaq üçün üzv və tərəfdaş ölkələrin könüllü təklif etdiyi müvəqqəti mülki və hərbi hissələrə əsaslanan Avro-Atlantika Təbii Fəlakətlərə və Qəzalara Cavab Bölməsi yaradıldı. Yaradılmasından dərhal sonra Təbii Fəlakət və Qəzalara Cavab üzrə Avro-Atlantika Əlaqələndirmə Mərkəzi (EADRCC) BMT-nin Qaçqınlar üzrə Ali Komissiyasına dəstək olaraq Kosovo qaçqınlarına humanitar yardımı əlaqələndirməkdə kömək etməyə çağırıldı. Mülki Fövqəladə Planlaşdırma tədbirləri Albaniyada, Çexiya Respublikasında, Macarıstanda, Rumıniyada, Ukraynada və Birləşmiş Ştatlarda baş vermiş daşqınlar; keçmiş Yuqoslaviya Respublikası Makedoniya* və Portuqaliyada baş vermiş yanğınlar; Ukrayna və Moldovada enerji daşıyıcılarına ziyan vurmuş kəskin hava şəraiti zamanı bir sıra mülki fövqəladə hallarına müdaxilə etməyə imkan vermişdir. NATO həmçinin, müntəzəm olaraq mülki fövqəladə planlaşdırma təlimləri həyata keçirir. Böhranların idarə olunmasına dair təşkilatçılıq və bu qurumlar barədə daha dəqiq məlumatlar X Hissədə verilmişdir.

Böhranların idarə edilməsi üzrə qərar qəbul etmə

Böhranların idarə edilməsi tədbirlərini tələb edən vəziyyətlərə cavab olaraq NATO üzv dövlətlərinin hökumətləri tərəfindən Şimali Atlantika Şurası çərçivəsində kollektiv qərar qəbul edilir. Bura siyasi və hərbi tədbirlərlə yanaşı, böhranın təbiətindən asılı olaraq mülki fövqəladə vəziyyətlə bağlı tədbirlər də daxil ola bilər. Planlaşdırma, hərbi qüvvələrin açılması və ya istifadəsi ilə bağlı bütün qərarlar yalnız üzv dövlətlərin siyasi rəhbərliyi tərəfindən qəbul olunur. Belə qərarlar böhranla əlaqədar kəşfiyyat, məlumat və digər faktların mübadiləsi, müxtəlif qavrama və yanaşmaların müqayisəsi və üzv dövlətlərin baxışlarını ahəngləşdirmək məqsədi daşıyan digər tədbirlər kimi müxtəlif mexanizmlərdən istifadə olunması ilə nəticələnə bilər. Qərarlarının qəbul edilməsi və həyata keçirilməsində Şura Siyasi Komitə, Siyasi Əlaqələndirmə Qrupu, Hərbi Komitə və Ali Mülki Fövqəladə Planlaşdırma Komitəsi kimi ixtisaslaşdırılmış komitələr tərəfindən dəstəklənə bilər. Bu prosesin həyata keçirilməsinin texniki vasitələri, o cümlədən rabitə vasitələri, ilin hər bir günündə daimi olaraq siyasi, iqtisadi və hərbi kəşfiyyat məlumatları toplayan və yayan NATO-nun Situasiya Mərkəzi tərəfindən təmin edilir.

NATO istənilən böhrana rəhbərlik edə və ya BMT, ATƏT, Avropa Birliyi və bir və ya daha çox üzv dövlət tərəfindən həyata keçirilən böhranın idarə olunması fəaliyyətinə dəstək verə bilər. Digər halda NATO-nun iştirakında əsas diqqət mərkəzi böhranların müvəffəqiyyətlə idarə edilməsi və həllinə mühüm və fərqli töhfə verməkdir.

Böhranın idarə olunması prosesi

Alyans 5-ci maddənin və ona aid olmayan missiyaların tam həcmdə icra edilməsinə hazır olmalıdır, belə ki, bir çox hallarda böhranları əvvəlcədən görmək müəyyən dərəcədə çətin olur, çünki hər bir böhran özünəməxsusdur. Bununla belə, Alyansın böhranı idarə etmək və həll etmək üçün müraciət etdiyi və axtardığı proses ağlabatan etibarla planlaşdırıla bilər. Böhranın idarə olunması prosesi yaranan böhranın ilkin mərhələsində siyasi məsləhətləşməni və qərar qəbul etməni asanlaşdırmaq, NATO-nun müvafiq komitələrinə öz işlərini əlaqələndirmək üçün vaxt vermək və Şuraya vaxtında məsləhət vermək üçün nəzərdə tutulmuşdur. Bu həmçinin, Müttəfiq Qüvvələrin Əməliyyatlar üzrə Komandanlığına görə məsul olan Strateji Komandanlıq qismində NATO-nun Müttəfiq Qüvvələrin Avropada Ali Komandanlığına müvafiq vaxt ərzində hazırlıq planlaşdırma tədbirlərini

görməyə imkan verir. Bu fəaliyyətlər öz növbəsində NATO-nun hərbi rəhbərliklərinin Şuraya verdiyi məsləhətə tez töhfə verə bilər.

Mümkün böhrana cavab əməliyyatları tələb edən böhranlarda onların idarə olunması prosesi beş ardıcıl mərhələdən ibarətdir. Bu mərhələlərə ilkin əlamətlər və yaxınlaşan böhran barədə xəbərdarlıqdan başlamış, vəziyyətin və onun Alyansın təhlükəsizliyinə faktiki və potensial təsirinin qiymətləndirilməsi, tövsiyə edilən cavab növlərinin inkişafı və Şura qərarlarının planlaşdırılması və icrası da daxildir.

Böhrana cavab sisteminin və NATO-nun bütün böhranın idarə olunması prosesinin effektivliyi məsuliyyətli, çevik və uyğunlaşmalı olan NATO Qərargahının Böhranların İdarə edilməsi üzrə Təşkilatının struktur və proseduralarının effektivliyi və səmərəliliyi ilə müəyyən oluna bilər. Onlar həmçinin, böhranların idarə olunması prosesinin digər mühüm elementlərinin, yəni NATO-nun Böhranlar üzrə Cavabdeh Sistemi (NCRS), NATO Kəşfiyyatı və Xəbərdarlıq Sistemi (NIWS), NATO-nun əməliyyat planlaşdırma sistemi və NATO Mülki Fövqəladə Planlaşdırma böhranların idarə olunması tədbirləri arasında maneəsiz və asan qarşılıqlı əməliyyatların keçirilməsini asanlaşdırmalıdır. NATO-nun Situasiya Mərkəzi kommunikasiya və digər mühüm vasitələrlə prosesi dəstəkləyir.

1999-cu ildə Vaşinqton Zirvə Görüşündə NATO strukturlarını və imkanlarını dəyişdirmək haqqında qəbul edilmiş qərarlara əsasən mövcud böhranın idarə olunması alətlərinin Alyansın qarşılaşa biləcəyi hədə və təhdidlərə kifayət qədər yaxşı uyğunlaşmadığı hesab olundu. Müvafiq olaraq, 2001-ci ilin avqustunda Şimali Atlantika Şurası vahid və bütöv NATO-nun Böhranlar üzrə Cavabdeh Sisteminin inkişafına dair siyasətin rəhbər prinsiplərini təsdiq etdi.

2001-ci ilin sentyabrında ABŞ-a qarşı terror aktları bu vəzifəyə yeni zəruriyyət və bu vaxta qədər diqqətini ilk növbədə kollektiv müdafiənin tələblərinə cəmləşdirən NATO-nun böhranların idarə olunması strukturuna yeni ölçü gətirdi. 2002-ci ilin iyununda Şura həmçinin, Terrorçuluğa Qarşı Müdafiə Hərbi Konsepsiyasının inkişafına siyasi rəhbərliyi təmin etdi. Bu qərarın mühüm nəticəsi 5-ci maddə və ona aid olmayan gözlənilməz hallar üçün mülki fövqəladə planlaşdırmanı gücləndirmək həmçinin, kimyəvi, bioloji, radioloji və ya nüvə (CBRN) amillərinin istifadəsindən irəli gələn mülki fövqəladə vəziyyətlərin və fəlakətlərin nəticələrinin idarə edilməsi tədbirlərinin təqdim edilməsi oldu.

Bir və daha çox üzv dövlətin iştirak etdiyi qeyri-NATO əməliyyatlarına NATO yardımının göstərilməsi imkanı daxil olmaqla, Alyansın daha

mürəkkəb və tələbkar böhranın idarə olunması tələblərinə cavab verməyə qadir olmaq ehtiyacı, eləcə də yeni riskləri nəzərə alaraq, NATO-nun bütünlükdə hərbi vəziyyəti ilə əlaqədar uzaq hədəfli qərarlar qəbul edilmişdir. Bütün bunlar yeni ordu vəziyyəti və yeni komandanlıq quruluşu, heyətin strukturunun dəyişdirilməsi, terrorçuluğa qarşı müdafiə ilə əlaqədar yeni tədbirlər, NATO-nun Cavab Qüvvələrinin yaradılması, imkanların təkmilləşdirilməsi, Avropa İttifaqı ilə strateji əməkdaşlığın qurulması, tərəfdaş dövlətlərlə gücləndirilmiş əməkdaşlıq və Alyansın Aralıq Dənizi Dialoqunun möhkəmləndirilməsi ilə nəticələndi.

İnkişaf etməkdə olan NATO-nun Böhranlara Cavab Sistemi NATO-nun bu yeni konsepsiyalarını, imkanlarını və tədbirlərini hesaba alır və tamamlayır. Onun məqsədi böhranları lazımi qaydada idarə etmək və onlara müvafiq şəkildə cavablandırmaq üçün NATO dövlət və hökumət başçılarının ardıcıl zirvə görüşlərində qəbul etdikləri qərarların nəticələri kimi təqdim olunmuş alətlər və bacarıqlara tam yiyələnməklə Alyansı hərtərəfli seçim toplusu və tədbirləri ilə təmin etməkdən ibarətdir.

Böhranların idarə edilməsi proseduralarının yoxlanması və inkişafı üçün milli paytaxtlar və NATO Strateji Komandanlıqları ilə birgə müntəzəm şəkildə təlimlər keçirilir. Böhranın idarə olunması prinsipinin asılı olduğu bu cür təlim və tədbirlər, prosedura və imkanlar Şuranın Əməliyyatlar və Təlimlər üzrə Komitəsi (COEC) tərəfindən əlaqələndirilir.

NATO-nun Tərəfdaş dövlətlərinin də iştirak etdiyi böhranların idarə edilməsi fəaliyyətləri Şuranın Əməliyyatlar və Təlimlər üzrə Komitəsi (COEC) tərəfindən əlaqələndirilir və onlar Avro-Atlantika Tərəfdaşlığının İşçi Planı və Fərdi Tərəfdaşlıq Proqramının razılaşdırılmış fəaliyyət sahələri sırasındadırlar. Buraya brifinqlər və məsləhətləşmələr, ekspert səfərləri, böhranların idarə edilməsi üzrə kursları, illik NATO böhranların idarə edilməsi üzrə təlimlərində tərəfdaş ölkələrin iştirakı və maraqlı tərəfdaş ölkələrə ümumi böhranın idarə olunması sənədlərinin təqdim edilməsi daxildir.

Avro-Atlantika məkanında təbii fəlakət və qəzalara və ya fövqəladə hallara böhranın idarə olunması cavabının əlaqələndirilməsi Təbii Fəlakət və Qəzalara Cavab üzrə Avro-Atlantika Əlaqələndirmə Mərkəzi (EADRCC) çərçivəsində həyata keçirilir. Mərkəzin rolu terror hücumlarının nəticələrinin aradan qaldırılmasının idarəçiliyi də daxil olmaqla, mülki fövqəladə hallara və ya təbii fəlakətlərə cavabın əlaqələndirilməsini asanlaşdırmaqdan ibarətdir. Ehtiyac yarandığı zaman mərkəz genişləndirilə bilər və vəziyyət tələb edərsə gecə-gündüz işləmək imkanına malikdir.

3-cü Fəsil

MÜDAFİƏNİN PLANLAŞDIRILMASI SAHƏSİ

Avropada hal-hazırkı siyasi və strateji mühitdə sülhün qorunması və müharibələrin qarşısının alınmasında Alyansın rolunun uğurlu olması keçmişdəkindən daha çox profilaktik diplomatiya və təhlükəsizliyə təsir göstərən böhranların müvəffəqiyyətlə idarə edilməsindən asılıdır. Təhlükəsizliyin və sabitliyin siyasi, iqtisadi, sosial və ətraf-mühit elementlərinin əhəmiyyəti bu səbəbdən artmaqdadır.

Bununla belə Alyansın müdafiə aspekti onun üzv dövlətlərin müdafiəsinə münasibətdə tam qoruyucu rolunun konkret ifadəsidir və bunun köməyilə Avropada sülhün saxlanmasına töhfə verir. Adekvat hərbi bacarıq və ümumi müdafiədə kollektiv hərəkət etməyə aydın hazırlığın qalması Alyansın təhlükəsizlik məqsədinin əsası olaraq qalır. Nəticə etibarilə siyasi həmrəyliklə əlaqələndirilmiş bu potensial istənilən məcburetmə və hədələmə cəhdlərinin qarşısını almağa yönəlmişdir. O həmçinin Alyansa qarşı yönəldilmiş hərbi təcavüzün heç bir perspektivinin olmadığını nümayiş etdirir və bu yolla NATO üzv dövlətlərinin təhlükəsizliyini və ərazi bütövlüyünü təmin edir və Avropanı bütünlüklə Alyansa qarşı olan istənilən təhlükənin nəticələrindən qoruyur.

Hərbi planlaşdırma eyni zamanda bütün NATO-nun böhranların idarə edilməsi və hərbi əməliyyatlarının əsasıdır. Onun fəaliyyət imkanları gözlənilməz, təsadüfi vəziyyətlərin daha geniş dairəsinə keçmişdəkindən daha çox reaksiya vermək imkanı ilə NATO-nu təmin etmək üçün genişləndirilmişdir. Alyans qüvvələri köklü şəkildə yenidən təşkil olunmuşdur ki, adi qorunmadan tutmuş münaqişələrin həlli, sülhün dəstəklənməsi, humanitar müdaxilə və digər operativ vəzifələrə qədər müdafiə siyasəti və planlarının yerinə yetirilməsi bura daxildir.

NATO-nun hərbi planlaşdırmasının əsasını ümumilikdə kollektiv təhlükəsizliyin bazası olan prinsiplər təşki edir: üzv dövlətlər arasında siyasi həmrəylik; üzvlər arasında onların ümumi və fərdi maraqlarına xidmət edən bütün sahələrdə əməkdaşlığın və möhkəm əlaqələrin inkişafı; vəzifələrin və məsuliyyətin bölünməsi, qarşılıqlı öhdəçiliklərin qəbul edilməsi; Alyansın strategiyası və siyasətini dəstəkləmək üçün müvafiq hərbi qüvvələrin saxlanması ilə bağlı ümumi öhdəçilik. Kollektiv müdafiəyə verdikləri töhfənin ölçü və xarakterinin müəyyənləşdirilməsində NATO üzv dövlətləri tam suverenlik və hərəkət azadlıqlarını saxlayırlar. Bununla belə NATO-nun müdafiə strukturunun xarakteri tələb edir ki, üzv dövlətlər fərdi qərarlar qəbul edərkən

Alyansın ümumi tələblərini nəzərə alsınlar. Bu səbəbdən onlar razılaşdırılmış müdafiə planlaşdırılması proseduralarına əməl edirlər. Bu proseduralar Alyans siyasətini həyata keçirmək, milli müdafiə planlarını əlaqələndirmək və hərbi qüvvələrin planlaşdırılması məqsədlərinin formalaşdırmaq üçün lazım olan və Alyansın maraqlarına xidmət edən qüvvələrin müəyyənləşdirilməsi metodologiyası və mexanizmini təmin edir.[1] Planlaşdırma prosesi bir çox faktorları nəzərə alır: buraya siyasi vəziyyətin dəyişməsi; vəzifələrini icra etməsi üçün NATO Strateji Hərbi Komandanlıqlarına lazım olan hərbi qüvvələrin onlar tərəfindən qiymətləndirilməsi; texnoloji yeniliklər; Alyans daxilində rolların, risklərin və məsuliyyətin bərabər bölgüsünün əhəmiyyəti və üzv dövlətərin fərdi iqtisadi və maliyyə imkanları. Beləliklə, bu proses müdafiə məqsədləri üçün təqdim olunmuş kollektiv milli resursların optimal istifadəsini təmin etmək üçün bütün məqbul mülahizələri təmin edir.

Beynəlxalq mülki və hərbi qərargahlar, NATO-nun hərbi rəhbərlikləri və hökumətlər arasında yaxın koordinasiya məlumatların və milli planların illik mübadiləsi vasitəsilə həyata keçirilir. Bu məlumat mübadiləsi hər bir dövlətin niyyətinin NATO-nun ümumi tələbləri ilə müqayisə olunmasına və lazım gəldikdə, nazirliyin yeni siyasi direktivləri, modernizasiya tələbləri və hərbi qüvvələrin özlərinin rollarının və məsuliyyətlərinin dəyişilməsi nöqteyi-nəzərindən yenidən baxılmasına imkan yaradır. Bütün bu aspektlər davamlı nəzarət altındadırlar və hərbi planlaşdırmanın hər bir dövrəsində təhlil olunur.

Hərbi planlaşdırma prosesinin icmalı

2003-cü ildə müdafiə nazirləri tərəfindən göstəriş verilmiş icmaldan sonra dövlət və hökumət başçıları 2004-cü il İstanbul Sammitində Alyansın planlaşdırma proseslərinin cari və gələcək tələblərə daha həssas etməklə bağlı dəyişiklikləri yaxşı qarşıladılar. Razılaşdırılmış dəyişikliklər Alyansın hərbi imkanlarının sonrakı transformasiyasını ardıcıl və asanlaşdırılmış proses vasitəsilə dəstəkləyir. Bu proses Alyansın missiyalarının tamamilə idarə edilməsi üçün lazım olan qüvvə və imkanların inkişafının NATO tərəfindən davam etdirilməsini təmin etmək üçün hazırlanmışdır. Buraya Avropa İttifaqı tərəfindən həyata keçirilə bilən əməliyyatları Avropa Təhlükəsizlik və Müdafiə Kimliyi və AB ilə NATO arasında strateji tərəfdaşlıq baxımından dəstəkləmək aid edilir. Bu baxımdan proses həmçinin bütün Avropa Müttəfiqlərinə onların AB-nin həyata keçirdiyi əməliyyatları idarə etmək üçün operativ planlaşdırmaları kontekstindən NATO dəstəyindən yararlanmaq imkanı verir.

---

[1] *Fransa NATO hərbi qüvvələrinin planlaşdırılmasında iştirak etmir.*

1991-ci ildən etibarən hərbi planlaşdırmanın başlanğıc nöqtəsi Alyansın Strateji Konsepsiyası olmuşdur. Bu konsepsiya Alyansın məqsədləri və onlara nail olmaq yollarını geniş şəkildə ifadə edir. Ilk Strateji Konsepsiya NATO dövlət başçılarının 1999-cu il aprel Vaşinqton Sammitində təsdiq olunmuş Alyansın yeni Strateji Konsepsiyası ilə əvəz olunmuşdur. Müdafiə planlaşdırılmasının icmalı 2003 və 2004-cü illər ərzində Müdafiənin Təhlili üzrə Komitə tərəfindən idarə olunur və bunu nəticəsi özünü NATO hərbi bacarıqlarının transformasiyasını asanlaşdırmaq üçün hazırlanmış dəyişiliklərdə göstərdi. Bu komitə də həmçinin özünün başlanğıc nöqtəsi kimi Strateji Konsepsiyanı və Alyansın yeni vəzifələrinin inkişafını və bütövlükdə təhlükəsizlik mühitinin problem və təkmilini götürür.

Hərbi planlaşdırma geniş mənada planlaşdırma qaydasının ordu və silahlanma planlaşdırmasından tutmuş, maddi texniki təchizat, standartlaşdırma, nüvə planlaşdırması, rabitə, mülki fövqəladə planlaşdırma, hava hücumundan müdafiə (bax: Hissə X) və resurs planlaşdırması kimi aspektlərə qədər böyük spektrini əhatə etdikdə, yuxarıda tədqiq olunan icmalın gedişatında hərbi planlaşdırma sahəsi NATO-nun ordu planlaşdırma proseduralarını və onların bu qaydalarla əlaqəsini əhatə edir. Bu baxımdan hərbi planlaşdırmanın rolu milli və çoxmillətli hərbi planlaşdırma təşkilatçılığını Alyansın razılaşdırılmış tələblərinə ən effektiv yolla uyğunlaşdırmaq imkanı verən strukturu təmin etməkdən ibarətdir. Məqsəd həyata keçirilmə hədəflərini və bu hədəflərə çatmaq imkanlarının dərəcəsini qiymətləndirməklə bütün Alyansın missiyaları üçün tələb olunan milli hərbi qüvvələrin və bacarıqların əldə olunmasını təmin etməkdir.

İcmalın artıq inkişaf etmiş hərbi planlaşdırma prosesinin əsas prinsiplərinin və üç pilləli strukturun saxlanmasını tövsiyə etdi. Bu ilk növbədə hərtərəfli siyasi rəhbərliyə, ikinci rəhbərliyin müəyyən etdiyi məqsədləri yerinə yetirmək üçün razılaşdırılmış planlaşdırma hədəflərinin qəbul edilməsinə və sonda hədəflərin yerinə yetirilməsini yoxlamaq və lazım gələn yerlərdə qaydaya salmaq və düzəlişlər etmək üçün sistematik nəzarət prosesinə əsaslanır. Bununla belə dəyişikliklər planlaşdırma dövrəsinin və ona daxil olan addımların dövriliyinin davamlılığını göstərdi. Yüksək səviyyədə razılaşdırılmış Hərtərəfli Siyasi Göstərişlər və NATO çərçivəsində Şimali Atlantika Şurası və ya Hərbi Planlaşdırma Komitəsinin rəhbərliyi altında hərbi planlaşdırma prosesinin normal proseduralarının tərkib hissəsi kimi dəqiq çərçivə daxilində formalaşdırılmış daha detallaşdırılmış göstərişlər arasındakı fərqi müəyyən edərək siyasi rəhbərliyin və onun əsaslandığı səviyyənin inkişafında da dəyişikliklər edildi.

Siyasi rəhbərlik NATO-nun “ambisiyalar səviyyəsi” kimi tanınan konsepsiyasının müzakirəsini də əhatə edəcək. Bu NATO-nun həyata keçirilməli olduğu əməliyyatların sayı, miqyası və xarakterinin üzv hökumətlər tərəfindən razılaşdırılmış qiymətləndirilməsinə aiddir. Həmin qiymətləndirməyə əlavə olaraq qüvvə planlaşdırmasına münasibətdə siyasi göstərişlər Hərbi Planlaşdırma Komitəsində toplaşan müdafiə nazirlikləri tərəfindən razılaşdırılmış göstərişləri və səfirlər səviyyəsində daimi sessiyalarda görüşən Hərbi Planlaşdırma Komitəsinin razılaşdırdığı əlavə göstərişləri də əhatə edir.

İcmalın əks etdirdiyi və hərbi planlaşdırma prosesindəki dəyişikliklərə gətirib çıxaran iki digər spesifik sahə də qeyd edilməlidir. İcmal ilk növbədə NATO və AB arasında hərbi planlaşdırma və imkanların təkmilləşdirilməsi sahəsində əməkdaşlığı möhkəmləndirən tədbirlərin planlaşdırma proseduraları çərçivəsində birləşdirilməsinə icazə verir. Avropa İttifaqı tərəfindən həyata keçirilən əməliyyatların daha hərtərəfli aparılması üçün hərbi qüvvələrin əldə edilməsi məsələsini təmin etmək üçün hazırlanmışdır. İkinci, icmal bütün hərbi planlaşdırma qaydalarının daha yaxşı əlaqələndirilməsinə və harmonizasiyasına olan ehtiyacı qəbul edir və müvafiq sahələrdə görülməli digər işlərin təmin edilməsini əhatə edir.

İcmalın tövsiyələrinə əsasən prosesin birinci mərhələsində tələb olunan, hər dörd ildən bir müdafiə nazirləri tərəfindən verilən və lazım gəldikdə iki ildən bir təzələnmək imkanı olan göstərişlər “Nazirlik Direktivi” adlanan sənəddə öz əksini tapır. Bu hərbi planlaşdırmaya və xüsusilə də ordu planlaşdırılmasına dair hərbi qüvvələrin və bacarıqların və onların strateji əhəmiyyətinə təsir edə biləcək siyasi, iqtisadi, texnoloji və hərbi amilləri əks etdirən göstərişlər verir. O həmçinin Hərbi qüvvələrin formalaşdırılmasının planlaşdırılması zamanı NATO hərbi orqanlarının, digər tərəfdən isə ayrı-ayrı üzv dövlətlərin öz planlaşdırması zamanı onların böyük diqqətini tələb edən və narahatçılığına səbəb olan birinci dərəcəli vəzifə və məsələlər müəyyən edilir. Kollektiv müdafiə və Vaşinqton müqaviləsinin tətbiq dairəsindən kənarda olan vəziyyətin dəyişməsi zamanı zəruri olan hərbi qüvvələrin planlaşdırılması və potensialın yaradılması məsələləri də direktivdə nəzərdən keçirilir[1]. O həmçinin digər təşkilatlarla əməkdaşlığa dair göstərişlər verə bilər və 1997-ci ildən etibarən Avropa tərəfindən həyata keçirilən əməliyyatların müvafiq şəraitini müəyyən edən siyasi göstərişləri də əhatə edir.

---

[1] *Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsində NATO üzvlərinə qarşı güc tətbiq etməmək barədə danışılır və belə bir prinsip öz əksini tapıb ki, üzvlərin istənilə birinə qaşı hücum hamısına qarşı hücum hesab olunur. Şimali Atlantik Alyansının 5-ci maddənin təsir dairəsindən kənara çıxan fəaliyyəti ümumi şəkildə “5-ci maddəyə aid olmayan əməliyyatlar” adlanır.*

Planlaşdırma hədəfləri və hərbi qüvvələrin məqsədləri

Hər bir üzv dövlətin silahlı qüvvələrinin spesifik planlaşdırma hədəfləri nazirlik direktivlərinin əsasında inkişaf etdirilir. Başlanğıc nöqtəsi NATO Strateji Komandanlıqları tərəfindən hərbi tələblərin tanınması olan bu hədəflər Müttəfiqlərin Transformasiya Komandanlığı tərəfindən irəli sürülmüş silahlı qüvvələr layihəsinin təklifi əsasında inkişaf etdirilmiş və Şimali Atlantika Şurası tərəfindən Müttəfiqlərin Əməliyyatlar Komandanlığının üzərinə qoyulmuş operativ missiyaları tam həcmdə həyata keçirmə imkanı vermək üçün hazırlanmış NATO hərbi qüvvələrinin məqsədlərini əhatə edir. Layihə təklifləri NATO Hərbi Komitəsində kollektiv şəkildə tədqiq olunana qədər ayrı-ayı xalqlar tərəfindən müzakirə edilir və lazım gəldikdə düzəlişlər edilir. Bu tədqiqat təkliflərin hərbi cəhətdən asılılığını və texniki cəhətdən icra edilə bilinməsini nəzərə alır və Hərbi Komitənin gəldiyi nəticələrə əsaslanaraq hərbi qüvvələrin məqsədləri layihəsi şəklində bəyənilmək üçün və NATO hərbi qüvvələrinin məqsədləri kimi rəsmi təsdiq olunmaq üçün Hərbi Planlaşdırma Komitəsinə təqdim olunur. Hərbi qüvvələrin məqsədləri bəzi hallarda üzv hökumətlərin sorğularına cavab olaraq tərtib edilmiş yenidən sərmayə məqsədləri ilə tamamlana bilər. Bu, bir tərəfdən daha Alyansın tələblərinə cavab vermək üçün zəruri olmayan və kənarlaşdırıla bilən hərbi qüvvələrin elementlərinin tanınmasını və digər tərəfdən resurslar vasitəsilə yerinə yetirilə bilən və buna görə də azad edilə bilən digər üstün əhəmiyyətli imkanların tanınmasını birləşdirir.

Bu məqsədlər 4 illik müddəti əhatə edir, lakin müəyyən hallarda gələcək üçün də hədəf kimi qalır. Şərait tələb edəndə məqsədlərin təzələnməsini təmin edən proseduralar var və bu adətən planlaşdırılmış silsilənin ortalarında həyata keçirilir.

Müdafiənin xülasəsi

Hərbi qüvvələrin planlaşdırılması silsiləsinin üçüncü mərhələsi hər iki ildən bir baş tutan və on iki aydan bir qədər çox müddətdə həyata keçirilən müdafiəyə yenidən keçirilməsi prosesidir. Bu proses qüvvələrin planlarının fərdi və kollektiv şəkildə nəzərdən keçirilməsi, qiymətləndirilməsindən və on illik plan müddətinə razılaşdırılmış NATO hərbi məqsədlərinin meyarlarının əksinə olaraq hesablanmış ayrı-ayrı üzv dövlətlərin müvafiq maliyyə planından ibarətdir. Müdafiənin yenidən nəzərdən keçirilməsi iki məqsədə xidmət edir. Bu NATO hərbi məqsədləri, hədəf nəticələri və dövlətlərin həyata keçirə biləcəyi hədəfləri çərçivəsində ayrı-ayrı ölkələrin öz hədəflərinə çatma

dərəcəsini qiymətləndirməyə imkan verir. Bu, həmçinin Alyansın birləşdirilmiş hərbi qüvvələrinin və bacarıqlarının nə dərəcədə cari plan sikli üçün qəbul olunmuş siyasi direktivlərə uyğun olmasını qiymətləndirməyə icazə verir. Bu qiymətləndirmələr artan çoxmillətli əməkdaşlığın təklif etdiyi üstünlüklər kimi qüsurları da üzə çıxarmağa imkan verən ölçüləri və islahedici mexanizmləri əks etdirir. Ümumiyyətlə qiymətləndirmə Alyansın imkanlarına və hərbi əməliyyatlarına verilən töhfələr yükünün üzv ölkələr arasında nə dərəcədə bərabər paylanmasının müəyyən edilməsini təmin edir.

Müdafiəyə nəzarətin idarə edilməsi özü Hərbi Planlaşdırma üzrə Sorğunun hazırlanmasından və ona verilən cavabların təhlilindən başlayan yaxşı formalaşdırılmış mexanizmləri irəli sürür. Sorğunun cavabları NATO-nun beynəlxalq hərbi planlaşdırma heyətinin və iki Strateji Komandanlığın daxil etdiyi məlumatlara əsaslanan "Ölkələrin Hesabatı" layihəsində öz əksini tapır. Hər bir üzv dövlətlə adətən müvafiq olaraq onların paytaxtlarında baş tutan üçtərəfli görüşlərdən sonra düzəlişlər edilmiş "Ölkələrin Hesabatı" Müdafiənin Təhlili üzrə Komitə səviyyəsində çoxmillətli tədqiqata təqdim olunur. Bu xüsusilə milli və NATO hərbi məqsədləri və planlarının arasındakı mümkün fərqləri uyğunlaşdırmaq məqsədi daşıyır. Bu tədqiqat bitdikdən sonra "Ölkələrin Hesabatı" Hərbi Planlaşdırma Komitəsinin nazirlər səviyyəsində yaz iclasında ona təqdim olunması üçün ümumi məruzənin fərdi milli əlavələrinə çevrilir.

Bu proses NATO-nun birləşdirilmiş hərbi strukturunda iştirak edən hər bir üzv ölkədə bir neçə ay müddətində təkrar olunur və Əsas Məruzənin hazırlanması ilə başa çatır. Sonuncuya Hərbi Komitənin yaradılan NATO Qüvvələr Planının hərbi yararlılığı və onunla əlaqədar hərbi riskin dərəcəsi haqqında məruzələr də daxildir. Nəhayət Əsas Məruzə Avropa İttifaqının müvafiq orqanları ilə əlaqələndirilmiş və müvafiq Avropadan olan üzv ölkələrin töhfələrinə əsaslanan, formalaşan planın AB qüvvələri və imkanlarının tələblərinə uyğun olmasının nə dərəcədə gözlənildiyini şərh edən bölmələri əhatə edir.

Qüvvələrin planlaşdırma prosesi bütövlükdə daha bir elementi də əhatə edə bilər ki, bu element Alyansın müdafiəsinin və onun qüvvələr planlarının hazırkı və gələcək vəziyyəti barədə öz fikirlərini bildirən NATO Baş Katibi tərəfindən istənilən zaman təqdim oluna bilən Müdafiə Planlaşdırılmasının Tam Yekun Qiymətləndirilməsi formasında öz əksini tapır. Bu qiymətləndirmə xüsusi milli planlarla əlaqədar məqamları üzə çıxarmağa xidmət edə bilər, müdafiə nazirləri müzakirə olunmalı məsələləri müəyyən edə bilər və hərbi planlaşdırmanın bir-biri ilə digər hallarda əlaqəsi mümkün olmayan müxtəlif sahələri arasında əlaqələr yarada bilər.

NATO hərbi və qüvvə planlaşdırma proseduralarının yuxarıdakı elementlərinin bir çoxu Sülh Naminə Tərəfdaşlıq strukturu çərçivəsində NATO və Tərəfdaş ölkələrinin hərbi strukturları arasında qarşılıqlı təsir qabiliyyətini gücləndirmək vasitələri kimi tədricən daha çox istifadə olunur, Tərəfdaş ölkələrdə hərbi islahatlar prosesinə kömək edir və bu ölkələrin NATO tərəfindən həyata keçirilən əməliyyatlarda iştirakını asanlaşdırır.

4-cü Fəsil

ÜMUMİ MALİYYƏ RESURSLARI, BÜDCƏ, MALİYYƏNİN İDARƏ EDİLMƏSİ

NATO hökumətlərarası təşkilatdır və üzv dövlətlər onun gündəlik əsaslarda fəaliyyəti üçün lazımı vasaitləri ayırır və məsləhətləşmələrin aparılması, qərarların qəbul edilməsi və razılaşdırılmış siyasət və fəaliyyətlərin sonradan həyata keçirilməsi üçün vasitələrlə təmin edir. O, üzv dövlətlərin ümumi müdafiəsini, NATO tərəfdaş ölkələri ilə əməkdaşlığı və sülhməramlı və digər sahələrdə Alyansın siyasətinin həyata keçirilməsini təmin edən hərbi struktur tərəfindən dəstəklənir. NATO məhdud sayda daimi qərargahlar və kiçik sayda daimi qüvvələrdən ibarət olduğundan, resurs baxımından üzv dövlətlərin NATO-ya töhfələrinin böyük əksəriyyəti dolayı olaraq milli silahlı qüvvələrinə xərclərindən və onların çoxmillətli əməliyyatlarda iştirak edə bilməsi üçün digər üzv dövlətlərin qüvvələri ilə uyarlılığını təmin etmək səyləri vasitəsi ilə gəlir. Üzv ölkələr həmçinin öz qüvvələrini NATO tərəfindən həyata keçirilən əməliyyatlarda iştirak etmək üçün təqdim edərkən onların əlaqəli xərclərini öz üzərilərinə götürürlər.

Beləliklə, bəzi istisnalarla, NATO xətti ilə maliyyələşdirmə hərbi qüvvələrin və ya gəmilər, sualtı qayıqlar, təyyarələr, tanklar, artilleriya və ya silah sistemləri kimi fiziki döyüş vəsaitlərinin əldə edilməsi xərclərini əhatə etmir. Vacib istisna üzv dövlətlərin birgə əldə etdiyi, onlara məxsus və onlar tərəfindən saxlanılan, idarə olunan radardaşıyıcı təyyarələr flotiliyasından ibarət NATO Havadan erkən Xəbərdarlıq və Nəzarət Qüvvəsidir ki, bu da NATO Strateji Komandanları qarşısında məsuliyyət daşıyan NATO Qüvvələr Komandanının operativ komanda və nəzarətinə verilmişdir. NATO, həmçinin, təmin olunması hər hansı bir üzv ölkənin məsuliyyəti çərçivəsinə aid olunması mümkün olmayan hava hücumundan müdafiə, komanda və idarəetmə sistemləri və Alyans miqyaslı rabitə sistemi kimi müxtəlif sahələrdə kollektiv tələblərin ödənilməsinə yönəlmiş sərmayələri maliyyələşdirir. Belə sərmayələr dəyişən tələblərə və texnoloji inkişafa uyğun olaraq texniki xidmətə, yenilənmə və yekun olaraq dəyişilməyə məruz qalırlar. Bunun tələb etdiyi xərclər NATO maliyyəsinin mühüm hissəsini təşkil edir.

Üzvlərin ödəmə imkanlarına uyğun olaraq geniş şəkildə hesablanaraq razılaşdırılmış xərclər bölgüsünə əsasən dövlətlər bilavasitə NATO tərəfindən idarə olunan büdcələrə birbaşa ödəmələr edir. Bu ödəmələr hər bir üzv dövlətin bütün müdafiə büdcəsinin kiçik faizini əks etdirir və ümumi qayda olaraq özlərinin də iştirak etdiyi NATO strukturunun hissələrinin xərclərini

maliyyələşdirir. NATO çərçivəsində edilən bu ödəmələr adətən ümumi maliyyələşdirmə prinsipinə uyğundur.

Layihələr həmçinin birgə maliyyələşdirilə bilinər, bu isə o deməkdir ki, iştirakçı dövlətlər ehtiyacları, prioritetləri və maliyyələşdirmə məsələlərini müəyyən edə bilər. Lakin, NATO-nun mövcudluğu var və o, siyasi və maliyyə nəzarətini həyata keçirir. Birgə maliyyələşdirmə məsələləri adətən idarəetmə təşkilatının, və təyyarə və vertolyot istehsalı, hava hücumundan müdafiə və maddi-texniki təchizat kimi sahələrdə icraçı qurumun yaradılmasına gətirib çıxarır. Bundan əlavə, NATO üzv dövlətləri NATO çərçivəsində birdəfəlik əsaslarda bir sıra digər, daha məhdud, fəaliyyətlərdə əməkdaşlıq edə bilər. Bu əməkdaşlıq etimad fondu məsələlərini, əmtəə şəklində töhfələr, birdəfəlik xərclər bölgüsü razılaşmaları və ianələr formasını ala bilər.

Ümumi maliyyələşdirmə

Yuxarıda açıqlandığı kimi, resursların böyük əksəriyyəti milli səlahiyyətdədir. NATO resurs planlaşdırılmasının məqsədi Alyansın ehtiyacı olan qabiliyyətlə təmin etməkdir, lakin onun əsas diqqəti ümumi maliyyələşdirmədə olan elementlərə, başqa sözlə NATO çərçivəsində üzvlərin toplam resurslarına yönəlir. Xərcə ehtiyac yarandığı müəyyən edildikdə, potensial töhfə verən dövlətlər arasında ümumi maliyyələşdirmə prinsipinin tətbiq edilib edilməyəcəyi – başqa sözlə tələblərin bütün töhfə verən dövlətlərin mənafeyinə xidmət edib-etmədiyini və buna görə də bu xərcləri kollektiv şəkildə öz üzərilərinə götürüb götürməyəcəklərini müəyyən etmək üçün müzakirələr keçirilir.

Ümumi maliyyələşdirmənin strukturu müxtəlif və əks-mərkəzləşdirilmişdir. Tədqiqat, inkişaf, istehsal və maddi-texniki dəstəklə bağlı müəyyən çoxtərəfli əməkdaşlıq fəaliyyətləri bütün dövlətləri əhatə etmir, və bəzi hallarda az sayda üzv dövlətləri əhatə edə bilər. Böyük hissəsi NATO İstehsal və Maddi-Texniki Təminat Təşkilatları tərəfindən idarə olunan belə fəaliyyətlərin böyük hissəsi NATO-nun ümumi maliyyə və audit qaydalarına tabedir, digər hallarda isə Şimali Atlantika Şurasının təqdim etdiyi nizamnamə əsasında faktiki olaraq virtual muxtariyyətdə fəaliyyət göstərir.

Ümumi maliyyələşdirmə meyarları daima nəzərdən keçirilir və yeni halların – məsələn, beynəlxalq büdcəyə ayrılmalı və milli büdcələr tərəfindən maliyyələşdirilməli olan NATO-nun böhrana reaksiya xərclərinin hissələrinin müəyyən edilməsini inkişaf etdirmək zərurətinin meydana gəlməsi nəticəsində dəyişə bilər. Digər dəyişikliklər təşkilati və texnoloji inkişaf və ya sadəcə xüsusi maliyyələşdirmə məhdudiyyətləri çərçivəsində tələblərə cavab ver-

mək üçün xərcləri idarə etmək zərurətindən irəli gələ bilər. Bu çağırışlara baxmayaraq, konsensus əsasında ümumi maliyyələşdirmə prinsipi Alyansın işində fundamental olaraq qalır.

Ümumi maliyyələşdirmə məsələləri NATO-nun Mülki və Hərbi Büdcələrini, həmçinin NATO Təhlükəsizliyə Sərmayəsi Proqramını (NTSP) əhatə edir. Bunlar, Alyansın əsas məqsəd və prioritetlərinə uyğun olaraq NATO orqanları tərəfindən tələblərin müəyyənləşdirildiyi və prioritetlərin qurulduğu yeganə fondlardır.

Mülki büdcə

Mülki Büdcə NATO-nun Strateji Məqsədləri və onlara nail olmaq üçün tələb olunan resurslar arasında aydın əlaqələr quran məqsədə əsaslanan çərçivə kimi formalaşdırılmışdır. O, dörd əsas və üç köməkçi məqsədə nail olmaq üçün tələb olunan heyət xərcləri, fəaliyyət xərcləri, kapital və proqram xərclərini maliyyə ilə təmin edir.

Əsas məqsədləri aşağıdakılardır:

- Avro-Atlantik məkanda və ondan kənarda NATO əməliyyatlarına dəstək vermək üçün effektiv siyasət, planlaşdırma və resurslarla təmini;
- Alyansın təkmil imkanlarını inkişaf etdirmək və onlara dəstək vermək üçün zəruri siyasət və planlaşdırmanın aparılması;
- Avro-Atlantik regionda yeni təhlükəsizlik çağırış və hədələrə cavab vermək və təhlükəsizliyi gücləndirmək üçün tərəfdaşlarla məsləhətləşmə və əməkdaşlıq fəaliyyətini dəstəkləmək;
- İctimai diplomatiya vasitəsilə NATO-nun, onun əməliyyatlarının və onun təhlükəsizliyin təminində rolu haqqında məlumatlar yaymaq və ona dəstək vermək.

Köməkçi məqsədlər aşağıdakılardan ibarətdir:

- Şimali Atlantika Şurasını, yardımçı komitələri və Beynəlxalq Katibliyi peşəkar və köməkçi xidmətlərlə təmin etmək;
- NATO Mənzil Qərargahının vasitələrinin və sahəsinin fəaliyyətinin və saxlanılmasının təmin edilməsi;
- NATO-nu əhatə edən təhlükəsizlik siyasətinin təmin edilməsi və bütün Qərargah heyəti və əməliyyatları üçün sağlam və təhlükəsiz mühitin təmin edilməsi.

Mülki Büdcə əsasən hər bir üzv dövlətin xarici işlər nazirliyi tərəfindən maliyyələşdirilir, Mülki Büdcə Komitəsi tərəfindən nəzarət edilir və NATO Beynəlxalq Katibliyi tərəfindən icra olunur.

Hərbi büdcə

Hərbi büdcə beynəlxalq hərbi strukturun fəaliyyət və saxlanma xərclərini əhatə edir.

Buraya, məsələn, Hərbi komitə, Beynəlxalq Hərbi Katiblik, hərbi agentliklər, iki strateji komandanlıq və birləşmiş komandanlıq, nəzarət və rabitə sistemləri, tədqiqat və inkişaf agentlikləri və NATO-nun Havadan erkən Xəbərdarlıq və Nəzarət Qüvvələri daxildir. Hərbi büdcə həmçinin böhrana cavab əməliyyatlarının komandanlıq strukturları və NATO tərəfindən həyata keçirilən missiyaların əməliyyat xərclərini əhatə edir.

Bu büdcə əsasən hər bir üzv dövlətin müdafiə nazirlikləri tərəfindən maliyyələşdirilir, Hərbi Büdcə Komitəsi tərəfindən nəzarət edilir və fərdi büdcə sahibləri tərəfindən icra olunur.

NATO-nun Təhlükəsizliyə Sərmayə Proqramı

NATO-nun üzv dövlətləri həmçinin NATO-nun Təhlükəsizliyə Sərmayə Proqramına (NSIP) ödəmələr edir. Bu, NATO strateji komandanlıqlarının rolunu dəstəkləmək üçün zəruri olan, lakin ayrı-ayrı üzv dövlətlərin milli müdafiə tələblərindən kənara çıxan əsas tikinti, komandanlıq və nəzarət sistemi sərmayələrini əhatə edir. Həm Hərbi Büdcə, həm də NSIP "artıq və yuxarı" qaydası ilə idarə edilir: "Ümumi Maliyyələşdirmə milli resurslardan əldə olunmasının gözlənilməsi ağlabatandan artıq və yuxarı olan tələblərin təminatı üzərində diqqətini cəmləşdirir". NSIP, məsələn, böhrana cavab əməliyyatları və hərbi qurğular, rabitə və informasiya sistemləri, hava komandan və nəzarət sistemi, peyk rabitəsi, hərbi qərargahlar, aerodrom, yanacaq kəmərləri və anbarları, liman və gəmiçiliyə yardım kimi qabiliyyətləri əhatə edir.

NSIP hər bir üzv dövlətin müdafiə nazirliyi tərəfindən maliyyələşdirilir və İnfrastruktur üzrə Komitə tərəfindən nəzarət edilir. Layihələr ev sahibi olan ayrı-ayrı dövlətlər və ya ekspertiza sahəsindən asılı olaraq müxtəlif NATO agentlikləri və strateji komandanlıqları tərəfindən həyata keçirilir.

Resursların idarə edilməsi

1990-cı illərin ortalarından etibarən birgə maliyyələşdirilən hərbi resursların təxsisatlarının optimallaşdırılması ilə bağlı təzyiqlər altında üzv dövlətlər NATO-nun idarəetmə strukturunu qabiliyyət paketlərinin inkişafının həvəsləndirilməsi və NATO-nun hərbi resurslarının bütövlükdə (Mülki Büdcənin əhatə etdiyi resurslar istisna olmaqla) idarə edilməsinə cavabdeh olan Resurslar üzrə Ali Şuranın (SRB) yaradılması ilə möhkəmləndirdilər.

Qabiliyyət paketləri NATO-nun hərbi komandirləri tərəfindən xüsusi tapşırıqları yerinə yetirmək üçün mövcud və onlara tələb olunan vəsaitləri müəyyən edir. Onlar birgə maliyyələşdirilən əlavələrin (həm kapital qoyuluşu və dövri əməliyyatlar, həm də xidmət məsrəfləri mənasında), həmçinin vəzifələri yerinə yetirmək üçün tələb olunan mülki və hərbi kadrların qiymətləndirilməsi üçün əsas vasitələrdir. Bu paketlər milli nümayəndələri, Hərbi Komitənin və NATO Strateji Komandanlarının və Hərbi Büdcə, İnfrastruktur, NATO-nun İşçi Qüvvəsi üzrə Müdafiə Komitələri nümayəndələrindən ibarətdir. Şura qabiliyyət paketlərinin müvafiq olaraq Şimali Atlantika Şurası və ya Hərbi Planlaşdırma Komitəsi tərəfindən təsdiqlənməsinə qədər, onları resurslara olacaq nəticələri nöqteyi-nəzərindən təsdiq edir. O, həmçinin hər il növbəti il üçün maliyyə tavanını və dörd növbəti il üçün plan rəqəmlərini müəyyən edən müfəssəl Ortamüddətli Resurslar Planını Şimali Atlantika Şurası tərəfindən təsdiqlənməsi üçün tövsiyə edir.

Bu parametrlər daxilində Hərbi Büdcə, İnfrastruktur və İnsan Qüvvəsi üzrə Müdafiə Komitələri öz müvafiq büdcə və planlarının hazırlanması və icrasına nəzarət edir. Şura sonra İllik Məruzə hazırlayır və bu məruzə, Şimali Atlantika Şurasına imkan verir ki, tələbatlara münasibətdə resursların bölüşdürülməsinə nəzarət etsin və birgə maliyyələşdirilən hərbi resursların Alyansın yeni siyasətlərinin NATO-nun birgə maliyyələşdirdiyi büdcələr üçün nəticələrini nəzərdən keçirsin.

Maliyyənin idarə edilməsi

NATO çərçivəsində maliyyə fəaliyyətinin idarə edilməsi elə qurulmuşdur ki, müəyyən edilən fəaliyyət növünün məsrəflərini ödəyən üzv dövlətlərin xərclər üzərində yekun nəzarəti təmin olunsun. Bu nəzarət həmin dövlətlər arasında konsensusa əsaslanır.

Nəzarət ümumi (fəaliyyət xərcləri üçün bəlli resursların ayrılması) və ya spesifik məhdudiyyətlər (kreditlərin müvəqqəti dondurulması və ya xüsusi iqtisadi tədbirin görülməsi) çərçivəsində qərar qəbuletmənin bütün səviyyələrində həyata keçirilə bilər. Bu nəzarət formaları büdcə təsdiq olunarkən nəzərdə tutula və ya büdcənin icrası prosesində töhfə verən dövlətlər tərəfindən istisna müdaxilələr vasitəsilə həyata keçirilə bilər. Baş Katib, NATO Strateji Komandanları və Tabeli Komandirlər və NATO orqanlarının digər təyin olunmuş başçıları kimi maliyyə menecerləri öz büdcələrini təklif etmək və icra etmək üçün nisbi səlahiyyətə malikdirlər.

Heç bir ayrı orqan təşkilatın maliyyə strukturunun dörd prinsipial elementinin hamısı üzərində birbaşa idarəetmə nəzarətini həyata keçirmir:

Beynəlxalq Katiblik (Mülki Büdcədən maliyyələşdirilir); beynəlxalq hərbi struktur (Hərbi büdcədən maliyyələşdirilir); Təhlükəsizliyə Sərmayə Proqramı; və ixtisaslaşmış İstehsal və Maddi-texniki Təminat Təşkilatları. Sonuncu iki qrupa bölünür: beynəlxalq hərbi struktura tətbiq olunan razılaşmalara əsasən maliyyələşdirilən təşkilatlar; və Şimali Atlantika Şurası tərəfindən təqdim olunmuş nizamnamələr çərçivəsində fəaliyyət göstərən təşkilatlar. Bu cür təşkilatların öz direktorlar şurası və maliyyə komitələri, həmçinin milli xəzinədarlıqlarda ayrıca maliyyələşmə mənbələri var.

Təşkilati büdcələr üzrə maliyyə idarəçiliyi

Mülki və Hərbi Büdcələr üzrə maliyyə idarəçiliyi NTSP üçün olan idarəçilikdən fərqlənir. Maliyyə tənzimləmələri bütün maliyyə strukturlarının aydın qurulduğu əsas birləşdirici prinsipləri təmin edir. Bunlar Şimali Atanrika Şurası tərəfindən təqdim olunur və NATO-nun spesifik orqan və proqramlarının qayda və prosedurlarına uyğunlaşdırılması ilə tamamlanır.

Büdcə təqvim ili ilə üst-üstə düşərək illik tərtib olunur. O, müvafiq NATO orqanının Başçısının rəhbərliyi altında hazırlanır. Sonra töhfə verən üzv dövlətlərin nümayəndələrindən təşkil olunmuş maliyyə komitəsi tərəfindən konsensus əsasında nəzərdən keçirilir və təsdiq edilmək üçün tövsiyə edilir. Bundan sonra isə Şimali Atlantika Şurası tərəfindən icra üçün təsdiqlənir. Maliyyə ilinin başlanmasından əvvəl konsensusun əldə edilməsində uğursuzluq büdcənin təsdiq olunmaması və maliyyə komitəsinin nəzarəti altında əvvəlki ilin təsdiq olunmuş büdcəsi səviyyəsində məhdudlaşdırılmış müvəqqəti bölgü vasitəsilə əməliyyatların maliyyələşdirilməsi ilə nəticələnir. Bu rejim altı ay davam edə bilər. Bundan sonra Şura büdcəni təsdiq etmək və ya müvəqqəti maliyyələşdirmənin davam etdirilməsinə dair qərar verməlidir.

Büdcə təsdiq olunanda NATO-nun müvafiq orqanının Başçısı nəzərdə tutulmuş məqsədlər üçün ayrılmış vəsaitləri icra etmək üçün səlahiyyətlər əldə edir. Bu səlahiyyətlərin Maliyyə Tənzimlənmələrində qeyd edilmiş müxtəlif hədlərlə məhdudlaşdırılır. Bu cür məhdudiyyətlər mal və xidmətlərin təmini kontraktları üçün rəqabətli hərrac, və ya lazımi vəsaitlərin artıqlığına və ya çatışmazlığına düzəlişlər etmək üçün kredit köçürmələrindən istifadə kimi məsələləri ehtiva edir. Büdcənin icra edilməsi səlahiyyəti öhdəliklər və xərclər üçün qabaqcadan təsdiqin alınması ilə bağlı xüsusi tələblərlə daha çox məhdudlaşdırıla bilər. Bunlar, Maliyyə Komitəsinin bəzən yeni siyasətlərin qəti şəkildə tətbiq olunmasının tətbiq edilməsi naminə və ya təşkilati yenidənqurma proqramı kimi kompleks proqramlarının həyata keçirilməsinə nəzarət məqsədilə edilə bilinər.

NATO-nun Təhlükəsizliyə Sərmayə Proqramının (NSIP) maliyyə idarəçiliyi

NATO-nun Təhlükəsizliyə Sərmayə Proqramının (NSIP) həyata keçirilməsinin başlanğıc nöqtəsi qabiliyyətlər paketindədir. Onların təsdiqindən sonra İnfrastruktur Komitəsinin səlahiyyətləri çərçivəsində digər ayrı-ayrı layihələrin təsdiq edilməsi başlanır. Ev sahibi Dövlət (ya ərazisində layihə həyata keçirilməli olan dövlət, ya NATO agentliyi, ya da strateji komandanlıq) layihənin təsdiqi üçün müraciət hazırlayır. Komitə layihəyə razılıq verdikdə Ev Sahibi Dövlət layihənin sonuncu quruluşunu, kontraktın imzalanmasını və həyata keçirilməsini davam etdirə bilər. Əgər İnfrastruktur Komitəsi tərəfindən başqa cür razılaşdırılmayıbsa, tender prosesi layihəyə töhfə verən dövlətlərin şirkətləri arasında davam edir.

NSIP-ə tətbiq edilən maliyyə idarəçiliyi sistemi beynəlxalq maliyyə klirinqi (banklar arasında qarşılıqlı hesablaşmalar sistemi) prosesinə əsaslanır. Ev Sahibi Dövlətləri öz məsuliyyətləri çərçivəsində təsdiq edilmiş layihələr üzrə gözlənilən xərclər barədə hesabat verirlər. İnfrastruktur Komitəsi tərəfindən proqnozların razılaşdırılmasından sonra Beynəlxalq Katiblik hər bir dövlət tərəfindən ödənilməli və hər ev sahibi dövlət tərəfindən qəbul edilməli olan məbləğləri hesablayır. Sonrakı hesablamalar ödəniş məbləğlərini, valyutaları və hansı dövlət və ya NATO agentliyinin maliyyəni alacağını (bunlar hər kvartal üçün hesablanır) müəyyən edir. Layihə başa çatdırıldıqdan sonra Birgə Yekun Təhvil Təftişinə verilir ki, yerinə yetirilmiş işin icazə verilmiş imkanlara uyğun olduğu təmin edilsin. Bu hesabat İnfrastruktur Komitəsi tərəfindən qəbul olunan kimi NATO inventarına əlavə edilir.

Maliyyə üzrə hesabatların bir neçə səviyyəsi var. Beynəlxalq Katiblik ildə iki dəfə hər bir Ev Sahibi Dövlət üçün həyata keçirilən layihələr haqqında yarımillik maliyyə hesabatları hazırlayır. Rüblük ödənişdən əvvəl ödəniş cədvəlləri nəşr olunur. Bu hesabatlar Ev Sahibi Dövlətləri arasında maliyyə vəsaitlərinin köçürülməsini əks etdirir. Hər ilin yazında növbəti müddət üçün NSIP-nin Məxaric Planı hazırlanır ki, burada da Proqramın yaxın on il üçün xərclərinin səviyyəsi əks olunur. NSIP-in Maliyyə Hesabatı hər ilin yazında tərtib olunur. O hər ilin 31 dekabrına qədər NSIP-nin maliyyə vəziyyətini və il ərzində fəaliyyətin xarakterini təsvir edir. Bu hesabatlar İnfrastruktur Komitəsinin NSIP vəziyyətinin müzakirələri üçün əsas rolunu oynayır.

Maliyyə Nəzarəti

Hərbi və mülki büdcələrə gəldikdə, onların düzgün hazırlanması və icrası üçün son məsuliyyəti NATO-nun müvafiq orqanının rəhbəri daşıyır,

lakin bu vəzifənin inzibati təminatının böyük hissəsi onun maliyyə nəzarətçisinə tapşırılıb. Bu vəzifəli şəxsin təyin edilməsi Şimali Atlantika Şurasının səlahiyyətindədir, lakin Şura bu səlahiyyətini müvafiq maliyyə komitəsinə ötürə bilər. Nəzərdə tutulan əməliyyatla bağlı NATO-nun müvafiq orqanının rəhbəri ilə ciddi fikir ayrılıqları meydana gəldikdə bütün maliyyə nəzarətçilərinin son instansiya qismində maliyyə komitəsinə müraciət etmək hüququ var. NSIP-nin maliyyə fəaliyyətinin idarə edilməsinə görə məsuliyyət İnfrastruktur Nəzarətçisinin üzərinə düşür. O, peşəkar heyət vasitəsilə maliyyə və icra nəzarətini həyata keçirir.

Maliyyə Nəzarətçisi büdcənin icrasının bütün aspektləri və təsdiq olunmuş xərclərlə, maliyyə komitəsi və Maliyyə Qaydalarının tətbiq etdiyi xüsusi nəzarət tələblərinə uyğunluğunu, həmçinin müvafiq icra və prosedur qaydalarının yerinə yetirilməsini təmin etməlidir. O, həmçinin, daxili auditin həyata keçirilməsinə cavab olaraq hesabatlılığı təmin etmək üçün əlavə zəruri nəzarət və prosedur vasitələrini müəyyən edə bilər.

NATO strateji komandanlıqlarının Maliyyə Nəzarətçilərinin (Müttəfiq Qüvvələrin Avropada Ali Komandanlığının və Müttəfiq Qüvvələrin Ali Transformasiya Komandanlığının Maliyyə Nəzarətçiləri. Bu komandanlıqlar haqqında əlavə məlumat üçün Hissə III bax) əsas vəzifəsi üzv dövlətlər arasında razılaşdırılmış xərclərin bölgüsünə və beynəlxalq xəzinədə həddindən artıq nağd pulun yığılmasının qarşısını almağa imkan verən ölçülərə əsasən büdcənin icrasını maliyyələşdirmək üçün tələb olunan maliyyənin ödəyən üzv dövlətlərdən dövri olaraq tələb olunmasını təmin etməkdir. Bütün bu fəaliyyətlərin nəticələri hazırlanan və yoxlanma üçün Beynəlxalq Auditorlar İdarəsinə təqdim olunan illik maliyyə hesabatlarında əks olunur.

NATO üçün müstəqil Beynəlxalq Auditorlar Şurası müxtəlif NATO orqanlarının hesablarının, onların əməliyyatlarının səmərəliliyini və effektivliyinin maliyyə perspektivləri cəhətdən yoxlanmasına görə, həmçinin NATO-nun Təhlükəsizliyə Sərmayə Proqramının xərclərinin təftiş edilməsinə görə məsuliyyət daşıyır. Şuranın mandatı nəinki maliyyə, həmdə icra auditini əhatə edir. Bununla da, Şura öz rolunu hesabatçılıqdan kənara, ümumiyyətlə idarəçilik praktikasının icmalına artırır. Şura adətən üzv dövlətlərin milli audit orqanlarından götürülən, Şimali Atlantika Şurası tərəfindən təyin olunan və öz işlərinə görə yalnız Şura qarşısında məsuliyyət daşıyan nümayəndələrdən təşkil olunur. Auditorlar Şurasının əsas vəzifəsi Şimali Atlantika Şurası və üzv dövlətlərə ümumi maliyyənin icazəli xərclərin tənzimlənməsi üçün düzgün istifadə olunmasına və xərclərin icazə verilmiş fiziki və maliyyə çərçivəsində olduğuna dair zəmanət verməkdir.

5-ci Fəsil

NÜVƏ SİYASƏTİ

NATO-nun nüvə strategiyası və qüvvələrinin vəziyyəti Alyansın müharibələrin qarşısının alınması üzrə bütöv bir strategiyasının ayrılmaz tərkib elementləridir. Onlar Avro-Atlantika regionunda sülhün saxlanmasında və sabitliyə töhvə verməkdə əsas siyasi rolu həyata keçirirlər. Bununla belə, Soyuq Müharibədən sonra təhlükəsizlik şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunması nəticəsində Alyans nüvə qüvvələrinə arxalanmasını kəskin şəkildə azalda bilmişdir. NATO-nun nüvə dövlətləri – Fransa, Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatları öz nüvə qüvvələrinin planlaşdırılmış müasirləşdirmə proqramını ləğv etmək üçün birtərəfli addımlar atmışlar. Bundan əlavə, NATO strategiyası əvvəlki kimi müharibələrin qarşısının alınmasına yönəlmiş olsa da, daha nüvə silahlarının və nüvə qüvvələrinin tətbiqi ilə eskalasiya təhlükəsinin mümkünlüyü üstünlük təşkil etmir. Yeni təhlükəsizlik mühitinə uyğunlaşmaq istiqamətində atılmış addımlar arasında Alyansın strategiyasının nüvə elementlərindəki və qüvvələrinin vəziyyətindəki dəyişikliklər ilk və ən qəti tədbirlərdən olmuşdur.

NATO-nun nüvə qüvvələri Avro-Atlantika regionunda böyük miqyaslı müharibələrin aparılmasının düşüncəsizliyini xüsusi qeyd edərək Avropada sülh və sabitliyin möhkəmlənməsinə xidmət edir. Onlar adi silahlı qüvvələrin təkbaşına edə bilməyəcəkləri NATO-ya qarşı təcavüz riskini hesablanmaz və qəbuledilməz edir. Onlar həmçinin nüvə qüvvələri, habelə kimyəvi, bioloji, radioloji silahların Alyansa qarşı istifadəsi və ya onun təhdidi vasitəsilə siyasi və ya hərbi üstünlük əldə etməyi düşünə bilən istənilən dövlət üçün tərəddüd yaradır. Avropa sabitliyinin möhkəmləndirilməsinə təsir etməklə, kütləvi qırğın silahlarının istifadəsi təhdidlərini karıxdırmaqla və bu silahların istifadəsini yayındırmağa töhfə verməklə Alyansın nüvə qüvvələrinin vəziyyəti nəinki təkcə NATO müttəfiqlərinin, eləcə də tərəfdaş ölkələrin və ümumilikdə Avropanın maraqlarına xidmət edir.

NATO-nun nüvə qüvvələrinə arxalanmasının azalması bu qüvvələrin özlərində baş verən böyük miqyaslı ixtisarlarda əksini tapdı. 1991-ci ildə NATO Avropada sub-strateji[1] qüvvələri üçün silah ehtiyatlarının "Soyuq

[1] *"Strateji" və "sub-strateji" terminlərin mənası müxtəlif ölkələrdə bir-birindən fərqlidir. Strateji nüvə silahları adətən "qitələrarası" məsafə (5500 km-dən artıq) silahları kimi müəyyən edilir. Lakin bəzi hallarda buraya daha az hərəkət radiusuna malik orta məsafəli ballistik raketlər də aid edilə bilər. "Sub-strateji" nüvə silahı termini 1989-cu ildən NATO-nun sənədlərində orta və kiçik məsafəli nüvə silahı mənasında işlənir. Hal-hazırda NATO-nun ikili təyinatlı təyyarələrinə döyüş ehtiyatlarının hava daşınmasını, həmçinin yeni sub-strateji təyinatlı "Traydent" ingilis raketlərinin kiçik saylı hərbi hissələrini ifadə etmək üçün istifadə olunur (digər sub-strateji nüvə silahı Avropadan çıxarılmışdır).*

Müharibə” səviyyəsi ilə müqayisədə 85%-dən çox ixtisarı haqqında qərar qəbul etdi. Sub-strateji qüvvələrin ixtisarından əlavə NATO müttəfiqlərində olan strateji qüvvələrin də ciddi ixtisarı aparılır.

NATO-nun Avropada saxlanılan yeganə quruda yerləşən nüvə silahları ikili təyinatlı təyyarələr üçün ağır bombalardır. Bu silahlar həmçinin xeyli sayda ixtisara məruz qalmış və hal-hazırda daha az saxlanma yerlərində yüksək təhlükəsizik şəraitində yerləşir. Bu sistemlər üçün seçilmiş ikili təyinatlı təyyarələrin hərbi döyüş hazırlığı səviyyəsi tədricən aşağı düşür və onlar tərəfindən qeyri-nüvə tapşırıqlarının yerinə yetirilməsi daha çox əhəmiyyət daşımağa başlayır. Bu nüvə silahlarından heç biri hər hansı bir dövləti hədəfə almamışdır.

NATO müttəfiqləri hesab edirlər ki, yaxın gələcək üçün Alyansın ehtiyacları bu “sub-strateji” nüvə qüvvələrinin hazırkı vəziyyəti ilə qarşılana bilər. NATO həmçinin elan etmişdir ki, Alyansın genişləndirilməsi nüvə silahlarının müasir vəziyyətinin dəyişilməsini tələb etmir. NATO dövlətlərinin hər hansı bir yeni üzvün ərazisində nüvə silahlarının açılması ilə bağlı heç bir niyyəti, planı və ya səbəbləri yoxdur, NATO-nun nüvə silahlarının vəziyyəti və nüvə siyasətinin heç bir aspektini dəyişməyə ehtiyac yoxdur və onlar bunu gələcəkdə etmək zərurətini görmürlər.

NATO-nun nüvə silahlarının vəziyyəti ilə təmin olunan kollektiv təhlükəsizlik Alyansın bütün üzvlərini əhatə edir və digər halda özünü zəif hesab edə biləcək üzvlərə əminlik verir. Avropada yerləşən və NATO-ya münasibətdə öhdəlik daşıyan ABŞ nüvə silahlarının mövcudluğu Alyansın Avropa və Şimali Amerika üzvləri arasında mühüm hərbi və siyasi əlaqəni təmin edir. Eyni zamanda, Alyansın nüvə qüvvələrinin qurulmasında qeyri-nüvə ölkələrinin iştirakı Alyansın həmrəyliyini, onun üzv dövlətlərinin öz təhlükəsizliyinin saxlanması işinə ümumi bağlılığını və məsuliyyət və risklərin onlar arasında geniş bölgüsünü nümayiş etdirir.

NATO-nun nüvə qüvvələrinin qurulmasına siyasi nəzarət də həmçinin üzv dövlətlər arasında bölünmüşdür. NATO-nun Nüvə Planlaşdırılması Qrupu nüvə və qeyri-nüvə müttəfiqlərinin müdafiə nazirlərinin Alyansın nüvə siyasətinin inkişafında və NATO-nun nüvə qüvvələrinin vəziyyətinə dair qərarlarında iştirakını təmin edən forum rolunu oynayır.

6-cı Fəsil

İQTİSADİ SAHƏ

Alyans daxilində iqtisadi əməkdaşlığın əsası Şimali Atlantika müqaviləsinin 2-ci maddəsidir. Bu maddədə göstərilib ki, üzv dövlətlər "öz beynəlxalq iqtisadi siyasətlərində münaqişələri aradan qaldırmağa çalışacaq və onlardan istənilən biri və ya hamısı arasında iqtisadi əməkdaşlığın inkişafını həvəsləndirəcəklər".

NATO-nun əsas işi təhlükəsizlik və müdafiədir, buna görə də onun iqtisadi sahədə işi təhlükəsizlik və müdafiə ilə əlaqədar olan və ona əlavə dəyər təklif edə biləcəyi xüsusi iqtisadi məsələlər üzərində cəmləşib. O, 1999-cu il Strateji Konsepsiyasında müəyyən edilmiş hərtərəfli yanaşmaya malikdir. Bu yanaşma Alyansın mühüm müdafiə aspektinə əlavə olaraq iqtisadi faktoru, həmçinin siyasi, ictimai və ətraf mühit aspektlərini də qəbul edir. Müvafiq olaraq, Təşkilat hər dəfə Alyans üçün xüsusi əhəmiyyət daşıyan iqtisadi məsələlər meydana çıxanda öz üzvləri arasında əməkdaşlığı gücləndirir. Bu xüsusilə də birbaşa təhlükəsizlik və müdafiə ilə əlaqədar məsələlərə tətbiq olunur. Alyans siyasi, hərbi və iqtisadi məsələlərin müxtəlif və qarşılıqlı əlaqədə olan aspektlərinin nəzərdən keçirildiyi forum rolunu oynayır.

İqtisadi sahədə əməkdaşlığın inkişafına təsir etmək üçün yaradılmış NATO İqtisadi Komitəsi Alyansın müstəsna olaraq iqtisadi tendensiyalarla bağlı məsləhətləşmələrin aparıldığı və təhlükəsizlik sahəsində siyasətə birbaşa təsiri olan yeganə strukturudur. O, müxtəlif tərkiblərdə görüşür və Müdafiə və İqtisadiyyat Təhlükəsizliyi üzrə Siyasi İşlər Direktoratlığı, həmçinin NATO-nun Beynəlxalq Katibliyinin Təhlükəsizlik Siyasəti İdarəsi tərəfindən dəstəklənir.

Alyansın bütün təhlükəsizlik maraqları kontekstində və onun inkişafı prioritetlərinə müvafiq olaraq, Komitənin işi problemlərin geniş diapazonunu əhatə edir və müntəzəm olaraq NATO-nun siyasi və təhlükəsizlik gündəliyində olan məsələlərlə bağlı tədqiqatlar və qiymətləndirmələr hazırlamaqla məşğul olur. Üzv dövlətlərin paytaxtlarından olan ekspertlər qrupu ilə yaxından əməkdaşlıq edilir. Bu Direktorluğa NATO ilə əlaqədar ölkə və regionların və NATO-nun operativ rol oynadığı ərazilərin müdafiə və təhlükəsizlik iqtisadiyyatı məsələlərinə dair məlumat və ekspertiza mübadiləsi üçün özünəməxsus forum rolunu oynamağa imkan verir. Terrorizmin iqtisadi və maliyyə aspektləri bu gündəliyin möhkəm hissəsinə çevrilmişdir. Üzv dövlətlərin təmin etdiyi ödəmələrə əsaslanan kəşfiyyat

xarakterli iqtisadi məlumat məsələlərinin razılaşdırılmış qiymətləndirilməsi müntəzəm olaraq Şimali Atlantika Şurasının, Müttəfiqlərin və hərbi orqanların mənafeyinə uyğun həyata keçirilir.

Müdafiə və İqtisadiyyat Təhlükəsizliyi üzrə Siyasi İşlər Direktoratlığı Üzvlüyün Fəaliyyət Planının (bax: Hissə VI) müdafiə xərclərinin öhdəsindən gəlmək qabiliyyəti və dayanıqlığı kimi həm ümumi iqtisadi, həm də müdafiə iqtisadiyyatı aspektlərinin qiymətləndirilməsini də əhatə edir.

NATO-nun iqtisadi sferasının digər mühüm aspekti onun Tərəfdaş dövlətlərlə və NATO ilə əməkdaşlıq əlaqələrində olan digər dövlətlərlə inkişaf etmiş əməkdaşlıq, həmçinin Avro-Atlantika Tərəfdaşlıq Şurası, NATO-Rusiya Şurası, NATO-nun Cənub Şərqi Avropa Təşəbbüsü ilə əlaqələri, Aralıq Dənizi Dialoqu və İstanbul Əməkdaşlıq Təşəbbüsü Dialoqu çərçivəsində həyata keçirilən təhlükəsizlik və müdafiə iqtisadiyyatı fəaliyyətidir (bax Hissə VII). Buraya müdafiə büdcəsinin və müdafiə xərclərində ehtiyatların idarə edilməsi, müdafiənin yenidən təşkili məsələləri (məsələn, hərbi personalın yenidən hazırlığı, hərbi hissələrin və müdafiə sənayesinin yenidən təşkili), terrorizmə qarşı beynəlxalq mübarizənin iqtisadi aspektləri və iqtisadi təhlükəsizliyə dair digər məsələlər daxildir.

NATO-Rusiya Şurasının Hərbi islahatlar üzrə “Ad Hoc” İşçi Qrupu çərçivəsində Rusiya ilə əməkdaşlıq ilk pillədə hərbi islahatların makroiqtisadi, maliyyə, büdcə və sosial aspektlərindən müdafiə sənayelərinin yenidən qurulmasına qədər geniş mövzular spektrində ekspert səviyyəli mübadilə üzərində cəmlənib. İkinci pillədə 2001-ci ilin iyununda Rusiyanın Müdafiə Nazirliyi ilə Rusiya Federasiyası Silahlı Qüvvələrindən azad edilməli olan və ya azad edilmiş hərbi personalın köçürülməsi üçün NATO-Rusiya Məlumat, Məsləhət və Təlim Mərkəzinin açılması ilə bağlı Saziş haqqında Memorandum imzalandı. Rusiyanın altı hərbi məntəqəsində fəaliyyət göstərən bu Mərkəz maliyyə baxımından NATO tərəfindən dəstəklənir və təlim kursları, “təlimçilərin təlimi” kursları və cari mövzular üzrə ekspertlərin görüşünü təşkil edir. Mərkəz həmçinin tərxis edilmiş hərbi heyət üçün geniş praktiki məlumatın daxil olduğu müfəssəl veb-sayt idarə edir. Mərkəzin işi NATO ilə Rusiyanın Müdafiə Nazirliyi arasındakı əməkdaşlığın çox konkret və praktiki nümunəsidir.

İqtisadi əməkdaşlıq sahəsində xüsusi fəaliyyət həmçinin NATO-Ukrayna İllik Hədəf Planları çərçivəsində həyata keçirilir. Buraya İqtisadi Təhlükəsizlik üzrə Birgə İşçi Qrupun iclasları, müdafiə büdcəsi prosesinin iqtisadi aspektlərinə dair kurslar, müdafiə sənayesinin yenidən qurulması və hərbi islahatlarla bağlı sosial məsələlər haqqında mübadilə daxildir. Həmçinin burada Ukraynanın ümumi iqtisadi siyasəti, struktur və makro-iqtisadi

tendensiyaları haqqında müntəzəm məsləhətləşmələr keçirilir. 1999-cu ildən etibarən NATO Ukraynanın müxtəlif şəhərlərində hər il yüz keçmiş hərbi zabitə xarici dillər və idarəetmə texnikasına dair təlimləri asanlaşdıran yenidən hazırlıq kurslarını maliyyələşdirir. Bu proqram tərxis olunmuş hərbi personalın yenidən cəmiyyətə inteqrasiyasını xeyli asanlaşdıran gözəçarpan fayda vermişdir.

Cənub-şərqi Avropada tərxis olunmuş hərbi personalın yenidən hazırlığı və hərbi əsasın yenidən təşkili ilə bağlı müfəssəl proqramların monitorinqi də həmçinin Müdafiə və Təhlükəsizlik İqtisadiyyatı Direktorluğu tərəfindən həyata keçirilir. NATO Şərqi Avropa üçün Sabitlik Paktı çərçivəsində bu məsələlər üzə təşəbbüsü öz üzərinə götürmüşdür. Direktorluğun rəhbərlik etdiyi Müttəfiqlər və Tərəfdaş ölkələrdən olan ekspertlər komandaları vasitəsilə NATO bir sıra ölkələrə onların ehtiyaclarına uyğunlaşdırılmış müvafiq yenidən təkrar yönəldilmə proqramlarının inkişafı ilə bağlı məsləhətlər vermişdir. Komandalar geniş təcrübəyə və müvafiq dövlətin üzləşdiyi xüsusi situasiyanın nəzərə alınmasına əsaslanan ekspertiza, texniki yardım və tövsiyələr əldə etmək imkanı yaradıb. NATO-nun bu sahədə işi regionda mürəkkəb hərbi islahat və yenidən təşkil prosesinə müstəqil töhfə verir. NATO-nun köməyi ilə hazırlanmış müdafiənin yönəldilmə sxemi layihələrin həyata keçirilməsində “bələdçi” kimi əhəmiyyətini nümayiş etdirmişdir.

III HİSSƏ

NATO-nun MÜLKİ və HƏRBİ TƏSİSATLARI

7-ci Fəsil: Mülki təşkilatlar və təsisatlar

8-ci Fəsil: Beynəlxalq Katibliyin əsas funksiyaları

9-cu Fəsil: Hərbi təşkilatlar və təsisatlar

10-cu Fəsil: Beynəlxalq Hərbi Katibliyin əsas funksiyaları

11-ci Fəsil: İxtisaslaşmış təşkilatlar və agentliklər

12-ci Fəsil: NATO-nun əsas komitə və siyasi orqanlarına çıxış

7-cı Fəsil

MÜLKİ TƏŞKİLATLAR VƏ TƏSİSATLAR[1]

NATO-nun Belçikanın Brüssel şəhərindəki Mənzil Qərargahı Alyansın siyasi qərargahıdır. Bura üzv dövlətlərin milli nümayəndəlikləri və Tərəfdaş dövlətlərin əlaqələndirici idarələri və ya diplomatik missiyaları üçün bir növ ev rolunu oynayır. Bu nümayəndəliklərin və missiyaların fəaliyyəti NATO-nun Qərargahında yerləşmiş Beynəlxalq Katiblik və Beynəlxalq Hərbi Katiblik tərəfindən dəstəklənir.

Üzv dövlətlər tərəfindən qəbul olunmuş qərarlar hərbi əhəmiyyət daşıdıqda tələblərə yerində cavab vermək üçün NATO hərbi infrastruktura və bacarığa malikdir. Hərbi Komitə Avro-Atlantika məkanının ümumi müdafiəsi üçün zəruri hesab olunan tədbirləri tövsiyə edir və NATO-nun iki strateji komandanlığına rəhbərliyi təmin edir (Belçikanın Mons şəhərində yerləşən Müttəfiq Qüvvələrin Əməliyyatlar üzrə Avropada Ali Baş Qərargahı və ABŞ-ın Virginiya ştatı, Norfolk şəhərində yerləşən Müttəfiqlərin Ali Transformasiya Komandanlığı). NATO Baş Qərargahında yerləşən Hərbi Komitə Şimali Atlantika Şurasına münasibətdə oxşar rolu oynayan Beynəlxalq Hərbi Katiblik tərəfindən dəstəklənir.

NATO-nun Baş Qərargahında tam iş günü əsasları ilə 4200-ə yaxın insan işləyir. Bunlardan təqribən 2100 nəfəri üzv dövlətlərin milli nümayəndəliklərində və milli hərbi nümayəndəliklərin NATO-dakı heyətinin üzvləridirlər. Beynəlxalq Katibliyin təxminən 1200 mülki üzvü (agentliklər və digər NATO orqanları da daxil olmaqla), Beynəlxalq Hərbi Katibliyin isə təxminən 500-dən artıq üzvü var. Həmçinin Tərəfdaşların NATO-dakı missiyalarının cəmi 400-ə yaxın üzvü var. Bütün dünyada NATO-nun işçiləri olan mülki heyət, o cümlədən Brüssel hüdudlarından kənarda yerləşən NATO agentliklərinin heyəti və bütövlükdə NATO-nun hərbi komandanlıqlarının heyətində xidmət edən mülki personalın sayı təxminən 5200 nəfərdir.

---

[1] *Bu fəsillər NATO-nun mülki və hərbi təşkilini, o cümlədən əsas strukturlarını təsvir edir. Beynəlxalq Katiblik və Beynəlxalq Hərbi Qərargahda islahatlar aparılması ilə əlaqədar daha ətraflı və yeni məlumat, o cümlədən organigramlar NATO-nun internet səhifəsindən əldə oluna bilər (www.nato.int).*

Milli Nümayəndəliklər

Hər bir üzv dövlətin milli nümayəndə heyəti səfirlik statusuna malikdir və ona öz paytaxtından gələn təlimatlara əsasən hərəkət edən və milli orqanlarına hesabat verən səfir (həmçinin daimi nümayəndə hesab olunur) rəhbərlik edir. Nümayəndə heyəti xarici işlər nazirliklərindən və digər əlaqədar nazirliklərdən öz dövlətlərini təmsil etmək üçün NATO-ya təyin olunmuş mülki xidmətçilərdən təşkil olunub.

Tərəfdaş dövlətlərin əlaqə idarələri milli paytaxtla NATO arasında əlaqə yaratmağa görə məsuliyyət daşıyan və səfir və ya missiya başçısının rəhbərlik etdiyi diplomatik missiyalardır.

Baş Katib

Baş Katibin üç əsas rolu var: birincisi və başlıcası o, Şimali Atlantika Şurası, Hərbi Planlaşdırma Komitəsi, Nüvə Planlaşdırma Qrupu, o cümlədən Şimali Atlantika Tərəfdaşlıq Şurasının, NATO-Rusiya Şurasının, NATO-Ukrayna Komissiyasının və Aralıq Dənizi Əməkdaşlıq Qrupunun sədridir. İkincisi, o Alyansın əsas təmsilçisidir və ictimaiyyətdə üzv dövlətlərin siyasi məsələlər üzrə ümumi mövqelərini nümayiş etdirərək Alyansı onların adından təmsil edir. Üçüncüsü, o, NATO Beynəlxalq Katibliyin baş icraçı məmurudur və kadrların təyin edilməsinə və onların işinə nəzarət edilməsinə görə məsuliyyət daşıyır.

Baş Katib ilk dörd il üçün üzv hökumətlər tərəfindən vəzifəyə təyin edilir. Adətən üzv dövlətlərdən birinin hökumətində nazir kimi çalışan beynəlxalq səviyyəli dövlət xadimi olaraq o, Alyans çərçivəsində qərarların qəbul edilməsini dəstəkləyir, konsensus yaradıcı prosesə rəhbərlik edir və onu istiqamətləndirir, habelə, qərar qəbuledici şəxs kimi çıxış edir. O, müzakirə üçün məsələlər təklif edə bilər və üzv dövlətlərin arasında mübahisə yaranan hallarda özünün nüfuzundan istifadə etmək hüququna malikdir.

Onun rolu ona qərar qəbul etmə prosesinə əhəmiyyətli dərəcədə təsir göstərməyə imkan verir. Bu zaman, qərar qəbulu prosesinin yalnız üzv ölkələrin hökumətlərinə məxsus olması ilə bağlı fundamental prinsipə hörmət edilir. Bu səbəbdən onun rolu əsasən üzv hökumətləri təşəbbüs göstərməyə həvəsləndirməkdən və stimullaşdırmaqdan, lazım gəldikdə, bütövlükdə Alyansın maraqları naminə mövqeləri barışdırmaqdan ibarətdir.

Təşkilatın əsas nümayəndəsi kimi Baş Katib öz adından nəinki ictimaiyyət qarşısında, eləcə də digər təşkilatlar, qeyri-üzv dövlətlərin hökumət-

ləri ilə xarici əlaqələrdə və beynəlxalq kütləvi informasiya vasitələrində çıxış edir.

Baş Katibə onun müavini yardım göstərir və həmin şəxs baş katib olmadıqda onu əvəz edir. Baş Katibin Müavini bir sıra əsas komitələrin, xüsusi qrupların və işçi qrupların rəhbəridir.

Beynəlxalq Katiblik

Beynəlxalq Katiblik NATO-nun Baş Qərargahındakı milli nümayəndəliklərin işinə müxtəlif komitələr səviyyəsində dəstək verən məsləhətçi və inzibati orqandır. O, NATO komitələrinin qərarlarının icrasına nəzarət edir və konsensus yaratma və qərar qəbul etmə proseslərinə dəstək verir. O, NATO tərəfindən üzv ölkələr arasından birbaşa olaraq seçilmiş və ya öz hökumətləri tərəfindən təyin olunmuş nümayəndələrdən təşkil olunmuşdur.

8-ci Fəsil

BEYNƏLXALQ KATİBLİYİN ƏSAS FUNKSİYALARI

Dəyişən təhlükəsizlik mühitinə uyğun olaraq NATO liderləri Alyansın yeni missiyalarını və prioritetlərini əks etdirmək üçün Təşkilatın Beynəlxalq Katibliyinin strukturunu daim nəzərdən keçirir. Nəticə etibarilə yenidənqurma Təşkilatın daimi xüsusiyyətinə çevrilmişdir.

Məhz bu səbəbdən də, bu məlumat kitabı Beynəlxalq Katibliyin tərkibini təşkil edən müxtəlif strukturların, idarələrin və müstəqil ofislərin səlahiyyətlərini ətraflı təsvir etmək əvəzində Beynəlxalq Katiblik tərəfindən yerinə yetirilməli olan funksiyaların izahını verir. Yenilənmiş təşkilati struktur və ona dair təfsilatlı məlumatları, o cümlədən Beynəlxalq Hərbi Katibliyin və hərbi komandanlıq strukturlarının yenilənmiş versiyalarını NATO-nun internet səhifəsindən əldə etmək mümkündür.

İlk növbədə qeyd etmək vacibdir ki, Beynəlxalq Katibliyin əsas rolu NATO-nun Baş Qərargahındakı milli nümayəndəliklər üçün məsləhət, təlimatlar və inzibati dəstək təmin etməkdir. İkincisi, tamamilə təşkilati nöqteyinəzərdən qeyd olunmalıdır ki, bütün idarələrə Baş Katibin Köməkçisi rəhbərlik edir. Ona isə bir və ya iki Baş Katibin Köməkçisinin müavini və direktorların rəhbərlik etdiyi müstəqil ofislər dəstək verir.

Beynəlxalq Katibliyin Rəhbəri olmaqla yanaşı, həm də inzibati nöqteyinəzərdən Beynəlxalq Katibliyin üzvü olan Baş Katib Xüsusi Ofisə malikdir. Bu ofis direktor, heyət, Baş Katibin Müavini, Hüquqi Məsləhət Ofisi və Siyasi Planlaşdırma Bölməsindən ibarətdir.

Siyasi məsləhət və rəhbərliyin təmin olunması

NATO-nun əsas təhlükəsizlik vəzifələrinin siyasi aspektləri gündəlik əsasda idarə olunmalıdır. Onlar Alyansın gündəliyində mühüm yer tutan geniş diapazonlu məsələləri əhatə edir. Buraya regional, iqtisadi və təhlükəsizlik məsələləri, digər beynəlxalq təşkilatlarla və tərəfdaş ölkələrlə əlaqələr daxildir.

Bir sıra yüksək səviyyəli orqanlar bu siyasi məsələlər barədə məlumatlandırılmalıdır və cari və gələcək siyasi işlər barədə məsləhət almalıdırlar. Misal üçün, Şimali Atlantika Şurası və digər NATO Komitələri məlumat üçün sorğu verə bildiyi halda, Beynəlxalq Katiblik və Beynəlxalq Hərbi Katibliyin

digər bölmələri cari və gələcək siyasi işlər barədə məsləhət almağa ehtiyac duyurlar. Baş Katib də həmçinin, NATO-nun siyasi gündəliyinə uyğun olaraq yardımçı qeydlər, yeni məlumatlar və nitqlər tələb edə bilər. Bundan əlavə siyasi məsləhətləşmə prosesinə dəstək vermək məqsədilə NATO və Tərəfdaş ölkələr arasında keçirilən görüşlər, eləcə də, müvafiq milli qurumlarla siyasi əlaqələr üçün siyasi hazırlıq prosesi də tələb olunur. Bu da, həmçinin, siyasi işlər üzrə məsul olan heyət tərəfindən təmin olunur.

Yekun olaraq qeyd etmək istərdik ki, əsas məqsəd yuxarıda sadalanan sahələrdə siyasətin həyata keçirilməsinə siyasi təlimatların təmin edilməsidir. Məsələn, genişlənmə prosesi ilə əlaqədar, yeni ölkələrin üzvlüyə qəbul edilməsi istiqamətində üzv dövlətlərə, dəvət olunmuş dövlətlərə və NATO-nun aidiyyatı orqanlarına məsləhət, dəstək və köməklik göstərilir. Bu, həmçinin, Üzvlük üzrə Fəaliyyət Planının davam etdirilməsi, NATO-Avropa İttifaqı strateji tərəfdaşlığının inkişafı və Tərəfdaş ölkələrlə əməkdaşlığın genişlənməsi istiqamətində də tətbiq olunur. Əhatə olunan digər məsələlərə dövlətə müvafiq siyasət sahəsində və böhranların idarə edilməsi ilə bağlı operativ məsələlərdə dəstəyin verilməsi; terrorizmlə mübarizədə NATO-nun roluna münasibətdə əməkdaşlığın siyasi və iqtisadi aspektlərinin əlaqələndirilməsi; kütləvi qırğın silahlarının istifadəsinə cavab məqsədi daşıyan əməliyyatlar üçün Alyans qüvvələrinin hazırlığının və effektivliyinin möhkəmləndirilməsində siyasi aspektlərin əlaqələndirilməsi daxildir. Alyans üzv və tərəfdaş ölkələrində, o cümlədən istənilən yerdə kənar auditoriyanın NATO-nun vəzifələri, siyasəti və məqsədləri haqqında məlumatlandırmaq məqsədini daşıyan ictimaiyyətlə əlaqələr sahəsində də töhfələr verilmişdir.

Müdafiə siyasəti və planlaşdırma istiqamətinin inkişafı və tətbiqi

NATO-nun əsas təhlükəsizlik vəzifələrinin müdafiə siyasəti aspektlərinin inkişafı və tətbiqi hərbi planlaşdırma, nüvə siyasəti və kütləvi qırğın silahları əleyhinə müdafiəni əhatə edir. Müdafiə sferası həmçinin operativ məsələləri də əhatə edir, lakin bunlara aşağıdakı yarım başlıqda daha çox aydınlıq gətirilmişdir.

Baş katib kimi üzv və tərəfdaş ölkələrin də siyasi məsləhətə, tərəfdaşlıq fəaliyyətinin və Alyansın müdafiə siyasəti və planlaşdırma sferasının tətbiqi və inkişaf etdirilməsində dəstəyə ehtiyacları var. Buraya Alyansın terrorizmə reaksiyası; NATO-nun Avropa İttifaqı (Berlin Plyus razılaşmaları də daxil olmaqla), BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlığının müdafiə perspektivi; NATO-nun transformasiya gündəliyi və bacarıqları ilə bağlı təşəbbüs-

lərin siyasi-hərbi aspektləri, o cümlədən NATO-nun komandanlıq və qüvvələrinin strukturu (xüsusilə də NATO Cavab Qüvvələrinin tətbiqi), Praqa Qabiliyyəti Öhdəliyi və bacarıqların inkişafı üçün siyasi bələdçilik kimi məsələlər daxildir. Bu, həmçinin, Tərəfdaş dövlətlərin Planlaşdırma və Analiz Proseslərinə dəstəyi, o cümlədən Sülh Naminə Tərəfdaşlıq, Aralıq Dənizi Dialoqu və s. çərçivələrdə ölkələrlə əməkdaşlığın digər müdafiə aspektlərini də əhatə edir.

NATO çərçivəsində və NATO Baş Qərargahları arasında, xarici NATO orqanları, NATO strateji komandanlıqları və üzv dövlətlər arasında maddi-texniki təminat siyasətinin və planlaşdırma təşəbbüslərinin inkişaf etdirilməsi və tətbiqi də müdafiə siyasəti və planlaşdırmasına daxildir ki, buraya həmçinin NATO nüvə siyasətinə rəhbərlik və qüvvələrin vəziyyətinin nəzərdən keçirilməsi, NATO strategiyasının nüvə elementlərinin ictimaiyyət tərəfindən qavranmasının təbliği və nüvə ilə bağlı konsultasiya prosedurları haqqında təlim və məşqlər də aiddir.

Bundan əlavə NATO-nun Mənzil Qərargahında yerləşən Kütləvi Qırğın Silahları Mərkəzi (Weapons of Mass Destruction Centre - WMDC) bu sahədə informasiya və kəşfiyyatın bölgüsünə dəstək verilməsinə məsuldur.

NATO-nun əməliyyat öhdəliklərinin və böhrana cavab imkanlarının idarə olunması

NATO-nun müdafiə və böhranların idarə edilməsi üzrə vəzifələrini yerinə yetirmək üçün tələb olunan operativ imkanlara nəzarət NATO missiyalarının müvəffəqiyyəti üçün çox vacibdir. Bu məsuliyyət sahəsinə NATO-nun operativ öhdəliklərini əhatə edən böhranların idarə edilməsi, sülhməramlı əməliyyatlar və mülki fövqəladə planlaşdırma və məşqlər daxildir.

Beynəlxalq Katiblik yuxarıda göstərilmiş əsas komitələrə dəstək və məsləhətlər verir və onların müzakirələrini və qərarlarını hazırlayır və icrasına nəzarət edir. Buraya Siyasi Koordinasiya Qrupu, Ali Mülki Fövqəladə Planlaşdırma Komitəsi və Əməliyyat və Təlimlər üzrə NATO Məşvərət Komitəsi daxildir. O, həmçinin, NATO-Rusiya İşçi Proqramı, NATO-Ukrayna Fəaliyyət Planı və Aralıq Dənizi İşçi Proqramının tətbiqində sözügedən xüsusi səlahiyyət sahələrinin hər birinə töhfələr verir.

NATO-nun digər orqanları və başqa beynəlxalq təşkilatlarla əlaqələrdə böhran idarəetmə mexanizmlərinin, birgə təlimlərin və mülki fövqəladə planlaşdırmanın informasiya və rabitə prosesləri və texnoloji aspektləri də idarə olunur.

Əməliyyatlar sferasında müxtəlif böhranlı bölgələrdə NATO-nun rəhbərlik etdiyi qüvvələrin roluna nəzarət etmək üçün Operativ Tapşırıq Qüvvələri mövcuddur. Alyans böhran idarəetmə proseduralarının və tədbirlərinin gələcək təkmilləşdirilməsinə doğru istiqamət götürmüşdür və Vəziyyətin Təhlili Mərkəzi NATO Mənzil Qərargahı və ölkələr, Strateji Komandanlıqlar, hərbi strukturlar və digər təşkilatlar arasında davamlı və möhkəm əlaqələrə şərait yaradır.

Mülki fövqəladə planlaşdırma sahəsində Beynəlxalq Katiblik NATO əməliyyatlarına köməklik etmək və mülki əhalinin müdafiəsi üçün mülki ehtiyatların istifadəsi ilə bağlı tədbirlərin həyata keçirilməsinə görə məsuliyyət daşıyan ixtisaslaşdırılmış mülki fövqəladə planlaşdırma şuralarının və komitələrinin işinə dəstək verir. O, həmçinin BMT, Dünya Səhiyyə Təşkilatı, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi, Kimyəvi Silahların Qadağan Edilməsi Təşkilatı, o cümlədən mülki fövqəladə vəziyyətlə bağlı birgə NATO-AB fəaliyyətləri çərçivəsində müvafiq orqanlarla əlaqə və məsləhətləşmələri aparır.

Avro-Atlantika Fəlakətlərə Cavabın Əlaqələndirmə Mərkəzi (EADRCC) AATŞ ölkələri üçün təbii fəlakətlər və qəzalar zamanı yardımı əlaqələndirir və fövqəladə vəziyyətlərə reaksiya vermək üçün Avro-Atlantika Fəlakətlərə Cavabın Əlaqələndirmə Mərkəzi Mərkəzinin təşkilinin və proseduralarının saxlanması və yenilənməsinə görə məsuliyyət daşıyır.

Yüksək keyfiyyətlərin və bacarıqların inkişaf etdirilməsi

Beynəlxalq Katibliyin digər bir məsuliyyət sferası Alyansın müdafiə imkanlarını, o cümlədən silahlanmanın planlaşdırılmasını, hava hücumundan müdafiə və təhlükəsizlik sərmayəsini gücləndirmək məqsədi daşıyan aktivlərin və bacarıqların inkişaf etdirilməsi və sərmayə qoyulmasıdır.

Siyasət, silahlanma ilə bağlı texniki, maliyyə və prosedura təcrübəsi, hava hücumundan müdafiə, hava məkanının idarə edilməsi və təhlükəsizlik sərmayəsi təmin olunur və Alyansa təhvil verilmiş qüvvələrin yaxşı təchiz olunmasını, qarşılıqlı fəaliyyət göstərməsini və bütün hərbi missiyaları həyata keçirmək qabiliyyətini təmin etmək üçün NATO-nun ümumi maliyyələşdirilən aktivlərinə qoyulan sərmayələrə nəzarət edilməsi və hərbi bacarıqların inkişaf etdirilməsi istiqamətində bir sıra işlər görülür. Həmçinin, Sülh Naminə Tərəfdaşlıq, Aralıq Dənizi Dialoqu və İstanbul Əməkdaşlıq Təşəbbüsü, o cümlədən Rusiya və Ukrayna ilə xüsusi əlaqələr çərçivəsində tərəfdaş ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi üçün işlər görülür.

İş üç əsas sahəyə bölünmüşdür: silahlanma, hava hücumundan müdafiə və hava məkanının idarə olunması və təhlükəsizlik sərmayəsi. Silahlanma əməkdaşlığın inkişaf etdirilməsi və hərbi sursatların əldə olunmasında diqqəti cəmləşdirməklə Silahlanma üzrə Milli Direktorlar Konfransının (Conference of National Armaments Directors - *CNAD*) və onun köməkçi strukturlarının işinə dəstək verir. Misal üçün, o, quru, hava və dəniz, o cümlədən Terrorizm Əleyhinə Texnoloji Bölmə kimi bölmələri birləşdirir.

Hava hücumundan müdafiə və hava məkanının idarə olunması sahəsində siyasi və texniki təcrübə NATO-nun iki əsas komitəsinin dəstəyi ilə təmin olunur: NATO Hava Hücumundan Müdafiə Komitəsi, hansı ki, milli hava hücumundan müdafiə siyasətlərini və proqramlarını uzlaşdırır və NATO-nın Hava Nəqliyyatının İdarə olunması Komitəsi – hansı ki, Alyansın vəzifələrinin və missiyalarının dəstəyi naminə hava məkanının istifadəsi üzrə uzlaşdırılmış mülki-hərbi siyasi rəhbərliyi və tələbləri inkişaf etdirir.

Təhlükəsizlik sərmayəsinə münasibətdə əsas məqsəd NATO-nun əməliyyat tələbləri üçün ümumi maliyyələşdirilən kapital sərmayələrinin vaxtında təmin olunmasına imkan yaratmaqdır. Bu imkanların maliyyələşdirilməsi NATO-nun Təhlükəsizliyə Sərmayə Proqramı (NTSP) vasitəsilə təmin olunur. Həmçinin, aşağıdakı komitələrə də dəstək verilir: Resurslar üzrə Baş İdarə (SRB), Hərbi Büdcə Komitəsi, İnfrastruktur Komitəsi, Məsləhətləşmə, Komanda və Nəzarət (C3) və Raketdən Müdafiə Layihəsi üzrə Qrup.

Beynəlxalq Katiblik NATO Mənzil Qərargahının Məsləhətçi Komanda və Nəzarət Qərargahı (NHQC3S), Resurslar üzrə Baş İdarənin Sədrinin Ofisi və Ehtiyat Siyasəti Koordinasiya Bölməsinə dəstək verilməsini də əhatə edir.

Geniş ictimaiyyətlə əlaqələrin qurulması

Təşkilatın üzv və tərəfdaş ölkələrin geniş ictimaiyyətini NATO-nun fəaliyyəti və siyasəti haqqında məlumatlandırmaq vəzifəsi var. O, bunu bir sıra ünsiyyət vasitələri ilə, həmçinin media ilə əlaqələr qurmaqla, NATO internet səhifəsi, çap və elektron nəşrlərlə, seminar və konfranslarla yerinə yetirir.

Bu cəhdlər NATO ilə bağlı məsələlər barədə ictimai qavrama və biliklərin artırılmasına töhfə verir və NATO siyasətləri və məqsədləri haqqında məhsuldar müzakirələri inkişaf etdirməyə kömək edir.

Mətbuat və ictimaiyyətlə əlaqələrdə işləyən heyət bütün dünyada xarici auditoriya ilə NATO-nun əsas ictimai ünsiyyət vasitələrindən birini təşkil edir. Onlar NATO Baş Katibinə Alyansın əsas təmsilçisi rolunda dəstək verir, jurnalistlərlə müsahibələr və brifinqlər, mətbuat konfransları, media monito-

rinqi, audio-video media dəstəyi və sərgilər təşkil edirlər. NATO üzv və Tərəfdaş dövlətlərdə əməkdaşlıq proqramları təşkil edir və müxtəlif ölkələrdə liderlərin, deputatların, vətəndaş cəmiyyəti qruplarının və müxtəlif sahələrin ekspertlərinin iştirak etdikləri səfərlər, seminarlar, konfranslar keçirilir. Xüsusi layihələr üçün qrant və digər dəstək formalarına imkanlar yaradılır və lazım olduqda çap və elektron nəşrlər paylanılır. Çap və elektron formatlarda olan nəşrlər NATO haqqında çoxsaylı mövzuları əhatə edir və müxtəlif NATO üzv və tərəfdaş ölkələrinin dillərində buraxılmaqla bütün dünyada yayılır.

NATO-nun internet səhifəsi NATO siyasəti və fəaliyyəti haqqında, o cümlədən ictimai bəyanatlar, rəsmi sənədlər, video müsahibələr, audio fayllar, NATO ilə bağlı əsas tədbirlərin əhatəsi və NATO media kitabxanasının ehtiyatları haqqında gündəlik informasiya əldə etmək imkanı yaradır.

Heyət həmçinin, Hərbi Komitə Sədrinin İctimai İnformasiya məsləhətçisi ilə sıx işləyir və Beynəlxalq Katibliyin digər bölmələrində və NATO strukturları çərçivəsində olan təşkilatlarda ictimai diplomatiya fəaliyyətinin əlaqələndirilməsində köməklik göstərir (bax: Hissə X).

Elmi ictimaiyyətlə əməkdaşlıq

2001-ci il 11 sentyabrda ABŞ-a edilən hücumlardan və terrorizm də daxil olmaqla yeni problem və təhlükələrlə bağlı NATO siyasətinin mərkəzləşdirilməsinin artırılmasından sonra NATO-nun elmi proqramı terrorizm və təhlükəsizliyə qarşı yönələn digər hədələrdən müdafiə ilə bağlı birgə tədqiqat layihələrinə dəstəyin artırılmasına doğru istiqamətlənmişdir. Proqram NATO və tərəfdaş ölkələr arasında prioritet sahələrdə (hal-hazırda terrorizmdən müdafiə, təhlükəsizliyə qarşı yönəlmiş digər hədələrə qarşı durmaq və Tərəfdaş ölkələrin prioritetləri) əməkdaşlığın birgə qrantlar da daxil olmaqla müxtəlif dəstək mexanizmləri vasitəsilə gücləndirilməsinə xidmət edir. Əməkdaşlıq NATO üzv, tərəfdaş və Aralıq Dənizi Dialoqu dövlətlərindən olan tədqiqatçı alimlər arasında həyata keçirilir. Tərəfdaş ölkələrdə, xüsusilə də Mərkəzi Asiya və Qafqazda təmin olunan kompüter şəbəkəsi, həmçinin proqram tərəfindən həyata keçirilən tədbirlərin vacib elementlərindəndir.

Proqram, həmçinin iki tədqiqat sahəsinə tətbiq olunur: humanitar və sosial dinamika və təhlükəsizliklə bağlı mülki elm. Ətraf mühit təhlükəsizliyinin mühüm sahələrində hökumətlərarası fəaliyyəti təmərküzləşdirmək üçün NATO üzv, tərəfdaş və Aralıq Dənizi Dialoqu ölkələrindəki müxtəlif hökumət agentliklərindən olan mütəxəssisləri bir araya gətirən tədqiqatlar və seminarlar təşkil olunur. Bu sahələrə hərbi əməliyyatların ətraf mühitə təsiri, beynəlxalq fəaliyyəti əhatə edən regional tədqiqatlar, ehtiyatların çatışmaz-

lığından yaranan münaqişələrin, ətraf mühit və ictimaiyyətə yönələn iqtisadi, mədəni və ya siyasi qeyri-sabitliyə səbəb ola biləcək risklərin və təhlükəsizliyə qarşı qeyri-ənənəvi hədələrin qarşısının alınması aiddir. Sonuncu sferada tədqiqat sahələrinə nümunə olaraq ərzaq təhlükəsizliyi, reaksiya strategiyası və su yollarının, limanların və sığınacaqların təhlükəsizliyini göstərmək olar.

Heyətin, maliyyə və təhlükəsizlik standartlarının idarə edilməsi

Beynəlxalq Katibliyin effektiv və Mənzil Qərargahın faktiki idarə olunması dəstək və konfrans xidmətlərini, informasiya, humanitar və maliyyə idarəetməsini, təhlükəsizlik xidmətlərinin dəstəyini tələb edir.

Əsas funksiyalardan biri Beynəlxalq Katibliyin idarəetmə, işə cəlb etmə, müqavilələr, təlimlər və inkişaf, iş icrasının idarə olunması, işçi heyətinə dəstək, sağlamlıq və ictimai məsələlər, işçi heyəti ilə bağlı mülki siyasət, kompensasiya və gəlirlər kimi bütün kadr ehtiyatlarının idarə olunması və inkişafı məsələlərinin tənzimlənməsidir. Tətbiq olunan əsas prinsip NATO Qərargahlarında işləyən heyətdə gender bərabərliyi (cinsi tarazlıq) və müxtəliflikdir.

Qərargahın rəhbərliyində işləyən Beynəlxalq Katibliyin əsas vəzifələrindən biri də ərzaq çatdırılması, idman və istirahət və əyləncə mərkəzlərini əhatə edən NATO Qərargah Mərkəzinə nəzarət etmək və NATO Heyət Birliyi nümayəndələri ilə müntəzəm əlaqədə olmaqdır. Qərargah rəhbərliyi tərəfindən təmin olunan xidmətlər dəstəyinə konfrans xidmətləri (təfsir və tərcümə) və informasiya və sistemlər idarəetmə xidməti daxildir. Bu dəstək xidmətləri, həmçinin daxili və xarici məişət xidmətləri, texniki xidmət və nəqliyyat məsələlərinə görə məsul olan xidmətlərin və komandaların yaradılmasını əhatə edir.

NATO-nun mülki büdcəsi obyektiv əsaslı büdcə tərtibi (OBB) sistemi üzrə istifadə olunur. İşçi heyət Mülki Büdcə Komitəsi ilə birgə illik büdcənin Şimali Atlantika Şurası tərəfindən hazırlanan təlimatlara uyğun olaraq tərtib və təsdiq edilməsi üçün məsuliyyət daşıyır. Onlar həmçinin müqavilələrin bağlanması və satınalmalardan tutmuş, qəbul etmə, avadanlıq və bölgüyə qədər təchizat siklinə nəzarət etməyə və idarə etməyə görə məsuliyyət daşıyırlar.

Maliyyə Nəzarətçisi Şimali Atlantika Şurası tərəfindən təyin olunur və üzv dövlətlərdən maliyyənin tələb olunmasına və NATO-nun maliyyə reqlamentlərinə uyğun olaraq müvafiq büdcələr və ya mülki büdcə, yeni NATO

qərargahı üçün büdcə və təqaüd büdcəsi çərçivəsində xərclərə nəzarət edilməsinə görə məsuldur. Əsas idarəetmə risklərini müəyyən etmək və onları nəzarət altında saxlamaq üçün idarəetmə prosesinin auditi həyata keçirilir.

Üzv dövlətlərin auditor orqanlarını təmsil edən hökumət rəsmilərindən ibarət NATO üzrə müstəqil Beynəlxalq Auditorlar Şurası mövcuddur. Bu Şura Şimali Atlantika Şurası tərəfindən təyin olunur və onun qarşısında müxtəlif NATO orqanlarının müvafiq büdcələr daxilində maliyyə hesablarının yoxlanılmasına görə məsuliyyət daşıyır. Onun əsas vəzifəsi Şuranı və üzv dövlətləri onların ümumi fondlarının icazə verilmiş xərclərin ödənilməsi üçün düzgün istifadə edildiyinə və həmin xərclərin verilmiş fiziki və maliyyə icazələri çərçivəsində olduğuna əmin etməkdir.

Təşkilati, prosedura və inzibati dəstək, həmçinin səfir, nazir və zirvə görüşü səviyyələrində iclaslarda və NATO Mənzil Qərargahında və ondan xaricdə baş tutan xüsusi tədbirlərdə də təmin olunur. Həmin heyət Baş Katibin Təşkilatın idarə edilməsi üçün hərtərəfli məsuliyyət daşıyan Şəxsi Ofisi ilə sıx işləyir.

Bundan əlavə Beynəlxalq Katiblikdə NATO vasitəsilə təhlükəsizlik standartlarının əlaqələndirilməsi və tətbiqinin həyata keçirilməsinə görə məsuliyyət daşıyan bir müstəqil idarə var. O, təhlükəsizlik sistemlərinin dövri araşdırmasını həyata keçirir və NATO-nun Brüsseldəki Qərargahının təhlükəsizliyinə görə məsuliyyət daşıyır. Bundan başqa, o, üzv dövlətlər, tərəfdaş və Aralıq Dənizi Dialoqu ölkələri, NATO-nun mülki və hərbi orqanları arasında NATO üçün təhlükəsizliyin hərtərəfli əlaqələndirilməsinə, Alyans vasitəsilə NATO təhlükəsizlik siyasətinin düzgün tətbiqinə və terrorist və kəşfiyyat təhlükələrinə qarşı əks-tədbirlərin qiymətləndirilməsi və həyata keçirilməsinə görə məsuldur.

İdarənin üç əsas funksiyası var: siyasətə nəzarət, təhlükəsizlik kəşfiyyatı və müdafiə təhlükəsizliyi.

Siyasətə nəzarət NATO üzv dövlətləri, mülki və hərbi orqanları, Tərəfdaş və Aralıq Dənizi Dialoqu ölkələrində Şimali Atlantika Şurası tərəfindən səlahiyyətləndirilmiş təşviqat və araşdırmalar aparılır və NATO haqqında məlumatın lazımi mühafizəsi təsdiq olunur. Təhlükəsizlik siyasəti, direktivlər, rəhbər və köməkçi sənədlər NATO Təhlükəsizlik Komitəsi, lazım gəldikdə isə, həm də Şimali Atlantika Şurasının nəzərinə çatdırılması üçün inkişaf etdirilmiş və yenidən baxılmışdır. Şimali Atlantika Şurası tərəfindən təsdiq edilmiş əməkdaşlıq fəaliyyətlərinə yardımçı olan NATO tərəfindən təsnif edilmiş materialları qəbul edən qeyri-üzv dövlətlər və beynəlxalq təşkilatlarla təhlükəsizlik sazişləri barədə danışıqlar aparılır. Bundan başqa, NATO-nun

mülki orqanlarında rabitə və informasiya sistemlərinin təhlükəsizliyinin təmin edilməsi həyata keçirilir və NATO-nun çoxmillətli rabitə və informasiya sistemləri ilə bağlı informasiya təhlükəsizliyi aspektlərinə dair məsləhətlər verilir. NATO-nun mülki orqanlarında təhlükəsizlik risklərinin idarə olunması proseduralarının tətbiqinə ehtiyac duyulur ki, bu da təhlükəsizlik risklərinin birgə qiymətləndirilməsi metodologiyası elementlərinin əlaqələndirilməsi vasitəsilə həyata keçirilir.

Təhlükəsizlik kəşfiyyatı NATO vasitəsilə əks-kəşfiyyat siyasəti və nəzarəti ilə məşğul olur. Şimali Atlantika Şurasını, NATO-nun digər əsas qərar qəbuledici orqanlarını, o cümlədən NATO Hərbi Komitəsini Terror Təhlükəsinə qarşı Kəşfiyyat Bölməsi vasitəsilə təhlükə ilə bağlı məlumatlarla təmin edir. Bu sahədə işləyən heyət NATO Xüsusi Komitəsini katibliklə təmin edir və onun işini əlaqələndirir. O, həmçinin xüsusi istintaq və casusluq araşdırmalarını dəstəkləyir, məhdud hallarda isə tənzimləyir, NATO Qərargahında və mülki və hərbi orqanlarında personalın təhlükəsizliyi ilə bağlı bütün məsələləri və Baş Katibin Qapalı Mühafizə Bölməsini idarə edir.

Mühafizə təhlükəsizliyi bir sıra elementləri özündə birləşdirir: mühafizə təhlükəsizliyi proqramları və əməliyyatlarının, o cümlədən NATO Qərargahında fiziki, işçi heyəti və informasiya təhlükəsizliyi tədbirlərinin əlaqələndirilməsi, yeni NATO qərargahlarının tikintisi üçün mühafizə təhlükəsizliyi tədbirlərinin məsləhət görülməsi, Qərargahda, üzv və tərəfdaş ölkələrdə, NATO Kibernetik Mühafizə Proqramı altında nazirlik və digər yüksək səviyyəli görüşlərin təhlükəsizlik aspektlərinin əlaqələndirilməsi, NATO vasitəsilə informasiya təhlükəsizliyi haqqında məlumatlılığın və kompüter virusları və şəbəkə hücumları kimi kompüter təhlükəsizlik hadisələrinə reaksiyanın əlaqələndirilməsinə görə məsuliyyət daşıyan NATO Kompüter Hadisələrinə Reaksiya Bacarıqlarının Əlaqələndirilməsi Mərkəzinin (NCIRCCC) idarə edilməsi və fəaliyyəti.

9-cu Fəsil

HƏRBİ TƏŞKİLATLAR VƏ TƏSİSATLAR

Əvvəlki fəsillər Alyansın daimi nümayəndələrinin səfirliklər səviyyəsində Şimali Atlantika Şurasında Baş Katibin sədrliyi altında NATO siyasətini müzakirə etmək və təsdiq etmək üçün görüşdüyü siyasi qərargah olan NATO-nun Brüsseldəki Qərargahını təsvir etdi. Bu fəsil Təşkilatın hərbi komponentlərini təsvir edir. Bunlar aşağıdakılardır: Hərbi Komitə (NATO-nun baş hərbi orqanı), iki Strateji Komandan və Hərbi Komandanlıq strukturu. Hərbi Komitənin işinə aşağıdakı fəsildə izah olunduğu kimi, Beynəlxalq Hərbi Katiblik dəstək verir.

Hərbi Komitə

Hərbi Komitə (MC) NATO-da Şimali Atlantika Şurasının və müvafiq olaraq Hərbi Planlaşdırma Komitəsi və Nüvə Planlaşdırılması Qrupunun tam siyasi hakimiyyəti altında olan baş hərbi orqandır. O, seçkili sədrin sədrliyi altında görüşür və Şimali Atlantika Şurası, Hərbi Planlaşdırma Komitəsi və Nüvə Planlaşdırılması Qrupunun birbaşa hərbi məsləhət mənbəyidir. Onun üzvləri daimi sessiyada milli hərbi nümayəndələr (military representatives - *MILREPs*) kimi xidmət edən və öz hərbi rəhbərlərini təmsil edən baş hərbi zabitlərdir. Mülki rəsmi şəxs ilə hərbi qüvvələri olmayan İslandiya təmsil edilir. Hərbi Komitə həmçinin yüksək səviyyədə, yəni iki NATO Strateji Komandanı iştirak etmək üçün dəvət olunduqda hərbi rəhbərlər səviyyəsində də müntəzəm olaraq görüşür.

Gündəlik olaraq hərbi nümayəndələr öz ölkələrinin ən yaxşı maraqlarını təmsil etməklə, eyni zamanda konsensusun əldə olunması üçün danışıqlar və müzakirələrə açıq qalaraq milli çərçivədə işləyirlər. Bu adətən bütövlükdə Alyansın maraqlarına uyğun gələn məqbul kompromislər əsasında razılaşmaların əldə olunmasını əhatə edir və onun bütün vəzifə və siyasi məqsədlərinin irəli sürülməsinə xidmət edir. Bu səbəbdən hərbi nümayəndələr Hərbi Komitəyə öz kollektiv vəzifələrini yerinə yetirməsinə və çevik qərarlar qəbul etməsinə imkan verən adekvat səlahiyyətə malikdirlər.

Komitə NATO məkanının ümumi müdafiəsi üçün zəruri hesab olunan tədbirləri NATO-nun siyasi orqanlarına tövsiyə etməyə və Şimali Atlantika Şurası tərəfindən qəbul edilmiş operativ qərarların tətbiq edilməsinə görə məsuliyyət daşıyır. Onun əsas rolu hərbi siyasət və strategiya ilə bağlı istiqamət və məsləhət verməkdir. Komitə hərbi məsələlərlə bağlı onun

iclaslarında öz nümayəndələri vasitəsilə iştirak edən NATO Strateji Komandanlarına rəhbərlik edir və Şuranın hakimiyyəti altında Alyansın hərbi işlərinin tam idarə edilməsinə, o cümlədən Hərbi Komitə agentliklərinin səmərəli fəaliyyətinə görə məsuliyyət daşıyır.

Komitə Alyans üçün bütün strateji konsepsiyaların inkişaf etdirilməsinə köməklik göstərir və NATO maraqları üçün risk yaradan ölkə və ərazilərin hərbi gücünün və imkanlarının illik uzun müddətli qiymətləndirilməsini hazırlayır. Böhran, gərginlik və müharibə zamanı və Alyans tərəfindən həyata keçirilən əməliyyatlarla əlaqədar (Kosovo və Əfqanıstandakı kimi), onun rolu Şuraya və ya Hərbi Planlaşdırma Komitəsinə hərbi situasiya və onun təsirlərinə dair məsləhətlər, hərbi gücün tətbiqi, gözlənilməz hallar üçün planların yerinə yetirilməsi və müvafiq döyüş qaydaları ilə bağlı tövsiyələr verməkdir.

Komitə Şuranın müntəzəm çərşənbə iclasından sonra hər cümə axşamı görüşür və beləliklə Şuranın qərarlarını cəld izləyə bilir. Təcrübədə iclaslar lazım olan vaxtlarda toplanır və həm Şura, həm də Hərbi Komitə adətən daha tez-tez görüşürlər. Alyansın Kosovo və Əfqanıstanda rolunun və İraq və Sudanla bağlı dəstəyinin nəticəsi olaraq, Şura və Hərbi Komitənin operativ məsələləri izah etmək üçün daha tez-tez görüşməsinə ehtiyac artır. Həqiqətdə, Alyansın daxili və xarici transformasiyası, digər dövlətlərlə tərəfdaşlıq və əməkdaşlığın intensivləşdirilməsi, bu inkişafa nəzarət etmək üçün yeni institutların yaradılması və xüsusilə də yeni təhlükələrin meydana gəlməsi və terrorizmə qarşı mübarizədə Alyansın rolunun artmasının nəticəsi olaraq Təşkilatın bütün qərar qəbuledici orqanlarının görüşmə tezliyi son illərdə xeyli artmışdır.

Hərbi Komitə Qərargah Rəislərinin Sessiyası səviyyəsində adətən ildə üç dəfə görüşür. Bu görüşlərdən ikisi Brüsseldə, biri isə rotasiya qaydasında NATO üzv dövlətlərində keçirilir.

Hərbi Komitə Avro-Atlantika Tərəfdaşlıq Şurası (AATŞ) və Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində üzv dövlətlərlə müntəzəm olaraq hərbi əməkdaşlıq məsələlərini müzakirə etmək üçün milli hərbi nümayəndələr səviyyəsində (ayda bir dəfə) və müdafiə rəhbərləri səviyyəsində (ildə iki dəfə) görüşür. Hərbi Komitə həmçinin NATO-Rusiya Şurası və NATO-Ukrayna Komissiyası çərçivəsində müxtəlif formatlarda görüşür.

2001-ci ilin yanvarından etibarən NATO Hərbi Komitəsi Avropa İttifaqının Hərbi Komitəsi ilə təhlükəsizlik, müdafiə və böhran idarəetməsi ilə bağlı ümumi maraq məsələləri ilə əlaqədar müntəzəm olaraq görüşür. Aralıq Dənizi Dialoqu ölkələrinin müdafiə rəhbərlərinin iştirakı ilə Qərargah Rəislərinin Sessiyası səviyyəsində Hərbi Komitənin ilk görüşü 2004-cü ilin noyabrında keçirilmişdir.

Hərbi Komitənin sədri

Hərbi Komitənin sədrinin namizədliyi müdafiə rəhbərləri tərəfindən irəli sürülür və üç il müddətinə vəzifəyə təyin olunur. O, öz vəzifələrinin icrasına görə qarşısında məsuliyyət daşıdığı Hərbi Komitənin verdiyi səlahiyyətlər əsasında beynəlxalq təşkilatın nümayəndəsi qismində fəaliyyət göstərir. O, adətən Hərbi komitənin bütün iclaslarına sədrlik edir. Onun olmadığı vaxtlarda Hərbi Komitənin Sədr Müavini (HKSM) sədrliyi həyata keçirir.

Hərbi Komitənin Sədri, eyni zamanda, həm rəsmi nümayəndə, həm də komitənin fikrinin ifadəçisidir. O, gündəlik işini idarə edir və Beynəlxalq Hərbi Katibliyin Rəisi üçün zəruri direktivlər və tövsiyələrin hazırlanmasında Komitənin adından hərəkət edir. Sədr Hərbi Komitəni Şimali Atlantika Şurasının, Hərbi Planlaşdırma Komitəsinin və Nüvə Planlaşdırılması Qrupunun iclasları kimi yüksək səviyyəli iclaslarda lazım olduqda hərbi işlərə dair məsləhətlər verməklə təmsil edir.

Öz vəzifəsinin sayəsində Komitənin Sədri mühüm ictimai rola malikdir və mətbuat və media ilə əlaqələrdə Alyansın baş hərbi təmsilçisidir.

O, həm üzv dövlətlərə, həm də Sülh Naminə Tərəfdaşlıq proqramı, NATO-Rusiya Şurası, NATO-Ukrayna Komissiyası və Aralıq Dənizi Dialoqu çərçivəsində NATO-nun sıx əlaqələr inkişaf etdirdiyi ölkələrə rəsmi səfərlər edir və orada Hərbi Komitənin adından təmsilçilik funksiyasını yerinə yetirir. Sədr vəzifəsinə görə həm də NATO Müdafiə Kollecinin Akademik Məsləhətçi Şurasının sədridir. Müdafiə Kollecinin rolu X Hissədə təsvir olunub.

NATO-nun Strateji Komandanları

Strateji Komandanlar – Müttəfiqlərin Avropadakı Ali Baş Komandanı (SACEUR) və Müttəfiqlərin Ali Baş Transformasiya Komandanı (SACT) – Hərbi Komitə qarşısında Alyansın hərbi məsələlərinin tam istiqamətləndirilməsi və idarə olunmasına görə öz səlahiyyətləri sferasında məsuliyyət daşıyırlar. Onlar həmçinin Hərbi Komitəyə məsləhətlər verirlər. Onlar adətən Hərbi Komitənin Qərargah Rəislərinin Sessiyası səviyyəsində olan iclaslarında iştirak edirlər, lakin lazım gəldikdə Hərbi Komitəni Daimi sessiyalarda təlimatlandırmaq üçün dəvət oluna bilərlər. Onların hər birinin NATO Qərargahı çərçivəsində həm siyasi katiblik, həm də hərbi qərargahla sıx əlaqələr saxlamaqda kömək etmək üçün qərargahda general və ya admiral rütbəsində nümayəndələri var və informasiya axını və əlaqələrin hər iki tərəfdə səmərəli işləməsini təmin edirlər. Bu nümayəndələr Hərbi Komitənin Daimi Sessiya iclaslarında iştirak edir və Hərbi Komitənin öz müvafiq komandanlıqları ilə bağlı işləri üzrə məsləhətlər verir.

Hərbi Komandanlığın Strukturu

NATO-nun Hərbi Komandanlıq Strukturu NATO-nun Qüvvələr Strukturundan fərqli olaraq daha çox xidmət sahələrində - ordu, donanma və hava qüvvələri sahələrində NATO hərbi orqanlarına birgə əməliyyatlar üçün təyin olunmuş qüvvələrə komandanlıq və nəzarət etmək imkanı verən mexanizmdir. O, Strateji Komandanlıqların və Köməkçi Komandanlıqların iyerarxik quruluşuna əsaslanır.

NATO-nun Qüvvələr Strukturu üzv dövlətlər tərəfindən müvəqqəti və ya daimi olaraq həm NATO-nun çoxmillətli qüvvələrinin hissəsi kimi, həm də NATO-ya ənənəvi milli töhfə qismində Alyansın səlahiyyətinə birgə komandanlıqları və nəzarət strukturları ilə birlikdə verilmiş qüvvələri bir araya gətirən təşkilati tədbirlərdən ibarətdir. Bu qüvvələr əvvəlcədən müəyyənləşdirilmiş hazırlıq kriteriyalarına uyğun olduqda NATO əməliyyatlarında istifadə olunması mümkündür.

NATO-nun Qüvvələr Strukturunda son illər həyata keçirilmiş dəyişikliklərdə Soyuq Müharibə qüvvələrinin strukturuna xas olan böyük, ağır silahlandırılmış və daimi hərəkətsiz qərargahlar əvəzinə bir çox hərbi tapşırıqlar üçün çevik istifadə oluna biləcək daha kiçik, daha mobil qüvvələrə xüsusi əhəmiyyət verilmişdir. Sonuncular təcavüzkar müharibə əleyhinə əsas hərbi əməliyyatlar üçün təchiz olunub təlimatlandırıldıqları halda, NATO-nun hazırkı qüvvələr strukturunu təşkil edən qüvvələrin əksəriyyəti onlara ehtiyac yaranan böhran və münaqişə zonasına cəld hərəkət etmək və əsas bazalarından uzaqda öz vəzifələrini yerinə yetirmək qabiliyyətinə malik olmaq üçün yaradılmışlar.

Qüvvələrin strukturunda edilmiş yuxarıdakı dəyişikliklər paralel olaraq NATO-nun komandanlıq strukturunda da dəyişiklik etmək ehtiyacı yaratmışdır. Bunlar struktur çərçivəsində komandanlıqların sayının azaldılması və birlikdə NATO-nun hərbi qabiliyyətlərini təşkil edən müxtəlif elementlərlə əlaqədar komandanlıq və nəzarət sisteminin rasionallaşdırılması üzərində cəmləşib. Bu dəyişikliklər NATO Strateji Komandanlarına onlara təqdim olunmuş qüvvələrə daha effektiv komandanlıq və nəzarət həyata keçirmək imkanı vermək üçün edilmişdir. Bu zaman bu günün çox fərqli təhlükəsizlik mühitində onlara tapşırılmış əməliyyatların həyata keçirilməsi üçün lazım olan geniş hərbi imkanların istifadə edilmişdir.

Bugünkü NATO Komandanlıq Strukturu yeni üzv dövlətlərin qəbulu, NATO-nun Avropa İttifaqı ilə inkişaf edən strateji əməkdaşlığı, Tərəfdaş və digər qeyri-NATO dövlətləri ilə əməkdaşlıq, terrorizmin və kütləvi qırğın silahlarının yayılması üzrə artan təhlükə kimi yeni təhlükəsizlik problemləri

də daxil olmaqla bir sıra faktorlara xas olan dəyişən strateji şəraiti əks etdirir. Komandanlıq strukturu Şimali Atlantika Şurası tərəfindən Alyansın üzləşdiyi mümkün vəzifələr, risklər və potensial təhlükələrin öhdəsindən gəlmək və lazımi vaxtda və yerdə onların qarşısını almaq üçün yaradılmışdır.

Komandanlıq strukturunun mərkəzində iki strateji komandanlıq dayanır. Bunlardan biri Şimali Atlantika Şurasının həyata keçirilməsinə razılıq verdiyi əməliyyatların planlaşdırılması və icra olunmasında cəmləşmişdir. Digəri isə dəyişən tələblərə cavab vermək üçün NATO hərbi bacarıqlarının transformasiyası və Alyansın öhdəsinə verilmiş hərbi qüvvələrə etibar olunmuş bir çox hərbi tapşırıqları yerinə yetirmək üçün onlara imkan yaratmaqla bağlıdır. Transformasiya davamlı bir prosesdir. Bu NATO üzv dövlətləri və tərəfdaş ölkələrinin NATO-nun apardığı hərbi əməliyyatlar üçün təqdim etdiyi qüvvələrin effektivliyini və fəaliyyət imkanlarını təkmilləşdirmək üçün yaradılmış yeni konsepsiyaların, doktrinaların, bacarıqların fəal inkişafı və inteqrasiyasını tələb edir.

Həmçinin, NATO-nun müxtəlif üzv dövlətlərində yerləşən bir sıra köməkçi hərbi qərargahlar və komandanlıq strukturunun digər komponentləri də mövcuddur.

Strateji komandanlıq səlahiyyətlərinin operativ və funksional hissələrə ayrılması ilə bütün operativ səlahiyyətlər əvvəllər rəsmi olaraq Avropa Birləşmiş Komandanlığı və Atlantika Birləşmiş Komandanlığı arasında bölünmüşdü. Hal-hazırda bu komandanlıqlar Müttəfiqlərin Avropadakı Ali Baş Komandanının (SACEUR) səlahiyyəti altında Belçikada, Monsda yerləşən Müttəfiqlərin Əməliyyatlar üzrə Komandanlığı adlanan vahid Avropa əsaslı Strateji Komandanlıqda birləşdirilib. Ali Baş Komandan eyni zamanda həm də ABŞ-ın Avropa Komandanlığının Komandanı kimi fəaliyyət göstərir.

Eyni ilə Müttəfiqlərin Transformasiya Komandanlığı (ACT) adlanan ikinci strateji səviyyəli komandanlıq ABŞ-da yerləşir və Müttəfiqlərin Ali Baş Transformasiya Komandanının (SACT) rəhbərliyi altında olmaqla, eyni zamanda həm də ABŞ Birləşmiş Qüvvələr Komandanlığının Komandanıdır. Bu, güclü transatlantik əlaqələr saxlamağa kömək edir və eyni zamanda NATO qüvvələri üçün ABŞ tərəfindən öz milli hərbi qüvvələrinə münasibətdə həyata keçirdiyi transformasiya prosesinə yol açır.

Hər iki NATO Strateji Komandanı Şimali Atlantika Şurası, bəzi hallarda isə Hərbi Komitənin rəhbərliyi ilə Hərbi Planlaşdırma Komitəsi tərəfindən onların üzərinə qoyulan rol və missiyaları həyata keçirirlər. Onların səlahiyyət və vəzifələri Alyansın Strateji Konsepsiyasında və Hərbi Komitənin müvafiq

sənədlərində göstərilmiş məqsədlərə əsaslanır. Geniş mənada bunlar aşağıdakılardır:

Müttəfiqlərin Avropadakı Ali Baş Komandanı (SACEUR)

Müttəfiqlərin Əməliyyatlar üzrə Komandanlığı üçün Müttəfiqlərin Avropadakı Ali Baş Komandanının vəzifəsi Alyansın üzv dövlətlərinin sülh, təhlükəsizlik və ərazi bütövlüyünə risklərin və təhlükələrin qiymətləndirilməsi, hərbi planlaşdırılmanın aparılması, Şimali Atlantika Şurasında razılaşdırıldığı kimi tələb olunan yerdə və vaxtda Alyansın bütün missiyalarını həyata keçirmək üçün lazım olan qüvvələrin müəyyənləşdirilməsi və tələb olunması yolu ilə töhfələr verilməsidir.

SACEUR Alyansın böhran idarəetmə tədbirlərinə töhfələr verir və NATO ölkələrinin ərazisinin və onların qüvvələrinin effektiv müdafiəsini təmin edir. Təcavüz baş verdikdə və ya Şimali Atlantika Şurası təcavüzün yaxınlaşmasına əmin olduqda, SACEUR öz Komandanlığının səlahiyyəti və imkanları çərçivəsində Müttəfiqlərin Alyansın ərazi bütövlüyünü qorumaqda həmrəyliyini və hazır olduğunu nümayiş etdirmək, dənizləri, kommunikasiya xətlərini və ticarəti mühafizə etmək və NATO üzv dövlətlərinin təhlükəsizliyini saxlamaq və ya pozulduqda bərpa etmək üçün lazım olan bütün hərbi tədbirləri həyata keçirir.

Müttəfiqlərin Əməliyyatlar Komandanlığı (Allied Command Operations - *ACO*) təmin edir ki, NATO Qüvvələr Strukturunu təşkil edən qüvvələr, onlara öz tapşırıqlarını yerinə yetirmək üçün lazım olan hərbi imkanları tələb etməyə qadir effektiv birləşmiş qərargahlarla həm indi, həm də gələcəkdə təchiz olunsunlar. O, bunu Müttəfiqlərin Transformasiya Komandanlığı ilə məsləhətləşmələrdə Alyansın transformasiya səylərində operativ rola malik olan əməliyyat fəaliyyəti və komandanlıq strukturunun elementlərini razılaşdırmaqla (uyğunlaşdırmaqla) həyata keçirir.

Müttəfiqlərin Avropadakı Ali Baş Komandanının səlahiyyətinə aid digər vəzifələr aşağıdakılardır:

- Hərbi əlaqələri, Sülh Naminə Tərəfdaşlıq (SNT) və NATO-nun Rusiya, Ukrayna, Aralıq Dənizi Dialoqu ölkələri ilə münasibətləri çərçivəsində həyata keçirilən digər əməkdaşlıq fəaliyyəti və təlimlərini inkişaf etdirmək və onlarda iştirak etməklə bütün Avro-Atlantika məkanında sabitliyə töhfə vermək;

- İmkanlardakı çatışmazlıqları müəyyən etmək və onların arasındakı prioritetləri aşkar etmək üçün strateji səviyyədə təhlil aparılması;
- Əməliyyat və təlimlər üçün NATO tərəfindən ehtiyatların bölgüsünü idarə etmək və Şimali Atlantika Şurası tərəfindən müəyyən edilmiş əməliyyat missiyalarını və tapşırıqlarını həyata keçirmək; və
- Müttəfiqlərin Transformasiya Komandanlıqları ilə birlikdə NATO və Tərəfdaş ölkələrin hərbi qərargahları və qüvvələri üçün birgə və ümumi olan proseduralarla təlim proqramlarını və məşqlərini inkişaf etdirmək və idarə etmək.

Müttəfiqlərin Ali Baş Transformasiya Komandanı (SACT)

Müttəfiqlərin Transformasiya Komandanlığı (ACT) səlahiyyətləri aşağıdakı kimi ümumiləşdirilən Müttəfiqlərin Ali Baş Transformasiya Komandanına (SACT) tabe olur:

- Alyansın hərbi effektivliyini təkmilləşdirmək naminə NATO-nun hərbi strukturlarının, qüvvələrinin, bacarıqlarının və doktrinalarının transformasiyasında əsas rolu strateji komandanlıq səviyyəsində öz üzərinə götürməklə Alyansın üzv dövlətlərinin sülh, təhlükəsizlik və ərazi bütövlüyünün qorunmasına töhfə vermək;
- Gələcək qabiliyyət və qarşılıqlı fəaliyyət tələblərinin növ və miqyasını müəyyən etmək və onlara xüsusi diqqət yetirmək və bunun nəticələrini NATO-nun bütün hərbi planlaşdırma prosesinə gətirmək üçün Müttəfiqlərin Əməliyyatlar Komandanlığı ilə əməkdaşlıqda operativ təhlillərə strateji səviyyədə rəhbərlik etmək;
- Müttəfiqlərin Əməliyyatlar Komandanlığı ilə əməkdaşlıqda NATO-nun transformasiya səyləri ilə əməliyyat fəaliyyəti və komandanlıq strukturunun digər elementlərinin inteqrasiyası və uyğunlaşdırılması – burada məqsəd NATO qüvvələrinin onlara öz tapşırıqlarını yerinə yetirmək üçün lazım olan hərbi imkanları tələb etməyə qadir effektiv birgə və ümumi hərbi qərargahlarla indi və gələcəkdə təmin edilməsidir;
- Konsepsiyaların tədqiqi və doktrinaların inkişaf etdirilməsi;
- Eksperimentlərin həyata keçirilməsinin idarə edilməsi və yeni texnologiyaların inkişafı ilə bağlı tədqiqat və təminat proseslərinin dəstəklənməsi; bu funksiyanın həyata keçirilməsində müvafiq NATO

agentlikləri və layihə idarəetmə orqanları ilə qarşılıqlı fəaliyyət göstərmək. Məqsəd qarşılıqlı fəaliyyətin və standartlaşdırmanın təkmilləşdirilməsi imkanlarını müəyyənləşdirmək və Alyansın xeyrinə keyfiyyətlə transformasiya edilmiş bacarıqlara nail olmaqdır;

- NATO-nun transformasiya proqramları üçün bölüşdürülmüş birgə maliyyələşdirilən ehtiyatların idarə edilməsi. Məqsəd əməliyyat tələblərinin vaxtında və səmərəli təmin edilməsidir;
- Alyansı ümumi NATO standartlarına uyğun təlimatlandırılmış, ümumi və birgə qüvvələrin hərbi mühitində effektiv fəaliyyət göstərməyə qadir liderlər, mütəxəssislər və qərargah heyətləri ilə təmin etmək üçün təlim və təhsil proqramlarının həyata keçirilməsi;
- NATO-nun transformasiya səylərinin təkmilləşdirilməsi üçün tələb olunan təşkilatların, konsepsiyaların, ehtiyatların və təhsil proqramlarının davamlı adaptasiyasını təmin etmək məqsədilə prosedurların yaradılması və saxlanılması;
- Müttəfiqlərin Əməliyyatlar Komandanlığının vəzifə tələblərinin onların planlaşdırılması, icrası və qiymətləndirilməsi mərhələləri vasitəsilə dəstəklənməsidir.

Ümumi rollar və məsuliyyətlər

Yeni hərbi komandanlıq strukturu hər iki strateji komandanlıq arasında sıx əməkdaşlığı nəzərdə tutmasına rəğmən, səylərin lüzumsuz üst-üstə düşməsi və ikiləşməsinin qarşısının alınması üçün onların müvafiq səlahiyyətləri aydın şəkildə fərqləndirilir. Bu səbəbdən hər bir komandanlıq aydın şəkildə müəyyənləşdirilmiş əsas və köməkçi rollara malikdir. Strateji komandanlıq, əsas rol oynadığı xüsusi sahələrdə müvafiq məsələlərin həlli və rəsmi sənədlərin təqdimatı üçün Hərbi Komitə qarşısında məsuliyyət daşıyır, lakin lazım gəldikdə digər strateji komandanlığın dəstəyindən yararlanır. Və əksinə, köməkçi rol oynadığı sahələrdə isə əsas rol oynayan strateji komandanlığa komandanlıq və qərargah səviyyəli məsləhətlər verməyə görə məsuliyyət daşıyır.

Hər iki komandanlıq NATO-nun hərbi planlaşdırma prosesinin həyata keçirilməsinin təmin edilməsinə görə məsuliyyət daşıdığı halda, bu prosesin axarlı və ahəngli keçməsini təmin etmək məqsədilə Müttəfiqlərin Transformasiya Komandanlığı, hərbi tələbatların təhlili, silahlı qüvvə quruculuğunun planlaşdırılması, silahlanma və maddi-texniki bazanın planlaşdırılması, komanda və nəzarət planlaşdırılması, həmçinin Sülh Naminə Tərəfdaşlıq

üzrə Planlaşdırılma və Təhlil Prosesi (Planning and Review Process) kimi hərbi aspektlərdə əsas rol oynayır. Müttəfiqlərin Əməliyyatlar Komandahlığı mülki fövqəladə planlaşdırma, nüvə planlaşdırılması və hərbi qüvvələrin quruculuğunun planlaşdırılmasında vasitə və risklərin dəyərləndirilməsinin hərbi aspektlərində aparıcı rol oynayır.

Qüvvələrin komanda və nəzarəti, həmçinin əməliyyat planlaşdırılması Müttəfiqlərin Avropadakı Ali Baş Komandanlığının **(**SACEUR) səlahiyyətindədir. Digər tərəfdən, müştərək və birgə konsepsiya və doktrinalar, o cümlədən Sülh Naminə Tərəfdaşlığın (SNT) hərbi konsepsiyaları razılaşdırılarkən məsuliyyət Müttəfiqlərin Ali Baş Transofrmasiya Komandanlığının (SACT) üzərinə düşür. O, əməliyyat və təlimlərdən öyrənilmiş dərslər konsepsiya, doktrina və bacarıqlarla bağlı dəyişikliklərin əsası kimi istifadə edilir. Bunlar sonradan Müttəfiqlərin Avropadakı Ali Baş Komandanlığı **(**SACEUR) tərəfindən inkişaf etdirilən əməliyyatlar üçün strateji direktiv və prosedurların əsasını formalaşdırır.

Hər bir strateji komandanlığın fərdi idarəetmə strukturu, büdcəsi, səlahiyyətləri, o cümlədən strateji idarəçilik, maliyyə planlaşdırılması və ehtiyat idarə etməsi mövcuddur.

Bacarıqlar paketinin idarə olunması hər iki Strateji Komandanlığın digər ümumi səlahiyyətidir. SACT diqqətini Alyansın bütün missiyalarının müştərək və birgə effektivliyini artırmaq məqsədi ilə bacarıqlarının inkişaf etdirilməsi üzərində cəmləyir. SACEUR əməliyyatların idarə olunması üçün tələb olunan bacarıqların inkişaf etdirilməsinə görə məsuliyyət daşıyır.

Kəşfiyyat sahəsində Müttəfiqlərin Əməliyyatlar Komandanlığı operativ planlaşdırma və əməliyyatları kəşfiyyat dəstəyi ilə təmin etdiyi halda, Birləşmiş Transformasiya Komandanlığı kəşfiyyat konsepsiyalarının və bacarıqlarının meyl və inkişafının uzun müddətli perspektivdə təhlilini həyata keçirir. Eynilə rabitə və informasiya sistemləri sahəsində də səlahiyyət bölgüsü Müttəfiqlərin Əməliyyatlar Komandanlığına diqqətini operativ planlaşdırma və çatışmamazlıqları müəyyən etməyə yönəltməyə imkan verir, Müttəfiqlərin Transformasiya Komandanlığı isə öz diqqətini gələcək konsepsiyalar, bacarıqlar və strukturların üzərində cəmləyir.

Məşqlər, təlimlər, qiymətləndirmələr və təcrübələrə gəldikdə, SACT, NATO və SNT-nin müştərək fərdi təhsil və təlimi və buna bağlı siyasətdə aparıcı rol oynayır. Meydana gələn konsepsiya, doktrina və texnologiyaların inkişaf etdirilməsi və sınanmasına dəstək məqsədilə təcrübələrin düşünülməsi, idarə edilməsi və qiymətləndirilməsi bu vəzifənin bir hissəsini formalaşdırır. Planlaşdırma və transformasiya məqsədlərinin yerinə yetirilməsi

üçün həyata keçirilən təlim, məşqlər və təcrübələr üçün qüvvələrin əldə olunması baxımından SACEUR və üzv dövlətlərlə sıx əlaqələndirmə baş tutur.

Təyin olunmuş qüvvələrin və operativ komandanlıq strukturunun köməkçi elementlərinin NATO və SNT kollektiv təliminə SACEUR məsuliyyət daşıyır; ona dəstək isə məşqlərin hazırlanması, planlaşdırma və qiymətləndirməni təmin edən Müttəfiqlərin Transformasiya Komandanlığı (ACT) tərəfindən gəlir.

Müttəfiqlərin Əməliyyatlar Komandanlığının öz operativ təhlilini aparması və komandanlıq strukturu və əməliyyatları texniki dəstəklə təmin etməsinə baxmayaraq, ACT elmi tədqiqat və inkişafda mühüm rol oynayır.

Operativ struktur

Bütün NATO əməliyyatları birləşmiş komandanlıq strukturu və qüvvələr strukturu üçün əlverişli olan, müəyyən xüsusi əməliyyatların tələb və çağırışlarına müvafiq hazırlanmış müntəzəm və ya statik element və imkanları özündə birləşdirir. Bu, həm Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsinə müvafiq olaraq bir və ya daha artıq üzv dövlətə qarşı təhlükəyə Alyans tərəfindən cavab olaraq həyata keçirilən əməliyyatlara (5-ci maddə əməliyyatları kimi tanınan), həm də Şimali Atlantika Şurası tərəfindən verilmiş qərarlara əsaslanan sülhü dəstəkləyən və digər hərbi əməliyyatlara (qeyri-beşinci maddə əməliyyatları) tətbiq olunur.

Komanda və nəzarət strukturu üç səviyyədə: strateji, operativ və komponent (tamamlayıcı) səviyyələrində fəaliyyət göstərir.

Strateji səviyyədə Birləşmiş Alyans Qüvvələri Hərbi Komitə tərəfindən təsdiq edilmiş və Şimali Atlantika Şurası tərəfindən qəbul edilmiş, Alyansın strateji məqsədlərini həyata keçirmək üçün yaradılmış siyasi-hərbi struktur çərçivəsində istifadə olunurlar. Strateji səviyyədə istənilən əməliyyatın tam komandanlığını Müttəfiqlərin Avropadakı Ali Baş Komandanı **(**SACEUR) öz üzərinə götürmüşdür. SACEUR bu səlahiyyəti Belçikada, Mons şəhərində yerləşən Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahında (SHAPE) olan Əməliyyatlat üzrə Müttəfiq Komandanlığın (ACO) qərargahından yerinə yetirir. SACEUR strateji komandanlıqlar arasında yuxarıda ümumi təsvir olunmuş səlahiyyət bölgüsünə müvafiq olaraq Alyansın hərbi əməliyyatlarının hazırlanması və icra edilməsinə görə məsuliyyət daşıyır. O tabeçilikdə yerləşən komandirlər üçün strateji hərbi təlimat hazırlayır və çoxmillətli dəstəyi, komandanlıq strukturunun müxtəlif element və komponentlərinin gücləndirilməsini və yaradılmasını əlaqələndirir.

NATO-nun Avropa İttifaqı tərəfindən aparılan əməliyyatlara dəstəyi ilə bağlı NATO və Avropa İttifaqı arasında əldə olunmuş sazişə əsaslanan siyasi qərarlar qəbul olunduğu hallarda həmçinin bütün müttəfiqlərin iştirakı üçün açıq olan belə əməliyyatlara SACEUR-dan qərargah imkanları təmin etmək tələb oluna bilər.

Eyni zamanda Tərəfdaş ölkələrin komandanlıq təşkilatçılığına cəlb olunması NATO tərəfindən aparılan Sülh Naminə Tərəfdaşlıq əməliyyatları üçün razılaşdırılmış Siyasi-Hərbi Strukturda ifadə olunub.

Operativ səviyyədə, qəbul olunmuş strateji hərbi rəhbərliyə əsaslanan əməliyyatların planlaşdırılması və icra edilməsi təyin edilmiş operativ səviyyəli komandirin əlindədir. O, öz səlahiyyətlərini birləşmiş daimi və ya müntəzəm operativ qərargahlar vasitəsilə həyata keçirir.

Alyansın 3 operativ səviyyəli daimi birləşmiş qərargahı var: Brunssumda (Niderland) və Neapolda (İtaliya) yerləşən iki Birləşmiş Qüvvələr Komandanlığı (JFC) Qərargahları və daha məhdud üçüncü Lissabonda (Portuqaliya) yerləşən Birləşmiş Qərargahdır. Lazım gələrsə eyni zamanda ən azı iki əməliyyatın həyata keçirilməsini, onların tələb olunan vaxt ərzində davam etməsini və bu əməliyyatların fərqli cəhətlərini azaltmağı təmin etmək üçün müxtəlif tədbirlər görülür. NATO Cavab Qüvvələrinin operativ komandanlığı və nəzarəti Birləşmiş Qərargahların hər üçü tərəfindən növbə ilə həyata keçirilir.

İki Birləşmiş Qüvvələr Komandanlığının tabeçiliyində quru, dəniz və hava Komponent Komandanlıqları yerləşir. Üçüncü Birləşmiş Qərargah daimi operativ komandanlıq səlahiyyətləri yoxdur və əsasən Birləşmiş Müştərək Əməliyyat Qüvvələri (CJTF) dəstəklə təmin etməyə məsuliyyət daşıyır.

Komponent Komandanlıq səviyyəsində isə bir sıra Komponent Komandanlıq Qərargahları operativ səviyyədə Birləşmiş Qüvvələri ekspertiza xüsusi xidməti ilə, o cümlədən birləşmiş operativ planlaşdırma və icra ilə bağlı tövsiyələrlə təmin edir. Almaniya və İspaniyada, müvafiq olaraq, Heydelberq CC-Quru Qərargahı və Madrid CC-Quru Qərargahı adlanan iki Komponent Komandanlıq səviyyəli Quru Qərargahları yerləşir. Həmçinin Ramşteyndə (Almaniya) və İzmirdə (Türkiyə) yerləşən iki statik hava qərargahları Komponent Komandanlıqları və Nortvudda (İngiltərə) və Neapolda (İtaliyada) yerləşən iki statik Dəniz Qərargahları Komponent Komandanlıqları mövcuddur. Hər bir Komponent Komandanlıq qərargahı əməliyyatların təbiəti və miqyasından asılı olaraq digər ixtisaslaşmış təşkilatlar və köməkçi elementlər tərəfindən dəstəklənir və lazım gəldikdə, əlavə elementlər və müvafiq hazırlıq və təlim səviyyəsində olan heyət vasitəsilə genişləndirilə bilər.

Komponent Komandanlıqların yuxarıda göstərilən strukturuna əlavə olaraq, Nortvud və Neapolda yerləşən Dəniz Qərargahlarının Komponent Komandanlıqları ilə əlaqəli şəkildə Alyansın sualtiqayıqları ilə bağlı məsələlərinin tam əlaqələndirilməsinə görə əsas məsuliyyəti Norfolkda (Virginiya) yerləşərək SACEUR-a tabe olan, lakin Birləşmiş Ştatlar tərəfindən maliyyələşdirilən Müttəfiqlərin Sualtı Komandanlıq Qərargahı daşıyır.

Transformasiya prosesi və strukturu

NATO hərbi imkanlarının transformasiyası, Alyansın hazırkı və gələcək təhlükəsizlik mühitinin çağırışlarına uyğun gəlməsini təmin etmək üçün tələb olunan imkanların təkmilləşdirilməsi kimi vacib bir vəzifəni yerinə yetirmək üçün birgə işləyən sıx əlaqəli funksiyaları özündə birləşdirir. Bu funksiyalara, gələcək əməliyyat mühitinin dəyərləndirilməsi, gələcək strateji səviyyəli müştərək konsepsiyaların müəyyən edilməsi, yeni əməliyyat konsepsiyalarının, doktrinaların, təşkilati strukturların, imkanların və texnologiyaların inkişaf etdirilməsi, birləşdirilməsi və sınanması, təkmilləşməyə töhfə vermək kimi məsələlər daxildir.

Müttəfiqlərin Transformasiya Komandanlığının (ACT) təşkili təkmilləşdirməyə cəlb olunmuş müxtəlif proseslərin ardıcıl, birləşmiş transformasiya strukturu çərçivəsində həyata keçirilməsini təmin etmək üçün nəzərdə tutulmuşdur. Bu iş strateji konsepsiyaların, siyasət və tələbatların müəyyənləşdirilməsi; imkanların planlaşdırılması və tətbiqi; müştərək və birləşmiş konsepsiyaların inkişafı, sınanması, qiymətləndirilməsi və doktrinası; gələcək imkanların araşdırılması və texnologiyası; təlim və təhsil kimi bir neçə müxtəlif, lakin əlaqəli funksiyaları əhatə edir.

Norfolkda (Virciniya, ABŞ) yerləşən Müttəfiqlərin Ali Baş Transofrmasiya Komandanlığının (SACT) qərargahı Birləşmiş Ştatların Birləşmiş Qüvvələr Komandanlığı ilə sıx əlaqələr saxlayır və bütün transformasiya prosesinin müşahidə edilməsi və yuxarıda göstərilmiş funksiyaların əlaqələndirilməsi üçün mərkəz nöqtədir. SACT bunu, NATO-nun Avropada və Şimali Amerikada yerləşən hərbi strukturları çərçivəsindəki mərkəzlər və orqanlar şəbəkəsi vasitəsilə transformasiya prosesinin müxtəlif aspektlərinə töhfə verməklə həyata keçirir. Bu mərkəzlərdən və ya orqanlardan bəziləri birdən artıq funksiya və ya prosesə dəstək verir.

Təşkilati mənada, Müttəfiqlərin Transformasiya Komandanlığının Norfolkdakı qərargahından əlavə, onun Hərbi Komitədəki nümayəndəsinə dəstək vermək üçün NATO-nun Brüsseldəki Qərargahında yerləşən Müttəfiqlərin Transformasiya Komandanlığının (ACT) Qərargah Elementi mövcuddur. Bundan əlavə, Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahıyla

(SHAPE) bir yerdə yerləşən ACT Qərargah Elementi də mövcuddur ki, bu yolla Müttəfiqlərin Əməliyyat Komandanlığı, Beynəlxalq Heyət, Beynəlxalq Hərbi Heyət, milli hərbi nümayəndələr və müdafiə və ehtiyatların planlaşdırılması və icrası məsələlərinə görə məsul olan digər NATO orqanları və agentlikləri ilə əlaqə və koordinasiyanı təmin edir.

ACT çərçivəsində, həmçinin Avropada Stavangerdə (Norveç) yerləşən Birləşmiş Müharibə Mərkəzi (JWC) də mövcuddur ki, transformasiya sinerjisini maksimuma çatdırmaq və NATO-nun imkanlarını və hərbi uyarlılığını təkmilləşdirmək məqsədilə NATO-nun müştərək və birləşmiş təcrübə, təhlil və doktrina inkişaf proseslərinə dəstək və rəhbərlik edir. Mərkəz yeni texnologiyalar, modelləşdirmə və simulyasiya üzrə təkamül işinə yardım göstərir və yeni konsepsiyalar və doktrinalar üçün təlimlər və inkişaf proqramları həyata keçirir.

Müttəfiqlərin Transformasiya Komandanlığı (ACT) strukturuna Monsantoda (Portuqaliya) yerləşən Müştərək Analiz və Öyrənilmiş Dərslər (İbrət) Mərkəzi də daxildir, hansı ki müştərək təhlil işinin nəticələrini və öyrənilmiş dərsləri transformasiya şəbəkəsinə tətbiq edir.

Özünün Bydgoszcda (Polşa) yerləşən Birləşmiş Qüvvələrin Təlim Mərkəzi vasitəsilə JWC hər iki strateji komandanlıqlara kömək məqsədilə təlim proqramları təşkil edir və Müttəfiqlərin Əməliyyat Komandanlığı tərəfindən həyata keçirilən birləşmiş qüvvələrin təlimlərinin qiymətləndirilməsinə töhfə verir. O, NATO-nun digər agentlikləri və orqanları, milli və çoxmillətli təlim mərkəzləri və xidmət vasitələri ilə rəsmi əlaqələr saxlayır.

La Speziyada (İtaliya) yerləşən Sualtı Tədqiqatlar Mərkəzi tədqiqatlar keçirir və NATO-nun sualtı əməliyyatlarına və transformasiya tələblərinə dəstək verən milli səyləri birləşdirir. NATO Dəniz Qadağası Operativ Təlim Mərkəzi Souda Bayda (Yunanıstan) yaradılma mərhələsindədir.

Bundan başqa, NATO hərbi strukturu çərçivəsində bir sıra təhsil imkanları da vardır. Buraya Romada (İtaliya) NATO Müdafiə Kolleci, Oberammergauda (Almaniya) NATO Məktəbi və Latinada (İtaliya) NATO Rabitə və İnformasiya Sistemləri (CİS) Məktəbi daxildir. Bu məktəblər öz fəaliyyətlərini Müttəfiqlərin Transformasiya Komandanlığı ilə əlaqələndirir.

Milli və çoxmillətli əsasda maliyyələşdirilən bir sıra Mükəmməllik Mərkəzləri hərbi uyarlılıq və imkanların təkmilləşdirilməsi, doktrinaların sınanması və inkişaf etdirilməsi, təcrübə vasitəsilə yeni konsepsiyaların əsaslandırılması imkanlarını təmin edir. Mükəmməllik Mərkəzləri ilə Strateji Komandirlər arasında əməkdaşlıq iştirakçı dövlətlər və müvafiq Strateji Komandanlıq arasında tərtib edilmiş xüsusi anlaşma memorandumu əsasında formalaşmışdır.

Hərbi Qüvvələr

Ümumiyyətlə, üzv dövlətlər tərəfindən hərbi əməliyyatlar üçün təqdim edilmiş qüvvələrdən başqa NATO-nun müstəqil hərbi qüvvələri yoxdur. Bu səbəbdən Şimali Atlantika Şurası bir əməliyyat başlamağı qərara aldıqda, qüvvələr üzv dövlətlər tərəfindən qüvvələrin düzənlənməsi prosesinə müvafiq olaraq təqdim edilməlidir. Buraya SNT və Aralıq Dənizi Dialoqu ölkələri kimi qeyri-NATO dövlətlərinin qüvvələri daxil ola bilər. Bu qüvvələr öz missiyalarını bitirdikdən sonra öz hərbi qüvvələrinə yenidən birləşdirilir.

Birgə iş təchizatın uyğunluğunun və hərbi uyarlılığın lazımi səviyyədə olmasını tələb edir ki, məsələn, qüvvələrin başqa bir dövlət tərəfindən yenidən yanacaqla təchiz olunmaq və ya əlavə ehtiyatlarla təmin olunmaq imkanı olsun. NATO və Tərəfdaş ölkələrin qüvvələri birgə təlim keçir, standartlaşdırılmış operativ prosedurlarla bağlı kurslarda və dil kurslarında birlikdə iştirak edir, hərbi simulyasiyalar həyata keçirir və digər çoxmillətli təlimməşqlərdə iştirak edirlər. Bunların hamısı onların birləşmiş (çoxmillətli) əməliyyatları həyata keçirmə qabiliyyətini gücləndirməyə xidmət edir.

Bununla belə, bir sıra ümumi müdafiə imkanları vardır ki, bunlardan ən önəmlisi Havadan Xəbərdarlıq və Nəzarət Sistemi (AWACS) təyyarələr eskadriliyasıdır, hansı ki hava nəzarəti, erkən xəbərdarlıq, komanda və idarəçiliyi təmin edir. Birləşmiş Ştatlara qarşı 2001-ci il terror hücumlarından sonra, AWACS təyyarələri Birləşmiş Ştatların ərazisinə nəzarət etmək üçün göndərilmişdi. 2003-cü ildə Türkiyənin xahişi ilə onlar Türkiyə ərazisini İraq münaqişəsindən irəli gələn hücum ehtimalına qarşı mühafizə etmək üçün göndərilmişdi. Bu təyyarələr həmçinin tez-tez 2004-cü il Afinada keçirilən Olimpiya Oyunları kimi önəmli tədbirlərin təhlükəsizliyinin təmin edilməsinə də xidmət edirlər.

AWACS təyyarələrindən başqa NATO Havadan Xəbərdarlıq və Nəzarət Sisteminə çoxmillətli dəstək və təlim təyyarələri, birləşmiş radar sistemi və ümumi infrastruktur qurğuları daxildir. Belə qüvvələr Alyansın birləşmiş qüvvələr strukturu çərçivəsində üzv dövlətlər tərəfindən bu xüsusi rollar üçün təqdim olunmuş çoxmillətli heyət ilə tamamlanır.

Mülki-hərbi əməkdaşlıq

Bugünkü təhlükəsizlik mühitində mülki və hərbi orqanlar arasında sıx əməkdaşlıq hərbi əməliyyatların aparılmasında, xüsusən də post-münaqişə zonalarında, məsələn, Balkanlarda və Əfqanıstanda Alyans tərəfindən həyata keçirilmiş əməliyyatlar kimi sülhü dəstəkləyən əməliyyatların uğurlu

icrasında əhəmiyyəti artan amilə çevrilmişdir. Mülki-hərbi əməkdaşlıq NATO operativ komandanlıqları və mülki təşkilatları arasında, o cümlədən istənilən əməliyyat zonasında yerli rəhbərliklər və yerli əhali, həmçinin beynəlxalq, milli və qeyri-hökumət təşkilatları və agentlikləri arasında tələb olunan həyati əhəmiyyətli koordinasiyanı əhatə edir.

İlk olaraq, altı NATO ölkəsinin (Çexiya Respublikası, Danimarka, Almaniya, Niderland, Norveç və Polşa) sponsorluğu ilə çoxmillətli layihə olan Mülki-Hərbi Əməkdaşlıq (CİMİC) Şimal Qrupu rəsmi olaraq 2003-cü il 15 yanvarda NATO beynəlxalq hərbi qərargahları statusunu qazandı.

Onun rolu həm NATO komandirlərini və mülki qurumları hərbi əməliyyatlarda mülki-hərbi boşluğu doldurmaq üçün lazımi şərtlər yaratmaq məqsədilə ekspertiza ilə təmin etməkdir. Bu, xüsusən də post-münaqişə zonalarında sülhü dəstələyən əməliyyatlarda vacibdir. Bu əməliyyatlarda cəlb olunanların hamısı arasında əməkdaşlıq yerli hakimiyyətə sosial strukturların bərpasında kömək etmək və yerli əhalinin normal yaşayış şəraitini bərpa etməsində əhəmiyyətli amildir. Mülki-hərbi əməkdaşlıq həmçinin milli və beynəlxalq hərbi qüvvələr tərəfindən həyata keçirilən humanitar, fəlakətlərdə yardım və ya digər mülki fövqəladə əməliyyatlarda mühüm aspekt ola bilər.

Budeldə (Niderland) yerləşən CİMİC Şimal Qrupu Brunssum Birləşmiş Qüvvələr Komandanlığı Qərargahına funksional baxımından birləşdirilmişdir və bu qərargahla işgüzar və təlim münasibətləri qurur. Bununla belə, onun rolu bütün NATO əməliyyatlarına dəstək verməkdir. Əsas prioriteti CİMİC personalı üçün ilk olaraq təlim və təhsilə diqqət yetirməklə effektiv operativ imkanlar yaratmaq olmuşdur. Oxşar təşəbbüs İtaliya, Macarıstan və Yunanıstan tərəfindən Birləşmiş Qüvvələr Komandanlığı Neapol Qərargahına birləşdiriləcək CİMİC Cənub Qrupunun yaradılması üçün inkişaf etdirilmişdir.

Ehtiyat Qüvvələri

Ehtiyat qüvvələrinin əhəmiyyəti beynəlxalq ictimaiyyət tərəfindən həyata keçirilən hərbi əməliyyatların “könüllülər koalisiyası” formasında və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən aparılan BMT mandatlı əməliyyatlar sayının çoxalması ilə artır.

Milli Ehtiyat Qüvvələri Komitəsi (National Reserve Force Committee - *NRFC*) Alyansın ehtiyat məsələləri üzrə mərkəzi forumudur, əsas vəzifəsi isə Hərbi Komitə və üzv dövlətlər üçün bu sahədə konseptual təkliflər hazırlamaq və yanaşmaları inkişaf etdirməkdir.

NRFC bir məsləhətçi orqan kimi öz vəzifəsini yerinə yetirmək üçün mümkün qədər hərtərəfli və böyük uzaqgörənliklə hər zaman cari problemlərə preventiv təhlükəsizlik baxımından yanaşır və onların reservist məsələləri ilə qarşılıqlı əlaqəsini formalaşdırır. Bura, həmçinin reservist məsələləri ilə bağlı olan ayrı-ayrı NATO ölkələri arasında informasiya mübadiləsi və istənilən zaman ehtiyat qüvvələrinin ən yaxşı təcrübə prinsipinə uyğun şəkildə harmonizasiyası üçün forum rolunu oynayır. 1996-cı ildən etibarən NRFC informasiya mübadiləsinin genişləndirilməsi və ehtiyat qüvvələrin fəal qüvvələrlə birgə istifadəsi vasitəsilə NATO ehtiyat qüvvələrinin operativ hazırlığının gücləndirilməsinə diqqətini yönəltmişdir. Səfərbərlik sistemləri, ehtiyat qüvvələrin təlimi və davamlı təlimlərə olan ehtiyacı və ehtiyat qüvvələrin motivasiyası kimi bir sıra əsas sahələr araşdırılmaqdadır.

NRFC 1981-ci ildə yaradılmışdır. Hazırda demək olar ki, bütün NATO dövlətləri bu komitənin üzvləridir və Beynəlxalq Hərbi Katiblik, Müttəfiqlərin Əməliyyatlar Komandanlığı və Müttəfiqlərin Tansformasiya Komandanlığı orada əlaqə məmurları vasitəsilə (Avstraliya isə daimi müşahidəçi qismində) təmsil olunurlar. O, ildə ən azı iki dəfə plenar konfranslar keçirir.

NRFC nümayəndəlikləri müvafiq milli müdafiə nazirlikləri tərəfindən təyin olunurlar və nümayəndəliklərin milli rəhbərləri bir çox hallarda Müttəfiqlərin Birləşmiş qüvvələrinin ehtiyat başçıları və ya ehtiyat komissarlarıdırlar.

NRFC NATO ölkələrində mövcud olan bütün ehtiyatda olan zabitləri bir araya gətirən Ehtiyatda olan Zabitlərin Müttəfiqlərarası Konfederasiyasına (CIOR) rəhbərlik edir. CIOR NATO ölkələrinin ehtiyatda olan zabitlərin milli birlikləri arasında əməkdaşlıq və Atlantika Alyansı çərçivəsində həmrəylik üçün nəzərdə tutulmuş qeyri-siyasi, qeyri-hökumət, qeyri-kommersiya təşkilatıdır.

Bu birliklərin üzvləri özlərinin ehtiyatda olan zabit rollarından əlavə mülki şəxslər kimi biznesdə, sənaye, elm, siyasi və professional həyatın digər sahələrində fəaldırlar. Bununla onlar bütün əhali tərəfindən təhlükəsizlik və müdafiə məsələlərinin daha yaxşı qavranmasına töhfə vermək, o cümlədən NATO ehtiyat qüvvələrinin qarşılaşdığı problemlərə və vəzifələrə mülki təcrübə və ekspertizanı tətbiq etmək iqtidarındadırlar.

CIOR-un əsası 1948-ci ildə Belçika, Fransa və Niderlandın ehtiyatda olan zabitlər birlikləri tərəfindən qoyulmuşdur. Onun başlıca məqsədləri NATO siyasətinə dəstək vermək üçün çalışmaq və Alyansın məqsədlərinə nail olmasına yardımçı olmaq, NATO hərbi rəhbərliyi və komandanlıqları ilə

əlaqə saxlamaq və qarşılıqlı tanışlıq və anlaşmanı təkmilləşdirmək üçün ehtiyatda olan zabitlər arasında beynəlxalq əlaqələri inkişaf etdirməkdir.

CIOR-a göndərilən nümayəndələr özlərinin ehtiyatda olan zabitlərin milli birliyi tərəfindən seçilirlər. Hər bir nümayəndəliyin rəhbəri CIOR-un vitse-prezidentidir. CİOR-un Beynəlxalq Prezidenti və Baş Katibi İcraçı Komitə tərəfindən seçilir. İcraçı Komitə CIOR-un siyasi orqanıdır və hansı ölkənin prezidentliyi öz üzərinə götürəcəyinə, konqreslərin harada keçiriləcəyinə, müxtəlif komissiyalar tərəfindən hansı layihələrin icra ediləcəyi və bu layihələrlə bağlı hansı yekun addımların atılacağına qərar verir.

CIOR görüşlərini ildə bir dəfə yayda, hər dəfə növbəti üzv dövlətin ərazisində keçirir. O həmçinin CIOR İcraçı Komitəsi və Komissiyaları üçün qış konfransı təşkil edir.

Ehtiyatda olan Hərbi - tibb Zabitlərinin Müttəfiqlərarası Konfederasiyası (CIOMR) CIOR-un ortaq üzvüdür. O öz sessiyalarını CIOR-un yay və qış sessiyaları ilə eyni vaxtda və yerdə keçirir, lakin tibbi məsələlərin müzakirəsi üçün işini öz gündəliyinə uyğun qurur.

CIOMR 1947-ci ildə NATO üzvü olmağa hazırlaşan ölkələrin ehtiyat qüvvələrinin daxilində tibbi zabitlərinin rəsmi təşkilatı kimi yaradılmışdır. İlk olaraq Belçika, Fransa və Niderland tərəfindən əsası qoyulan təşkilata hazırda CIOR-un bütün üzv dövlətləri daxildir. Onun məqsədləri NATO dövlətlərinin ehtiyat qüvvələrinin tibb işçiləri və xidmətləri ilə sıx professional əlaqələr qurmaq, tibbi-hərbi təlimlər de daxil olmaqla ehtiyatda olan tibbi zabitlər ucun əhəmiyyətli məsələləri öyrənmək və Alyansın fəal qüvvələri ilə effektiv əməkdaşlığı inkişaf etdirməkdir.

Mümkün olan zaman CIOR, CIOMR və NRFC eyni yerdə və vaxtda toplanır. Hər üç orqan, həmçinin öz müvafiq proqram və layihələrini uzlaşdırmağa çalışır.

CIOR-a filial şəklində birləşdirilmiş ehtiyatda olan zabitlərin milli birliklərinin adları və ünvanları, CIOR və CIOMR haqqında əlavə məlumat buradan əldə oluna bilər:

CIOR Liaison Office Reserve Affairs The Secretary General
NATO/IMS/P1P/CIOR Advisor CIOMR
NATO HQ Public Inform. Office 6 Boterdorpse
1110 Brussels 7010 SHAPE Verlaat
Belgium Belgium 3054 XL Rotterdam
Tel: 32 2 707 529 Tel: 32 65 44 33 89 The Netherlands
Fax: 31 10 4635307

10-cu Fəsil

BEYNƏLXALQ HƏRBİ QƏRARGAHIN ƏSAS FUNKSİYALARI

Beynəlxalq Katiblik Şuranın və onun komitələrinə dəstək verən icraedici agentlik olduğu kimi, Beynəlxalq Hərbi Qərargahda (IMS) öz Direktorunun rəhbərliyi altında Hərbi Komitəyə dəstək verən icraedici qurumdur. Beynəlxalq Katiblik kimi onun da strukturunun müntəzəm dəyişildiyi səbəbindən aşağıda IMS-in əsas funksiya və rolu açıqlanmışdır. IMS-in strukturu haqqında yenilənmiş informasiya NATO-nun internet səhifəsindən əldə oluna bilər (www.nato.int).

Beynəlxalq Hərbi Qərargahın Direktoru Hərbi Komitə tərəfindən üzv dövlətlər tərəfindən irəli sürülmüş namizədlərdən seçilmiş general və ya admiral ola bilər. Onun rəhbərliyi altında Beynəlxalq Hərbi Qərargah Hərbi Komitənin müzakirələrinin və qərarlarının əsasını formalaşdıran qiymətləndirmələr, tədqiqatlar və məruzələr hazırlayır. O, həmçinin hərbi sahənin siyasi məsələləri üzrə Hərbi Komitənin müzakirəsinə çıxarılan planlama, qiymətləndirmə və tövsiyələrə, eləcə də Komitənin qərarlarının göstərişə uyğun olaraq həyata keçirilməsinin təmin olunmasına görə məsuliyyət daşıyır. IMS təşkilatın siyasi qərar qəbul edən orqanları ilə Strateji Komandanların arasında vacib əlaqələri təmin edir və mülki Beynəlxalq Katibliyi ilə sıx əlaqələr saxlayır.

IMS-in tərkibi NATO Qərargahına qərargah vəzifələrini tutmağa və mənşə ölkəsinin adından deyil, İttifaqın ümumi maraqları üçün beynəlxalq səviyyədə işləmək üçün göndərilmiş hərbi heyətdən ibarətdir. Beynəlxalq Hərbi Qərargah çərçivəsində bəzi vəzifələr inzibati və köməkçi mövqelərində işləyən mülki heyət tərəfindən tutulub. Hərbi Komitənin işinə dəstək vermək, onun qərarlarının hazırlanması və əməl edilməsi ilə yanaşı, IMS AATŞ-EAPS və SNT çərçivəsində, o cümlədən NATO-Rusiya Şurası, NATO-Ukrayna Komissiyası və Aralıq Dənizi Dialoqu ilə əməkdaşlıq prosesinə fəal cəlb olunmuşdur. Tərəfdaş ölkələr Beynəlxalq Hərbi Qərargah və onun birləşmiş komandanlıq strukturunun elementlərində təmsil olunurlar. Bu nümayəndələr “Sülh Naminə Tərəfdaşlığın Qərargah Elementləri” adlanır. Gərginlik, böhran və hərbi əməliyyatlar və ya NATO məşqləri zamanı IMS funksional hərbi əsasda Böhran İdarəetmə Təşkilatı rolunu həyata keçirəcək.

Həm IMS çərçivəsində, həm də IMS və NATO Qərargahının digər hissələri arasında katibliyin işinin koordinasiyası və informasiya axınına və rabitəyə nəzarət IMS Direktorunun İdarəsi çərçivəsində işləyən İcraçı Koordinatorun səlahiyyətidir.

İcraçı Koordinator və onun heyəti həm də Hərbi Komitəni katiblik dəstəyi və prosedur məsləhətlərlə təmin edir. İctimai İnformasiya Məsləhətçisi Hərbi Komitənin Sədrinə, Sədr Müavininə və IMS Direktoruna ictimai informasiya ilə bağlı məsləhətlər verir və Sədr və Hərbi Komitə üçün mətbuat katibi rolunu oynayır. Həmin zabit həm də hərbi ictimai informasiya siyasəti və doktrinasını inkişaf etdirmək və nəzarət etmək səlahiyyətinə malikdir. NATO əməliyyatları zamanı İctimai İnformasiya Məsləhətçisi ictimai informasiya məsələləri ilə məşğul olan bütün komitələrdə və işçi qruplarda IMS-in nümayəndəsidir və ictimai informasiya strategiyalarını inkişaf etdirir, əlaqələndirir və icra edir. O, Beynəlxalq Katiblik və Strateji Komandanlıqlar və milli müdafiə nazirlikləri çərçivəsində ictimai informasiya təşkilatları ilə sıx işləyir.

Burada həmçinin Maliyyə Müfəttişi də vardır ki, IMS tərəfindən idarə olunan büdcələr qrupu ilə bağlı maliyyə və xəzinə məsələləri ilə bağlı əsas rəsmilərə məsləhətlər verir. Maliyyə Müfəttişi Hərbi Büdcə Komitəsinin qarşısında IMS büdcəsinin idarə olunmasına görə məsuliyyət daşıyır. Onun, həmçinin büdcə ilə bağlı bütün məsələlərin hazırlayıb, təsdiq, idarə və nəzarət edərək Hərbi Büdcə Komitəsinə təqdim etmək və IMS tərəfindən idarə olunan NATO-nun büdcəli orqanlarına, daha dəqiq - NATO Standartlaşdırma Agentliyi, NATO Müdafiə Kolleci və Tədqiqat və Texnologiya Agentliyinə maliyyə nəzarətini həyata keçirmək vəzifəsi var. Nəhayət, maliyyə müfəttişi öz səlahiyyəti çərçivəsində hesabların və maliyyə məsələləri ilə bağlı fəaliyyətin daxili auditinin aparılmasına görə məsuldur.

IMS Direktorunun İdarəsinə NATO-nun hərbi missiyaları və Hərbi Komitə tərəfindən Şimali Atlantika Şurasına verilmiş hərbi məsləhətlərin bütün aspektlərinin beynəlxalq və dövlət daxili hüquqi təfsiri ilə bağlı məsləhətlər verməklə Direktora və bütövlükdə IMS xidmət edən Hüquq Şurası daxildir. Hüquqi məsləhətlər əməliyyatların, əməliyyat dəstəklərinin, silahlı münaqişələrlə bağlı beynəlxalq qanun və sazişlər, quru, hava və dəniz əməliyyat planları, işəgötürmə qaydaları, siyasətin planlaşdırılması, güc tətbiqi, maddi-texniki təminat və təchizat məsələləri, quraşdırma və digər məsələlərin hüquqi aspektləri haqqında verilir. Məsləhət NATO-nun qeyri-NATO hərbi və mülki orqanlarına münasibətdə öhdəlikləri, o cümlədən IMS-in roluna dair daxili hüquqi məsələlər haqqında da verilə bilər.

Beynəlxalq Hərbi Qərargahın Direktoruna xüsusi fəaliyyət müstəvisinə görə məsuliyyət daşıyan direktor köməkçiləri dəstək verirlər.

Planlaşdırma və siyasət

Əsas funksiyalardan biri Hərbi Komitənin NATO siyasəti və planlaşdırma, müdafiə siyasəti, strateji planlaşdırma, xüsusi silahlar siyasətinin planlaşdırılması, kütləvi qırğın silahlarının məhdudlaşdırılması, müdafiə və qüvvələrin planlaşdırılması, NATO Cavab Qüvvələri (NRF) və Praqa İmkanlar Öhdəlikləri (PCC) məsələlərinə verdiyi töhfəni inkişaf etdirmək və əlaqələndirməkdir. İş, strateji siyasət və konsepsiyalar, nüvə, bioloji və kimya (NBC) siyasəti və müdafiə və qüvvə planlaşdırılmasından ibarət olmaqla üç əsas sahəyə bölünmüşdür. Buraya siyasi-hərbi konsepsiyalar, tədqiqatlar və qiymətləndirmələrin, NATO-nun müdafiə və hərbi planlaşdırma prosesinə, iki illik müdafiə icmalı və uzunmüddətli konseptual tədqiqatların inkişafına kömək etmək daxildir. Qərargah Hərbi Komitənin və NATO Strateji Komandanlarının baxışlarını müxtəlif NATO orqanlarında inkişaf etdirir və təqdim edir. Onlar həmçinin NATO-AT əlaqələri və NATO-AT strateji əməkdaşlığı, o cümlədən Berlin-Plus-a dair məsələlərin davamı ilə bağlı sənədlərin konseptual inkişaf etdirilməsinə görə məsuliyyət daşıyırlar.

Regional əməkdaşlıq və təhlükəsizlik

Avro-Atlantika Tərəfdaşlıq Şurası və Sülh Naminə Tərəfdaşlıq, NATO-Rusiya Şurası, NATO-Ukrayna Komissiyası və Aralıq Dənizi Dialoqu çərçivəsində hərbi əlaqələr və əməkdaşlığı əhatə edən regional əməkdaşlıq və təhlükəsizlik də Beynəlxalq Hərbi Qərargahın diqqət mərkəzindədir. Tərksilah, silahlara nəzarət və təhlükəsizlik məsələlərinin müxtəlif aspektlərində NATO-nun iştirakı ilə bağlı hərbi məsləhətlər də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə (ATƏT) tərksilah, silahlara nəzarət və kollektiv təhlükəsizlik sahələrində aparılan əməkdaşlıq kimi inkişaf etdirilir. Beynəlxalq Hərbi Katiblikhəm də NATO-nun ATƏT-lə əməkdaşlığını irəlilətmək və möhkəmləndirmək üçün yaradılmış Vyanadakı Qərb Konsultasiya İdarəsini (WCO) şəxsi heyətlə təmin edir.

Tərəfdaş ölkələrlə münasibətlər IMS gündəlik işinə daxil edilmişdir. NATO Qərargahında 1994-cü ildən etibarən bir sıra Tərəfdaş ölkələrin əlaqələndirici zabitləri, 1997-ci ildən isə daimi diplomatik missiyalar açılmışdır. Tərəfdaş ölkələrlə hərbi əlaqələr NATO və Tərəfdaş ölkələrin zabitlərindən ibarət olan və NATO Qərargahında IMS, o cümlədən NATO birləşmiş hərbi strukturu daxilində yerləşən Sülh Naminə Tərəfdaşlıq Qərargah Elementləri vasitəsilə daha da gücləndirilmişdir. Tərəfdaş ölkələrin bu cür vəzifələri tutan zabitləri NATO üzv dövlətlərindən olan zabitlərlə beynəlxalq səviyyədə, Sülh Naminə Tərəfdaşlığın hərbi məsələləri ilə əlaqədar siyasətin müzakirəsinin hazırlanmasında və siyasi qərarların həyata keçirilməsində iştirak edərək çiyin-çiyinə işləyirlər.

Əməliyyatlar

Beynəlxalq Hərbi Qərargahın digər bir mühüm funksiyası Hərbi Komitəyə cari əməliyyat planlarını inkişaf etdirməkdə və NATO qüvvələrinin vəziyyəti və NATO-nun beynəlxalq böhranlarda roluna dair digər hərbi idarəetmə məsələləri ilə bağlı sualları cavablandırmaqda dəstək verməkdir. Buraya, həmçinin NATO üzv və SNT ölkələri üçün çoxmillətli təlim və məşqlərin təkmilləşdirilməsi və inkişafı, NATO-nun effektiv informasiya əməliyyatları və birləşdirilmiş təlim və məşqlərin inkişaf etdirilməsi ilə bağlı səylərin əlaqələndirilməsi də daxildir. Eyni zamanda NATO-nun Hava Hücumundan Müdafiə Komitəsinə və ümumiyyətlə, hava hücumundan müdafiə məsələlərinə də dəstək verilir. NATO-nun BMT-dəki əlaqələndirici zabiti BHQ və lazım gəldikdə bütün Təşkilat adından BMT ilə müntəzəm əlaqəni təmin edir.

Kəşfiyyat

Baş Katib, Şimali Atlantika Şurası, Müdafiə Planlaşdırılması Komitəsi, Hərbi Komitə və digər NATO orqanları gündəlik strateji kəşfiyyat dəstəyi ilə təmin olunur. NATO üzv dövlətlərindən və NATO komandanlıqlarından qəbul olunmuş kəşfiyyat məlumatlarının toplanılması və qiymətləndirilməsi, onun NATO Qərargahı daxilində və NATO komandanlıqlarına, agentliklərinə, təşkilatlarına və ölkələrinə yayılmasının mərkəzləşdirilməsi və əlaqələndirilməsi IMS çərçivəsində həyata keçirilir.

IMS strateji kəşfiyyat qiymətləndirmələri hazırlayır və yayır, kəşfiyyat siyasəti üzrə sənədlər və əsas kəşfiyyat sənədləri idarə edir və əlaqələndirir, eləcə də seçilmiş məlumat bazaları və rəqəmli kəşfiyyat informasiyanı təhlil edir. Yerinə yetirilən digər funksiyalara strateji xəbərdarlıq və böhran idarəetməsi, ixtisaslaşmış kəşfiyyat funksiyaları yerinə yetirən digər NATO və milli orqanlarla əlaqələr qurulması, NATO orqanlarının münasib yeniliklər haqqında məlumatlandırılması və NATO-nun siyasi rəhbərliyi üçün hərbi məsləhətlərin formalaşdırılmasının asanlaşdırılması daxildir.

Maddi-texniki təminat və ehtiyatlar

Maddi-texniki təminat və ehtiyatlar sahəsində bir sıra vacib funksiyalar yerinə yetirilir: NATO hərbi orqanlarına dəstək olaraq təşkilatın ehtiyatlarının idarə olunması, təşkilat resurslarının idarə edilməsinin hərbi siyasət və prosedurların inkişaf etdirilməsi və yenilənməsi və aşağıdakı məsələlər üzrə

Hərbi Komitəyə kadr məsələsi üzrə dəstək və müvafiq nümayəndəliyin təmin edilməsi:

- silahlanma, tədqiqat və texnologiya və Hərbi Komitə ilə bağlı standartlaşdırma fəaliyyətləri üzrə NATO hərbi siyasəti və prosedurlarının inkişaf etdirilməsi və qiymətləndirilməsinə dair bütün məsələlər;
- maddi-texniki təminat, tibb, mülki fövqəladə planlaşdırma, hərbi və mülki insan resursları və şəxsi heyət funksiyası və NATO Təhlükəsizlik Sərmayə Proqramı və Hərbi Büdcə tərəfindən təmin edilən birgə maliyyələşdirilən ehtiyatlara dar bütün məsələlər;
- regional əməkdaşlıq və təhlükəsizlik məsələləri üzərində çalışan heyətlə, maddi-texniki təminat, silahlanma, tədqiqat və texnologiya, ehtiyatların idarə olunması, Hərbi Komitə ilə əlaqədar və NATO ilə əməkdaşlığa cəlb olunmuş bütün ölkə və təşkilatlarla standartlaşdırma fəaliyyətinə dair bütün məsələlər üzərində işləyən heyətlə birlikdə.

Məsləhətləşmə, komanda və nəzarət (C3)

NATO Baş Qərargahının Məsləhət, Komanda və Nəzarət Qərargahı (NHQC3S) Beynəlxalq Heyətin mülki üzvlərinin və Beynəlxalq Hərbi Qərargahın zabitlərinin daxil olduğu Şimali Atlantika Şurasının, Hərbi Komitənin və NATO C3 İdarə Heyətinin (NC3B) məsləhətləşmə, komandanlıq və nəzarətlə bağlı tələblərinə xidmət edən birləşmiş qərargahdır. O, inzibati şəkildə Beynəlxalq Hərbi Qərargahın nəzdində yerləşir və NATO C3 İdarə Heyətinin Sədr müavini və Hərbi Komitənin İdarə Heyətindəki nümayəndəsi olan NHQC3S-in direktorunun rəhbərliyi altında işləyir. NHQC3S üzvləri NC3B və ona tabe olan komitələrə dəstək verir və Hərbi Komitəyə C3-ün rabitə və informasiya sistemi (CİS) siyasətinin standartları, məhsulları, təhlili və imkanlar paketinə dair məsləhətlər verir.

NATO Situasiya Mərkəzi

NATO Situasiya Mərkəzi (SITCEN) Şimali Atlantika Şurasına, Müdafiə Planlaşdırılması Komitəsinə və Hərbi Komitəyə onların öz müvafiq funksiyalarını yerinə yetirməkdə konsultasiya sahəsində yardım göstərir. Situasiya Mərkəzi təşkilat daxilində siyasi, hərbi və iqtisadi informasiyanın qəbulu, mübadiləsi və yayılması üçün mərkəz kimi xidmət göstərir və

sutkada 24 saat NATO və üzv dövlətlərin maraqlarına dair siyasi, hərbi və iqtisadi məsələlərə nəzarət edir. SITCEN həmçinin NATO Qərargahının həm açıq, həm qorunan bütün xarici əlaqələrini, milli paytaxtlarla, Strateji Komandanlıqlarla və digər beynəlxalq təşkilatlarla əlaqələrin və NATO Qərargahı üçün coğrafi dəstək xidmətlərinin təmin olunmasına görə məsuliyyət daşıyır. Gərginlik və böhranlar zamanı məsləhətləşmənin sürətlə genişlənməsinə imkan vermək üçün şəraiti təmin edir və belə dövrlərdə münasib hazırlıq məlumatlarını saxlayır və yeniləşdirir.

NATO Silahlı Qüvvələrində Qadınlar İdarəsi

Bu idarə NATO Silahlı Qüvvələrində Qadınlar üzrə Komitə (CWINF) üçün katiblik və məsləhətçi qismində çıxış edir. O, hərbçi qadınların işə götürülməsi ilə bağlı müdafiə agentlikləri və digər beynəlxalq agentliklərlə şəbəkəni inkişaf etdirməyə, gender inteqrasiyası ilə bağlı təlimatlandırma aparmağa, üzv, tərəfdaş ölkələr, Aralıq Dənizi Dialoqu dövlətləri və digər beynəlxalq agentliklər və tədqiqatçılar arasında yayılmaq üçün müvafiq informasiyanın toplanması və idarə edilməsinə görə məsuldur. Bu idarə NATO-nun silahlı qüvvələrə cəlb olunma və işə götürmə, təlimlər, inkişaf və hərbi formada olan qadınların həyat keyfiyyəti ilə bağlı bütün məsələlər üzrə mərkəzidir. İdarə, həmçinin NATO tərəfindən həyata keçirilən missiyalar zamanı çoxmillətli mühitdə işləmək hazırlığı və qabiliyyətinin səviyyəsinə hərbçi qadınların təsirini araşdırır.

11-ci Fəsil

İXTİSASLAŞMIŞ TƏŞKİLATLAR VƏ AGENTLİKLƏR

Siyasi qərargahlar və hərbi komandanlıq strukturlarından əlavə NATO müxtəlif üzv dövlətlərin ərazilərində yerləşən bir sıra ixtisaslaşmış agentliklərə malikdir. Beynəlxalq Heyət və Beynəlxalq Hərbi Katiblik təşkilatın gündəlik fəaliyyətini, o cümlədən onun siyasi və hərbi gündəliyi ilə bağlı fəaliyyətləri əhatə etdiyi halda, agentliklər ixtisaslaşmanın daha çox texniki sahə və müstəvilərində NATO gündəliyinin tərkib hissəsini tamamlayan və formalaşdıran səlahiyyətlərə malikdir. Onlar məsləhətlər hazırlayır, tədqiqatlar aparır, təşkilat qərarlarının icrasına dəstək verir, rabitə və informasiya sistemləri xidmətlərini təmin edir və birləşmiş proqramları idarə edirlər. Onların əsas rollarından biri ümumi layihələr, prosedurlar və standartlar vasitəsilə üzv dövlətlərin məhdud müdafiə resurslarının daha yaxşı istifadəsinə kömək etməkdir.

2002-ci ilin noyabrında Praqa Zirvə toplantısında NATO Baş Katibinə üzv ölkələrin dövlət və hökumət başçıları tərəfindən NATO agentliklərinin vəzifələri və tələblərini, o cümlədən bütövlükdə NATO strukturları, qismən də Şimali Atlantik Şurası ilə əlaqələrini yenidən nəzərdən keçirmək həvalə edilmişdir. Bu nəzarətin məqsədi agentlik strukturunun effektivliyini və münasibliyini, məlumat kanallarının və əlaqələndirmə mexanizmlərinin əsaslandırılması və təkmilləşdirilməsi layihələri üçün imkanları, o cümlədən bütövlükdə agentliklərin vəzifələri ilə NATO-nun davam edən transformasiya prosesi arasında əlaqəni, imkanların təkmilləşdirilməsi tədbirlərini araşdırmaqdır.

Bu nəzarət Praqa Zirvə toplantısında razılaşdırılmış hərbi strukturun əsaslandırılması, ehtiyatların yenidən istiqamətləndirilməsi və qismən də Atlantika Transformasiya Komandanlığının roluna təsir edən və hərbi strukturlara, silahlı qüvvələrə, imkanlar və doktrinalara, tədqiqat və əldə etmə proseslərinə, uyarlılıq və standartlaşdırma məsələlərinə, təlim və təhsil proqramlarına münasibətdə rəhbər rola malik aspektlərlə paralel olaraq həyata keçirilməkdədir.

Əsasən iki tip agentliklər mövcuddur: layihə əlaqələndiriciləri və xidmət təmin edənlər. Agentliklərdən bir neçəsi üzv dövlətlərin kollektiv tələblərinin müəyyənləşdirilməsi və onların adından ümumi təchizat layihələrinin istehsalı və maddi-texniki təminatının idarə edilməsi ilə əlaqəlidir. Miqyasın digər tərəfində böyük layihələri idarə edən agentliklər dayanır və bu səbəbdən də NATO-nun Havadan Erkən Xəbərdarlıq və Nəzarət Proqramının İdarəedilməsi Agentliyi (NAPMA), NATO Hava Komandanlığı və

Nəzarət Sisteminin İdarəetmə Agentliyi (NACMA), NATO-nun Döyüş Ərazisi üzrə Məlumatların Toplanması və İstifadəsi Sistemi (BICES) və Mərkəzi Avropada Boru - xətlərinin İdarə olunması üzrə Agentlik (CEPMA) kimi böyük büdcələrlə işləyir. Digər maddi-texniki təminat agentlikləri maddi-texniki təminat elementlərinin alınması və hərbi təchizatın istismarı da daxil olmaqla maddi-texniki təminat dəstəyin bütün aspektləri üzrə praktiki əməkdaşlıqla əlaqədardırlar. Bu sahədə əsas maddi-texniki təminat agentliyi Lüksemburqda yerləşən NATO-nun Texniki Təminat və Təchizat Agentliyidir (NAMSA). Bu agentlik NATO-nun 25 üzv dövləti tərəfindən işlədilən NATO silah sistemini səmərəli maddi-texniki dəstəklə təmin edir və NATO və onun tərəfdaş ölkələrinə mümkün olan ən ucuz qiymətə təchizat elementlərinin, o cümlədən ehtiyat hissələrinin və texniki xidmət və təmir ləvazimatlarının alınması məsələsində kömək edir.

Agentliklər Direktorlar Şurası və ya Rəhbər Komitələr vasitəsilə adətən rəhbərliyi altında fəaliyyət göstərdikləri Şimali Atlantika Şurasına hesabat verirlər. Agentliklərin rəhbərləri müntəzəm olaraq toplaşır, NATO Baş Katibi ilə iclaslar keçirir və müdafiə təchizatı (hərbi təchizat), planlaşdırma və əməliyyatlar, şəxsi heyət üzrə siyasət və təhlükəsizlik haqqında son yeniliklər və fikirlər barədə təlimatlar alırlar. Onlar öz heyətlərindən dəstək alırlar və öz səylərini NATO-nun cari gündəliyində olan məsələlər üzrə bütün irəliləmə prosesinə töhfə vermək üçün (məsələn: standartlaşdırma prosesinin və ümumi məcəllələşdirmə sisteminin inkişaf etdirilməsi vasitəsilə) əlaqələndirirlər.

Agentliklərin həyata keçirdiyi proqramlar və fəaliyyətlər əhəmiyyətli dərəcədə bir-birindən fərqlənirlər və onların bu fərqli rollarını və üzvlük məsələsini əks etdirən müxtəlif büdcə və maliyyə xərclərinin bölgüsü tədbirləri tələb edir. Hər bir agentlik öz xüsusi nizamnaməsinə əsasın idarə olunur və onun ərazisində yerləşdiyi ölkələr və digər iştirakçı dövlətlərlə münasibətləri xüsusi anlaşma memorandumunun obyektidir.

Üzv və tərəfdaş ölkələrin silahlı qüvvələrinin standartlaşdırılması və qarşılıqlı uyarlıq məsələləri çoxmillətli hərbi əməliyyatların irəliləməsində mühüm rol oynadığına görə NATO-nun gündəliyində əsas məsələ olaraq qalmaqdadır. NATO Standartlaşdırma Agentliyi ümumi standartların tətbiqi və buna nail olmaq üçün lazımi prosedur və praktikaya uyğunlaşma istiqamətində işləyir.

NATO-nun Brüsseldə və Haaqada yerləşən NATO Məsləhət, Komanda və Nəzarət üzrə Agentliyi (NC3A) müttəfiqlərin rabitə və informasiya sistemi imkanlarının inkişaf etdirilməsi üçün təşkilatın adından əsas məsuliyyəti daşıyan digər bir agentlikdir. Onun vəzifəsi üzv və tərəfdaş ölkələrin

komandanlıq və nəzarət strukturları və silahlı qüvvələrinin xüsusilə də böhranlar zamanı bir-biri ilə əlaqə saxlaya bilməsini təmin etməkdir. Bu agentlik operativ tədqiqat, məlumat, müşahidə, kəşfiyyat, hava komandanlığı və nəzarəti və rabitə və informasiya sistemləri kimi məsələlərlə məşğul olur. O, mərkəzi planlaşdırma, sistem arxitekturası, sistemlərin birləşməsi, dizayn, sistem mühəndisliyi, texniki dəstək və konfiqurasiya nəzarətini təmin edir.

Elmi tədqiqatlar sahəsində birgə araşdırmalar müdafiə daxilolmaları ilə bağlı məsələlərdə əməkdaşlığa görə məsul olan Silahlar üzrə Milli Direktorlar Konfransı (CNAD) və Hərbi Komitə adından Neulidə (Fransa) yerləşən Tədqiqat və Texnologiya Agentliyi (RTA) tərəfindən dəstəklənir. NATO-nun Ortamiqyaslı Hava Hücumundan Müdafiə Sisteminin Qurulması, İstehsalı və Maddi-Texniki Təminatın idarə edilməsi üzrə Agentliyi (NAMEADSMA), NATO “Eurofighter 2000” və “Tornado” Təyyarələrinin Təkmilləşdirilməsi, İstehsalı və Maddi-Texniki Təminatının İdarəedilməsi üzrə Agentliyi (NETMA), NATO-nun Vertolyotların yaradılması və təkmilləşdirilməsi, istehsalı və Maddi-Texniki Təminatının idarə edilməsi üzrə Agentliyi (NAHEMA) və HAWK Zenit Raket Kompleksinin Təkmilləşdirilməsi Proqramının İdarəedilməsi Ofisi üzrə NATO Bürosu (NHMO) kimi təchizat proqramlarının idarə olunması ilə məşğul olan bir sıra ixtisaslaşmış təşkilatlar da mövcuddur.

Digər agentliklər və təşkilatlar mülki fövqəladə planlaşdırma, hava nəqliyyatının idarə edilməsi və hava hücumundan müdafiə, elektron müharibə, metrologiya və hərbi okeanoqrafiya sahəsində fəaldırlar. Bundan əlavə, Romada (İtaliya) NATO Müdafiə Kolleci, Oberammerqauda (Almaniya) NATO Məktəbi və Latinada (İtaliya) NATO Rabitə və İnformasiya Sistemləri Məktəbi kimi təhsil və təlim sahəsində mühüm rol oynayan bir sıra çoxmillətli təsisatlar da mövcuddur.

Xüsusi agentliklərin rolları haqqında əlavə məlumat X Hissənin müvafiq fəsillərində verilmişdir.

Əlavə məlumat:

NATO-nun Döyüş Ərazisi üzrə Məlumatların Toplanması və İstifadəsi Sistemi / NATO Battlefield Information Collection and Exploitation System (BICES) Agency
Z Building – Blvd Léopold III
1110 Brussels, Belgium

Mərkəzi Avropada Boru - xətlərinin İdarə olunması üzrə Agentlik / Central Europe Pipeline Management Agency (CEPMA)
11bis rue du Général Pershing, BP 552
78005 Versailles CEDEX, France

Ümumi Regional İlkin ACCS Proqramı/Regional Proqram İdarəsi / Common Regional Initial ACCS Programme/Regional Programme Office (CRIAP/RPO)
Quartier Reine Elisabeth Bloc 5A
Rue d'Evere
1140 Brussels, Belgium

NATO Hava Komandanlığı və Nəzarət Sisteminin İdarəetmə Agentliyi / NATO ACCS Management Agency (NACMA)
Z Building – Blvd Léopold III
1110 Brussels, Belgium

NATO-nun Vertolyotların yaradılması və təkmilləşdirilməsi, istehsalı və Maddi-Texniki Təminatının idarə edilməsi üzrə Agentliyi / NATO Helicopter Design and Development, Production and Logistics Management Agency (NAHEMA)
Le Quatuor Bâtiment A-42
Route de Galice
13090 Aix-en-Provence, France

NATO-nun Ortamiqyaslı Hava Hücumundan Müdafiə Sisteminin Qurulması, İstehsalı və Maddi-Texniki Təminatın idarə edilməsi üzrə Agentliyi / NATO Medium Extended Air Defence System Design and Development, Production and Logistics Management Agency (NAMEADSMA)
620 Discovery Drive
Building 1 - Suite 300
Huntsville, AL 35806, USA

NATO-nun Texniki Təminat və Təchizat Agentliyi / NATO Maintenance and Supply Agency (NAMSA)
8302 Capellen, Luxembourg

NATO-nun Məsləhət, Komanda və Nəzarət üzrə Agentliyi / NATO Consultation, Command and Control Agency (NC3A)
NC3A Brussels NC3A The Hague
Z Building – Blvd Léopold III PO Box 174
1110 Brussels, Belgium 2501 CD The Hague, Netherlands

NATO-nun Havadan Erkən Xəbərdarlıq Proqramının İdarəedilməsi Agentliyi / NATO Airborne Early Warning and Control Programme Management Agency (NAPMA)
Akerstraat, 6445
CL Brunssum, Netherlands

NATO-nun Müdafiə Kolleci / NATO Defense College (NDC)
Via Giorgio Pelosi 1
00143 Rome, Italy

NATO-nun Standartlaşdırma üzrə Agentliyi / NATO Standardization Agency (NSA)
NATO Headquarters
1110 Brussels, Belgium

Tədqiqat və Texnologiya Agentliyi / Research and Technology Agency (RTA)
BP 25, F-92201 Neuilly-sur-Seine CEDEX, France

NATO-nun Rabitə və İnformasiya Sistemlərinə Xidmət Agentliyi / NATO CIS Services Agency (NCSA)
SHAPE, B-7010, Belgium

12-cu Fəsil

NATO-NUN ƏSAS KOMİTƏ VƏ SİYASİ ORQANLARINA ÇIXIŞ

ƏSAS NATO KOMİTƏLƏRİNƏ GİRİŞ

Alyansdada məsləhətləşmə və qərar qəbul etmək üçün əsas forumlar hər bir üzv dövlətin NATO fəaliyyətlərinin bütün səviyyələrində təmsil olunmasını təmin edən komitə strukturu vasitəsilə dəstəklənir. Komitələrin bəziləri NATO-nun inkişafının ilk illərində yaradılmış və uzun illər İttifaqın qərar qəbul etmə prosesinə töhfə vermişlər. Digərləri nisbətən yaxın vaxtlarda, Soyuq Müharibənin qurtarmasından sonra təşkilatın daxili və xarici uyğunlaşması və Avropada dəyişən təhlükəsizlik mühiti kontekstində yaradılmışdır.

Aşağıdakı bölmə əsas NATO Komitələrinin üzvlük, sədrlik, vəzifələr, səviyyələr, tabe strukturlar və heyət dəstəyinin mühüm mənbəyini özündə cəmləşdirir. Baş Katib müvafiq sahədə daimi əsasda məsul olan rəhbər rəsmilərin sədr və həmsədr olduğu bir sıra siyasət komitələrinin nominal sədridir. Qeyd edilməlidir ki, müəyyən Baş Katib Köməkçiləri və Baş Katibin Müavininin Köməkçilərinin məsul olduğu bölmələrin adlandırılması Beynəlxalq Katibliyin müntəzəm olaraq həyata keçirdiyi islahatlar nəticəsində dəyişə bilər. Yeni informasiya üçün NATO-nun internet səhifəsinə (www.nato.int) müraciət edin.

Müvafiq komitələrin rəhbərliyi altında göstərilən dəstəyin əsas mənbəyi Beynəlxalq Katibliyin aidiyyəti məsələ üzrə səlahiyyətli olan bölməsidir. Bir çox komitələrə həm də Beynəlxalq Hərbi Qərargah tərəfindən dəstək verilir.

Bütün NATO komitələri informasiya mübadiləsi və konsensusla nəticələnən məsləhətləşmə əsasında yuxarı rəhbərliklər üçün qərarlar qəbul edir və tövsiyələr hazırlayır. Səsvermə və ya əksəriyyətin qərarı yoxdur.

NB: NATO-nun Hərbi Komitəsi Şimali Atlantika Şurası və Müdafiə Planlaşdırılması Komitəsinə tabedir, lakin təşkilat daxilində ali hərbi qurum statusuna malikdir. Hərbi Komitənin rolu 8-ci fəsildə təsvir olunub.

Hərbi Komitə və aşağıda siyahıya alınmış Komitələrin əksəriyyəti müntəzəm olaraq Aralıq Dənizi Dialoqu ölkələri və Avro-Atlantik Tərəfdaşlıq Şurası (AATŞ-EAPC) çərçivəsində Tərəfdaş ölkələrin nümayəndələri ilə görüşür.

1. Şimali Atlantika Şurası (NAC)
2. Müdafiənin Planlaşdırma Komitəsi (DPC**)**
3. Nüvə Planlaşdırma Qrupu (NPG)
4. Hərbi Komitə (MC)

5. İcraçı İşçi Qrup (EWG)
6. Adi Silahlara Nəzarət üzrə Yüksək Səviyyəli Əməliyyat Qrupu (HLTF)
7. Nüvə SilahlarınYayılması məsələsi üzrə Birgə Komitə (JCP)
8. SNT üzrə Siyasi-Hərbi Rəhbər Komitə (PfP/SC)
9. NATO Hava Hücumundan Müdafiə Komitəsi (NADC)
10. NATO-nun Məsləhət, Komanda və Nəzarət üzrə İdarəsi (NC3B)
11. NATO Hava Komandanlığı və Nəzarəti Sistemi (ACCS)-nin İdarəetmə Təşkilatı (NACMOBoD)
12. Baş Siyasi Komitə (SPC)
13. Atlantika Siyasəti Məsələləri üzrə Məsləhət Qrupu (APAG)
14. Siyasi Komitə (PC)
15. Nüvə Silahlarının Yayılması üzrə Baş Hərbi-Siyasi Qrup (SGP)
16. Verifikasiyanın Koordinasiyası Komitəsi (VCC)
17. Siyasi Koordinasiya Qrupu (PCG)
18. Müdafiə İcmalı Komitəsi (DRC)
19. Silahlar üzrə Milli Direktorların Konfransı (CNAD)
20. NATO-nun Standartlaşdırma üzrə Komitəsi (NCS)
21. İnfrastruktur üzrə Komitə
22. Baş Fövqəladə Mülki Planlaşdırma Komitəsi (SCEPC)
23. NATO-nun Maddi-Texniki Təminat məsələləri üzrə Baş Konfransı (SNLC)
24. Elmi Komitə (SCOM)
25. Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitə (CCMS)
26. Mülki Büdcə Komitəsi / Hərbi Büdcə Komitəsi (CBC/MBC)
27. Resurslar üzrə Baş İdarə (SRB)
28. Yayılma üzrə Baş Müdafiə Qruplaşması (DGP)
29. Yüksək Səviyyəli Qrup (HLG)
30. İqtisadi Komitə (EC)
31. İctimai Diplomatiya Komitəsi (CPD)
32. Şura Əməliyyatları və Təlimlər üzrə Komitə (COEC)
33. NATO Hava Nəqliyyatının İdarəedilməsi Komitəsi (NATMC)
34. Mərkəzi Avropada Boru - xətlərinin İdarə olunması üzrə Təşkilatın Direktorlar Şurası (CEPMOBoD)
36. NATO Təhlükəsizlik Komitəsi (NSC)
37. NATO-nun Xüsusi Komitəsi
38. Arxiv Komitəsi

1. Şimali Atlantika Şurası (NAC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katib
Rolu	Şimali Atlantika İttifaqının qərar qəbul edən orqanı. Şimali Atlantika Müqaviləsi ilə rəsmi olaraq yaradılmış yeganə orqandır ki, Müqavilənin məqsədlərinin həyata keçirilməsi üçün "lazım olduqda köməkçi orqanları yaratmaq" səlahiyyəti ilə təmin olunmuşdur
Əsas səviyyələri	Daimi (daimi nümayəndələr/səfirlər); nazirlik (xarici işlər və/ya müdafiə nazirləri); zirvə görüşü (dövlət və hökumət başçıları)
Əsas tabe olan orqanlar	Şura Alyansın fəaliyyətini tam həcmdə əhatə edən bir çox komitələr tərəfindən dəstəklənir
Beynəlxalq Katibliyin dəstəyi	Beynəlxalq Katibliyin bütün idarələri Şuranın işini birbaşa və ya dolayısı ilə dəstəkləyir Şuranın Müqavilənin məqsədlərinin həyata keçirilməsinə görə məsuliyyət daşıyan bir orqan kimi rolu həm də onun işini xüsusi sahələrdə dəstəkləyən bir sıra agentlik və təşkilatların yaradılmasını əhatə edir

2. Müdafiə Planlaşdırma Komitəsi (DPC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katib
Rolu	NATO-nun kollektiv müdafiə planlaşdırılması və birləşmiş hərbi strukturuna dair məsələlər üzrə əsas qərar qəbul edən orqanı
Əsas səviyyələri	Daimi (daimi nümayəndələr/səfirlər); nazirlik (müdafiə nazirləri)
Əsas tabe olan orqanlar	Müdafiə İcmalı Komitəsi
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırma İdarəsi

3. Nüvə Planlaşdırma Qrup (NPG)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katib
Rolu	Alyansın nüvə siyasətinə dair məsələlər üzrə əsas qərar qəbul edən orqan
Əsas səviyyələri	Müdafiə nazirləri, daimi nümayəndələr
Əsas tabe olan orqanlar	Yüksək Səviyyəli Qrup, NPG Heyət Qrupu
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırma İdarəsi (Nüvə Siyasəti Direktorluğu)

4. Hərbi Komitə (MC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Hərbi Komitənin Sədri
Rolu	Şimali Atlantika Şurası və Müdafiə Planlaşdırılması Komitəsinin tam səlahiyyəti altında NATO-da ali hərbi orqan
Əsas səviyyələri	Heyət Rəhbərləri/Qərargah Rəhbərləri, Daimi Hərbi Nümayəndələr
Əsas tabe olan orqanlar	Hərbi Komitənin İşçi Qrupları. Bir sıra birləşmiş mülki və hərbi orqanlar Hərbi Komitə ilə yanaşı Şura və Müdafiə Planlaşdırılması Komitəsinə hesabat verir
Beynəlxalq Katibliyin dəstəyi	Beynəlxalq Hərbi Qərargah; NATO Baş Qərargahının Məşvərət, Komandanlıq və İdarəetmə üzrə Katibliyi

5. İcraçı İşçi Qrup (EWG)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Müavini
Fəaliyyətdə olan Sədr	Baş Katibin Müdafiə Siyasəti və Planlaşdırma üzrə Köməkçisi
Rolu	Şimali Atlantika Şurasının üzv dövlətlərlə əlaqədar müdafiə məsələləri üzrə baş məsləhətçi orqanı
Əsas səviyyələri	Milli nümayəndəliklərin müdafiə məsləhətçiləri (vəkilləri)
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi

6. Adi Silahlara Nəzarət üzrə Yüksək Səviyyəli Əməliyyat Qrupu (HLTF)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Müavini
Fəaliyyətdə olan Sədr	Baş Katibin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə Köməkçisi
Rolu	Adi silahlara nəzarət işləri üzrə xarici işlər və müdafiə nazirləri üçün məsləhətçi və məşvərətçi orqan
Əsas səviyyələri	Siyasi rəhbərlər səviyyəsində xarici işlər və müdafiə nazirliklərinin ekspertləri; NATO nümayəndəliklərinin siyasi məsləhətçiləri
Əsas tabe olan orqanlar	Müavinlər səviyyəsində Yüksək Səviyyəli Əməliyyat Qrupu (HLTF)
Beynəlxalq Katibliyin dəstəyi	Silahlara Nəzarət və Koordinasiya Bölməsi, Baş Katibin Müavininin İdarəsi

7. Nüvə Silahlarının Yayılması məsələsi üzrə Birgə Komitə (JCP)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin müavini
Rolu	Nüvə silahlarının yayılmasının siyasi-hərbi və müdafiə aspektləri üzrə Şimali Atlantika Şurasına əlaqələndirilmiş hesabatları təqdim edən baş məsləhətçi orqan
Əsas səviyyələri	Nüvə Silahlarının Yayılması üzrə Baş Hərbi-Siyasi Qrup (SGP) və Yayılma üzrə Baş Müdafiə Qruplaşmasının (DGP) üzvlərinin birgə sessiya iclası
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi (Kütləvi Qırğın Silahları Mərkəzi)

8. SNT üzrə Siyasi-Hərbi Rəhbər Komitəsi (PfP/SC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin müavini
Fəaliyyətdə olan Sədr	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə Baş Katibin Köməkçisi, Müdafiə

	Siyasəti və Planlaşdırılması üzrə Baş Katibin Köməkçisi
Fəaliyyətdə olan Sədrin müavini	Avro-Atlantika İnteqrasiya və Tərəfdaşlıq, Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsinin Direktoru; Müdafiə Əməkdaşlığı Bölməsi, Müdafiə Siyasəti və Planlaşdırma İdarəsinin Rəhbəri
Rolu	Sülh Naminə Tərəfdaşlığın, həmçinin onun xüsusi formatda görüşdüyü Sülh Naminə Tərəfdaşlığın Planlaşdırılma və Analiz Prosesinin (PARP) bütün aspektləri üzrə siyasəti formalaşdıran və Şimali Atlantika Şurasının əsas məsləhətçi orqanıdır
Əsas səviyyələri	Milli nümayəndə heyətlərinin üzvləri (hər nümayəndə heyətinin 2 üzvü); müzakirə olunan mövzulardan asılı olaraq üzvlük tez-tez dəyişir
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsi; Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi

9. NATO Hava Hücumundan Müdafiə Komitəsi (NADC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin müavini
Rolu	Şimali Atlantika Şurası və Avro-Atlantika Tərəfdaşlıq Şurasına hava hücumundan müdafiə və raket müdafiəsi ilə bağlı məsləhətlər verir; hava komandanlığı, nəzarəti və hava hücumundan müdafiə silahları ilə əlaqədar beynəlxalq planlaşdırma və milli səylərin uyğunlaşdırılmasına kömək edir
Əsas səviyyələri	Hava hücumundan müdafiə və ya hava komandanlığı və nəzarət sistemlərinə dair idarəetmə və siyasətdə iştirak edən baş hərbi və ya icraçı zabitlər
Əsas tabe olan orqanlar	Hava Hücumundan Müdafiə Qüvvələrinin nümayəndələri (ADREPS); Hava hücumun-

	dan müdafiə üzə məsləhətçi qrup (PAD); Erkən Aşkarlama üzrə Beynəlxalq Qərargah Qrupu (EWISG)
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Sərmayisi üzrə İdarə (Hava Hücumundan Müdafiə və Hava Məkanını İdarəetmə Direktorluğu)

10. NATO-nun Məsləhət, Komanda və Nəzarət üzrə İdarəsi (NC3B)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin müavini
Daimi Sədr	Baş Katibin Müdafiə İnvestisiyası məsələləri üzrə köməkçisi
Sədr əvəzi	NATO Baş Qərargahının Komanda və Nəzarət üzrə Məsləhətçi (C3) heyətinin Direktoru və seçkili milli sədr əvəzi
Rolu	Məsləhətləşmə, Komanda və Nəzarət (C3) məsələləri ilə bağlı Şimali Atlantika Şurası və Müdafiənin Planlaşdırılması Komitəsi adından hərəkət edən və onlar qarşısında məsul olan əsas çoxmillətli orqan
Əsas səviyyələri	Məsləhətləşmə, Komanda və Nəzarət (C3) Şurasının iclaslarında C3-ün dəstəyi üçün rabitə və informasiya sistemlərinin idarə edilməsinin və əsas prinsiplərinin təşkili məsələlərinin həll olunmasında iştirak edən və şuranın geniş funksional məsuliyyət sahəsini nəzərə alaraq işləməyə qadir olan hər bir NATO üzv dövlətinin iki milli nümayəndəsi bir araya gəlir; Hərbi Komitədən 1 nümayəndə; hər bir Strateji Komandanlıqdan 1 nəfər; aşağıdakı NATO Komitələrinin hərəsindən 1 nümayəndə: Silahlar üzrə Milli Direktorlar Konfransı (CNAD), Baş Fövqəladə Mülki Planlaşdırma Komitəsi / Mülki Əlaqələrin Planlaşdırılması üzrə Komitə (SCEPC/ CCPC), Şura Əməliyyatları və Təlimlər üzrə Komitə (COEC), NATO Hava Hücumundan Müdafiə Komitəsi (NADC), NATO Hava Komandanlığı və Nəzarəti Sistemi (ACCS)-

	nin İdarəetmə Təşkilatı (NACMOBoD), NATO Təchizat Mərkəzi (NSC), Resurslar üzrə Baş İdarə (SRB), "Sülh Naminə Tərəfdaşlıq" proqramı üzrə Siyasi-Hərbi Rəhbər Komitə (PMSC), NATO-nun Standartlaşdırma üzrə Komitəsi (NCS), Tədqiqat və Texnologiya Heyəti (RTB); Baş Menecer, NATO-nun Komanda və Nəzarət üzrə Məsləhətçi Agentliyi (NC3A) və NATO-nun Rabitə və İnformasiya Sistemlərinə Xidmət Agentliyinin (NCSA) Direktoru
Əsas tabe olan orqanlar	Daimi sessiyada Şura kimi fəaliyyət göstərən Milli C3 Nümayəndələri Qrupu, işçi qruplar və köməkçi komitələr + 8 köməkçi komitə ilə yanaşı onların müntəzəm işçi qruplarının köməkçi strukturları
Beynəlxalq Katibliyin dəstəyi	NATO Baş Qərargahının C3 Heyəti (NHQC3S)

11. NATO Hava Komandanlığı və Nəzarəti Sistemi (ACCS)-nin İdarəetmə Təşkilatı (NACMOBoD)

Üzvlər	24 iştirakçı dövlət (İslandiya və Lüksemburq istisna olmaqla NATO üzv dövlətləri)
Sədr	Baş Katibin müavini
Milli Sədr	NATO Hava Hücumundan Müdafiə Komitəsinin (NADC) Sədr Müavini
Rolu	NATO-nun Hava Komandanlığı və Nəzarət Sistemi Proqramının planlaşdırılması və həyata keçirilməsini təmin edir
Əsas səviyyələri	Hava hücumundan müdafiə və ya hava komandanlığı və nəzarət sistemlərinin idarə olunmasında iştirak edən baş milli hərbi və ya icraçı məmurlar
Əsas tabe olan orqanlar	ACCS Məsləhətçi Komitəsi
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə İnvestisiya İdarəsi (Hava Hücumundan Müdafiə və Hava Məkanının İdarəetmə Direktorluğu)

12. Baş Siyasi Komitə (SPC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə köməkçisi
Rolu	Şimali Atlantika Şurasının siyasi və xüsusi siyasi-hərbi məsələlər üzrə baş məsləhətçi orqanı. Bəzi məsələlərlə məşğul olan zaman tərkib ekspertlərin hesabına genişlənir SPC(R)
Əsas səviyyələri	Daimi nümayəndələrin müavinləri
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsi və lazım gəldikdə Beynəlxalq Katibliyin digər İdarələri

13. Atlantika Siyasəti Məsələləri üzrə Məsləhət Qrupu (APAG)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə Köməkçisi
Rolu	Şimali Atlantika Şurasının məsləhətçi orqanı. Təhlükəsizlik ilə bağlı müvafiq uzunmüddətli proqnozların təhlili
Əsas səviyyələri	Siyasi idarələrin müstəqil ekspertlər kimi çıxış edən rəhbərləri səviyyəsində milli nümayəndələr. APAG hər il Tərəfdaş dövlətlərin iştirakı ilə görüşür
Əsas tabeolan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsi

14. Siyasi Komitə (PC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə köməkçisi
Rolu	Şimali Atlantika Şurasının siyasi məsələlər üzrə məsləhətçi orqanı

Əsas səviyyələri	Milli nümayəndəliklərin siyasi məsləhətçiləri (tələb olunduqda ekspertlər hesabına tərkib genişlənir)
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsi

15. Nüvə Silahlarının Yayılması üzrə Baş Siyasi-Hərbi Qrup (SGP)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə Köməkçisi
Rolu	Nüvə silahlarının yayılmasının siyasi-hərbi aspektləri üzrə baş məsləhətçi orqan
Əsas səviyyələri	Nüvə silahlarının yayılmamasına dair siyasi və təhlükəsizlik məsələlərinə məsul olan ali milli rəsmilər
Əsas tabe olan orqanlar	Nüvə silahlarının yayılması məsələləri üzrə baş hərbi qrup ilə görüşərkən Nüvə silahlarının yayılması məsələləri üzrə birgə komitəyə çevrilir
Beynəlxalq Katibliyin dəstəyi	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsi (Kütləvi Qırğın Silahları Mərkəzi)

16. Verifikasiyanın Koordinasiyası Komitəsi (VCC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katib Müavininin İdarəsi, Silahlara Nəzarət və Koordinasiya Bölməsinin Rəhbəri
Rolu	Adi silahlara nəzarət haqqında razılaşmanın yerinə yetirilməsi və yoxlanmasının əlaqələndirilməsi sahəsində qərarların qəbul edilməsi üzrə əsas orqandır
Əsas səviyyələri	Plenar sessiyalar, işçi qruplar, ekspert qrupları, Xarici İşlər və Müdafiə Nazirliklərindən olan ekspertlərin iştirakı ilə seminar və simpoziumlar, yoxlama bölmələrinin ekspertləri, nümayəndəliklərin katibləri
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Silahlara Nəzarət və Koordinasiya Bölməsi, Baş Katib Müavininin İdarəsi

17. Siyasi Koordinasiya Qrupu (PCG)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Müdafiə Siyasəti və Planlaşdırılması üzrə Köməkçisi və Əməliyyatlar üzrə Baş Katibin Köməkçisi
Rolu	Şimali Atlantika Şurasının siyasi-hərbi məsələlərə (sülhün qorunması üzrə əməliyyatlar da daxil olmaqla) dair məsləhətləşmələr üzrə əsas forumu və məsləhətçi orqanı
Əsas səviyyələri	Daimi nümayəndələrin müavinləri və milli hərbi nümayəndələr
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi və Əməliyyatlar İdarəsi

18. Müdafiə Məsələlərinin Təhlili Komitəsi (DRC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Müdafiə Siyasəti və Planlaşdırılması üzrə Köməkçisi
Rolu	Qüvvələrin planlaşdırılması və birləşmiş hərbi strukturlarla bağlı digər məsələlər üzrə Müdafiə Planlaşdırılması Komitəsinin baş məsləhətçi orqanı
Əsas səviyyələri	Milli nümayəndəliklərin hərbi məsləhətçiləri
Əsas tabe olan orqanlar	Müdafiə Məsələlərinin Təhlili Komitəsinin İşçi Qrupu
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi

19. Silahlar üzrə Milli Direktorlar Konfransı (CNAD)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katib
Daimi Sədr	Baş Katibin Müdafiə İnvestisiyası üzrə köməkçisi
Rolu	Silahlanma ilə bağlı bütün məsələlər üzrə Şimali Atlantika Şurasına məsləhətlər verir. Əməkdaşlığın inkişafını və silahlanmaların səmərəli həyata keçirilməsini artırmaq, qar-

	şılıqlı təsir qabiliyyətini gücləndirmək, üzv və tərəfdaş ölkələr arasında texnologiya və sənaye əməkdaşlığını asanlaşdırmaqla hərbi imkanların təkmilləşdirilməsinə görə məsuliyyət daşıyır
Əsas səviyyələri	Silahlanma üzrə milli təsisatların rəhbərləri
Əsas tabe olan orqanlar	Milli Silahlanma üzrə İdarə Heyətinin Nümayəndələri (NADREPs); NATO Quru Qoşunlarının Silahlandırılması Qrupu (NAAG); NATO Hərbi Hava Qüvvələrinin Silahlandırılması Qrupu (NAFAG); NATO Hərbi Dəniz Qüvvələrinin Silahlandırılması Qrupu (NNAG); NATO Məşvərətçi Sənaye Qrupu (NIAG); Kodifikasiya üzrə Milli Rəhbərlərin Məsləhətləşmə Qrupu; Silahlar üzrə Milli Direktorlar Konfransı (CNAD); Sursatların Təhlükəsizliyi üzrə Qrup (CASG); CNAD Həyat Silsiləsinin İdarəçiliyi Qrupu (LCMG), Tədqiqat və Texnologiya Şurası (həmçinin Hərbi Komitəyə hesabat verir); İttifaqın Yerüstü Müşahidəni Tənzimləyən Komitə (AGSSC); Fəal laylı ballistik raketlərlə mübarizənin Tənzimləmə Komitəsi (ALTBMD SC); Döyüş Sursatı üzrə Məlumatların Təhlükəsizliyi və Təhlili Mərkəzi (MSIAC)
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Sərmayəsi üzrə İdarə (DI) (Silahlanma Direktorluğu)

20. NATO-nun Standartlaşdırma üzrə Komitəsi (NCS)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katib
Daimi həmsədr	Baş Katibin Müdafiə İnvestisiyası üzrə köməkçisi və Beynəlxalq Hərbi Qərargahın rəisi
Rolu	İttifaqın bütün NATO standartlaşdırma məsələləri üzrə Şimali Atlantika Şurasına digər orqanlarla razılaşdırılmış məsləhətlər verilməsinin təmin edilməsinə görə məsuliyyət daşıyan baş orqanı

Əsas səviyyələri	Dövlətlərin təsisatlarının standartlaşdırma üzrə razılaşdırılmış milli mövqelərini təmsil edən əsas vəzifəli şəxslər
Əsas tabe olan orqanlar	(NCS) NATO-nun Standartlaşdırma üzrə Komitəsinin təmsilçiləri (NCSREPs); NATO-nun Standartlaşdırma üzrə Qərargah Qrupu (NSSG)
Beynəlxalq Katibliyin dəstəyi	NATO-nun Standartlaşdırma üzrə Agentliyi (NSA)

21. İnfrastruktur üzrə Komitə

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Müdafiə Sərmayəsi üzrə Köməkçisi
Daimi Sədr	Təhlükəsizlik Sərmayə Proqramı üzrə Nəzarətçi
Rolu	NATO Təhlükəsizlik Sərmayə Proqramının Ehtiyatlar üzrə Baş Şura tərəfindən yoxlanması və bəyənilməsindən və Şimali Atlantika Şurası və ya Hərbi Planlaşdırılma Komitəsi tərəfindən təsdiq edilməsindən sonra onun həyata keçirilməsinə görə məsuliyyət daşıyır
Əsas səviyyələri	Milli nümayəndəliklərin infrastruktur məsələləri üzrə məsləhətçiləri; Hərbi Komitənin, NATO Strateji Komandanlarının və NATO Agentliklərinin nümayəndələri
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə İnvestisiyası İdarəsi (Təhlükəsizlik İnvestisiyası Direktorluğu)

22. Baş Mülki Fövqəladə Planlaşdırma Komitəsi (SCEPC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katib
Daimi sədr	Baş Katibin Planlaşdırma/Əməliyyatlar üzrə Köməkçisi
Rolu	Mülki fövqəladə planlaşdırma və təbii fəlakət və qəzalar zamanı yardım məsələləri üzrə

	Şimali Atlantika Şurasının əsas siyasi və məsləhətçi orqanıdır. Planlaşdırma Şuraları və Komitələrinin siyasi istiqamətləndirilməsi və əlaqələndirilməsinə görə məsuliyyət daşıyır
Əsas səviyyələri	Paytaxtlardan mülki fövqəladə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan əsas rəsmilər/milli nümayəndəliklərin üzvləri
Əsas tabe olan orqanlar	Planlaşdırma şuraları və komitələri (Okean Gəmiçiliyi, Avropa Daxili Quru Nəqliyyatı, Mülki Aviasiya, Ərzaq və Kənd Təsərrüfatı, Sənaye Hazırlığı, Mülki Rabitə Planlaşdırılması, Mülki Müdafiə, Tibbi Hazırlıq)
Beynəlxalq Katibliyin dəstəyi	Əməliyyatlar İdarəsi (Mülki Fövqəladə Planlaşdırma və Təlimlər Direktorluğu)

23. NATO-nun Maddi-Texniki Təminat məsələləri üzrə Baş Konfransı (SNLC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katib
Daimi sədr	Baş Katibin Müdafiə Siyasəti və Planlaşdırma üzrə Köməkçisi və Hərbi Komitənin Sədri
Rolu	Şimali Atlantika Şurası, Müdafiə Planlaşdırma Komitəsi və Hərbi Komitəyə maddi-texniki məsələlər ilə bağlı məsləhətlər verən baş orqandır. Təşkilatın operativ maddi-texniki tələbatlarının qiymətləndirilməsinə və NATO qüvvələrini adekvat maddi-texniki dəstəklə təmin edilməsinə görə məsuliyyət daşıyan birgə mülki-hərbi orqandır. Şimali Atlantika İttifaqının göstərişi əsasında SNLC-nin üzərinə bütün operativ maddi-texniki təminat məsələləri üzrə NATO-nun digər müvafiq orqanlarının əlaqələndirilməsi vəzifəsi qoyulmuşdur
Əsas səviyyələri	Üzv dövlətlərdə operativ maddi-texniki təminat məsələlərinə görə məsuliyyət daşıyan baş milli, mülki və hərbi rəsmilər

Əsas tabe olan orqanlar	SNLC Maddi-Texniki Təminat Qərargahının İclası; Hərəkət və Daşınma Qrupu
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırma İdarəsi (Maddi-texniki təminat bölməsi); Beynəlxalq Hərbi Qərargahın Maddi-Texniki Təminat və Ehtiyatlar İdarəsi (MIS)

24. Elmi Komitə (SCOM)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin İctimai Diplomatiya üzrə Köməkçisi
Rolu	NATO Elmi Proqramı üzrə əsas qərar qəbuledici orqan
Əsas səviyyələri	Elmi siyasət üzrə üzv dövlətlərdə hökumət və ya müstəqil təşkilatlardan təyin olunmuş milli ekspertlər
Əsas tabe olan orqanlar	Elmi Komitə xüsusi tapşırıqları yerinə yetirmək üçün bir sıra köməkçi komitələr, məsləhətçi qruplar və nəzarət qrupları yaradır
Beynəlxalq Katibliyin dəstəyi	İctimai Diplomatiya İdarəsi

25. Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitə (CCMS)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin İctimai Diplomatiya üzrə Köməkçisi
Rolu	Müasir Cəmiyyətin Problemləri üzrə NATO proqramına məsul olan əsas qərar qəbuledici orqan
Əsas səviyyələri	Təcrübəli və ya üzv dövlətlərdə ətraf mühit proqramları ilə bağlı milli nümayəndələr
Əsas tabe olan orqanlar	Dövlətlər CCMS üzvlüyünə görə məsul olan köməkçi komitələrə nümayəndələr təyin edir
Beynəlxalq Katibliyin dəstəyi	İctimai Diplomatiya İdarəsi

26. Mülki Büdcə Komitəsi / Hərbi Büdcə Komitəsi (CBC/MBC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Rotasiya əsasında seçilmiş milli sədr
Rolu	Beynəlxalq Qərargah, Beynəlxalq Hərbi Qərargahın, Strateji Komandanlıqlar və NATO-nun Havadan ilkin Xəbərdarlıq və Nəzarət (NAEW&C) üçün illik büdcələrin qiymətləndirilməsi və tövsiyəsi, o cümlədən büdcənin icrasına nəzarət edilməsinə görə məsuliyyət daşıyır
Əsas səviyyələri	Milli nümayəndəliklərdən maliyyə məsləhətçiləri
Əsas tabe olan orqanlar	Büdcə Komitələri lazım gəldikdə işçi qruplar yaradırlar
Beynəlxalq Katibliyin dəstəyi	Büdcə Komitələrinin İcraedici Menecment İdarəsinin Sədrinin ofisi (Maliyyə Nəzarəti)

27. Resurslar üzrə Baş İdarə (SRB)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Rotasiya qaydasında seçilmiş milli sədrlər
Rolu	Şimali Atlantika Şurasının hərbi birgə-maliyyələşdirilən ehtiyatların idarə edilməsi üzrə baş məsləhətçi orqanı
Əsas səviyyələri	Milli nümayəndələr, Hərbi Komitənin nümayəndələri, NATO Strateji Komandanları, Hərbi Büdcə, İnfrastruktur və NATO Hərbi Kadrlar Komitələrinin sədrləri
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	SRB Sədrinin İdarəsi; Müdafiə Sərmayələri üzrə İdarə

28. Yayılma üzrə Baş Müdafiə Qrupu (DGP)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Həmsədrlik: bir Şimali Amerikadan və bir Avropadan olan üzv dövlət
Rolu	KQS-nın yayılması və birləşmiş təchizat sistemlərinin müdafiə aspektləri ilə bağlı baş

	məsləhətçi orqan
Əsas səviyyələri	Dövlətlərdən olan müdafiə işləri üzrə səlahiyyəti şəxslər
Əsas tabe olan orqanlar	DGP Nəzarət Komitəsi (işçi-səviyyəli ekspertlərdən ibarət); KQS-nın Yayılması üzrə Baş Siyasi-Hərbi Qrupla birgə görüşlərdə KQS-nın Yayılması üzrə Birləşmiş Komitə olur
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi (Kütləvi Qırğın Silahları Mərkəzi)

29. Yüksək Səviyyəli Qrup (HLG)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Milli sədr (Amerika Birləşmiş Ştatları)
Rolu	Nüvə Planlaşdırılması Qrupunun məsləhətçi orqanı (NPG). İldə bir neçə dəfə NATO-nun nüvə siyasəti, planlaşdırılması aspektlərini və nüvə silahlarının təhlükəsizliyi, saxlanması ilə bağlı məsələləri nəzərdən keçirmək üçün görüşür
Əsas səviyyələri	Dövlətlərdən olan müdafiə işləri üzrə səlahiyyəti şəxslər
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Qərargahın dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi (Nüvə Siyasəti Direktorluğu)

30. İqtisadi Komitə (EC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Regional, İqtisadi və Təhlükəsizlik İşləri, Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarələri üzrə Müavininin Köməkçisi
Rolu	Şimali Atlantika Şurasının iqtisadi məsələlər üzrə məsləhətçi orqanı
Əsas səviyyələri	NATO-da təmsil olunan nümayəndələr (İqtisadi Məsləhətçilər); dövlətlərdən olan ekspertlərin iştirak etdiyi geniş iclaslar
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsi (Müdafiə və Təhlükəsizlik İqtisadiyyatı Direktorluğu)

31. İctimai Diplomatiya Komitəsi (CPD)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin İctimai Diplomatiya üzrə Köməkçisi
Rolu	Şimali Atlantika Şurasının informasiya və mətbuat işləri üzrə məsləhətçi orqanı
Əsas səviyyələri	NATO nümayəndəliklərinin üzvləri; Dövlətlərdən olan ekspertlərin iştirak etdiyi geniş iclaslar
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	İctimai Diplomatiya İdarəsi

32. Şura Əməliyyatları və Təlimlər üzrə Komitə (COEC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Baş Katibin Mülki Fövqəladə Planlaşdırma və Təlimlər, Əməliyyatlar İdarəsi üzrə Müavinin Köməkçisi
Rolu	Böhran idarəetmə tədbirləri, prosedur və imkanları, həmçinin rabitə işləri, NATO Situasiya Mərkəzi ilə (SITCEN) və böhran idarəetmə təlimlərinin hazırlanması və onlara nəzarət etməklə bağlı məsələlər üzrə məsləhətləşmə və koordinasiya üçün əsas forumdur
Əsas səviyyələri	Böhran idarəetmə və tədbirləri ilə əlaqədar siyasi və hərbi milli nümayəndəlik üzvləri
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi (Mülki Fövqəladə Planlaşdırma və Təlimləri)

33. NATO Hava Nəqliyyatının İdarəedilməsi Komitəsi (NATMC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Seçkili vəzifədir (hal-hazırda Baş Katibin Hava Hücumundan Müdafiə və Hava Məkanının İdarə Edilməsi üzrə Müavin Köməkçisi, Müdafiə Sərmayəsi İdarəsi)

Rolu	Hava məkanının istifadəsi və hava nəqliyyatın idarə edilməsi ilə bağlı işlər üzrə baş məsləhətçi orqan
Əsas səviyyələri	Milli paytaxtlardan olan mülki və hava nəqliyyatı baş menecerləri
Əsas tabe olan orqanlar	Hava Nəqliyyatının İdarə Edilməsi Qrupu (ATMG), Rabitə, Naviqasiya və Müşahidə Qrupu (CNS), NATO/ EUROCONTROL ATM NATO Hava Nəqliyyatının İdarəolunması üzrə Təhlükəsizliyin Koordinasiya Qrupu (NEASCOG)
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Sərmayəsi İdarəsi (Hava Hücumundan Müdafiə və Hava Məkanının İdarə Edilməsi Direktorluğu)

34. Mərkəzi Avropada Boru xətlərinin İdarə olunması üzrə Təşkilatın Direktorlar Şurası (CEPMOBoD)

Üzvlər	Altı iştirakçı üzv dövlət (Belçika, Kanada, Fransa, Almaniya, Hollandiya, ABŞ)
Sədr	Milli nümayəndələr
Rolu	Mərkəzi Avropa Boru - xətti Sistemi (CEPS) üzrə baş istiqamətverici orqan
Əsas səviyyələri	İştirakçı dövlətlərin nümayəndələri, bundan əlavə Mərkəzi Avropada Boru - xətlərinin İdarə olunması üzrə Agentlik (CEPMA)
Əsas tabeolan orqanlar	Yoxdur
Beynəlxalq Qərargahın dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi (Maddi-texniki təminat Bölməsi); NATO Hərbi orqanları

35. NATO Boru Kəməri Komitəsi (NPC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi, Maddi-Texniki Təminat Bölməsinin Rəhbəri
Rolu	NATO-nun hərbi neft boru xətləri ilə əlaqədar operativ maddi-texniki təminat üzrə baş məsləhətçi orqanı
Əsas səviyyələri	Hərbi neft məsələləri üzrə hökumət ekspertləri

Əsas tabe olan orqanlar	Xüsusi Tapşırıqlar üzrə İşçi Qrup, Yanacaq və Yağlar üzrə İşçi Qrup, Neftin Nəql Edilməsi Avadanlığı üzə İşçi Qrup
Beynəlxalq Katibliyin dəstəyi	Müdafiə Siyasəti və Planlaşdırılması İdarəsi (Maddi-Texniki Təminat Bölməsi); NATO-nun Hərbi Orqanları

36. NATO Təhlükəsizlik Komitəsi (NSC)

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	NATO Təhlükəsizlik İdarəsinin direktoru
Rolu	Şimali Atlantika Şurasının NATO təhlükəsizlik siyasəti ilə bağlı məsələlər üzrə məsləhətçi orqanı
Əsas səviyyələri	Milli təhlükəsizlik orqanlarının nümayəndələri, milli nümayəndəliklərin təhlükəsizlik üzrə zabitləri və NATO-nun mülki və hərbi orqanlarının təhlükəsizlik üzrə rəsmiləri
Əsas tabe olan orqanlar	Məlumat Təhlükəsizliyi (INFOSEC) İşçi Qrupu
Beynəlxalq Katibliyin dəstəyi	NATO-nun Təhlükəsizlik İdarəsi

37. NATO-nun Xüsusi Komitəsi

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	Üzv dövlətlər arasında hər il növbə ilə əvəzlənən sədrlik
Rolu	Şimali Atlantika Şurasının casusluq, terrorizm və təşkilata təsir edə biləcək digər oxşar təhlükə məsələləri üzrə məsləhətçi orqanı
Əsas səviyyələri	Üzv dövlətlərin Təhlükəsizlik/Kəşfiyyat Xidmətlərinin Rəhbərləri
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	NATO-nun Təhlükəsizlik İdarəsi

38. Arxiv Komitəsi

Üzvlər	Bütün üzv dövlətlər
Sədr	İnformasiya və Sistemləri İdarəetmə Xidmətlərinin Rəhbərləri
Rolu	Təhlükəsizlik sahəsində "Soyuq Müharibə"dən sonra yaranmış yeni şəraitə NATO-nun uyğunlaşması ilə əlaqədar, həmçinin "şəffaflığın" dərəcəsinin yüksəldilməsinə təsirlə bağlı Şimali Atlantika İttifaqı tədqiqat məqsədləri ilə istifadə edilməsi üçün tarixi əhəmiyyətə malik olan NATO sənədlərinin məxfilikdən azad edilməsi və ictimaiyyətə açıqlanması siyasətini həyata keçirir. Arxiv Komitəsinin məqsədi arxiv proqramının davam etdirilməsi və genişləndirilməsi (həmçinin ictimaiyyət tərəfindən əldə olunması üçün texniki imkanların təmin edilməsi), o cümlədən İttifaqın mülki və hərbi orqanlarının arxivlərinin idarə edilməsi və saxlanmasının təşkilidir
Əsas səviyyələri	Milli arxivlərə rəhbərlik edən vəzifəlilərlə birgə Daimi Nümayəndəliklərin Müavinləri
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	İcraedici Katiblik (İnformasiya və Sistemləri İdarəetmə Xidmətləri, Arxivlər bölməsi; Şura Katibliyi)

Əməkdaşlıq, tərəfdaşlıq və dialoq institutları ilə tanışlıq

Aşağıdakı bölmə üzvlük, sədrlik, status və rol, səviyyələr, birləşmiş strukturları və NATO ilə digər dövlətlər arasında əlaqələri möhkəmləndirən əməkdaşlıq, tərəfdaşlıq və dialoq institutlarının işlərinə dəstək verən əsas katibliklər qısa şəkildə öz əksini tapmışdır.

Avro-Atlantika Tərəfdaşlıq Şurası (EAPC)
NATO-Rusiya Şurası (NRC)
NATO-Ukrayna Komissiyası (NUC)
Aralıq Dənizi Əməkdaşlıq Qrupu (MCG)
İstanbul Əməkdaşıq Təşəbbüsü Qrupu (ICIG)

Avro-Atlantika Tərəfdaşlıq Şurası (EAPC)

Üzvlər	46 dövlət (28 NATO üzvü + 18 Tərəfdaş ölkə)
Sədr	Baş Katib
Rolu	1997-ci ilin may ayında EAPC Təsis Sənədi ilə yaradılmışdır. Siyasət və təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr, həmçinin "Sülh Naminə Tərəfdaşlıq" (PfP) Proqramı üzrə əməkdaşlığın dərinləşdirilməsi üçün hərtərəfli strukturdur
Əsas səviyyələri	Səfir (NATO üzv dövlətlərinin daimi nümayəndələri və Tərəfdaş dövlətlərin səfirləri); nazir (xarici işlər və müdafiə nazirləri); zirvə görüşü (dövlət və hökumət başçıları)
Əsas əlaqəli komitələr	Şimali Atlantika Şurasının EAPC/PfP iştirakçıları olan tərəfdaş ölkələrlə görüşən köməkçi komitələri
Katibliyin dəstəyi	EAPC ölkələrinin diplomatik missiyaları və əlaqə ofisləri və NATO heyəti tərəfindən dəstəklənir. Beynəlxalq Qərargah və Beynəlxalq Hərbi Qərargahın bir çox idarələri EAPC-nin işinə birbaşa və ya dolayı yolla dəstək verirlər

NATO-Rusiya Şurası (NRC)

Üzvlər	Bütün NATO üzv dövlətləri və Rusiya Federasiyası
Sədr	Baş Katib
Rolu	27 may 1997-ci ildə NATO-Rusiya Təsis Aktı və NATO Üzv Dövlətləri və Rusiya Federasiyasının Dövlət və Hökumət başçılarının 28 may 2002-ci ildə Roma Zirvə toplantısında imzaladıqları bəyannamə əsasında yaradılmışdır. NATO və Rusiya arasında məsləhətləşmə, əməkdaşlıq və konsensus yaradan forumdur
Əsas səviyyələri	Səfir; nazir (xarici işlər və müdafiə nazirləri); zirvə görüşü (dövlət və hökumət başçıları)
Əsas əlaqəli komitələr	Rəsmi köməkçi struktur yoxdur. Lakin ildə iki dəfədən az olmamaq şərti ilə NRC-nin nəzdində qərargah rəisləri/hərbi təsisatların rəhbərlərinin iclası keçirilir

Katibliyin dəstəyi	Rusiya və NATO heyəti ilə dəstəklənir. Beynəlxalq Qərargah və Beynəlxalq Hərbi Qərargahın bir çox idarələri NRC-nin işinə birbaşa və ya dolayı yolla dəstək verirlər

NATO-Ukrayna Komissiyası (NUC)

Üzvlər	Bütün NATO üzv dövlətləri və Ukrayna
Sədr	Baş Katib
Rolu	1997-ci ilin iyulunda NATO-Ukrayna Xartiyasına müvafiq olaraq Şimali Atlantika Şurası dövri olaraq ildə iki dəfədən az olmamaq şərti ilə Ukrayna ilə əlaqələrin həyata keçirilməsini qiymətləndirmək və onun gələcək inkişafını müzakirə etmək üçün NATO-Ukrayna Komissiyası formasında görüşür
Əsas səviyyələri	Səfir; nazir (xarici işlər və müdafiə nazirləri); zirvə görüşü (dövlət və hökumət başçıları)
Əsas tabe olan orqanlar	NATO-nun bir sıra əsas komitələri, o cümlədən Daimi Nümayəndəliklər və qərargah rəisləri səviyyəsində Hərbi Komitə Ukraynanın iştirakı ilə müntəzəm iclaslar keçirir. NUC işi həmçinin, Müdafiə İslahatı üzrə Birgə İşçi Qrupu kimi ekspert səviyyəli işçi qruplar vasitəsilə dəstəklənir
Katibliyin dəstəyi	Ukrayna və NATO heyətləri tərəfindən dəstəklənir. Beynəlxalq Heyət və Beynəlxalq Hərbi Qərargahın bir çox idarələri Komissiyanın işinə birbaşa və ya dolayı yolla dəstək verirlər

NATO-Gürcüstan Komissiyası (NGC)

Üzvlər	Bütün NATO üzv dövlətləri
Sədr	Baş Katib

Aralıq Dənizi Əməkdaşlıq Qrupu (MCG)

Üzvlər	Bütün NATO üzv dövlətləri
Sədr	Baş Katibin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə köməkçisi
Fəaliyyətdə olan sədr	Baş Katibin Regional, İqtisadi və Təhlükəsizlik Məsələlər üzrə Müavin Köməkçisi
Rolu	Aralıq Dənizi işləri üzrə məsləhətçi orqan
Əsas səviyyələri	İclaslar siyasi müşavirlər, ehtiyac olduqda Aralıq Dənizi Dialoqu ölkələrinin nümayəndələrinin iştirakı ilə keçirilir
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Katibliyin dəstəyi	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsi

İstanbul Əməkdaşlıq Təşəbbüsü Qrupu (ICIG)

Üzvlər	İttifaqın bütün üzv dövlətləri
Sədr	Baş Katibin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə Köməkçisi
Fəaliyyətdə olan sədr	Baş Katibin Regional, İqtisadi və Təhlükəsizlik Məsələlər üzrə Müavin Köməkçisi
Rolu	ICI işləri üzrə məsləhətçi orqan
Əsas səviyyələri	İclaslar siyasi müşavirlər səviyyəsində keçirilir
Əsas tabe olan orqanlar	Yoxdur
Beynəlxalq Qərargahın dəstəyi	Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti İdarəsi

IV HİSSƏ

SÜLHÜN QORUNMASINDA və SÜLHÜN DƏSTƏKLƏNMƏSİNDƏ ALYANSIN ROLU

13-cü Fəsil: NATO-nun Bosniya-Herseqovinada rolu

14-cü Fəsil: Kosovo münaqişəsi və KFOR-un rolu

15-ci Fəsil: NATO-nun keçmiş Yuqoslaviya Respublikası Makedoniyada* rolu

16-cı Fəsil: NATO-nun Əfqanıstanda rolu

17-ci Fəsil: NATO-nun İraqda rolu

18-ci Fəsil: NATO-nun Darfurda rolu

13-cü Fəsil

NATO-NUN BOSNİYA-HERSEQOVİNADA ROLU

Soyuq müharibə başa çatdıqdan sonra NATO beynəlxalq ictimaiyyətin geniş maraqlarına öz dəstəyini göstərərək digər təşkilatlarla sıx işləməyə başladı və dərin-köklü problemləri həll etmək, çətinlikləri azaltmaq, sülhün uzunmüddətli olmasını təmin etməkdə bütün şəraitləri yaratmaq üçün özünü sülhqurucu və dəstəkləyici əməliyyatlara daha fəal cəlb etdi. NATO-nun sülhü dəstəkləyən ilk üç əməliyyatı Avropada - Bosniya və Hersoqovinada, keçmiş Yuqoslaviya Respublikası Makedoniyada həyata keçirilmişdir. Lakin hələ də uzunmüddətli sülhə olan ehtiyac qlobal xarakterli bir problem olaraq qalmaqdadır. NATO xarici işlər nazirləri 2002-ci ilin may ayında İslandiyanın Reykyavik şəhərində keçirilmiş toplantıda bu razılığa gəldilər ki; "Öz missiyalarının öhdəsindən tam gəlmək üçün NATO ehtiyac duyulan əraziyə öz hərbi qüvvələrini qısa müddət ərzində çatdırmaq bacarığına malik olmalı, məsafə və vaxt baxımından əməliyyatları daim nəzarətdə saxlamalı və bu yolla məqsədlərinə nail olmalıdır". Bu qərarın qəbulu NATO-ya ilk dəfə olaraq Avropa məkanından kənarda- 2003-cü ildə Əfqanıstanda öz hərbi qüvvələrini yerləşdirmək imkanı verdi. O vaxtdan bəri İttifaq İraq və Sudanın Darfur əyalətində də fəaliyyət göstərməyə başladı.

Bosniya və Hersoqovina NATO-nun ilk həyata keçirdiyi bir çox işlərin məkanı olmuşdur və ölkədə baş vermiş tədbirlərə müvafiq qərarların qəbulu İttifaqın sülhquruculuğu və sülhü dəstəkləmə bacarıqlarının inkişaf yolunu müəyyənləşdirməyə kömək etmişdir. İttifaq 1995-ci ilin avqust və sentyabr aylarında Bosniya və Hersoqovinaya Bosniya müharibəsinə son qoyulmasına kömək edən hava hərbi hücumu təşkil etmiş və 1995-ci ilin dekabrından 2004-cü ilin dekabrına qədər doqquz il ərzində ölkədə sülhquruculuğu əməliyyatı həyata keçirmişdir. 2004-cü ilin dekabrında Avropa Şurası qarşısında NATO-nun Bosniya və Hersoqovinada bugünkü günə kimi təhlükəsizliyi təmin etmək məsuliyyətini öhdəsinə götürməsinə baxmayaraq, hələ də Sarajevo ərazisində İttifaqın müvəqqəti hərbi qüvvələri qərargahı qalmaqdadır və onlar ölkəni gələcəkdə Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində üzvlüyünə hazırlayırlar.

Alyansın sülhquruculuğu əməliyyatlardakı vəzifəsinin siyasi əsasları 1992-ci ilin iyununda NATO xarici işlər nazirlərinin Oslo toplantısında qoyulmuşdur. Bu toplantıda xarici işlər nazirləri Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM, sonralar isə Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və ya ATƏT adlandırılmışdır) öhdəçiliyi altında öz ölkələrinin

rəsmi qaydalarının əsaslarına uyğun olaraq sülhqoruyucu əməliyyatlarda iştirak etməyə hazır olduqlarını bəyan etdilər. Bura sülhqurucu əməliyyatları həyata keçirmək üçün NATO ehtiyat vəsaitlərinin və ekspertiza qrupunun təşkili daxil idi.

1992-ci ilin dekabrında İttifaq beynəlxalq səviyyədə sülh və təhlükəsizliyi təmin etmək məsuliyyətini ilk öhdəsinə götürmüş Birləşmiş Millətlərin Təhlükəsizlik Şurasının səlahiyyəti altında belə sülhü dəstəkləmə əməliyyatına hazır olduğunu bildirdi. NATO ölkələri tərəfindən həyata keçirilən sülhü quruyan əməliyyatlar, sanksiya və embargo tətbiqi tədbirlərini, ölkə və ya İttifaq olaraq Birləşmiş Millətlərin Təhlükəsizlik Şurasının keçmiş Yuqoslaviya Respublikası Makedoniyada yaşanan münaqişəylə bağlı qəbul etdiyi qətnamələrinin tətbiqini gözdən keçirərkən, NATO xarici işlər nazirlərinin İttifaqın bu sahədə BM-in Baş Katibinin onlardan gözlədiyi gələcək təşəbbüslərə müsbət cavab verməyə hazır olduqlarını qeyd etdiklərinin şahidi oluruq.

1992-1995-ci illər arasında İttifaq monitorinq əməliyyatlarını, daha sonralar BM-in Adriatik boyu ərazilərdə, Bosniya və Hersoqovinada qadağa olunmuş uçuş zonasına embarqo və sanksiyanın tətbiqini həyata keçirmək üçün bir sıra ciddi qərarlar qəbul etdi. Alyans Birləşmiş Millətlərin Mühafizə Hərbi Qüvvələrinə sıx hava hərbi yardımı da göstərdi. Sarayevonu və Birləşmiş Millətlər tərəfindən təhlükəsiz zonalar kimi qeyd edilən, lakin əslində təhlükəli olan və digər əraziləri mühasirədən azad etmək üçün hava hərbi hücumları təşkil etdi.

- 1995-ci il 30 avqustda NATO hərbi aviasiyası Bosniya və Hersoqovinada Serb birləşmiş qüvvələrinin seçilmiş hədəflərinə qarşı dəqiq zərbələr silsiləsi həyata keçirdi. Bu, NATO-nun sentyabrın 15-nə qədər davam edən və Qüvvələrin Gözlənilmədən Keçirtdiyi Əməliyyat adlandırılan ilk hava hərbi əməliyyatından xəbər verirdi. Əməliyyat Bosniya Serb birləşmiş qüvvələrini darmadağın etdi və düşünülmüş diplomatik səy nəticəsində razılığa gəlinmiş atəşkəsə yol açdı, bundan başqa, Birləşmiş Ştatların Ohayo ştatının Deytona şəhərində gələcəkdə uğurlu sülh danışıqları zəmin yaratdı.

Deyton Sülh Sazişi

1995-ci ilin 14 dekabrında Parisdə imzalanmış, bir qayda olaraq Deyton Sülh Sazişi (DSS) adlandırılan Bosniya və Herseqovinada Sülh üzrə Ümumi Çərçivə Sazişinin şərtlərinə əsasən, bu sazişin yerinə yetirilməsinin hərbi aspektlərinə bir il ərzində nəzarət etmək üçün NATO-nun rəhbərliyi altında 60000 nəfərlik İmplementasiya Qüvvələri (IFOR) yaradıldı. Bu qüvvələr

həmin dekabr ayının 16-da fəaliyyətə başladı. Dörd gün sonra BMT qüvvələrinin komandanının səlahiyyətlərinin IFOR komandanına təhvil verilməsi ilə əməliyyatda iştirak edən NATO-ya üzv və qeyri üzv ölkələrin qüvvələrinə komandanlıq IFOR-a verildi.

1996-cı ilin yanvarın ayının 19-da Deyton Sülh Sazişini imzalayan tərəflər öz hərbi qüvvələrini atəşkəs xəttinin hər iki tərəfindən, fevralın 3-də isə müqavilə yurisdiksiyasına aid edilən bütün ərazilərdən çıxardırlar. Bosniya və Herseqovina arasında ərazi mübadiləsi prosesi martın 19-da başa çatdırıldı və yeni ayırıcı xətt zonası müəyyənləşdirildi. Müqavilənin şərtlərinə əsasən ağır silahların çıxarılması və hərbi qüvvələrin demobilizasiyası prosesi iyunun sonunda başa çatdırıldı. Dörd il ərzində davam edən münaqişə və münaqişəyə son qoymaq üçün beynəlxalq təşəbbüslərin dəfələrlə uğursuzluğa düçar olmalarından sonra, altı aydan az bir müddət ərzində Bosniya və Herseqovinada gələcək sülh və təhlükəsizliyik üçün zəmin yaradıldı.

IFOR mülki və siyasi quruculuq üçün zəruri olan şəraitin yaradılmasına əsaslı töhfə verdi. O, Ali Nümayəndəliyin Ofisi (OHR), Beynəlxalq Məqsədli Polis Qüvvələri (IPTF), Qırmızı Xaç Cəmiyyətinin Beynəlxalq Komitəsi (ICRC), Birləşmiş Millətlərin Qaçqınlar üzrə Ali Kommisarlığı (UNHCR), keçmiş Yuqoslaviya Respublikası Makedoniyanın Beynəlxalq Cinayət Tribunalı və 400-dən çox qeyri-hökumət təşkilatı və digər agentliklərlə sıx işləyərək mülki tapşırıqlar üçün də dəstək verdi.

IFOR 1996-ci ilin sentyabrında keçirilmiş ilk azad seçkilərin və sonrakı seçkilərin hazırlanması, nəzarət edilməsi və müşahidə edilməsində və yeni ümumi strukturların yaradılmasında Bosniya və Herseqovina vahidlərinə yardım ilə bağlı Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) öz dəstəyini göstərdi. Bundan əlavə, IFOR hərbi mühəndisləri yollar və körpüləri təmir edərək yenidən istifadəyə verdi və minadan təmizləmə, dəmir yollarının təmiri, mülki nəqliyyatdan istifadə üçün hava limanının açılması, qaz, su və elektrik təchizatının bərpası, məktəb və xəstəxanaların yenidən inşa edilməsi, vacib telekommunikasiya qurğularının bərpası kimi sahələrdə əhəmiyyətli rol oynadı.

IFOR-dan SFOR-a

Sülh prosesində maraqlı olan ölkələrin və beynəlxalq təşkilatların təmsil olunduğu ad-hoc qrup olan Sülh İmplementasiya Şurası çərçivəsində 1996-cı ilin noyabr-dekabr aylarında iki illik konsolidasiya planı təsdiq olundu. Bu plan və Alyansın təhlükəsizlik variantları üzrə öz araşdırmaları əsasında

NATO-nun xarici işlər və müdafiə nazirləri qeyd edilən zonada sülhün möhkəmlənməsi üçün lazim olan sabitliyi təmin etmək üçün azaldılmış hərbi iştiraka ehtiyacın olması qənaətinə gəldilər. Onlar NATO-nun 18 aylıq mandatlı, 32 000 nəfərdən ibarət Sabitləşdirmə Qüvvələri (SFOR) təşkil etməsi və rəhbərlik etməsi qərarına gəldilər. SFOR IFOR-un mandatının başa çatdığı gün – 20 dekabr 1996-cı ildə fəaliyyətə başladı.

BMT Təhlükəsizlik Şurasının 12 dekabr 1996-cı il tarixli 1088 saylı qətnaməsinə uyğun olaraq SFOR əsas vəzifəsi sülhün möhkəmlənməsi üçün lazımi təhlükəsiz şəraitin yaradılmasından ibarət olmaqla IFOR-un hüquqi varisi oldu.

Daha sonrakı qüvvə “SFOR” adlandırmasını saxladı və düşmənçiliyin bərpa olunmasının qarşısının alınması və Deyton Sülh Sazişinin mülki aspektlərinin implementasiyası üçün tələb edilən şəraitin yaradılmasına yardım etmək üçün oxşar əsaslarda fəaliyyətini davam etdirdi. Eyni zamanda Şimali Atlantika Şurası məsuliyyətin qabiliyyətli ümumi strukturlar, mülki orqanlar və beynəlxalq qurumlara verilməsi mümkün olduqca qüvvə sayının davamlı ixtisarını ehtiva edən keçid strategiyası təsdiq etdi.

Bosniya və Herseqovinadakı vəziyyət daha da sabitləşdikcə NATO SFOR-u yenidən təşkil etdi və sayını azaltdı. SFOR sayı ilk yaradıldığı vaxtdakı 32000 nəfərdən 2002-ci ilin başlanğıcında NATO-nun 17 üzvü və 15 qeyri-üzv ölkələrdən, o cümlədən, Rusiyanın kontingenti daxil olmaqla 19000 nəfərə endirildi. Bəziləri sonradan NATO-ya üzv olan çoxlu sayda qeyri-NATO ölkəsi, o cümlədən, Albaniya, Argentina, Avstrya, Bolqarıstan, Misir, Estoniya, Finlandiya, İrlandiya, İordaniya, Latviya, Litva, Mərakeş, Rumınya, Slovakiya, Sloveniya, İsveç və Ukrayna müxtəlif vaxtlarda IFOR və SFOR–da iştirak etmişdirlər.

Ehtiyac duyduğu strateji ehtiyat qüvvəsinin dəstəyi ilə və Deyton Sülh Sazişinə uyğun olaraq təhlükəsiz mühitin bərqərar olunmasına yardım edilməsi üzrə davam edən mandata malik olmaqla SFOR-un say tərkibi 2003-cü ilin yanvar ayında 12 000 nəfərə qədər azaldıldı. Bosniya və Hersoqovinada 2003-cü ildə ümumi təhlükəsizlik vəziyyətinin yaxşılaşması, o cümlədən, zərərsizləşdirmə birlikləri tərəfindən külli miqdarda qumbara, silah, tapança, mina və digər çoxlu sayda hərbi sursatların məhv olunması üzrə aparılmış uğurlu əməliyyatlar 2004-cü ilin ortalarında NATO-ya SFOR-u say baxımdan daha da ixtisar edərək sayını azaldaraq 7000 nəfərdən ibarət, amma ehtiyat qüvvələrinə malik, daimi dislokasiya olunmuş qüvvəyə çevirməyə imkan verdi.

Eyni zamanda, NATO-nun 2003-cü ildə keçmiş Yuqoslaviya Respublikası Makedoniyada əməliyyatının Avropa İttifaqına uğurla təhvil verilməsi SFOR əməliyyatının davamı kimi Aİ missiyası üçün yol açdı. NATO-nun rəhbərlik etdiyi İmplementasiya Qüvvələrinin 1995-ci ildə əməliyyata göndərilməsi və sonralar SFOR-un oynadığı müsbət rol ilə Bosniya və Herseqovinada əldə edilən tərəqqini təsbit edərək, NATO liderləri 2004-cü ilin sonlarında SFOR əməliyyatını dayandırmaq barədə qərar verdilər.

2004-cü il dekabrın 2-də Avropa İttifaqı özünün "Althea əməliyyatı" çərçivəsində Bosniya və Hersoqovinaya yeni qüvvələr - EUFOR göndərdi. EUFOR NATO və Aİ arasındakı Berlin-Plus adlanan tənzimlənməyə müvafiq olaraq NATO-nun daimi dəstəyindən faydalanırdı. (bax:VIII Hissədə bu barədə bəhs edilmişdir). Bu missiya üzrə məsuliyyətin təhvil verilməsi NATO-nun planlama sahəsində ekspertizasından istifadə etməklə və Alyansın kollektiv imkanları və qabiliyyətlərindən Aİ-nin istifadəsiə şərait yaratmaqla qeyd edilən tənzimlənmə çərçivəsində həyata keçirildi. Bu müddəalar o cümlədən, Müttəfiq Qüvvələrin Avropa Komandanının müavinin "Althea" əməliyyatı komandanı olmasına şərait yaratdı. Berlin-plus tənzimlənməsi həmçinin, missiyanın NATO-dan Aİ-yə fasiləsiz, resurslardan optimal şəkildə istifadə və səylərin təkrarlanmasına yol verməyəcək şəkildə təhvil verməsinə şərait yaratdı.

NATO Bosniya və Herseqovinada təhlükəsizliyin əsas təminatçısı kimi rolunu SFOR əməliyyatı ilə başa çatdırsa da bu ölkəyə bağlılığını başqa üsullarla ifadə etməkdə davam edir. 2004-cü ilin dekabr ayının 2-də Alyans Bosniya və Herseqovinanın müdafiə sektoru islahatları sahəsində üzləşdiyi problemlər və gələcəkdə sülh naminə tərəfdaşlıq proqramına üzv olmasına hazırlamağa yardım etmək məqsədi ilə bu ölkədə daimi hərbi iştirak olaraq bir hərbi qərargah yaratdı. Bu qərargahın həmçinin terrorizmə qarşı mübarizə, öz imkanları daxilində keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının dəstəklənməsi, müharibə cinayətlərində ittiham olunan şəxslərin saxlanması və Aİ ilə kəşfiyyat mübadiləsi kimi operativ dəstək tapşırıqları da vardır.

NATO Bosniya və Herseqovina ilə konkret Təhlükəsizlik Əməkdaşlığı Proqramı çərçivəsində təşkil olunmuş fəaliyyətlər vasitəsi ilə bu ölkənin sülh naminə tərəfdaşlıq və Avro Atlantika Tərəfdaşlıq Şurasına üzv olmaq yolunda səylərinə öz praktiki dəstəyini göstərməkdə davam etdi. 2004-cü il proqramı üzrə fəaliyyətlərə hökumətin 2005-ci il üzrə müdafiə büdcəsinin layihəsinin hazırlanması və 2006-2007-ci illər üzrə müvafiq hazırlıqların aparılması üzrə seminarlar daxil idi. Eyni şəkildə, 2004-cü ilin iyul ayında Oberammerqaudakı NATO Məktəbində keçirilmiş əlavə bir seminarda

praktiki əməkdaşlığı və Bosniya və Herseqovinanın yeni yaradılmış müdafiə strukturlarını möhkəmləndirmək yolları nəzərdən keçirildi. 2005-ci ildə ölkənin ehtiyaclarına uyğun olaraq tərtib edilmiş və hərbi və mülki heyəti SNT proqramında iştirak imkanları və tələbləri ilə tanış etməyə xidmət edən yeni proqram hazırlandı.

14-cü Fəsil

KOSOVO MÜNAQİŞƏSİ VƏ KFOR-UN ROLU

Bu mübahisəli əyalətdə sülh və təhlükəsizliyin bərqərar olunması üzrə geniş beynəlxalq cəhdlərin dəstəyi olaraq NATO 1999-cu ilin iyunundan bəri Kosovoda sülhməramlı əməliyyata rəhbərlik edir. NATO-nun rəhbərlik etdiyi Kosovo Qüvvələri və ya KFOR qatı açılmamış insanlıq faciəsinə son qoymaq üçün 1999-cu ilin martında Alyans tərəfindən 78 günlük hava hərbi əməliyyatının həyata keçirilməsi ilə yaradılmışdı. NATO-nun sayca ikinci olan bu hərbi kompaniyası əyalətdə bir ildən artıq davam edən döyüşlər və münaqişəni diplomatik yolla həll etmək üzrə beynəlxalq cəhdlərin uğursuzluğundan sonra başlandı.

1989-cu ildə Belqradın əyalət üzərində birbaşa idarəçiliyi tətbiq etməsindən sonra gərginliyin yığılması ilə 1998-ci ilin fevralında Serb hərbi və polis qüvvələri ilə Kosovo Albanları arasında toqquşmalar başladı. Beynəlxalq ictimaiyyət artmaqda olan münaqişə, onun humanitar nəticələri, münaqişənin digər ölkələrə yayılma riski, Yuqoslaviya Prezidenti Slobodan Miloşeviçin böhranı dinc yolla həll etmək səylərini hesaba almaması və Kosovo alban yaraqlılarının sabitliyi pozucu rolundan narahat olmağa başlamışdı.

1998-ci ilin 13 oktyabrında Şimali Atlantika Şurası diplomatik səylərə dəstəyini göstərmək və Miloşeviç rejimini öz qüvvələrin Kosovodan geri çəkmək və zorakılığa son qoymaq və qaçqınların öz evlərinə qayıtmasında əməkdaşlığa məcbur etmək üçün NATO-ya hava hücumu hərəkatına keçməyə icazə verdi. Sonrakı diplomatik səylər nəticəsində prezident Miloşeviç tabe oldu və ölkədə hava hərbi hücumlarına son qoyuldu. Münaqişəyə son qoymağa çağıran, o cümlədən, ATƏT tərəfindən Kosovoya Müşahidə Missiyası, NATO-nun hava müşahidəsi missiyası, gələcəkdə yaşana biləcək münaqişə zamanı Müşahidə Missiyası üzvlərinin köçürülməsinə kömək etmək üçün NATO hərbi birliyinin yaradılmasını ehtiva edən Birləşmiş Millətlərin Təhlükəsizlik Şurasının qətnaməsinə dəstək olaraq növbəti tədbirlər görüldü.

Kosovoda vəziyyət 1999-cu ilin əvvəllərində yenidən gərginləşdi, hər iki tərəf təxribat aktları həyata keçirir, Serb hərbçiləri və polisi qüvvədən qeyri-proporsional istifadə edirdi. 15 yanvarda Racak kəndində 40 silahsız mülki vətəndaşın öldürülməsi buna nümunədir. Yeni beynəlxalq cəhdlər münaqişəni dinc yolla həll etmək üçün yeni siyasi hərəkətverici ideyalar irəli sürdü ki, bu da beynəlxalq vasitəçilərin nəzarəti altında tərəflərin London və Parisdə danışıqlara getməsinə səbəb oldu. Lakin danışıqlar nəticə vermədi. 1999-cu ilin martında Serb hərbi və polis qüvvələri əməliyyatlarını daha da

genişləndirərək əraziyə əlavə qoşun hissələri və tanklar gətirdi ki, bununla da ümumiyyətlə razılığa gəlmək üçün heç bir vasitə qalmadı. On minlərlə insan zülmlə qarşılaşaraq öz evlərini tərk edərək canlarını qurtarmağa çalışdılar. Prezident Miloşoviçi bu siyasətindən yayındırmaq üçün ən son uğursuz cəhd Birləşmiş Ştatların Səfiri Riçard Holburk tərəfindən edildi. Bütün diplomatik dairələrin səbri tükəndi və sonda NATO 1999-cu ilin 24 martında Miloşeviç rejiminə qarşı yenidə hava hərbi hücumu təşkil etdi.

NATO-nun siyasi məqsədləri bütün hərbi əməliyyatlara, zorakılıq və zülmə səssiz bir şəkildə son qoymaq, Kosovodan hərbi heyəti, polis və yarımhərbi qüvvələri geri çəkmək, orada yalnız beynəlxalq hərbi qüvvələri saxlamaq, bütün qaçqın və məcburi köçkünləri qeyd-şərtsiz təhlükəsiz bir yolla geri qaytarmaq, onlara humanitar yardım təşkilatlarından əngəlsiz istifadə şəraiti yaratmaq və bunları həyata keçirmək üçün beynəlxalq hüquq və Birləşmiş Millətlərin Nizamnaməsinə uyğun olaraq Kosovo üzrə siyasi saziş razılaşdırmaqdan ibarət idi.

İyunun 3-də Rusiya və Avropa Şurası tərəfindən irəli sürülən diplomatik səylərə əməl edərək iyunun 9-da NATO və Yuqoslaviya Federal Respublikası arasında Hərbi Texniki Müqavilə imzalandı. Ertəsi gün Yuqoslav hərbi qüvvələrinin Kosovodan çıxarılması təsdiqləndikdən sonra NATO hava hərbi hücumunun dayandırılmasını elan etdi. İyunun 10-da Birləşmiş Millətlərin Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsi Yuqoslaviya Federal Respublikasının münaqişənin siyasi həlli prinsiplərinin qəbulunu, o cümlədən, qısa müddət ərzində zorakılığa son qoymaq və özünün hərbi, polis və yarımhərbi qüvvələrinin geri çağırmasını və NATO-nun əhəmiyyətli ölçüdə iştirakı ilə effektiv beynəlxalq mülki və hərbi iştirakı alqışladı.

NATO başçılığı altında Kosovo Hərbi Qüvvələri

KFOR-un ilk dəstələri 1999-cu ilin 12 iyununda Kosovoya daxil oldu. Artıq iyunun 20-də Serb hərbi qüvvələrinin geri çəkilməsi prosesi başa çatdırılmışdı. KFOR-un öhdəsinə düşən tapşırıq qaçqın və məcburi köçkünlərin geri qaytarılması və ya başqa yerlərə yerləşdirilməsi, yenidənqurma və ərazinin minadan təmizlənməsi, tibbi yardım, etnik azlıqların təhlükəsizliyini təmin etmək, ata-babadan qalma tarixi ərazilərin mühafizəsi, təhlükəsizliyin təmini və ictimai asayişin yenidən bərpası, sərhədlərin təhlükəsizliyinin təmin edilməsi, sərhəd zonasında silah qaçaqmalçılığı hallarının qarşısının alınması, Kosovo miqyasında silah, döyüş sursatı və partlayıcı maddələri ilə bağlı ümumi amnistiya, silahların məhvi, mülki obyektlərin yaradılmasına kömək etmək, qayda və qanunun tətbiqi, burada məhkəmə və cəzalandırma

sistemi tətbiq etmək, əyalətin siyasi, iqtisadi və ictimai həyatının seçicilik hüququ və digər bu kimi məsələlərinə nəzarət etməkdən ibarət idi.

KFOR ilk olaraq NATO-ya üzv, tərəfdaş və qeyri-NATO ölkələrindən vahid komanda və nəzarət altında birləşmiş 50000 nəfərlik şəxsi heyətdən ibarət idi. 2002-ci ilin başlanğıcında KFOR təqribən 39000 nəfəra qədər azaldıldı. Təhlükəsiz bir mühitdə əldə edilən irəliləyişlər NATO-ya ilin sonunda və 2003-cü ilin iyununda heyətin tərkibini daha da azaltmaq və onu 26000 nəfərlik heyətə çevirmək imkanı verdi, 2003-cü ilin sonunda isə bu göstərici 17500 nəfərə çatdırıldı. Sabitliyin bərqərar olduğu, etnik tərkibcə zəngin və demokratik 2004-cü ilin martında Alban və Serblər arasında yenidən başlayan zorakılıq və KFOR qoşunlarına edilmiş hücumla Kosovoda inkişafa gedən yolda ləngimə baş verdi. NATO-nun belə hallar üçün nəzərdə tutduğu plana uyğun olaraq mövcud KFOR qüvvələrinin gücünü 2500 nəfərlik qoşun əlavə etməklə artırıldı.

Kosovonun statusu məsələsinin həllinin gecikməsi və Alyansın KFOR–la bağlı bəyan etdiyi öhdəliyin qoşunun sayca tərkibində nəzərəçarpacaq azaltmağa gətirib çıxaracağı inandırıcı deyil. Bununla yanaşı, vəziyyətin normallaşması üçün qaçqınların geri qayıtmasına icazə verilməsi və iqtisadi islahatların həyata keçirməsi BMT tərəfindən zəruri şərtlər kimi müəyyən edilmişdir. İstanbul Sammitində NATO hökumət və dövlət başçıları 2004-cü ilin martında yenidən baş qaldırmış zorakılığa qarşı etirazlarını bildirdilər və Birləşmiş Millətlərin Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsinə uyğun olaraq təhlükəsiz, sabit və etnik tərkibcə zəngin Kosovo ilə bağlı öz öhdəliklərini bir daha vurğuladılar. Onlar həmçinin razılaşdırılmış “Statusdan öncə Standartlar” siyasəti və bununla bağlı Standartlar İcmalının vacibliyini bir daha təsdiqlədilər.

2005-ci ilin sonu üçün nəzərdə tutulmuş Standartların Tətbiqi Prosesini müfəssəl olaraq nəzərdən keçirməmişdən qabaq NATO müdafiə nazirləri 2004-cü ilin dekabrında Brüsseldə keçirilmiş toplantıda 2005-ci il ərzində də möhkəm KFOR profilini qoruyub saxlamaq haqqında razılığa gəldilər. 2005-ci ilin avqustunda Şimali Atlantika Şurası mövcud dörd briqadanı beş qrup şəklində təşkil edərək KFOR-u yenidən qurmaq barədə qərar verdi. Bu islahat tədricən həyata keçiriləcəkdi və məsələn, Kosovonun müxtəlif ərazilərində yerləşdirilmiş hərbi birləşmələrin trans-sərhəd yerdəyişməsi üçün çevikliyi təmin edəcəkdi. Briqadadan qruplara keçid əsas vurğunu daha çox kəşfiyyat məlumatlarına əsaslana əməliyyatlara və informasiya toplanmasında yerli polis orqanları və əhali ilə sıx işləyən qruplara yönəltməyə şərait yaradır.

Qonşu ölkələrə yardım

Kosovoda yaşanan münaqişə nəticəsində region ölkələri böyük humanitar, siyasi və iqtisadi problemlərlə qarşılaşdılar. Kosovo böhranının ən kəskin dövründə 230 000-dən çox qaçqın keçmiş Yuqosaviya Respublikası Makedoniyaya, 430 000-dən çoxu Albaniyaya və təxminən 64 000-i Çernoqoriyaya üz tutdu. Təqribən 21 500 nəfər Bosniya və Hersoqovinaya və 61 000-dən çoxu isə digər ölkələrə köçürüldü. Kosovonın özündə isə 580 000 insan evsiz-eşiksiz qaldı. Ərazidə humanitar vəziyyəti yüngülləşdirmək üçün NATO hərbi qüvvələri min tonlarla qida və avadanlıq gətirdi. 1999-cu il mayın sonunda əraziyə 4666 tondan çox ərzaq və su, 4325 ton digər məhsullar, 2624 ton çadır və təxminən 1600 ton tibbi ehtiyatlar gətirildi.

Keçmiş Yuqoslaviya Respublikası Makedoniyada NATO qoşunları qaçqın düşərgələri, qaçqın qəbulu mərkəzləri və təcili qidalandırma məntəqələri yaradır və əraziyə yüz min tonlarla digər humanitar yardım vəsaitləri gətirirdi. NATO eyni növ yardım göstərmək üçün öz əsaslı qüvvələrini Albaniyada da yerləşdirdi və Birləşmiş Millətlərin Qaçqınlar üzrə Ali Komissarlığına qaçqınları təhlükəsiz bir yolla digər ölkələrə, xüsusilə bir sıra NATO üzv ölkələrinə köçürmək üçün uçuşlarla bağlı məsələlərdə yaxından köməklik göstərdi. Bu uçuşların təşkili üçün NATO-ya üzv ölkələrdən toplanmış təyyarələr də əlavə edilmişdi. 1998-ci ilin iyununda NATO Təbii Fəlakətlərə Reaksiya üzrə Avro-Atlantika Koordinasiya Mərkəzinin əsası (EADRCC) qoyuldu və həmçinin Birləşmiş Millətlərin Qaçqınlar üzrə Ali Komissarlığının yardım əməliyyatlarında fəal rol oynadı.

NATO Albaniya hökumətinə Sülh Naminə Tərəfdaşlıq (PfP) proqramında və bu proqramın tətbiqi üsulunda kömək etmək üçün 1998-ci ilin dekabrından 2002-ci ilə qədər Tiranada Sülh Naminə Tərəfdaşlıq proqramının qərargahını yaratdı. 2002-ci ilin iyununda qərargahla yanaşı NATO Albaniyaya Baş Hərbi Nümayəndəlik təyin etdi. Baş Hərbi Nümayəndəliyin vəzifələrinə təhlükəsizlik sahəsində islahatın hərbi tərəflərini həyata keçirməkdə Tirana ilə məsləhətləşmək, o cümlədən, Albaniya silahlı qüvvələrinin yenidən təşkili, Albaniyanın iştirak etdiyi Üzvlüyün Fəaliyyət Planının (MAP) hərbi tərəfləri, Sülh Naminə Tərəfdaşlıq üzrə Planlaşdırma və Təhlil Prosesi (PARP) kimi məsələlər daxil idi. NATO-nun Tiranadakı qərargahına bu tapşırıqların tətbiqini həyata keçirməyə yardım edəcək NATO Məşvərətçi Qrupu daxil idi. NATO-nun Tiranadakı qərargahı üzərinə qoyulmuş daha bir tapşırıq regionda NATO-nun həyata keçirdiyi əməliyyatlarda iştirak etmək idi. NATO əməliyyatlarına Albaniyanın özü tərəfindən də böyük töhfələr edilmişdir. Albaniya sərhəd polisi, hərbi birləşmələri və KFOR arasında geniş təhlükəsizlik məsələlərinə dair əməkdaşlıq, onun ərazisi üzərindən edilən uçuşlara nəzarət və kəşfiyyat imkan verilməsi də bunu göstərir. 2009-cu ilin aprel ayının 3-4-də Alyansın Strasburq-Kel sammitində Albaniya NATO-ya tam hüquqlu üzv kimi qəbul edilmişdir.

15-ci Fəsil

NATO-NUN KEÇMİŞ YUQOSLAVİYA RESPUBLİKASI MAKEDONIYADA* ROLU

Skopye hakim dairələrinin xahişi ilə hökumət və etnik Alban üsyançıları arasında gələcəkdə böyük miqyaslı müharibəyə səbəb ola biləcək artmaqda olan münaqişəni aradan qaldırmağa kömək etmək üçün NATO Keçmiş Yuqoslaviya Respublikası Makedoniya ilə məşğul olmağa başladı.

2001-ci ilin iyununda keçmiş Yuqoslaviya Respublikası Makedoniyanın Prezidenti Boris Trajkovski Milli Azadlıq Ordusunu və ölkədə fəaliyyət göstərən etnik Alban qruplarını tərksilah etməkdə NATO-nun köməyini istədi. Cavab olaraq, Şimali Atlantika Şurası ikili yanaşma irəli sürdü; edilən hücumlara öz etirazını bildirərək, hökumətin ekstremist qruplara qarşı fəaliyyətində onlara dəstək olmaq üçün tədbir gördü, eyni zamanda, hökuməti öz hərbi qüvvələrinin sayını azaltmağa, etnik Albanların cəmiyyətdə və siyasətdə iştirakını artırmaq üçün konstitusional islahatlar qəbul etməyə çağırırdı.

Tərəflər sülh və atəşkəsə aparan siyasi dialoqda iştirak etdilər. 2001-ci ilin 13 avqustunda Ohrid Çərçivə Sazişinin imzalanması NATO qoşunlarının 2001-ci ilin 27 avqustunda ölkə ərazisinə girməsinə və daxili islahatlara şərait yaratdı. Kod adı Vacib Məhsul Yığımı Əməliyyatı olan 30 günlük missiyanın vəzifəsi Milli Azadlıq Ordusu tərəfindən könüllü olaraq toplanmış bütün silahları toplamaq və məhv etməkdən ibarət idi. Əməliyyata 3500 nəfərlik NATO qoşunu cəlb edilmişdi və nəticədə təxminən 3875 silah və tərkibində mina və partlayıcı maddələr olan 397 600 digər vasitələr toplanıldı. İlin sonunda Parlament sülh müqaviləsinə uyğun olan 15 konstitusional düzəliş qəbul etdi.

2001-ci ilin sentyabrında Prezident Traykovski keçmiş Yuqoslaviya Respublikası Makedoniyada sülh planının tətbiqinə nəzarət edən Avropa Şurası və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Şurasından olan beynəlxalq müşahidəçilərin təhlükəsizliyini təmin etmək üçün növbəti hərbi qüvvələrin ölkə ərazisinə gəlməsi istədi. NATO-ya üzv olan ölkələrdən təşkil edilmiş 700 nəfərlik qoşundan ibarət, Almaniyanın başçılığı altında “Kəhrəba Tülkü” kod adlı əməliyyatı kimi tanınan növbəti missiya artıq ölkədə olan təxminən 300 nəfərlik birliyi daha da möhkəmləndirildi. 2001-ci il sentyabrın 27-də fəaliyyətə başlayan üç aylıq mandat sülh planının tətbiqinə nəzarət edən beynəlxalq müşahidəçilərin təhlükəsizliyini qorumağa kömək edirdi və bu proses sonralar daha geniş vüsət aldı.

Prezident Trajkovskidən gələn rəsmi xahişə cavab olaraq NATO keçmiş Yuqoslaviya Respublikası Makedoniyaya dəstək olmaqda davam etməyə razılıq bildirdi və bu məqsədlə 2002-ci ilin 16 dekabrında Müttəfiqlərin Ahəngi Əməliyyatı adlı yeni missiyanın əsasını qoydu. Şimali Atlantika Şurası qərar verdi ki, Kəhrəba Tülkü Əməliyyatına sona verilə bilər, amma sabitliyin pozulması riskini aşağı salmaq əlavə beynəlxalq qüvvələrə ehtiyac var. Missiya beynəlxalq müşahidəçilər və məşvərətçi qrupun təhlükəsizliyini təmin etməkdə, bütün ölkə ərazisində təhlükəsizlik məsuliyyətini yerinə yetirməkdə hökumətə yardım edən operativ elementlərdən ibarət idi.

NATO-nun rəhbərlik etdiyi Müttəfiqlərin Ahəngi Əməliyyatı 2003-cü ili martında Avropa İttifaqına təhvil verilməsinə qədər davam etdi. NATO təhlükəsizlik sektoru islahatı və ölkənin Üzvlüyün Fəaliyyət Planında iştirakı ilə bağlı hökumətə yardım və məsləhət vermək üçün ölkədə özünün mülki və hərbi qüvvələrinin mövcudluğunu sonralar da qoruyub saxladı.

NATO-nun Skopyedəki bu məqsədlə yaradılmış baş qərargahı təxminən 120 nəfərlik hərbi və mülki heyətdən ibarətdir. Bu, NATO-nun Baş Hərbi Nümayəndəsinin rəhbərliyi altında fəaliyyət göstərən qeyri-taktiki qərargahdır. Böyük hərbi nəqliyyatın və hərbi təchizat marşrutunun istifadəsi nəticəsində yollar və körpülərin sıradan çıxması, zərərin miqdarının artmasını görən NATO yenidənqurma və digər mülki mühəndislik layihələri həyata keçirməklə ölkəyə öz töhfəsini verdi. NATO-nun burada fəaliyyət göstərən qərargahı Skopye Universitetinin mülki mühəndislik şöbəsi ilə əməkdaşlıq şəraitində bu səylərin koordinasiyasında böyük rol oynadı.

16-cı Fəsil

NATO-NUN ƏFQANISTANDA ROLU

NATO, 2003-cü ilin avqustundan bəri Əfqanıstanda sülhüqoruma səylərinə rəhbərlik edir və bununla, ölkədə nümayəndəli hökumətin qurulması və davamlı sülh və təhlükəsizliyin təmin olunması üçün şəraitin yaradılmasına yardım edir. Bu əsaslı əməliyyat NATO-nun Avro-Atlantika məkanından kənarda həyata keçirdiyi birinci əməliyyatdır. İlkin olaraq, Alyansın missiyası Kabil və ətraf ərazilərdə təhlükəsizliyin təmin olunması ilə məhdudlaşdırılmışdı, hal-hazırda isə o, Əyalət Yenidənqurma Qrupları (PRT-Provincial Reconstruction Team) vasitəsilə ölkənin digər hissələrini əhatə etmək üçün genişləndirilir. Xüsusilə, NATO, keçirdiyi əməliyyatlar çərçivəsində təhlükəsizliyin qorunması, mərkəzi hakimiyyətin bütün ölkə ərazisinə genişləndirilməsi, eləcə də azad və ədalətli seçkilər, qanunun aliliyi və yenidənqurma prosesi üçün təhlükəsiz və etibarlı mühitin yaradılması üçün Əfqanıstan hökumətinə yardım etməyə çalışır.

Əl Qaidə və Talibanın süqutundan sonra, ölkənin yenidən qurulması məqsədilə əfqan liderlər 2001-ci ilin dekabrında Almaniyanın Bonn şəhərində beynəlxalq dəstəklə görüş keçirdilər. Yeni hökumətin strukturu Əfqan Keçid Hökuməti formasında təşkil edildi. Əfqan Keçid Hökuməti və Birləşmiş Millətlər Təşkilatının Əfqanıstana Yardım Missiyasının paytaxt Kabil və ətraf ərazilərdə təhlükəsiz fəaliyyəti üçün BMT Təhlükəsizlik Şurasının 1386, 1413 və 1444 saylı qətnamələrinə əsasən, Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF-International Security Assistance Force) yaradıldı. ISAF-ın komandiri və Əfqan Keçid Hakimiyyəti arasında imzalanan müfəssəl Hərbi-texniki Saziş ISAF əməliyyatları üçün növbəti təlimatları müəyyən etdi.

ISAF-a əvvəlcə Birləşmiş Krallıq, sonra isə Türkiyə rəhbərlik edirdi. 2003-cü ilin fevralında Almaniya və Hollandiya birlikdə ISAF-a rəhbərliyi öz öhdələrinə götürdülər və dəstək üçün NATO-ya müraciət etdilər. 2003-cü ilin avqustunda NATO ISAF-a rəhbərliyi öz üzərinə götürdü və bu, hər altı aydan bir ISAF-a rəhbərlik etmək istəyən və qadir olan ölkənin müəyyən edilməsi problemini aradan qaldırdı.

ISAF-ın beynəlxalq tərkibi dəyişmişdir, amma o, yaranandan bəri Əfqanıstanın təmin etdiyi qüvvələrlə yanaşı, NATO-nun bütün 28 üzv-ölkəsi, eləcə də Azərbaycan, Finlandiya, Gürcüstan, İrlandiya, Yeni Zelandiya, İsveç, İsveçrə və keçmiş Yuqoslav Respublikası Makedoniyanın qüvvələrini və ya töhfələrini əhatə etmişdir.

Şimali Atlantika Şurası, NATO üzvü olmayan, qüvvə töhfə verən ölkələrlə məsləhətləşərək, ISAF-ın siyasi kursunu müəyyən edir. NATO-nun Müttəfiqlərin Əməliyyatlar üzrə Komandanlığı (Belçikanın Mons şəhərində fəaliyyət göstərən Müttəfiq Qüvvələrin Avropada Ali Baş Qərargahında yerləşir) əməliyyatın Baş Qərargahı, Hollandiyanın Brunsum şəhərində yerləşən Müttəfiqlərin Birləşmiş Qüvvələr Komandanlığı isə əməliyyat qərargahı funksiyalarını yerinə yetirir.

İlk əvvəl, ISAF-ın Kabildəki Qərargahının özəyi Almaniyanın Haydelberq şəhərində yerləşən Birləşmiş Komanda Mərkəzi əsasında formalaşdırıldı və NATO ISAF Qüvvələrinin ilk komandanı bu Mərkəzdən oldu. Daha sonra, komandanlıq Kanadaya, Fransa komandanlığı altında Eurocorps-a (Avropa İttifaqı və NATO üzvlərinin daxil olduğu çoxmillətli ordu korpusu), Türkiyəyə və İtaliyaya keçdi. Mülki dəstək elementləri ilə birlikdə ISAF-ın ümumi qüvvəsi təxminən 8000 nəfərdən ibarət heyətdən ibarətdir. ISAF-ın missiya qərargahına ən azı 2008-ci ilin fevralına qədər uzun müddətli dəstəyin təmin olunması məqsədilə rotasiya planı hazırlanmışdır.

2004-cü ilin yanvarında, NATO, Əfqanıstandakı fəaliyyətinin siyasi və hərbi aspektlərini inkişaf etdirmək tapşırığı ilə Türkiyənin keçmiş Xarici İşlər Naziri Hikmət Çətini bu ölkəyə Ali Mülki Nümayəndə təyin etdi. Ali Mülki Nümayəndə Şimali Atlantika Şurasının təlimatları əsasında və ISAF Hərbi komandiri, BMT-nin Əfqanıstana Yardım Missiyası, eləcə də Əfqanıstanın hakimiyyət orqanları və ölkədə işləyən digər beynəlxalq orqanlarla sıx əlaqələndirmə şəraitində fəaliyyət göstərir.

ISAF-ın genişlənməsi

2003-cü ilin oktyabrında BMT Təhlükəsizlik Şurasının 1510 saylı qət-naməsi ISAF-a paytaxt hüdudlarından kənar ərazilərdə Əfqanıstan hökumətinə dəstək olmaq üçün geniş imkan yaratdı. 2003-cü ilin dekabrında Şimali Atlantika Şurası NATO-nun Avropa Qüvvələrinin Ali Komandanına genişləndirmə prosesini başlamaq üçün səlahiyyət verdi.

Əyalət Yenidənqurma Qrupları (PRT) bu prosesin əsasını təşkil edir. Bu qruplar beynəlxalq mülki və hərbi heyətdən ibarət mülki-hərbi tərəfdaşlıq formasında qurulmuşdur və onların hərbi elementləri ISAF-ın komanda strukturuna daxildir. Bu qrupların başlıca vəzifəsi Əfqanıstan hökumətinə öz hakimiyyətini bütün ölkə üzərində bərqərar etməyə və bu ərazilərdə təhlükəsizliyin təmin olunması işini sürətləndirməkdə kömək etməkdir. Bura yerli hakimiyyət orqanları ilə əlaqələrin qurulması, əməliyyatın xüsusi sahələrində təhlükəsizliyin gücləndirilməsi, təhlükəsizlik sahəsində islahat

tədbirlərinə dəstək olmaq və əyalətlərdə yenidənqurma səylərinin həyata keçirilməsi işini sürətləndirmək üçün bütün vasitə və bacarıqlardan istifadə etmək daxildir.

PRT, faydalı və səmərəli vasitələrin tətbiqi ilə daha sağlam mühitin yaradılmasına yardım etməyə, ölkələrin, beynəlxalq təşkilatların və qeyri hökumət təşkilatlarının yenidənqurma işində Əfqanıstan hökumətinə dəstək vermək istiqamətindəki vəzifələrini yerinə yetirməsinə imkan verən ilə yeni bir konsepsiyadır.

2003-cü ilin dekabrında ISAF Qunduz əyalətində Almaniya idarəçiliyi ilə pilot əməliyyatı əmrini və ilk genişləndirmə işini öz üzərinə götürdü. 2004-cü ilin sonunda ISAF Əfqanıstanın şimalında Baglan, Faziabad, Qunduz, Mayhaneh və Mazar-e-Şərif ərazilərində beş PRT hərbi tərkib hissələrini yerləşdirmək əmrini öz üzərinə götürdü. NATO 2005-ci ilin ortalarında həmçinin ölkənin qərbində -Herat, Fərah, Çəqçəran və Qaleh-nouda NATO özüllü PTR-ın ümumi sayını doqquza çatdıraraq, dörd PTR məsuliyyətini də öz üzərinə götürdü ki, bu da Əfqanıstan ərazisinin təxminən 50 faizini əhatə edirdi. NATO həmçinin Əfqanıstanın cənub və şimal hissələrinə Birləşmiş Ştatlar tərəfindən idarə olunan Azadlığı Dəstəkləyən Əməliyyatla böyük sinergiyanı zəruriləşdirə bildiyi halda əlavə PTR hissələri göndərmək qərarına gəldi.

PTR-ın tərkibi və coğrafi hüdudları NATO hərbi hakim dairələri tərəfindən müəyyən edilir və idarə edən ölkələr, Əfqan hakim dairələri fəaliyyət göstərdiyi əyalətlərdə xüsusi vəziyyətlə əlaqəli məsələlərdə Birləşmiş Millətlər Təşkilatının Əfqanıstanda Yardım Missiyası ilə yaxın məsləhətləşmələr aparırdı. Fərdi PTR–nın xüsusi məqsədləri yerli təhlükəsizlik vəziyyəti, yenidənqurma işləri ilə bağlı və digər beynəlxalq agentliklərin ölkədə mövcudluğu ilə bağlı məsələlər də nəzərə alınırdı.

ISAF-ın digər tərkib hissələri

PTR-ya əlavə olaraq ISAF-ın üç əsas vacib tərkib hissələri mövcuddur. Onlar aşağıdakılardır:

- Qabul Çoxmillətli Briqadasını idarə edən ISAF-ın baş qərargahı öz məsuliyyət dairəsinə aid olan əməliyyat tapşırıqlarına da başçılıq edir, Əfqan hakim dairələri, hökumət və qeyri-hökumət təşkilatları, Əfqanıstanda ABŞ özüllü koalisiya qüvvələri (Azadlığı Dəstəkləyən Əməliyyat) ilə qarşılıqlı əlaqədə olub Birləşmiş Millətlər Təşkilatının işinə kömək edir;

- ISAF-ın hərbi qərargahı olan Qabul Çoxmillətli Briqadası mülki-hərbi əməkdaşlıq əməliyyatlarına ən yeni əsaslarla idarə, nəzarət və planlaşdırma işləri üçün məsuliyyət daşıyır; və
- Kabul Əfqan Beynəlxalq Hava limanı ISAF-ın köməyi ilə Əfqan Mülki Aviasiya və Turizm Nazirliyi tərəfindən idarə olunur. NATO-nun digər milli və beynəlxalq orqanların köməyi ilə Kabul hava limanının bərpası ilə əlaqəli olan başqa vəzifəsi də mövcuddur.

ISAF həmçinin Konstitusional Loya Jirqa və ya ali şuranın, təxminən 500 Əfqan başçının 2003-cü ilin dekabrından 2004-cü il yanvarın əvvəlinə qədər idarə edilməsinə və Əfqan hakim dairələrinin Qabulda təhlükəsizliyi təmin etmək işinə kömək etdi. Yeni konstitusiyanın təsdiq edilməsi Loya Jirqa tərəfindən razılaşdırıldı və bu, demokratik sahələrin yaradılması və ədalətli seçkilərin keçirilməsi üçün şərait yaratdı. Əfqan Prezidenti Həmid Kərzainin rəsmi xahişinə cavab olaraq ISAF həmçinin 2004-cü ilin payızında keçirilən prezident, parlament və yerli dairələr üzrə seçkilər dövründə də öz yardımını əsirgəmədi.

Prezident seçkilərinə rəhbərlik etmək üçün başlıca məsuliyyət BMT-nın Əfqanıstanda Yardım Missiyasının (UNAMA) köməyi ilə Əfqan hakimiyyətinə aid idisə, Marzar-e-Şərifdə yerləşdirilən İspan Çevik Reaksiya Hərbi Qüvvələri və Kabulda yerləşdirilən İtaliyan hərbi ehtiyat qüvvələri daxil olmaqla əlavə qüvvələr də təsis edilmişdi. Əlavə Niderland və Birləşmiş Krallıq təyyarə və vertolyot dəstəyi ilə təmin edildi. Birləşmiş Ştatlar taboru tələb olunan ərazidə tez bir zamanda yerləşdirilmək qabiliyyətində idi. Ərazidə yerləşən BMT, AB və ATƏT kimi beynəlxalq agentliklər və digər milli təşkilatlar arasında yaxın əməkdaşlıq mövcud idi.

2001-ci ilin dekabrında bağlanmış Bonn Müqaviləsi beş vacib sahədə sabitlik, sülh və əminamanlığı təmin etmək, daha dəqiq desək, narkotiklərlə mübarizə, məhkəmə islahatı, tərksilah edilmə, tərxis olunma və yenidən birləşmə, Əfqan Milli Ordusunun və polis qüvvələrinin təlim keçməsi kimi vacib islahatlar keçirilməsini nəzərdə tutur. Böyük Səkkizliklərdən olan əsas ianəçi ölkələr Əfqan hakim dairələrinə bu sahələrdə təhlükəsizlik barədə islahatlar proqramı həyata keçirməyə kömək edirdi. Yaponiya tərxis, tərksilah edilmə və yenidən birləşmə işlərini həyata keçirən başlıca ölkə idi. ABŞ Əfqan Milli Ordusuna təlim keçməkdə beynəlxalq səylər həyata keçirirdi. Almaniya Əfqan Milli Polisinə təlim keçməyi öz üzərinə götürmüşdü. İtaliya isə məhkəmə islahatını həyata keçirirdi. Birləşmiş Krallıq narkotik maddələrin istehsalı və satışına qarşı beynəlxalq mübarizə səyləri həyata keçirən ölkə idi.

NATO-Rusiya əməkdaşlığı çərçivəsində birgə pilot təlimi layihəsi də həyata keçirilirdi ki, Əfqan narkotik ticarətinə qarşı daha təsirli mübarizə aparmaq üçün regionda güclü qüvvələrin yaradılmasına kömək etsin.

Tərk-silah, tərxis edilmə və yenidən birləşdirmə işləri ISAF mandatının tərkib hissəsi olmadığı vaxtlarda belə onun tətbiqi ISAF əməliyyatlarına, xüsusilə də Kabul ətrafı ərazilərdə öz əhəmiyyətli təsirini göstərmişdir. 2004-cü ilin martında paytaxtda xalq qeyri nizami qoşununun ixtiyarında olan tanklar, artilleriya hissələri, yer-yer tipli mərmilər, raket buraxıcı qurğu sistemləri kimi ağır silahların təhlükəsiz şəraitdə saxlanılmasını təmin etmək üçün Kabuldan kənar ərazidə hərbi şəhərciyin əsasının qoyulmasıyla bağlı tədbir baş verdi. Əfqanıstan Müdafiə Nazirliyi tərəfindən əsası qoyulan hərbi şəhərcik ikili əmr sistemiylə fəaliyyət göstərir, Nazirliyin və ISAF komandirinin icazəsi olmadan bu silahların yerinin dəyişdirilməsi hallarının qarşısını alır. Buna bənzər təşəbbüs Pəncar vadisində də tətbiq edilmiş və tərksilah, tərxis və yenidən birləşdirmə prosesləri ölkədəki silahlı qruplaşmalara həvalə edilmiş ki, Əfqanıstan ərazisində yayılan çoxlu sayda silahları xüsusi bir proqram hazırlamaqla bir yerdə toplanmasını təmin etsin.

17-ci Fəsil

NATO-NUN İRAQDA ROLU

2003-cü ilin sonundan bəri İraq əleyhinə ABŞ tərəfindən rəhbərlik edilən hərbi kompaniyanın başa çatması və Səddam Hüseyn rejiminə son qoyulmasından sonra NATO İraqda keçid prosesinə kömək etmək üçün müxtəlif yollarla özünü bu işə cəlb etdi. Alyans İraqa effektiv silahlı qüvvələr yaratmaq və öz təhlükəsizliyini təmin etməyə yardım etmək məqsədi ilə bu ölkənin təhlükəsizlik qüvvələrinə ölkə daxilində və ölkədən kənarda təlim keçir və təhlükəsizlik institutlarının inkişafına yardım edir. NATO İraqa həmçinin ləvazimat və avadanlıq yardımları da göstərir və Polşaya İraqdakı məsuliyyət sahəsində komanda fəaliyyətini həyata keçirməkdə yardım edir.

2003-cü ilin mayında Şimali Atlantika Şurası Polşaya kəşfiyyat, arxa cəbhənin işinin təşkili və həyata keçirilməsi, hərəkət koordinasiyası, güc toplanılması və təhlükəsiz əlaqə yaratmaq kimi məsələlərdə kömək etmək haqqında qərar verdi. Qərarın Almaniya və Hollandiyanın Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri üzərində rəhbərliyi öz üzərilərinə götürmələri ilə bağlı onlara NATO tərəfindən yardım göstərilməsi barədə qəbul edilmiş qərarla oxşar əsasda qəbul edilmişdir.

Avropada Müttəfiqlərin Ali Baş Qərargahında Polşanın, 2001-ci ilin iyununda NATO-ya üzv olan digər ölkələrin və Tərəfdaş ölkələrin iştirakı ilə keçirilən Hərbi Qüvvələrə Baxış Konfransında qüvvələrin ehtiyac və tələbləri müzakirə edilmiş və onların icrası üçün razılığa gəlinmişdir. Konfrans istənilən NATO əməliyyatı üçün standart hərbi planlaşdırma prosesinin tərkib hissələrinin əsasını qoyur və yardım edən ölkələrə detalları müzakirə etmək, təkliflər irəli sürmək, güc toplama prosesini tamamlamaq imkanı verir. 2003-cü ilin sentyabrında Polşa İraqda sabitləşdirmə qüvvələrinin tərkibi hissəsi kimi Cənub Mərkəz Çoxmillətli Diviziyasının (MDN) komandanlığını öz üzərinə götürdü. Bu vəzifə bütövlükdə NATO-nun çoxlu sayda fərdi üzvləri və Tərəfdaş ölkələri tərəfindən edilən qarşılıqlı töhfələrlə (hərbi qüvvələr və digər yardım vasitələri daxil olmaqla) daha da gücləndirildi.

2003-cü ilin sonu, 2004-cü ilin əvvəlində Şimali Atlantika Şurası adından verilmiş bəyanatlar da bildirilirdi ki, İraqda vəziyyətlə bağlı sonra qəbul ediləcək qərarlarla başqa cür müəyyən olunmasa Alyansın birbaşa əməliyyat prioriteti 2003-cü ilin avqust ayında Əfqanıstandakı ISAF əməliyyatına komandanlığı götürməsi ilə meydana çıxan funksiyanın uğurlu yerinə yetirilməsindən ibarətdir. Bu tapşırığın effektiv tətbiqini təmin etmək Alyansın İraqdakı gücləndirilmiş vəzifəsi barədə hər hansı bir qərarın qəbul

edilməsi üçün ön şərt olacaq. Bununla belə İraqda sabitləşdirmə səyləri ilə bağlı Alyansın rolu davamlı olaraq diqqət mərkəzində saxlanacaq.

2004-cü il, iyunun 28-də NATO-nun İstanbul Sammitinin açılışı günü rəsmi olaraq suverenlik Müvəqqəti İraq hökumətinə verildi. Müvəqqəti İraq hökumətinin rəsmi xahişinə cavab olaraq və beynəlxalq və regional təşkilatlarının İraqdakı çoxmillətli Hərbi Qüvvələrə yardım etməklə bağlı BMT-nin Təhlükəsizlik Şurasının 1546 saylı fərmanına uyğun olaraq, NATO başçıları Müvəqqəti Hökumətə öz təhlükəsizlik qüvvələrinin təlimi sahəsində barədə yardım etmək barədə razılığa gəldilər və Şimali Atlantika Şurasına bu qərarı həyata keçirmək üçün üsullar tapmağı həvalə etdilər. İyul ayında İraq xarici İşlər Nazirinin, sentyabr ayında isə prezidentin NATO-ya səfəri zamanı Müvəqqəti Hökumətlə aparılan növbəti müzakirələrdə belə qərara gəlindi ki, NATO İraq təhlükəsizlik qüvvələrini texniki avadanlıq və təchizatlarla təmin etmək kimi gələcək yardımlarını əsirgəməyəcək.

2004-cü il, iyulun 30-da Şura 50 nəfərdən ibarət hərbi heyətlə NATO Təlim Yerinə Yetirmə Missiyasını yaratmaq haqqında razılığa gəldi ki, onlar seçilmiş hərbi hissələrə və mülki qərargah heyətinə təlim versinlər. Döyüş birliklərini ehtiva edən əməliyyat missiyalarından fərqli olaraq, bu, Şimali Atlantika Şurasının siyasi nəzarəti altında olan və İraqda ABŞ özüllü Çoxmillətli Hərbi Qüvvələr kimi İraq hakim dairələri ilə yaxından işləyən fərqli bir NATO təlim missiyası idi. Missiyanın məqsədi İraq Müvəqqəti Hökumətinə mümkün qədər tez bir müddətdə milli təhlükəsizlik quruluşunu lazımı qaydaya salmağa və gələcəkdə İraq əhalisinin təhlükəsizliyini təmin etməyə kömək etmək idi. Missiyanın özünün təhlükəsizliyi və mühafizəsi NATO tərkibində olan Çoxmillətli Hərbi Qüvvələrin bir hissəsi tərəfindən təmin edilirdi.

Missiyanın xüsusi tapşırıqlarına İraq Müvəqqəti hökuməti və Çoxmillətli Hərbi Qüvvələri ilə əlaqələrin qurulması, ölkə ərazisindən kənarda təlimlər keçmək üçün şəxsi heyətin müəyyən edilməsində İraq tərəfinə yardım etmək, İraq yerli hakim dairələri ilə sıx işləyərək seçilmiş qərargahın heyətinə təlimlər keçmək, İraq tərəfinə effektiv təhlükəsizlik strukturları yaratmağa kömək etmək, İraq müvəqqəti hökuməti və Çoxmillətli Hərbi Qüvvələr ilə birlikdə NATO təlimləri, məsləhət və əməkdaşlığına dair daha detallı təkliflər irəli sürmək kimi məsələlər daxil idi. Seçilmiş İraq hərbi qüvvələrinin heyətinə ölkə daxilində təlim və müşavirə keçirilməsi və milli təkliflərə uyğun olaraq təchizat və təlim vəzifələrinin həyata keçirilməsinə 2004-cü ilin avqust ayında başlanıldı.

Sonradan NATO-nun İraqda Təlim Missiyası (NİTM) kimi adlandırılan bu missiyaya Çoxmillətli Hərbi Qüvvələr tərəfindən aparılan xüsusi təlim proqramına da rəhbərlik edən amerikalı general rəhbərlik edir. Bu, bu tərəfdən iki qüvvə arasında lazımi koordinasiyanı təmin edir, digər tərəfdən

NATO missiyasının fərqliliyini qoruyub saxlayır. Proqramın ümumi məsuliyyəti NATO Hərbi Komitəsi vasitəsi ilə Şimali Atlantika Şurasına məruzə edən Müttəfiq Qüvvələrin Avropada Ali Baş Qərargahındakı (SHAPE) Əməliyyatlar üzrə Ali Baş Komandan üzərində qalmaqda idi. SHAPE İraqdan kənarda təlim səylərinin həyata keçirilməsində məsuliyyət daşıyan Birləşmiş Ştatlardakı (Norfolk, Virciniyada) Müttəfiqlərin Transformasiya Komandanlığı tərəfindən dəstəklənir.

Sentyabrda NATO hərbi dairələrinin məsləhət və araşdırmalarına əsasən, NATO özünün İraq Təlim-Təhsil və Doktrina Mərkəzinə dəstək məramlı olduğunu bildirdi. Bağdad yaxınlığında yerləşən Mərkəzin vəzifəsi həm ölkə ərazisində, həm də ölkədən kənarda fəaliyyət göstərən İraq təhlükəsizlik qüvvələri üçün idarəçilik təlimləri təşkil etmək və müxtəlif üzv ölkələr tərəfindən edilən təlim təklifləri ilə bağlı NATO yardımıyla təmin etmək idi.

2004-cü ilin oktyabrında Şimali Atlantika Şurası NATO-nun İraq Müvəqqəti hökumətinə öz köməyini artırmaq üçün hazırlanmış təhlükəsizlik qüvvələrinə təlim keçilməsi, təchizat, təlimlə bağlı digər təkliflərini özündə birləşdirən Əməliyyatlar Konsepsiyasını təsdiqlədi. Əməliyyatlar Konsepsiyası fərqli NATO missiyası çərçivəsində daimi əməli yardımın daha da artırılması və 2004-cü ilin noyabrında Şimali Atlantika Şurası tərəfindən təsdiqlənən detallı Əməliyyatlar Planının hazırlanması üçün əsas yaratdı.

2004-cü il noyabrın əvvəllərində yuxarıda verilən qərarlara müvafiq olaraq, İraqdan kənarda keçirilən ilk fəaliyyət olaraq Norveçdə Stavanger şəhərində NATO-nun Müharibə aparılması məsələləri üzrə Birləşmiş Mərkəzində keçirilmiş səkkiz günlük kursda İraq təhlükəsizlik qüvvələri heyətindən 19 nəfər iştirak etmişdi. İştirakçıların tərkibinə İraq Daxili İşlər və Müdafiə Nazirliklərindən baş hərbi zabitlər və mülki əməkdaşlar qatılmışdı. Kurs əməliyyat həyata keçirmək səviyyəli qərargahların vəzifələrini müəyyən edir və gələcək təlimlər üçün İraqda-ölkə ərazisində və ölkədən kənarda pilot layihəsi həyata keçirməyə xidmət edirdi. İraqın NATO və ya digər təşkilatlar tərəfindən gələcək təlimlər üçün edilən rəsmi xahişi Bağdadda fəaliyyət göstərən mərkəzlə birgə işləyən, bütövlükdə NATO və ya onun üzv ölkələrinin fərdi təklifləri əsasında İraq hökumətinin təlim və təchizat üçün ehtiyac duyulan tələblərini qarşılayan NATO Təlim və Təchizat Koordinasiya Mərkəzi tərəfindən əlaqələndirilirdi.

NATO Xarici İşlər Nazirlərinin 2004-cü ilin dekabrında keçirilmiş Brüsseldəki görüşündə onlar NATO-nun təlim sahəsində İraqa yardımının daha da artırılması üçün rəsmi razılıq verdilər. Nəticədə, NATO Təlim Missiyası təxminən 300 nəfərdən ibarət təlim və dəstək heyətinə çevrildi ki, İraqın ali təhlükəsizlik heyətinin təlimi sahəsində səyləri daha da artırdı.

18-ci Fəsil

NATO-NUN DARFURDA ROLU

Avropa Şurası ilə birlikdə NATO 2005-ci ilin iyulundan bəri Afrika İttifaqı Sudanın Darfur əyalətində öz sülhqoruyucu əməliyyatlarını genişləndirməyə və zorakılığa son qoymaq cəhdlərinə kömək edirdi. Alyans Afrika İttifaqı sülhqoruyucu qüvvələrini və mülki polis dəstələrini hava vasitəsilə müharibədən zərər çəkmiş ərazilərə aparır, çoxmillətli hərbi qərargahı və kəşfiyyat işini idarə etmək üçün təlimlər təşkil edirdi.

2005-ci ilin aprelində Afrika İttifaqı NATO-ya Sudanın Darfur əyalətində həyata keçirdiyi missiyasında arxa cəbhə işinin təşkili və idarə edilməsiylə öz əməliyyatlarını genişləndirmək və davam etməkdə olan zorakılığın qarşısını almaq üçün rəsmi xahiş etdi. İlk Afrika İttifaqı rəsmisi olaraq Afrika İttifaqı Komissiyasının Sədri Alfa Omuar Konare may ayında NATO-ya səfər edərək Birlik tərəfindən gözlənilən yardımın təfsilatını müzakirə etdi. İyun ayında Afrika İttifaqı, BMT və AB ilə edilən müşavirələrdən sonra NATO Afrika İttifaqına rəsmi olaraq hava nəqliyyatı və təlim işlərində dəstəkçi olmağa razılıq bildirdi.

NATO-nun hava körpüsü əməliyyatı iyulun 1-də başlamış və Avropadan koordinasiya edilmişdir. Efiopiyanın Əddis-Əbəbə şəhərində yerləşən Birliyin baş qərargahında xüsusi Afrika İttifaqının Hava Hərəkatı üzrə Mərkəzi əraziyə gələn qoşunların hərəkatını tənzimləyirdi. Avropa İttifaqı və NATO mərkəzin işini təşkil etmək üçün heyət üzvləriylə təmin edirdi, lakin Afrika İttifaqı əsas aparıcı qüvvə idi.

NATO Efiopiyada Yerləşdirilmiş və İnteqrasiya olunmuş Məqsədli Qüvvələrin Qərargahı tərkibində olan Afrika İttifaqı zabitlərin qərargah işi qabiliyyətlərini artırmaq üçün seminarlar təşkil edir. Təlimlər hərbi plan əsasında qurulmuş, texnologiya və texniki üsullar vasitəsilə Darfur əyalətində yaranmış vəziyyətin ümumi təhlili və anlaşılması məsələlərini işıqlandırılmış və Afrika İttifaqı təlim vəsaitlərinin tətbiq ediləcəyi ərazilərdə onun təsirini və böhranın qarşısını almaq üçün şəraitin yaradılması formalarını müəyyən etmişdir. Afrika İttifaqı tərəfindən sentyabrın 16-da edilmiş rəsmi xahişlə NATO 2006-cı il martın sonuna qədər özünün hava körpüsü və qabiliyyətlərin artırılması sahəsində genişləndirmə prosesində öz yardımını həyata keçirmək qərarına gəldi.

V HİSSƏ

YENİ TƏHLÜKƏLƏRƏ QARŞI MÜBARİZƏ VƏ YENİ QABİLİYYƏTLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ

19-cu Fəsil: Terrorizmə və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizədə Alyansın rolu

20-ci Fəsil: Yeni qabiliyyətlər

19-cu Fəsil

TERRORİZMƏ VƏ KÜTLƏVİ QIRĞIN SİLAHLARININ YAYILMASINA QARŞI MÜBARİZƏDƏ ALYANSIN ROLU

2001-ci il sentyabrın 11-də Nyu-York və Vaşinqton mahalında törədilmiş terror aktları təkcə Birləşmiş Ştatları deyil, bütün Alyans ölkələrini terrorizmə qarşı mübarizə aparmağa vadar etdi. Hücumlardan bir sutka keçməmiş NATO öz tarixində ilk dəfə olaraq özünün yaranma müqaviləsinin beşinci maddəsinə kollektiv müdafiə haqqında olan bəndə işə saldı. Bu qərarın siyasi əhəmiyyəti ondan ibarətdir ki, beşinci maddə Müttəfiqlərin biri və ya bir neçəsinə Avropa və ya Şimali Amerikada edilmiş hücumu onların hamısına qarşı edilmiş hücum hesab etməyi nəzərdə tutur. Nəticədə bu hücumlar Alyansa üzv ölkələrin hamısına edilmiş hücum kimi qiymətləndirildi və üzv və eləcə də tərəfdaş ölkələr bu hücumları və terrorizmin bütün formalarını qəti şəkildə təkrar olaraq pislədirlər.

Qərarın praktiki təsirləri əvəzolunmaz idi. Belə ki, birinci dəfə idi ki, Alyans 5-ci maddə əməliyyatları üçün qüvvə və resurslardan istifadə edirdi. Birləşmiş Ştatların rəsmi xahişi ilə Müttəfiqlər dəstək olmaq üçün səkkiz spesifik tədbirlər götürməyi qərara aldılar. Bunlardan biri NATO-nun Hava Xəbərdarlığı və Nəzarət Sistemi (AWACS) təyyarələrinin Birləşmiş Ştatların hava məkanında patrul uçuşları həyata keçirməkfə yardım etmək üçün bu ölkəyə göndərmək idi. “Qartal Yardımı” (Eagle Assist) adı ilə tanınan bu əməliyyat 2002-ci ilin mayın ortalarına qədər həyata keçirildi. Digəri 2001-ci il oktyabrın 26-da başlanan və hələ də davam edən “Active Endeavour” (“Aktiv fəaliyyət”) adlanan Aralıq dənizində anti-terror əməliyyatıdır.

İlk dəfə beşinci maddəyə müraciət edilməsi, ABŞ hava məkanının qorunması və Aralıq dənizində patrul əməliyyatı NATO üçün bir yenilik olan digər bir əhəmiyyətli tədbirlə müşayiət olundu. 2003-cü ilin avqustunda NATO Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (ISAF) komandanlığı götürmək barədə verdiyi qərarla bu təşkilat ilk dəfə olaraq Avropadan kənarda sülhməramlı əməliyyata başlamış oldu. Bu, sonralar başqa “məkandan kənar” əməliyyatlarla müşayiət olundu.

Paralel olaraq, Praqa Qabiliyyətlər öhdəliyi və NATO Cavab Qüvvəsinin əsasının qoyulması ilə hərbi qabiliyyətlərin əsaslı olaraq yenidən qurulması davam edirdi. Bunlar hər ikisi növbəti fəsildə izah edilir.

Terrorizmlə mübarizəyə yardım etməkdən əlavə mövcud həyata keçirilən NATO əməliyyatları bu sahədə rol oynamağa başladı. NATO terrorizmlə

mübarizəyə kömək etmək üçün çoxlu sayda siyasi təşəbbüslər və müxtəlif sahələrə aid əməli tədbirlər irəli sürdü. O, Terrorizm əleyhinə Müdafiə üçün Hərbi Konsepsiya qəbul etdi, Terrorizm əleyhinə Tərəfdaşlığın Fəaliyyəti Planını yaratmaqla tərəfdaş ölkələrlə əməkdaşlığı möhkəmləndirdi və kütləvi qırğın silahlarının yayılması əleyhinə tədbirlər gördü. Kiber-müdafiə, mülki fövqəladə planlama və mülki müdafiə sahəsində təkmilləşmələr aparmaq üçün terrorizmə qarşı mübarizə sahəsində gücləndirilmiş tədbirlər paketi və yeni təşəbbüslər qəbul edildi. Bu tədbirlər terrorizmə qarşı mübarizə sahəsində digər beynəlxalq təşkilatlarla əməkdaşlığı möhkəmlətmək barədə öhdəliklərlə daha da gücləndirildi.

Birləşmiş Ştatlara ilk yardım

2001-ci il oktyabrın 4-də Birləşmiş Ştatların xahişi ilə NATO Müttəfiqləri terrorizm əleyhinə aparılan hərbi əməliyyatlarda mümkün vasitələri genişləndirmək üçün səkkiz istiqamətdə tədbirlər görməyi qərar aldılar:

- geniş məlumat bölgüsü;
- koalisiya səylərinə göstərdiyi dəstəyə görə təhdid edilən ölkələrə kömək etmək;
- həmin ölkələrin ərazisindəki ABŞ və digər NATO üzvü olan ölkələrin mülkiyyətlərinin təhlükəsizliyinin artırılması;
- terrorizm əleyhinə əməliyyatlara dəstək olmaq üçün ehtiyac duyulan Alyans resurslarının hazır edilməsi;
- ABŞ və digər NATO üzvü olan ölkələrin terrorizm əleyhinə əməliyyatlarla əlaqəli hərbi uçuşlardan ötrü onların aviasiyası üçün örtülü uçuş hüququ;
- limanlar və hava limanlarına giriş icazəsi;
- NATO hərbi dəniz qüvvələrinin Şərqi Aralıq dənizində yerləşdirilməsi;
- terrorizm əleyhinə əməliyyatlara dəstək olması üçün NATO İlkin Hava Xəbərdarlığı və Nəzarəti Qüvvələrinin yerləşdirilməsi.

Əvvəldə qeyd edildiyi kimi, ABŞ-ın hava müdafiəsi sistemində material baxımından aparılmış modernləşdirmə, ABŞ mülki və hərbi qurumları arasında əməkdaşlığın gücləndirilməsi, ABŞ-da daxili təhlükəsizliyi ehtiyaclarının yenidən qiymətləndirilməsi ilə “Qartal Yardımı” Əməliyyatına 2002-ci ilin mayında Şimali Atlantika Şurası tərəfindən son qoyuldu.

“Active Endeavour” Əməliyyatı

2001-ci ilin oktyabrından bəri NATO Daimi Hərbi Dəniz Qüvvələrinin tərkib hissələri Aralıq dənizi sahəsində terror əleyhinə əməliyyatlar həyata keçirmişdir. “Active Endeavour” kimi tanınan bu əməliyyat gəmilərin, sualtı qayıqların, təyyarələrin istifadəsi ilə Şərqi Aralıq dənizində əvvəlcə ticarət gəmilərinin yoxlanışı ilə məşğul oldu. 2003-cü ilin martında missiya genişləndirilərək Cəbəllütariq boğazı boyunca üzv ölkələrin qeyri-hərbi gəmilərinin müşayiət edilməsi və 2003-cü ilin aprelindən beynəlxalq qanunun normalarına uyğun olaraq şübhəli bilinən yük gəmilərinin göyərtələrinə daxil olmaq kimi tapşırıqlar daxil edildi. Bir il sonra əməliyyat bütün Aralıq dənizini əhatə etdi. Müşayiət əməliyyatları 2003-cü ilin dekabrında dayandırıldı, lakin qüvvələr ehtiyac duyulan vaxtda bu sahədə əməliyyatları yenidən başlamağa hazırdırlar.

2001-ci ildə əməliyyata başlamasından bəri əməliyyatlara cəlb olunmuş hərbi qüvvələr Aralıq dənizində 70 000-dən çox yük gəmisini qarşılamış, bu məkanda dəniz hərəkəti üzrə mənzərə formalaşdırmaq üçün gəmilərdən, sualtı qayıqlardan və təyyarələrdən istifadə edərək müşahidə əməliyyatları aparmış və beynəlxalq hüquq normalarına uyğun olaraq, təxminən 100 gəmidə axtarış aparmış və Cəbəllütariq boğazı boyunca təxminən yüzlərlə gəmini müşayiət etmişdir. Bir neçə üzv ölkənin töhfə verdiyi NATO Daimi Hərbi Dəniz Qüvvələrinə əlavə olaraq, Amerika və Portuqaliya dəniz patrulu və digər növ təyyarələr, İspaniya təyyarələr, vertolyot və freqatlar**,** Danimarka, Norveç və Almaniya patrul qayıqları ilə əməliyyatlarda yer almışlar.

2003-cü ildə əməliyyatın bütöv Aralıq dənizinə genişlənməsi ilə Active Endeavour Əməliyyatına çoxmillətli dəstək genişlənərək NATO Tərəfdaş ölkələri və Aralıq Dənizi Dialoqu Ölkələrini də daxil etdi. NATO-Rusiya və NATO-Ukrayna əməkdaşlıq mexanizmləri çərçivəsində Rusiya və Ukraynanın əməliyyata töhfə vermək təklifləri Alyans rəhbərləri tərəfindən alqışlandı.

Aralıq dənizində əməliyyat zamanı cəlb olunmuş qüvvələr bəzi hallarda fövqəladə hal əməliyyatlarına iştiraka, məs. neft buruğu işçilərini dənizdə fırtına ilə əlaqədar evakuasiya edilməsi və bərə sərnişinlərinin xilas edilməsi kimi əməliyyatlara çağırılmışlar.

Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF)

Birləşmiş Ştatların Əfqanıstanda apardığı hərbi əməliyyatlar Taliban rejiminə son qoyulması, onun ölkədə sülh və yenidənqurmaya sadiq bir administrasiya ilə əvəz olunması və ölkədəki və başqa yerlərdəki geniş əl-Qaidə şəbəkəsinin böyük hissəsinin sıradan çıxarılmasına gətirib çıxardı.

Enduring Freedom əməliyyatı kimi tanınan bu səy çoxlu sayda NATO ölkələri tərəfindən dəstəklənmişdir. Bu ölkələr məsələn, müşahidə, həbs etmə və saxlama əməliyyatlarında ABŞ xüsusi təyinatlı birlikləri ilə birlikləri ilə çalışmaq üçün xüsusi təyinatlı birliklər göndərmiş və ya təyyarələr və gəmilərlə töhfə vermişdir. Rusiya və Ukrayna da daxil olmaqla çoxlu sayda NATO-ya üzv olmayan ölkələrdən də dəstək vermək üçün təkliflər edilmişdir.

Müvafiq olaraq, NATO hərbi qüvvələri əvvəllər ayrı-ayrı NATO ölkələrinin rəhbərlik etdiyi, sonradan isə 2003-cü ilin avqust ayında NATO-nun vahid komandanlığı altına keçən, BMT mandatlı çoxmillətli Beynəlxalq Təhlükəsizliyə Yardım Hərbi Qüvvələri (ISAF) sahəsində həlledici rol oynamışdır. Bu qüvvənin vəzifəsi ölkədə vəziyyəti sabitləşdirməyə kömək etmək və öz-özünə davam edən sülh üçün lazımi şərait yaratmaqdan ibarətdir. Bu mənada ISAF-ı NATO-nun terrorizmlə mübarizə aparan bir tərkib hissəsi hesab etmək olar. Belə ki, o, birbaşa olmasa da Əfqanıstan ərazisində terror fəaliyyətinə son qoyulmasına yardım edir.

ISAF NATO-ya üzv və Tərəfdaş ölkələrdən cəlb edilmiş qoşunlardan ibarət çoxmillətli qüvvədir. Əvvəllər Birləşmiş Krallığın, 2002-ci ilin iyunundan Türkiyənin komandalığı altında olan bu qüvvə NATO-nun bəzi spesifik yardımları ilə 2003-cü ilin fevralından Almaniya və Niderlandın birgə komandalığına keçdi. Milli töhfələrə misal kimi Belçika tərəfindən təşkil edilən hava daşıması imkanları, Çexiya Respublikası tərəfindən verilən səhra xəstəxanası, Portuqaliya tərəfindən verilən tibbi heyət və Polşa tərəfindən verilən mühəndis və arxa cəbhə dəstəyini göstərmək olar.

Almaniya və Hollandiya tərəfindən öz vəzifələrini yerinə yetirməyə NATO tərəfindən yardım göstərilməsinə dair rəsmi xahiş Şimali Atlantika Şurası tərəfindən 2002-ci ilin oktyabrın 17-də təsdiqləndi. NATO yardımı xüsusilə qüvvə toplanması, rabitə və kəşfiyyat koordinasiyası və məlumat mübadiləsinə aid idi. NATO-ya üzv və Tərəfdaş ölkələrin iştirakı ilə Müttəfiq Qüvvələrin Avropada Ali Baş Qərargahında 2002-ci il noyabrın 27-də Qüvvə toplanması barədə konfrans keçirilmiş və ölkələr töhfələrini vermək barədə təkliflər etmək, gələcək qabiliyyətləri möhkəmləndirmək üçün ehtiyac duyula biləcək zəruri çatışmazlıqları aşkara çıxarmaq və müzakirə etmək imkanını vermişdir. Bu konfrans BMT TŞ qətnaməsinə əsaslanan və NATO-nun

rəhbərlik etmədiyi bir hərbi əməliyyata komandanlıq etməyi təklif edən ölkələrin dəstəklənməsi məqsədi ilə keçirilmiş ilk belə tədbir idi.

Həm “Enduring Freedom” əməliyyatı, həm də ISAF tərəfdaş ölkələrin NATO-nun rəhbərlik etdiyi əməliyyatlara cəlb edilməsi və tərəfdaş ölkələrin Balkanlardakı sülhməramlı əməliyyatlarda iştirakından qazanılan praktiki təcrübədən faydalanmağa davam edirlər. Terrorizmə son qoymaq və Əfqan hökumətinə ölkədə sabitlik yaratmağa yardım etmək istiqamətində tərəfdaş ölkələrin yardımlara Qafqaz və Mərkəzi Asiya ölkələri tərəfindən çox böyük əhəmiyyətli ərazilərinə qüvvə yerləşməsi və hava məkanından uçuş icazələri verilməsi; sonradan NATO üzvü olan Rumıniya tərəfindən piyada, hərbi polis, nüvə, bioloji və kimyəvi mühafizə imkanları, Rusiya və 2004-cü ildən NATO-ya üzv olan Slovakiya tərəfindən mühəndis dəstəyi, İsveç tərəfindən ISAF-ın baş qərargahına hərbi kəşfiyyat hissəsi yerləşdirməsi daxildir.

ISAF-ın Əfqanıstanda fəaliyyəti ilə əlaqəli olaraq NATO-nun rolunun təkamülü IV Hissədə daha ətraflı təsvir edilmişdir.

Balkan yarımadasında terrorizm əleyhinə əməliyyatlar

Balkan yarımadasında NATO-nun həyata keçirdiyi əməliyyatlar bu ərazini terror aktlarına hədəf olmağa daha az meylli bir əraziyə çevirməyə kömək etdi. NATO-nun rəhbərlik etdiyi qüvvələr tərəfindən Əl-Qaidə şəbəkəsi ilə əlaqədə olan yerli terror qruplaşmalarına qarşı terrorizmə qarşı təşkil edilən geniş fəaliyyətin bir tərkib hissəsi olaraq, ələlxüsus, insanların, silah və narkotik maddələrin qanunsuz olaraq daşınması hallarının qarşısının alınması kimi tədbirlər həyata keçirildi.

Terrorizm əleyhinə Hərbi Müdafiə Konsepsiyası

Terrorizm əleyhinə Hərbi Müdafiə Konsepsiyası 2002-ci ilin noyabrında Praqa Zirvə toplantısında öz təsdiqini tapdı. Bu sənəd xaricdən müttəfiqlərin əhalisi, ərazisi və infrastrukturuna qarşı terror hücumları və ya bu cür hücumla təhdidin qarşısını alma, müdafiə, pozma və terror hücumlarından müdafiə, o cümlədən, terrorçulara və onlara sığınacaq verənlərə qarşı fəaliyyət; dövlət qurumlarına terror hücumlarının nəticələrinin aradan qaldırılması sahəsində yardım etmək; Avropa İttifaqı və digər beynəlxalq təşkilatlara, müttəfiqlərə iştirak etdiyi koalisiyaların əməliyyatlarını dəstəkləmək; və öz qüvvələrini ehtiyac duyulan hallarda və məkanlarda əməliyyata göndərmək barədə Alyansın hazırlığını vurğulayır.

Terrorizmə qarşı Tərəfdaşlıq Fəaliyyət Planı (PAP-T)

Tərəfdaş ölkələrlə birlikdə NATO Terrorizmə qarşı Tərəfdaşlıq Fəaliyyət Planı hazırladı. 2002-ci ildə Praqa Zirvə toplantısında qəbul edilən PAP-T terrorizm üzrə birgə əməkdaşlıq çərçivəsinin əsasını qoyur, terrorizmlə mübarizə və onun nəticələrinin idarə edilməsi üçün tərəfdaşlığın rolu və vasitələrini müəyyən edir. Aralıq Dənizi Dialoqu ölkələri də bu plan üzrə fəaliyyətlərdə iştirak edə bilər.

Avro-Atlantika Tərəfdaşlıq Şurası, NATO-Rusiya Birgə Daimi Şurası (2002-ci ilin mayında NATO-Rusiya Şurasına çevrilib), NATO-Ukrayna Komissiyası və NATO-nun Aralıq Dənizi Dialoqunda iştirak edən ölkələrin hamısı NATO-ya qoşularaq 11 sentyabr hücumlarını pislədi və Birləşmiş Ştatlara öz yardımlarını təklif edirlər. NATO ölkələri Tərəfdaşlıq mexanizmindən geniş şəkildə istifadə edərək gələcək addımlar atmaq üçün öz Tərəfdaş ölkələri ilə məsləhətləşmələr aparmağa davam edirdilər. Onlar razılaşırlar ki, terrorizmlə mübarizə aparmaq üçün siyasi, iqtisadi, diplomatik və hərbi və eləcə də hüquq mühafizə fəaliyyətini özündə ehtiva edən müfəssəl səylər, başqa sözlə, bütövlükdə NATO-nu və həm Alyansın, həm də Birləşmiş Millətlər Təşkilatının, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının və Avropa İttifaqı üzvü kimi ayrı-ayrı müttəfiqləri əhatə edən uzun müddətli, çoxtərəfli yanaşma tələb olunur.

Kütləvi qırğın silahlarından mühafizə

2002-ci ilin noyabrında keçirilmiş Praqa Zirvə toplantısında NATO hökumətləri nüvə, bioloji və kimyəvi (NBC) müdafiəyə aid beş təşəbbüs razılaşdırdılar. Bu təşəbbüslər Alyansın kütləvi qırğın silahlarına qarşı müdafiə qabiliyyəti gücünü artırmağa xidmət edir. Bunlar aşağıdakılardan ibarətdir:

- Əməliyyata göndərilə bilən prototip NBC analiz laboratoriyası qurulması;
- NBK üzrə birgə qiymətləndirmə qrupu;
- NBK silahlardan müdafiə üzrə virtual mükəmməlləşmə mərkəzi;
- NATO bioloji və kimyəvi müdafiə ehtiyatları; və
- Xəstəlikləri müşahidə sistemi

Terrorizmə qarşı gücləndirilmiş tədbirlər paketi

Terrorizmə qarşı gücləndirilmiş tədbirlər paketi 2004-cü il iyununda İstanbul Zirvə toplantısında razılaşdırıldı. Bu tədbirlərə NATO-nın Terrorist Təhlükəsi üzrə Kəşfiyyat Mərkəzi və digər vasitələrlə kəşfiyyat mübadiləsinin gücləndirilməsi, NATO-nun terror hücumlarına qarşı ehtiyac duyulan zamanda milli xahişlərə qısa zamanda cavab vermək qabiliyyətinin artırılması, NATO-nun ilkin hava xəbərdarlığı təyyarələrindən istifadə daxil olmaqla seçilmiş xüsusi tədbirlər zamanı mühafizənin ilə təmin edilməsinə yardım, NATO-nun Aralıq dənizi, Balkan yarımadası və Əfqanıstandakı əməliyyatlarının terrorizm qarşı mübarizəyə töhfəsini gücləndirmək, tərəfdaş ölkələrlə, digər beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı genişləndirmək və müvafiq qabiliyyətləri daha da artırmaq daxil idi. Bunlara, həmçinin, 2004-cü ilin mayında Milli Silahlanma üzrə Direktorların Konfransında qəbul edilmiş xüsusi silahlanma proqramı da daxil idi. Bu proqram aşağıda göstərilən on sahəyə yönəlmişdir.

- Avtomobil və yol kənarı bombası formasında improvizasiya olunmuş partlayıcı vasitələrə qarşı fəaliyyət;
- Geniş korpuslu mülki və hərbi təyyarələrin əldə daşınan hava hücumundan müdafiə vasitələrinə qarşı zəif cəhətlərinin azaldılması;
- vertolyotların raket qurğulu qumbaraatanlara qarşı zəif cəhətlərinin azaldılması;
- limanların və gəmilərin partlayıcı maddə ilə yüklənmiş sürətli qayıqlar və dalğıclardan mühafizəsi;
- kimyəvi, bioloji, radioloji və nüvə silahlarının aşkar edilməsi, mühafizəsi və məhv edilməsi;
- partlayıcı hərbi sursatların zərərsizləşdirilməsi;
- xüsusi təyinatlı qüvvələr və onların texnikaları üçün dəqiq havadan tullanma texnologiyaları;
- kəşfiyyat, nəzarət, hədəfə nail olma və terroristlərin aşkar edilməsi;
- minaatanlara qarşı mübarizə üçün vasitələr;
- xüsusi əhəmiyyətli infrastrukturun mühafizəsi.

Kiber müdafiə

NATO və ölkələrin mühüm əhəmiyyətli infrastrukturunun, o cümlədən, informasiya və kommunikasiya sistemlərinin sıradan çıxarılmasından daha yaxşı mühafizəni təmin etməklə kiber hücumlara qarşı müdafiənin gücləndirilməsi üçün səylər göstərilir.

Mülki fövqəladə planlaşdırma

Mümkün terror hücumlarının nəticələrinin öhdəsindən gəlməkdən ötrü hazırlığın artırılması üçün vacib tədbirlər həyata keçirilmişdir. 2001-ci il sentyabr ayının 11-də baş vermiş hadisələr və Birləşmiş Ştatlarda baş vermiş sonrakı bakterioloji hücuma cavab olaraq 2001-ci ilin oktyabr ayında Kimyəvi, Bioloji və Radiologiya Maddələrlə Mülki Əhaliyə qarşı mümkün hücumlara qarşı Mülki Hazırlığın artırılması üzrə Mülki Fövqəladə Fəaliyyət Planının hazırlandı. O vaxtdan bəri yeni təhlükə ssenariləri və çıxarılmış dərsləri nəzərə almaqla fəaliyyət planı davamlı olaraq yenilənmişdir.

Fəaliyyət planı çərçivəsində NATO və Tərəfdaş ölkələr təhlükə ilə bağlı əlavə mülki tədbirlər həyata keçirmək üçün birlikdə işləyirlər. Bunlara aşağıdakılar daxildir:

- Terror hücumu ilə sarsılan üzv və ya Tərəfdaş ölkəyə kömək etməkdən ötrü milli qabiliyyətlərin aşkara çıxarılması;
- Ölkənin xahişinə uyğun olaraq həyata keçirilən nəticələrin idarə olunması üzrə koordinasiya fəaliyyətindən ötrü NATO Baş Qərargahında yerləşən Avro-Atlantika Təbii Fəlakətlərə Cavab Mərkəzindən (EADRCC) istifadə etmək;
- Mülki-hərbi və mülki-mühafizə birlikləri üçün nəticələrin öhdəsindən gəlmək üzrə beynəlxalq təlimlərin təşkili;
- Nəticələrin öhdəsindən gəlmək üçün ölkələr tərəfindən təklif edilən qabiliyyətlər arasında uzlaşmanı artırmaq üçün normalar və minimum standartlar yaratmaq:
- Xüsusi əhəmiyyətli infrastrukturun gücləndirilmiş mühafizəsi.

Mülki müdafiə

Yüksək səviyyəli ictimai tədbirlərə artan təhdidləri nəzərə alaraq Alyans bütün iştirakçıların təhlükəsizliyinin gücləndirmək üçün öz resurslarından istifadə etmək üçün spesifik tədbirlər gördü. NATO ilkin hava xəbərdarlığı qabiliyyətləri və digər formalarda əməli yardımlarla bir çox hallarda, məs. 2004-cü il Avropa Futbol Çempionatında, Afinada Olimpiya Oyunları zamanı və İstanbul zirvə Toplantısı kimi vacib tədbirlər zamanı mühafizənin təmin olunmasına yardım etdi.

Əməkdaşlığın genişləndirilməsi

Yuxarıda təsvir edilən tədbirlərdən heç biri informasiya mübadiləsi və koordinasiya edilmiş fəaliyyət vasitəsi ilə terrorizmə qarşı müdafiəni artırmaq üçün gücləndirilməyə töhfə verə bilən beynəlxalq təşkilatlarla intensiv əməkdaşlığa olan ehtiyacı inkar etmir. Məsələn, NATO və Avropa İttifaqı mülki fövqəladə planlanma və digər əlaqəli sahələr üzrə məlumat mübadiləsi etmişlər. NATO BMT-nin Terrorizmlə Mübarizə Komitəsinin işinə fəal olaraq töhfə verir, ATƏT-lə müntəzəm olaraq məsləhətləşmələr edir və EUROCONTROL, Beynəlxalq Mülki Aviasiya Təşkilatı və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası ilə hava hərəkətinin idarə olunmasında mülki-hərbi koordinasiyanı təkmilləşdirmək üçün sıx işləyir.

Yeni təhlükələrə qarşı aparılan mübarizədə son illər ərzində görülmüş tədbirlər nümunəsinə NATO üzv ölkələrinin biri tərəfindən irəli sürülən və digər ölkələr, çox hallarda həm, müttəfiq, həm də tərəfdaş ölkələrin töhfə verdiyi təşəbbüslər də aiddir. 2003-cü ilin mayında, məsələn, Birləşmiş Ştatlar yayılmada iştirak etmiş dövlət və qeyri dövlət aktorlarına təhlükəli texnologiyaların verilməsi və ya onlardan alınmasının qarşısının alınması üçün çalışan dövlətlərin qlobal tərəfdaşlığı kimi Yayılma Təhlükəsizliyi Təşəbbüsünü irəli sürmüşdür. Səkkiz NATO ölkəsi və Avstraliya və Yaponiya bu təşəbbüsdə başlanğıcdan bəri iştirak etmiş, potensial təhlükələrin aşkara çıxarılması və aradan qaldırılması sahəsində ekspertiza və təcrübəyə töhfələrini vermişlər. NATO yayılma ilə bağlı çoxlu sayda siyasi və müdafiə təşəbbüslərini dəstəkləyir və təşviq edir. Bu mövzuya dair daha ətraflı məlumat üçün X Hissəyə bax.

20-ci Fəsil

YENİ QABİLİYYƏTLƏR

NATO üzv ölkələrinin hərbi qabiliyyətlərini təkmilləşdirməyə kömək etmək üçün tədbirlər silsiləsi həyata keçirir. Alyansın indiki və gələcək əməliyyat vəzifələrinin, terrorizm və kütləvi qırğın silahlarının yayılması əleyhinə mübarizəsi kimi məsələlərin öhdəsindən gəlməsini təmin etmək üçün həyata keçirilən bu səylər Soyuq Müharibə başa çatdıqdan sonra Alyansın yeni çağırışlara yönəlməsi yolunda edilən müfəssəl tədbirlər sistemidir. NATO-nun öz üzərinə daha uzaq məsafələrə tez bir zamanda yetişəcək və bu sahədə uzun müddət davam gətirə biləcək, ehtiyac duyulan vaxtda tələb edilən əməliyyatı öz öhdəsinə götürəcək çoxlu sayda hərbi qüvvə tələb edən, Əfqanıstan kimi uzaq ərazilərdə yeni missiyalar götürməsi xüsusilə vacib bir məsələdir. Bundan başqa, bu qüvvələr xüsusi ləvazimatlara təchiz edilməli və öhdələrinə götürdükləri daha təhlükəli əməliyyatlar zamanı xüsusilə mühafizə olunmalıdırlar.

Bu yeni məqsədlərə nail olmaq üçün Alyans təşkilatın bütünlüklə transformasiyası yolunda əsas aparıcı qüvvə hesab edilən üçün üç mühüm təşəbbüs irəli sürmüşdür: strateji daşıma və havadan yerə nəzarət kimi vacib sahələrdə bacarıqlarını təkmilləşdirməsinə xidmət edən Praqa Qabiliyyətlər Öhdəliyi, hərbi komanda strukturlarının təkmilləşdirilməsi və NATO Cavab Qüvvələsi (NATO Response Force - NRF) yaradılması.

Alyansın havadan yerə müşahidə qabiliyyətləri üzrə planlar daha inkişaf etdirilmiş və NATO əməliyyatları ərəfəsində və əməliyyatlar zamanı vəziyyət barədə məlumatlarla təmin edəcəkdir. Kütləvi qırğın silahları və onların çatdırılma vasitələri məsələsi ilə bağlı olaraq, Alyans öz ərazisi, hərbi qüvvələri və əhalisinin yerləşdiyi mərkəzlər üçün raketdən hücumundan müdafiə məsələsini nəzərdən keçirir. NATO həmçinin, Kimyəvi, Bioloji, Radioaktiv və Nüvə (KBRN) silahlarının törədəcəyi təhlükələr əleyhinə Çoxmillətli Müdafiə Batalyonunu yaratmışdır.

Praqa Qabiliyyətlər Öhdəliyi

Praqa Qabiliyyətlər Öhdəliyi (PCC) 1999-cu ildə Vaşinqton Zirvə toplantısında əsası qoyulan və qarşılılıqlı operativ uzlaşmaya xüsusi diqqət yönəltməklə Alyansın həyata keçirdiyi əməliyyatların bütün spektrləri üzrə effektiv şəkildə həyata keçirilməsi üçün lazım olan qabiliyyətlər sahəsində təkmilləşməni nəzərdə tutan Müdafiə Qabiliyyətləri Təşəbbüsünün (DCİ)

davamı kimi qəbul edildi. DCİ bir neçə sahələrdə Alyansın qabiliyyətlərinin təkmilləşməsinə töhfələrini versə də, bu təşəbbüs dövlətlərin cəm şəkildə ümumi öhdəliklərini ehtiva edir, fərdi qaydada əldə olunan tərəqqi barədə hesabat verilməsini nəzərdə tutmurdu. Amerika Birləşmiş Ştatlarında 11 sentyabr 2001-ci ildə baş vermiş terror aktı qabiliyyətlərin təkmilləşdirilməsi məsələsinə daha artıq fikir verilməsinin həm təcililiyi, həm də əhəmiyyətini ön plana çəkdi. NATO Alyansın bütün missiyaların daha səmərəli şəkildə həyata keçirilməsi üçün vacib əhəmiyyətə malik olan 400 xüsusi sahədə qabiliyyətlərin təkmilləşdirilməsi üzrə qətiyyətli siyasi öhdəliklər qəbul etdi. Bu aşağıdakı səkkiz sahəni əhatə edirdi:

- Kimyəvi, bioloji, radioaktiv və nüvə (CBRN) müdafiəsi;
- Kəşfiyyat, müşahidə və hədəf tapma;
- Havadan yerə müşahidə;
- Komanda, nəzarət və rabitə;
- Döyüş səmərəliliyi, sərrast naviqasiyalı mərmilər və düşmən hava hücumunun susdurulması;
- Strateji hava və su daşımaları;
- Havada yanacaqla doldurma;
- Göndərilə bilən döyüş dəstəyi və döyüş xidmət dəstəyi birlikləri.

Müdafiə nazirləri həmçinin qərara aldılar ki, yeni təşəbbüs milli səviyyədə qəbul edilən qərarlara uyğun olaraq qəbul edilən və hər bir ölkə üçün səciyyəvi olan qəti öhdəliklərə əsaslanmalı və çatışmazlıqları aradan qaldırmaq üçün hədəf tarixlərini ehtiva etməlidir. Bundan əlavə, belə öhdəliklər gələcəkdə çoxmillətli əməkdaşlığı və vəzifələrin bölgüsünü artırmalı, realist və iqtisadi baxımdan yerinə yetirilə bilən olmalı və bununla belə ölkələr üçün bir çağırışlar gətirməlidir. Bundan başqa, bu qabiliyyətlər Avropa İttifaqının tərəfindən irəli sürülmüş Avropa Qabiliyyət Fəaliyyət Planı üzrə fəaliyyətlərlə bir-birini tamamlamalı və tam şəffaflıq şəraitində olmalıdır.

Yeni təşəbbüslərin fokusu daha dəqiq olmaqla ayrı-ayrı üzv dövlətlərin təklikdə və ya digər müttəfiqlərlə birlikdə inkişaf etdirilməli spesifik qabiliyyətlər üzrə fərdi öhdəliklərini ehtiva edir və eyni zamanda əsas səyləri realist və nail oluna biləcək hədəflərə yönəldirdi. Məqsəd aydın idi: Alyansın öz missiyalarını baş verməsindən asılı olmayaraq, onun yerinə yetirilməsi üçün təcili ehtiyac duyulan qabiliyyətləri əldə etmək.

Buna görə də PCC-ə Alyans qüvvələrinə öz əməliyyatlarını çevik və effektiv şəkildə və tələb olunan qədər müddət ərzində həyata keçirməsindən ötrü lazım olan vasitələri əldə edilməsi üçün əhəmiyyətli bir cəhd kimi baxmaq lazımdır. Məhz bu razılaşma ilə dövlət və hökumət başçıları Praqa Zirvə toplantısında qabiliyyətlərin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi üzrə öhdəlik götürmüşlər. Bunu etməkdən ötrü başlıca məsuliyyət üzv ölkələrin hökumətlərinin üzərinə düşsə də, Alyans kollektiv olaraq irəliləyişləri daim izləmək, nəzarət etmək və meydana çıxan hər hansı bir problemi həll etmək üçün müvafiq tədbirlər görmüşdür. PCC həmçinin NATO və Avropa İttifaqı tərəfindən edilən səylərin qarşılıqlı gücləndirilməsini təmin etməkdən ötrü yollar axtarır. Bu çətin, amma realist və nail oluna bilən məqsədlərin yerinə yetirilməsində əldə olunan uğurlar Praqada razılaşdırılmış daha geniş gündəliyin həyata keçirilməsi üçün zəruri əhəmiyyət kəsb edir.

NATO komandanlıq strukturu

Transformasiya prosesinin sonrakı vacib diqqəti NATO komandanlıq strukturunun səmərəli təşkilinə yönəlmişdir, hansının ki təsviri Hissə III verilmişdir. Komandanlıq strukturunun funksiyasına əməliyyatların planlaşdırılması və həyata keçirməsi, Alyansın birləşmiş qüvvələrinin avadanlıqlarla təmin və əməliyyat daxili bacarıqlarının təşkil edilməsini, Alyans daxili əməkdaşlığın əsasını təşkil edən trans-atlantik əlaqəsini möhkəmləndirilməsi aiddir. Komandanlıq strukturunda edilən dəyişikliklər bu imperativləri əks etdirir və Müttəfiqlərin Transformasiyası Komandanlığına xüsusilə vacib olan, davamlı inkişafı bildirən rol ayırır. Bu yeni komandanlıq NATO Birgə Müharibə Mərkəzini, Birgə Hərbi Qüvvələrinin Təlim Mərkəzini və Birgə Təhlil və Öyrənilmiş Dərslər Mərkəzini özündə birləşdirir. Strukturun hissəsi olmayan, lakin ona bağlı olan milli və çoxmillətli İxtisas Mərkəzləri vardır ki, onlarda təlimlər, uyarlılıq, yoxlama və hərbi doktrinanın yaradılması və yeni konsepsiyaların qiymətləndirilməsi üçün yeniləşmiş imkanlar yaradır.

NATO Cavab Qüvvələri

NATO Cavab Qüvvələrinin (NATO Responce Force - *NRF*) yaradılması Praqa Qabiliyyətlər Öhdəçiliyinin və yeni komandanlıq strukturunu tamamlayan NATO-nun hərbi bacarıqlarının transformasiyasının ayrılmaz bir hissəsidir.

NRF görülməmiş bir sürətlə yaradıldı. Bu nailiyyətin əhəmiyyəti nəinki bu qüvvələrin özünün yaradılmasında, hətta onların yaradılması faktının bacarıqların digər sahələrində yaxşılaşdırılmasına təsir edir və bütünlükdə NATO qüvvələrin sonrakı davamlı transformasiya və inkişafında katalizator

rolunda özünü göstərir. NRF Praqa Zirvə toplantısının ən vacib nəticələrindəndir.

NRF ərazidə birgə qüvvələrin, Şimalı Atlantika Şurasının tələb etdiyi ərazidə fərdi missiyaların yerləşdirilməsi üçün dəniz və hava qüvvələrinin toplanmasıdır. Bu texnoloji cəhətdən yüksək keyfiyyətli, uyğun, asanlıqla yerləşdirilə bilinən qarşılıqlı uyarlı və davamlı hərbi qüvvələrin beş gün ərzində öz başlıca qüvvələrini ərazidə yerləşdirməyə hazır olan və qarşıdakı otuz gün ərzində özünü əlavə yardım olmadan ayaqda saxlamağa davamlı birləşmələrdən ibarətdir. Onlar üzv ölkələrin birlikdə təlim keçərək təsdiqlənmiş müəyyən dövrlər üçün bir-birini əvəz edərək fəaliyyət göstərən davamlı və ya müvəqqəti qüvvələr deyildi.

Bu qüvvələr təhlükəsizlik və sabitliyə manea olan münaqişəni və ya böyük münaqişəyə gətirib çıxara biləcək təhlükələrin aradan qaldırılması üçün nəzərdə tutulur. Bura, Alyansın müvafiq missiyaları öz üzərinə götürməsi və geniş tərkibli hərbi qüvvələrin hərbi əməliyyatlara çox yüksək şəkildə töhfə verməklə xidmət etməsi aiddir. Buna görə də hərbi qüvvələr müxtəlif vəziyyətlərdə cəmləşdirilə bilinər. Məsələn, təcavüzlə qarşılaşdıqda qüvvə və Alyans həmrəylinin nümayişi, Şimali Atlantika Müqaviləsinin 5-ci Maddəsinə müvafiq olaraq həyata keçirilən kollektiv müdafiə əməliyyatının vacib elementi, 5-ci Maddənin çərçivəsinə aid edilməyən böhran vəziyyətinin aradan qaldırılması, sülhü və sabitliyi dəstəkləmə əməliyyatları və ya əlavə vasitələrin yerləşdirilməsinə daim ehtiyac duyan və gözləyən geniş miqyaslı əməliyyatlar üçün təkmilləşdirilmiş qüvvələrin yerləşdirilməsi formalarında özünü göstərir.

NRF əslən 2003-cü ilin oktyabrında fəaliyyətə başlamış 9500 nəfərlik qoşundan ibarət idi. Həmin vaxt çərçivəsində NATO Müdafiə Nazirlərinin ABŞ, Kolorado Springdəki qeyri-rəsmi görüşlərində NRF-in konseptual vəzifəsini və öz qüvvələrini yerləşdirməsi işində qərar qəbul edilməsiylə bağlı məsələləri diqqət mərkəzində saxlamaq üçün təşkil edilmiş seminarda iştirak etdilər. Hollandiya, Brunsumda 2003-cü il 15 oktyabrda təşkil edilmiş tədbirdə Avropada Ali Birləşmiş Hərbi Qüvvələrin və yenicə əsası qoyulmuş Müttəfiqlərin Əməliyyatlar üzrə Komandanı olan General Ceyms Con tərəfindən öz bayraqları ilə yeni hərbi qüvvələr təqdim edildi.

Qüvvələrin ilkin bacarıqlarının erkən nümayişi bu qüvvələrin 11 NATO ölkəsinin komponentlərinin də daxil olduğu elementlərinin 2003-cü il noyabrında Türkiyədə qondarma böhran əməliyyatında iştirakı oldu. Bu böhran Avro-Atlantik məkandan kənarda yerləşən ölkədə BMT heyətinə və mülkilərə qarşı guya terrorizm fəaliyyəti və düşmən qüvvələrinin təşkil etdiyi uydurma təhlükə hədəsindən ibarət idi. Bu, hərbi qüvvələrin bir yerdən başqa

yerə köçürülməsi və silahların daşınmasına qadağa qoymağı, terrorizm əleyhinə əməliyyatları və Alyansın həmrəyliyini, siyasi qətiyyətini və hərbi bacarıqların açıq şəkildə nümayişini ehtiva edirdi.

Təlim və sınaqların keçirilməsi planlaşdırılmış cədvəl üzrə qüvvələrin təkmilləşdirilməsini davam etdirirdi. 2004-cü ilin oktyabrında Rumıniyanın Poina Brasovda keçirilən NATO Müdafiə Nazirlərinin qeyri-rəsmi görüşü zamanı NATO Baş Katibi qüvvələrin artıq ilkin əməliyyat qabiliyyətinə nail olduğunu elan etdi.

2005-ci ilin sentyabrında Katrina qasırğasının törətdiyi fəlakətin zərərlərini aradan qaldırmağa kömək etməkdə NRF-ın dəniz və hava elementi qüvvələri Birləşmiş Ştatların rəsmi xahişi əsasında bu ölkəyə göndərildi. NRF, həmçinin, 2005-ci il oktyabrında Pakistanda baş vermiş dağıdıcı zəlzələ zamanı humanitar yardım göstərmək üçün də istifadə edilmişdir.

Qüvvələrin 2006-cı ilin oktyabrına tam əməliyyat qabiliyyətli və bu vaxta 21 000 nəfərlik quru qüvvələr elementi və təxminən eyni sayda hava və dəniz qüvvələrindən ibarət olmalıdır.

Alyansın Yer Nəzarəti

Praqa Zirvə toplantısından əvvəl müxtəlif xüsusi sahələrdə bacarıqların təkmilləşdirilməsi işinə başlamaq üçün əhəmiyyətli inkişaf özünü göstərdi. 2002-ci ilin payızında NATO transformasiyasının əsas elementi olan Alyansın Yer Nəzarət (AGS) qabiliyyəti birgə radar sensorunun yaradılması qərarının elan edilməsi ilə müsbət istiqamət aldı və bu həm Alyansın özü tərəfindən idarə edilən Alyansın Yer Nəzarəti (AGS) sisteminin, həm də bu inkişaf proqramında iştirak edən ölkələrin milli ehtiyaclarının qarşılanmasını nəzərdə tuturdu.

NATO AGS sistemini yaratmışdır ki, Alyans komandirlərində missiya həyata keçiriləcək ərazidə vəziyyətlə əlaqədar təsvir yaratmaq imkanı olsun. Bu, həm insan, həmdə insan faktoru olmadan fəaliyyət göstərən radar platformalarının qarışıq formalarından ibarət olacaqdı ki, bunun vasitəsilə yerə baxış keçirmək və məlumatı komandirlərə ötürmək və həmin xüsusi ərazi üzərinə “səmadan baxış” keçirmək imkanı verəcəkdir.

AGS sistemi Nəzarət üçün Transatalantik Sənaye Tərəfdaşlığı (TİPS) tərəfindən Avropa Uçuş Müdafiə və Kosmik Şirkəti, Qalileo Avionika, Kanada Ümumi Dinamikası, İndra, Northtop Grumman & Thales də daxil olmaqla 80 şirkətdən ibarət konsorsiuma təqdim ediləcəkdir. Sistemin 2010-cu ildə ilkin

əməliyyat qabiliyyətinə yiyələnməsi və 2012-ci ildə tam qabiliyyətlə çıxış etməsi planlaşdırılır.

NATO-nun dəniz üzərindən Hava xəbərdarlığı və nəzarət (AWACS) radar aviasiya sistemi kimi AGS-in yerdə baş verənlərə baxış keçirmək imkanı olacaq. AGS NATO əməliyyatlarından əvvəl və əməliyyat ərzində vəziyyətə uyğun məlumatlandırmayla təmin edəcəkdir. Bu müasir hərbi əməliyyatlar üçün vacib olan bacarıqları əhatə edir və NRF üçün əsas aparıcı vasitə olacaqdır.

KBRN

Növbəti mərhələyə Alyansın çoxmillətli tərkibə malik Kimyəvi, Bioloji, Radioaktiv və Nüvə (KBRN) Müdafiə Batalyonu tərəfindən ilkin əməliyyat qabiliyyətinin əldə edilməsi 2003-cü ilin dekabrın 1-ə təsadüf etdi. Xüsusi olaraq KBRN təhlükəsi əleyhinə müdafiə bacarıqlarıyla yanaşı bu sahədə daimi olaraq məsləhət, komanda və nəzarət, hərbi qüvvələrlə əlaqələrin genişləndirilməsini təmin etmək üçün uyğunlaşdırılmışdır və bu tədbirlər NRF konsepsiyasına uyğun olaraq həyata keçirilir, onun bacarıqlarını tamamlamağa xidmət edəcəkdir. İlk yaranış dövründə batalyon bu hərbi hissənin özəyi hesab edilir və təxminən 160 mütəxəssisdən və 13 NATO üzv və tərəfdaş ölkələrinin iştirak etdiyi heyətdən ibarət olan hərbi qüvvələr Çexiya Respublikası tərəfindən idarə olunurdu.

Raket hücumundan müdafiə

NATO Alyans qüvvələrinin, ərazisinin və əhalisinin raket hücumundan müdafiəsini təmin etməkdən ötrü layihələr həyata keçirir. Bu, bütün növdən olan raketlər daxil olmaqla kütləvi qırğın silahlarının və onların çatdırılma vasitələrinin yayılmasının qarşısını almaq kimi məsələləri əhatə edir.

2010-cu ilə NATO cəmləşdirilmiş qoşunlarını müdafiə etmək üçün qısa və orta mənzilli ballistik raketlərin ilkin, orta və son mərhələdə qarşısının alınması bacarığına malik olmağı nəzərdə tutur. Bu aktiv qatlı ballistik raketlərdən teatr müdafiə sistemi həmçinin aviasiya, pilotsuz hava vasitələri və digər havadan təhdidlərə qarşı da qabil olacaqdır.

NATO Alyans qüvvələrini, ərazisini və əhalisini raket təhlükələrinin bütün növlərindən qorumaq üçün vasitələr sınaqdan keçirir. Bu tam miqyaslı müdafiə səyi NATO dövlət və hökumət başçıları tərəfindən 2002-ci il Praqa Zirvə toplantısındakı görüşlərində irəli sürülmüşdür və burada Raket əleyhinə Müdafiənin Mümkünlüyü Tədqiqatının aparılmasına dair razılığa gəlinmişdir.

Tədqiqat NATO Təhlükəsizliyə Sərmayə Proqramı çərçivəsində NATO Məşvərət, Komanda və Nəzarət Agentliyi (NC3A) tərəfindən aparılır. Rəqabətli hərrac prosesindən sonra və N3CA tövsiyələri əsasında qalib konsorsiumla NATO tələbləri əsasında raket əleyhinə sistemin texniki mümkünlüyü, xərcləri və vaxt çərçivəsini öyrənmək məqsədilə 18 aylıq müqavilə imzalandı.

VI HİSSƏ

ALYANSIN YENİ ÜZV DÖVLƏTLƏR ÜÇÜN AÇILMASI

21-ci Fəsil: Genişlənmə prosesi

22-ci Fəsil: Üzvlüyün Fəaliyyət Planı

21-ci Fəsil

GENİŞLƏNMƏ PROSESİ

NATO-nun genişləndirmə haqqında qərarı Şimali Atlantika Müqaviləsinin 10-cu Maddəsində qeyd edilmişdir. Bu, NATO tərəfindən qəbul edilən yeni ölkələrin üzvlüyə qəbul edilməsi ilə bağlı açıq qapı siyasətinin əsasını təşkil edir. Qoşulma üzrə danışıqların başlanması barədə mümkün yeni üzv ölkələrə dəvətlərin göndərilməsi barədə qərar mövcud üzv ölkələr tərəfindən birgə qəbul edilir.

Genişləndirmə həmişə davam edən bir prosesdir. Dörd ölkə hələ 1949-cu və 1980-ci illər arasında (1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə Almaniya, 1982-ci ildə İspaniya) Alyansa qoşulsa da, soyuq müharibə sona çatdıqdan soyuq müharibənin başa çatmasından sonra yeni ölkələrin qəbul edilməsi prosesin ölçüsü və siyasi təsirinə görə daha böyük əks səsdaya malik olmuşdur. 12 ölkə - Albaniya, Bolqarıstan, Çexiya Respublikası, Estoniya, Xorvatiya, Latviya, Litva, Macarıstan, Polşa, Rumıniya, Slovakiya və Sloveniya Alyansın üç genişləndirmə dalğası çərçivəsində NATO-ya qoşulmuş və bir ölkə - keçmiş Yuqoslaviya Respublikası Makedoniya hazırda NATO-ya üzv olmaq üçün namizədlər hazırlayan proqram olan Üzvlüyün Fəaliyyət Planında (MAP) iştirak edir. NATO-nun genişləndirmə prosesi həm Alyansa qoşulmağa çalışan ölkələrin təhlükəsizlik ehtiyaclarına cavab verir, həm də Avropada uzunmüddətli güclü sabitliyin yaradılmasına kömək edir.

Dəyişikliyin başlanğıcı

1980-ci ilin sonunda Avropanın siyasi xəritəsinin dəyişilməsinə səbəb olan dəyişikliklərin kökü 1960 və 1970-ci illər ərzində baş vermiş bir sıra hadisələrdə özünü izlərini göstərir. Üç hadisə xüsusiliyi ilə seçilir: 1967-ci ilin dekabrında Alyans tərəfindən qəbul edilən və bir-birinə tam uyğun müdafiənin təmin etmək üçün Avropanı parçalanmağa aparan siyasi problemləri xüsusilə nəzərə alaraq bu yolda həmin problemlərin həlli, Şərq-Qərb əlaqələrində gərginliklərin azaldılması yolunda edilən cəhdlər üzrə Harmel doktrinasının qəbul edilməsi; 1969-cu ildə Federal Almaniya Respublikası Hökuməti tərəfindən Kansler Villi Brandtın “şərq siyasəti”nin ərsəyə gətirilməsi və bununla hökumətlərin daxili siyasət və xarici fəaliyyətləri nəticəsində meydana çıxan Şərqi Avropa ölkələri-Sovet Birliyi münasibətlərində daha müsbət nəticələrə varmaq; insan hüquqları məsələlərinə dair yeni standartlar və qaydalar üzərində nəzarətin yaradılması və Şərqlə Qərb arasında qarşılıqlı inamın artırılması yolunda

tədbirlər sisteminin təqdim edən 1975-ci ilin Avqustunda Helsinki yekun aktının qəbul edilməsi.

Eyni dərəcədə əhəmiyyətli olan tədbirlər silsiləsi 1980-ci illərdə Şərq-Qərb münasibətlərinin istiqamətini müəyyən etdi. Bu, NATO-nun 1979-cu ilin dekabr ayında qəbul etdiyi nüvə silahlarının modernləşdirməsi və silahlara nəzarət haqqında "ikiqat" qərarına uyğun olaraq Avropada orta mənzilli nüvə qüvvələrinin yerləşdirilməsi, 1987-ci ilin dekabrında imzalanmış Vaşinqton Müqaviləsi üzrə ABŞ və Sovet quruda dislokasiya olunmuş orta mənzili nüvə raketlərinin qlobal səviyyədə aradan qaldırılması; Şərqi Avropada müəyyən geriləmələrə baxmayaraq, 1980-ci ilin avqustunda Polşada "Həmrəylik" müstəqil həmkarlar birliyinin meydana çıxması və tanınması, 1979-cu ilin dekabrında Əfqanıstanın Sovet işğalına məruz qalmasının nəticələri və 1989-cu ildə Sovet qoşunlarının Əfqanıstandan geri çəkilməsi, 1985-ci ilin martında Mixail Qorbaçovun Sovet Kommunist Partiyasına Baş Katib vəzifəsinə seçilməsi və yenidənqurma və aşkarlıq üzrə qətiyyətli hərəkətləri daxil idi.

1989-cu ilin mart ayında Vyanada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində NATO-nun və Varşava Müqaviləsi Təşkilatının 23 üzv ölkəsi arasında Avropada adi qüvvələrin azaldılması ilə bağlı silahlara nəzarət üzrə yeni danışıqlar başlandı. Bu kontekstdə 1989-cu il may ayının sonlarında Brüsseldə keçirilmiş NATO Zirvə Toplantısı xüsusi əhəmiyyət kəsb edirdi. Üzv dövlətlər Sovet İttifaqı və digər Şərqi Avropa ölkələrində gedən dəyişiklikləri əhəmiyyətini qeyd etdilər və Avropanın parçalanmasına son verilməsi və Avropada dinc və ədalətli münasibətlərin yaradılması üzrə Alyansın uzunmüddətli məqsədini formalaşdırmaq üçün davamlı məqsədə nail olunması üzrə Alyansın mövqeyini açıqladılar. Onlar inandırıcı və effektiv çəkindirici qüvvələrə və adekvat müdafiəyə davam edən ehtiyacı bir daha qeyd etmiş və daha geniş Şərq-Qərb əməkdaşlığı üçün geniş gündəlik tərtib etmişlər.

Bütün Avropa qitəsi və beynəlxalq münasibətlər üçün vacib əhəmiyyətli inkişaf bütövlükdə il boyu davam etməkdə idi. 1989-cu ilin sonu və 1990-cı ilin ilk həftələrində Polşa və Macarıstanın iqtisadi sistemlərində nəzərəçarpacaq inkişaf özünü göstərdi. Almaniya Demokratik Respublikası, Bolqarıstan, Çexoslovakiya və Rumıniyada azadlıq və demokratiya sahəsində gözlənildiyindən daha irəliyə gedən addımlar atıldı.

Avropanın və bununla da Almaniyanın bölünməsinə son qoymaq üçün 40 il ərzində gözləyən vəd 1989-cu ilin noyabrında Berlin divarının yıxılması ilə real məna kəsb etdi. Fundamental rəmzilikdən əlavə bu, bir çox Mərkəzi və Şərqi Avropa ölkələrinin sürətli və dramatik inkişafına yol açdı. Bir ildən az

müddətdə 1990-cı il oktyabrın 3-də iki Alman ölkəsinin birləşməsi beynəlxalq ictimaiyyətin dəstəyi və Sovet hökumətinin razılığı, beynəlxalq saziş əsasında və bütövlükdə alman xalqının demokratik istəyi ilə baş verdi. Sovet İttifaqı və Varşava Paktı hökumətlərinin Soyuq Müharibə dövründə formalaşdırdığı mənfi imicə baxmayaraq cəmisi bir neçə il ərzində, bir çox Mərkəzi və Şərqi Avropa ölkələri NATO-ya üzvlüyü özlərinin xarici siyasətlərinin əsas məqsədi kimi təsbit etdilər.

1990-cı il iyulunda keçirilmiş London Zirvə toplantısında NATO özünün keçmiş düşmənlərinə dostluq əlini uzatdı və dialoq, əməkdaşlıq prosesini başlatdı. 1991-ci ilin dekabrında çoxtərəfli konsultasiya və əməkdaşlıq üçün birgə forum kimi Şimali Atlantika Əməkdaşlığı Şurasını yaratdı. 1994-cü ilin yanvarında hər bir ölkə ilə fərdi əsasda əməkdaşlıq üçün çərçivə kimi xidmət edən Sülh Naminə Tərəfdaşlıq proqramı yaradıldı. Şimali Atlantika Əməkdaşlığı Şurasını 1997-ci ilin mayında Avro-Atlantika Əməkdaşlığı Şurası ilə əvəz edildi və AATŞ həmin dövrdən bəri NATO Tərəfdaş ölkələri arasında əməkdaşlıq üçün ümumi siyasi çərçivə kimi xidmət edir.

Qısa müddət ərzində cəlb edilmiş bütün ölkələr bu uğurlu təşəbbüslərə müsbət cavab verdilər və əməli əməkdaşlıq proqramında iştirak etməyə başladılar. Bəzi ölkələr Şimali Atlantika Müqaviləsinə gələcəkdə qoşulmaları üçün dəstək axtarmağa başladılar. 1994-cü ildə Alyans əməkdaşlığın daha da genişləndirilməsi və Avro-Atlantik məkanda sülh və sabitlik üçün əsasların yaradılması üzrə özünün ümumi məqsədləri və uzun müddətli məramları çərçivəsində düşünülmüş cavaba ehtiyac olduğunu tanıdı.

1994-cü ilin yanvarında Brüsseldə keçirilmiş Zirvə Toplantısında NATO liderləri qeyd etdilər ki, onlar "NATO-nun Şərqindəki demokratik ölkələri əhatə edən genişlənməni gözləyirlər və alqışlayırlar". Onlar bir daha təsdiq etdilər ki, Şimali Atlantika Müqaviləsinin prinsiplərini qəbul edən və Şimali Atlantika məkanında təhlükəsizliyə töhfə vermək iqtidarında olan Avropa ölkələrinin üzvlüyü üçün Alyansın qapısı açıqdır.

Bu prosesi Alyansın məqsəd və siyasətində güzəştə edilməyəcəyi və Rusiya və digər ölkələrə təhlükə yaratmayacağına əmin edəcək şəkildə irəliyə aparmaq üçün praktiki addımlar atıldı. Alyans göstərməli idi ki, Avro-Atlantika məkanında sabitlik sferasının genişləndirilməsi həmin ölkələrin də təhlükəsizliyini gücləndirir və onların da marağına uyğundur.

NATO-nun genişlənməsi ilə bağlı tədqiqat

1995-ci ildə Alyans NATO-nun gələcək genişlənməsi ilə bağlı ”niyə və necə” sualı cavablandırmaq üçün “NATO-nun genişlənməsi haqqında Tədqiqat” həyata keçirdi. Tədqiqatın nəticələri marağı olan tərəfdaşlar ilə bölüşdürüldü və ictimaiyyətə açıqlandı. “Nə üçün” sualı ilə bağlı tədqiqat bu nəticəyə gəldi ki, soyuq müharibənin başa çatması, Varşava Müqaviləsi Təşkilatının aradan qalxması ilə bütövlükdə Avro-Atlantika məkanında yeni ayırıcı xətlər çəkmədən daha möhkəm təhlükəsizlik yaradılması üçün həm ehtiyac, həm də unikal imkan yaranmışdır.

Tədqiqat həmçinin bu nəticəyə gəldi ki, Alyansın genişlənməsi demokratik islahatların həvəsləndirilməsi və dəstəklənməsi, o cümlədən, Alyans üzvlərinə xarakterik olan hərbi qüvvələr üzərində mülki və demokratik nəzarət, əməkdaşlıq nümunələri və vərdişlərini möhkəmləndirmək, məsləhətləşmə və konsensus tapılması və mehriban qonşuluq münasibətlərinin təşviq edilməsi yolu ilə Avro Atlantika məkanındakı ölkələrin hamısının möhkəm sabitlik və təhlükəsizliyinə töhfə verərdi. Bu müdafiə planlaması və hərbi büdcə sahəsində şəffaflığın artırar, bununla da ölkələr arasında etimadın möhkəmləndirər və Avropada daha sıx inteqrasiya və əməkdaşlıq meyllərini gücləndirərdi. Tədqiqat həmçinin, bu nəticəyə gəldi ki, genişlənmə Alyansın Avropa və beynəlxalq təhlükəsizliyə töhfə vermək qabiliyyətini gücləndirərdi.

Genişləndirmənin “necə” sualı ilə bağlı tədqiqat Alyansa istənilən gələcək genişlənməsi yeni üzv ölkənin Şimali Atlantika Müqaviləsinə onun 10-cu maddəsinə uyğun olaraq qoşulması şəklində həyata keçiriləcəyini təsbit etdi. Qəbul edildikdən sonra yeni üzvlər üzvlüyün bütün hüquqlarından faydalanmalı və üzvlüyün bütün öhdəliklərinin məsuliyyətini öz üzərinə götürməlidirlər. Onların Alyansa qoşulduğu vaxt üzv ölkələr tərəfindən qəbul edilmiş prinsiplərə, siyasətə və prosedurlara qəbul etmək və onlara əməl etməli olacaqdılar. Bu öhdəliklərin yerinə yetirilməsinə istək və bacarıq üzvlüyə qoşulmaq üçün dəvət barədə Alyans tərəfindən verilən istənilən qərar üçün həlledici amil olmalıdır.

Namizəd ölkələrin üzərinə üzv olmamışdan əvvəl etnik mübahisələr və xarici ərazi mübahisələrini sülh yolu ilə həll etmək, etnik azlıqlarla Avropa Təhlükəsizlik və Əməkdaşlıq Şurası tərəfindən müəyyən olunmuş normalara uyğun davranmaq kimi digər şərtlər qoyulmuşdur. Namizəd ölkələrin hərbi cəhətdən kollektiv müdafiə və sülhməramlı əməliyyatlara töhfə vermə qabiliyyəti də amil olacaqdı. Nəticə etibarı ilə tədqiqat nəticəyə varırdı ki, müttəfiqlər əlavə ölkələrin üzvlüyə dəvət edilməsini konsensus yolu ilə,

konkret zaman kəsiyində müəyyən ölkənin üzvlüyünün Avro-Atlantik məkanda təhlükəsizlik və sabitliyə töhfə verəcəyi barədə mülahizələrinə əsaslanmaqla qərar verəcəklər.

NATO-ya üzv olma

NATO-nun genişlənməsi üzrə 1995-ci ildə aparılmış tətqiqatda göstərilən məsələləri yaxından müzakirə etmək üçün NATO üzvlüyə qoşulmağa marağını ifadə etmiş ölkələrlə "intensivləşdirilmiş dialoqlar" aparmaq qərarına gəldi. İntensivləşdirilmiş dialoqlar ilkin olaraq NATO-nun Soyuq Müharibədən sonra ilk dəfə həyata keçirilmiş genişlənmədə iştirak etmiş Çexiya Respublikası, Macarıstan və Polşa ilə aparılmışdır. Artıq 1997-ci il iyulun əvvəllərində Müttəfiqlərin dövlət və hökumət başçıları bu üç ölkəni üzvlüyə qoşulma danışıqlarına başlamaq üçün dəvət edə bildilər. Üzvlüyə qoşulma protokolları 1997-ci ilin dekabrında imzalandı və 16 NATO ölkəsinin hər biri tərəfindən təsdiq edildi. Bu üç ölkə müqaviləyə qoşuldu və bununla da 1999-cu ilin martında NATO-ya üzv oldular.

2002-ci ildə keçirilmiş Praqa Zirvə toplantısında Müttəfiqlərin dövlət və hökumət başçıları Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya və Sloveniyanı üzvlük danışıqlarına başlamaq üçün dəvət etdilər. Bu yeddi ölkənin hər biri əvvəllər Üzvlük Fəaliyyəti Planında iştirak etmişlər. NATO ölkələri, həm də dəvət edilmiş ölkələr növbəti on iki ay ərzində müvafiq prosedurlara əməl etməklə gələcək üzvlük prosesinə hazırlandılar.

Qoşulma protokolları 2003-cü ilin martın 26-da NATO-nun Mənzil Qərargahına dəvət olunmuş ölkələrin Baş Nazirləri tərəfindən imzalandı. 2004-cü il aprelin sonunda Alyansın bütün üzv ölkələri Şimali Atlantika Müqaviləsinə müvafiq olaraq Birləşmiş Ştatlar hökumətini onların razılıq protokolları barədə məlumatlandırdılar və 2004-cü il martın 2-də NATO Baş Katibi yeddi ölkəni üzvlüyə qəbul edilmək üçün rəsmi olaraq dəvət etdi. 2004-cü il martın 29-da Vaşinqtonda təşkil edilmiş mərasimdə hər bir ölkə Müqavilədə qeyd edildiyi üzrə Alyansın hüquqi və rəsmi üzvünə çevrilmək üçün razılıq haqqında öz rəsmi sənədlərini təqdim etdilər.

Yeddi ölkə ilkin razılıq danışıqlarına başlamaq üçün dəvət edildiyi və qoşulma protokollarının imzalanması, təsdiq edilməsi və üzvlük prosesləri vaxtı ərzində dəvət olunmuş ölkələrin Alyans fəaliyyətinə mümkün dərəcə yaxından səviyyədə cəlb olunmuş və Üzvlüyün Fəaliyyəti Planında iştirakından faydalanmağa davam etməkdə idi. Dəvət olunmuş hər bir ölkə Alyansa öz töhfələrini daha da artırmaq üçün qoşulmadan əvvəl və sonra

da lazımi islahatların həyata keçirilməsindən ötrü zaman cədvəlini təqdim etdi.

Brüsseldə NATO-nun Baş Qərargahının yeni tikilmiş hissəsinin Baş Katib tərəfindən 2004-cü il martın 17-də təntənəli surətdə açıldı və bununla da yeni üzv ölkələrin nümayəndələri müvafiq iş sahələri təmin edildi. 2004-cü il aprelin 2-də yeni üzvlərin bayraqları NATO Baş Qərargahının qarşısında qaldırıldı və 26 ölkənin iştirakı ilə Şimali Atlantika Şurasının ilk rəsmi görüşü keçirildi.

2009-cu ilin 3-4 aprel tarixlərində keçirilmiş NATO-nun Strasburq-Kel zirvə görüşündə daha iki ölkə - Albaniya və Xorvatiya Alyansa üzv qəbul olunmuş, beləliklə NATO üzvlərinin sayı 28-ə çatmışdır.

22-ci Fəsil

ÜZVLÜYÜN FƏALİYYƏT PLANI

1999-cu ilin aprelində keçirilən Vaşinqton Zirvə toplantısında NATO Alyansa qoşulmaq istəyən ölkələrə məsləhət, yardım və əməli dəstəklə kömək etmək üçün Üzvlüyün Fəaliyyət Planının (MAP) əsasını qoydu. İlk əvvəl doqquz ölkə - Albaniya, Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya, Sloveniya və keçmiş Yuqoslaviya Respublikası Makedoniya bu plana qoşuldu. 2001-ci ildə Xorvatiya da bu plana qoşuldu. Bu ölkələrdən yeddisi - Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya və Sloveniya daha sonra 2002-ci ilin noyabrında keçirilmiş Praqa Zirvə toplantısında üzvlük üçün danışıqlara başlamaq üçün dəvət olundular və 2004-cü ilin martında rəsmi olaraq NATO-ya qoşuldular.

MAP ilk olaraq Çexiya Respublikası, Macarıstan, Polşanı və 2004-cü ilin martında Alyansa qoşulmuş yeddi ölkənin üzvlüyə hazırlanması zamanı toplanmış təcrübəyə əsaslanır. Bu, Alyansa qoşulmaq istəyən ölkələrə öz səylərini sənəddə əks olunmuş məqsəd və prioritetlərini yerinə yetirməyə cəmləməyə yardım etməyə xidmət edir və hər bir ölkənin namizədliyinə dəstək vermək və beləliklə NATO-nun üzvlüyünə qapıların açıq olması siyasətinə məzmun verir. Plan, bununla belə, sadəcə olaraq üzv olmaq istəyən ölkələrin öz vəzifələrini yerinə yetirməsi üçün sadəcə kriteriya kataloqu deyil. MAP-da iştirak edən ölkənin gələcəkdə üzv olması məsələsinə təminat vermir. Namizədlərin üzvlük danışıqlarına dəvət edilməsi NATO üzv ölkələri arasında konsensus yolu ilə və konkret hala baxılmaqla qərara alınır.

MAP Sülh Naminə Tərəfdaşlıq Proqramını əvəz etmir. Sülh Naminə Tərəfdaşlıq Proqramında və o cümlədən, Planlaşdırma və Təhlil Prosesində (PARP) tam iştirak namizəd ölkələrin NATO qüvvələri ilə daxili əməliyyat qabiliyyətini inkişaf etdirməyə, hərbi qüvvə quruluşunu hazırlamaq və gələcəkdə mümkün üzvlük bacarıqlarını inkişaf etdirməsinə şərait yaratması baxımında vacib əhəmiyyət kəsb edir. PARP bir çox məqsədlərə xidmət edir. O, müdafiə siyasəti işlərində dəqiqliyi artırmaq üçün əsasları, çoxmillətli qüvvələrin təlimi zamanı lazım olan qüvvələrin və bacarıqların sayının müəyyən edilməsi, Alyans qüvvələri ilə birbaşa bağlı olan hərbi təlimlər və əməliyyatlar və müdafiə islahatı kimi məsələləri özündə birləşdirir.

Hər bir MAP mərhələsinin başlanğıcında namizədlər mümkün üzvlük üçün hazırlıqlar üzrə siyasi, iqtisadi, müdafiə, təbii ehtiyatlar, təhlükəsizlik və hüquqi məsələləri əhatə edən illik milli proqram qəbul edir. Bu ölkələr öz

məramlarını, hədəflərini, iş cədvəllərini ortaya çıxarır və illik olaraq verilənləri yeniləyirlər. Mərhələnin sonunda NATO MAP-da iştirak edən ölkələrin qeyd edilən sahələrdə inkişafı üzrə qiymətləndirmə tərtib edir və bu Şimali Atlantika Şurası və irəliləyiş göstərmiş ölkələr arasında müzakirələrin əsasına çevrilir.

Albaniya və Xorvatiya MAP çərçivəsində öhdəliklərini yerinə yetirərək 2009-cu ilin aprel ayından etibarən NATO-nun tam hüquqlu üzvləri olmuşlar.

Keçmiş Yuqoslaviya Respublikası Makedoniya onu ilkin razılıq danışıqlarının başlanmasına aparan üzvlük haqqında dəvəti mümkün edən meyarları yerinə yetirməklə MAP çərçivəsində Alyansla sıx işləməyə davam edir.

VII HİSSƏ

TƏRƏFDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ

23-cü Fəsil: Avro-Atlantika tərəfdaşlığı: Avro-Atlantika Tərəfdaşlıq Şurası və Sülh Naminə Tərəfdaşlıq

24-cü Fəsil: NATO və Rusiya

25-ci Fəsil: NATO və Ukrayna

26-cı Fəsil: Aralıq dənizi regionu və geniş Orta Şərq ölkələri ilə əməkdaşlıq

27-ci Fəsil: Cənub-Şərqi Avropa ölkələri ilə əməkdaşlıq

23-cü Fəsil

AVRO-ATLANTİKA TƏRƏFDAŞLIĞI: AVRO-ATLANTİKA TƏRƏFDAŞLIQ ŞURASI VƏ SÜLH NAMİNƏ TƏRƏFDAŞLIQ

Alyansın bir çox qeyri üzv dövlətlərlə tərəfdaşlığı inkişaf etdirmək siyasəti soyuq müharibənin sona çatmasından sonra Avro-Atlantik məkanda strateji mühitin dəyişdirilməsində mühüm rol oynamışdır. Tərəfdaşlığın müxtəlif formaları geniş miqyaslı ərazilərdə siyasi dialoq və əməkdaşlığı inkişaf etdirməklə Avro Atlantik məkanda və ondan kənarda vacib təhlükəsizlik problemlərinin qarşısını almaq məqsədilə beynəlxalq əməkdaşlığı tətbiq etmək üçün Avro-Atlantik təhlükəsizlik ənənəsi yaratmağa yardım edir.

Avro-Atlantika tərəfdaşlığı bir çox tərəfdaş dövlətlərdə müdafiə islahatlarını dəstəkləmək və onlara stimul verməklə, həmçinin, demokratik dəyişikliklərə yardım edir. O, müasir, effektiv və demokratik cəhətdən etibarlı silahlı qüvvələr və digər müdafiə institutları yaratmağa kömək edir və tərəfdaş dövlətlərə islahatların sosial və maddi nəticələrinə nəzarət etməyə yardım edir.

Avro-Atlantik təhlükəsizlik üçün hazırkı problemlər daxili və xarici mənbələrə əsaslanan və transmilli xarakter daşıyan təhlükələrdir ki, terrorizm də onlardan biridir. Bu növ təhlükə getdikcə daha çox Avro-Atlantik məkan xaricindən gəlir. Bu şəraitdə beynəlxalq stabillik və təhlükəsizlik daxili islahatlar və uzun müddətli beynəlxalq əməkdaşlıqdan daha çox asılı olur. Tərəfdaşlıq qeyd edilən hər iki məqamda həlledici rol oynayır.

Avro-Atlantika Tərəfdaşlıq Şurası (EAPC-AATŞ) tərəfdaş dövlətlər ilə əlaqələr üçün ümumi siyasi çərçivəni təmin edir. Əlavə olaraq, hər bir dövlət İttifaqla Sülh Naminə Tərəfdaşlıq proqramı (SNT) vasitəsilə fərdi əlaqələr qura bilər. SNT tərəfdaş dövlətlərin öz prioritetlərinə uyğun fəaliyyət növünü seçə bildiyi ikitərəfli təcrübi əməkdaşlıq proqramıdır.

NATO həmçinin Rusiya, Ukrayna, eləcə də Aralıq dənizi regionu və Yaxın Şərq dövlətləri ilə xüsusi münasibətlərə malikdir. Digər fəsillərdə əks olunduğu kimi, bu ölkələrlə əməkdaşlıq AATŞ və SNT proqramı çərçivəsində yaradılmış mexanizm əsasında həyata keçirilir. Bu iki proqram Avro-Atlantik tərəfdaşlığı meydana gətirən 2 bir-birini tamamlayan sütun rolunu oynayır.

Avro-Atlantik Tərəfdaşlığın İnkişafı

1989-cu ilin noyabrında Berlin Divarı dağıldı. Bu, İkinci Dünya Müharibəsindən etibarən beynəlxalq əlaqələrdə üstünlük təşkil edən və Avropanı parçalayan Şərq-Qərb qarşıdurmasının sona çatdığına işarə idi. Qısa müddət ərzində Mərkəzi və Şərqi Avropadakı nəzərəçarpan dəyişikliklərin tempi NATO-nu əvvəlkilərdən yeni və fərqli təhlükəsizlik problemləri ilə üzüzə qoydu. Gözlənilməz miqyasdakı siyasi dəyişiklik Avropada təhlükəsizliyi genişləndirmək üçün geniş imkanlar açdı, ancaq özü ilə birlikdə istər-istəməz potensial qeyri-müəyyənliklər gətirdi.

Müttəfiq liderlər 1990-cı ilin iyulunda Londondakı Zirvə toplantısında Mərkəzi və Şərqi Avropanın bütün dövlətləri ilə yeni birgə əməkdaşlıq təklif etdilər. Hadisələr yüksək sürətlə inkişaf etdi və 1991-ci ilin dekabrında yeni əlaqələri təşviq edən ilk rəsmi qurum – ümumi narahatlıq doğuran məsələləri müzakirə etmək məqsədilə NATO və yeni tərəfdaş dövlətləri bir araya gətirməli olan Şimali Atlantika Əməkdaşlıq Şurası (NACC) fəaliyyətə başladı. İlk dəfə olaraq Şura 1991-ci il dekabrın 20-də toplandı, hansı ki həmin gün Sovet İttifaqının mövcudluğuna son qoyulmuş və həm regionda, həm də dünyada mövcud olan problemlərin aradan qaldırılmasında yenicə müstəqillik qazanmış dövlətlərə demokratik ölkələr kimi iştirak etmək istəklərini həyata keçirmək üçün yardım təklif olunmuşdu.

Təhlükəsizlik sahəsindəki gözlənilməz dəyişikliklər həmçinin İttifaqın 1991-ci il noyabr ayında qüvvəyə minən yeni strateji konsepsiyasında öz əksini tapdı. Bu konsepsiya üç elementi – dialoq, əməkdaşlıq və kollektiv müdafiə qabiliyyətini özündə əks etdirən yanaşmanı qəbul etdi. Müdafiə istiqamətinin zəruri olmasına baxmayaraq, siyasi vasitələrlə İttifaqın məqsədlərinə çatmaq imkanı həmişə olduğundan daha böyük idi. Dialoq və əməkdaşlıq NATO-nun üzləşdiyi müxtəlif çətinliklərin qarşısını almaq üçün tələb olunan yanaşmanın əsas hissələrini formalaşdırmalı idi. Soyuq müharibənin sona çatması ilə buraya anlaşılmazlıqdan baş verən münaqişə təhlükəsinin azaldılması və ya Müttəfiq Dövlətlərin təhlükəsizliyinə təsir göstərə bilən böhranlı vəziyyətlərin qarşısını almaq, bütün Avropa dövlətləri arasında qarşılıqlı anlaşma və inamı artırmaq və ümumi təhlükəsizlik problemlərinin aradan qaldırılmasında real imkanlarının genişləndirilməsi üçün yeni təşəbbüslər kimi tədbirlər daxil idi.

NACC məsləhətləşmələri ilk olaraq diqqəti Rusiya qoşunlarının Baltikyanı ölkələrdən çıxarılması kimi Soyuq Müharibənin sona çatmasından doğan təhlükəsizlik məsələlərinə yetirdi. Həmçinin bir çox təhlükəsizlik və müdafiə məsələləri ilə bağlı siyasi əməkdaşlıq başlandı. NACC Avro-Atlantik

məkanda həyata keçirilən islahatları dəstəkləməyə, şəffaflıq və inam yaratmağa yardım etməklə yeni mərhələyə qədəm qoydu. Bunula belə, Şura əsas diqqəti çoxtərəfli siyasi dialoqa yetirdi və Tərəfdaş dövlətlərə xüsusi vəziyyət və tələblərinə uyğun olaraq NATO ilə fərdi əməkdaşlıq əlaqələrini inkişaf etdirmək imkanı vermədi. Bu vəziyyət 1994-cü ildə Sülh Naminə Tərəfdaşlıq proqramının irəli sürülməsi ilə dəyişdi. NATO və fərdi tərəfdaş dövlətlər arasında ikitərəfli praktiki əməkdaşlığı nəzərdə tutan bu böyük proqram əməkdaşlıq prosesində irəliyə dogru əhəmiyyətli bir addım oldu. Üç il ərzində əldə edilən uğur daha sonra Şimali Atlantika Əməkdaşlıq Şurası yerini tutmaq və daha geniş əməkdaşlığa yol açan nəticələrə əsaslanmaq məqsədilə Avro Atlantik Əməkdaşlıq Şurasının yaradılması ilə daha da möhkəmləndirildi. EAPC-AATŞ NACC-i əvəz etmək və onun uğurları əsasında daha geniş və çevik tərəfdaşlığa nail olmaq məqsədi daşıyırdı.

Tərəfdaşlıq prosesi bu prosesə qoşulan bütün ölkələr arasında kommunikasiya və anlaşma yaratmağı nəzərdə tutur, hansı ki bu ölkələrin bəziləri uzunmüddətli regional, ərazi, siyasi, etnik və dini münaqişələrə malikdir. Ümumi təhlükəsizlik problemlərinin birgə həllini tapmaq məqsədi güdən tədbirlər keçmiş ədalətsizliklərin qarşısını almaq və bu əməkdaşlıqdan qarşılıqlı fayda əldə etmək görüntüsü yaratmaq yolunda vacib nailiyyətlərin qazanılmasına gətirib çıxardı.

Tərəfdaşlıq prosesinin başlanmasından bəri nəzərəçarpan inkişaf əldə edilmiş, EAPC-AATŞ və SNT proqramı Avro-Atlantik təhlükəsizliyin mühüm hissəsinə çevrilmişdir. Bu məkanda müəyyən ləngimə və çətinliklər olmuşdur ki, bu da Mərkəzi və Şərqi Avropa və Keçmiş Sovet İttifaqında baş verən kompleks siyasi, iqtisadi və sosial dəyişikliklər fonunda qaçılmaz olmuşdur. Buna baxmayaraq, NATO üzv və Tərəfdaş ölkələr öz aralarında yaradılan tərəfdaşlıq planlarına əsaslanmaqla təhlükəsizlik üzrə əməkdaşlığı artırmaq məqsədilə atdıqları uğurlu addımlar nəticəsində cəmi bir neçə il ərzində EAPC-AATŞ və SNT proqramı çərçivəsində öz fəaliyyətlərini daha yüksək şəkildə inkişaf etdirmişlər.

Bu gün tərəfdaş dövlətlər müntəzəm olaraq İttifaqın üzv dövlətləri ilə məsləhətləşmələr həyata keçirir. Onlar müdafiə və təhlükəsizliyin bir çox müxtəlif aspektlərinə dair məsələlər üzrə əməkdaşlıq edirlər. Bu dövlətlərin hərbi qüvvələri müntəzəm olaraq birlikdə təlimlər keçir və onların əsgərləri NATO tərəfindən həyata keçirilən sülhməramlı əməliyyatlarda bir cəbhədə xidmət edirlər. Tərəfdaş dövlətlər həmçinin terrorizm təhlükəsinə qarşı İttifaqın üzv dövlətləri ilə birlikdə fəaliyyət göstərirlər.

Təhlükəsizlik mühitinə təsir göstərən yeni çətinliklərin qarşısını almaq məqsədilə NATO-nun uzunmüddətli transformasiyaya olan ehtiyacı tərəfdaşlıq və əməkdaşlığın, NATO-nun yeni prioritetlərinə uyğun gəlmək üçün qəbul olunan fəaliyyət və mexanizmlərin inkişafına böyük təsir göstərmişdir. Bundan başqa, müxtəlif tərəfdaş dövlətlərin arzularını həyata keçirmək və onlar üçün cəlbedici qalmaq məqsədilə tərəfdaşlıq daha da genişləndirilməli və dərinləşdirilməlidir. Deyilənlərin məntiqi nəticəsi olaraq NATO-nun 1999-cu il Vaşinqton, 2002-ci il Praqa və 2004-cü il İstanbulda ardıcıl olaraq keçirilən Zirvə toplantılarında üzv və tərəfdaş dövlətlər arasındakı əməkdaşlığı dərinləşdirmək və genişləndirmək məqsədilə yeni təşəbbüslər irəli sürüldü.

Tərəfdaşlığın dəyişən siması

Avro-Atlantik Tərəfdaşlıq bəzi Tərəfdaş dövlətləri NATO-ya üzv olmağa hazırlamaq məsələsində yardımçı oldu. Tərəfdaşlıq proqramı həmçinin İttifaqa üzv olmadan Avro-Atlantik təhlükəsizliyə töhfə vermək istəyən digər dövlətlər üçün əvəzolunmaz çərçivə rolunu oynayır.

Müxtəlif illər ərzində 30 ölkə - Albaniya, Avstriya, Azərbaycan, Belarusiya, Bolqarıstan, Çexiya Respublikası, Ermənistan, Estoniya, Xorvatiya, Finlandiya, Gürcüstan, İrlandiya, İsveç, İsveçrə, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Macarıstan, Makedoniya, Moldova, Polşa, Özbəkistan, Rumıniya, Rusiya, Slovakiya, Sloveniya, Tacikistan, Türkmənistan, Ukrayna SNT proqramına qoşulmuşdur.

Yuxarıda adları çəkilən Tərəfdaş dövlətlərdən onu NATO-nun üzvü olmuşdur və üç namizəd dövlət gələcək üzvlük üçün hazırlaşmaqdadırlar.

Uğurlu genişlənmə mərhələləri üzv və tərəfdaş dövlətlər arasındakı balansı əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Qalan 28 tərəfdaş dövlət üzləşdikləri vəziyyət və inkişaf şəraiti baxımından fərqlənirlər. Bu müxtəliflik həmçinin onların tərəfdaşlıq fəaliyyəti zamanı da özünü göstərir. Bəzi tərəfdaş dövlətlər öz müdafiə strukturu və imkanlarını inkişaf etdirmənin ilkin mərhələlərindədirlər. Digər dövlətlər isə NATO-nun həyata keçirdiyi əməliyyatlara əhəmiyyətli miqyasda qüvvələr vermək və bəzi tərəfdaş dövlətlərə öz təcrübələrinə əsaslanaraq məsləhət, təlim və yardım təklif etmək qabiliyyətinə malikdirlər.

Bosniya-Hertsoqovina və Serbiya-Çernoqoriya da həmçinin SNT-yə qoşulmaq niyyətlərini bildirmişlər. NATO bu təşəbbüsü tam şəkildə dəstəkləyir, ancaq hər iki dövlətin bu proqrama qəbul olunması üçün bir sıra

şərtlər də irəli sürür. Buraya Keçmiş Yuqoslaviya məsələsi ilə bağlı Beynəlxaq Cinayət Tribunalı ilə sıx əməkdaşlıq etmək, xüsusilə, müharibə cinayətlərinə görə ittiham olunan şəxslərin həbsi və Tribunala verilməsi daxildir.

Avro-Atlantika Tərəfdaşlıq Şurası

EAPC-AATŞ ümumilikdə 46 dövləti – 28 üzv və 18 tərəfdaş dövləti onlar arasında siyasi və təhlükəsizlik məsələləri ilə bağlı müntəzəm dialoq və məsləhətləşmələr aparıldığı çoxtərəfli forumda bir araya gətirir. Eyni zamanda Şura həmçinin NATO və SNT proqramında iştirak edən dövlətlər arasında inkişaf etdirilən fərdi ikitərəfli əlaqələr üçün siyasi struktur rolunu oynayır.

1997-ci ildə EAPC-AATŞ-ni yaratmaq haqda qərar qəbul edildi. Bu qərar NACC-in nailiyyətlərini geridə qoymağın və SNT proqramı çərçivəsində Tərəfdaş dövlətlərlə artan surətdə inkişaf etdirilən əlaqələrə uyğun təhlükəsizlik forumu yaratmağın zamanı gəlməsinin İttifaq tərəfindən təsdiqi idi. Əldə olunan əməkdaşlığın səviyyəsi Bosniya və Hertsoqovinada NATO-nun apardığı sülhməramlı əməliyyat zamanı da özünü aydın şəkildə göstərdi. 1996-cı ildə bu əməliyyatlarda 14 Tərəfdaş dövlət Müttəfiqlər ilə eyni cəbhədə xidmət etmək üçün qoşun çıxardı. NACC-dan EAPC-AATŞ-yə keçid haqqında qərarın qəbul edilməsi tərəfdaşlıq fəaliyyəti barəsində planlaşdırma və qərar qəbuletmə prosesində tərəfdaş dövlətlərin iştirakının artırılmasında SNT-nin rolunu genişləndirmək məqsədilə atılan paralel addımlarla vəhdət təşkil etdi.

Hazırkı siyasi və təhlükəsizlik məsələləri ilə bağlı AATŞ-də aparılan qısamüddətli məsləhətləşmələrə əlavə olaraq uzunmüddətli məsləhətləşmə və əməkdaşlıq geniş coğrafi məkan çərçivəsində aparılır. Buraya böhranın aradan qaldırılması və sülhməramlı əməliyyatlar, regional məsələlər, silahlara nəzarət və kütləvi qırğın silahlarının yayılması ilə bağlı məsələlər, terrorizmə qarşı mübarizə, planlaşdırma, maliyyələşdirmə, siyasət və strategiyanı əhatə edən müdafiə məsələləri, mülki fövqəladə planlaşdırma və fəlakətlərə hazırlıq, silahlanmada əməkdaşlıq, nüvə silahı təhlükəsizliyi, hava hərəkətinin idarə olunması və elmi sahədə əməkdaşlıq daxildir.

Avro Atlatika Tərəfdaşlıq Şurası öz sərəncamında ona çeviklik verən və NATO-nun bütün üzv və tərəfdaş dövlətlərinin və ya müzakirə olunan məsələdən asılı olaraq daha kiçik işçi qruplarının görüşlərinə şərait yaradan bir sıra seçimlərə malikdir.

Əksər Tərəfdaş dövlətlər müntəzəm əlaqələri təmin etmək və ehtiyac yaranan kimi məsləhətləşmələrin keçirilməsinə şərait yaratmaq məqsədilə Brüsseldə yerləşən NATO-nun Baş Qərargahında diplomatik nümayəndəliklərini yaratmışdır. Avro-Atlantika Tərəfdaşlıq Şurasının iclasları ayda bir dəfə səfirlər, ildə bir dəfə xarici işlər, müdafiə nazirləri və hərbi qərargah rəisləri səviyyəsində, həmçinin vaxtaşırı və yaxud istisna hallarda zirvə toplantısı səviyyəsində keçirilir. 2005-ci ildə Avro Atlantika Tərəfdaşlıq Şurasının yüksək səviyyəli yeni Təhlükəsizlik Forumu fəaliyyətə başladı. Forum ildə bir dəfə vacib təhlükəsizlik məsələlərini müzakirə etmək üçün qeyri-formal çərçivədə görüşəcək və yüksək dövlət rəsmiləri, parlament üzvləri, ictimai rəy yaradanlar və vətəndaş cəmiyyəti üzvlərini bir araya gətirəcəkdir.

Sülh Naminə Tərəfdaşlıq

Alyansin özülünü təşkil edən demokratik prinsiplər üçün öhdəlik və praktiki əməkdaşlığa əsaslanan SNT proqramı islahatları təşviq etmək, stabilliyi artırmaq, sülhə olan təhlükəni zəiflətmək, Tərəfdaş dövlətlər və NATO arasında, həmçinin Tərəfdaş dövlətlərin özləri arasında sıx təhlükəsizlik əlaqələri qurmağa səy göstərir.

SNT proqramının əsas mahiyyəti fərdi olaraq hər bir Tərəfdaş dövlət və NATO arasında fərdi ehtiyaclara cavab verən və hər bir iştirakçı dövlətin seçdiyi səviyyə və sürətdə birgə həyata keçirilən tərəfdaşlıqdır. Sülh Naminə Tərəfdaşlıq yaradılmasından bəri praktiki mexanizmlərdən təşkil olunan mükəmməl vasitə SNT-in məqsəd və istəklərini həyata keçirməyi dəstəkləmək və ideyaları reallığa çevirmək üçün inkişaf etdirilmişdir. Bu vasitələr Tərəfdaş ölkələrin NATO ilə əlaqələrini səmərəli şəkildə əks etdirən proqramlarda iştirak etmək imkanını genişləndirməklə həm ikitərəfli, həm də çoxtərəfli tədbirlər üçün çərçivə rolunu oynayır.

SNT proqramı üçün əsas rəsmi mənbə rolunu 1994-cü ildə İttifaq tərəfindən qəbul olunan çərçivə sənədi oynayır. Bu zaman həmçinin proqramda iştirak etmək istəyən maraqlı dövlətlərə Alyans tərəfindən dəvət də göndərildi. Çərçivə sənədində ərazi bütövlüyü, siyasi müstəqillik və ya təhlükəsizliyinə qarşı birbaşa təhlükə hiss edən istənilən Tərəfdaş dövlət ilə məsləhətləşmə aparmaq üçün İttifaqın üzv dövlətləri tərəfindən götürülən öhdəlik öz əksini tapmışdır. Həmçinin hər bir Tərəfdaş dövlət də demokratik cəmiyyətləri müdafiə etmək, beynəlxalq hüququn prinsiplərini dəstəkləmək, BMT-nin Nizamnaməsi, Beynəlxalq İnsan Hüquqları Bəyannaməsi, Helsinki Yekun Aktı, silahların ixtisara salınması və silahlara nəzarət üzrə beynəlxalq razılaşmalardan irəli gələn öhdəlikləri yerinə yetirmək, digər dövlətlərə qarşı

güc təhlükəsi və ondan istifadədən çəkinmək, mövcud sərhədlərə hörmət etmək və münaqişələri sülh yolu ilə həll etmək kimi prinsipləri nəzərdə tutan siyasi öhdəliklər götürür. Eləcə də milli müdafiənin planlaşdırılması və maliyyələşdirilməsində şəffaflığı artırmaq, silahlı qüvvələr üzərində demokratik nəzarət yaratmaq, sülhməramlı və humanitar əməliyyatlarda NATO ilə birgə fəaliyyət göstərmək qabiliyyətini inkişaf etdirmək məsələləri üzrə də xüsusi öhdəliklər qəbul edilmişdir.

SNT çərçivəsində fərdi fəaliyyət seçimi hər bir Tərəfdaş dövlətin şəxsi istək və bacarığına əsaslanır. Seçilmiş sahələr İttifaqa prezentasiya sənədi formasında təqdim olunur. Bu sənəd NATO və hər bir tərəfdaş dövlət arasında birgə təkmilləşdirilən və razılaşdırılan Fərdi Tərəfdaşlıq Proqramı üçün əsas mənbə rolunu oynayır. İki illik müddət üçün nəzərdə tutulan bu proqramlar Tərəfdaşlığın məqsəd və prioritetlərini əks etdirən geniş fəaliyyət siyahısından tərtib olunur. Bu sənədlərdə əməkdaşlıq, xüsusilə, hərbi uyarlılıq, müdafiə islahatları və bu islahatların nəticələrinin idarə olunmasına xüsusi diqqət yetirilir. Həmçinin o, müdafiə siyasəti və planlaşdırma, mülki-hərbi əlaqələr, təhsil və təlim, hava hücumundan müdafiə, kommunikasiya və informasiya sistemləri, hərbi yenidənqurma, böhranların idarə olunması və mülki fövqəladə planlaşdırma, informasiya və kommunikasiya proqramları, elmi əməkdaşlıq da daxil olmaqla faktiki olaraq NATO-nun bütün fəaliyyət sahələrinə toxunur.

İkitərəfli proqram və hərbi təlimlər Sülh Naminə Tərəfdaşlığın əsas məqsədlərindən birinə uyğun olaraq Tərəfdaş dövlətlərə Sülhməramlı əməliyyatlarda NATO qüvvələri ilə birlikdə iştirak etmək üçün öz qüvvələrini inkişaf etdirməyə yardım etmişdir. Onlar öz qüvvələrinin döyüş meydanında səmərəliliyini təmin etmək məqsədilə onları İttifaqın əməliyyat standartlarına uyğunlaşdırır və NATO-nun istifadə etdiyi müvafiq sistem və texnologiyaları qəbul edirlər. 1994-cü ildə Müttəfiq Qüvvələrin Avropadakı Baş Qərərgahında əsası qoyulan Tərəfdaşlıq üzrə Əlaqələndirmə Mərkəzi tərəfdaşlığın inkişafı və SNT təlimlərini əlaqələndirilməsinə yardım göstərmək üçün NATO-nun hər iki Strateji Komandanlığı ilə birgə fəaliyyət göstərir. (Bax səh 199).

1999-cu il aprel ayındakı Vaşinqton Zirvə toplantısında SNT-in ümumi işini və Tərəfdaş dövlətlərin SNT-in qərar qəbul etmə və planlaşdırma sahəsindəki fəaliyyətinə cəlb edilməsini genişləndirmək məqsədilə mühüm təşəbbüslər irəli sürüldü. Buraya daha sıx hərbi əməkdaşlığın inkişafını və çoxmillətli qüvvələrin hərbi effektivliyini artırmaq məqsədini daşıyan Əməliyyat İmkanları Konsepsiyasının irəli sürülməsi daxil idi. Sülhməramlı qüvvələrin istifadəsini və hərbi planlaşdırma ilə bağlı məsələlərin

müzakirəsinə Tərəfdaş dövlətlərin cəlb olunmasına gətirəcək gərgin böhranlar zamanı məsləhətləşmələri gücləndirmək məqsədilə Hərbi-Siyasi Çərçivə yaradılmışdır. Həmçinin SNT Təlim və Tədrisin İnkişafı Proqramı irəli sürüldü, hansı ki NATO üzv və Tərəfdaş dövlətlərində hərbi və təhlükəsizlik sahəsində fəaliyyət göstərən qurumlar arasındakı əməkdaşlıq və dialoqu daha sıx inkişaf etdirmək və uyarlılığı artırmağa yardım etmək məqsədi daşıyırdı. Bundan başqa SNT ölkələri üçün təlim imkanlarının genişləndirilməsinə töhfə verən bir sıra tanınmış SNT Təlim Mərkəzləri mövcuddur. Tərəfdaş dövlətlərin gündəlik fəaliyyətini daha sıx əlaqələndirmək üçün NATO-nun səkkiz hərbi qərargahında tərkibi Tərəfdaş dövlətlərin nümayəndələrindən təşkil olunmuş SNT Heyət Qrupları yaradılmışdır (bax səh 199).

Sülhməramlı əməliyyatlarda Tərəfdaş dövlətlərin qüvvələrinin NATO-ya üzv olan dövlətlərin qüvvələri ilə birlikdə daha yaxşı fəaliyyət göstərməsini təmin etmək üçün yaradılmış SNT Planlaşdırma və Analiz Prosesi (PAP) çərçivəsində təmin olunur, hansı ki uyarlılıq və ya mövcud imkanlar üzrə tələblərlə bağlı rəhbər rol oynayır. Bu proses Tərəfdaş dövlətlərin NATO-nun Balkanlar və Əfqanıstanda apardığı sülhməramlı əməliyyatlarda daha səmərəli iştirakına böyük yardım göstərmişdir. İstifadə olunan mexanizm NATO-nun şəxsi qüvvə planlaşdırma sisteminə uyğun olaraq modelləşdirilib və bundan istifadə etmək istəyən Tərəfdaş dövlətlər üçün açıqdır. Tərəfdaşlıq Məqsədləri kimi tanınan planlaşdırma hədəfləri hər bir iştirakçı dövlətlə müzakirə olunur, hansı ki geniş analiz nəticəsində əldə olunan uğurun qiymətləndirilməsini təmin edir. Tələblər artıq daha mürəkkəb və zəruri olmuşdur və NATO üzv dövlətlərinin özləri üçün müəyyən etdikləri öz imkanlarının təkmilləşdirilməsi ilə əlaqəlidir. PAP həmçinin Tərəfdaş dövlətlər tərəfindən effektiv və davamlı silahlı qüvvələrə malik olmaq və daha geniş hərbi islahatları cəhdini artırmaq məqsədilə istifadə olunur. 2001-ci ildə İsveçrədə irəli sürülmüş Mövcud İnformasiyanın İdarəedilməsi və Mübadiləsi Sistemi üzrə Tərəfdaşlıq (PRIME) proqramı NATO üzv və Tərəfdaş ölkələrinə NATO proqramları çərçivəsində informasiya mübadiləsi aparmaq, öz iştirakını və resurslarını təklif və xahiş etmək imkanı verir.

2002-ci ilin noyabr ayında keçirilən Praqa Zirvə toplantısında Tərəfdaşlıq çərçivəsində əməkdaşlığı dərinləşdirmək istiqamətində növbəti addımlar atıldı. Toplantı zamanı EAPC-AATŞ və SNT-nin geniş təhlilindən sonra hərbi islahatlar üzrə əməkdaşlığı genişləndirmək, Tərəfdaş dövlətlərlə siyasi dialoqu gücləndirmək və onların birgə fəaliyyətinin planlaşdırılması, aparılması və buna nəzarətin həyata keçirilməsi sahəsində əməkdaşlığın daha da genişləndirmək məsləhət görüldü. Terrorizmə mübarizədə çoxtərəfli

əməkdaşlığı genişləndirmək məqsədilə Terrorizmə qarşı Tərəfdaşlıq Əməliyyat Planı (PAP-T) irəli sürüldü.

Praqa Zirvə toplantısında Tərəfdaş dövlətlərin islahat ehtiyaclarını qarşılamaq məqsədilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (IPAP) adı altında yeni ikitərəfli mexanizm irəli sürüldü. Bu plan İttifaqa xüsusilə hərbi, siyasi və struktur islahatlarını həyata keçirmək istəyində olan və bunu etməyə qabil olan Tərəfdaş dövlətlərə öz məsləhət və yardımını təklif etmək imkanı verir. İki illik əsasda irəli sürülən IPAP bütün müxtəlif əməkdaşlıq mexanizmlərini bir araya gətirir, hansı ki bu mexanizmlər vasitəsilə Tərəfdaş ölkə İttifaqla əlaqə qurur və bununla daxili islahatların daha səmərəli həyata keçirilməsi üçün dəstək almış olur. Yuxarıda qeyd edilən məsələlər üzrə intensiv siyasi dialoqların aparılması IPAP-in ayrılmaz hissəsidir. IPAP NATO üzv və Tərəfdaş dövlətlər tərəfindən fərdi qaydada həyata keçirilən ikitərəfli yardımın əlaqələndirilməsi, həmçinin digər beynəlxalq institutlarla əməkdaşlığın koordinasiyasını daha da asanlaşdırmağa səy göstərir. 2004-cü ilin noyabr ayında Gürcüstan NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planını inkişaf etdirən ilk dövlət oldu və hazırda bu plan bir çox tərəfdaş dövlətlər ilə də inkişaf etdirilir.

Praqadakı uğurlu başlanğıcdan sonra 2004-cü ilin iyun ayında İstanbul Zirvə toplantısında Tərəfdaşlığı gücləndirmək, onu xüsusi əhəmiyyətli sahələrə yönəltmək və fərdi Tərəfdaş dövlətlərin ehtiyac və imkanlarına daha da uyğunlaşmaq üçün növbəti addımlar atılmışdır. Bu toplantıda hərbi islahatlar Avro-Atlantika Tərəfdaşlığının əsas prioritetlərindən biri kimi qəbul edildi və Tərəfdaş dövlətləri effektiv və demokratik müdafiə institutları yaratmağa çağırmaq və onları bu işdə dəstəkləmək məqsədilə Müdafiə İnstitutları Quruculuğu üzrə Tərəfdaşlıq Əməliyyat Planı irəli sürüldü.

Tərəfdaş dövlətlərin NATO-nun apardığı əməliyyatlara töhfə vermək imkanları daha da genişlənmişdir. Belə ki, töhfə verən dövlətlər ilkin qərar qəbulu prosesində və siyasi məsləhətləşmələrdə daha çox iştirak etməyə başlamışlar. Həmçinin Əməliyyat İmkanları Konsepsiyası NATO-nun əməliyyatlarda artan rolu və imkanlarına uyğun olaraq hərbi uyarlılığı artırmaq və hərbi strukturların transformasiyası məqsədilə həyata keçirilən tədbirlər vasitəsilə daha da inkişaf etdirilir. Tərəfdaş dövlətlərə SNT-in məqsəd və prioritetləri çərçivəsində onlar üçün münasib olan tədbirləri daha asan müəyyənləşdirmək imkanı verən proqramlar təşkil etmək sahəsində tədbirlər görülür.

İstanbul Zirvə toplantısında həmçinin Qafqaz (Azərbaycan, Ermənistan, Gürcüstan) və Mərkəzi Asiya (Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistan) kimi strateji cəhətdən əhəmiyyətli iki regionda

yerləşən Tərəfdaş dövlətlərlə əməkdaşlığa xüsusi diqqət yetirilməsi qərara alındı. Bu regionlarda NATO Baş Katibinin adından fəaliyyət göstərmək üçün bir Xüsusi Nümayəndə və iki əlaqələndirici zabit təyin olundu. Bu tədbirlər FTƏP-i hazırlayan dövlətlərə bu planın müəyyən hissələrini icra edən zaman NATO-nun məsləhət və yardımlarını genişləndirmək məqsədilə həyata keçirilir. Bunlar həmçinin Müdafiə İnstitutları Quruculuğu və PAP-T sahəsində, həmçinin hərbi islahatlar məsələsində xüsusi əhəmiyyəti olan PAP sahəsində gələcək əməkdaşlıq üçün nəzərdə tutulur.

Hərbi islahatlar

Bir çox tərəfdaş dövlətlər soyuq Müharibənin mirası olan geniş ordu, nəhəng silah və döyüş sursatı ehtiyatının yaratdığı çətinliklərlə qarşı-qarşıyadır. Hazırkı təhlükəsizlik problemlərinin qarşısını almaq, böhranların idarə edilməsi və sülhməramlı əməliyyatlara effektiv yardım göstərmək üçün zəruri olan imkanları inkişaf etdirmək məqsədilə vacib hərbi islahatların həyata keçirilməsi də həmçinin əsas məsələdir. Bu islahatların sosial və iqtisadi nəticələrinin idarə edilməsi üçün əhəmiyyətli vasitələrin tapılması da eyni dərəcədə önəmlidir.

SNT Proqramının ən böyük töhfələrindən biri də tərəfdaş ölkələrlə fərdi şəkildə həyata keçirilən ikitərəfli proqramlardır, hansıların ki məqsədi hərbi islahatlar sahəsində təcrübə mübadiləsi və mövcud nəzəri və praktiki problemlərin aradan qaldırılmasında tərəfdaş ölkələrə yardım etməkdir. NATO həmçinin tərəfdaş ölkələrin hərbi heyətin mülki həyata yenidən inteqrasiyası, hərbi obyektləri yenidən inkişafı, köhnəlmiş və ya ixtisara salınmış silah və hərbi sursatdan təhlükəsiz şəkildə xilas olma kimi sahələrdə səylərini dəstəkləmək məqsədilə bir çox təşəbbüslər irəli sürmüşdür.

Səmərəli institutların yaradılması

Mülki və demokratik nəzarət altında mövcud olan effektiv hərbi dövlət qurumları Avro-Atlantik məkanda stabilliyin təmin olunması və təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq üçün zəruridir. Bu məsələnin vacibliyini dərk edən EAPC-AATŞ dövlətlərinin dövlət və hökumət başçıları 2004-cü il iyun ayında keçirilən İstanbul Zirvə toplantısında Müdafiə İnstitutları Quruculuğu sahəsində yeni Tərəfdaşlıq Əməliyyat Planı irəli sürdülər.

Bu yeni mexanizmin məqsədi daxili ehtiyacı ödəmək və beynəlxalq tələbləri yerinə yetirmək üçün Tərəfdaş dövlətlərin hərbi institutlarını yenidən

qurmaq sahəsində islahatlara təşəbbüs göstərməsi və həyata keçirilməsində onların səylərini gücləndirməkdir. Həmin Fəaliyyət Planı bu sahədə görülən işlər üçün ümumi məqsədləri müəyyənləşdirir, müvafiq təcrübə mübadiləsini təşviq edir, ikitərəfli müdafiə və təhlükəsizlik proqramlarının həyata keçirilməsinə və onlara olan diqqətin artırılmasına yardım edir.

Bu planın əsas məqsədlərinə hərbi sahəyə demokratik nəzarət üçün effektiv və şəffaf tədbirlərin həyata keçirilməsi, müdafiə və təhlükəsizlik siyasətinin inkişafında mülki şəxslərin iştirakı, müdafiə sektoruna effektiv, şəffaf, qanuni və məhkəmə nəzarəti, müvafiq olaraq təhlükəsizlik riskləri, milli müdafiə tələbləri və müvafiq imkanları müəyyən edən proseslərin həyata keçirilməsi daxildir. Əməliyyat Planı həmçinin hərbi və təhlükəsizlik məsələlərində effektiv beynəlxalq əməkdaşlığın və sıx qonşuluq münasibətlərinin əhəmiyyətini nəzərə çatdırır. Onun həyata keçirilməsi Əməliyyat Planının məqsədlərini yerinə yetirmək üçün əsas vasitə olan SNT PAP da daxil olmaqla, AATŞ və SNT-nin mövcud vasitə və mexanizmlərindən maksimum istifadə etməyə imkan verir. Bu planın effektiv həyata keçirilməsi həmçinin müdafiə, hərbi idarəçiliyi və hərbi islahatlar sahəsindəki standart və nəzəriyyələrin dərk edilməsini zəruri edir.

Etimad Fondu siyasəti

Hərbi islahatlar sahəsində ən əhəmiyyətli tədbirlərdən biri də 2000-ci ilin sentyabr ayında NATO/SNT İnam Fondu siyasətinin irəli sürülməsi olmuşdur. Bu siyasət Piyadalar əleyhinə toplanmış minaların təhlükəsiz şəkildə məhvində, bu minaların istifadəsi, toplanması, istehsalı və ötürülməsinin qadağan olunması və onların məhvi üzrə Ottava Konvensiyasının həyata keçirilməsində Tərəfdaş ölkələrə dəstək olmaq məqsədini güdür. Etimad Fondu siyasəti həmçinin digər döyüş sursatları, yüngül və kiçik silahların məhvini nəzərdə tutan digər layihələri özündə ehtiva etməklə öz fəaliyyət sahəsini genişləndirmişdir. Etimad Fondları həmçinin tərxis olunmuş hərbi heyətə yenidən təlim keçmək və hərbi bazaların dəyişdirilməsi təşəbbüsləri vasitəsilə hərbi islahatlarından nəticələrinin idarə olunmasında Tərəfdaş dövlətlərə dəstək verir.

2005-ci ilin əvvəlinə qədər Etimad Fondu layihələri Albaniyada 1,6 milyon piyada əleyhinə mina, Moldovada 12 000 torpağa bastırılan minalar (landmine), 7000 ton sıradan çıxmış döyüş sursatı və raket yanacağı, Ukraynada 400 000 piyada əleyhinə mina, Tacikistanda 1200 torpağa basdırılan minalar və Gürcüstanda 300-dən çox reaktiv silahın məhv edilməsinə və ya zərərsizləşdirilməsinə gətirib çıxarmışdır. Sonrakı müvafiq layihələr

Albaniya, Azərbaycan, Belarusiya, Serbiya və Çernaqoriya və Ukraynada planlaşdırılır.

Bu mexanizm NATO üzv ölkələrinin xüsusi layihələrin hazırlanması və həyata keçirilməsində fərdi Tərəfdaş dövlətlərlə işləməsinə şərait yaradır. Hər bir halda NATO-ya üzv və ya Tərəfdaş ölkələrdən biri layihələrin maliyyələşdirilməsi, həyata keçirilməsi və potensial yardımçıların müəyyənləşdirilməsində təşəbbüskar rolunu oynayır. Birbaşa olaraq bu layihədən yararlanan Tərəfdaş dövlətdən bu işdə fəal iştirak etmək və öz imkanları çərçivəsində layihəyə maksimum dəstək vermək gözlənilir. NATO mütəxəssisləri Tərəfdaş ölkələri müvafiq məsləhət və göstərişlərlə təmin edirlər.

NATO üzv və Tərəfdaş ölkələri Etimad Fondunu könüllü əsasda maliyyələşdirirlər. Əksər hallarda NATO-nun Texniki Təminat və Təchizat Agentliyi (NAMSA) bu sahədə icraçı orqan kimi fəaliyyət göstərir, bu cür layihələrin texniki və maliyyə tərəflərinin qarşılanmasına məsul olur.

Sülhü dəstəkləmə əməliyyatları

Tərəfdaş dövlətlər NATO-nun Balkanlarda apardığı sülhməramlı əməliyyatlarda həlledici rol oynamaqla yanaşı, hazırda NATO-nun Əfqanıstandakı missiyasına da əhəmiyyətli töhfə verirlər. Onların bu tip əməliyyatlarda iştirakı həmin dövlətlərin müttəfiq qüvvələrlə birlikdə çalışmaq və böhranlı ərazilərdə sabitliyin bərpasına yardım etmək kimi praktiki təcrübə qazanmasına şərait yaradır. Bu həmçinin belə əməliyyatlarla bağlı İttifaqın üzv dövlətlərinin üzərinə düşən yükü yüngülləşdirir, böhranın həll edilməsi və qeyri-sabitliyin genişlənməsinin qarşısını alınmasında əhəmiyyətli olan beynəlxalq konsensusun mövcudluğunu aydın şəkildə sübuta yetirir.

Əksər Tərəfdaş dövlətlərin zabitlərinin NATO-dan olan həmkarları ilə birgə çalışması onlara İttifaqın çətin və mürəkkəb vəziyyətlərdə necə fəaliyyət göstərdiyini öyrənmək üçün şərait yaradır. Digər faktorlara nisbətən bu praktiki təcrübə Soyuq Müharibənin sonuna qədər parçalanmış qitə boyu birbiri ilə mübarizə aparmaq məqsədilə düşmən ittifaqları quran hərbi qüvvələr arasında əlaqələri genişləndirmək, etimad və qarşılıqlı anlaşma yaratmaq kimi məsələlərdə mühüm əhəmiyyət kəsb etmişdir. Hazırda NATO və Tərəfdaş dövlətlər ümumi maraq kəsb edən təhlükə və hədələrə qarşı birlikdə mübarizə aparırlar.

Tərəfdaş və NATO-ya üzv olmayan dövlətlərin NATO-nun apardığı sülhməramlı əməliyyatlarda iştirakı müəyyən razılaşmalar əsasında həyata keçirilir. Belə ki, bu kimi əməliyyatlara yardım göstərilməsi əvvəlcədən

razılaşdırıldığı təqdirdə töhfə verən dövlət və NATO arasında maliyyə və texniki məsələlər üzrə müqavilələr. Bu dövlətlərin hər biri öz kontingentini o ərazidə yerləşdirmək və onun effektli fəaliyyət göstərməsi üçün tələb olunan dəstəyi təmin etmək məsələlərində cavabdehdir. Bəzi hallarda həmçinin bu dəstək NATO üzv dövləti tərəfindən ikitərəfli əsasda da həyata keçirilə bilər.

Əfqanıstan missiyası

2003-cü ilin avqust ayından bəri NATO Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvəsinə (ISAF) rəhbərlik edir. BMT-nin mandatı altında olan bu qüvvənin missiyası iyirmi illik vətəndaş müharibəsindən sonra bərpa olunan ölkəyə sülh, sabitlik gətirmək və ərazinin yenidən terrorist bazaları kimi istifadəsinin qarşısını almaqda Əfqanıstan hakimiyyətinə yardım etməkdir.

NATO-nun Əfqanıstandakı qüvvələrə rəhbərlik etməsindən bəri bir çox Tərəfdaş dövlətlər ISAF-ın tərkibində iştirak etmişlər. Bu dövlətlərdən bəziləri hərbi polis və minaların təmizlənməsi sahəsində ixtisaslaşmış qüvvələrlə töhfə vermişlər. Mərkəzi Asiyadakı Tərəfdaş dövlətlər də təchizat və təminat məsələlərində ISAF-a lazımi maddi-texniki dəstək göstərmişlər. Sülh Naminə Tərəfdaşlıq proqramı vasitəsilə inkişaf etdirilən əlaqələr bu dövlətlərin ərazilərindən ləvazimatların nəqli, qüvvələrin və təchizatların onların ərazisində yerləşdirilməsi üçün ikitərəfli sazişlərin imzalanması üçün NATO dövlətlərinə əsas yaratmışdır. Əfqanıstanın etnik tərkibinin müxtəlifliyini nəzərə alaraq Mərkəzi Asiyadakı bir neçə Tərəfdaş dövlət ISAF-a dəstək olaraq müxtəlif vasitələrdən də istifadə etmişlər.

Balkan əməliyyatları

NATO-nun Bosniya Herseqovina və Kosovada apardığı sülhməramlı əməliyyatların başlamasından etibarən Tərəfdaş ölkələr bu əməliyyatların əsas iştirakçılarından olmuşlar. Hər iki halda bu qüvvələrə NATO-ya üzv olmayan dövlətlər tərəfindən göstərilən ən böyük nadir yardımı Rusiya həyata keçirmişdir.

14 Tərəfdaş dövlətdən olan qoşunlar 1995-ci il Dekabrın 14-də Dayton Sülh Sazişinin imzalanmasından sonra Bosniya və Herseqovinada yerləşdirilən Sülhün Tətbiqi üzrə Qüvvələrin **(IFOR)** tərkibində fəaliyyət göstərmişlər. İlk olaraq sülhməramlılar sülh sazişinin hərbi aspektlərinin həyata keçirilməsinə yardım etmiş və ardıcıl olaraq, onlar 1996-cı ilin dekabr ayında IFOR-u əvəzləyən daha kiçik Sabitləşdirmə üzrə Qüvvələr **(SFOR)**

çərçivəsində zorakılığın bərpasının qarşısını almaq və sülh prosesi mühitini inkişaf etdirməyə köməklik göstərmişlər. 2004-cü ilin dekabr ayında NATO-nun Bosniya və Herseqovinada apardığı sülhməramlı əməliyyatlar sona çatanadək 21 Tərəfdaş dövlət müxtəlif vaxtlarda bu əməliyyatlarda iştirak etmişlər. Qeyd edilən tarixdən etibarən təhlükəsizliyi qorumaq məsuliyyəti NATO-dan Avropa İttifaqının rəhbərlk etdiyi missiyaya verilmişdir.

Bir çox Tərəfdaş dövlətlərin qoşunları həmçinin 1999-cu ildə NATO-nun rəhbərliyi altında yaradılan Kosova Qüvvələrində (KFOR) iştirak etmişlər. KFOR-un missiyası Kosovada yeni zorakılıqların qarşısını almaq, təhlükəsiz mühit yaratmaq, beynəlxalq humanitar səyləri və Birləşmiş Millətlər Təşkilatının bu ərazidəki fəaliyyətini dəstəkləməkdən ibarətdir.

Terrorizmə qarşı mübarizə

Terrorizmə qarşı mübarizə İttifaq və onun Tərəfdaşlarının ən öncül məqsədləri sırasındadır. 11 sentyabrda Birləşmiş Ştatlara qarşı həyata keçirilən hücumlar NATO-nun ilk dəfə olaraq 5-ci Maddəyə (İttifaqın əsasını qoyan sazişin kollektiv müdafiə ilə bağlı bəndi) müraciət etməsinə səbəb oldu. Növbəti gün toplaşan Şimali Amerika və Avropadan Mərkəzi Asiyaya qədər uzanan dövlətləri təmsil edən nümayəndələri qeyd-şərtsiz olaraq ən kəskin şəkildə hücumları pislədilər.

Terrorizm təhlükəsinə qarşı mübarizəyə qoşulmaq barədə birgə qərar Praqa Sammiti zamanı terrorizmə qarşı Tərəfdaşlıq üzrə Fəaliyyət Planının irəli sürülməsi ilə qəti şəkildə ifadə edildi. Bu fəaliyyət Planı siyasi məsləhətləşmələr, praktiki tədbirlər vasitəsilə təkmilləşmiş əməkdaşlığa və informasiya və mütəxəssis mübadiləsinin təmin edilməsinə zəmin yaradır. Bu, sərhəd təhlükəsizliyi, terrorizmlə bağlı təlim və məşğələlər, terror hücumlarına qarşı müdafiə qabiliyyətinin inkişafı və ya bu hücumların nəticələrinin aradan qaldırması sahələrində əməkdaşlığın inkişafına gətirib çıxarır. O, həmçinin fiziki təhlükəsizliyin təmin olunması, artıq qalan döyüş sursatı, çiyindən atılan raket, qranat başlıqları kimi kiçik və yüngül silahların təhlükəsiz şəkildə məhv edilməsinə yardım edir.

Kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə

Kütləvi qırğın silahlarının (KQS) yayılmasına qarşı mübarizə XXI əsrin ən başlıca təhlükəsizlik məsələlərindəndir. NATO-nun öz tərəfdaşları ilə apardığı dialoq İttifaqın silahların yayılmamasına dair məqsədlərinə nail

olmaq, etibar və etimad atmosferi yaratmaq, silahların yayılmaması yolunda səylərinin uğur əldə etməsi üçün tələb olunan aydın və şəffaf ətraf mühitin formalaşmasında həlledici rol oynayır.

İttifaq həm siyasi, həm də hərbi səylər üzrə məsləhətləşmələr vasitəsilə silahların yayılmaması ilə əlaqəli məsələlərlə bağlı qarşılıqlı anlaşma və informasiya mübadiləsini inkişaf etdirməyə səy göstərir. Fərdi bacarıq və təcrübəyə bir çox Tərəfdaş dövlətlər bu sahədə birgə səyləri gücləndirilmək məqsədilə vacib yardımları həyata keçirmələrinə şərait yaradır.

Bioloji və kimyəvi silahlarla bağlı potensial təhlükələr, həmçinin, yeni imkanlara doğru inkişaf və tədqiqat, KQS-larından müdafiə üçün yaradılmış təchizat və ümumi hazırlığı artırmaq üzrə Avro Atlatika Tərəfdaşlıq Şurası təlimləri informasiya mübadiləsinə yardım etmək və ən yaxşı təcrübə yaratmağa kömək edir.

Əlavə olaraq NATO və Tərəfdaş dövlətlərdən tərksilahla məşğul olan mütəxəssislər KQS-nın siyasi və informasiya mübadiləsi məsələlərini müzakirə etməyə müvəffəq olmuşlar. Beləliklə onlar silahların yayılmasında əsas istiqamətlərə diqqət yetirmiş, Çin, Yaponiya, İsrail və Cənubi Koreya kimi Avro Atlatika Tərəfdaşlıq Şurasına üzv olmayan dövlətlərin regional perspektivlər üzrə təqdimatlarını dinləmişlər. İxraca nəzarət təcrübəsi və mövcud silahların yayılmaması səylərinin həyata keçirilməsi üzrə informasiya mübadiləsi aparılmışdır.

İttifaqın üzvləri həmçinin Tərəfdaş dövlətləri NATO-nun kimyəvi, bioloji, radioaktiv, nüvə müdafiəsi, xüsusilə, çoxmillətli KBRN Müdafiə Batalyonunun yaradılması və yerləşdirilməsi kimi spesifik sahələrdə fəaliyyəti barəsində məlumatlandırmışlar.

Minalar və kiçik silahlar əleyhinə mübarizə

Kiçik silahların yayılmasına qarşı mübarizə və humanitar mina zərərsizləşdirilməsi sahəsində qlobal, regional və yerli səviyyələrdə çoxtərəfli təşəbbüslər irəli sürülmüşdür. NATO üzv və Tərəfdaş dövlətlər Avro-Atlantik məkanda belə çətinliklərə davam gətirmək üçün hərbi-siyasi tərəfdaşlığın genişləndirilməsi yolu ilə bu səyləri həyata keçirməyə cəhd etmişlər.

Avro Atlatika Tərəfdaşlıq Şurası Kiçik, Yüngül silahlar və Minaların zərərsizləşdirilməsi üzrə “Ad Hok” İşçi Qrupu yaratmışdır. Qrupun əsas məqsədi bu silahların ötürülməsinə daha mükəmməl nəzarət etmək sahəsində, məsələn, milli ixraca və qanunların həyata keçirilməsinə nəzarət yolu ilə, məlumat mübadiləsi üçün forum rolunu oynamaqdan ibarətdir. SNT proqramı həmçinin sülhməramlı əməliyyatlar zamanı yığılmış silah ehtiyatına

nəzarət və onların təhlükəsiz saxlanması, artıq qalan ehtiyatın zərərsizləşdirilməsi və məhv edilməsi, həmçinin silahların toplanması və məhvi üzrə təlimlərin inkişaf etdirilməsini təmin edir. Əlavə olaraq dövlətlərin xahişi əsasında onlara fərdi yardım da göstərilir.

Minalar, kiçik və yüngül silahlar ehtiyatının məhv edilməsi sahəsində SNT Etimad Fondları tərəfindən də yardım həyata keçirilir. Bundan başqa, Balkanlarda və Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirak edən NATO üzv və Tərəfdaş dövlətlərin qoşunları minaların zərərsizləşdrilməsi üzrə humanitar səylərdə müntəzəm olaraq mülki təşkilatlara yardım etmişlər.

Fəlakətlərə hazırlıq və onlara cavab

NATO-da mülki fövqəladə planlaşdırma kimi istinad olunan fəlakətlərə hazırlıq və onlara cavab sahəsində əməkdaşlıq SNT çərçivəsində fəaliyyətin ən əsas qeyri-hərbi hissəsini təşkil edir. Fəlakətlərə qarşı səmərəli mübarizə nəqliyyat vasitələri, tibbi ehtiyatlar, kommunikasiya, fəlakətlərə cavab imkanları və başqa mülki ehtiyatların əlaqələndirilməsini tələb edir. Bütün ölkələrin öz ərazilərindəki fövqəladə hallarla mübarizədə milli səviyyədə mövcud planların həyata keçirilməsinə cavabdehlik daşımasına baxmayaraq, bəzi potensial fəlakətlərin miqyasca böyük olması və sərhəd tanımaması beynəlxalq səviyyədə yardım, əməkdaşlıq və planlaşdırmanın təşkil olunmasını zəruri edir.

Mülki fövqəladə planlaşdırma sahəsində NATO üzv və Tərəfdaş dövlətlər arasındakı əməkdaşlığa yerli, regional və milli hökumətlərin müxtəlif səviyyələrdə mülki və hərbi personalını bir araya gətirən seminar və təlim kursları daxildir. Humanitar Məsələlərin Əlaqələndirilməsi üzrə BMT Ofisi, Qaçqınlar üzrə BMT Ali Komissarlığı, Beynəlxalq Atom Enerjisi Agentliyi və Avropa İttifaqı kimi beynəlxalq təşkilatlar da bu sahədə vacib iştirakçılardır.

Avro-Atlantika Fəlakətlərə Cavab üzrə Əlaqələndirmə Mərkəzi (EADRCC) Rusiyanın təklifinə əsasən 1998-ci ildə yaradılmışdır (2-ci Hissəyə bax). Bu mərkəzin məqsədi Avro-Atlantik məkanda baş verən fəlakətlərin qarşısının alınması istiqamətində aparılan fəaliyyətin əlaqələndirilməsidir. Bu qurum Avro-Atlantik məkanda baş verən fəlakətlərə NATO üzv və Tərəfdaş dövlətlərin cavab fəaliyyətinin əlaqələndirilməsi və onlar arasında informasiya mübadiləsi üçün mərkəz kimi fəaliyyət göstərir. Mərkəz terrorizm aktları da daxil olmaqla, təbii və insan tərəfindən törədilən fəlakətlərə göstərilən cavab əməliyyatını təcrübədə tətbiq etmək üçün simulyasiya oyunları formasında mülki fövqəladə təlimlər təşkil edir. Gözlənilməz hallar üçün planların, münasib üsulların və zəruri təchizatın işlənib hazırlanması, həmçinin, birgə təlimlərin köməkliyi ilə NATO üzv və Tərəfdaş dövlətlər bir sıra təbii fəla-

kətlər, o cümlədən Kosova böhranı zamanı qaçqınlara kömək məsələsində EADRCC -dən gələn yardımı səmərəli şəkildə əlaqələndirə bilmişlər.

Həmçinin bu sahədəki iş Terrorizmə qarşı Tərəfdaşlıq üzrə Fəaliyyət Planı çərçivəsində terrorizm və kütləvi qırğın silahları ilə bağlı mülki əhalinin narahatlığını azaltmaq və təhlükələri müəyyənləşdirmək üçün mülki fövqəladə planlaşdırmada iştirakı və müvafiq məlumat mübadiləsini də özündə ehtiva edir. Kimyəvi, bioloji, radioloji və ya nüvə silahı istifadə etməklə törədilə biləcək mümkün terror aktlarına qarşı mülki hazırlığı təkmilləşdirmək sahəsində milli hökumətlərə yardım etmək üçün Mülki Fövqəladə Planlaşdırma üzrə Əməliyyat Planı razılaşdırılmışdır. Əməliyyat planı tibbi yardım və radioloji araşdırmalardan tutmuş laboratoriyalar, aerotibbi təmizləmə və təhlükəli mənbələrin toplanmasına qədər milli imkanların inventarizasiyasına hazırlıq da daxil olmaqla bir çox mexanizmlər vasitəsilə həyata keçirilir. NATO üzv və Tərəfdaş dövlətlər hücum olacağı zaman mümkün milli imkanların inventarizasiyasını hazırlayır və davamlı surətdə onu yeniləşdirirlər.

Təhlükəsizlik, elm və ətraf mühit

İki vacib NATO proqramı ümumi narahatçılıqla bağlı problemlər üzrə NATO üzv və Tərəfdaş dövlətlərdən olan alim və mütəxəssisləri müntəzəm olaraq işləmək məqsədilə bir araya gətirir (10-cu Hissəyə bax).

NATO Elm Komitəsinin idarə etdiyi Elm vasitəsilə Təhlükəsizlik üzrə NATO Proqramı problemlərin həllinə elmi baxımdan yanaşmaqla dövlətlər arasında təhlükəsizlik, sabitlik və həmrəyliyə töhfə vermək məqsədini daşıyır. Proqram NATO üzv, Tərəfdaş və Aralıq Dənizi Dialoqu dövlətlərində işləyən alimlər arasında əməkdaşlıq, şəbəkələşmə və mövcud imkanların inkişaf etdirilməsinə dəstək verir. O, öz diqqətini terrorizm və təhlükəsizlik əleyhinə olan digər təhdidlərdən müdafiə ilə bağlı məsələlərin tədqiqatı üzrə əməkdaşlığa cəmləşdirir. Proqram həmçinin Tərəfdaş dövlətlərin xüsusi prioritetlərini qarşılamaq üçün texnologiyanın bölüşdürülməsi və ötürülməsini asanlaşdırmağa səy göstərir.

Müasir Cəmiyyət Problemləri üzrə Komitə Proqramı ətraf mühit və cəmiyyət məsələlərinə dair qısa və ya uzunmüddətli tədqiqatlar sahəsində əməkdaşlıq məqsədilə milli qurumları bir araya gətirərək bu problemlərə qarşı mübarizə aparır. O həm mülki, həm də hərbi sahələrdə NATO üzv və Tərəfdaş dövlətlər arasında sosial və ətraf mühit məsələlərinin texniki, elmi və siyasi tərəfləri üzrə bilik və təcrübə mübadiləsi üçün əvəzedilməz forum rolunu oynayır.

24-cü Fəsil

NATO VƏ RUSİYA

Soyuq müharibə bitəndən bəri NATO-ya üzv dövlətlər Rusiya ilə əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsini prioritet hesab edirlər. Ötən illər ərzində ideoloji, siyasi və hərbi qarşıdurmaya əsaslanan köhnə antoqonizmin ümumi maraq və davamlı dialoqa söykənən rəsmi tərəfdaşlığa çevrilməsi istiqamətində böyük uğurlar əldə edilmişdir.

Bu gün NATO-ya üzv dövlətlər və Rusiya cari təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr aparmaq və ümumi maraq doğuran bir sıra sahələrdə praktik əməkdaşlığı inkişaf etdirmək məqsədilə bərabərhüquqlu tərəfdaş kimi müntəzəm olaraq NATO-Rusiya Şurasında görüşürlər. Həlli müəyyən vaxt tələb edən bəzi məsələlərdə fikir ayrılığının olmasına baxmayaraq, NATO-ya üzv dövlətlərin və Rusiyanın eyni strateji prioritetlərə malik olmasının və terrorçuluğa, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə kimi ümumi problemlərlə üzləşməsinin dərk edilməsi əməkdaşlığın aparıcı qüvvəsi olaraq qalır.

Əlaqələrin inkişafı

1989-cu ildə Berlin divarının dağıdılması ilə Avropadakı ideoloji və siyasi bölünmə sona çatdı. 1991-ci ildə Sovet İttifaqı və Varşava Pakının süqutundan sonra və Soyuq Müharibədən sonrakı mühitdə yeni təhlükəsizlik problemlərinin meydana çıxması ilə NATO Mərkəzi, Şərqi Avropa ölkələri və Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlər ilə yeni əməkdaşlıq və dialoq formaları qurmağa başladı.

1991-ci ildə Rusiya Şimali Atlantika Əməkdaşlıq Şurasının (bu Şura 1997-ci ildə Avro-Atlantik Tərəfdaşlıq Şurası ilə əvəzləndi) üzvü oldu. 1994-cü ildə Rusiya NATO ilə ikitərəfli əməkdaşlıq sahəsində əsas proqram olan Sülh Naminə Tərəfdaşlıq proqramına qoşuldu. 1996-ci ildə Deyton Sülh Sazişinin imzalanmasından sonra Rusiya NATO-nun Bosniya və Herseqovinadakı sülhməramlı qüvvələrinə qoşun və maddi-texniki təminatla yardım göstərdi.

Balkan yarımadasında çətin döyüş şəraitində əməkdaşlıq qarşılıqlı imanı artırdı və NATO-Rusiya əməkdaşlığının yeni mərhələyə qaldırmaq üçün siyasi iradəni gücləndirdi. Yeni əməkdaşlıq mərhələsinə keçid 1997-ci ilin may ayında Rusiya-NATO əlaqələri üçün rəsmi əsas kimi xidmət edən Qarşılıqlı Əlaqələr, Əməkdaşlıq və Təhlükəsizlik üzrə Təsis Sənədinin

imzalanması ilə başladı. Təsis Sənədi davamlı sülhün yaradılmasını ümumi məqsəd kimi ifadə etdi, məsləhətləşmə və əməkdaşlıq forumu kimi Daimi Birgə Şuranı (PJC) yaratdı. Nəticədə, NATO-Rusiya əlaqələri əməliyyatlar çərçivəsindən çıxaraq konkret institusional forma aldı.

Növbəti illər ərzində qarşılıqlı etimadın yaradılması, məsləhətləşmə və əməkdaşlıq proqramının hazırlanması sahəsində böyük uğurlar əldə edildi. Bununla belə, Soyuq Müharibə ilə bağlı uzun-müddətli stereotiplər DBŞ-nın öz potensialını reallaşdırmasının qarşısını aldı. 1999-cu ildə NATO-nun Kosovadakı hava əməliyyatı ilə bağlı fikir ayrılığı yarananda Rusiya DBŞ-da iştirakını dayandırdı. Bu vaxta qədər isə Rusiya DBŞ-da səfir və nazirlər səviyyəsində görüşlərdə müntəzəm olaraq iştirak edirdi. Buna baxmayaraq, Rusiya Bosniya və Herseqovinadakı sülhməramlı əməliyyatlar da daxil olmaqla bir neçə əməliyyatda iştirakını fasiləsiz olaraq davam etdirdi. Bundan əlavə, Rusiya Kosova böhranının həllində mühüm diplomatik rol oynadı və 1999-cu il iyun ayında Kosovada NATO qüvvələri yerləşdiriləndə Rusiya sülhməramlıları da bu qüvvələrin tərkibində idi.

1999-cu ildən etibarən NATO-Rusiya əlaqələri əhəmiyyətli dərəcədə yaxşılaşmağa başladı. Həmin ilin oktyabr ayında Lord Robertson NATO-nun baş katibi təyin edildiyi zaman özünü NATO-Rusiya əlaqələrindəki böhranlı vəziyyətin aradan qaldırılmasına həsr etdi. Eyni şəkildə, 2000-ci ildə Vladimir Putin Rusiya prezidenti seçiləndən sonra bəyan etdi ki, o, NATO ilə əlaqələrin praqmatizm ruhunda yenidən qurulmasına çalışacaq.

Bəzi vacib məsələlər də bu prosesi sürətləndirdi. 2000-ci ilin avqust ayının 12-də 118 heyət üzvünün ölümü ilə nəticələnən Kursk atom sualtı gəmisinin batması belə bədbəxt hadisələrə cavab reaksiyası vermək istiqamətində NATO və Rusiya arasında əməkdaşlığa böyük ehtiyac olduğunu göstərdi. 2001-ci il 11 sentyabrda Amerika Birləşmiş Ştatlarına qarşı terror hücumları terrorçuluğa və digər yeni təhlükələrə qarşı səmərəli şəkildə mübarizə aparmaq üçün razılaşdırılmış beynəlxalq fəaliyyətə ehtiyacın olduğunu bir daha vurğuladı. Terror hücumlarından dərhal sonra Rusiya öz hava məkanını beynəlxalq koalisiyanın Əfqanıstandakı əməliyyatları üçün açdı və anti-terror koalisiyanı dəstəkləmək üçün müvafiq kəşfiyyat məlumatlarını bölüşdü.

Lord Robertson və Prezident Putin arasında iki görüş və 2001-ci il dekabr ayında NATO-ya üzv dövlətlərin və Rusiyanın Xarici İşlər Nazirlərinin görüşü də daxil olmaqla növbəti aylarda NATO və Rusiya arasında keçirilmiş yüksək səviyyəli görüşlər NATO-Rusiya münasibətlərinə yeni təkan və məzmun vermək imkanlarını araşdırmaq baxımından önəmli oldu.

NATO-Rusiya Şurası

İntensiv danışıqlar 2002-ci ilin may ayında Romada NATO-ya üzv dövlətlərin və Rusiyanın dövlət və hökumət başçılarının "NATO-Rusiya Əlaqələri: Yeni Keyfiyyət" adlı birgə bəyannaməni imzalanması ilə nəticələndi. Təsis Sənədində əks olunan məqsəd və prinsiplərinə əsaslanan bu bəyannamədə NATO və Rusiya rəhbərləri ümumi maraq doğuran sahələrdə bərabərhüquqlu tərəfdaş kimi birgə fəaliyyət göstərmək və onların təhlükəsizliyini hədələyən ümumi təhlükə və risklərə qarşı birgə mübarizə aparmaq imkanlarını artırmağı vəd etdilər.

Saziş Daimi Birgə Şuranı əvəz edən NATO-Rusiya Şurasını (NRŞ) təsis etdi. NATO-nun üzvü olan 28 dövlət və Rusiya Avro-Atlantik məkanında təhlükəsizlik məsələlərinin geniş spektoru ilə bağlı birgə qərar qəbul etmək və fəaliyyət göstərmək imkanlarını müəyyənləşdirmək və nəzərdən keçirməklə NATO-Rusiya Şurasında bərabər-hüquqlu tərəfdaş kimi iştirak edirlər. Daimi Birgə Şuranın NATO-Rusiya Şurası ilə əvəz edilməsi ("NATO +1" deyil, "27 dövlət" formatında görüşlər) əlaqələrdə yeni fəlsəfi yanaşmanı əks etdirir. Bu, güclü inam mühitinin yaradılmasına kömək etməklə siyasi dialoq və məsləhətləşmələrin daha konkret nəticələr verməsi üçün şərait yaratdı.

NATO-Rusiya Şurasının iclaslarına NATO-nun Baş Katibi sədrlik edir və iclaslar ayda ən azı bir dəfə səfirlər, ildə iki dəfə nazirlər və ehtiyac yarandıqda Zirvə toplantısı səviyyəsində keçirilir. Ayda ən azı iki dəfə görüşən Hazırlıq Komitəsi NATO-Rusiya Şurasının işinə kömək edir və davam edən əməkdaşlığı izləyir. Xüsusi sahələrlə bağlı iş *ad hoc* və ya daimi işçi qruplar çərçivəsində aparılır. Həmçinin, görüşlər ayda bir dəfə hərbi nümayəndələr arasında və ildə iki dəfə isə hərbi qərargah rəisləri səviyyəsində keçirilir.

NATO-Rusiya Şurası və ona tabe olan strukturlar konsensus və davamlı siyasi dialoq prinsipi əsasında fəaliyyət göstərir. NATO-Rusiya Şurasının üzvləri öz dövlətləri adından, müvafiq ümumi öhdəlik və vəzifələrə uyğun olaraq fəaliyyət göstərirlər. NATO-Rusiya Şurası çərçivəsində birgə məqsədin ümumi maraq və narahatçılıq doğuran sahələrdə birgə fəaliyyət göstərmək olmasına baxmayaraq, NATO-ya üzv dövlətlər və Rusiya müstəqil şəkildə hərəkət etmək hüquqlarını özlərində saxlayırlar. Bu sahələr Təsis Sənədində müəyyənləşdirilmişdir və terrorçuluğa qarşı mübarizə, böhranların idarə edilməsi, silahların yayılmaması, silahlara nəzarət və etimad yaradan tədbirlər, raketdən müdafiə sistemlər, maddi-texniki təminat, hərbi qurumlar arasında əməkdaşlıq, müdafiə sahəsində islahat və mülki fövqəladə hallar da daxil olmaqla bir sıra mühüm məsələlər üzrə əməkdaşlıq

intensivləşdirilir. NATO-Rusiya Şurasının üzvlərinin razılığı ilə NATO-Rusiya Şurasının gündəliyinə yeni əməkdaşlıq sahələri daxil edilə bilər.

NATO-Rusiya Şurası qeyd olunan sahələrdə, habelə elmi əməkdaşlıq və müasir cəmiyyətin problemləri kimi digər sahələrdə əməkdaşlığı inkişaf etdirmək üçün bir neçə işçi qrup və komitə yaratmışdır. NATO-Rusiya Şurası çərçivəsində Balkan yarımadası, Əfqanıstan, Gürcüstan, Ukrayna, İraq və Yaxın Şərq regionundakı vəziyyətlər kimi Avro-Atlantik məkanın təhlükəsizliyinə təsir edən cari beynəlxalq məsələlər üzrə fikir mübadiləsi də aparılır. Bundan əlavə, Şura əfqan narkotikinin yaratdığı təhlükəyə qarşı mübarizə aparmaq məqsədilə potensial yardım imkanlarının araşdırılması istiqamətində davam edən layihə kimi əlavə birgə praktik təşəbbüslərin göstərilməsi üçün siyasi iradənin formalaşdırılmasına yardım edir.

NATO-Rusiya Şurasının nail olduğu siyasi əməkdaşlıq səviyyəsinin digər bir təcəssümü Ukraynada baş verən ciddi siyasi böhranın ən yüksək həddində 2004-cü il dekabrın 9-da NATO-Rusiya Şurasının Xarici İşlər Nazirləri tərəfindən qəbul edilən birgə bəyannamədir. NATO-Rusiya Şurası bütün tərəfləri zor gücündən istifadəyə və ona təhrikə yol verməməyə, seçicilərə hədə-qorxu gəlməkdən çəkinməyə, Ukrayna xalqının istəyini əks etdirən azad və ədalətli seçki prosesinin keçirilməsini təmin etməyə çağırdı. NATO-Rusiya Şurasının üzvləri ümumi və bölünməz təhlükəsizlik və sabitlik üçün vacib hesab olunan elementlər - dövlət müstəqilliyi, suverenlik və ərazi bütövlüyü ilə yanaşı Ukraynada demokratiyanı dəstəklədiklərini bir daha təkrar etdilər.

Yaradılandan bəri NATO-Rusiya Şurası məsləhətləşmə, konsensusun yaradılması, əməkdaşlıq, birgə qərar qəbulu və birgə fəaliyyət üçün səmərəli mexanizmə çevrilmiş və NATO-Rusiya tərəfdaşlığının əsas sütunu olmuşdur. NATO-Rusiya əməkdaşlığının müsbət inkişafı onun gələcəyi və konkret inkişafı üçün əlverişli perspektivlərdən xəbər verir. Keçmiş siyasi və əməliyyatlar çərçivəsində əldə olunan nailiyyətlərə əsaslanan bu aparıcı qüvvənin saxlanılması gələcək əməkdaşlıq imkanlarının artmasında əhəmiyyətli faktor olacaqdır.

Əlaqələrə və əməkdaşlığa yardım

NATO-Rusiya məsləhətləşmələrinə və əməkdaşlığına yardım etmək məqsədilə 1998-ci ilin mart ayında Rusiyanın NATO-da Missiyası yaradıldı. Məlumat və nəşrləri yaymaq, maraqlı şəxslər və gənc tələbələr üçün əsas məsələlər üzrə seminar və konfranslar təşkil etməklə qarşılıqlı anlaşmanın artırılması məqsədilə 2001-ci ilin əvvəllərində Moskvada NATO İnformasiya

Ofisi (NIO) yaradıldı. NIO, xüsusilə terrorçuluq, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə, müdafiə islahatı və hərbi transformasiya üzrə təcrübə mübadiləsi kimi NATO-ya üzv dövlətlər və Rusiyanın maraqlarının üst-üstə düşdüyü sahələrin artan sayını vurğulamaqla NATO-Rusiya əməkdaşlığının əsas mahiyyətinin izah edilməsini diqqət mərkəzində saxlayır.

Şəffaflığı artırmaq və NATO-nun Hərbi Komitəsi və Rusiya Müdafiə Nazirliyi arasındakı müntəzəm əlaqələr, məlumat mübadiləsi və məsləhətləşmələrə yardım etmək məqsədilə 2002-ci il may ayında Moskvada Hərbi Əlaqələndirmə Missiya yaradıldı. 2003-cü ildə NATO-nun Baş Katibinin və Rusiya Müdafiə Nazirinin ofisləri arasında birbaşa və təhlükəsiz telefon əlaqəsi yaradıldı. 2004-cü ildə Belçikanın Mons şəhərində yerləşən NATO-nun strateji əməliyyat komandanlığında (Avropadakı Müttəfiq Qüvvələrin Baş Qərargahı, SHAPE) Rusiya Hərbi Əlaqələndirmə Missiyasının ofisi açıldı. SNT tədbirlərində iştirakı asanlaşdırmaq üçün rus zabitləri SHAPE-dəki Tərəfdaşlıq Əlaqələndirmə Bölməsində də işləyirlər.

Terrorçuluğa qarşı mübarizə

Beynəlxalq təhlükəsizlik və stabilliyi böyük təhlükə qarşısında qoyan, birgə əlaqələndirilmiş cavab tədbirləri tələb edən terrorçuluğa qarşı mübarizədə NATO-ya üzv dövlətlərin və Rusiyanın mövqeyi üst-üstə düşür. 2004-cü ilin yayında Rusiyada terrorçuların törətdiyi bir sıra dəhşətli hadisələr NATO-Rusiya Şurasını ilk dəfə növbədənkənar sessiyada bir araya gətirdi. NATO-Rusiya Şurası terrorçuluğun bütün təzahürlərini pislədilər və bu ümumi təhlükənin aradan qaldırılması üçün ümumi səyləri gücləndirmək və intensivləşdirmək qərarlılıqlarını bir daha ifadə etdilər.

Bunun ardınca 2004-cü il dekabrın 9-da NATO-Rusiya Şurası xarici işlər nazirləri tərəfindən təsdiqlənmiş NATO-Rusiya Şurasının Terrorçuluğa qarşı Fəaliyyət Planının hazırlanması da daxil olmaqla konkret tədbirlər görülmüşdür. Fəaliyyət Planı bu önəmli sahədə NATO-Rusiya Şurasının əməkdaşlığı üçün struktur və məqsədi müəyyən edir və terrorçuluğun qarşısını alınması, terrorçuluq fəaliyyətlərinə qarşı mübarizə və terrorçuluğun nəticələrinin idarə edilməsi istiqamətində NATO-Rusiya Şurası çərçivəsində əməkdaşlığını möhkəmləndirir.

Ayrı-ayrı terror təhdidlərinin birgə qiymətləndirməsi aparılır və bu proses nəzarət altında saxlanılır. 2002-ci ildə Roma və Moskva, 2004-cü ildə Birləşmiş Ştatların Virciniya Ştatının Norfolk şəhərində keçirilən yüksək səviyyəli üç konfransda terrorçuluğa qarşı mübarizə aparmaq, bu sahədə prak-

tik hərbi əməkdaşlığı inkişaf etdirmək yolları barədə tövsiyələr hazırlamaq sahəsində hərbi qüvvələrin oynaya biləcəyi mümkün rol nəzərdən keçirildi. 2005-ci ilin iyununda Sloveniyada keçirilən konfransda son terror əməllərinin nəticələrinin idarə edilməsi və o vaxtdan bəri bu sahədə çıxarılmış nəticələrin siyasət və praktikaya daxil edilməsi sahəsində Rusiya, İspaniya, Türkiyə və Birləşmiş Ştatlar hakimiyyətinin qarşılaşdığı çətinliklərə diqqət yetirilmişdir.

Terrorçuluğa qarşı mübarizənin xüsusi aspektləri NATO-Rusiya Şurası çərçivəsində mülki fövqəladə halların planlaşdırılması, silahların yayılmaması, hava məkanına nəzarət, raketdən müdafiə sistemi, müdafiə islahatı və elmi əməkdaşlıq kimi sahələrdə özünü biruzə verir.

Digər yeni təhlükəsizlik təhdidlərinə qarşı mübarizə

Ballistik raketlərin yayılmasına qarşı əməkdaşlıq əsasən raketdən müdafiə sistemlərinin yaradılması çərçivəsində həyata keçirilir və bu istiqamətdə NATO və Rusiya önəmli nailiyyətlər əldə etmişdir. İlk birgə Komanda Qərargah təlimi 2004-cü ilin mart ayında Birləşmiş Ştatlarda keçirilmişdir. Bu təlimdə raketdən müdafiə sistemləri üzrə əməliyyatlar konsepsiyasını qiymətləndirmək üçün virtual kompüter ssenarisindən istifadə edilmişdir. Bundan sonra 2005-ci ilin mart ayında Hollandiyadakı ikinci təlim oldu.

Məqsəd birgə əməliyyatlarda iştirak edən NATO və Rusiya qoşunlarına qarşı ballistik raket təhlükəsinə qarşı mübarizə aparmaq üçün NATO və Rusiyanın birlikdə daha çevik və effektli çalışmağına şərait yaradan uyarlılığın əldə olunmasıdır. Nüvə silahından müdafiə sahəsində NATO-Rusiya Şurası Uyarlılıq Araşdırması 2005-ci ildə ikinci mərhələyə qədəm qoydu.

NATO-Rusiya Şurasının kimyəvi, bioloji və radioaktiv silahlardan müdafiə təşəbbüsü davam etməkdədir. Həmçinin nüvə silahı məsələlərində və kütləvi qırğın silahlarının yayılmasına qarşı əməkdaşlıq üzrə birgə iş aparılmaqdadır.

Hava təhlükəsizliyini və şəffaflığı artırmaq, eləcə də mülki təyyarələrin terrorçu məqsədlər üçün istifadəsi təhlükəsi ilə mübarizə aparmaq məqsədilə hava məkanının idarə olunması sahəsində NATO-Rusiya Şurası əməkdaşlığı həyata keçirilir. Kooperativ Hava Məkanı Təşəbbüsü çərçivəsində ikitərəfli məlumat mübadiləsi üçün praktiki tədqiqat həyata keçirilir.

Əməliyyat üzrə əməkdaşlıq

2003-cü ildə öz kontingentini çıxarmasından əvvəlki yedi il ərzində Rusiya NATO-nun Balkanlardakı sülhməramlı qüvvələrinə ən böyük töhfə verən qeyri NATO dövləti idi. Rus əsgərləri regionda davamlı təhlükəsizlik və sabitlik yaratmaq məqsədilə beynəlxalq ictimaiyyətin səylərini müdafiə etməklə, Müttəfiq və Tərəfdaş dövlətlərdən olan həmkarları ilə eyni cəbhədə çalışırdılar. İlk olaraq rus sülhməramlıları 1996-cı ilin yanvarında Bosniya və Herseqovinada yerləşdirilmişdi. Onlar şimal hissədə çoxmillətli briqadanın tərkib hissəsi idilər, əsasən gündəlik patrul və təhlükəsizlik yoxlamaları həyata keçirir, bərpa və humanitar məsələlərdə yardımçı olurdular. NATO-nun 1999-cu il hava kompaniyası üzrə fikir ayrılığına baxmayaraq Kosova münaqişəsinin təhlükəsiz sona çatdırılmasında əsas diplomatik rol oynamaqla rus qoşunları 1999-cu ilin iyununda Kosovada yerləşdirildi. Onlar bölgənin şərq, şimal və cənub hissələrində çoxmillətli briqadanın tərkib hissəsi kimi fəaliyyət göstərir və Priştina hava sahəsinin idarə olunmasına yardım edir, tibbi təchizat və xidmət təmin edirdilər.

Balkanlardakı sülhməramlı əməliyyatlardakı əməkdaşlıq təcrübəsinə əsaslanaraq birgə sülhməramlı əməliyyatlar üçün ümumi nəzəriyyə yaradılmaqdadır, bu birgə NATO-Rusiya sülhməramlı əməliyyatları üçün baza kimi xidmət edəcək və bu cür əməliyyatlar zamanı NATO Müttəfiqləri və Rusiya arasındakı rahat, konstruktiv və şəffaf əməkdaşlıq məqsədilə nəzərdə tutulan birgə iş üçün ətraflı plan verəcəkdir.

2004-cü ilin dekabr ayında NATO-nun Aralıq dənizindəki Avtiv Səylər Əməliyyatında Rusiyanın iştirakı ilə bağlı formal prosedurlar yekunlaşdı. Rusiyanın bu əməliyyatlara yardımı həm böhrana nəzarət, həm də terrorizmə qarşı mübarizə sahəsində tərəflər arasındakı hərbi uyarlılığın daha yüksək səviyyəyə çatdırılması baxımından diqqəti cəlb edir. Həmçinin NATO-ya üzv olan dövlətlər Rusiyanın NATO-nun Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri üçün praktiki dəstək göstərmək təklifini alqışlamışdır.

2005-ci il aprel ayının 21-də Litvanın paytaxtı Vilnüs şəhərindəki NATO Rusiya Şurası xarici işlər nazirlərinin qeyri rəsmi görüşü zamanı Rusiya NATO-nun SNT Qüvvələr Sazişi Statusuna daxil oldu. Bununla o, gələcək əməliyyat fəaliyyətləri üçün hüquqi çərçivənin əsasını qoydu və praktiki əməkdaşlığı intensivləşdirdi.

Müdafiə sahəsində islahat

XXI əsrin təhlükələri ilə mübarizə aparmaq üçün müvafiq həcmdə olan, təlim keçmiş və təchiz olunmuş silahlı qüvvələrə olan ümumi ehtiyac səbəbindən Rusiya və NATO-ya üzv dövlətlər müdafiə sahəsinin islahatında maraqlıdırlar. Müdafiə sahəsində NATO-Rusiya Şurası əməkdaşlığı resursların idarə edilməsi, müdafiə sənayesində islahatlar, müdafiə və qüvvə planlaşdırılması, makro-iqtisadi, maliyyə və sosial məsələlər də daxil olmaqla bir çox sahələri əhatə edir. Əməkdaşlığın digər sahələrinə hərbi nüvə tullantılarına nəzarət, strateji hava nəqliyyatı və hərbi infrastruktur mühəndisliyi, maddi texniki uyarlılıq daxildir. NATO və Rusiya silahlı qüvvələrinin ümumi uyarlılığının təkmilləşdirilməsi ilə bağlı araşdırmalar da davam etməkdədir. Əlavə olaraq, müdafiə islahatı sahəsində tədqiqata aparmaq üçün NATO-nun Romadakı Müdafiə Kollecində rus alimləri üçün iki tədqiqatçı yeri ayrılmışdır.

2001-ci ilin iyununda ehtiyata buraxılmış hərbi heyət və onların ailələri üçün Moskvada NATO-Rusiya Təlim Mərkəzinin əsası qoyuldu. 2003-cü ildə isə Rusiya boyu daha altı regional təlim mərkəzləri yaradıldı.

Hərbi qurumlar arasında əməkdaşlıq

Hərbi qurumlar arasında əməkdaşlığın əsas məqsədi müasir hərbçilərin sülhməramlı və böhrana nəzarət əməliyyatlarına birgə çalışmaq üçün çağırılan zaman çoxmillətli komanda və qüvvə strukturu daxilində fəaliyyət göstərməyi bacarmalı olduqları səbəbindən Rusiya və Müttəfiq qüvvələr arasındakı birgə əməliyyat qabiliyyətini inkişaf etdirməkdir. Bunun üçün hərtərəfli təlim və treyninq həyata keçirilir.

2000-ci ildə Rusiyanın Kursk sualtı nüvə gəmisi batdığı zaman gəminin heyətinin axtarılması və xilas edilməsi üçün birgə iş həyata keçirilmişdir. 2003-cü ilin fevral ayında tədqiqat və xilasetmə metodlarını nizamlamaq, təchizatın inkişaf etdirilməsində əməkdaşlıq, informasiya mübadiləsi və metodları sınaqdan keçirmək üçün birgə təlimlərin keçirilməsinə yardım etmək istiqamətində vacib tədbirləri nəzərdə tutan Çərçivə Sazişi imzalandı.

Qarşılıqlı hərbi dəniz donanması mübadiləsi və limanlara səfər üzrə çərçivə hazırlanır, NATO və Rusiya hərbi dəniz donanma strukturları arasında təlimləri artırmaq məqsədilə mümkün fəaliyyət yerinə yetirilməkdədir. 2005-ci ildə Əməliyyatlar üçün Aktiv Təşəbbüslərə gələcəkdə dəstək üçün rus heyətini hazırlıq vəziyyətinə gətirməyə yardım etmək məqsədilə təlimlər keçirildi.

Maddi-texniki təminat sahəsində əməkdaşlıq

Bugünkü təhlükəsizlik mühiti yaxşı əlaqələndirməni və mümkün olduqda resursların birləşdirilməsini tələb edən daha mobil qüvvələr və çoxmillətli əməliyyatları zəruri edir. NATO-Rusiya Şurasının müxtəlif təşəbbüslərində maddi-texniki təminatın həm hərbi, həm də mülki tərəfləri üzrə əməkdaşlıq həyata keçirilir. Görüş və seminarlarda maddi-texniki təminat sahəsində siyasət, doktrina, struktur və yığılmış təcrübə barədə məlumat mübadiləsi təşviq edilməklə bu sahədə qarşılıqlı anlaşmanın sağlam əsasını qoyulmasına diqqət yetirilir.

Hazırda hava nəqliyyatı və havada yanacaqdoldurma sahəsində praktik əməkdaşlıq imkanları araşdırılır. Ratifikasiya edildiyi halda Hərbi Qüvvələrin Statusu haqqında SNT Sazişi, o cümlədən 2005-ci ilin sonunadək yekunlaşdırılan Tranzit Sazişi və Ev Sahibi olan Dövlətin Dəstəyi haqqında anlaşma memorandumu NATO və Rusiya arasındakı bu cür praktik əməkdaşlığa əhəmiyyətli dərəcədə yardım göstərəcək.

Silahlara nəzarət sahəsində irəliləyiş

NATO və Rusiya silahlara nəzarət və etimad yaradan tədbirlərlə bağlı məsələləri müzakirə edirlər. Bu çərçivədə onlar Avropa təhlükəsizliyinin təməl daşı kimi Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə (CFE) ilə bağlı öz öhdəliklərini bir daha təsdiqlədilər. Bu sahədə irəliləyiş Rusiyanın Gürcüstan və Moldova ilə bağlı CFE Müqaviləsini imzalayan Dövlətlərin 1999-cu il İstanbul Konfransının Yekun Aktında ifadə olunan qalan öhdəliklərini yerinə yetirməsindən asılı olacaq. NATO-ya üzv dövlətlər bu öhdəliklərin yerinə yetirilməsinin CFE Müqaviləsinin Uyğunluq Sazişinin Müqavilənin 30 İştirakçısı tərəfindən ratifikasiya edilməsi və onun qüvvəyə minməsinin təmin edilməsi üçün zəruri şərait yaradacağını bildirmişlər.

Mülki fövqəladə hallar və fəlakətlər zamanı yardım

NATO və Rusiya arasında fəlakətə qarşı cavab tədbirləri sahəsində əməkdaşlıq 1996-cı ildə mülki fövqəladə halların planlaşdırılması və fəlakətə hazırlıq üzrə anlaşma memorandumunun imzalanması ilə başlayır. Əhalinin müdafiəsi və müxtəlif növ fövqəladə hallara cavab tədbirləri üzrə daha yaxşı hazırlıq sahəsində birgə iş əməkdaşlığın praktik formalarına daxildir. Rusiyanın təklifi 1998-ci ildə NATO-da Təbii Fəlakətlərə Cavab Tədbirləri üzrə Avro-Atlantik Koordinasiya Mərkəzinin (EADRCC) yaradılması ilə

nəticələndi və bu Mərkəz Kosova münaqişəsi zamanı Avro-Atlatik Tərəfdaşlıq Şurasına üzv dövlətlərin qaçqınlara yardım əməliyyatlarını əlaqələndirmək və daha sonra Tərəfdaş dövlətlərdə daşqın, zəlzələ, torpaq sürüşməsi, yanğın və digər fəlakətlər zamanı yardımı əlaqələndirmək üçün istifadə edildi.

NATO-Rusiya Şurası çərçivəsində əsas diqqət ilk növbədə qarşılıqlı fəaliyyət imkanlarının artırılmasına, metodlara, məlumat və təcrübə mübadiləsinə yetirilir. 2002 və 2004-cü illərdə Rusiya mülki fövqəladə halların planlaşdırılması və cavab tədbirləri üzrə təlimlərə ev sahibliyi etdi. Rusiya Macarıstanla birlikdə kimyəvi, bioloji, radio-aktiv və ya nüvə maddələri ilə bağlı fövqəladə hallar zamanı çevik cavab tədbirləri imkanını artırmaq təşəbbüsünü maliyyələşdirib.

Elmi və ekoloji əməkdaşlıq

Rusiya ilə elmi əməkdaşlıq 1998-ci ildə Elmi-Texniki Əməkdaşlıq üzrə Qarşılıqlı Anlaşma Memorandumunun imzalanması ilə başlayır. Digər Tərəfdaş dövlətlərlə müqayisədə Rusiyadan olan alimlər NATO-nun elmi proqramları çərçivəsində daha çox təqaüd və qrant alıblar.

Sivil elmin partlayıcı maddələrin aşkarlanması, terrorçuluğun sosial və psixoloji təsirinin araşdırılması, kimyəvi, bioloji, radioaktiv və nüvə maddələrindən müdafiə, kiber-təhlükəsizlik və nəqliyyat təhlükəsizliyi kimi yeni təhlükələrə və terrorçuluğa qarşı müdafiə sahəsinə tətbiqi NATO-Rusiya Şurası çərçivəsində hazırkı elmi əməkdaşlıq fəaliyyətinin diqqət mərkəzindədir. Əməkdaşlığın digər bir sahəsi isə fəlakətlərin öncədən proqnozlaşdırılması və onların qarşısının alınmasıdır. Mülki və hərbi fəaliyyət nəticəsində yaranan ətraf mühitin müdafiəsi ilə bağlı problemlər əməkdaşlığın digər bir mühüm sahəsidir.

25-ci Fəsil

NATO VƏ UKRAYNA

1991-ci ildə Ukrayna müstəqillik qazandıqdan bəri ölkənin NATO ilə əlaqələri çox yüksək səviyyədə inkişaf etmişdir. Ukraynanın şərqi və qərbi Avropa arasındakı strateji mövqeyini nəzərə alaraq, NATO-Ukrayna əlaqələri Avro Atlantik regionda sülh və sabitliyin bərqərar olması üçün çox əhəmiyyətlidir.

NATO və Ukrayna beynəlxalq sülhməramlı əməliyyatlarda və ümumi təhlükəsizlik problemlərinin qarşısının alınmasında çox fəal iştirak edirlər. İllər boyu digər geniş sahələrdə də yüksək səviyyəli dialoq nümunəsi və praktiki əməkdaşlıq yaradılmışdır. Tərəfdaşlığın əsas aspekti NATO və fərdi üzv dövlətlərin Ukraynanın islahat səylərinə dəstəyidir. 2004-cü il Narıncı İnqilabın dramatik hadisələrindən sonra NATO-nun dəstəyi daha da artmışdır və bu, Ukraynanın Avro Atlantik məkana inteqrasiyası baxımından çox əhəmiyyətlidir.

Əlaqələrin inkişafı

NATO və Ukrayna arasındakı rəsmi əlaqələr Sovet İttifaqının süqutu ilə ölkənin müstəqillik qazanmasından sonra Şimali Atlantika Əməkdaşlıq Şurası (daha sonra Avro Atlantik Tərəfdaşlıq Şura ilə əvəzlənmişdir) çərçivəsində 1991-ci ildə başlanıb. 1994-cü ildə Ukrayna Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramına qoşulan ilk Müstəqil Dövlətlər Birliyi (MDB) üzvü olmuşdur. 1990-cu illər ərzində Ukrayna həmçinin NATO-nun Balkanlardakı sülhməramlı əməliyyatlarına dəstək verməklə Avro Atlantik təhlükəsizliyə töhfə vermək qərarlılığını nümayiş etdirmişdir.

1997-ci il iyulun 9-da Madriddə Ukrayna prezidenti, NATO-nun dövlət və hökumət başçıları NATO və Ukrayna arasında Xüsusi Tərəfdaşlıq üzrə Xartiya imzaladılar. Xartiya NATO və Ukrayna əlaqələri üçün rəsmi baza təşkil edir və Ukraynanın suverenliyi və müstəqilliyi, ərazi bütövlüyü, demokratik inkişafı, iqtisadi tərəqqisi, qeyri nüvə silahına malik dövlət statusu, həmçinin sərhədlərin toxunulmazlığı prinsiplərinə olan dəstəyini bir daha təsdiqləmək üçün imkan olmuşdur. Alyans bunlara Mərkəzi və Şərqi Avropada, o cümlədən, bütünlükdə qitədə stabillik və təhlükəsizlik üçün əsas faktor kimi baxır.

Xartiya əsasında həmçinin NATO-Ukrayna Komissiyası (NUC) yaradılmışdır, bu komissiya NATO və Ukrayna arasındakı əlaqələrin inkişaf

etdirilməsi və əməkdaşlıq fəaliyyətinin istiqamətləndirilməsi üçün cavabdeh olan inzibati qurumdur. Qurum ümumi təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr aparmaq üçün forum və NATO-Ukrayna əlaqələrinin ümumi inkişafını dəyərləndirmək, gələcək fəaliyyət üçün planları araşdırmaq, inkişaf yolları və ya inkişaf etdirilən əməkdaşlıq üzrə təkliflər verməklə Xartiyanın şərtlərinin düzgün yerinə yetirilməsini təmin edir. NUC həmçinin Sülh Naminə Tərəfdaşlıq, Ukraynanın Hərbi Komitəsinin himayəsi altında olan İllik İş Planı çərçivəsində həyata keçirilən hərbi sahədəki fəaliyyətlər kimi müxtəlif çərçivələrdə təşkil olunmuş birgə fəaliyyətlərə nəzarət edilməsinə cavabdehdir.

NATO-ya üzv olan bütün dövlətlər və Ukrayna NUC-da təmsil olunur, komissiyada nümayəndələr və hərbi təmsilçilər səviyyəsində müntəzəm olaraq, müdafiə və xarici işlər nazirləri səviyyəsində isə vaxtaşırı görüşlər keçirilir. Xartiya vasitəsilə siyasi məsləhətləşmələr və praktiki əməkdaşlıq üçün müəyyənləşdirilmiş müdafiə islahatı, silahlı qüvvələr, iqtisadi təhlükəsizlik, elmi və ətraf mühit üzrə əməkdaşlıq kimi xüsusi sahələrdə işi yerinə yetirmək məqsədilə birgə işçi qrupları yaradılmışdır. Digər sahələrə əməliyyat məsələləri, böhrana nəzarət və sülhə dəstək, hərbi əməkdaşlıq və mülki fövqəladə planlaşdırma daxildir.

Xartiyanın beş illiyindən bir qədər əvvəl 2002-ci ilin mayında o zamankı prezident Leonid Kuçma Ukraynanın NATO-ya qəti üzvlüyü barəsindəki məqsədini elan etdi. Bir ay sonra Reykyavikdə NUC-un xarici işlər nazirləri səviyyəsində keçirilən görüşündə xarici işlər nazirləri siyasi, iqtisadi və müdafiə məsələləri üzrə intensiv məsləhətləşmə və əməkdaşlıq da daxil olmaqla əlaqələri keyfiyyətcə yeni bir səviyyəyə çatdırmaq arzularını ifadə etdilər.

NATO-Ukrayna Fəaliyyət Planı

NATO və Ukrayna Fəaliyyət Planı NUK xarici işlər nazirlərinin 2002-ci ildəki Praqa görüşündə qəbul edilib. Fəaliyyət Planı NATO-Ukrayna əlaqələrini möhkəmləndirməkdə əsas baza olan Xartiya əsasında yaradılmışdır. Onun məqsədi Ukraynanın Avro-Atlantik təhlükəsizlik strukturlarına tam inteqrasiyası cəhdlərinin strateji məqsəd və prioritetlərini aydın müəyyənləşdirmək, eləcə də mövcud və gələcək əməkdaşlıq üçün strateji çərçivəni təmin etməkdir. Fəaliyyət planı həmçinin NATO-Ukrayna əlaqələrinin dərinləşməsi və genişlənməsini nəzərdə tutur və siyasi, iqtisadi, informasiya, təhlükəsizlik, müdafiə, hərbi, informasiyanın qorunması və təhlükəsizliyi və

hüquqi məsələlər ilə bağlı birgə razılaşdırılmış prinsip və məqsədləri müəyyən edir.

Fəaliyyət Planının İttifaqın Ukraynadan İraqa hava hücumundan müdafiə təchizatları ötürülməsi barədə məlumatların yayılması ilə bağlı öz narahatçılığını ifadə etdiyi bir zamanda qəbul edilməsi İttifaqın NATO-Ukrayna əlaqələrini inkişaf etdirməkdə və Ukraynanın Avro Atlantik məkana daha sıx inteqrasiyasında olan marağını nümayiş etdirdi. NATO dövlətləri Ukraynanı demokratiyanı, qanunun aliliyini, insan hüquqlarını və bazar iqtisadiyyatını möhkəmləndirmək üçün qətiyyətli islahat prosesi həyata keçirməyə çağırmaqda davam edir.

Fəaliyyət Planının məqsədlərinin həyata keçirilməsini dəstəkləmək üçün NATO-Ukrayna Komissiyası çərçivəsində İllik Məqsəd Planı razılandı. Ukrayna həm daxili, həm də NATO ilə əməkdaşlıq şəraitində həyata keçirmək istədiyi fəaliyyətlərin şərtlərində öz məqsədlərini irəli sürür. NUC onların həyata keçirilməsinə nəzarət edir və tam illik plan hazırlanan zaman ildə iki dəfə dəyərləndirmə görüşü keçirir.

2004-cü ilin ortasında Fəaliyyət Planı çərçivəsində əldə olunan uğuru nəzərdən keçirsək görərik ki, İttifaq Ukrayna rəhbərliyinə ədalətli və şəffaf vergi prosesi, zəmanət verilən mətbuat azadlığı və qanunun aliliyi, vətəndaş cəmiyyəti və məhkəmə sistemi, silah ixracına nəzarət, müdafiə və təhlükəsizlik sahəsindəki islahatların inkişaf etdirilməsi və maliyyə yardımlarının istifadə edilməsini təmin etmək məqsədilə daha böyük işlərin görülməli olduğunu bildirmişdir. Onlar həmçinin 2004-cü ildə Ukraynada müdafiə islahatının həyata keçirilməsi zamanı əhəmiyyətli uğur əldə edildiyini təsdiqləmişlər.

2004-cü ilin payızında İttifaq Ukraynadakı prezident seçkiləri ətrafında baş verən siyasi prosesləri yaxından izlədi. Seçkilərin ikinci mərhələsinin nəticələrinin legitimliyi müxalifət və beynəlxalq müşahidəçilər tərəfindən qəbul edilməmiş və bu, ümumxalq etirazı ilə Narıncı İnqilaba və məhkəmə tərəfindən ikinci mərhələnin yenidən keçirilməsinə sərəncam verilməsinə gətirib çıxardı. Belə bir halda 2004-cü ilin dekabr ayına planlaşdırılan NATO-Ukrayna Şurasının nazirlər səviyyəsindəki görüşü müəyyən müddətə təxirə salındı. NATO Baş Katibi bu qərarı elan edən zaman vurğuladı ki, azad və ədalətli seçkilərə hörmət Xüsusi Tərəfdaşlığın əsas prinsiplərindən birini təşkil edir.

Viktor Yuşenko yenidən keçirilən ikinci mərhələdə qələbə qazandı. O, 2005-ci il yanvar ayında inauqurasiyadan dərhal sonra NATO-nun fevralın 22-də keçirilən Zirvə toplantısında iştirak etməyə dəvət olundu. NATO

rəhbərləri Ukrayna üçün yeni Prezidentin NATO-Ukrayna Fəaliyyət Planında Ukraynanın öhdəsinə götürdüyü məqsədlərlə uyğun gələn iddialı islahat planına öz dəstəklərini ifadə etdilər. Onlar NATO-Ukrayna əməkdaşlığını yeni hökumətin prioritetlərinə uyğunlaşdırmaq üçün onları sürətləndirmək və inkişaf etdirməyə razılaşdılar.

İntensiv dialoq

İki ay sonra 2005-ci il aprelin 21-də Litvanın paytaxtı Vilnüs şəhərində keçirilən NUC xarici işlər nazirlərinin görüşündə Ukrayna və İttifaq Ukraynanın NATO-ya üzvlüyü üzrə İntensiv Dialoqa başladılar. Bu prosesdə ilk konkret addım 2005-ci il iyunun 27-də Baş Katibin Kiyevə səfəri zamanı atıldı. Bu zaman Ukrayna hökuməti rəsmi olaraq ilkin müzakirə sənədini təqdim etdi.

Müzakirə sənədi 1995-ci ildə irəli sürülən NATO-nun Genişlənməsi üzrə Tədqiqatda (6-cı Fəsilə bax) yer tapan əsas məsələləri özündə ehtiva edirdi və Ukraynanın daha çox iş görməli olduğu sahələri konkret olaraq göstərirdi. Bu sənəd 2005-ci ilin sentyabr ayında başlanılan mütəxəssislərin struktur barəsindəki müzakirələrinin davam etdirilməsi üçün əsas verdi. Müzakirələr Ukrayna rəsmilərinə Ukraynadan potensial İttifaq üzvü kimi nələr gözlənildiyini daha yaxşı öyrənmək üçün imkan verdi və həmçinin NATO rəsmilərinə Ukraynanın islahat siyasəti və imkanklarını nəzərdən keçirmək imkanı verdi.

Vilnüsdə həmçinin İttifaq və Ukrayna demokratik institutların inkişaf etdirilməsi, siyasi dialoqu yaxşılaşdırmaq, müdafiə və təhlükəsizlik sahələrindəki islahatları sürətləndirmək, ictimai məlumatlandırmanı, islahatların sosial və iqtisadi nəticələrinə nəzarət etmək kimi başlıca sahələrdə NATO-Ukrayna əməkdaşlığını inkişaf etdirməyi nəzərdə tutan qısa müddətli fəaliyyət paketini açıqladılar. Bu sahələr Ukrayna hökuməti üçün əsas prioritetlərdir və onlar 2004-cü ilin dekabr ayında Ukrayna xalqının tələb etdiyi demokratik dəyişikliyin əldə olunması üçün zəruridir. Bunlar həmçinin NATO-nun xüsusi təkliflər və bəzi hallarda isə maddi dəstək verə biləcəyi sahələrdir.

İntensiv Dialoq xüsusilə Ukraynanın NATO-ya mümkün üzvlüyü ilə bağlı məsələlərə yönəlib. Qısa müddətli tədbirlər planı təcili islahat məqsədlərinə dəstək olaraq praktiki əməkdaşlığa diqqət yetirilməsi üçün nəzərdə tutulub. Bu təşəbbüslərin hər ikisi NATO-Ukrayna Fəaliyyət Planı çərçivəsindəki cari əməkdaşlığı mükəmməlləşdirmək və gücləndirməyi müəyyən edir.

Ukrayna ilə İntensiv Dialoqun başlanması NATO-Ukrayna əlaqələrindəki real dönüş nöqtəsi olmaqla, Ukraynanın Avro-Atlantik məkana inteqrasiya etmək niyyətini birmənalı nümayiş etdirir. Şübhəsiz bu proses İttifaqa qoşulmaq üçün dəvət olunmağa zəmanət vermir, belə ki, bu dəvətolunma Ukraynanın əsas islahatları yerinə yetirməsinə əsaslanacaq. NATO və fərdi Müttəfiqlərə yardım və məsləhət vermək üçün tapşırıq verilib, ancaq inkişafın sürəti Ukraynadan asılıdır.

Əlaqələr və əməkdaşlığa yardım

Ukrayna 1997-ci ildə NATO-da diplomatik missiya açan ilk dövlətlərdən biri olmuşdur və 1998-ci ildə isə Hərbi Əlaqələndirici Missiya yaradılmışdır. Həmçinin Ukrayna hərbi personalı Belçikanın Mons şəhərindəki NATO-nun hərbi əməliyyat qərargahında yerləşən Tərəfdaşlığın Koordinasiya Bölümündə (PCC) xidmət edirlər.

1997-ci ilin may ayında NATO Kiyevdə İnformasiya və Sənədləşmə Mərkəzi açdı. Mərkəzin rolu Ukraynanın NATO ilə tərəfdaşlığının qarşılıqlı faydasını inkişaf etdirmək məqsədilə informasiya fəaliyyətini təmin etmək və Ukrayna ictimaiyyətinə İttifaqın siyasətini izah etməkdən ibarətdir. Mərkəz nəşrlər, seminarlar, konfranslar, gənc tələbələr və dövlət qulluqçuları üçün informasiya məktəbləri vasitəsilə Avro Atlantik inteqrasiya və təhlükəsizlik məsələləri üzrə informasiya yaymaq və müzakirələrə stimul yaratmağa səy göstərir. Bundan əlavə, Mərkəz Kiyevdən kənarda ölkənin bir neçə regionunda bir sıra məlumat bürolari açmışdır.

Ukrayna rəsmilərini NATO-Ukrayna Xartiyası və SNT proqramı çərçivəsində əməkdaşlıq üçün olan imkanlardan maksimum istifadə etməyə təşviq etmək üçün onlarla birbaşa işləmək məqsədilə 1999-cu il aprel ayında Kiyev şəhərində mülki şəxsin rəhbərlik etdiyi NATO Əlaqələndirici Ofisinin (NLO) əsası qoyuldu. Ofis Ukraynanın müdafiə və təhlükəsizlik sahələrində islahat aparmaq səylərini dəstəkləmək, Fəaliyyət Planı çərçivəsində əməkdaşlığı möhkəmləndirmək və bütün səviyyələrdə NATO və Ukrayna rəsmiləri arasındakı əlaqələrə yardım etmək sahələrində fəaldır. Ofis həmçinin Ukrayna hərbi qüvvələrinin birgə təlim, treninq və NATO-nun Sülhməramlı Əməliyyatlarında iştirak etməsinə yardım göstərmək üçün onlarla yaxından çalışan hərbi əlaqələndirici qrupa malikdir. 2004-cü ilin avqust ayında SNT fəaliyyəti ilə məşğul olan hərbi qüvvələrin bölmə və heyətlərinin müvafiq sənədlərə çıxışını təkmilləşdirmək məqsədilə NATO-Ukrayna Müdafiə Sənədləşmə Ofisi açıldı.

Sülhü dəstəkləmə və təhlükəsizlik əməliyyatları

Ötən illər ərzində Ukrayna NATO-nun Bosniya və Herseqovinadakı sülhməramlı qüvvələrinə piyada qoşun taboru, mexanikləşdirilmiş piyada qoşun taboru və vertolyot eskadrilyası vermişdir. NATO-nun Kosovadakı əməliyyatında iştirak edən Ukrayna silahlı qüvvələrinin tərkibinə vertolyot eskadrilyası və hələdə birgə Polşa-Ukrayna taborunun tərkib hissəsi kimi Birləşmiş Ştatların nəzarət etdiyi sektorda xidmət edən təxminən 300 nəfərlik sülhməramlılar daxildir.

Daha sonra Ukrayna NATO-nun rəhbərlik etdiyi Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin və ya Birləşmiş Ştatların rəhbərlik etdiyi Azadlığın Dəstəklənməsi Möhkəmləndirilməsi Əməliyyatı çərçivəsində koalisiya qüvvələrinin Ukraynanın hava məkanından keçməsinə icazə verməklə beynəlxalq sabitlik və terrorizmə qarşı mübarizəyə öz töhfəsini verir. 1600 nəfərlik Ukrayna qoşunu NATO və Tərəfdaş dövlətlərdən olan sülhməramlıların daxil olduğu beynəlxalq sabitləşdirmə qüvvələrin sektorlarının birində Polşanın rəhbərlik etdiyi çoxmillətli qüvvələrin tərkib hissəsi kimi İraqa yerləşdirilib.

İttifaq həmçinin Ukraynanın Aralıq dənizində terrorizmin qarşısını almaq, məhv etmək və ondan müdafiə olunmağı qarşısına məqsəd qoyan Aktiv Səylər Əməliyyatına (Operation Active Endeavour) dəstək təklifini alqışlamışdır. 2005-ci il aprel ayının 21-də Vilnüs şəhərində NATO Baş Katibi Yaap de Hop Şeffer və Xarici İşlər Naziri Boris Tarasyuk tərəfindən imzalanan məktubların mübadiləsi ilə Ukraynanın qeyd olunan əməliyyatda iştirakı ilə bağlı prosedurlar razılaşdırıldı. Bu, Ukraynanın göstərdiyi töhfələrin əməliyyatda iştirakını təmin etmək üçün işçi qrupu səviyyəsində müzakirələrin aparılması uçun yol açdı. Ukraynanın dəstəyi terrorizmə qarşı NATO-Ukrayna əməkdaşlığını və NATO-Ukrayna qüvvələri arasındakı birgə fəaliyyət göstərmə qabiliyyətini daha da inkişaf etdirəcək və Ukraynanın Avro-Atlantik təhlükəsizliyə verdiyi töhfələrə daha bir konkret faktor əlavə edəcəkdir.

Müdafiə və təhlükəsizlik sahəsində islahat

Müdafiə və təhlükəsizlik islahatları sahəsindəki əməkdaşlıq Ukraynanın təhlükəsizlik sisteminin davam edən transformasiyası üçün həlledici olmuşdur və ölkənin daxili dəyişikliyi üçün hələ də əhəmiyyətlidir. 1991-ci ildə müstəqillik qazanandan və keçmiş Sovet İttifaqının silahlı qüvvələrinin əhəmiyyətli bir hissəsini miras olaraq alandan bəri Ukrayna dəyişmiş təhlükəsizlik mühiti, demokratik şərait və mümkün mənbələrin tələblərinə uyğunlaşdırmaq üçün öz silahlı qüvvələr və təhlükəsizlik sistemini əvvəlcə yaratma, daha sonra isə yaxşılaşdırmaq mərhələsində olmuşdur. O, geniş

miqyasda səfərbərliyə alınmış qüvvələri öz təhlükəsizlik ehtiyaclarını ödəməyə qabil, həmçinin, fəal şəkildə Avropadakı sabitlik və təhlükəsizliyə töhfə vermək qabiliyyətində olan daha kiçik, peşəkar, mobil silahlı qüvvələrə dəyişdirmək üçün NATO-nun dəstəyini almaga chalishmishdir. Bu məsələdə NATO üçün prioritet Ukrayna silahlı qüvvələri üzərində demokratik və mülki nəzarəti gücləndirmək və onların NATO qüvvələri ilə birgə əməliyyat aparma qabiliyyətini inkişaf etdirməkdir.

Bu prosesin əhəmiyyətini dərk edərək NATO müdafiə və təhlükəsizlik sahəsindəki islahatları idarə etmək üçün praktiki yardımı genişləndirmişdir. Müdafiə İslahatı üzrə NATO-Ukrayna Birgə İşçi Qrupu (JWGDR) müdafiə və təhlükəsizlik islahatları sahəsindəki əməkdaşlıq üçün əsas mərkəzdir. Qurum mülki-hərbi əlaqələr, silahlı qüvvələrə demokratik nəzarət, müdafiə sahəsindəki planlaşdırma, siyasət, strategiya və milli təhlükəsizlik konsepsiyaları sahəsində təşəbbüslər göstərmək məqsədilə NATO-Ukrayna Komissiyasının himayəsi ilə 1998-ci ildə yaradılmışdır. Bütün NATO üzvləri və Ukrayna yüksək səviyyədə NATO-Ukrayna Birgə İşçi Qrupunun illik görüşlərində təmsil olunur. Görüşlərə NATO-nun Müdafiə Siyasəti və Planlaşdırma üzrə Baş Katibin Yardımçısı və Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurası Katibinin Müavini həmsədrlik edirlər, bu zaman NATO-ya üzv dövlətlər və Ukraynadan yüksək səviyyəli rəsmilər toplaşır. İldə bir dəfə NATO-Ukrayna Birgə İşçi Qrupu Ukrayna və NATO müdafiə nazirlərini, həmçinin, müdafiə və təhlükəsizlik sahəsindəki yüksək mütəxəssisləri bir araya gətirməklə müdafiə islahatı və müdafiə siyasəti üzrə qeyri rəsmi yüksək səviyyəli məsləhətləşmələr təşkil edir.

NATO-Ukrayna Birgə İşçi Qrupu Ukraynanın NATO dövlətlərindən təcrübə və biliklər əldə etməsinə şərait yaradır və yardım göstərmək üçün vasitə rolunu oynayır. O, həmçinin Ukraynada müdafiə və təhlükəsizlik sahəsindəki islahata dəstək verən nazirlik və agentliklər ilə əməkdaşlıq üçün institusional baza təmin edir. Əməkdaşlığın əsas elementlərinə Ukraynaya yeni təhlükəsizlik konsepsiyası və hərbi doktrina hazırlamaqda yardım, həmçinin, müdafiə büdcəsi və planlaşdırması, hərbi dəyişiklik və qüvvələrin sayının azaldılmasına dəstək, çevik qüvvələrin yaradılması, silahlı qüvvələrin peşəkarlaşdırılması, hərtərəfli müdafiə icmalının həyata keçirilməsi daxildir.

NATO-Ukrayna Birgə İşçi Qrupu Ukrayna təhlükəsizlik sahəsinin ayrı-ayrı hissələrində, müdafiə icmalı prosesinin idarə olunmasına yardım göstərilməsində, Ukrayna Parlamentinin (Verxovno Rada) qanunvericilik proqramı, Müdafiə Nazirliyində mülki əhalinin rolunun artırılması səylərinə dəstək və effektli müdafiə təşkilatı yaratmaq ilə bağlı məsələlər üzrə Ukrayna Parlamenti, NATO mütəxəssisləri və NATO Parlament Assambleyası üzvlərinin

iştirakı ilə dəyirmi masaların təşkili, Ukraynaya göstərilən ikitərəfli yardımları uyğunlaşdırmaq məqsədilə görüşlər təşkil etmək və Ukrayna Sərhəd Nəzarəti, Daxili İşlər və Fövqəladə Hallar Nazirlikləri ilə müxtəlif əməkdaşlıq sahəsindəki islahatlara yardım etmək üçün SNT proqramının Planlaşdırma və Təhlil Prosesinin (PARP) istifadəsi də daxil olmaqla Ukrayna təhlükəsizlik sisteminin transformasiyasına yardım etmək üçün bəzi təşəbbüslərə başlamışdır. Fəaliyyət yalnız silahlı qüvvələr və Müdafiə Nazirliyi ilə məhdudlaşmır və bütün təhlükəsizlik sektorundakı qurumlarda həyata keçirilən islahatlara yardım göstərmək məqsədi daşıyır.

Ukraynanın müdafiə və təhlükəsizlik sahəsində islahat aparmaq kompaniyası Ukraynaya İttifaq ilə birlikdə əməliyyat aparma qabiliyyəti məqsədinə çatmaqda yardım etmək üçün qüvvələrin sistem və qabiliyyətini formalaşdırmaqda inkişaf etdirilən birgə məqsədləri reallığa çevirən Sülh Naminə Tərəfdaşlıq, SNT üzrə Planlaşdırma və Təhlil Prosesi proqramlarında iştirak etməklə yararlanır. Ukraynanın illik Fərdi Tərəfdaşlıq Proqramı çərçivəsində digər SNT fəaliyyətlərində iştirakı hələ də davam etdirilir və 2005-ci ildə dil treyninqləri, hərbi təlim və əməliyyat konsepsiyalarını nəzərdən keçirmə də daxil olmaqla 400 fəaliyyət proqramında iştirakı gözlənilir.

Demilitarizasiya layihəsinin həyata keçirilməsində ehtiyac olan əsas yardım bu prosesə birgə təsirlərini gücləndirmək məqsədilə fərdi NATO dövlətlərinə könüllü maliyyə yardımlarını bir araya toplayan SNT İnam Fondları vasitəsilə istiqamətləndirilir. İcraçı orqan kimi NATO Bərpa və Təchizat agentliyi tərəfindən həyata keçirilən ilk belə layihə zamanı 400 000 piyada əleyhinə mina təhlükəsiz məhv olundu və Ukraynanın təxminən yeddi milyon insan əleyhinə mina ehtiyatının məhv olunması istiqamətində ilk addım idi. Macarıstan, Polşa və Hollandiya tərəfindən maliyyə cəhətdən dəstəklənən layihədə Kanada aparıcı dövlət idi. SNT İnam Fondunun 133 000 ton adi döyüş sursatı, 1.5 milyon kiçik və digər silahların məhv edilməsi məqsədilə ikinci layihəsi 2005-ci ildə başlandı. 20 il müddətində həyata keçirilməsi dəyərləndirilən layihənin ilk üç illik mərhələsinə Birləşmiş Ştatlar rəhbərlik edəcəkdir. Bu indiyə qədər həyata keçirilən ən böyük hərbisizləşdirmə layihəsi olacaqdır.

Müdafiənin iqtisadi tərəfləri

Müdafiənin iqtisadi tərəfləri üzrə Ukrayna ilə əməkdaşlıq iki əsas sahəyə malikdir: Yenidən təlim fəaliyyətləri və müdafiə iqtisadiyyatı, iqtisadi təhlükəsizlik, müdafiə sənayesinin bərpa olunmasının iqtisadi tərəfləri və Avro - Atlantik inteqrasiya ilə bağlı institusional dialoq.

Bu sahədəki dialoqun tərkib hissəsi kimi təcrübə mübadiləsi müdafiə büdcəsi, müdafiə ehtiyatlarına nəzarət və onların müdafiə sahəsindəki makro iqtisadiyyat və bu sektorun islahatı da daxil olmaqla iqtisadi inkişafın təhlükəsizlik tərəfləri üzrə ixtisaslaşan ekspertlər arasında aparılır. Maliyyə planlaşdırmasından maliyyə nəzarətinə kimi bütün büdcə prosesini əhatə edən müdafiə iqtisadiyyatına aid kurslar da təşkil olunmuşdur.

Müdafiə islahatının iqtisadi və sosial nəticələri ilə məşğul olmaq əməkdaşlığın önəmli istiqamətidir. Ehtiyata buraxılmış hərbi xidmətçilərin sosial həyata uyğunlaşması ilə məşğul olan Ukrayna Milli Əlaqələndirmə Mərkəzi ilə saziş çərçivəsində NATO Ukraynada dil və idarəçilik kurslarını maliyyələşdirir və onları həyata keçirir. Ukrayna ilə İntensiv Dialoqun başlanmasından sonra NATO bu sahədəki əməkdaşlığa sərf olunan ehtiyatları iki dəfə artırmışdır.

Hərbi qurumlar arasında əməkdaşlıq

NATO və Ukrayna hərbiçiləri arasında əməkdaşlıq Ukrayna ilə Hərbi Komitənin himayədarlığı altıda NATO-Ukrayna Hərbi İş Planı çərçivəsində inkişaf etdirilir. Əsas diqqət mərkəzi Ukraynaya öz müdafiə islahat obyektlərini genişləndirmək, JWGDR-in hərbi ekspertlərlə birgə apardıqları işin artırılmasında köməklik etməkdir. NATO hərbi heyəti həmçinin NATO və Ukraynaya operativ əməkdaşlığı irəli sürməyə imkan verən inkişafda hüquqi çərçivəyə başçılıq edirdi. Bunlara SNT Qüvvələrin Statusu Haqqında Saziş (SOFA) və 2000-ci il 1 martda Ukrayna Parlamenti tərəfindən təsdiqlənən və 2000-ci il 26 mayda qüvvəyə minən əlavə protokolu daxildir. Bu razılaşma SNT tədbirlərində iştirak edənləri pasport və viza proseduralarından, habelə qəbul edən ölkənin ərazisinə daxil olanda və tərk edəndə immiqrasiya yoxlanışından azad etməklə Ukraynanın SNT hərbi təlimlərində iştirakını asanlaşdırır. 2004-cü il martında ratifikasiya edilmiş Sahib Ölkə Dəstəyi haqqında anlaşma memorandumu sülh, böhran və müharibə dövründə Ukrayna ərazisində yerləşən, eləcə də Ukrayna ərazisindən tranzit keçən İttifaq qüvvələrinə mülki və hərbi köməyin göstərilməsi məsələlərini tənzimləyir. 2004-cü il iyunda Strateji Hava Daşıması haqqında anlaşma memorandumu imzalanmışdır və bu sənəd Ukraynanın NATO-nun yük daşıma ötürmək qabiliyyətinə ciddi töhfə verməsinə imkan yaradacaqdır.

Digər ölkələrdə, eləcə də Ukraynanın öz ərazisində də keçirilən çox saylı SNT tədbirlərində və hərbi təlimlərində iştirak hərbi personalın sülhə dəstək əməliyyatları üçün hazırlanmasına kömək edir və NATO ölkələri və digər tərəfdaşların qüvvələri ilə birgə işləmək təcrübəsini qazandırır.

Ukraynanın yüksək rütbəli hərbiçiləri müntəzəm olaraq Romadakı NATO Müdafiə Kolleci (İtaliya) və Oberamergaudakı NATO Məktəbində (Almaniya) kurslarda iştirak edirlər. Bu qurumlarla əməkdaşlıq Ukrayna Müdafiə Akademiyasında yeni çoxmillətli fakültənin yaradılmasına kömək etmişdir.

Silahlanma sahəsində əməkdaşlıq

Ukrayna və NATO-nun silahlanma sahəsində texniki əməkdaşlığı Ukraynanın sülhü dəstəkləmə Əməliyyatlarına verdiyi töhfəni artırmaq məqsədilə müdafiə sistemləri arasındakı uyarlılığın artırılmasına çalışır. Bu sahədə əməkdaşdıq Ukrayna SNT proqramına qoşulandan və NATO-nun Silahlanma üzrə Milli Direktorların Konfransı (CNAD) çərçivəsində görüşən çoxsaylı qrupların iclaslarında iştirak etməsi ilə başladı. SMDK əsasən texniki standartlar sahəsində olmaqla, müdafiə təchizatının əldə olunması sahəsində ölkələr arasında əməkdaşlıq imkanlarını araşdıran ali NATO qurumudur. İlk dəfə 2004-cü il martda görüşən Silahlanma üzrə Birgə İşçi Qrupu bu sahədə əməkdaşlığın daha da inkişafını dəstəkləyir.

Mülkü Fövqəladə Planlaşdırma

Ukraynanın qərb regionlarında tez-tez güclü daşqınlar olur; NATO və digər Tərəfdaş ölkələri 1995, 1998 və 2001-ci illərdəki kəskin daşqınlardan sonra Ukraynaya köməklik etmişdir. Mülkü Fövqəladə Planlaşdırma və Böhranlara Hazırlıq haqqında anlaşma Memorandumuna uyğun olaraq, 1997-ci ildən əməkdaşlığın əsas istiqaməti Ukraynaya bu cür fövqəladə vəziyyətlər üçün daha yaxşı hazırlaşmaqda və onların nəticələrini effektiv olaraq aradan qaldırmaqda kömək etmək olmuşdur. 2000-ci il sentyabrda Ukraynanın Trans-Karpatia regionunda keçirilən təlim də daxil olmaqla, SNT təlimləri fəlakətlərin nəticələrinin aradan qaldırılması prosedurlarının sınaqdan keçirilməsinə kömək edir. Tisza çayı hövzəsi üçün səmərəli daşqından xəbərdarlıq və cavab tədbirləri sistemini hazırlamaq üçün 2001-ci ildə qonşu ölkələrin iştirakı ilə layihəyə start verildi. SNT təlimləri həmçinin uçqun və zəlzələlər kimi təbii fəlakətlər, yaxud zəhərli, kimyəvi, bioloji, radioaktiv və nüvə maddələrinin istifadə edildiyi terror aktlarının nəticələrinin aradan qaldırılması ilə bağlı planlar və effektiv böhranlara-reaksiya imkanlarını inkişaf etdirməyə kömək edir.

Elm və ətraf mühitlə bağlı məsələlər

Ukraynanın NATO-nun elmi proqramlarında iştirakı 1991-ci ildə başlamışdır və o vaxtdan etibarən Elmi və Ekoloji Əməkdaşlığı üzrə birgə İşçi qrupunun yaradılması ilə daha da genişlənmişdir. Bu illər ərzində Ukrayna elmi əməkdaşlıq sahəsində Rusiyadan sonra NATO qrantlarından ən çox faydalanan ikinci ölkə olmuşdur. Terrorizm və yeni təhlükələrlə mübarizə sahəsində elmi nailiyyətlərin tətbiq edilməsiylə yanaşı, NATO-nun elm proqramının məqsədlərinə uyğun olaraq, Ukraynanın əməkdaşlıq üçün prioritet sahələrinə informasiya texnologiyaları, hüceyrə biologiyası və biotexnologiya, yeni materiallar, ətraf mühitin qorunması və təbii ehtiyatların rasional istifadəsi daxildir. Ətraf mühit sahəsində əməkdaşlıq xüsusilə müdafiə ilə bağlı ətraf mühit problemləri üzərində cəmləşir. Həmçinin NATO Ukraynanın tədqiqat qurumları arasında kompüter şəbəkəsinin müvafiq infrastruktur təminatı və onların İnternetə çıxışını asanlaşdırılması məqsədilə bir neçə layihəni maliyyələşdirmişdir.

İctimai məlumatlandırma

İntensiv Dialog prosesi irəlilədikcə, Ukrayna administrasiyası üçün Ukrayna əhalisini öz iddialı islahat programının və NATO-ya üzv olmaq istəyinin ölkənin maraqlarına uyğun olduğuna inandırması vacib olacaqdır. Aydındır ki, hələ də Ukraynada bir çox insanlar NATO-ya şübhə ilə yanaşırlar və İttifaq onlarda əsasən Soyuq Müharibə dövrünün stereotipləri ilə assosiasiya olunur. Vilnüsdə razılaşdırılmış qısa müddətli fəaliyyətlərin bir hissəsi kimi Müttəfiqlər NATO-nun bugünkü mahiyyəti və NATO-Ukrayna əlaqələri haqqında maarifləndirməni artırmaq üçün Ukrayna hakimiyyətilə əməkdaşlıq etmək təklifi ilə çıxış etmişdir. İnsanların İttifaqa yeni gözlə baxması Soyuq Müharibədən sonra yeni təhlükəsizlik problemlərini həll etmək üçün NATO-nun keçdiyi transformasiyasını və Rusiya da daxil olmaqla, Avro-Atlantik məkanda inkişaf etdirdiyi yeni tərəfdaşlıqların dərk edilməsinə imkan yaradacaqdır. Ukrayna ictimaiyyətinin Ukrayna-NATO arasında ötən onillikdə inkişaf etmiş dialoq və praktiki əməkdaşlıq haqqında daha geniş məlumata ehtiyacı var. Bu birgə əməkdaşlıq bundan sonra da NATO-Ukrayna əlaqələrinin daha da dərinləşməsi üçün güclü təməl olacaqdır.

26-cı Fəsil

ARALIQ DƏNİZİ REGİONU VƏ GENİŞ ORTA ŞƏRQ ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

NATO Aralıq dənizi regionu və geniş Orta Şərq ölkələri ilə sıx təhlükəsizlik tərəfdaşlığını inkişaf etdirir. Bu, təhlükəsizliyi və stabilliyi Avro-Atlantik təhlükəsizliyə sıx bağlı olan strateji cəhətdən dünyanın mühüm ərazilərində böyük marağı olan İttifaqın prioritetlərində olan dəyişiklikdə özünü göstərir.

Bu regiondakı ölkələrlə genişlənən dialoq və əməkdaşlıq tendensiyası 2004-cü il iyunda NATO-nun İstanbul Sammit görüşündə iki əsas məqsədi formalaşdırır. On il bundan əvvəl yaradılmış NATO-nun Aralıq dənizi dialoqunda iştirak edən ölkələr daha ambisiyalı və genişləndirilmiş tərəfdaşlıq yaratmağa dəvət olunmuşdular. Paralel olaraq yeni, fərqli, lakin əlavə olan İstanbul Əməkdaşlıq Təşəbbüsü geniş Orta Şərq regionunda maraqlı olan ölkələr ilə əməkdaşlıq etmək üçün qarşılıqlı faydalı ikitərəfli əlaqələri gücləndirməklə, təhlükəsizliyi və stabilliyi genişləndirmək təklifi ilə yaradılmışdır.

Aralıq dənizi regionu və geniş Orta Şərqlə əlaqələrin qurulması NATO üçün 1990-ci illərdə Şərq-Qərb bölünməsi mirasının dəf edilməsi kimi vacibdir. Təhdidlər müxtəlifdir, lakin hələ də mürəkkəbdir. Vəziyyət belə olduqda, əsas cəhd yanlış fikri dəf etmək, anlaşılmazlıqları həll etmək və inam və anlayış yaratmaq tələb olunur.

Bu regionlarda təhlükəsizlik və sabitliyin vacibliyi

NATO üçün Şimali Afrikada və geniş Orta Şərqdə stabillik və təhlükəsizliyə şərait yaradılması və dialoqun irəli sürülməsində bir neçə vacib səbəblər var. Əsas vacib səbəb budur ki, cari təhlükəsizlik təhdidlərinin bir çoxu - terrorizm, kütləvi qırğın silahlarının yayılması, zəifləmiş dövlət və transmilli cinayətlər – həm NATO üzv ölkələri, həm də bu regionlardakı ölkələr üçün ümumidir. Nəticə etibarilə, bu təhdidlər ümumi cavab tədbirləri tələb edir.

Bundan əlavə, bu təhdidlərə cavab olaraq NATO Əfqanıstanda təhlükəsizliyə kömək əməliyyatı, Aralıq dənizində dəniz anti-terror əməliyyatı və İraqdakı təlim missiyası daxil olmaqla Avropadan kənar ərazilərə daha

çox genişlənir.(ıv hissəyə bax). Aralıq dənizi regionu və geniş Orta Şərq ölkələri ilə bu tərəqqini müzakirə etmək vacibdir.

Bir çox həll olunmamış siyasi, sosial və iqtisadi məsələlər hesabına bu regionlardakı qeyri-sabitliyin olması da narahatlıq doğurur. Orta Şərqdə İsrail-Fələstin konflikti əsas gərginlik mənbəyi olaraq qalır. Konfliktin hərtərəfli və davamlı həllindəki irəliləyiş bu regiondakı ölkələr və bütövlükdə beynəlxalq cəmiyyət üçün prioritetdir. NATO-nun Orta Şərqdə sülh prosesinə cəlb olunmamasına baxmayaraq, İttifaq Yol Xəritəsinin məqsədlərini dəstəkləyir – birbaşa maraqlı olan iki tərəflər və Avropa İttifaqı, Rusiya, Birləşmiş Millətlər və Birləşmiş Ştatlar dördlüyü tərəfindən konfliktin daimi həlli istiqamətində atılmış təşəbbüskar addımların maliyyələşməsi.

Avropanın neft və təbii qaz idxalının 65%-i Aralıq dənizindən keçəndən sonra enerji təhlükəsizliyi başqa bir narahatlıqdır. Aralıq dənizi regionunda ətraf mühitin stabilliyi və təhlükəsizliyi təkcə Qərb idxalçı ölkələr üçün deyil, həm də regionun enerji istehsalçıları və neft və qaz tranziti olan ölkələr üçün vacibdir.

Aralıq dənizi dialoqu

NATO-nun Aralıq dənizi dialoqu regional təhlükəsizlik və stabilliyə kömək etmək, qarşılıqlı anlaşmaya nail olmaq və Dialoq ölkələri arasında NATO siyasəti və məqsədləri haqqında anlaşılmazlığı aradan qaldırmaq üçün Şimali Atlantika Şurası tərəfindən 1994-cü ildə yaradılmışdır. İllər keçdikcə iştirakçı ölkələrin sayı artmışdır: Misir, İsrail, Mavritaniya, Mərakeş və Tunis 1994-cü ildə və ardınca 1995-ci ildə İordaniya və 2000-ci ildə Əlcəzair qoşulmuşdur.

Dialoq Alyansın Avropanın təhlükəsizliyi Aralıq dənizi təhlükəsizliyi və stabilliyi ilə sıx bağlı olduğu mövqeyini əks etdirir. Bu NATO-nun keçmiş-Soyuq Müharibə təhlükəsizlik mühitinə adaptasiyasını formalaşdırır və İttifaqın kömək və əməkdaşlıq siyasətinin vacib komponentidir.

İlkin olaraq, NATO Tərəfdaş ölkələrin Dialoq ölkələrinin təhlükəsizlik qayğıları və NATO-nun məqsədləri və siyasəti haqqında anlaşılmazlığını aradan qaldırmaq üçün inam-yaradıcı və şəffaflıq üçün forum yaratmaq istəyir. Bundan sonra, siyasi müzakirələr daha tez-tez və intensiv olmuşdur və Dialoqa daha konkret əməkdaşlıq üçün daha çox struktur və imkanlar verilmişdir.

Aralıq dənizi dialoqunun yaradılması və onun sonrakı inkişafı mühüm prinsiplərə əsaslanır:

- Dialoqun inkişafı birgə sahiblik hissinə əsaslanır. Bu hər bir Aralıq dənizi tərəfdaşlarının xüsusi regional, mədəni və siyasi maraqlarını əks etdirir və bu faktorlar Dialoq kontekstində nəzərə alınır. Burdan aydın olur ki, Dialoqda tərəfdaş dövlətlərin birgə əməkdaşlıq cəhdləri və qarşılıqlı fəaliyyəti nəzərdə tutulur. Bu, NATO-nun digər tərəfdaşlarının inkişafından nəticələnən əlavə dəyərdə və qazanılmış təcrübəsində təsbit olunur.
- Dialoq iştirak və tərkibi baxımından inkişafdadır. Bu tez uyğunlaşma bir sıra dialoq tərəfdaşlarını inkişaf etməyə və dialoqun tərkibini zaman keçdikcə inkişaf etdirməyə imkan verir.
- Bütün Aralıq dənizi tərəfdaşları NATO ilə əməkdaşlıq fəaliyyətlərini və müzakirələri eyni əsasda təklif edir. Dialoq ölkələrinin iştirakının intensivliyi və dərəcəsi onların müəyyən özünəməxsusluq həddində azaddır. Bu fərqlənməyən çərçivə Dialoqun vacib xüsusiyyətidir və inkişafı üçün əsasdır.
- Dialoq Avropa İttifaqının Barselona Prosesi (Avro-Aralıq Tərəfdaşlığı) və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Aralıq dənizi Təşəbbüsü kimi digər beynəlxalq cəhdləri tamamlamaq və möhkəmləndirmək istəyir.

Dialoq həm siyasi, həm də təcrübi ölçülərə malikdir.

Siyasi xüsusiyyətlər

Siyasi dialoq fərdi Dialoq ölkələri və NATO üzv ölkələri cəlb olunan müntəzəm ikitərəfli danışıqlar, həmçinin də bütün yeddi Dialoq iştirakçılarının NATO üzv ölkələri ilə ümumi görüşləri daxil olan çoxtərəfli görüşlərdən ibarətdir. (NATO daxilində ikitərəfli görüş" NATO+1"kimi göstərilir, əgər bütün iştirakçılar daxildirsə "NATO+7" görüşü adlandırılır.) Onların hər biri səfirlik və işçi səviyyələrində baş tutur. Siyasi dialoqa həmçinin səfirlik səviyyəsində çoxtərəfli konfranslar və yüksək səviyyəli rəsmilər tərəfindən olunan səfərlər daxildir.

Hər il fərdi iştirakçı ölkələrlə siyasi məsləhətləşmələr həm səfirlik, həm də işçi səviyyəsində keçirilir. Bu müzakirələr Aralıq dənizində təhlükəsizlik vəziyyətinə uyğun gələn bir sıra məsələlərdə fikir mübadiləsi aparmaq, həmçinin Dialoqun siyasi və təcrübi əməkdaşlıq sahələrinin gələcək inkişafı üçün imkan yaradır.

Aralıq dənizi dialoqu üçün daha ambisiyalı və genişləndirilmiş çərçivə yaratmaq haqqında İstanbul qərarı siyasi dialoqu genişləndirməyə çağırır. Bura nazirlərin görüşlərinin təşkili və ən qısa müddətdə ümumi siyasi bəyannamənin qəbul edilməsinin mümkünlüyü daxildir. 2004-cü il 8 dekabrda NATO xarici işlər nazirləri və onların Aralıq dənizi dialoqundan olan həmkarlarının ilk dəfə nazirlər səviyyəsində görüşü Dialoqun on illiyi ilə bağlı keçirilən rəsmi naharda olmuşdur.

Bu görüş iştirakçı ölkələr arasında daha müsbət obraz, böyük etibar və inam və NATO siyasəti və məqsədlərini regionun ölkələri arasındakı daha yaxşı başa düşülməsini təmin etmək üçün genişləndirilmiş ictimai diplomatiyaya ehtiyacla əlaqədar ümumi fikri işıqlandırır. Bu prosesin bir hissəsi kimi və Dialoqda yeni dinamikliyi əks etdirərək, NATO-nun Baş Katibi 2004-cü ilin axırları 2005-ci ilin əvvəllərində Dialoq ölkələrinə yönəlmiş səfərləri sırasında ölkə və hökumət başçıları və baş nazirlərlə görüşmüşdür.

Təcrübi xüsusiyyətlər

Aralıq dənizi Dialoqu praktiki əməkdaşlıq siyasətini irəli sürmək niyyətindədir. 1997-ci ildən tərkibinə seminarlar və digər praktiki fəaliyyətlər daxil olan İllik İş Proqramı yaradılmışdır. İş Proqramı əməkdaşlığın 21 sahəsini əhatə edən fəaliyyətlərin artan sayı daxil olmaqla genişlənmişdir. Buna əsasən informasiya, elm və ətraf mühit, mülki fövqəladə planlaşdırma, böhranın idarə edilməsi, müdafiə siyasəti və strategiyası, sərhəd təhlükəsizliyi, kiçik və yüngül silahlar, müdafiə islahatı və müdafiə iqtisadiyyatı, həmçinin terrorizm və kütləvi qırğın silahlarının yayılması haqqında məsləhətləşmələr daxildir.

İllik İşçi Proqramının hərbi sahələri Dialoq ölkələrinə NATO/SNT hərbi təlimlərində iştirak etməyi və müşahidə aparmağı və İtaliya, Romadakı NATO Müdafiə Kollecində və Almaniya, Oberammerqaudakı NATO məktəbində kurslar və digər akademik fəaliyyətlərdə iştirak etməyi və digər NATO hərbi qurumlarına səfər etməyi müəyyən edir.

Hərbi proqrama həmçinin NATO-nun Daimi Hərbi dəniz Qüvvələri tərəfindən liman səfərləri, səyyar məşğələ komandası tərəfindən təlimçilərin təlimi məşğələləri və hərbi sahədə gələcək əməkdaşlıq üçün imkanları qiymətləndirməkdən ötrü NATO ekspertləri tərəfindən səfərlər daxildir. NATO və Aralıq dənizi Dialoqunun yeddi ölkəsindən hərbi nümayəndələrin cəlb olunduğu hərbi proqramla bağlı hərbi məsləhətləşmə ildə iki dəfə keçirilir. Dialoqun genişləndirilməsinin ilkin bəyan edilməsi NATO Hərbi Komitəsinin yeddi Dialoq ölkələrinin iştirakçıları ilə müdafiə heyətinin başçıları

səviyyəsində ilk rəsmi görüşdə 2004-cü il noyabr ayında Brüsseldə NATO-nun Baş Qərargahında baş tutmuşdur. Müzakirələrə effektiv ani-terrorist kəşfiyyatı mübadiləsinin zəruriliyi və buna nail olmaq üçün əməkdaşlığı həyata keçirməyin yolları aiddir.

NATO və Aralıq dənizi Dialoqu ölkələri arasındakı praktiki qarşılıqlı fəaliyyət NATO-nun Sülhün Tətbiqi üzrə Qüvvələri (IFOR) və Bosniya və Herseqovinadakı Sabitləşdirmə Qüvvələri (SFOR) və Kosovo Qüvvələri (KFOR) çərçivəsində NATO əməliyyatlarına Misir, İordaniya və Mərakeş tərəfindən keçmiş və indiki edilmiş töhfələrdə yaxşı təcəssüm etdirilir.

Səmimi tərəfdaşlığa doğru

Aralıq dəniz Dialoqu dövlətləri ilə əməkdaşlığı gücləndirmək üçün tədbirlər NATO-nun 1999-cu il Vaşinqton və 2002-ci il Praqa zirvə toplantılarında təqdim edilib. 2004-cü il İstanbul Sammitində Dialoqu səmimi tərəfdaşlıq istiqamətində inkişaf etdirmək üçün daha bir addım atıldı.

Dialoq dövlətləri ilə effektli əməkdaşlıq üçün imkanların artması faktından istifadə etməklə Müttəfiq liderlər daha ambisiyalı və genişləndirilmiş tərəfdaşlıq təklif etdilər. Bu qərar Dialoq dövlətlərinin maraqlarını nəzərə almaq və NATO tərəfindən digər tərəfdaşlıq çərçivələrində inkişaf etdirilən təcrübə və vasitələrə əsaslanmağı nəzərdə tuturdu. Aralıq dənizi Dialoqunun əsas məqsədləri əvvəlki kimi saxlanılır, ancaq gələcəkdə əsas diqqət praktiki əməkdaşlığın daha da inkişaf etdirilməsinə yönələcəkdir. Əsas məqsədlərə siyasi dialoqu inkişaf etdirmək, birgə əməliyyat aparmaq qabiliyyətinə nail olmaq (bu Dialoq dövlətlərinin hərbi qüvvələrinin NATO qüvvələri ilə birlikdə çalışmaq qabiliyyətini artırmağı nəzərdə tutur), terrorizmə qarşı mübarizədə yardım etmək və müdafiə islahatı sahəsində əməkdaşlıq etmək daxildir.

Təkliflərə NATO-nun transformasiyası və kollektiv cəhdlərin daha yaxşı izahı üçün birgə səylər, birgə əməliyyat qabiliyyəti məqsədilə hərbi əməkdaşlığı inkişaf etdirmək, fəlakət və humanitar yardım, tədqiqat və xilasetmə, sülhə dəstək əməliyyatları kimi NATO-nun böhrana reaksiya əməliyyatlarında Dialoq dövlətləri qüvvələrinin iştirakı səviyyəsini artırmaq, silahlı qüvvələrə demokratik nəzarəti inkişaf etdirmək və müdafiə planlaşdırılması və büdcəsində şəffaflığa yardım etmək, terrorizmlə mübarizə, məsələn, Aralıq dənizində NATO-nun dəniz terrorizm əleyhinə tədbirləri çərçivəsində əməkdaşlıq və effektli informasiya mübadiləsi vasitəsilə, kütləvi qırğın silahları təhlükəsi üzrə NATO-nun işinə töhfə vermək, sərhədlərin təhlükəsizliyi sahəsində əməkdaşlığı inkişaf etdirmək,

məsələn terrorizmə, kiçik və yüngül silahların yayılmasına və qeyri-qanuni qaçaqmalçılıqla əlaqəli, mülki fövqəladə vəziyyət planlaşdırması üzrə inkişaf etdirilmiş əməkdaşlıq, buraya Aralıq dənizi tərəfdaşları üçün fəlakət zamanı NATO Baş Qərargahında yerləşən Avro Atlantik Böhranlara Cavab Əlaqələndirmə Mərkəzinin yardım təklifi də daxil olmaqla bir çox prioritet sahələrdə praktiki əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək daxildir.

Həmçinin bir çox digər sahələrdə də əməkdaşlıq aparılır. Buraya hava məkanına nəzarət, silahlanma, müdafiə və təhlükəsizliyin əsas tərəfləri, müdafiə islahatı və müdafiə iqtisadiyyatı, elm və ətraf mühit məsələləri, maddi texniki təminat, tibbi məsələlər, meteoroloji problemlər, okeanoqrafiya, standartlaşdırma, təlim və treninqlər, hərbi təhsil, treninq və nəzəri məsələlər daxildir.

İnkişaf etdirilmiş əməkdaşlığa bir çox Sülh naminə Tərəfdaşlıq dövlətlərində piyada əleyhinə mina və digər döyüş sursatlarının məhv edilməsi layihələri üçün dəstək təmin edən Etimad Fondu Siyasəti kimi mexanizmlərin istifadəsi, fəaliyyət planı və fərdi əməkdaşlıq proqramlarının inkişaf etdirilməsi, təhsil və treninq proqramları və təlimlərdə iştirak üçün geniş imkanlar daxildir. Bu fəaliyyətlərdə Aralıq dənizi tərəfdaşlarının tam iştirakına yardım etmək məqsədilə münasib hüquqi və təhlükəsizlik tədbirləri və əlaqələndirmə sazişləri üçün şərtlər də tələb olunacaqdır.

İstanbul Əməkdaşlıq Təşəbbüsü

2004-cü il iyununda ayrıca, lakin əlavə razılaşdırılmış Sammit görüşündə İttifaq İstanbul Əməkdaşlıq Təşəbbüsünü irəli sürmüşdür və Körfəz Əməkdaşlıq Konsulluğu üzv ölkələrdən (Bəhreyn, Küveyt, Qətər, Oman, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri) başlayaraq geniş Orta Şərq regionunda maraqlı olan ölkələri iştirak etməyə dəvət etmişdir. Bəhreyn, Küveyt, Qətər və Birləşmiş Ərəb Əmirlikləri təklifi 2005-ci ilin ortalarından qəbul etmişdir; İttifaq digərlərinin də belə edəcəyinə ümid edir. Məqsəd, əsas diqqət mərkəzi müdafiə və təhlükəsizlik sahəsindəki praktiki əməkdaşlıq ilə genişləndirilmiş regional təhlükəsizlik və stabillik baxımından regionun ölkələri ilə qarşılıqlı faydalı ikitərəfli əlaqələri saxlamaqdır. Əsas prioritetlər terrorizm əleyhinə mübarizə və kütləvi qırğın silahlarının yayılmasının qarşısını almaqdır. Təşəbbüs digər beynəlxalq prosesləri və bu sahələrlə bağlı olan təşəbbüsləri tamamlayır.

Təşəbbüs bu regionun eyni məqsədli ölkələri üçün açıqdır və onların fərdi ideya və təkliflərini əks etdirən razılaşmış iş planlarını həyata keçirmək və inkişaf etdirmək niyyətindədir. Aralıq dənizi Dialoqu kimi, o da ümumi

sahibkarlıq prinsipləri üzərində formalaşıb. Bu da NATO və İştirakçı ölkələrin onların fərqliliyini və xüsusi ehtiyaclarını nəzərə alaraq qarşılıqlı maraqlarına tamamilə hörmət etmək mənasını verir. NATO “dəyər əlavə edə ” bilən sahələrdə praktiki əməkdaşlığı nəzərə çarpdıracaq digər sözlərlə desək, təhlükəsizlik sahəsi, xüsusilə NATO-nun güc və təcrübəsi bu regionda digər kontekstdə əməkdaşlıq formalarının mümkün olmadığı, uzun müddətli təhlükəsizlik və stabilliyə töhfə vermək üçün imkanlar yarada bilər. Bu təşəbbüsün praktiki reallaşdırılması müxtəlif əməkdaşlıq və kömək formaları müraciət olunmuş öyrədilmiş dərslər və Sülh naminə Tərəfdaşlıq və Aralıq dənizi Dialoqu daxil olmaqla digər NATO təşəbbüslərindən qaynaqlanan mexanizm və alətlərdən istifadə edilərək xüsusi fəaliyyətlərə əsaslanacaq. Fərdi ehtiyacları nəzərdə tutan belə fəaliyyətlər müdafiə islahatı, maliyyələşdirmə və planlaşdırma, hərbi-siyasi əlaqələrdə məsləhəti; seçilmiş tapşırıqlar və təhsil və təlim proqramlarında iştirak daxil olmaqla uyarlılığın inkişaf etdirilməsi məqsədilə hərbiçinin hərbiçi ilə qarşılıqlı əməkdaşlığı; NATO-nun başçılıq etdiyi sülhə-dəstək əməliyyatlarında iştirak; informasiya bölüşdürməsi ilə terrorizmlə mübarizə və dəniz əməkdaşlığı, məsələn: kütləvi qırğın silahlarından təhlükə zamanı İttifaqa kömək etmək; sərhəd təhlükəsizliyi sahəsində əməkdaşlığı təchiz etmək, məsələn kiçik və yüngül silahlarının qanunsuz daşınmasının və yayılmasının qarşısını almaq yaxud terrorizmlə mübarizə ilə əlaqədar; və mülki fövqəladə planlaşdırma ilə əlaqəli sahələrdə əməkdaşlıqları nəzərdə tutur. Maraqlanan ölkələr ilə birgə inkişaf edən fərdi iş planının əsasını yaradan bu prioritet sahələrdə NATO praktiki fəaliyyətinin siyahısını təkmilləşdirir.

Aralıq dənizi Dialoqu vəziyyətindəki kimi təşəbbüsün nailiyyəti üçün tələblərin əsasını region ölkələri tərəfindən onun məqsədləri və fəaliyyətləri üçün sahiblik hissinin inkişafı təşkil edir. Bu tələbi xatırladaraq, 2004-cü il iyulda NATO tərəfindən nəşr edilmiş siyasi sənəd NATO-nun və Təşəbbüsün məqsədlərinin iştirakçı ölkələrdə fikir formalaşdıranlar və hökumətlər arasında aydın başa düşülməsi üçün ehtiyaca aiddir. Bu təklif edir ki, Təşəbbüsün tədricən inkişaf etdirilməsi zamanı iştirakçı ölkələrin fikirlərini nəzərə almaq üçün, ictimai diplomatiyaya və müntəzəm konsultasiya prosesinə fikir verilməlidir.

27-ci Fəsil

CƏNUB-ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

1990-cı illərdə Balkanlarda baş verən münaqişə və qeyri-stabillik NATO üzv ölkələrinin təhlükəsizlik maraqlarına eləcə də, geniş Avropa sülh və stabilliyinə birbaşa təhdid oldu. Bu İttifaqın birinci Bosniya və Herseqovinada, sonra Kosova və daha sonra keçmiş Yuqoslaviya Respublikası olan Makedoniyada sülhə-dəstək və böhranı idarəetmə əməliyyatlarını həyata keçirməsi ilə nəticələndi[1] (IV Hissəyə bax).

1999-cı ildə Kosova böhranı beynəlxalq birliyin regionda genişlənməsinin qiymətləndirməyi və təhlükəsizlik və stabilliyin gücləndirilməsi üçün daha geniş yanaşmanı mənimsəməyi təsbit etdi. Bu Cənub-Şərqi Avropa üçün Stabillik Paktı kimi NATO-nun Cənub-Şərq Avropa Təşəbbüsünə başlaması manifesti oldu. Bundan sonra NATO-nun cənub-şərqi Avropada təhlükəsizlik və stabillik yaratmasına cəlb olunması regionda sülh qoruyuculuğunu rəhbər tutaraq təhlükəsizlik əməkdaşlığını irəli sürməklə genişlənmişdir.

Cənub-Şərqi Avropa Təşəbbüsü

NATO-nun Cənub-Şərqi Avropa Təşəbbüsü (SEEI) regional əməkdaşlığı və regionda uzunmüddətli təhlükəsizlik və stabilliyi təchiz etmək üçün 1999-cu il Vaşinqton Sammitində irəli sürülmüşdür. Təşəbbüs 4 mərhələyə əsaslanır: Cənub-Şərqi Avropada Təhlükəsizlik məsələləri üzrə Konsultasiya Forumu, Avro-Atlantika Tərəfdaşlıq Şurasının himayədarlığı altında Cənub-Şərqi Avropada Regional Əməkdaşlıqda Müvəqqəti-Xüsusi İşçi Qrupu (AHWG), SNT-nin işçi vasitələri və regiondakı ölkələr üçün planlaşdırılmış təhlükəsizlik əməkdaşlığı proqramları.

---

[1] *Stabillik Paktı 1999-cu il mayda Avropa İttifaqı tərəfindən yaradılmışdır. Bu davamlı formal olaraq 1999-cu il 10 iyunda Almaniya, Kolognada keçirilmiş beynəlxalq konfransda qəbul edilmişdir və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının himayədarlığı altında yerləşdirilmişdir. Bu Cənub-Şərqi Avropada uzunsürən sülhə, çiçəklənməyə və stabilliyə sərmayə qoymaq üçün yaradılmışdır. Bu regionun ölkələri və digər maraqlanan ölkələr və töhfə verə bilmək iqtidarında olan təşkilatları ardıcıl və əlaqəli şəkildə bir araya gətirməklə mümkündür. Bu, birgə fəaliyyəti əlaqələndirmək üçün xüsusi mexanizmləri müəyyən edir.*

Konsultativ Forum ilkin olaraq NATO-nun Vaşinqton Sammiti çərçivəsində sammit səviyyəsində və sonralar NATO Baş Qərargahında səfir səviyyəsində görüşmüşlər. Bu foruma hal-hazırda NATO ölkələri, 4 cənub-şərqi Avropa Tərəfdaş ölkələri (Albaniya, Xorvatiya, Moldova və keçmiş Yuqoslaviya Respublikası Makedoniya) və Bosniya və Herseqovina və Avro Atlantika Tərəfdaşlıq Şurası və ya Sülh naminə Tərəfdaşlığın hələ iştirakçısı olmayan Serbiya və Monteneqro daxildir.

EAPC-AHWG gələcəkdə inkişaf etdiriləcək regional əməkdaşlığı təchiz etmək ideyasını müəyyənləşdirir. Bu ideyalar NATO-nun SNT proqramı çərçivəsində yerinə yetirilmiş modelləşdirilmiş fəaliyyətlərdə birləşdirilmişdir.

SNT təşəbbüsünün metodologiyasına cənub-şərqi Avropa üçün müdafiə planlaşdırılmasında şəffaflıq, böhranın idarəetməsi və müdafiə idarəetməsi daxil olmaqla, bir sıra vacib məsələlərdə müraciət olunurdu. Bu məsələlər üzrə seminarların fəaliyyətləri region səviyyəsində bir yerə toplanmağı nəzərdə tutmuşdur. Onlardan bəziləri NATO–nun köməkliyi ilə regiondakı iştirakçı ölkələr tərəfindən və başqaları NATO-nun özü tərəfindən həyata keçirilmişdir. Bir-birlərini tamamlamaq məqsədilə, onlar regional əməkdaşlıq və integrasiya vasitəsilə stabilliyi təmin etməyə kömək edirlər.

Cənub-Şərqi Avropada Təhlükəsizlik üzrə Əməkdaşlığın idarəedilməsi Qrupu (SEEGROUP) regional layihələri koordinasiya etmək üçün yaradılıb. SEEGROUP-u müntəzəm olaraq Brüsseldə NATO Baş Qərargahında görüşür və iştirakçı ölkələrin regional layihələrin idarəedilməsində artan rolu və illik Əməliyyat Planının yerinə yetirilməsi üzrə ixtisaslaşmışdır. Layihəyə regiondakı ölkələrin milli müdafiə konsepsiyalarını müqayisəli öyrənilməsi (SEESTUDY); hərbi-siyasi və digər erkən xəbərdarlıq, münaqişənin qarşısını alma və böhranların idarəedilməsi məlumatlarının mübadiləsi (SEECHANGE); kiçik və yüngül silahlara nəzarət və yayılmasının azaldılması üzrə fəaliyyət; sərhəd idarəetməsi və təhlükəsizlik; müdafiə islahatları üçün dəstək; terrorizmin qarşısını almaq imkanlarının (SEEPRO) genişləndirilməsində əməkdaşlığın inkişafı; mülki fövqəladə planlaşdırma fəaliyyətləri; və təhlükəsizliklə əlaqəli informasiya mübadiləsi üçün “clearing-house” yanaşmasına təhrik olma aiddir.

Bosniya və Herseqovina, Serbiya və Monteneqro SNT-yə qoşulmaq istəklərini bildirmişdilər. NATO onları bir sıra şərtləri ödədikləri halda Tərəfdaş ölkə kimi qəbul etməyə hazırlaşır. Bura keçmiş Yuqoslaviya Beynəlxalq Cinayət Tribunal ilə tam əməkdaşlıq, xüsusilə müharibə cinayətlərinə görə təqsirləndirilən şəxslərin saxlanılması və Tribunala təslim edilməsi və əsas müdafiə islahatlarının həyata keçirilməsində əməkdaşlıq

etmək daxildir. Bu ölkələrə lazım olan islahatları yerinə yetirməyə köməklik, Bosniya və Herseqovina ilə Xüsusi Təhlükəsizlik Əməkdaşlığı Proqramı ilə 1997-ci ildə təşəbbüs edilmişdir, “Serbiya və Montenegro ilə Əməkdaşlığın Ölçüləri” seriyaları 2004-cü il iyunda və Yerinə yetirilmiş Əməkdaşlıq Proqramı 2004-cü il iyulda təşəbbüs edilmişdir.

NATO regiondakı tərəfdaş ölkələrin silahlı qüvvələrinin strukturunun islahatının bir hissəsi kimi tərxis olunmuş zabitlərin yenidən təlimi üçün təklif və təcrübə ilə təmin edir. Bu Dünya Bankı və digər donorlarla birgə əməkdaşlıqda Cənub-Şərqi Avropa üçün Stabillik Paktı çərçivəsində yerinə yetirilən NATO layihəsinin formasını təsbit edir. İlkin olaraq bu formaya, Bolqarıstan və Rumıniya NATO-ya daxil olmaq üçün hazırlaşan zaman müraciət etmişdir. 2002-ci ilin ortalarından, 5000-dən çox zabit yenidən təlim proqramlarında faydalanmışdır. Bu proses sonralar qərbi Balkanların digər ölkələrinə məsələn, Albaniya, Xorvatiya, Serbiya və Monteneqro və keçmiş Yuqoslaviya Respublikası Makedoniyaya qədər uzadılmışdır. Bu NATO-nun yeni üzvləri üçün bu layihədən faydalanaraq digər tərəfdaş ölkələrə təcrübə ilə təmin etmək üçün imkanlar açır. Cənub-Şərqi Avropada hərbi bazaların bağlanması və onların mülki məqsədlər üçün istifadə edilməsi prosesinə də başlanılmışdır.

VIII HİSSƏ

NATO-AVROPA İTTİFAQI ƏLAQƏLƏRİ

28-ci Fəsil: NATO və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq

28-ci Fəsil

NATO VƏ AVROPA İTTİFAQI ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ

NATO və Avropa İttifaqının hər ikisi yarandığından bəri qərbi Avropada təhlükəsizlik və stabilliyin möhkəmləndirilməsinə və qorunmasına kömək etmişdilər. NATO güclü və müdafiə xarakterli siyasi və hərbi ittifaq kimi bu məqsədi rəhbər tutmuş və Soyuq Müharibə qurtardıqdan sonra, NATO təhlükəsizliyi geniş Avro-Atlantika məkanına həm öz tərkibini genişləndirməklə, həm də digər tərəfdaşlarını inkişaf etdirməklə genişləndirmişdir. Avropa İttifaqı stabilliyi proqressiv iqtisadiyyatı və siyasi inteqrasiyanı ilkin olaraq qərbi Avropa ölkələri arasında təchiz edərək və sonra yeni üzv ölkələri qəbul edərək yaratmışdır. Müvafiq təşkilatların genişləndirilməsi prosesinin nəticəsi kimi, Avropa ölkələrinin artan sayı Avropanın siyasi və iqtisadi inkişafının əsas istiqamətinin bir hissəsinə çevrilmişdir və onların bir çoxu hər iki təşkilatın üzvüdür.

NATO və Avropa İttifaqı arasında 2000-ci ilə qədər heç bir formal əlaqələr mövcud deyildi. Buna kimi, 1990-cı illər ərzində Qərbi Avropa İttifaqı (WEU) NATO və NATO daxilində güclü Avropa təhlükəsizliyi və müdafiəsi yaratmağa can atan bu Avropa ölkələri arasında əməkdaşlıq üçün vasitə kimi çıxış etmişdir.

1999-cu ildə Balkanlardakı baş verən münaqişələrin ümumi fonuna qarşı Avropa İttifaqı liderləri NATO ilə razılaşaraq Avropa İttifaqı daxilində Avropa Təhlükəsizlik və Müdafiə Siyasətini inkişaf etdirməyi və Qərbi Avropa İttifaqı tərəfindən həyata keçirilmiş bir çox funksiyalar öz üzərinə götürmək haqqında qərara gəlməsi vəziyyəti köklü surətdə dəyişdi. Növbəti il, NATO və Avropa İttifaqı öz aralarında əməkdaşlıq və məsləhətləşmələrin hüdudlarını inkişaf etdirmək üçün birlikdə fəaliyyət göstərməyə başladılar. Bu, iki Təşkilat arasında strateji əməkdaşlığın inkişafı (Avropanın Təhlükəsizlik və Müdafiə Siyasətində NATO-Avropa İttifaqı Bəyannaməsi) və NATO-nun Avropa İttifaqının başçılıq etdiyi hərbi əməliyyatları üçün kollektiv yardımını təmin edən Berlin Plyus razılaşması haqqında müqavilənin ilə nəticələndi.

Bu tərəqqi digər məsələlərdə olduğu kimi, qərbi Balkanlarda böhranların idarə olunması sahəsində NATO-Avropa İttifaqı əməkdaşlığının əsaslarını yaradır.

NATO Avropa İttifaqı əlaqələrinin inkişafı
Soyuq Müharibə dövrü

Bir çox sahələrdə ümumi maraqlara və eyni məqsədlərə baxmayaraq, NATO və Avropa İttifaqının Soyuq Müharibə dövründə paralel olaraq inkişafı, onlar arasında funksiya və səlahiyyətlərin aydın bölüşdürülməsi və formal və ya qeyri-formal institusional əlaqələrin mövcud olmaması ilə xarakterizə olunur. Spesifik Avropa təhlükəsizliyi və müdafiə rolu üçün struktur əsas 1948-ci ildə yaradılmış Qərbi Avropa İttifaqı formasında mövcud olmasına baxmayaraq, Qərbi Avropanın təhlükəsizliyi praktiki nöqteyi-nəzərdən eksklüziv olaraq NATO tərəfindən qorunurdu. Onun hissəsi kimi, Qərbi Avropa İttifaqı ilkin olaraq qərbi Avropada müharibədən sonra silahlara nəzarət razılaşmaları ilə əlaqədə bir sıra xüsusi tapşırıqları öz öhdəsinə götürmüşdür. Belə ki, onun rolu məhdudlaşdırılmışdı və onun üzvlüyü Avropa İttifaqı ilə eyni deyil.

Hər iki təşkilat arasında Avropanın təhlükəsizliyini təmin etmək üçün problem ortaya çıxanda onlar birbaşa ikitərəfli, siyasi səviyyədə müzakirə etmişlər. NATO-nun Avropa üzv ölkələrinin bir hissəsi bir neçə dəfə təşəbbüs edərək təhlükəsizlik və müdafiə üçün Avropa öhdəliyinin səviyyəsi haqqında Birləşmiş Ştatları qane etmək mövqeyini göstərmişlər. Belə ki, İttifaq çərçivəsindən kənarda müstəqil təsisatların inkişafı üçün nə çoxtərəfli, nə də institusional razılaşmalar mövcud deyil.

NATO-Qərbi Avropa İttifaqı əməkdaşlığı və NATO daxilində Avropa Təhlükəsizlik və Müdafiə Təsisatının inkişafı

Erkən 1990-cı illərdə, Avropa ölkələrinin onların ümumi təhlükəsizlik və müdafiəsi üçün böyük məsuliyyət daşıması ehtiyacının olması aydın idi. Avropa və Şimali Amerika arasındakı əlaqələrin yenidən balanslaşdırılması iki səbəbdən əhəmiyyətli idi: birinci, Avropanın davamlı təhlükəsizliyinin təmini üçün iqtisadi öhdəliyin yenidən bölüşdürülməsi və ikinci, Avropanın institutları çərçivəsində güclü və daha çox inteqrasiya etmiş Avropanın siyasi quruluşunda ardıcıl olaraq baş verənləri və Avropa İttifaqı üzvlərinin bir çoxunun Avropanın NATO-nun hərbi cəhətdən cəlb olunmayan ərazilərdə müəyyən vəziyyətlərdə hərbi cəhətdən iştirak etmək üçün imkanlarını inkişaf etdirməli olduğu haqqında inamını əks etdirmək.

1990-cı illərdə qərbi Balkanlarda baş verən münaqişələr Avropa təhlükəsizliyi problemlərinə yeni yanaşmaların yaranmasına əsaslı olaraq təsir etdi. Bu cür münaqişələrin qarşısını almaq və ya onları həll etməyə mane olmaq üçün Avropanın iqtidarsızlığı Avropa İttifaqının iqtisadi güc və onun

siyasi gücündəki məhdudiyyətlər arasında qeyri-tarazlığa düzəliş etməklə nəticələndi. Çoxlarına aydın olmuşdur ki, münaqişəni əlaqələndirilmiş diplomatik cəhdlər siyasi üsulların, ehtiyac olsa mümkün hərbi qüvvələrin köməyi ilə həll edir. Bu Avropa İttifaqının 1990-cı illər ərzində onun sərhədlərindən kənarda baş verən münaqişələrin qarşısını alması və böhranların idarəedilməsinə kömək etməsi ilə nəticələndi.

Bu istiqamətdə əsas addım, Ümumi Xarici və Təhlükəsizlik Siyasətini (CFSP) inkişaf etdirmək üçün Avropa İttifaqı liderləri tərəfindən 1992-ci ildə qəbul olunmuş Maastrikt Müqaviləsidir. Bu müqaviləyə "vaxtında ümumi müdafiə siyasətini təmin edən ümumi müdafiə siyasətinin mümkün çərçivəsi daxildir". Avropa İttifaqının inkişafının əsas hissəsi kimi, Qərbi Avropa İttifaqı Avropa İttifaqının qərar və fəaliyyətini müdafiə vasitəsilə əldə etmək və yerinə yetirməyi təklif etmişdir. Qərbi Avropa İttifaqı vasitəsilə Avropa müdafiə qabiliyyətlərini inkişaf etdirmək üçün təşəbbüs, sonralar 1997-ci il Aİ Amsterdam Müqaviləsinin əsasında irəli sürülmüşdür. 1999-cu il mayda qüvvəyə minən bu müqavilə Qərbi Avropa İttifaqı Peterburq tapşırıqları ilə birgə məqsədlərdə birləşir – humanitar axtarış və xilasetmə missiyaları, sülh qoruyucu missiyalar, sülhə bərpa etməklə böhranları idarəetmə tapşırıqları, ətraf mühitin mühafizəsi ümumi Avropa müdafiə siyasətinin operativ inkişafı üçün baza müəyyən edir.

Eyni zaman müddətində, NATO daxilində Avropa Təhlükəsizlik və Müdafiə Quruluşunu inkişaf etdirmək üçün 1994-cü ildə Brüsseldə NATO sammitində qərar qəbul edilmişdir. Bu Qərbi Avropa İttifaqı tərəfindən həyata keçirilən Avropa hərbi əməliyyatlarına dəstək olmaq üçün İttifaqa imkan verən praktiki razılaşmanın təqdimi ilə nəticələnir. Bu inkişafı möhkəmləndirməyə xidmət edən qərarlar NATO-nun xarici və müdafiə nazirlərinin 1996-cı il iyunda Berlin və Brüsseldə, növbəti görüşlər 1997-ci il Madriddə NATO sammit görüşündə İttifaq tərəfindən qəbul edilmişdir.[1]

---

[1] *Бу разылашмалара 1996-жы илин ийунунда гябул едилян Йекун Коммцни-кедя юз яксини тапмыш мясяляляри аид етмяк олар. Онлара ашаьыдакылар да-хилдир: Алйансын сярянжамында олан ресурсларын Гярbi Avropa Иttifaqынын (QAИ) истифадяси цчцн ижазя верилмяси, ГАİ тяряфиндян башчылыг едилян ямялиййатларын апарылмасы вя идаря едилмяси мягсядиля НАТО дахилиндя мцвафиг чохмиллятли Авропа командanлыьынын йарадылмасы цчцн щазырлыг ишляринин эюрцлмяси, вя мягсяди бцтцн Алйанс миссийаларынын йени тяляблярiня жаваб веря биляжяк даща чевик вя дислокасийа олуна билян гцввялярин тямин едилмяси олан Бирляшмиш Ямялиййат Групунун консепсийасынын вя айрыла билян лакин, мцстягил олмайан дислокасийа едиля*

Bu yolla, Qərbi Avropa İttifaqı eyni zamanda Aİ müdafiəsinin bir komponenti kimi və NATO-nun Avropa strukturunun gücləndirilməsinin üsulu kimi inkişaf edir. İttifaqın Avropa üzv ölkələri qeyd edirlər ki, orijinal Avropa hərbi qabiliyyətinə nail olmaq NATO daxilində artıq mövcud olan komandanlıq strukturlarının, şəxsi heyət və hərbi əmlak və qabiliyyətlərin planlaşdırılmasının zəruri olmayan təkrarlanmasından uzaqlaşmaq lazımdır. Bundan əlavə, belə yanaşma daha da balanslaşdırılmış transatlantik tərəfdaşlıq üçün ümumi ehtiyac kimi Aİ ümumi xarici və təhlükəsizlik siyasətinin inkişafının məqsədinə cavab verərək, Avropanın İttifaqın missiya və fəaliyyətlərinə verdiyi töhfənin gücləndirilməsinə xidmət edəcək.

1991-ci ildən 2000-ci ilə qədər NATO-Qərbi Avropa İttifaqı əməkdaşlığı üçün hazırlanmış razılaşmalar NATO- Avropa İttifaqı əlaqələrinin gələcək davamlı inkişafı üçün özül təşkil edir. Təcrübədə bu razılaşmalar böhran baş verən zaman İttifaq qarışmamağı qərara alarsa, lakin Qərbi Avropa İttifaqı belə etməyi seçirsə, Qərbi Avropa İttifaqı onun siyasi nəzarəti və strateji istiqaməti altında əməliyyatı aparmaq üçün İttifaqın əmlak və qabiliyyətlərindən istifadəni təmin etmək üçün yaradılmışdır.

1998-ci il dekabrda St.Maloda İngiltərə-Fransa sammit görüşü bu əlaqələrin inkişafı üçün yeni hərəkətverici qüvvə oldu. Fransa və Birləşmiş Krallıq razılaşmışdır ki, Avropa İttifaqı "beynəlxalq böhranlara cavab vermək üçün mümkün hərbi qüvvələr tərəfindən dəstəklənən(onlardan istifadə etməyə görə qərar vermək və belə etməyə görə hazırlığı) müstəqil fəaliyyət üçün imkanı olmalıdır". Bu məqsədlərin təsir gücünə nail olmaq üçün onlar Avropa İttifaqına qətiyyətlərini müəyyən edən birgə mövqe nümayiş etdirdilər.

Qərbi Avropa İttifaqının öhdəliklərinin Avropa İttifaqına keçirilməsi

İngiltərə-Fransa təşəbbüsündən sonra mövcud olan yeni vəziyyətdə yeni qərarların qəbul olunması mümkün idi. 1999-cu il apreldə Vaşinqton Sammitində, XXI əsrdə İttifaqın əhəmiyyətinə töhfə verilməsində güclü Avropanın rolunun yardım edəcəyini təsdiqləyərək, NATO liderləri Avropanın Təhlükəsizlik və Müdafiə Siyasətinin gücləndirilməsinə verilən yeni hərəkət verici qüvvəni dəstəkləyirlər. NATO liderləri bu proses irəlilədiyinə görə, NATO və Avropa İttifaqı tərəfindən effektiv qarşılıqlı məsləhətləşmə, əməkdaşlıq və şəffaflığın inkişafını NATO-Qərbi Avropa İttifaqı arasında

---

биляжяк вя ГАИ тяряфиндян истифадя олуна билян гярарэащлярын консепсийасынын ишляниб щазырланмасы.

mövcud mexanizmlərlə yaradılmasının təmin edilməsinin zəruriliyini bəyan etdilər.

Onlar həmçinin Avropa İttifaqı ilə gələcək əməkdaşlıq üçün bir sıra prinsiplərə müraciət etməyi,xüsusilə gündəlikdə duran məsələlərin qənaətbəxş həllini qarşıda duran gələcək işlərə aid edirlər. Bunlar həll edilməsi uzun müddət çətin hesab olunan xüsusilə üç məsələ ilə əlaqədardır:

- NATO-Qərbi Avropa İttifaqı arasında yaradılmış mexanizmlərə əsaslanan, Avropa İttifaqı və İttifaq arasında effektiv ümumi məsləhətləşmə, əməkdaşlıq və şəffaflığın inkişafının təmin etmə üsulları;
- Avropa İttifaqı tərəfindən müşayiət oluna bilən əməliyyat və qərarlarda qeyri-Avropa İttifaqının iştirakı, və;
- NATO planlaşdırma qabiliyyəti və NATO-nun əmlak və imkanlarından Aİ-nin istifadəsini təmin etmək üçün praktiki razılaşmalar.

1999-cu ilin İyun ayında Kolonya şəhərindəki toplantıda Aİ liderləri Avropa İttifaqı üçün Avropa Təhlükəsizlik və Müdafiə Siyasətinin (ESDP) məqsəd və konsepsiyasına əsaslanan Qərbi Avropa İttifaqının Peterburq tapşırıqlarını özündə əks etdirən Amsterdam Sazişini nəzərə alaraq St. Malo bəyannaməsini qəbul etdilər. Onlar "Aİ-yə ümumi Avropa təhlükəsizlik və müdafiə siyasəti ilə bağlı öhdəlikləri təmin etmək üçün vasitə və imkanlar verməyi" qərara aldılar və həmçinin NATO ilə qarşılılıqlı effektli məsləhətləşmə, əməkdaşlıq və şəffaflığı təmin etmək məqsədilə öhdəlik götürdülər. Növbəti Avropa Şurası toplantılarında, xüsusilə, 1999-cu ilin dekabrında Helsinkidə və 2000-ci ilin dekabrında Nitsa **(NICE)** toplantılarında oxşar təminatlar təklif edildi.

Helsinki toplantısında Avropa Şurası böhrana nəzarət əməliyyatları üçün hərbi imkanları inkişaf etdirmək məqsədilə Aİ-yə üzv dövlətlər üçün "Əsas Məqsəd" elan etdi. Onun əsas məqsədi 2003-cü ilə qədər Aİ-nin NATO-nun ümumilikdə hərbi cəhətdən cəlb olunmadığı beynəlxalq böhranlara reaksiya zamanı Aİ-nin rəhbərlik etdiyi hərbi əməliyyatlar çərçivəsində yuxarıda qeyd edilən Peterburq məsələlərini bütövlükdə öz üzərinə götürmək məqsədilə 60 000-ə qədər qoşun yerləşdirmək və ən azı onları bir il saxlamaq imkanına malik olmasına şərait yaratmaq idi. Əlavə olaraq Avropa İttifaqı belə əməliyyatlar üçün zəruri siyasi göstəriş və strateji istiqamətlər təmin etmək məqsədilə Siyasi və Təhlükəsizlik Komitəsi, Həbi Komitə və Hərbi Heyət də daxil olmaqla daimi siyasi və hərbi strukturlar

yaramağı qərara aldı. Həmçinin Helsinki toplantısında Qərbi Avropa İttifaqının böhrana nəzarət funksiyası Aİ-na verildi (2000-ci ilin Dekabrında Qərbi Avropa İttifaqının Nazirlər Şurasının Marsel şəhərindəki toplantısında qəbul edilimiş qərara əsasən). Qərbi Avropa İttifaqının qalan öhdəlikləri təsirsiz olaraq qalır və xeyli miqdarda ixtisara salınmış rəsmi siyasi struktur və kiçik katiblik tərəfindən idarə olunur.

Kolonya və Helsinkidə qəbul edilən qərarlara əsaslanan 2000-ci ilin dekabrında imzalanmış Nitsa **(NICE)** Sazişi (saziş 2003-cü ildə qüvvəyə minmişdir) Aİ-ni hərbi əməliyyatlar üçün siyasi çərçivə (ESDP) və daimi siyasi və hərbi strukturlar ilə təmin edir.

2000-ci ilin sonunda Qərbi Avropa İttifaqından müdafiə ilə əlaqəli qərarların və fəaliyyətin Aİ-na keçməsilə rəsmi şəkildə səlahiyyətlərin Avropa İttifaqına ötürülməsi NATO və Aİ arasındakı əlaqə yeni çərçivəyə qədəm qoydu.

Avropa İttifaqı ilə strateji tərəfdaşlıq istiqamətində

2000-ci ilin sentyabrında başlanan danışıqlar 2001-ci ilin yanvarında NATO-nun Baş Katibi və Aİ Sədri arasında əməkdaşlığın miqyasını və "təhlükəsizlik, müdafiə və böhrana nəzarət (belə ki böhranların qarşısı ən münasib hərbi reaksiya və təmin olunan effektli böhrana nəzarət vasitəsilə alına bilsin) ilə bağlı ümumi maraq doğuran məsələlər üzrə məsləhətləşmə və əməkdaşlığın" tərzini müəyyənləşdirmək məqsədilə məktub mübadiləsinə gətirib çıxardı.

Məktub mübadiləsi müxtəlif səviyyələrdə birgə toplantılar üçün şərait yaratdı. Bu, hər il NATO-Aİ xarici işlər nazirlərinin birgə iki və Şimali Atlantika Şurası və Aİ Siyasi və Təhlükəsizlik Komitəsinin (NAC-PSC toplantıları kimi tanınan) səfirləri səviyyəsində hər bir rüb üçün ən azı üç birgə toplantı müəyyən etdi. Əlavə olaraq, hər rübdə Hərbi Komitənin iki birgə toplantısı keçirilməlidir və köməkçi komitələr arasındakı toplantıların müntəzəm əsasda keçirilməsi planlaşdırıldı. Məktub mübadiləsi həmçinin heyət səviyyəsində toplantılara şərait yaratdı.

Bundan bəri NAC-PSC toplantıları iki təşkilat arasındakı əməkdaşlıq üçün adi xarakterik xüsusiyyət oldu. 2001-ci ilin sentyabrında Birləşmiş Ştatlarda baş verən terror aktları əməkdaşlığı genişləndirmək üçün yeni bir meyl oldu. Növbəti gün, NATO-nun Baş Katibi hücumlarla bağlı beynəlxalq vəziyyəti şərh etmək məqsədilə Aİ Ümumi İşlər Şurasının müzakirələrində

iştirak etdi. Toplantılardakı rəsmi əlaqələr və ikitərəfli iştirak ardıcıl olaraq artdı.

2002-ci ilin noyabrında keçirilən Praqa Samitində NATO liderləri Balkanlarda sülhü bərpa etmək və inkişaf üçün şərait yaratmaq məqsədilə görülən birgə səylər zamanı effektivliyi sübuta yetirilən NATO-Aİ əməkdaşlığını inkişaf etdirmək öhdəliklərini bir daha təsdiqlədilər.

2002-ci ilin dekabrında qüvvəyə minən ESDP üzrə NATO-Aİ Bəyannaməsində hər iki təşkilat "ümumi dəyərlərimizə əsaslanan böhrana nəzarət zamanı Aİ-NATO arasındakı strateji əməkdaşlığı, təhlükəsizliyimiz və yeni əsrin təhdidləri ilə mübarizə aparmaq üçün qətiyyətimizin bütövlüyünü alqışladılar". Bir neçə ay sonra, NATO və Avropa İttifaqı bu strateji tərəfdaşlığa əhəmiyyət verdi və Berlin Plyus razılaşmaları da daxil olmaqla böhrana nəzarətdə əməkdaşlıq üçün və məxfi informasiya mübadiləsi üçün təmin olunan müvafiq sənədlər tərəfindən əlaqələndirilmiş fəaliyyət üçün yol açdılar.

NATO-Aİ praktiki əməkdaşlığının inkişafı Berlin Plyus razılaşması

Berlin Plyus razılaşması hər iki təşkilatın üzv dövlətləri onların idarə edə bildiyi məhdud müdafiə vəsaitləri və bir qrup qüvvələrə malik olduğunu qəbul edən razılaşmalara əsaslanır. Bu şərtlər çərçivəsində və vəsaitlərin lazımsız təkrarən istifadə edilməsindən yan keçmək məqsədilə Avropa İttifaqı tərəfindən aparılan əməliyyatlarda NATO-nun əmlak və imkanlarından istifadə olunması razılaşdırılıb. Nəticədə bu razılaşmalar NATO-nun ümumilikdə iştirak etmədiyi Avropa İttifaqı tərəfindən aparılan əməliyyatları dəstəkləməsinə şərait yaradır. Bu razılaşmalar keçmiş Yuqoslaviya Respublikası Makedoniyada və Bosniya – Herseqovinada olan hərbi əməliyyatlara görə cavabdehliyin NATO-dan Avropa İttifaqına keçməsinə yardım etmişdir(aşağıda qeyd edilmişdir).

2003-cü ilin mart ayında razılaşdırıldığı kimi bu razılaşmalar NATO-Qərbi Avropa İttifaqı əməkdaşlığı çərçivəsində 1996-cı ildə Berlində qəbul edilən qərarlara əsaslandığına görə Berlin Plyus kimi adlandırılır. Berlin Plyus razılaşmalarının əsas xüsusiyyəti aşağıdakı elementlərdən ibarətdir:

- Aİ-nin apardığı əməliyyatlarda hərbi planlaşdırmaya töhfə vermək qabiliyyətinə malik NATO-nun planlaşdırma imkanlarından Aİ-nin istifadə etməsinə zəmanət yaratmaq;

- Aİ-nin apardığı əməliyyatlarda istifadə üçün əvvəlcədən müəyyənləşdirilmiş NATO imkanları və ümumi əmlakından Avropa İttifaqının istifadə ehtimalı;
- Aİ-nin apardığı əməliyyatlar üçün Avropa nəzarət sahəsinin hüdudlarını müəyyənləşdirmək, daha sonra NATO-nun Avro-padakı Baş Müttəfiqi Rəhbərliyi Müavininin Avropadakı məsuliyyətini tam və effektli surətdə həyata keçirməsi üçün rolunu artırmaq;
- Aİ-nin apardığı əməliyyatlarda mövcud qüvvələrinə NATO-nun müdafiə planlaşdırma sisteminin geniş tətbiqinə daha da adaptasiyası;
- Qarşılıqlı təhlükəsizlik müdafiəsi qaydaları çərçivəsində məxfi informasiyanın mübadiləsi ilə bağlı NATO-Aİ sazişi;
- NATO-nun əmlak və imkanlarının tərxis edilməsi, onlara nəzarət, qaytarılması və üçün proseduralar;
- NATO-nun əmlak və imkanlarından istifadə etməklə Aİ-nin apardığı böhranlara nəzarət əməliyyatları çərçivəsində NATO-Aİ məsləhətləşmə razılaşmaları.

Qərbi Balkanlarda əməkdaşlıq

Cənubi Serbiyadakı böhran və keçmiş Yuqoslaviya Respublikası Makedoniyadakı qeyri sabit vəziyyət 2001-ci ildə beynəlxalq narahatçılıq üçün əsas oldu. NATO-nun Baş Katibi və Aİ Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsinin regiona birgə səfərləri regionun təhlükəsizliyi ilə bağlı NATO və Avropa İttifaqının bölüşdüyü məqsəd və öhdəliklərin ümumiliyini nəzərə çatdırdı.

2001-ci il may ayının 30-da NATO-Aİ xarici işlər nazirlərinin Budapeştdəki ilk rəsmi toplantısında NATO Baş Katibi və Aİ rəhbəri qərbi Balkanlar üzrə birgə bəyanat verdilər. Daha sonra onlar əsas məsələlər üzrə əməkdaşlığa diqqət yetirmək üçün 2001-ci ilin dekabrında Brüseldə və 2002-ci ilin mayında Reykyavikdə görüşdülər. Onlar keçmiş Yuqoslaviya Respublikası Makedoniyada və həmçinin qərbi Balkanlardakı digər ərazilərdə sülh prosesini möhkəmləndirmək üçün davam edən öhdəliklərini nəzərə çatdırdılar və iki təşkilat arasındakı sıx və şəffaf əlaqələr üçün öhdəliyini yenidən təsdiqlədilər.

Əsas prinsiplər üzrə əməkdaşlıq keçmiş Yuqoslaviya Respublikası Makedoniyada yaxşılaşmış vəziyyətə müsbət töhfə verdi. 2001-ci ilin avqustundan 2003-cü ilin mart ayının sonuna qədər NATO Ohrid şəhərində

beynəlxalq ictimaiyyətin dəstəyi ilə yaradılan sülh planının vasitəçilərinin Aİ və ATƏT-dan olan müşahidəçilərinin təhlükəsizliyini təmin etdi. 2003-cü ilin Mart ayında NATO-nun apardığı sülhməramlı missiyaya (Əməliyyat Amber Foks) xitam verildi və bu məsələ üçün məsuliyyət Skopyada hökumət sazişi ilə rəsmi olaraq Avropa İttifaqına verildi. Konkordiya Adlandırılmış Əməliyyat Aİ-nın apardığı ilk hərbi böhrana nəzarət əməliyyatı idi. Berlin Plyus nizamlamaları əsasında təşəbbüs göstərilməklə o, NATO və Avropa İttifaqı arasında böhrana operativ nəzarət məsələlərinə cavab vermə sahəsindəki əməkdaşlıq üçün real başlanğıc nöqtəsi oldu.

2003-cü il iyulun 29-da NATO və Avropa İttifaqı rəsmi olaraq "qərbi Balkanlardakı təhlükəsizlik və sabitliyə yekdil yanaşma" üzrə razılığa gəldilər və region problemlərinə özlərinin strateji yanaşmasını təsvir etdilər. Hər iki təşkilat birgə əməkdaşlıq edərək əldə olunmuş nailiyyətləri inkişaf etdirməyə davam etmək, münaqişəyə son qoymaq və ümumilikdə regionun sabitləşdirilməsinə yardım etmək qətiyyətlərini vurğuladılar.

2004-cü il iyun ayında İstanbul Sammitində Bosniya və Herseqovinada təhlükəsizlik vəziyyətinin müsbət şəkildə inkişafına nəzər yetirməklə İttifaq liderləri 1996-cı ilə qədər aparılan NATO-nun sülh-məramlı missiyasına xitam vermək qərarlarını təsdiqlədilər və Avropa İttifaqının Berlin Plyus nizamlamalarına əsaslanan Əməliyyat Alsea adlı yeni missiya üçün öhdəliyi öz üzərinə götürməyə hazır olduğunu alqışladılar. Sıx əməkdaşlığa və Aİ missiyasının planlaşdırması və həyata keçirilməsinin əlaqələndirilməsinə NATO-nun Avropadakı Baş Müttəfiq Rəhbərliyi Müavininin (ABMRM) Aİ Əməliyyat Rəhbəri təyin edilməsi ilə yardım edildi.

NATO liderləri vurğuladılar ki, şübhəsiz NATO ölkənin sabitləşməsi üçün məsul olaraq qalacaq və Sarayevodakı NATO baş qərargahı vasitəsilə davamlı hərbi mövcudluğunu saxlayacaq. Bu baş qərargah ilk olaraq müdafiə islahatı prosesində yardım göstərməyə və terrorizm də daxil olmaqla digər məsələlər və keçmiş Yuqoslaviya ilə bağlı Beynəlxalq Cinayət Tribunalına dəstək üçün məsuldur.

Bosniya Herseqovinada təhlükəsizlik məsuliyyətinin NATO-dan Aİ-na ötürülməsini münasibətilə mərasim 2004-cü il dekabrın 2-də Sarayevo şəhərində baş verdi. Məhz eyni gündə rəsmi olaraq yeni NATO hərbi qərargahının əsası qoyuldu.

Digər məsələlər üzrə əməkdaşlıq

Strateji tərəfdaşlıq həmçinin ümumi maraqlara səbəb olan digər sahələri də əhatə edir. Buraya planlaşdırma və hərbi imkanların inkişaf etdirilməsi ilə bağlı birgə səylər daxildir. NATO mütəxəssisləri 2001-ci ilin noyabrında yaradılan Avropa İttifaqının Avropa İmkanları üzrə Fəaliyyət Planının (AİFP) həm ilkin hazırlanması, həm də sonra həyata keçirilməsi üçün hərbi və texniki məsləhətlər vermişlər. AİFP-ının əsas məqsədi 1999-cu ildə Helsinkidə əsası qoyulan Aİ Əsas Məqsədinə cavab vermək üçün tələb olunan qüvvə və imkan təmin etməkdir. 2003-cü ilin mayında əsası qoyulan NATO-Aİ İmkan Qrupu İttifaqın potensialından irəli gələn təşəbbüsləri və AİFP-nin birlikdə həyata keçirilməsi üçün çalışır və Berlin Plüs nizamlamaları çərçivəsində NATO-Aİ gündəliyinin tərkib hissəsi kimi NATO Cavab Qüvvələri və yenicə yaradılmış Aİ Döyüş Qrupları arasındakı əlaqəni nəzərdən keçirir.

Döyüş qruplarından təşkil edilən Aİ çevik reaksiya birlikləri 2004-cü ilin fevralında elan edilən 2010-cu il üçün yeni Əsas Məqsədin tərkib hissəsidir. 2007-ci ilə qədər onların tamamilə inkişaf etdirilməsi planlaşdırılır. Əsas Məqsəd həmçinin müdafiə imkanlarını, tədqiqat, komplektləşdirmə və silahlanmaya diqqət yetirən Aİ Müdafiə Agentliyinin yaradılmasına gətirib çıxardı.

Müvafiq fəaliyyətləri üzrə informasiya mübadiləsi, mütəxəssis və heyət səviyyəsində məsləhətləşmə əlaqələr və birgə toplantılar vasitəsilə NATO və Avropa İttifaqı terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının (KQS) yayılması, Moldovadakı vəziyyət, Aralıq dənizi məsələləri və Əfqanıstanda əməkdaşlıq üzrə birgə tədbirlər həyata keçirirlər. İnformasiya mübadiləsi və əməkdaşlıq üçün əlavə sahələrə mülki əhalini kimyəvi, bioloji, radioloji və nüvə silahı hücumundan müdafiə, digər mülki fövqəladə vəziyyət planlaşdırması və KQS ilə bağlı məsələlər daxildir. Əməkdaşlığa bəzi hallarda təlimlərdə birgə iştirak da daxil ola bilər. Misal üçün, 2003-cü ilin noyabrında ilk birgə NATO-Aİ böhrana nəzarət təlimi (CME CMX03) keçirildi. Təlim mövcud Berlin Plyus razılaşmalarına əsaslanırdı və əsas diqqət NATO-nun ümumilikdə iştirak etmədiyi Aİ-nın NATO-ya məxsus əmlak və imkanlardan istifadəsi nəzərdə tutulan əməliyyatlar üçün Aİ-nın necə planlaşdırma aparmasını əhatə edirdi.

IX HİSSƏ

TƏHLÜKƏSİZLİYİN DAHA GENİŞ TƏŞKİL OLUNMUŞ STRUKTURU

29-cu Fəsil: NATO-nun Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələri

30-cu Fəsil: NATO və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

31-ci Fəsil: Digər beynəlxalq təşkilatlarla əməkdaşlıq

32-ci Fəsil: Parlament və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq

29-cu Fəsil

NATO-NUN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI İLƏ ƏLAQƏLƏRİ

Birləşmiş Millətlər Təşkilatı İttifaqın fəaliyyət göstərdiyi geniş təşkil olunmuş strukturun mərkəzini təşkil edir. Bu prinsip NATO-nun təsisedici müqaviləsində əks olunmuşdur. BMT Təhlükəsizlik Şurasının qətnamələri NATO-nun Balkanlar və Əfqanıstandakı əsas sülhə dəstək əməliyyatlarına mandat vermişdir və həmçinin NATO-nun İraqdakı təlim missiyasının istiqamətlərini müəyyən etmişdir. Bu yaxınlarda NATO Sudanın Darfur əyalətində BMT-nin təsdiqlədiyi Afrika İttifaqı sülhməramlı əməliyyat üçün maddi texniki yardım göstərmişdir.

Son illərdə NATO və BMT arasındakı əməkdaşlıq onların qərbi Balkanlar və Əfqanıstandakı birgə fəaliyyətindən daha geniş şəkildə inkişaf etmişdir. Hər iki təşkilat arasındakı əlaqələr bütün səviyyələrdə - baza, konseptual, siyasi, həmçinin institusional cəhətdən davamlı olaraq inkişaf etməkdədir. BMT-nin ixtisaslaşdırılmış qurumları ilə əməkdaşlıq və məsləhətləşmələr çərçivəsi böhran hallarının idarə edilməsindən də irəli gedir və daha geniş məsələləri əhatə edərək, mülki fövqəladə halların planlaşdırılması, mülki-hərbi əməkdaşlıq, insan alveri ilə mübarizə, minaların zərərsizləşdirməsi və terrorizmə qarşı mübarizə kimi məsələləri daxil edir.

Şimali Atlantika Müqaviləsi və BMT Nizamnaməsi

Şimali Atlantika Müqaviləsi və Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsi arasındakı birbaşa əlaqəni təsdiq etmə İttifaqın əsas prinsipidir. 1945-ci il iyun ayının 26-da San-Fransisko şəhərində əlli ölkə tərəfindən imzalanan Xartiya NATO-nun yaranması üçün hüquqi baza təmin edir və beynəlxalq sülh və təhlükəsizliyi ilə bağlı bütövlükdə BMT Təhlükəsizlik Şurasının başlıca məsuliyyətinin əsasını qoyur. Bu iki əsas prinsip 1949-cu il aprel ayının 4-də Vaşinqtonda imzalanmış NATO-nun Şimali Atlantika Müqaviləsində öz əksini tapmışdır.

Vaşinqton Müqaviləsinin preambulasında BMT Nizamnaməsinin İttifaqın fəaliyyəti üçün çərçivə olduğu nəzərə çatdırılır. Açılış frazalarında Müqaviləyə imza atanlar Nizamnamənin məqsəd və prinsiplərinə olan inamlarını bir daha təsdiqləyirlər. Maddə 1-də onlar həmçinin, beynəlxalq münaqişələrin sülh yolu ilə həlli və BMT Nizamnaməsinin məqsədlərinə cavab verməyən tərzdə hədə və ya gücün istifadəsindən yayınmağa dair öhdəlikləri öz

üzərinə götürürlər. Müqavilənin 5-ci Maddəsi BMT Nizamnaməsinin 51-ci Maddəsinə aydın istinad edərək, Müttəfiqlərin özünü müdafiə etmək məqsədilə, fərdi və kollektiv şəkildə, zəruri hesab etdiyi tədbirlərin görülməsi hüququnu təsdiq edir. Buraya silahlı qüvvələrdən istifadə edilməsi daxildir. Bundan başqa o, BMT Təhlükəsizlik Şurasının beynəlxalq sülh və təhlükəsizliyi bərpa və müdafiə etmək məqsədilə zəruri tədbirlər gördüyü təqdirdə, üzv dövlətlərdən silahlı hücumları və bunun nəticəsində görülən bütün tədbirləri dayandırmağı tələb edir.

BMT Nizamnaməsinə növbəti istinad Şimali Atlantika Müqaviləsinin 7-ci Maddəsində əks olunur. Bu maddə vurğulayır ki, Müqavilə Nizamnamə çərçivəsində Müttəfiqlərin hüquq və öhdəliklərinə təsir etmir və heç bir şəkildə təsir göstərən vasitə kimi şərh edilə bilməz, həmçinin beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsi üçün BMT Təhlükəsizlik Şurasının başlıca öhdəliklərini təsdiqləyir. Nəhayət Müqavilənin 12-ci Maddəsindəki bənd on ildən sonra onun tərəflərindən biri təklif etdiyi təqdirdə Müqavilənin yenidən baxılmasını nəzərdə tutur. Bu maddəyə əsasən yenidən baxılma BMT Nizamnaməsinə uyğun olaraq universal və regional fəaliyyətlər də daxil olmaqla, Şimali Atlantika məkanındakı sülh və təhlükəsizliyə təsir göstərən yeni hallar fonunda baş verə bilər.

1949-cu il avqust ayının 24-də Şimali Atlantika Müqaviləsi qüvvəyə mindi. Müqavilənin heç bir tərəfi 12-ci Maddə çərçivəsində Müqaviləyə yenidən baxılmasını təklif etməmişdir, halbuki hər inkişaf mərhələsində İttifaq Müqavilənin məqsədlərini təmin etmək üçün onun həyata keçirilməsini daimi nəzarətdə saxlamışdır.

Praktiki Əməkdaşlıq

1949-cu ildə İttifaqın yaradılmasından bəri Birləşmiş Millətlər Təşkilatı və Şimali Atlantika İttifaqı arasındakı rəsmi münasibətlər onların müvafiq təsisedici sənədləri arasındakı əlaqələrlə sıx möhkəmləndirilmişdir. Bununla belə, Birləşmiş Millətlər Təşkilatı və İttifaqın qurumları arasındakı işçi əlaqələri bu müddət çərçivəsində əsasən məhdud şəkildə mövcud olmuşdur. 1992-ci ildə qərbi Balkanlardakı artan münaqişə şəraitində vəziyyət dəyişdi. Bu regionda iki təşkilatın böhran hallarının idarə edilməsində olan rolu sözügedən təşkilatlar arasındakı praktiki əməkdaşlığın intensivləşdirilməsinə gətirib çıxardı.

1992-ci ilin iyul ayında NATO-nun Dəniz Patrul Təyyarəsinin yardımı ilə NATO-nun İttifaqın Aralıq dənizi Daimi Hərbi Dəniz Qüvvələrinə məxsus gəmiləri BMT-nin bütün keçmiş Yuqoslaviya respublikalarına qoyduğu silah

embarqosuna dəstək olaraq Adriatik dənizində monitorinq əməliyyatlarına başladı. Bir neçə ay sonra noyabrda NATO və Qərbi Avropa İttifaqı (WEU) münaqişənin gərginləşməsinin qarşısını almaq məqsədilə BMT Təhlükəsizlik Şurası qətnamələrinə dəstək olaraq, onların həyata keçirilməsi əməliyyatlarına başladı.

İttifaqın BMT Təhlükəsizlik Şurasının mandatı əsasında sülhməramlı əməliyyatları dəstəkləməyə hazır olması 1992-ci ilin dekabr ayında NATO xarici işlər nazirləri tərəfindən rəsmi olaraq bəyan edildi. Fərdi və ya İttifaq şəklində artıq NATO tərəfindən görülən tədbirlər nəzərdən keçirildi və İttifaq BMT Baş Katibinin bu sahədə İttifaqın yardımını nəzərdə tutan sonrakı təşəbbüslərinə müsbət reaksiya göstərməyə hazır olduğunu nəzərə çatdırdı. NATO və WEU Şuralarının mandatı çərçivəsində birgə dəniz əməliyyatları, NATO hava əməliyyatları, Birləşmiş Millətlər Təşkilatının Müdafiə Qüvvələri (UNPROFOR) üçün sıx hava dəstəyi, BMT-nin "Təhlükəsiz Ərazilərini" müdafiə etmək məqsədilə hava zərbələri və Birləşmiş Millətlər Təşkilatının yerinə yetirəcəyi digər seçimlər üçün kontingent planlaşdırması da daxil olmaqla ardıcıl olaraq bir sıra tədbirlər həyata keçirildi.

1995-ci il Dekabrın 14-də Bosniya və Herseqovinada Sülh üçün Ümumi Çərçivə Sazişinin (Dayton Sazişi) imzalanmasından sonra NATO-ya sülh sazişini hərbi tərəflərini həyata keçirmək üçün BMT Təhlükəsizlik Şurasının 1031 saylı Qətnaməsi əsasında Birləşmiş Millətlər Təşkilatı tərəfindən səlahiyyət verildi. Bu, NATO-nun ilk sülhməramlı əməliyyatı idi. 1995-ci il Dekabrın 16-da bu səlahiyyəti həyata keçirmək məqsədilə Bosniya və Herseqovinada NATO-nun rəhbərlik etdiyi Həyatakeçirmə Qüvvəsi (IFOR) əməliyyatlara başladı. Bir il sonra IFOR, NATO-nun rəhbərlik etdiyi Sabitləşdirmə Qüvvələri (SFOR) ilə əvəzləndi. Öz səlahiyyətləri müddətində hər iki çoxmillətli qüvvə əvvəldən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) və Beynəlxalq Polis Tapşırıq Qüvvələri kimi BMT agentlikləri də daxil olmaqla digər beynəlxalq təşkilatlar və humanitar agentliklər ilə sıx əməkdaşlıq etdi.

1998-ci ildə Kosovadakı münaqişənin başlandığı andan və münaqişə müddətində BMT Baş Katibi və NATO Baş Katibi arasında sıx əlaqələr qorunub saxlanıldı. Həm münaqişə zamanı və həm də ondan sonra İttifaq tərəfindən BMT Təhlükəsizlik Şurası qətnamələrini dəstəkləmək məqsədilə tədbirlər həyata keçirildi. Kosovada sülh və yenidənqurmanın təməl şərtləri kimi beynəlxalq təhlükəsizliyi təmin etmək məqsədilə BMT Təhlükəsizlik Şurasının 1999-cu il 12 iyun tarixli Qətnaməsi əsasında Kosova Qüvvələri (KFOR) yerləşdirildi.

2000 və 2001-ci illərdə cənubi Serbiyada mühüm etnik münaqişənin və Makedoniya Keçmiş Yuqoslaviya Respublikasında tam inkişaf etmiş vətəndaş müharibəsinin baş verməsinin qarşısını almaq məsələlərində NATO və Birləşmiş Millətlər Təşkilatı uğurlu əməkdaşlıq etdilər.

Son zamanlarda NATO və BMT arasındakı əməkdaşlıq Əfqanıstanda başlıca rol oynayır. 2003-cü il avqust ayının 11-də Alyans Kabulda və onun ətraf ərazilərində təhlükəsizliyi təmin etmək üçün BMT tərəfindən səlahiyyət verilən Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) üzərində rəsmi olaraq nəzarəti ələ aldı. Mərkəzi hökumətin səlahiyyətlərini artırmaq və inkişaf və yenidənqurmaya yardım etmək məqsədilə ölkənin digər regionlarında öz mövcudluğunu genişləndirmək üçün ISAF-a bir sıra BMT Təhlükəsizlik Şurası qətnamələri ilə səlahiyyət verildi. Bundan başqa, İttifaq 2004-cü ilin oktyabrındakı prezident və 2005-ci ilin sentyabrındakı parlament və bələdiyyə seçkiləri üçün təhlükəsiz mühit təmin etmək məqsədilə əfqan rəsmilərinin səylərinə ISAF-ın dəstəyini artırmaq üçün Əfqanıstana müvəqqəti olaraq əlavə qüvvələr yerləşdirdi.

İraqda BMT Təhlükəsizlik Şurasının 1546 saylı Qətnaməsi çərçivəsində və İraqın Müvəqqəti Hökumətinin xahişi ilə NATO İraq təhlükəsizlik qüvvələrinə təlim keçirilməsi və onların təminatında yardım göstərir.

2005-ci ilin iyununda Afrika İttifaqının xahişi və Birləşmiş Millətlər Təşkilatı və Avropa İttifaqı ilə sıx əlaqələndirmə əsasında NATO Sudanın Darfur əyalətində davam edən zorakılığı dayandırmaq məqsədilə Afrika İttifaqının öz missiyasını genişləndirməsinə dair dəstəkləməyə razılıq verdi. Yay fəsli müddətində NATO Afrikanın qüvvələrə töhfə verən dövlətlərindən regiona sülhməramlıların hava daşımalarına yardım etdi və həmçinin Afrika İttifaqı zabitlərinə çoxmillətli hərbi qərargahları idarə etmək və kəşfiyyat məlumatlarına nəzarət etmək məsələlərində təlim keçirilməsində yardımçı oldular.

Müntəzəm Əlaqələr

Müntəzəm olaraq, NATO Baş Katibi böhran halların idarə etmə və terrorizmə qarşı mübarizə sahəsindəki NATO-nun apardığı əməliyyatlarda əldə edilmiş tərəqqi və Şimali Atlantika Şurasının mühüm qərarları üzrə BMT Baş Katibinə hesabat verir.

Qərargah səviyyəsindəki görüşlər daha müntəzəm olmaqdadır və hər il NATO və Birləşmiş Millətlər arasında bir sıra yüksək səviyyəli səfərlər həyata keçirilir. Buna misal olaraq, 2004-cü il mart ayında Nyu-York şəhərində

NATO-BMT Dəyirmi Masası keçirilmişdir. 2004-cü ilin aprel ayında BMT Baş Katibinin Müavini Luiz Freşet NATO-ya səfər etdi və 2004-cü ilin noyabrında isə NATO Baş Katibi Yap de Hop Skheffer BMT Təhlükəsizlik Şurasında çıxış etdi. 2005-ci ilin sentyabrında cari əməliyyatlar üzrə müzakirələr və Birləşmiş Millətlər Təşkilatı ilə daha strukturlaşdırılmış əlaqə üçün təşəbbüslərə başlamaq məqsədilə NATO Baş Katibi Yap de Hop Skheffer BMT-nin Baş Katibi Kofi Annan ilə görüşmək üçün Nyu-Yorka birdə səfər etdi.

Həmçinin, Narkotiklər və Cinayətlər üzrə BMT Ofisi kimi BMT-nin digər təşkilatları ilə qərargah səviyyəsində görüşlər keçirilir və NATO mütəxəssisləri BMT-nin digər qurumları tərəfindən təşkil olunmuş tədbirlərdə iştirak edirlər. Mülki fövqəladə vəziyyət üzrə planlaşdırma sahəsində Fəlakətli Halların Nəticələrinin aradan qaldırılması üzrə Avro Atlantik Əlaqələndirmə Mərkəzi və Humanitar Məsələlərin Əlaqələndirilməsi üzrə BMT Ofisi arasındakı əlaqələr çox yüksək səviyyədədir və bu Ofisin əlaqələndirici zabiti qeyd olunan Mərkəzdə daimi əsasda fəaliyyət göstərir.

NATO, həmçinin, Birləşmiş Ştatlara olan 2001-ci il 11 sentyabr terror hücumlarından sonra qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının 1373 saylı Qətnaməsinə əsasən yaradılmış BMT-nin Terrorizmə Qarşı Mübarizə Komitəsinin işinə fəal surətdə töhfə verir və bu prosesə cəlb olunan beynəlxalq, regional və subregional təşkilatları bir araya gətirən Komitənin xüsusi iclaslarında iştirak edir.

30-cu Fəsil

NATO VƏ AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATI

Avro Atlantik regionunda münaqişələrin qarşısının alınması və böhran halların idarə edilməsi sahələrində sülh və sabitliyi artırmaq məqsədilə NATO və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) bir birini tamamlayan rol və funksiyalara malikdirlər. NATO-ATƏT əlaqələri həm siyasi, həm də praktiki səviyyədə mövcuddur. 1990-cı illərdən bəri hər iki təşkilat qərbi Balkanlarda fəal sürətdə əməkdaşlıq etməkdədir və böhran halların idarə edilməsi, sərhəd təhlükəsizliyi, tərksilah, terrorizm və xüsusi regionlar üzrə təşəbbüslər kimi ümumi maraq göstərən məsələlər üzrə bir-birinin fəaliyyətini tamamlamağa səy göstərirlər.

Əməkdaşlıq üçün siyasi əsas

NATO-ATƏT münasibətləri təhlükəsizlik məsələsinə Alyansın geniş yanaşmasına dair öhdəliyini və digər bir birini tamamlayan və qarşılıqlı şəkildə möhkəmlənən təşkilatlarla əməkdaşlığın qurulmasını ilə bağlı Alyansın 1999-cu ilin Strateji Konsepsiyasında qeyd olunan NATO-ya üzv dövlətlərin arzuları əks olunur.

İki təşkilat arasındakı siyasi əlaqələr 1999-cu il ATƏT-in İstanbul Samitində başlanmış “Kooperativ Təhlükəsizlik üzrə Birgə Platforma” vasitəsilə müəyyənləşdirilir. Platforma Avropada və ondan kənarda demokratiya, tərəqqi və sabitliyi yaymaq məqsədilə beynəlxalq icma mənbələrinə cəmləşməklə beynəlxalq təşkilatlar arasındakı birgə əməkdaşlığa çağırır. O, ümumi maraq doğuran praktiki və siyasi məsələləri müzakirə etmək məqsədilə iki təşkilat arasında görüşlərə şərait yaradır.

2002-ci ilin noyabr ayında Praqa Samiti zamanı NATO liderləri münaqişələrin qarşısının alınması, böhran halların idarə edilməsi və münaqişədən sonrakı reabilitasiya əməliyyatları sahələrində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığı genişləndirmək arzularını ifadə etdilər. NATO liderləri, həmçinin, Aralıq dənizi regionunda sabitliyin möhkəmləndirilməsinə yönəlmiş beynəlxalq səylərin bir birini tamamlamasını inkişaf etdirmək ehtiyacını vurğuladılar. Bu bəyanata əsasən hər iki təşkilat region dövlətləri ilə müvafiq dialoqlarına təsir göstərən daha sıx əlaqələrin inkişaf etdirilməsinə başladı.

Təhlükəsizlik mühitində baş verən dəyişikliklər fonunda hər iki təşkilat terrorizm də daxil olmaqla digər ümumi maraq doğuran sahələr üzrə dialoqu genişləndirmişlər. 2003-cü ilin dekabrında ATƏT-in Nazirlər Şurasının Mastrix, Hollandiyadakı toplantıları zamanı yeni "21-ci əsrdə Təhlükəsizlik və Sabitliyə olan Təhdidlərə Cavabvermə Strategiyası" qəbul edildi. Bu sənəd daim dəyişən təhlükəsizlik mühitində Birgə Təhlükəsizlik Platforması çərçivəsində əməkdaşlıq edən digər təşkilat və institutlarla qarşılıqlı təsirdə olmaq və bir-birinin əmlak və qüvvəsindən istifadə etmək ehtiyacını nəzərə çatdırır.

Terrorizmlə mübarizəni nəzərə alaraq, xüsusilə qeyri üzv dövlətlərlə tərəfdaşlıq çərçivəsindəki NATO-nun səyləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının səylərini tamamlayır. 2001-ci ilin sentyabrinda Birləşmiş Ştatlara olan terrorist hücumlarından bəri 2002-ci ildə Porto şəhərində qəbul edilmiş Terrorizmin Qarşısının alınması və Onunla Mübarizə üzrə Xartiya da daxil olmaqla ATƏT tərəfindən bir sıra təşəbbüslər həyata keçirilmişdir.

Praktiki əməkdaşlıq

NATO-ATƏT praktiki əməkdaşlığının ən bariz nümunəsi qərbi Balkanlarda hər iki təşkilat tərəfindən həyata keçirilən bir birini tamamlayan missiyalardan ibarətdir. 1996-cı ildə Dayton Sülh Sazişinin imzalanmasından sonra onlar Bosniya və Herseqovinada birgə fəaliyyət proqramı həyata keçirdilər. Sülh sazişinin hərbi tərəflərini həyata keçirmək məqsədilə NATO-nun rəhbərlik etdiyi Sülhün Tətbiqi üzrə Qüvvələri (IFOR) yaradıldı və onu əvəzləyən (NATO əməliyyatları barəsindəki 4-cü hissəyə bax) Sabitləşdirmə Qüvvələri (SFOR) sazişin mülki tərəflərini həyata keçirmək üçün böyük dəstək verdi. ATƏT heyəti və humanitar yardımı üçün təhlükəsizliyi təmin etməklə NATO ATƏT-in himayəsi altında keçirilən Bosniya və Herseqovinadakı seçkilərin sərbəst təşkilinə öz töhfəsini verdi.

NATO Paralel havadan müşahidə əməliyyatı həyata keçirir. 1998-ci ilin oktyabrında Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Kosovadakı vəziyyətin kəskinləşməsi nəticəsində imzalanan atəşkəs sazişlərinə riayət etmək və sonrakı münaqişələrin qarşısını almaq üçün beynəlxalq icmanın səylərinə nəzarət etmək məqsədilə Kosova Nəzarət Missiyası yaradıldı. 1999-cu ilin martında Təhlükəsizlik vəziyyətinin sonradan pisləşməsi ilə əlaqədar ATƏT-in Nəzarət Missiyası ölkədən çıxmağa məcbur oldu.

NATO-nun Kosovadakı hava kompaniyasından sonra 1999-cu ilin iyulunda Birləşmiş Millətlər Təşkilatının Kosovadakı Müvəqqəti Administrasiya Missiyasının tərkib hissəsi kimi ATƏT-in Kosovadakı yeni Missiyası yaradıldı. Digər məsələlər sırasında ATƏT Missiyasının rolu demokratiyanın inkişafı, institutların yaradılması və insan hüquqlarının müdafiəsinə nəzarət etməkdən ibarətdir. Missiya beynəlxalq icmanın işləməsi üçün təhlükəsiz mühit yaratmaq məqsədilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən səlahiyyət verilən NATO-nun rəhbərlik etdiyi Kosova Qüvvələri (KFOR) ilə sıx əlaqə saxlayır.

NATO, həmçinin, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə keçmiş Yuqoslaviya Respublikası Makedoniyada sıx əməkdaşlıq etmişdir. Yazda baş verən daxili etnik narahatlıqdan sonra yayda əldə olunan çərçivə sülh sazişinin həyata keçirilməsinə nəzarət edən Aİ və ATƏT müşahidəçilərin əlavə təhlükəsizliyini təmin etmək məqsədilə 2001-ci ilin sentyabrında NATO-nun tapşırıq qüvvəsi yaradıldı. 2003-cü ilin martından 2003-cü ilin dekabrında onun başa çatmasına qədər, Avropa İttifaqı Konkordiya adlandırılan bu əməliyyatı rəsmi olaraq öhdəliyə götürdü.

NATO-ATƏT əməkdaşlığı, həmçinin, qərbi Balkanlarda sərhədlərin daha yaxşı idarə edilməsi və qorunmasına dair töhfə verməkdədir. 2003-cü ilin mayında Ohrid şəhərində keçirilən yüksək səviyyəli konfrans zamanı beş balkan dövləti regionda sərhədlərin təhlükəsizliyini artırmaq məqsədilə Avropa İttifaqı, NATO, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Sabitlik Paktı[1] tərəfindən irəli sürülən Ümumi Platformanı dəstəklədilər. Hər bir təşkilat öz səlahiyyəti çərçivəsindəki ərazilərdə yerləşən dövlətləri dəstəkləyir.

NATO və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, həmçinin, digər sahələrdə öz səylərini əlaqələndirməyə dair cəhd göstərirlər. Silahlara nəzarət, minaların təmizlənməsi, hərbi sursat ehtiyatlarının ixtisara salınması, yüngül və atıcı silahların yayılmasına nəzarət edilməsi kimi sahələrdə NATO tərəfindən göstərilən təşəbbüslər ATƏT-in münaqişənin

[1] *Sabitləşdirmə Paktı 1999-cu ilin mayında Avropa İttifaqı tərəfindən qəbul olunmuşdur. O, bir müddətdən sonra rəsmi olaraq 1999-cu il iyunun 10-da Kolonyada keçirilən beynəlxalq konfransda qəbul edilmiş və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının himayəsinə verilmişdir. Sabitlik Paktı töhfə vermək qabiliyyətinə malik region dövlətləri, digər maraqlı dövlətlər və təşkilatları bir araya gətirməklə məntiqi, əlaqələndirilmiş tədbirlər vasitəsilə cənub şərqi Avropada davamlı sülh, tərəqqi və sabitliyə töhfə vermək məqsədilə yaradılmışdır. Sözügedən Pakt birgə fəaliyyətin əlaqələndirilməsi üçün xüsusi vasitələr təsis edir.*

qarşısının alınması və münaqişədən sonra sabitliyin bərpa edilməsi təşəbbüsləri ilə üst-üstə düşür. Bundan əlavə olaraq, regional səviyyədə hər iki təşkilat cənub-şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyaya xüsusi diqqət göstərir. Hər iki təşkilat həmçinin Aralıq dənizi regionu dövlətləri istiqamətində paralel təşəbbüslər həyata keçirmişlər.

Müntəzəm əlaqələr

NATO və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı arasındakı əlaqələr NATO Baş Katibi və ATƏT-in Fəaliyyətdə olan Sədri arasındakı yüksək səviyyəli görüşlər də daxil olmaqla müxtəlif səviyyə və formatlarda həyata keçirilir. NATO-nun Baş Katibi dövrü olaraq, ATƏT-in Daimi Şurasında çıxış etməyə dəvət olunur. Eyni şəkildə vaxtaşırı Şimali Atlantika Şurası ATƏT-in Fəaliyyətdə olan Sədrini toplantıların birində çıxış etməyə dəvət edir.

Böhran halların idarə edilməsi, sərhəd təhlükəsizliyi, tərksilah və terrorizm kimi ümumi maraq doğuran məsələlər üzrə müntəzəm olaraq, hər iki təşkilatdan olan rəsmilər arasında fikir mübadiləsi həyata keçirilir. Hər iki Təşkilatın sahə üzrə müvafiq nümayəndələri informasiya mübadiləsi və əməkdaşlığın müxtəlif tərəflərini müzakirə edilməsi məqsədilə müntəzəm olaraq bir araya gəlirlər.

31-ci Fəsil

DİGƏR BEYNƏLXALQ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIQ

NATO ümumi maraq doğuran sahələrdə informasiya mübadiləsi, münasib və səmərəli tədbirləri inkişaf etdirmək məqsədilə digər beynəlxalq təşkilatlar ilə öz əlaqələrini dərinləşdirməyə səy göstərir. Digər beynəlxalq təşkilatlarla əlaqələrin başlıca diqqət mərkəzi əvvəlki fəsillərdə qeyd olunduğu kimi Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlıq ilə bağlıdır. NATO həmçinin bir sıra digər əhəmiyyətli beynəlxalq təşkilatlar ilə məsləhətləşmələr və müxtəlif əməkdaşlıq formaları aparır.

Avropa Şurası

Avropa Şurası “Onların ümumi irsi olan və onların sosial və iqtisadi inkişafına yardım edən ideal və prinsipləri qorumaq və onları həyata keçirmək üçün öz üzvləri arasında möhkəm birliyə nail olmaq məqsədilə” 1949-cu il may ayının 5-də təsis olunub. Şuranın ümumi məqsədi humanitar hüquqlar, plüralist demokratiya, qanunun aliliyinin əsas prinsipləri və Avropa vətəndaşlarının həyat səviyyələrinin keyfiyyətinin yaxşılaşdırılmasını dəstəkləməkdən ibarətdir.

NATO müntəzəm olaraq Avropa Şurası tərəfindən sənədlər, hesabatlar və protokollar qəbul edir və müxtəlif parlament sessiyaları və keçiriləcək tədbirlər barəsində məlumatlandırılır. Ümumi maraq doğuran sahələrdəki məsələlər üzrə hesabatlar və müxtəlif sessiyaların nəticələri NATO-nun Beynəlxalq Qərargah tərəfindən nəzərdən keçirilir və bu məlumat təşkilat daxilində müvafiq şöbələrə çatdırılır.

Beynəlxalq Miqrasiya Təşkilatı

Miqrasiya üzrə Beynəlxalq Təşkilat miqrasiyanın doğurduğu təhdidlər bağlı miqrant əhali və hökumətlərlə birgə çalışan aparıcı beynəlxalq təşkilatdır. O, humanitar və sistematik miqrasiyadan həm miqrantların, həm də onların yaşadığı cəmiyyətlərin faydalanması prinsipinə sadiqdir. 1951-ci ildə yaradılan və Avropanın məcburi köçkün, qaçqın və miqrant əhalisinin yerləşdirilməsi ilə məşğul olan təşkilat hazırda bütün dünya üzrə müxtəlif miqrasiya halların idarə edilməsi və digər fəaliyyətləri əhatə edir.

Hər bir qitədə mövcud olan ofis və əməliyyatları vasitəsilə təşkilat gözlənilməz miqrasiya axını, fəlakət hadisəsindən sonra geri dönmə, yenidən inteqrasiya proqramları və miqrantlara yeni evlərinə gedən yolda yardım etmək sahələrində hökumət və vətəndaş cəmiyyətinə kömək edirlər. Təşkilat həmçinin rəsmilərə təlim keçirilməsi və insan alveri ilə mübarizə tədbirlərini inkişaf etdirirlər.

NATO ilə əməkdaşlıq insan alverilə mübarizə, sərhəd təhlükəsizliyi və münaqişədən sonrakı regionda yenidənqurma kimi müxtəlif sahələrdə həyata keçirilir. Əməkdaşlıq üçün böyük potensiala malik olan regionlara Qafqaz və Mərkəzi Asiya daxildir. Bu iki təşkilat arasındakı ilk rəsmi və planlaşdırılmış əlaqə 2004-cü ilin sentyabrında qərargah səviyyəsində olan görüşlər zamanı həyata keçirilmişdir.

Qərbi Avropa İttifaqı Assambleyası

NATO həmçinin Qərbi Avropa İttifaqı Assambleyası (QAİA) ilə əlaqələrə malikdir. Halbuki, Beynəlxalq Təşkilat anlayışının sırf hərfi mənasında deyil, Assambleya 1954-cü ildə Qərbi Avropa İttifaqının təsis sənədi olan 1948-ci il Uyğunlaşdırılmış Brüssel Müqaviləsi çərçivəsində yaradıldı. 1984-cü ildə daha güclü Avropa təhlükəsizlik və müdafiə anlayışı yaratma prosesinə töhfə vermək məqsədilə ehtiyac yarandığından sonralar Qərbi Avropa İttifaqının səlahiyyətləri azaldıldı. Bu təşkilatın səlahiyyətləri 1999-cu ilin sonunda Avropa İttifaqının, onun Avropada Təhlükəsizlik və Müdafiə Siyasətinin inkişafı kontekstində (VII hissəyə bax), öhdəliyinə keçirildi. Qərbi Avropa İttifaqı özü bir sıra məsuliyyətlərə və Brüsseldə yerləşən kiçik katibliyə malik olmaqla mövcudluğunu qoruyub saxlayır.

QAİ Assambleyası ümumi strateji müzakirələr üçün parlamentlərarası forum şəklində fəaliyyət göstərir, təhlükəsizlik və müdafiə məsələləri üzrə hökumətlərarası və ictimai debatlara öz töhfəsini verir. 28 Avropa dövlətindən olan Milli Parlamentlər hazırda 370 üzvə malik Assambleyaya nümayəndələrini göndərir. Onun əsas funksiyası müvafiq olaraq müdafiə, siyasi, texnologiya və aerokosmos ilə bağlı məsələlər, parlament və ictimai əlaqələrdən bəhs edən dörd əsas komitədə cəmləşir. QAİ Assambleyası plenar sessiyalar üçün ildə ən azı iki dəfə və il boyu komitə toplantıları, konfransları və danışıqlarında bir araya gəlir.

Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilat

Mülki fövqəladə planlaşdırma sahəsində NATO-nun əməkdaşlıq etdiyi digər bir təşkilat Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatdır. 1997-ci ildə Kimyəvi Silahlar üzrə Konvensiyaya qoşulan dövlətlər tərəfindən təsis olunan təşkilat Konvensiyanın səmərəli həyata keçirilməsi və öz məqsədinə nail olmasına dair səy göstərir. Bütün NATO Müttəfiqləri bu təşkilatın üzv dövlətləridir və hazırda təşkilata 174 üzv dövlətləri mövcuddur.

Təşkilatın öhdəliklərindən biri kimyəvi silahlar vasitəsilə hücum edilən və ya hədələnən dövlətlərə, o cümlədən terroristlər tərəfindən, yardım etmək və onları müdafiə etməkdir. 2001-ci ilin sentyabrında Birləşmiş Ştatlara qarşı törədilən terrorist hücumlarından sonra kimyəvi, bioloji, radioloji və nüvə maddələrin istifadəsi ilə hücumların potensial nəticələrinə qarşı əhalini müdafiə etmək üçün nəzərdə tutulan NATO-nun mülki müdafiə səylərinə Təşkilatın yardımçı ola biləcəyi bu sahədə əhəmiyyətlidir.

32-ci Fəsil

PARLAMENT VƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI İLƏ ƏMƏKDAŞLIQ

Beynəlxalq təşkilatlar arenasından kənar olaraq, NATO onun siyasət və məqsədlərinin anlayışına və dəstəyinə töhfə verən parlament və qeyri hökumət təşkilatları ilə əməkdaşlıq edir.

Beynəlxalq Qırmızı Xaç Komitəsi

NATO-nun əməkdaşlıq etdiyi ən əhəmiyyətli qeyri hökumət təşkilatlarından biri Beynəlxalq Qırmızı Xaç Komitəsidir – müharibə və dövlət daxili zorakılıq qurbanlarının həyat və ləyaqətini müdafiə etmək və onları lazımi yardımla təmin etmək məqsədilə humanitar fəaliyyətlə məşğul olan bitərəf, neytral və müstəqil təşkilatdır. Beynəlxalq Qırmızı Xaç Komitəsi münaqişə şəraitində həyata keçirilən beynəlxalq yardım fəaliyyətini istiqamətləndirir və onları əlaqələndirir. Əlavə olaraq, Komitə beynəlxalq humanitar qanun və universal humanitar prinsiplərin möhkəmləndirilməsini inkişaf etdirməklə əzab çəkməyin qarşısının alınmasına dair cəhd göstərir. Komitənin NATO ilə əlaqələri məhz bu çərçivədə inkişaf etdirilir. NATO rəsmləri öz əməliyyat planlaşdırmalarında beynəlxalq humanitar qanunun prinsiplərini nəzərə alırlar; əməliyyat planları beynəlxalq humanitar qanunun həyata keçirilməsi və ona hörmət münasibətlərini əks etdirir. Qayda olaraq, beynəlxalq humanitar qanun ilə bağlı məlumatın yayılması üzv dövlətlərin öz öhdəliyinə düşən məsələ olmasına baxmayaraq, NATO Beynəlxalq Qırmızı Xaç Komitəsinin yardımı ilə bu prosesi sürətləndirmək üçün münasib tədbirləri nəzərə ala bilər.

Bu iki təşkilat arasındakı əlaqələr tələb olunan zaman qərargah arası və yüksək səviyyədə görüşlər zamanı qeyri rəsmi fikir mübadiləsi aparmaqla *ad hok* əməkdaşlığına əsaslanır. Əməkdaşlıq Balkanlar, Əfqanıstan və İraqdakı kimi müxtəlif dövlət və regionlarda bir sıra məsələlər çərçivəsində baş verir.

NATO ilə əlaqələr çərçivəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin əsas narahatçılığı silahlı münaqişələrdə beynəlxalq humanitar qanunun tətbiq olunması, böhran hallarına hərbi, siyasi və humanitar yanaşmaların bir-birini tamamlaması və onlar arasındakı müxtəlifliyə hörmət, beynəlxalq humanitar qanunun həyata keçirilməsinə dair NATO-nun öhdəliyi ilə bağlıdır.

Praktiki səviyyədə Beynəlxalq Qırmızı Xaç Komitəsi Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində təşkil edilmiş NATO-nun Oberammerqaudakı Məktəbində sülhün qorunması və mülki fövqəladə planlaşdırma ilə bağlı təlim kurslarına dəstək verməkdədir. Həmçinin NATO-nun Kosova ilə bağlı rolu çərçivəsində də əməkdaşlıq həyata keçirilir və Komitə NATO tərəfindən həyata keçirilən bəzi "çıxarılmış nəticələrin" qiymətləndirilməsi çərçivəsində səylər göstərmişdir.

Mülki fövqəladə halların planlaşdırması üzrə fəaliyyəti və təlimləri çərçivəsində NATO həmçinin Beynəlxalq Qırmızı Xaç Federasiyası və Qırmızı Aypara Cəmiyyətləri ilə müntəzəm olaraq əməkdaşlıq edir.

NATO Parlament Assambleyası

NATO Parlament Assambleyası (NATO PA) 1995-ci ildə yaranmasından bəri ümumi maraq və narahatçılıq doğuran məsələlərə baxılması məqsədilə bir arayan gələn İttifaqın Şimali Amerika və qərbi Avropadan olan üzv dövlətlərindən parlament nümayəndələri üçün forum şəklində fəaliyyət göstərən parlamentlərarası təşkilatdır. Onun başlıca məqsədinin İttifaq parlamentariləri arasında transatlantik tərəfdaşlığın üzləşdiyi əsas təhlükəsizlik təhdidlərin qarşılıqlı anlaşılmasının möhkəmləndirilməsi olmasına baxmayaraq, onun müzakirələri həmçinin İttifaq daxilində qərar qəbul etmə prosesini dəstəkləyən üzv dövlətlər arasında konsensusun inkişafına töhfə verir.

NATO Parlament Assambleyasının xüsusi məqsədləri aşağıdakılardan ibarətdir:

- mühüm təhlükəsizlik məsələləri üzrə parlamentarilər arasında dialoqu gücləndirmək;
- əsas təhlükəsizlik məsələləri və İttifaqın siyasəti barəsində parlamentlərin məlumatlandırılması və bu məsələlərin onlar tərəfindən anlaşılmasına yardım etmək;
- NATO və ona üzv hökumətləri kollektiv parlament rəyi göstəricisi ilə təmin etmək;
- NATO siyasəti və eyni zamanda kollektiv cavabdehlikdə şəffaflığı təmin etmək;
- Transatlantik əlaqəni gücləndirmək.

1980-ci ildən bəri baş verən başlıca siyasi dəyişikliklərə uyğunlaşmaq məqsədilə Assambleya həm üzvlüyünü, həm də səlahiyyətini əhəmiyyətli şəkildə genişləndirmişdir. İttifaqın bir sıra Tərəfdaş dövlətləri Assambleyada müşahidəçi statusuna malikdir və bu da onların Assambleyanın işində və müzakirələrdə iştirak etməsinə şərait yaradır. Burada ümumilikdə Avropa təhlükəsizliyi, xüsusi hallarda isə mərkəzi və şərqi Avropanın iqtisadi, siyasi, ətraf mühit və mədəni problemlərinə diqqət yetirilir. Bu baxımdan Assambleya təhlükəsizlik məsələlərində əməkdaşlıq üçün geniş şəbəkə və NATO-ya üzv-dövlətlərdən kənar tərəflərin də geniş miqyaslı maraqlarına səbəb olan təhlükəsizlik, siyasi və iqtisadi məsələlər üzrə beynəlxalq parlament dialoqu üçün fəaliyyət sahəsi yaradır. 1989-cu ildən bəri Assambleya qarşısına aşağıdakı əlavə məqsədlər qoymuşdur:

- Qeyri-üzv dövlətlərdən olan parlamentariləri Assambleyanın işinə cəlb etməklə Avro-Atlantik məkanda parlament demokratiyasının inkişafına yardım etmək;
- Fəal surətdə İttifaqa üzv olmağa səy göstərən dövlətlərin parlamentlərinə birbaşa yardım etmək;
- Qafqaz və Aralıq dənizi regionu dövlətləri də daxil olmaqla, İttifaqa üzv olmağa deyil onunla əməkdaşlıq etməyə səy göstərən dövlətlərlə əməkdaşlığı inkişaf etdirmək;
- Silahlı qüvvələrə səmərəli demokratik nəzarətin təmin edilməsi üçün zəruri olan parlament mexanizmlərinin, təcrübə və nou-hauların inkişaf etdirilməsinə yardım etmək.

Bu məqsədləri yerinə yetirərkən Assambleya üzv-dövlətlərin qanunvericiləri və onların müvafiq milli parlamentlərini mərkəzi informasiya mənbəyi və əlaqələndirici şəxslərlə təmin edir. Assambleyanın fəaliyyəti həmçinin İttifaqın iş və siyasətinin daha şəffaf, habelə bunun parlamentlər və onların ictimaiyyətləri üçün açıq olmasına töhfə verir.

Assambleya NATO-dan tamamilə müstəqildir. Bununla belə o, milli parlamentlər və İttifaq arasındakı əlaqəni təmin edir ki, bu da öz növbəsində hökumətləri milli qanunvericiliyi təsbit etdiyi zaman İttifaqın maraqlarını nəzərə almağa çağırır. O, həmçinin NATO daxilində qəbul edilən hökumətlərarası qərarların demokratik şəkildə seçilmiş parlamentlərin konstitusiya prosesinə uyğun olaraq siyasi mövqelərdən tam asılı olduğunun daimi xatirəsi kimi fəaliyyət göstərir.

Assambleya 1997-ci ilin sonunda imzalanan Üzvlük Protokollarının ratifikasiyası prosesində yardım göstərilməsində birbaşa maraqlı olmuş, bu

da 1999-cu ilin mart ayında Polşa, Macarıstan və Çexiya Respublikasının İttifaqa üzvlüyü ilə nəticələnmişdir. 2004-cü ilin mart ayında Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya və Sloveniyanın İttifaqa üzv olması ilə nəticələnən ratifikasiya prosesində də Assambleya eyni rolda çıxış etmişdir.

Assambleyaya göndərilən nümayəndələr parlamentdə partiya təmsilçiliyi əsasında milli proseduralara əsasən öz parlamentləri tərəfindən irəli sürülür. Bu səbəbdən Assambleya geniş miqyaslı siyasi rəy ifadə edir və İttifaq məsələləri üzrə parlament və ictimai rəyin müəyyənləşdirilməsi üçün əhəmiyyətli sütun yaradır, bu xüsusda siyasətin formalaşdırılmasında birbaşa olmasa da, vacib rol oynayır.

Assambleya beş komitə (Siyasi; Müdafiə və Təhlükəsizlik; İqtisadiyyat və Təhlükəsizlik; Elm və Texnologiya; Təhlükəsizliyin Mülki Ölçüsü) və həmçinin Aralıq dənizi Xüsusi Qrupu vasitəsilə fəaliyyət göstərir. Bunlar il boyu müntəzəm olaraq görüşən tədqiqat qruplarını, həmçinin müzakirələr üçün əsas fəaliyyət sahəsini təşkil edir**.** İki ildən bir Assambleya plenar sessiyalarda toplaşır.

Assambleyanın Beynəlxalq Katibliyi Assambleya Komitələrinin əhəmiyyətli nəticələri üçün lazımi tədqiqat və təhlil işlərinin əksəriyyətini həyata keçirir, habelə görüşlər və Assambleyanın digər tədbirləri üçün inzibati dəstək göstərir. O, Assambleyanın Baş Katibi və təxminən 30 nəfərlik heyətdən ibarətdir. Katiblik NATO və digər beynəlxalq təşkilatlarla sıx işçi əlaqələri saxlayır, NATO Parlament Assambleyasının fəaliyyəti ilə bağlı brifinqlər verir və parlament qrupları, jurnalistlər və elm xadimlərinin səfərləri ilə məşğul olur. Son illərdə Katiblik həmçinin Assambleyanın müşahidəçi üzv-dövlətlərindən olan parlament heyəti üçün treninq proqramları təşkil etmiş və onlara ev sahibliyi etmişdir. Assambleya biri adətən yazda, may ayının sonlarında və digəri isə payızda, oktyabr və ya noyabr aylarında üzv və ya müşahidəçi üzv-dövlətdə keçirilən iki plenar sessiya da daxil olmaqla, bir qayda olaraq hər il təxminən qırx tədbir həyata keçirir.

Assambleya tarixində ilk dəfə olaraq NATO üzv-dövlətlərin Daimi Nümayəndələri 2004-cü il 12-16 noyabr tarixlərində Venetsiyada keçirilən NATO PA-nın 50 illik sessiyası ərəfəsində keçirilən NATO Baş Katibinin sədrlik etdiyi bütöv Assambleya ilə Şimali Atlantika Şurasının xüsusi birgə toplantısında iştirak etdi.

Mərkəzi və Şərqi Avropa parlamentləri ilə əlaqələrin inkişaf etdirilməsində Assambleyanın rolu (Rouz-Ros Təşəbbüsü vasitəsilə) 1997-ci ildə imzalanmış həm NATO-Rusiya Təsis Aktı və həm də NATO-Ukrayna Xartiyasında əks olunmuşdur. Bu sənədlər NATO PA və müvafiq olaraq

Rusiya Federasiyasının Federal Məclisi və Ukraynanın Ali Radası (parlament) arasında genişləndirilmiş dialoq və əməkdaşlığa çağırır.

Assambleyanın əməkdaşlıq proqramı Avro-Atlantik Tərəfdaşlıq Şurası və Sülh Naminə Tərəfdaşlıq Təşəbbüsündən ayrıdır, ancaq onların işini gücləndirir. Burada əsas diqqət Sülh Naminə Tərəfdaşlıq proqramının əsas məqsədinə nail olmağa, yəni silahlı qüvvələrə demokratik nəzarətin təmin edilməsinə yardım etməyə yetirilir. Assambleyanın fəaliyyətləri tərəfdaş dövlətlərin parlamentarilərinin milli müdafiə siyasətinin formalaşmasına təsir göstərməkdə və milli silahlı qüvvələrinə nəzarətin tam demokratik olmasını təmin etməkdə daha səmərəli olması məqsədilə onlara bu sahədə yardım etmək üçün lazımi bilik, təcrübə və məlumatlarla təmin etmək məqsədini daşıyır.

Assambleyanın əməkdaşlıq fəaliyyətinin böyük hissəsi bir sıra tədbirlərə maliyyə dəstəyi verən Silahlı Qüvvələrə Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi ilə birlikdə təşkil olunur.

Təhlükəsizliyin dəyişik xarakteri və NATO-nun transformasiyası parlamentlərin müdafiə və təhlükəsizlik sahəsində roluna yeni bir əhəmiyyət vermişdir. Parlamentin bu sahədə ənənəvi vəzifələrinə silahlı qüvvələr və müdafiə büdcəsinə nəzarət, ölkədən kənar qüvvələrin yerləşdirilməsinə və xərclərə icazə, konsensusun və şəffaflığın təmin edilməsi və ictimai dəstəyin yaradılması və qorunub saxlanılması daxildir. Bu gün bu vəzifələrin həyata keçiriləcəyi daha əlverişli mühit silahlı qüvvələrin yeni rol və missiyalara malik olmasını, müdafiə islahatları və yenidən qurulmanı, xüsusən də medianın təsir və rolunu nəzərə alaraq informasiya texnologiyasında inqilabı özündə əks etdirir. Parlamentin fəaliyyət sahəsi və əhəmiyyəti uyğun olaraq artmışdır.

NATO Parlament Assambleyası barəsindəki daha ətraflı məlumatı onun internet ünvanından (www.nato-pa.int) əldə etmək olar.

Atlantika Müqaviləsi Assosiasiyası

1954 cü ilin iyun ayının 18 də yaradılmış Atlantika Müqaviləsi Assosiasiyası (ATA) NATO-nun fəaliyyətini dəstəkləmək və Şimali Atlantika Müqaviləsinin məqsədlərini təşviq etmək üçün İttifaqın üzv-dövlətlərində fəaliyyət göstərən milli könüllü və qeyri-hökumət təşkilatlarını üzvləri kimi özündə birləşdirir. 1990-cı ildən sonra ATA tədricən NATO-ya tərəfdaş olan ölkələrdə yaradılmış milli könüllü və qeyri-hökumət təşkilatlarını müşahidəçi üzvlər kimi qəbul etmişdir. Hal-hazırda müşahidəçi üzvlər qismində 18

assosiasiya fəaliyyət göstərir. ATA-nın nizamnaməsinə görə müşahidəçi üzvlər onların ölkələri NATO-ya üzv olduqda və onların yeni mövqeləri ATA Assambleyası tərəfindən tanındıqda ATA Şurasının təklifi ilə Assossasiyanın tam hüquqlu üzvləri ola bilərlər. 1999-cu ildən sonra nizamnaməyə edilmiş dəyişikliklərə əsasən, ATA Şurasının təklif ilə Assambleya NATO-nun Aralıq Dənizi Dialoqunda iştirak edən ölkələrdə yaradılmış qeyri-hökumət təşkilatlarına və ya hətta, Sülh Naminə Tərəfdaşlıq Sazişini imzalamayan, lakin, birbaşa ya da coğrafi baxımdan Avro-Atlantik təhlükəsizlik problemləri ilə maraqlanan qeyri-hökumət təşkilatlarına da iştirakçı üzvlük statusu verə bilər. ATA və onunla əlaqəli milli təşkilatların əsas məqsədləri aşağı-dakılardır:

- Şimali Atlantika Müqaviləsi Təşkilatının missiyası və öhdəlikləri barədə ictimaiyyəti məlumatlandırmaq;
- NATO-nun müxtəlif məqsəd və fəaliyyətləri, onların Şərqi və Mərkəzi Avropa ölkələrində yayılması və Aralıq Dənizi Dialoqunun həyata keçirilməsi üzrə tədqiqatların aparılması;
- Şimali Atlantika məkanının və NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramında iştirak edən ölkələrin əhalisinin həmrəyliyini təşviq etmək;
- Demokratiyanı təşviq etmək;
- Yuxarıda qeyd olunan məqsədləri təşviq etmək məqsədilə onun bütün üzv təşkilatları arasındakı əməkdaşlığı gücləndirmək.

Atlantik Təhsil Komitəsi və Gənc Siyasi Liderlərin Atlantik Assosiasiyası öz sahələrində fəaldırlar. Gənclərin Atlantik Müqaviləsi Assosiasiyası ATA çərçivəsində 1996-cı ildə yaradılmışdır.

Atlantik Müqaviləsi Assosiasiyası ilə bağlı olan müşahidəçi və iştirakçı assosiasiyaların, digər milli üzvlərin adları və ünvanları, həmçinin, ATA-nın fəaliyyəti ilə bağlı əlavə məlumatı ATA-nın Katibliyinin aşağıdakı ünvanından əldə etmək olar.

Əlavə məlumat:
Club Prince Albert
Rue des Petits Carmes, 20
1000 Brüssel
Belçika
Tel: +32 2 502 31 60
Fax: +32 2 502 48 77
Email: info@ata-sec.org
Internet ünvanı: www.ata-sec.org

X HİSSƏ

PROQRAMLAR, FƏALİYYƏTLƏR, TƏŞKİLATLAR VƏ AGENTLİKLƏR

33-cü Fəsil: Hava müdafiəsi
34-cü Fəsil: Havadan İlkin Xəbərdarlıq
35-ci Fəsil: Hava məkanı və hava nəqliyyatının idarə olunması
36-cı Fəsil: Silahlanma sahəsində əməkdaşlıq və planlaşdırma
37-ci Fəsil: Silahlara nəzarət və tərksilah
38-ci Fəsil: Mülki fövqəladə planlaşdırma
39-cu Fəsil: Kommunikasiya və məlumat sistemləri
40-cı Fəsil: Təhsil və təlim
41-ci Fəsil: Elektron müharibə
42-ci Fəsil: Maddi-texniki təminat
43-cü Fəsil: Meteorologiya
44-cü Fəsil: Hərbi okeanoqrafiya
45-ci Fəsil: İctimai Diplomatiya kommunikasiya və məlumat proqramları
46-cı Fəsil: İctimai Diplomatiya elmi və ətraf-mühit proqramları
47-ci Fəsil: Tədqiqat və texnologiya
48-ci Fəsil: Standartlaşdırma

33-cü Fəsil

HAVA MÜDAFİƏSİ

NATO-nun hava müdafiəsi mümkün hava təhlükələrinə qarşı cavab vermək və düşmənin hava tədbirlərinin qarşısını almaq məqsədilə təşkil olunmuş bütün tədbir və vasitələri əhatə edir. Bu fəaliyyət NATO-nun hava məkanının təhlükəsizliyinin qorunub saxlanılmasına töhfə verən və tam miqyaslı əməliyyatlar üçün fəaliyyət azadlığını təmin edən, həm sülh dövründə, həm də böhran və münaqişə zamanı həyata keçirilən davamlı missiyadır. Bu fəaliyyət hava obyektlərini aşkarlamaq, izləmək və müəyyən etmək, habelə onları dəniz və yerüstü silah sistemləri və zəruri hallarda saxlayıcı hava gəmiləri kimi münasib vasitələrlə saxlamaq üçün nəzərdə tutulan əlaqəli sistemlər şəbəkəsini əhatə edir. Hava müdafiəsi üzrə Komanda və İdarəetmə strukturu Norveçdən Türkiyəyə qədər olan ərazini əhatə edən NATO Hava Müdafiəsi üzrə Səth Mühiti, Birləşmiş Krallığın Təkmilləşdirilmiş Hava Müdafiəsi üzrə Səth Mühiti, Portuqaliyanın Hava Komanda və İdarəetmə Sistemi və NATO-ya yeni qoşulan ölkələrdəki sistemlərdən ibarətdir. Bu sistemlər radarlar, məlumatları ötürən və nümayiş etdirən sistemlər ilə təchiz edilmiş əraziləri birləşdirir və NATO-nun Birləşmiş Hava Müdafiə Sistemində müasir rəqəmsal kommunikasiyalar, həmçinin, silah sistemləri və komanda və idarəetmə strukturları ilə əlaqələndirilib. Mövcud hava müdafiə strukturunun böyük bir hissəsi ümumən NATO-nun Sərmayələrin Təhlükəsizliyi Proqramı çərçivəsində maliyyələşir; hal-hazırda təsis edilməkdə olan Hava Komanda və İdarəetmə Sisteminin (ACCS) əhəmiyyətli hissəsi də eyni qaydada maliyyələşir. HKİS bütün İttifaq üzrə birləşmiş hava komanda və idarəetmə sistemini təmin etmək məqsədilə bütün əməliyyatların taktiki planlaşdırılması, üzərinə vəzifələr qoyulması və başa çatdırılmasını birləşdirmək və avtomatlaşdırmaq üçün nəzərdə tutulub. Bu fəaliyyət NATO-nun ACCS İdarəetmə Təşkilatının (NACMO) nəzarəti ilə həyata keçirilir. 2003-cü ilin sonunda bu proqram kompüter tərtibatı mərhələsinə başlamışdır. Kompüter tərtibatının elementlərinin sınaqdan keçirilməsi 2005-ci ildə başlandı. Bu zaman planlaşdırılan sistemin 2006-2008-ci illər üzrə nəzərdə tutulan sınaqdan keçirilməsi baş verdi. Sistemin bəzi imkanlarının daha erkən təmin edilə biləcəyinə baxmayaraq, onun əməliyyat üçün daha sonra hazır olacağı nəzərdə tutulur.

Həmin birləşmiş sistem ballistik və qanadlı raketlər də daxil olmaqla iri miqyaslı təhlükələrə qarşı mübarizə aparmaq imkanları ilə təmin edəcək. Buraya göndərilən qoşunların müdafiəsi üçün Fəal Laylı Platforma Ballistik Raketlərdən Müdafiə (ALTBMD) sisteminin yaradılması, habelə, NATO-nun

ərazisi, əhalisi və qüvvələrini mühafizə etmək üçün daha geniş mənada raketdən müdafiə daxildir. Bu istiqamətdə müvafiq tədqiqatlar və məsləhətləşmələr keçirilmiş və İstanbul Sammitində nazirlər tərəfindən qəbul edilmiş təlimata uyğun olaraq icra proqramı nəzərdən keçirilməkdədir.

NATO-nun hava müdafiə sisteminə həmçinin, növbəti bölmədə işıqlandırılmış 17 Havadan Xəbərdarlıq və Nəzarət Sistemi (AWACS) hava gəmilərindən ibarət donanma daxildir.

2004-cü ilin mart ayından, daha yeddi yeni dövlətin İttifaqa üzv olduğundan bəri bu ölkələrin hava müdafiəsi imkanlarından istifadə etmədən onların hava məkanı üzrə siyasətin müəyyən edilməsi üç aylıq rotasiya əsasında bir neçə digər NATO üzv-dövləti tərəfindən həyata keçirilir.

Aidiyyəti siyasi komitələr, təşkilat və agentliklər

NATO Hava Hücumundan Müdafiə Komitəsi (NADC)

Komitə platformalı raketdən müdafiə və hava qüvvəsinin müvafiq aspektləri də daxil olmaqla hava müdafiəsinin bütün istiqamətləri üzrə Şimali Atlantika Şurası və Müdafiənin Planlaşdırılması Komitəsinə məsləhətlər vermək üzrə məsuldur. Bundan başqa, NADC üzv-dövlətlərə hava komanda və idarəetmə, habelə hava müdafiəsi silahları sahəsində öz səylərini beynəlxalq planlaşdırma fəaliyyətinə uyğunlaşdırmağa imkan verən Hava Müdafiəsi Proqramını inkişaf etdirir. Kanada və ABŞ-ın hava müdafiəsi Şimali Amerika Hava Hücumundan Müdafiə Komandanlığı (NORAD) çərçivəsində həyata keçirilir. 1994-cü ildə ümumi mənafelərə uyğun hava müdafiəsi məsələlərində qarşılıqlı anlaşmanı, şəffaflığı və etimadı gücləndirmək məqsədilə NADC NATO-nun tərəfdaş dövlətləri ilə dialoqa başladı. Sülh Naminə Tərəfdaşlıq təşəbbüsü çərçivəsində baş verən müsbət dəyişikliklər bu sahədə əməkdaşlığı gücləndirdi və bu əlaqələr hazırda hava müdafiəsi ekspertlərinin fakt-araşdırıcı görüşlərini, hava müdafiəsi seminarlarını, hava müdafiəsi qurğularına və tikililərinə səfərləri, birgə analitik araşdırmalarını və havada vəziyyətə dair məlumat mübadiləsi üzrə proqramı əhatə edir.

Hava Hücumundan Müdafiə üzrə İşçi Qrupu

Hava Hücumundan Müdafiə üzrə İşçi Qrupu Hərbi Komitənin dəstəyi ilə fəaliyyət göstərən çoxmillətli bir qurumdur. Bu qurumun vəzifəsi NATO-nun Birləşmiş Hava Müdafiə Sisteminə təsir göstərən hava müdafiəsi məsələləri üzrə təhlillər aparmaq, təkliflər və məsləhətlər verməkdən ibarətdir.

NATO Hava Komanda və İdarəetmə Sistemi (ACCS) İdarəetmə Təşkilatı (NACMA)

NATO Hava Komanda və İdarəetmə Sistemi (ACCS) İdarəetmə Təşkilatı NATO-nun hava əməliyyatlarını dəstəkləyən komanda və idarəetmə sisteminin planlaşdırılması və həyata keçirilməsi üçün strukturu təşkil edir. Müəyyən müddətdən sonra o, NATO Hava Müdafiəsi üzrə Səth Mühiti Sistemini (NADGE) əvəz edəcək (Hava Müdafiəsi üzrə bölməyə baxın). Onun qərargahı Belçikanın paytaxtı Brüsseldə yerləşir.

Əlavə məlumat:

NATO Hava Komanda və İdarəetmə Sistemi (ACCS)
İdarəetmə Təşkilatı (NACMA)
Du Bourget prospekti 140
1110 Brüssel
Belçika
Tel: +32 2 707 8313
Faks: +32 2 707 8777

34-cü Fəsil

HAVADAN ERKƏN XƏBƏRDARLIQ

E-3A NATO Havadan Erkən Xəbərdarlıq və Nəzarət (NAEW&C) aviasiya donanması İttifaqın erkən xəbərdarlıq imkanının mərkəzi elementini təşkil edir. Təyyarələr kiçik yüksəkliklərdə və böyük sahələr üzrə havadan nəzarət, müşahidə və xəbərdarlıq imkanını təmin edirlər. Onlar məlumatların təyyarədən birbaşa yerüstü, dəniz və hava əsaslı komanda və idarəetmə mərkəzlərinə ötürülməsini təmin edirlər. Bu sistem həmçinin, bütün yüksəkliklərdə xəbərdarlıq və aşkar etmə imkanını təmin edir ki, o da öz növbəsində müşahidə əməliyyatları üçün əhəmiyyətli hesab olunan İttifaqın dəniz səthinin təsvirini gücləndirir. Bu təyyarələr NATO-ya məxsusdur və İttifaq tərəfindən istismar olunur və Birləşmiş Krallığa məxsus E-3D aviasiyası ilə birlikdə NATO-nun Havadan Erkən Xəbərdarlıq Qüvvələrini təşkil edir. Fransa və ABŞ Hava Qüvvələri də həmçinin NATO hava qüvvələri ilə birlikdə fəaliyyət göstərə bilən E-3 tipli təyyarələrə malikdir. İlkin Havadan Erkən Xəbərdarlıq proqramı o zamankı 12 proqram ölkələri (İspaniya NAEW&C proqramına 1998-ci ildə qoşulmuşdur) tərəfindən NATO-ya məxsus, onun tərəfindən istismar olunan və saxlanılan həmin aviasiya donanmasının əldə edilməsi, həmçinin, NATO-nun mövcud 40 NATO Hava Müdafiəsi üzrə Səth Mühiti (NADGE) məkanlarını havadan erkən xəbərdarlıq sistemi ilə birgə fəaliyyət göstərmək imkanı ilə təmin etmək üçün bu məkanlarda dəyişiklik və yenidənqurma işlərinin həyata keçirilməsi ilə baş tutdu. Göstərilən məkanlar Şimalı Norveçdən şərqi Türkiyəyə qədər uzanan 9 fərqli ölkə ərazisini əhatə edir. Proqramın ən böyük hissəsini Almaniyanın Gaylenkirxen şəhərindən idarə olunan NATO-ya məxsus 17 E-3A təyyarələri təşkil edir. Britaniyanın sahib olduğu E-3D komponenti Birləşmiş Krallıqda RAF Uaddinqton da yerləşir. NATO-nun E-3A təyyarəsi Birləşmiş Ştatların Hava Qüvvələrinin 1977-ci ildən bəri xidmət göstərən Hava Hücumundan Xəbərdarlıq və Nəzarət Sistemi aviasiyası əsasında qurulmuşdur. E-3A təyyarələri müttəfiq və düşmən radarları yerləşən korpusun yuxarı hissəsində qurulmuş 30 futluq diametrə malik fırlanan müqavimət sipəri ilə ayrılmış dəyişdirilmiş Boeing 707-320B tipli aviasiya konstruksiyasıdır. Zaman keçirdikcə daha 3 ədəd 707 Təlimçi Yük Təyyarələri əldə edilmişdir. Həm yaxın, həm də orta müddətli modernizasiya proqramları həyata keçirilmişdir. Orta müddətli proqram NATO-nun 1998-dən 2008/9 illərə qədər havadan erkən xəbərdarlıq tələbatlarını ödəyir. 1990-cı ilin avqust ayından 1991-ci ilin mart ayına qədər İraqın Küveytə müdaxiləsinə cavab olaraq NATO-nun E-3A tipli təyyarələri Türkiyə-İraq sərhədi boyunca davamlı olaraq

havadan nəzarəti təmin etmək, Aralıq dənizinin şərqində hava və dəniz nəqliyyatına nəzarət etmək məqsədilə NATO-nun cənub cinahını gücləndirmək üçün Şərqi Türkiyədə yerləşdirildi. 1992-ci ilin iyul ayından sonra həm E-3A və Birləşmiş Krallığın E-3D tipli komponentlərindən ibarət NHEX Qüvvələri ekstensiv olaraq keçmiş Yuqoslaviya ərazisində yerləşdirilmişdir. Bu tədbir NATO-nun Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə nəzarət və onların icrası üzrə fəaliyyətini dəstəklədi və sonralar Yerinə Yetirmə Qüvvələri (IFOR), Sabitləşdirmə Qüvvələri (SFOR) və Kosovo Qüvvələri (KFOR) əməliyyatlarına dəstək vermişdir. Fransanın E-3AF təyyarələrindən ibarət aviasiya donanması da bu əməliyyatlarda iştirak etmişdir. 2001-ci ilin oktyabr ayının ortalarından 2002-ci ilin may ayına qədər NATO AWACS təyyarələri Nyu-York və Vaşinqtona qarşı 11 sentyabr hücumları ilə əlaqədar Birləşmiş Ştatları qorumağa kömək etmək üçün ABŞ-a göndərilmişdir. 2003-cü ilin fevral ayından aprel ayına kimi bu nəzarət təyyarələri İraqda baş vermiş müharibə nəticəsində Türkiyənin ərazisi və əhalisinə qarşı yaranmış təhlükə ilə əlaqədar olaraq Türkiyəni mühafizə etmək məqsədilə yenidən yerləşdirildi. Bu donanma vaxtaşırı olaraq 2004-cü ildə baş tutmuş Afina Olimpiyada oyunları kimi yüksək səviyyəli tədbirlər zamanı nəzarəti təmin etmək üçün də yerləşdirilmişdir.

Aidiyyəti siyasi komitə, təşkilat və agentliklər

NATO-nun Havadan Erkən Xəbərdarlıq və Nəzarət Proqramının İdarəetmə Təşkilatı (NAPMO)

NATO-nun Havadan Erkən Xəbərdarlıq və Nəzarət Proqramının İdarəetmə Təşkilatı (NAPMO) NAEW&C Proqramının idarə edilməsi və icrasının bütün aspektləri üzrə məsuliyyət daşıyır və birbaşa olaraq Şimali Atlantika Şurasına məruzə edir. Bu təşkilat Niderland Krallığının Brunsum şəhərində yerləşən Proqramın İdarəetmə Agentliyi (NAPMO), həmçinin, Hüquqi, Müqavilələr və Maliyyə Komitəsi, Əməliyyatlar, Texniki və Dəstək Komitəsi və Anbar Səviyyəsində Təminat üzrə Rəhbər Qrup tərəfindən dəstəklənən İdarə Heyətindən ibarətdir. İştirak edən 13 ölkənin hər biri idarə heyəti və onun komitələrində təmsil olunurlar. NATO Baş Katibinin, NATO Strateji Komandanlarının, NATO-nun Havadan Erkən Xəbərdarlıq və Nəzarət (AEW&C) Qüvvələri Komandanının və digər qurumların nümayəndələri də bu komitələrin görüşlərində və İdarə Heyətinin adətən ildə iki dəfə keçirilən görüşlərində iştirak edirlər. Proqramın idarə olunması NAPMA Baş menecerinin öhdəliyinə düşür. NAEW&C Müttəfiq Dövlətlərin

Avropa Baş qərargahı ilə birlikdə Belçikanın Mons şəhərində yerləşir. Həm SHAPE, həm də Qüvvələr Komandanlığı iştirakçı dövlətlərdən olan heyətdən təşkil olunur. Əsas İdarəetmə Bazası Almaniyanın Qaylenkirxen şəhərində yerləşir və o da həmçinin NAPMO-da iştirak edən dövlətlərin heyətindən təşkil olunur. İtaliya, Yunanıstan və Türkiyədə yerləşən bütün bazalar və Norveçdə yerləşən İrəli Fəaliyyət Məkanı NATO E-3 aviasiya əməliyyatlarına dəstək göstərmək üçün ekstensiv dəyişikliklərə məruz qalmışdır. NAPMO-nun hazırkı üzv ölkələri Almaniya, Belçika, Birləşmiş Ştatlar, Danimarka, İspaniya, İtaliya, Kanada, Lüksemburq, Niderland, Norveç, Portuqaliya, Türkiyə və Yunanıstandır. Birləşmiş Krallıq NATO-nun AEW Qüvvələri üçün yeddi ədəd E-3D təyyarəsi verir. Fransa dörd milli E-3F təyyarəsini komplektləşdirməklə NAPMO görüşlərində müşahidəçi qismində iştirak edir.

Əlavə məlumat:

NATO-nun Havadan Erkən Xəbərdarlıq və Nəzarət Proqramı
İdarəetmə Agentliyi (NAPMO)
Akerştrat 7
6445 CL Brunsum
Niderland
Tel: +31 45 526 2759
Faks: +31 45 525 4373

35-ci Fəsil

HAVA MƏKANI VƏ HAVA NƏQLİYYATININ İDARƏ OLUNMASI

Mülki hava nəqliyyatının daim inkişafda olması və yeni hərbi əməliyyat ideyalarının və silah sistemlərinin təqdim olunması həm mülki, həm də hərbi istifadəçilər üçün hava məkanına güclü tələbat yaradır. Bu baxımdan, bərabər əsasda bütün istifadəçilərin ehtiyaclarının nəzərə alınmasını üçün mülki və hərbi qurumlar arasında beynəlxalq səviyyədə səmərəli əlaqələndirilmənin təmin edilməsi zəruridir. Xüsusən də NATO-nun mülki-hərbi hava nəqliyyatının idarə edilməsinin əlaqələndirilməsində rolu hava məkanına dair tələbatları təmin etməkdən ibarətdir ki, bu da öz növbəsində İttifaqa öz təhlükəsizlik vəzifələri və missiyalarını həyata keçirməyə imkan yaradır. Bununla belə, mülki aviasiyadakı parçalanmaların aradan qaldırılması hava nəqliyyatına nəzarət sistemləri və hava limanı strukturlarının kasad imkanları ilə məhdudlaşdırılır. 2001-ci ildə Birləşmiş Ştatlarda baş vermiş terrorçu hücumları əsas diqqəti öldürücü silaha çevrilən mülki hava gəmisi tərəfindən törədilən yeni təhlükəyə yönəltmişdir. Bu cür yeni təcavüz formaları haqqında məlumatlandırılmanın çoxalması terrorizm əleyhinə beynəlxalq mübarizəni və eyni zamanda, öz hava təhlükəsizliyini gücləndirmək üçün İttifaqın səylərini gücləndirmişdir. NATO-nun yeni qlobal məqsədi onun əməliyyatlar aparılan sahələrində səmərəli hava limanlarının mövcudluğunu zəruri etmişdir. Hava nəqliyyatının idarə edilməsi üzrə yerləşdirilə bilən əmlakın və hava limanlarının bərpası üçün beynəlxalq səylərin əlaqələndirilməsi üzrə mexanizmlərin mövcudluğu İttifaqın davamlı səmərəliliyinin təmin edilməsi üçün əhəmiyyətlidir. NATO hava əmlakının hava nəqliyyatının idarə edilməsi infrastrukturunun müxtəlif elementlərinə uyğunluğunun tələb olunan səviyyəsinin saxlamaq iqtidarında olması da əhəmiyyətlidir. Nəticə etibarı ilə, xüsusən də hava nəqliyyatının idarə edilməsi sistemi və prosedurlarının pan-Avropa və Avro-Atlantik harmoniyasına nail olmaq üzrə cari səylər nəzərə alınaraq, NATO hava məkanı və hava nəqliyyatının idarə edilməsi il əlaqəli bir neçə beynəlxalq forumda təmsil olunur. Böhrandan sonra mülki aviasiyanın normal vəziyyətə gətirilməsi bütün müvafiq aktorların bu işə tam cəlb olunmasını tələb edir. Müvafiq yerli qurumlar və beynəlxalq mülki aviasiya təşkilatları ilə əlaqəli şəkildə NATO-nun hava məkanına tam nəzarətin təhvil verilməsinə keçid mərhələlərinin müəyyənləşdirilməsi üzrə fəaliyyəti onun əməliyyatlarının uğurlu olması üçün əsas amildir. Hava məkanından istifadə və hava nəqliyyatının idarə edilməsinin əlaqələndirilməsi NATO ilə Tərəfdaş ölkələr arasında əməkdaşlığın yarandığı ilkin sahələr sırasındadır. İttifaq onunla birgə fəaliyyət göstərmək qabiliyyətinə malik və beynəlxalq

standartlara uyğun mülki-hərbi hava nəqliyyatının idarə edilməsi sistemlərinin və hava təhlükəsizliyi strukturlarının yaradılmasında Tərəfdaş, Aralıq Dənizi Dialoqu və digər dövlətlərə fəal şəkildə yardım göstərir. Hava məkanı üzrə əməkdaşlıq təşəbbüsləri həmçinin, NATO-Rusiya Şurası və NATO-Ukrayna Fərqli Tərəfdaşlıq çərçivəsində həyata keçirilir.

Aidiyyəti siyasi komitə, təşkilat və agentliklər

NATO Hava Nəqliyyatının İdarəedilməsi Komitəsi (NATMC)

NATMC Şimali Atlantika Şurasının hava məkanından istifadə və hava nəqliyyatının idarə edilməsi üzrə ali mülki-hərbi məsləhətçi orqanıdır. Komitənin missiyası NATO-nun məsuliyyəti və maraqları çərçivəsindəki hava məkanında aparılan hava əməliyyatlarının təhlükəsizliyi və səmərəliliyi ilə bağlı mövqeyini müəyyənləşdirmək, təmsil etmək və təkmilləşdirməkdir. NATMC aviasiya təhlükəsizliyinin təkmilləşdirilməsi ilə məşğul olmaqla, NATO-nun hava məkanı üzrə tələbatlarının İttifaqın səmərəliliyini qorunmaq məqsədi ilə tam uyğunluq təşkil etməsi üzrə məsuldur. Buraya hava əməliyyatlarının və əsas təlimlərin həyata keçirilməsi və sistem və prosedurların uyğunlaşdırılması daxildir. Komitə rabitə, naviqasiya və nəzarətin NATO-nun əməliyyat imkanlarına təsirini müəyyənləşdirmək üçün onlarda baş verən inkişaf prosesini daima müşahidə edir. Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası, Avropa Komissiyası, Hava Nəqliyyatının Təhlükəsizliyi üzrə Avropa Təşkilatı və digər mülki aviasiya təşkilatlarının nümayəndələri bu Komitəyə yardım edir. Buna görə də NATMC NATO-nun hərbi təyyarələrin geniş həcmli hərəkətinin əlaqələndirilməsi üzrə məsul olan hərbi qurumları və milli və beynəlxalq mülki aviasiya orqanları və təşkilatları arasında unikal qarşılıqlı fəaliyyətin yaradılmasına nail olmuşdur.

36-cı Fəsil

SİLAHLANMA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ VƏ PLANLAŞDIRMA

NATO çərçivəsində silahlar üzrə əməkdaşlıq Müttəfiq və müvafiq hallarda, Tərəfdaş dövlətlər arasında qarşılıqlı fəaliyyəti gücləndirmək və təşviq etməklə və texnoloji və sənaye sahələrində əməkdaşlığı artırmaqla, hərbi imkanların səmərəli şəkildə əldə edilməsi və inkişafı yolu ilə İttifaqın strateji istiqamətlərini dəstəkləmək məqsədini daşıyır. Silahlar üzrə əməkdaşlığın məqsədi maliyyə və biliklərin toplanması, risklərin bölüşdürülməsi, iri həcmli iqtisadi sabitliyin təmin edilməsidir. Burada diqqət İttifaqın imkanlarındakı ən ciddi çatışmazlıqların aradan qaldırılmasına, məsələn, NATO Cavab Qüvvələrinin təchizat tələbatlarının qarşılanması və ya terrorizmə qarşı mübarizə imkanlarının yaradılması və milli əməliyyat ehtiyaclarının təmin edilməsinə yönəldilmişdir.

NATO-nun silahlanma birliyi təchizat, texnologiya və sənaye birlikləri arasında sinerji yaratmağa çalışır. Komitələr şəbəkəsi vasitəsilə yeni hərbi tələbatlar və texnologiyalar üzrə məlumat mübadiləsi aparılır. Milli tələbatların uyğunlaşdırılması və birgə əməkdaşlıq proqramlarının icrası imkanları araşdırılır.

NATO-nun müdafiənin planlaşdırılmasının əsas elementi kimi silahlanmanın planlaşdırılması hərbi qüvvələr üzrə məqsədləri silahlanma istiqamətlərinə uyğunlaşdırır. Əksər hərbi avadanlıqların uzun müddətli istismarını nəzərə alaraq, NATO qüvvələrin planlaşdırılması sisteminin uzunmüddətli elementlərinə xüsusi diqqət verilir. Silahlanman fəaliyyətinin planlaşdırılması müxtəlif yollarla həyata keçirilir: NATO-nun məqsədlərinin əməli, iqtisadi və texnoloji aspektlərini əks etdirmək məqsədilə Silahlanma üzrə Milli Direktorlar Konfransı (CNAD) və ona tabe olan əsas qruplar üçün illik idarəetmə planları təsbit edilir. Digər planlaşdırma vasitəsi Müttəfiq Transformasiya Komandanlığı (ACT) tərəfindən müəyyənləşdirilən bir sıra Uzunmüddətli İmkanlar Tələbatlarından (LTCRs) ibarətdir. LTCRs İttifaqın müxtəlif hərbi funksiyalarındakı imkanlar üzrə ən mühüm çatışmazlıqları əks etdirir. Onlar diqqətin silahlanma birliyinin işinə yönəldilməsinə istiqamət verir.

Aidiyyəti siyasət komitələr, təşkilatlar və agentliklər

Silahlanma üzrə Milli Direktorlar Konfransı (CNAD)

NATO daxilində birgə əməkdaşlıq şəraitində tədqiqatlar, hərbi texnikanın təkmilləşdirilməsi və istehsal imkanlarının müəyyənləşdirilməsi üzrə aparılan əsas işlər Silahlanma üzrə Milli Direktorlar Konfransının (CNAD) himayəsi altında həyata keçirilir. CNAD silahlanma məsələləri üzrə Şimali Atlantika Şurasının baş məsləhətçi komitəsidir. Bu komitə üzv ölkələr və Sülh Naminə Tərəfdaşlıq dövlətlərinin nümayəndələrindən ibarət olan tərkib strukturları üçün prioritet istiqamətləri müəyyən edir və onlara istiqamətlər verir. Bu komitə hər iki ildən bir Milli Silahlanma Direktorları səviyyəsində və Brüsseldəki daimi nümayəndəliklər səviyyəsində isə daha tez-tez görüş keçirir. Silahlı qüvvələrin və müdafiə nazirliklərinin ekspert qruplarının görüşləri zamanı hərbi imkanların təkmilləşdirilməsi, uyğunlaşdırılması imkanları, standartların və qarşılıqlı uyarlılığın yaradılması və yeni yaranan texnologiyalar barəsində informasiya mübadiləsi aparılır. CNAD qrupları ilə Tədqiqat və Texnologiya Təşkilatı, Məsləhət, Komanda və İdarə etmə Təşkilatı, Müttəfiq Transformasiya Komandanlığı (ACT), NATO-nun hərbi qurumları tərəfindən təmsil olunan sənaye və son-istifadəçilər arasında əməkdaşlıq aparılır. CNAD-ın strukturu üzv ölkələrə onların iştirak etmək niyyətində olduqları tədqiqat, texnologiya və təchizat layihələrini seçməyə imkan verir. Bu eyni zamanda, milli proqramlar üzrə məlumat mübadiləsinə şərait yaradır. Bu sahədə əməkdaşlıq fərdi dövlətlərə və bütünlükdə NATO üçün əhəmiyyətli ola bilər. Bu fəaliyyətlərin idarə edilməsi işin əsas məqsədləri və prioritet istiqamətlərini müəyyənləşdirən illik CNAD idarəetmə planlarının hazırlanması ilə həyata keçirilir.

CNAD-ın təşkilati quruluşu

CNAD-ın strukturu aşağıdakılardan ibarətdir:

- Üç **Əsas Silahlanma Qrupları:** NATO Hərbi Dəniz Qüvvələrinin Silahlandırma üzrə Qrupu (NNAG), NATO Hava Qüvvələrinin Silahlandırma üzrə Qrupu (NAFAG), NATO-nun quru Qoşunlarının Silahlandırma üzrə Qrupu (NAAG) və müxtəlif struktur və işçi qrupları;
- Silahlar üzrə Milli Direktorlar Konfransını müdafiə sənayesi üzrə ekspertlərlə təmin edən (CNAD) **NATO Sənaye Məşvərət Qrupu (NIAG**).

- Məcəllələşdirmə üzrə Milli Direktorlar Qrupu, Həyat Dövrü-nün İdarəedilməsi Qrupu, Sursatların Təhlükəsizliyi üzrə Qrup və müxtəlif altqruplar;
- İttifaqın Yerdən Hava Nəzarəti üzrə Rəhbər Komitəsi (AGS SC);
- Fəal Çoxsəviyyəli Ballistik Raketlərdən Müdafiə üzrə Rəhbər Komitə (ALTBMD SC).

NATO Tədqiqat və Texnologiya Heyəti (RTB)

NATO-nun Müdafiə sənayesi və texnoloji təkmilləşdirmə üzrə məsul qurumu olan Tədqiqat və Texnologiya Heyəti Silahlar üzrə Milli Direktorlar Konfransı, eləcə də Hərbi Komitəyə tövsiyyələr verir və yardım göstərir. Bu idarə həmçinin, müxtəlif NATO orqanlarında aparılan tədqiqat və texnologiya işini əlaqələndirir və bu işdə NATO-nun ixtisaslaşmış Tədqiqat və Texnologiya Agentliyi ona dəstək verir.

Əlavə məlumat üçün:

Tədqiqat və Texnologiya Agentliyi (RTB)
BP 25
F-92201 Neuilly-sur-Seine
Fransa
Tel: +33 1 55 61 22 00
Fax: +33 1 55 61 22 98/99
Email: mailbox@rta.nato.int
Website: www.rta.nato.int

Həyata keçirilməkdə olan başlıca qarşılıqlı əməkdaşlıq layihələri planlaşdırılma üzv dövlətlər adından ixtisaslaşdırılmış NATO qurumları tərəfindən icra edilir.

NATO-nun Orta məsafəli Hava Hücumundan Müdafiə Sisteminin Dizayn edilməsi və Qurulması, İstehsalı və Maddi-Texniki Təchizatın idarə edilməsi Agentliyi (NAMEADSMA)

NAMEADSMA Orta məsafəli Hava Hücumundan Müdafiə Sisteminin (MEADS) təkmilləşdirilməsi prosesinə nəzarət edir.

Əlavə məlumat üçün:

NAMEADSMA
Bina 1
620 Discovery Drive, Suite 300
Huntsville
AL 35806
USA
Tel: +1 205 922 3972
Fax: +1 205 922 3900

NATO Eurofighter 2000 və Tornado Təyyarələrinin Təkmilləşdirilməsi, İstehsalı və Maddi-Texniki Təchizatın idarə edilməsi Agentliyi (NETMA)

NATO Çoxfunksiyalı döyüş təyyarələrinin təkmilləşdirilməsi və istehsalının İdarə edilməsi Agentliyi (**NAMMA**) NATO-nun Avropa Qırıcı Təyyarələrinin Təkmilləşdirilməsi, İstehsalı və Maddi-Texniki Təminatının İdarə edilməsi Agentliyi ilə birləşdirilərək NETMA yaradılmışdır.

Bu qurum NATO-nun Avropa Qırıcı Təyyarələrinin (Eurofighter) müştərək şəkildə təkmilləşdirilməsi və istehsalı və NATO-nun çoxfunksiyalı döyüş təyyarəsinin (Tornado) istismarı işi ilə məşğuldur.

Əlavə məlumat üçün:

NETMA
PO Box 1302
82003 Unterhaching
Germany

NATO-nun Vertolyotların dizayn edilməsi və təkmilləşdirilməsi, istehsalı və Maddi-Texniki Təchizatının idarə edilməsi Agentliyi (NAHEMA)

NAHEMA NATO NH90 vertolyotlarının idarə olunması proqramının icrasına nəzarət edir.

Əlavə məlumat üçün:

NAHGMA
Le Quatuor, Bâtiment A
42 Route de Galice
13082 Aix-en-Provence Cedex 2
France
Tel: +33 42 95 92 00
Fax: +33 42 64 30 50

NATO HAWK İdarəetmə Ofisi (NHMO)

NHMO HAWK yer-hava tipli raketlərinin təkmilləşdirilməsi proqramına cavabdehlik daşıyır.

Əlavə məlumat üçün:

NHMO
26 rue Galliéni
92500 Rueil-Malmaison
France
Tel: +33 147 08 75 00
Fax: +33 147 52 10 99

37-ci Fəsil

SİLAHLARA NƏZARƏT VƏ TƏRKSİLAH

NATO ölkələri İttifaqın missiyalarının həyata keçirilməsi və ortaya çıxan təhlükəsizlik problemlərinin həll olunmasında minimal güc tətbiq etməklə təhlükəsizliyi və sabitliyi təmin etməyə çalışırlar. Buna görə də silahlara nəzarət, tərksilah və silahların yayılmaması haqqında sazişlərin effektiv və təftiş oluna bilən icrası İttifaq üzvləri tərəfindən qəbul olunan təhlükəsizliyə geniş yanaşmanın və NATO strategiyasının ayrılmaz hissəsidir.

NATO üzvü olan 3 ölkə - ABŞ, Birləşmiş Krallıq və Fransa nüvə silahına malikdir. Bu ölkələr beynəlxalq müqavilələr, sazişlər və birtərəfli qərarlar əsasında malik olduqları nüvə silahlarının həcmini azaltmışlar. NATO təcavüzkarlığa qarşı yürütdüyü siyasətin tərkib hissəsi kimi nüvə silahlarından asılılığın həcmini azaltmışdır. Lakin terror təhlükəsinin və kütləvi qırğın silahlarının istifadə olunması ehtimalının artması silahlara nəzarət, onların yayılmaması və bu yöndə irəli sürülən təşəbbüslərin reallaşdırılması məsələsini yenidən aktuallaşdırdı. İttifaq həmçinin adi silahların da sayının azaldılmasına böyük əhəmiyyət verir.

1990-cı ilin Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə və onun Soyuq Müharibənin bitməsindən sonra Avropada yeni şəraitə uyğunlaşdırılması bu sahədə ən böyük uğur və sabitliyi təmin edən əsas faktor hesab edilir. Müqavilə böyük miqdarda hərbi sursatın məhv edilməsinə gətirib çıxarmaqla yanaşı, mövcud hərbi qüvvələr barədə məlumat mübadiləsinin aparılması və bu qüvvələrin ciddi şəkildə yoxlanılması şərtini özündə ehtiva edir. NATO eyni zamanda Vyana-99 Sənədində göstərilən Etimad və Təhlükəsizliyin Təmin edilməsi üzrə Tədbirlər kontekstində İttifaq üzvləri arasında həyata keçirilən fəaliyyəti əlaqələndirir. NATO eyni zamanda milli ərazi üzərindən uçuşlara qarşılıqlı əsasda icazə verən 1992-ci il Açıq Səmalar Müqaviləsini də dəstəkləyir.

NATO əlavə silah və sursatın, piyada əleyhinə minaların məhv edilməsi üçün bir sıra layihələrin icrasına başlayıb. Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində bu cür layihə təşəbbüsləri ilə çıxış etmək və onların həyata keçirilməsinə yardım etmək çox mühüm əhəmiyyət kəsb edir. Təhlükəli və arzuolunmaz qalıqlardan xilas olmaq üçün donor ölkələrdən maliyyə dəstəyi əldə edilməsinin başlıca mexanizmi Sülh Naminə Tərəfdaşlıq Etimad Fondudur (bax VII Fəsilə).

NATO-nun silahların yayılmaması yönündə apardığı siyasətin əsasını dünyada sülhə təhlükə yaradan nüvə, kimyəvi və bioloji silahların yayılması və onların daşınma vasitələri təşkil edir. NATO dövlətləri hesab edirlər ki, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması müasir dövrdə İttifaqın qarşısında duran ən vacib məsələlərdən biridir. 1999-cu il də bu sahədə yeni təşəbbüslər irəli sürüldü. 2000-ci ilin mayında uzunmüddətli planlaşdırılan Kütləvi Qırğın Silahları üzrə təşəbbüs irəli sürüldü və NATO Baş Qərargahında Kütləvi Qırğın Silahları Mərkəzi yaradıldı. Kütləvi Qırğın Silahlarının məhv edilməsi istiqamətində İttifaqın ümumi hərbi və siyasi cəhdlərini dəstəkləmək məqsədi ilə irəli sürülən bu təşəbbüs əvvəlki təcrübəyə əsaslanmaqla bərabər ABŞ-a qarşı terror hücumundan sonra daha da artırılmışdır.

NATO üzv dövlətləri etimad quruculuğu, silahlara nəzarət, silahlarının yayılmaması və tərksilah məsələlərini münaqişələrin qarşısının alınması prosesinin mühüm komponenti hesab edir və İttifaqın beynəlxalq səviyyədə daha geniş, müfəssəl və daha çox təftiş oluna bilən silahlara nəzarət və tərksilah prosesi yaratmaq yönündə fəaliyyətini artırmaqla bu sahədə başlıca rol oynaya biləcəyini güman edirlər. Bu istiqamətdə NATO müvafiq sahə üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatların fəaliyyətinə mühüm töhfələr verir. İttifaqın 1999-cu il Strateji Konsepsiyası bu prosesdə yerinə yetirilməli olan öhdəlikləri ehtiva edir. İttifaq üzv dövlətləri üçün silahlara nəzarət, silahların yayılmaması və tərksilah məsələlərinin bütün aspektlərinin təşkil edilməsi işləri üzrə məşvərətçi forumlar təşkil edir.

Qeyd olunan məsələlər üzrə məsləhətləşmələr məhz bu istiqamətlərdə irəliləyişə nail olmaq məqsədi ilə təsis edilmiş NATO qurumları tərəfindən aparılır. Forumun əsas mövzuları eyni zamanda NATO-Rusiya Şurası, NATO-Ukrayna Şurası, Aralıq dənizi Dialoqu və Avro-Atlantika Tərəfdaşlıq Şurası çərçivəsində Tərəfdaş ölkələrlə də müzakirə olunur. NATO qurumları mütəmadi olaraq, xüsusən də mühüm əhəmiyyət kəsb edən BMT-nin Birinci Komitəsi və Tərksilah üzrə Konfrans, Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin İcmal Konfransı kimi mötəbər beynəlxalq yığıncaqlardan əvvəl tərksilah məsələləri üzrə ixtisaslaşmış ekspertlərlə görüş keçirirlər. NATO həmçinin ballistik raketlərlə mübarizənin İttifaqın təhlükəsizliyinə və qlobal strateji sabitliyə mümkün təsirinə dair məşvərətçi forum da təşkil edir.

Bu məsələlər üzrə əldə edilən uğurlar, danışıq prosesləri və əməkdaşlıq sahələrinə dair icmal aşağıdakı kimidir.

Nüvə, bioloji və kimyəvi silahlara dair məsələlərdə əldə olunan irəliləyişlər

NATO üzv dövlətləri gözlənilməz və çox istiqamətli, eləcə də geniş miqyaslı və çeşidli hərbi və qeyri-hərbi təhdidlərin hədəfi olaraq qalmaqdadır.

Nüvə, bioloji və kimyəvi silahların yayılması və onların daşınma vasitələri hələ də ciddi problem olaraq qalmaqdadır. NATO etiraf edir ki, həyata keçirilən bütün əks tədbirlərə baxmayaraq, qeyd olunan silahların yayılmasının və nəticə etibarilə Müttəfiq dövlətlərin əhalisini, ərazisini və hərbi gücünü təhlükə altına alınmasının qarşısının alınması mümkünsüzdür. NATO-nun həm adi, həm də nüvə silahlarının yayılmaması rejimlərinə verdiyi dəstək onun həyata keçirdiyi təhlükəsizlik siyasətinin ayrılmaz hissəsidir.

Üzv dövlətlər kütləvi qırğın silahlarının yayılması və onların daşınmasına qarşı iki istiqamətli - siyasi və müdafiə xarakterli yanaşma qəbul etmişdir. Bununla belə, kütləvi qırğın silahlarının yayılmaması rejiminin beynəlxalq səviyyədə gücləndirilməsində müəyyən nailiyyətlərin əldə edilməsinə baxmayaraq başlıca təhlükələr hələ də qalmaqdadır. Terror təhlükəsinin artması bu işdə beynəlxalq səviyyədə birgə əks tədbirlərin görülməsinin vacibliyini daha da artırır. İttifaqdan kənarda da əhəmiyyətli sayda nüvə qüvvələrinin mövcudluğu da həmçinin nəzərə alınmalıdır. Lakin NATO-nun nüvə silahına müraciət etmək ehtimalı reallıqdan uzaq dərəcədə zəifdir və İttifaq təhlükəsizlik strategiyası çərçivəsində nüvə silahının rolunu azaltmışdır. Nüvə silahına malik olan üzv ölkələrdən ABŞ, Fransa və Birləşmiş Krallıq da həmçinin öz nüvə qüvvələrini böyük miqdarda ixtisar edib.

Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə

Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə beynəlxalq səviyyədə silahların yayılmaması haqqında sazişlərin və nüvə silahlarının məhv edilməsi prosesinin əsasını təşkil edir. 1995-ci il Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin İcmalı və Uzadılması Konfransında müqavilənin müddəti qeyri-müəyyən vaxta qədər uzadılmışdır. Konfransda bundan əlavə müqavilə müddəalarının tətbiqinin səmərəsini artırmaq üçün icmal prosesini gücləndirmək və “Nüvə Silahının Yayılmaması və Tərksilah üçün Prinsip və Məqsədlər”in qəbul edilməsi qərara alınmışdır.

2000-ci il 24 aprel - 19 may tarixlərində Nyu-Yorkda keçirilən Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin İcmal Konfransının nəticəsi

özündə Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin müddəalarının icrasına göstərilən davamlı dəstəyi, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin təminatlarının gücləndirilməsini və nüvə silahının məhv edilməsi istiqamətində atılan digər addımları əks etdirir.

Sonuncu sənəd nüvə silahının məhv edilməsi öhdəliyini əks etdirən Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin VI maddəsinin sistemli və səmərəli tətbiqi planını nəzərdə tutur. Bundan əlavə, nüvə silahına malik olan beş dövlət müqavilənin şərtlərinin naməlum vaxta qədər uzadılması qərarını bəyəndiklərini ifadə edən birgə bəyanat verdilər və 1995-ci ildə qəbul olunmuş qərarlara sadiq qalacaqlarının bir daha təsdiq etdilər.

Bioloji və kimyəvi silahlar

Bioloji və kimyəvi silah imkanları İttifaqın nə strategiyasının, nə də hərbi qüvvələrinin tərkibinə daxil deyil. İttifaqın bu silahlarla bağlı həyata keçirdiyi siyasət müvafiq rejimlər üzrə beynəlxalq səviyyədə aparılan tərksilah işinə təkan verir. Bununla belə, bioloji və kimyəvi silahların yayılması xüsusilə terrorizm nöqteyi-nəzərindən hələ də beynəlxalq təhlükəsizliyin ən böyük problemlərindən biri hesab edilir. Kimyəvi və bioloji silahların istifadəsi 1925-ci il Cenevrə Protokolu ilə qadağan edilmişdir. Bu istiqamətdə qəbul edilən digər müvafiq saziş 1975-ci ildə qüvvəyə minən və düşmənçilik məqsədilə bioloji silahların artırılmasını, istehsalını və saxlanmasını qadağan edən Bioloji və Toksin Silahlar üzrə Konvensiyadır. 1994-cü ildə yoxlama tədbirlərinin və konvensiyanın tətbiqinin gücləndirilməsi üçün irəli sürülən təklifləri müzakirə etmək məqsədi ilə Konvensiyaya Tərəf Dövlətlərin Ad-Hoc İşçi Qrupu yaradıldı. Müvafiq məsələləri müzakirə etmək məqsədilə keçirilən İcmal Konfranslar bu sahə üzrə digər gələcək addımları müəyyən etdi. Kimyəvi silahları qadağan edən Kimyəvi Silahlar üzrə Konvensiya 1980-92-ci illərdə Tərksilah üzrə Konfransda müzakirə olundu və 1997-ci ildə qüvvəyə mindi. Konvensiya kimyəvi silahların artırılmasını, istehsalını və saxlanmasını, kimyəvi silahlardan istifadəni və istifadə etmə niyyətini, konvensiyanın şərtlərini pozmaqda digərlərinə yardım etməyi qadağan edir. Konvensiya eyni zamanda konvensiyanı imzalayan tərəflərdən malik olduqları nüvə silahlarının və onların istehsalı vasitələrinin məhv edilməsini tələb edir.

Raket və digər daşıma vasitələri

1987-ci ildə yaradılan Raket Texnologiyası üzərində Nəzarət Rejimi (RTNR) raketlərin və raket texnologiyasının artmasını məhdudlaşdırmağa çalışan 32 dövləti özündə birləşdirir. RTNR-in Tərəfdaşları tərəfdarları ümumi ixraca nəzarət siyasətinə uyğun olaraq ixrac edilən əşyaların siyahısına nəzarət edirlər.

Adi silahlara nəzarət və tərksilah məsələlərində əldə olunan irəliləyişlər

Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilənin Uyğunlaşdırılması

19 noyabr 1990-cı il tarixli Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə dövlətlərin üzərinə Müqavilə ilə Məhdudlaşan 5 silah kateqoriyası üzrə hüquqi cəhətdən əsaslandırılmış məhdudiyyətlər qoymaqla müfəssəl məlumat və bildiriş mübadiləsini, eləcə də yerində təftiş və yoxlamanın təşkil olunmasını ehtiva edir. Müqavilə adi silah və texnika növlərinin saxlanılması üzrə şəffaflığın təmin olunmasına və Avropada Müqavilə əsasında Məhdudlaşdırılmış böyük miqdarda avadanlığın ixtisara salınmasına səbəb oldu.

Soyuq müharibənin qurtarmasından sonra müqavilənin yaranmış yeni şəraitə uyğunlaşdırılması istiqamətində aparılan və 1990-ci ildən sonra Almaniyanın yenidən birləşdirilməsi, Varşava Paktının iflası və SSRİ-nin süqutundan sonra yeni varis dövlətlərin yaranması ilə müqaviləyə qoşulan dövlətlərin sayının 22-dən 30-a çatması, Mərkəzi və Şərqi Avropada demokratikləşmə prosesi və s. hadisələrin doğurduğu nəticələri əks etdirən danışıqlar 1996-ci ildə başladı. 1999 və 2004-cü ildə NATO-ya yeni üzvlərin qəbul edilməsi və sonradan əlavə dövlətlərin üzvlüyə qəbul olunması ehtimalı müqavilənin tətbiqi ilə bağlı irəliləyişlər nəticəsində əldə edilən uğurlardır.

Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının 1999-cı ilin noyabr ayında İstanbul Zirvə Görüşündə imzalanan Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilənin "Uyğunlaşdırılması üzrə Saziş"in qüvvəyə minməsi üçün 30 dövlət tərəfindən ratifikasiya olunması tələb olunur. Zirvə görüşündə dövlətlərin təklifi əsasında qəbul olunan "Yekun Akt" silah ehtiyatına malik olmaq hüququnun məhdudlaşdırılması və silahların tədricən azaldılması yönündə siyasi öhdəlikləri ehtiva edir. İyul 2004-cü il İstanbul Zirvə görüşündə Müttəfiq ölkələrin liderləri Avropada təhlükəsizliyin əsası kimi Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilədən və Uyğunlaşdırılmış

Sazişin tez bir zamanda qüvvəyə minməsi zərurətindən irəli gələn öhdəlikləri bir daha bəyan etdilər.

Liderlər həmçinin vurğuladılar ki, Moldova və Gürcüstanda mövcud olan Rusiya hərbi qüvvələri ilə bağlı öhdəliklərin yerinə yetirilməsi Avropada Adi Silahlı Qüvvələr haqqında Uyğunlaşdırılmış Müqavilənin ratifikasiyası işində İttifaq dövlətləri və digər Müqavilə Tərəfi olan dövlətlər üçün şərait yaradacaqdır. Müqavilənin qüvvəyə minməsi müqaviləyə qoşulmaq niyyətində olan ölkələrə də yol açacaq və bu da Avropada təhlükəsizlik və sabitliyin qorunmasına əlavə töhfə olacaqdır.

İttifaqın Yüksək Səviyyəli Əməliyyat Qüvvələri (HLTF) adi silahlar, silahlara nəzarət, etimad və təhlükəsizlik yaratma məsələləri üzrə məsuliyyət daşıyır. NATO-nun Yoxlamanın Əlaqələndirilməsi Komitəsi (VCC) silahlara nəzarət fəaliyyətinin monitorinqini həyata keçirir və əlaqələndirir. VCC Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilənin CFE icrası aspektlərinə dair Avropada Adi Silahlı Qüvvələr haqqında Müqaviləni imzalayan 30 ölkə və Avro-Atlantika Tərəfdaşlıq Şurası ölkələri üçün illik seminarlar təşkil edir.

Vyana Sənədi

1999-cu ilin noyabr ayında keçirilən İstanbul Zirvə Görüşündə ATƏT dövlətləri tərəfindən 1990, 1992 və 1994-cü il Vyana sənədlərində əksini tapan etimad və təhlükəsizliyin təmin edilməsi üzrə tədbirləri gücləndirməyi nəzərdə tutan 1999-cu il Vyana Sənədini qəbul edildi. Sənəd etimad və təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərin gücləndirilməsi işində regional əməkdaşlığın artırılmasına böyük önəm verilməsinin əhəmiyyətini nəzərdə tutur.

Açıq Səmalar

1992-ci ilin martında imzalanan “Açıq Səmalar” Müqaviləsi hərbi əməliyyatlarda və strukturlarda aşkarlığın yaradılmasını nəzərdə tutan yeni vacib element oldu.

Müqavilə silahlara nəzarət haqqında indiki və gələcək sazişlərə uyğun olaraq monitorinq həyata keçirərək qarşılıqlı anlaşma əsasında milli ərazi üzərindən uçuşlara icazə verərək böhranların nizama salınması imkanlarını artırmaqla etimad yaratma prosesini gücləndirir. Müqavilə 2001-ci ildə ratifikasiya edildi və 2002-ci il yanvarın 1-də qüvvəyə minənə qədər bir sıra təlim xarakterli uçuşların həyata keçirilməsinə icazə verdi.

Yüngül və Atıcı silahlar

Yüngül və Atıcı Silahların toplanması və onların qanunsuz daşınmasının qarşısının alınması istiqamətində artan beynəlxalq ehtiyacların aradan qaldırılması məqsədilə yerli, regional və beynəlxalq səviyyələrdə bir çox təşəbbüslər irəli sürülmüşdür. Avro-Atlantika Tərəfdaşlıq Şurası çərçivəsində 1999-cu ilin yanvarında yaradılmış Ad Hoc İşçi Qrupu bu məsələ ilə bağlı praktiki addımların atılmasını nəzərdə tutur. 2001-ci ilin iyulunda BMT Baş Assambleyası tərəfindən təşkil olunmuş qanunsuz silah alveri haqqında konfransın yekunlaşmasından sonra üzv dövlətlər Beynəlxalq Fəaliyyət Proqramını irəli sürdülər. NATO Azərbaycan, Gürcüstan və Ukrayna kimi ölkələrdə silah və sursat ehtiyatlarının məhv edilməsi üçün Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində Etimad Fondlarının əsasını qoymuşdur.

Piyada əleyhinə Minalar

Piyada əleyhinə Minaların insanlara yaratdığı humanitar problemlərin aradan qaldırılması və qarşısını almaq məqsədi ilə bir sıra fəal işlər görülür. NATO-ya üzv dövlətlər Sülh Naminə Tərəfdaşlıq Etimad Fondu layihələri çərçivəsində bu problemin həllinə çalışırlar. Məsələn, Albaniyada böyük miqdarda piyada əleyhinə mina, Moldovada minalar, döyüş sursatları və raket yanacağı, Ukraynada Sovet dövründən yığılmış milyonlarla mina məhv edilmişdir.

Piyada Əleyhinə Minalardan İstifadənin, Ehtiyata yığılmasının, İstehsalının və ötürülməsinin qadağan edilməsi və onların Məhv edilməsinə dair Konvensiya 1997ci il 3 dekabr tarixində Ottavada imzalandı və 1999-cu ilin 1 mart tarixində qüvvəyə mindi.

Avro-Atlantik Tərəfdaşlıq Şurasının qeyd olunan məsələ üzrə yaradılan Ad Hoc işçi qrupu minalardan təmizləmə fəaliyyətini dəstəkləmək üçün yaradılmışdır.

Kütləvi Qırğın Silahlarının Yayılması

Kütləvi Qırğın Silahlarının yayılması nəticəsində beynəlxalq təhlükəsizliyə yeni hədələrin yaranması NATO üzv dövlətlərin rəhbərlərini bu istiqamətdə öz səylərini artırmağı vadar etdi. 1994-cü ildə nəşr olunan “Kütləvi Qırğın Silahlarının Yayılmamasına dair İttifaqın Siyasəti”ndə də qeyd olunduğu kimi NATO və ona üzv dövlətlərin əsas məqsədi Kütləvi Qırğın Silahlarının Yayılmasının qarşısını diplomatik vasitələrlə almaqdır. Lakin sənəddə o da qeyd olunur ki, beynəlxalq norma və sazişlərin mövcudluğuna

baxmayaraq, Kütləvi Qırğın Silahları və onların daşınma vasitələri NATO-nun ərazisi, əhalisi və hərbi qüvvələrinə birbaşa hərbi təhlükə yarada bilər. Buna görə də İttifaq Kütləvi Qırğın Silahlarının Yayılmasının qarşısını almağa və NATO-nun Kütləvi Qırğın Silahlarına qarşı müdafiəsini artırmağa çalışır. İttifaq NATO hərbi qüvvələrinin əməliyyat qabiliyyətini, eləcə də Kimyəvi, Bioloji və Nüvə Silahlarının mövcudluğuna, onların yaratdığı təhlükələrə və istifadəsinə qarşı effektivliyini artırmağa çalışır. 1999-cu ilin aprelində keçirilən Vaşinqton sammitində uzunmüddətli planlaşdırılan Kütləvi Qırğın Silahları üzrə təşəbbüs irəli sürüldü və 2000-ci ilin mayında NATO Baş Qərargahında Kütləvi Qırğın Silahları Mərkəzi yaradıldı. Mərkəz Kütləvi Qırğın Silahları üzrə üzv dövlətlər arasında dialoqu və ümumi anlaşılmanı gücləndirmək, kütləvi qırğın silahlarının yayılmaması, silahlara nəzarət və tərksilah məsələləri üzrə tövsiyələr vermək və İttifaqın Kütləvi Qırğın Silahları və onların daşınma vasitələrinin yaratdığı təhlükələrə qarşı apardığı mübarizəni dəstəkləmək istiqamətində çalışır. Mərkəzdə NATO Beynəlxalq Qərargahının işçi heyəti və milli ekspertlər çalışır. Təşəbbüs İttifaqın bu sahədə hərbi və siyasi təcrübəsinə əsaslanır. Bu Təşəbbüs 2001-ci ilin sentyabrında ABŞ-a qarşı həyata keçirilən terror hücumundan sonra nüvə, bioloji, kimyəvi silahlara qarşı hərbi qüvvələrin və əhalinin mühafizəsini və ballistik raketlərin yayılması təhlükəsinə qarşı müdafiəni təkmilləşdirmək istiqamətində daha da artırılmışdır.

Aidiyyəti Siyasət Komitələr, Təşkilatlar və Agentliklər

Nüvə Silahlarının Yayılması məsələləri üzrə Birgə Komitə Şimali Atlantika Şurasına kütləvi qırğın silahlarının hərbi-siyasi və müdafiə aspektləri barədə hesabatlar verən başlıca məşvərətçi orqandır. Baş Katibin Müavinin rəhbərliyi altında bu Komitə Nüvə Silahlarının Yayılması üzrə Ali Hərbi-Siyasi Qrup və Yayılma üzrə Ali Müdafiə Qrupunu birgə sessiyada toplayaraq Kütləvi Qırğın Silahları təhlükəsinə qarşı NATO-nun siyasi və müdafiə imkanlarını əlaqələndirir. **Nüvə Silahlarının Yayılması üzrə Ali Hərbi-Siyasi Qrup** siyasi və təhlükəsizlik məsələləri üzrə məsul olan milli səviyyəli rəsmi şəxslərdən ibarət olmaqla Baş Katibin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə Müavinin köməkçisi tərəfindən rəhbərlik edilən toplantılar keçirir. Nüvə Silahlarının Yayılması üzrə Ali Hərbi-Siyasi Qrup siyasi, təhlükəsizlik və iqtisadi sahələrdə kütləvi qırğın silahlarının yayılmasına səbəb ola biləcək və ya buna təsir edə biləcək faktorları, eləcə də kütləvi qırğın silahlarının yayılmasının qarşısını ala biləcək siyasi və iqtisadi vasitələri müzakirə edir.

Yayılma üzrə Ali Müdafiə Qrupu Kütləvi Qırğın Silahlarının yayılması və onların birgə daşınma vasitələri üzrə Şimali Atlantika Şurasının baş məşvərətçi qurumudur. Yayılma üzrə Ali Müdafiə Qrupu Şimali Amerika və Avropanın sədrliyi ilə bu məsələ üzrə məsul olan ekspert və məmurları bir araya toplayır. Yayılma üzrə Ali Müdafiə Qrupu Kütləvi Qırğın Silahlarının yayılmasının qarşısını almaq, bu cur silahlardan istifadə təhlükəsini heçə endirmək və NATO əhalisini, ərazisini və hərbi gücünü qorumaq üçün gərəkli olan hərbi imkanları müzakirə edir.

Adi Silahlara Nəzarət üzrə Yüksək Səviyyəli Əməliyyat Qrupu adi silahlara nəzarət məsələlərinə dair Xarici İşlər və Müdafiə Nazirlərinə məsləhət verən və Baş Katibin Müavinin başçılığı və hökumət nümayəndələrinin iştirakı ilə toplantılar keçirən məşvərətçi orqandır. Qrup həmçinin, NATO yanında akkreditə olunan milli nümayəndəliklərin siyasi məsələlər üzrə ekspertlərinin iştirakı ilə də toplantılar keçirir.

Verifikasiyanın Əlaqələndirilməsi Komitəsi adi silahlara nəzarətin icrası və yoxlanılması məsələləri ilə bağlı qərar qəbul edən başlıca NATO qurumudur. Bu komitə müxtəlif səviyyələrdə və müxtəlif işçi və ekspert qrupları, eləcə də seminarlar formatında görüşlər keçirir.

Kütləvi Qırğın Silahları Mərkəzi kütləvi qırğın silahları üzrə məsələlərdə ümumi razılığı gücləndirmək, Kütləvi Qırğın Silahları mühitində ordunun fəaliyyət imkanlarını artırmaq və Kütləvi Qırğın Silahları təhlükəsinə qarşı cavab tədbirləri görmək məqsədilə 2000-ci ilin mayında NATO Baş Qərargahında yaradılmışdır.

Yüngül və Atıcı Silahlar üzrə Avro-Atlantika Tərəfdaşlıq Şurasının Ad Hoc İşçi Qrupu və Qlobal Humanitar Mina təmizləmə üzrə Avro-Atlantika Tərəfdaşlıq Şurasının Ad Hoc İşçi Qrupu NATO və Tərəfdaş ölkələr arasında yüksək səviyyəli nəzarət təlimləri və ortaq məqsədlərə nail olmaq yollarını aşkara çıxarmaq məqsədilə qarşılıqlı fikir və məlumat mübadiləsini həyata keçirmək üçün şərait yaradır.

38-ci Fəsil

MÜLKİ FÖVQƏLADƏ PLANLAŞDIRMA

Mülki Fövqəladə planlaşdırma uzun müddətdən bu yanadır ki, NATO-nun ən mühüm fəaliyyət sahələrindən biridir. Onun əsas rolu hərbi əməliyyatlar üçün mülki dəstəyin təmin edilməsi və fövqəladə hallar zamanı mülki əhalinin qorunmasını təmin etmək üçün milli qurumlara dəstək göstərməkdən ibarətdir.

Amerika Birləşmiş Ştatlarına qarşı törədilən terror hücumundan sonra NATO-nun mülki müdafiə sahəsində səylərinin böyük hissəsi öz əhalisini kimyəvi, bioloji və nüvə zəhərləyici maddələrinin təsirindən qorumaq istəyində olan üzv və Tərəfdaş dövlətlərə yardım məsələlərinə istiqamətləndi. Hərbi planlaşdırma və əməliyyatların müdafiəsi kontekstində mülki fövqəladə planlaşdırma fəaliyyəti birgə hazırlanmış plan və üsulların səmərəli və əlverişli olmasına xidmət edir. Bura ticarət gəmiləri, mülki təyyarələr, qatarlar, dəmir yol şəbəkələri, tibb müəssisələri, rabitə, bədbəxt hadisələr zamanı cavabdehlik daşıyan bacarıqlar və digər mülki resurslar daxildir.

Bununla belə, NATO-un mülki fövqəladə planlaşdırma üzrə fəaliyyəti Soyuq Müharibədən sonra tamamilə dəyişmişdir. O, geniş miqyaslı müharibə konteksində əhalinin mühafizəsi və mülki resursların idarə edilməsinə deyil, hərbi böhran hallarında cavab əməliyyatlarına dəstək göstərmək və terror hücumları və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması məsələlərinə istiqamətlənmişdir.

Bugünkü mülki fövqəladə planlaşdırma fəaliyyətinin digər bir xarakterik xüsusiyyəti Tərəfdaş ölkələrlə Sülh Naminə Tərəfdaşlıq Proqramı və Avro-Atlantika Tərəfdaşlıq Şurası çərçivəsində, NATO-Rusiya Şurası, NATO-Ukrayna Komissiyası, Aralıq Dənizi Dialoqu bu yaxınlarda isə İstanbul Əməkdaşlıq Təşəbbüsü ilə qurulan əlaqələrin genişləndirilməsidir. Sülh Naminə Tərəfdaşlıq fəaliyyətinin ən geniş qeyri-hərbi tərkib hissəsi olan mülki fövqəladə planlaşdırma fəaliyyəti hazırda NATO-un Brüsseldəki Baş Qərargahında əsası qoyulan Avro-Atlantika Fəlakətlərə Cavabın Əlaqələndirmə Mərkəzinin təşkil etdiyi mütəmadi məsləhətləşmələr və müzakirələrlə davam edir. Məhz belə tədbirlərin nəticəsidir ki, NATO və Tərəfdaş dövlətlər güclü daşqınlar zamanı Ukrayna, Çex Respublikası və Birləşmiş Ştatlara, ciddi zəlzələlərin baş verdiyi Yunanıstan, Türkiyə və Pakistana, meşə yanğınları zamanı Portuqaliyaya, regional münaqişə və müharibələr nəticəsində isə təcili humanitar yardıma ehtiyacı olan Balkan dövlətlərinə zəruri yardım göstərə bilmişdir. NATO-un mülki fövqəladə

planlaşdırma fəaliyyəti bununla yanaşı, üzv ölkələrə xüsusi hadisələrlə bağlı bir sıra məsələlərdə, məsələn, 2003-cü ilin yazında İraq münaqişəsi ilə bağlı Türkiyəyə qarşı yarana biləcək potensial təhlükənin aradan qaldırılmasında, 2004-cü ildə isə Yunanıstanda keçirilən Yay Olimpiya Oyunlarına hazırlıq və həyata keçirilməsi məsələlərində faydalı olmuşdur.

Bir çox digər beynəlxalq təşkilatlar mülki fövqəladə planlaşdırma sahəsində NATO ilə əməkdaşlıq edirlər. Bunlara Avropa İttifaqı, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, BMT-in Humanitar məsələlər üzrə Əlaqələndirmə İdarəsi, Kimyəvi Silahların Qadağan edilməsi üzrə Təşkilat, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı aiddir.

Sülh Naminə Tərəfdaşlıq kontekstində mülki fövqəladə planlaşdırma fəaliyyəti

Sülh Naminə Tərəfdaşlıq və Avro-Atlantik Tərəfdaşlıq Şurası çərçivəsində Mülki fövqəladə planlaşdırma fəaliyyəti məlumat mübadiləsi də daxil olmaqla yerli, regional və milli hökumətlərin müxtəlif səviyyəli mülki və hərbi nümayəndələrinin, eləcə də və qeyri-hökumət təşkilatlarından olan nümayəndələrin cəlb olunması ilə təşkil olunan seminarlar, işçi görüşləri, təlim kursları formatında fəaliyyət göstərir. Onun ümumi fəaliyyəti mülki əhalinin fəlakət və terror hücumları nəticəsində yaranan fövqəladə hallara hazırlıq və mühafizəsinin gücləndirilməsindən ibarətdir. Bu fəaliyyət sahəsi əsasən fövqəladə halların nəticələrinin aradan qaldırılmasına xidmət edir. BMT-nin Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsi ilə onun “Fəlakətə yardım zamanı Hərbi və Mülki Müdafiə vasitələrindən istifadə” layihəsi çərçivəsində əməkdaşlıq bu sahədə mühüm rol oynayır.

Fəlakətlərə yardım sahəsində əməkdaşlığın konkret formalarının yaradılması məqsədilə 1997-ci ilin noyabrında Rusiya tərəfinin irəli sürdüyü təklifə əsasən 1998-ci ildə Avro-Atlantika Təbii Fəlakətlərə qarşı cavab tədbirlərinin Əlaqələndirilməsi Mərkəzi (EADRCC) və Avro-Atlantika Təbii Fəlakətlərə qarşı cavab tədbirləri Bölməsi (EADRU) yaradıldı. EADRCC yarandığı gündən müxtəlif xilasetmə tədbirləri zamanı mühüm rol oynamaqla bərabər, həm də xüsusi hadisə və böhranlara hazırlığın təkmilləşdirilməsi üçün dövlətlərə yaxından köməklik göstərir. Fəaliyyətə başladığı ilk gündən az müddət sonra o, həmçinin 1999-cu il Kosova münaqişəsi zamanı BMT-in Qaçqınlar üzrə Ali Komissiya Ofisi tərəfindən Albaniyada həyata keçirilən

xilasetmə tədbirlərinə Avro-Atlantik Tərəfdaşlıq Şurasının göstərdiyi dəstəyin əlaqələndirilməsində mühüm rol oynamışdır.

Bundan başqa, AATFƏM Kosova daxili və ətrafı ərazilərdə humanitar vəziyyətin monitorinqi işinə cəlb edilmiş və 1999-cu ilin aprelində Kosovo qaçqınlarının vəziyyətini yüngülləşdirmək məqsədilə onlara göstərilən humanitar yardımın əlaqələndirilməsi üçün növbəti addımlar atmışdır.

AATFB Avro-Atlantik Tərəfdaşlıq Şurasına daxil olan dövlətlər tərəfindən müvafiq məqamlarda, ehtiyac duyulan real tələbatlar əsasında könüllü surətdə yaradılan çoxmillətli və milli, hərbi və mülki vahidlərin birliyidir. Bu, axtarış və xilasetmə bölmələrindən, tibbi bölmələrdən, nəqliyyat və maddi-texniki təchizat, rabitə və digər müəssisələrdən ibarətdir. EADRCC zərərçəkmiş ölkələrə könüllü olaraq yardım etmək istəyən NATO və Tərəfdaş dövlətlərə şərait yaratmaq üçün milli səviyyədə mülkiyyət imkanlarının məxfiliyini qoruyub saxlayır. Bu mexanizm bir çox hadisələrdə, xüsusilə 2004-cü il Olimpiya oyunları zamanı Yunanıstana yardım edilməsində öz effektiv təsirini göstərmişdir. EADRU-nun yerləşmə prosedurları geniş miqyaslı və beynəlxalq iştirakçıların da cəlb olunduğu çoxmillətli təlimlərdə yoxlanılıb sınaqdan keçirilmişdir. Bu təlimlər həmçinin, fövqəladə halların aradan qaldırılması üzrə ilkin məsul qurumlar arasında əməliyyat qabiliyyətinin inkişaf etdirilməsinə və mülki-hərbi əməkdaşlıq məsələlərinə xidmət edir. Qərbi Ukraynada süni daşqınlar, Xorvatiyada meşə yanğınları, Rumıniyada futbol stadionun yaxınlığında güclü partlayıcıdan istifadə edilməsindən sonra yaranan partlayış, Rusiyanın kimyəvi istehsal müəssisəsinə hücum, Özbəkistanda isə yanğınsöndürmə, axtarış və xilasetmə işləri kimi simulyasiya xarakterli tədbirlər EADRU-nun gələcək iş planına daxildir.

NATO-Rusiya əməkdaşlığı

Mülki fövqəladə planlaşdırma fəaliyyətində NATO-Rusiya əlaqələrinin əsası 1991-ci ilin dekabrında Şimali Atlantika Şurasının NATO-un Ali Mülki fövqəladə planlaşdırma Komitəsinə keçmiş Sovet Birliyinə humanitar yardımın ötürülməsinə yardım göstərilməsi üçün verdiyi tapşırıqdan sonra qoyulmuşdur. NATO və Rusiya Federasiyası arasında Mülki fövqəladə planlaşdırma sahəsində Qarşılıqlı Anlaşma haqqında Memorandum (MOU) 1996-cı il martın 20-də imzalanmışdır. 1997-ci ildə NATO və Rusiya Federasiyası arasında Əməkdaşlıq, Təhlükəsizlik və İkitərəfli əlaqələr üzrə Təsis Aktının imzalanması ilə Qarşılıqlı Anlaşma haqqında Memorandumun (MOU) yerinə yetirilməsinə nəzarət etmək üçün Mülki Fövqaladə Hazırlıq və

Fəlakət zamanı Yardımla bağlı Ekspert Qrupu yaradılmışdır. O vaxtdan bəri Rusiya ilə mülki fövqaladə planlaşdırma sahəsində əməkdaşlıq xeyli inkişaf etmişdir. NATO-Rusiya Şurası çərçivəsində NATO-ya üzv ölkələr və Rusiya çevik cavab tədbirləri görmək qabiliyyəti və birgə təlimlər üzrə işlər də daxil olmaqla əməkdaşlıq fəaliyyətini davam etdirir.

NATO-Ukrayna əməkdaşlığı

Mülki fövqəladə planlaşdırma sahəsində NATO və Ukrayna arasında geniş əlaqələr mövcuddur. Bu əməkdaşlıq 1995-ci ildə Ukraynanın şərqində baş verən aramsız leysan yağışları nəticəsində Ouda və Donets çaylarında daşqınların yaranmasının humanitar nəticələrini aradan qaldırmaq üçün NATO-un Mülki Fövqəladə Planlaşdırma Direktoratlığı tərəfindən əlaqələndirilən NATO və Tərəfdaş dövlətlər tərəfindən göstərilən birgə yardımlar ilə başlamışdır. Bu sahədə əməkdaşlıq 1997-ci ilin iyulunda imzalanan NATO-Ukrayna Nizamnaməsinin əsas komponentlərindən biridir. Xüsusi ekspert və resurs məsələlərini, eləcə də praktiki əməkdaşlığın mümkün sahələrini nəzərdə tutan Qarşılıqlı Anlaşma Haqqında Memorandum 1997-ci il dekabrın 16-da NATO və Ukraynanın Fövqəladə Hallar Nazirliyi və Əhalinin Çernobıl hadisələrinin nəticələrindən Mühafizəsi Qurumu arasında imzalanmışdır. Karpat regionunda daşqınların qarşısının alınması və ona qarşı cavab tədbirləri üzrə pilot layihə və EADRCC-nin Ukraynada geniş miqyaslı sahə təlimlərinin təşkili də daxil olmaqla bu saziş çərçivəsində bir çox praktiki tədbirlər həyata keçirilmişdir. Ukrayna NATO-un mülki fövqəladə planlaşdırma fəaliyyətində aktiv iştirakını davam etdirməklə bərabər gələcəkdə bir sıra təlimlərin həyata keçirilməsini planlaşdırır.

Aralıq dənizi dialoqu

Aralıq Dənizi Dialoquna daxil olan ölkələrin nümayəndələri mülki fövqəladə planlaşdırmaya aid bir çox tədbirlərdə, eləcə də NATO-nun Oberammerqaudakı (Almaniya) Məktəbinin mülki-hərbi əməkdaşlıq (CIMIC) kursları və mülki fövqəladə planlaşdırma idarəsi və komitəsinin fəaliyyətlərində iştirak etmişdir. Təbii Fəlakətlərin Azaldılması və fövqəladə hallar zamanı xilasetmə tədbirləri üzrə məlumat və təcrübə mübadiləsinə şərait yaradılması, eləcə də mülki fövqəladə planlaşdırma üzrə ekspertlər arasında əlaqələrin möhkəmləndirilməsi məqsədilə Yunanıstan və Türkiyədə seminarlar təşkil olunur.

Digər mövzular isə fəlakətlər zamanı qeyri-hökumət təşkilatlarının rolu və regional əməkdaşlıq məsələlərini nəzərdə tutur. Aralıq Dənizi Dialoqunun genişləndirilməsi kontekstində bu əlaqələr getdikcə möhkəmlənməkdədir və bu da mülki fövqəladə planlaşdırma fəaliyyətində Aralıq Dənizi Dialoqu ölkələrinin iştirakının artmasını ehtimal etməyə əsas verir.

Mülki-hərbi əməkdaşlıq

Mülki fövqəladə planlaşdırma sahəsində əlverişli fəaliyyət və əlaqələri təmin etmək və tələb olunduqda mülki fövqəladə halların aradan qaldırılması ilə bağlı milli qurumlara dəstək göstərmək məqsədilə NATO-un hərbi imkanlarından və əmlakından yararlanmaq imkanı üçün NATO-nun hərbi qurumları və mülki fövqaladə planlaşdırma strukturları arasında möhkəm əlaqələr qurulmuşdur. Maddi-texniki təchizat, nəqliyyat, təhlükəsizlik, rabitə, məlumat və digər əlverişli dəstək xidmətlərinin yardım üçün cəlb olunması mümkündür.

NATO daxili mülki fövqəladə strukturlarının rollarından biri də lazım gələrsə, hərbi əməliyyatlarda müdafiəni təmin etməkdən ibarətdir. Belə hallarda mülki texniki sahədə müvafiq ekspertiza mülki fövqəladə planlaşdırma idarə və komitəsi tərəfindən rabitə, nəqliyyat, tibb, ərzaq və kənd təsərrüfatı, mülki əhalinin qorunması və sənaye hazırlığı ilə təmin oluna bilər.

Aidiyyəti siyasi komitələr, təşkilatlar və agentliklər

Ali Mülki Fövqəladə Planlaşdırma Komitəsi (SCEPC)

Mülki Fövqəladə planlaşdırma sahəsində NATO-nun fəaliyyət istiqamətlərini bir araya gətirmək məsuliyyəti və onların yerinə yetirilməsi üzrə tədbirlərin həyata keçirilməsi vəzifəsi hər iki həftədən bir daimi sesiyada və ildə ən azı iki dəfə keçirilən plenar sessiya keçirən Ali Mülki Fövqəladə Planlaşdırma Komitəsinə aiddir. SCEPC Şimali Atlantika Şurası qarşısında məruzə ilə çıxış edir. Daxili İşlər və Fövqəladə Hallar Nazirliklərinin nümayəndələri, eləcə də NATO yanında akkreditə olunan milli nümayəndəliklərin heyəti bu Komitənin fəaliyyətini dəstəkləyir. Plenar səviyyədə keçirilən görüşlərdə dövlətlər öz paytaxtlarında yerləşən milli Fövqəladə Halların qarşısının alınması qurumlarının rəhbərləri ilə təmsil olunurlar. SCEPC-nin iclaslarına NATO Baş Katibinin Əməliyyatlar Bölməsi üzrə müavinin köməkçisi tərəfindən rəhbərlik edilir.

Mülki Fövqəladə Planlaşdırma İdarələri və komitələri

AMFPK-nın rəhbərliyi ilə bir sıra texniki planlaşdırma idarə və komitələri mülki fəaliyyətin müvafiq sahələrində planlaşdırmanı əlaqələndirmək üçün milli hökumət və sənaye ekspertlərini, eləcə də hərbi nümayəndələri bir araya gətirir. Buraya daxili nəqliyyat, dəniz gəmiçiliyi, mülki aviasiya, ərzaq və kənd təsərrüfatı, sənaye istehsalı və təchizatı, poçt və telekommunikasiya, tibbi məsələlər və mülki müdafiə daxildir. Hazırda 8 bu tipli planlaşdırma idarə və komitələri fəaliyyət göstərir: Dəniz Gəmiçiliyinin Planlaşdırma İdarəsi, Daxili Nəqliyyatın Planlaşdırılması üzrə Komitə, Mülki Aviasiyanın Planlaşdırılması üzrə Komitə, Ərzaq və Kənd Təsərrüfatının Planlaşdırılması üzrə Komitə, Sənaye Planlaşdırılması üzrə Komitə, Mülki Rabitənin Planlaşdırılması üzrə Komitə, Birgə Tibbi Komitə və Mülki Müdafiə Komitəsi. Bu orqanlar müntəzəm olaraq iclaslar keçirir və NATO-nun mülki fövqəladə planlaşdırma və onun həyata keçirilməsi üsulları arasında əlaqə yaradır. Onlara öz işlərində kiçik, çevik işçi qrupları və ixtisaslaşmış texniki komitələr köməklik göstərir.

Avro-Atlantika Fəlakətlərə Cavabın Əlaqələndirilməsi Mərkəzi (EADRCC)

EADRCC Avro-Atlantik Tərəfdaşlıq Şurası (EAPC-AATŞ) dövlətləri ərazisində fövqəladə hallara qarşı cavab tədbirlərini əlaqələndirir və AATŞ dövlətləri arasında bu sahədə məlumat mübadiləsinin mərkəzi kimi fəaliyyət göstərir. Bu Mərkəz, əsasən, Birləşmiş Millətlər və fövqəladə halların aradan qaldırılması məsələlərində aparıcı rol oynayan digər beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq edir. BMT-in Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsindən olan əlaqələndirici məsul şəxs Mərkəzin İşçi Heyətinə vəzifəyə təyin olunur. Mərkəz fövqəladə halların aradan qaldırılmasında çevikliyə nail olmaq üçün daimi əməliyyat prosedurlarını inkişaf etdirir və iştirakçı dövlətləri fəlakət zonasına istiqamətlənmiş fövqəladə yardımı yubadan viza tənzimlənməsi, sərhədkeçmə tələbləri, tranzit razılığı və gömrük şəffaflığı proseduraları kimi bir sıra məsələlərdə ikitərəfli və çoxtərəfli razılıqları inkişaf etdirməyə ruhlandırır. EADRCC prosedurların tətbiqi, yerli və beynəlxalq iştirakçılara təlim keçilməsi, əməliyyat qabiliyyətinin gücləndirilməsi və gələcək əməliyyatlar üçün təcrübə və dərslərin öyrənilməsi məqsədilə müntəzəm şəkildə iştirakçı dövlətlərin ərazisində fəlakətlərin qarşısının alınması sahəsində təlimlər təşkil edir.

39-cu Fəsil

RABİTƏ VƏ İNFORMASİYA SİSTEMLƏRİ

NATO daxilində məsləhətləşmə, komandanlıq və nəzarət məsələləri "C3" kollektiv adı ilə tanınır. Bu sahədə əməkdaşlığın məqsədi hərbi qüvvələr çərçivəsində yüksək səviyyəli siyasi məsləhətləşmə, komandanlıq və nəzarəti təmin etmək məqsədilə ümum-NATO, səmərəli, operativ hərbi uyğunlaşma qabiliyyətinə malik təhlükəsiz bacarıqları təmin etməkdir.

Rabitə və informasiya sistemlərinin (CIS) bir neçəsi bütün NATO ərazisini, NATO-nun Brüsseldəki Mənzil Qərargahını, Birləşmiş Hərbi Komandanlıq Strukturunun bütün qərargahlarını, milli paytaxtları və milli hərbi komandanlıqları əhatə etmək məqsədilə milli stasionar və mobil şəbəkələrlə birləşir. Sistemlər həmçinin, NATO-nun Tərəfdaş dövlətləri ilə məsləhətləşmələrə yardım etmək məqsədilə etibarlı rabitəni təmin edir.

Aidiyyəti siyasi komitələr, təşkilatlar və agentliklər

NATO-nun C3 Təşkilatı (NC3O) tələb olunan C3 imkanları ilə NATO-nu təmin etmək məqsədilə, çoxmillətli və milli keyfiyyətləri birləşdirməklə 1996-cı ildə təsis edilmişdir. Alyansın böhranın idarə edilməsi üzrə yeni vəzifəsini yerinə yetirmək bacarıqlarını inkişaf etdirmək, eləcə də kollektiv müdafiə imkanlarını qorumaq məqsədilə təşkilat NATO CIS-nin planlaşdırma, elm, inkişaf və tədarük funksiyalarını bir araya gətirir.

Təşkilat NC3O-nun müdirlər şurası kimi fəaliyyət göstərən NATO C3 İdarə Heyətindən (NC3B), daimi sessiyada NMKNİH kimi fəaliyyət göstərən Milli C3 Nümayəndələri Qrupundan (NC3REPC), NATO-un C3 Agentliyindən (NC3A) və NATO-nun CIS-nə Xidmət Agentliyindən (NCSA) ibarətdir.

NC3B NATO-nun operativ hərbi uyğunlaşma imkanları və milli C3 sistemləri də daxil olmaqla, bütün C3 siyasəti məsələlərində Müdafiə Planlaşdırılma Komitəsinə və Şimali Atlantika Şurasına, bununla yanaşı MKN əməkdaşlıq proqramları barədə Milli Silahlı Qüvvələrin Rəhbərlərinin Konfransına məsləhətlərin verilməsi öhdəliyinə malik olan ali çoxmillətli qurumdur. İdarə Heyəti NC3A və NCSA-nın işlərinə nəzarət edir.

NC3B paytaxtlardan olan ali milli nümayəndələrdən, Hərbi komitə və Strateji Komandanların nümayəndələrindən və C3-ə aidiyyəti olan NATO

komitələrindən, NATO-nun C3 Agentliyinin Baş Menecerindən və NCSA-nın Direktorundan ibarətdir. Baş Katibin Müavini ona sədrlik edir, bundan əlavə orada Daimi Sədr (Müdafiə İnvestisiyası üzrə Baş Katibin Köməkçisi) və 2 nəfər Həmsədr Müavini (NATO Mənzil Qərargahının C3 Şəxsi heyətinin Direktoru və Həmsədr Müavini milli namizədlər arasından seçilir) fəaliyyət göstərir.

NC3B səkkiz alt-komitədən ibarət tabeçilik strukturuna əsaslanan çoxmillətli orqanlar tərəfindən dəstəklənir (Birgə C3 Tələbat və Konsepsiyaları, Operativ hərbi uyğunlaşma, Tezliklərin İdarə edilməsi, İnformasiya Sistemləri, İnformasiya Təhlükəsizlik Sistemləri, Rabitə şəbəkələri, Təyin-etmə və Naviqasiya). Bunların da hər birinin ayrı-ayrılıqda öz alt qrupları mövcuddur. Təşkilat həm Beynəlxalq Qərargahın, həm də Beynəlxalq Hərbi Qərargahın keçmiş C3 elementlərini vahid inteqrə edilmiş Qərargahda birləşdirən NATO Mənzil Qərargahının C3 Qərargahı (NHQC3S) tərəfindən dəstəklənir.

NMQMKNQ-ın əsas vəzifəsi NATO CIS-in planlaşdırılması, həyata keçirilməsi, əməliyyat və texniki xidmət üzrə siyasət və təlimatın inkişaf etdirilməsi və onların tətbiq edilməsinə nəzarəti həyata keçirməkdən ibarətdir. NHQC3S NATO C3 İdarə Heyətinə və onun alt-strukturuna dəstək verir. O, həmçinin Şimali Atlantika Şurasına, Hərbi Komitəyə, Milli Silahlı Qüvvələrin Rəhbərlərinin Konfransına, Ali Büdcə Şurasına və C3 məsələləri üzrə öhdəliklərə malik olan digər komitələrə yardım göstərir.

NHQC3S beş bölmədən təşkil edilmişdir: Arxitektura və Operativ Hər-bi Uyğunlaşma Bölməsi, İnformasiya Sistemləri və Mübadilə Bölməsi, İnformasiya Təhlükəsizliyi Bölməsi, Spektr İdarəçilik Bölməsi, Rabitə, Təyinetmə və Naviqasiya Şəbəkələri Bölməsi və əlavə olaraq, Planlaşdırma və Büdcə İdarəsi. O, Baş Katibin Müdafiə təyinatlı Sərmayə məsələləri üzrə Köməkçisi və Beynəlxalq Hərbi Şəxsi Heyətin Direktorunun əlaqələndirilmiş rəhbərliyi altında fəaliyyət göstərir. NHQC3S-in Direktoru NATO C3 İdarə Heyətinin Həmsədr müavinidir.

Əlavə məlumat:

NATO Mənzil Qərargahında MKN Qərargahı (NHQC3S): www.nc3a.nato.int/

Adətən milli nümayəndə heyətlərindən və ya NATO-da hərbi nümayəndəliklərdən ibarət **C3-ün Milli Nümayəndələr Qrupu (NC3REPC)** NC3A İdarə Heyətinə yardım göstərir və daimi sessiyada onun adından NMKNİH kimi fəaliyyət göstərir.

NATO C3 Agentliyi (NC3A) MKN fəaliyyətini yenidən qurmaq üçün NATO strategiyasının bir hissəsi kimi təşkil edilmişdir. Agentlik NATO C3 sistemlərini və qurğularını mərkəzi planlaşdırma, arxitektura, sistemlərin inteqrasiyası, dizayn, sistem mühəndisliyi, texniki dəstək və konfiqurasiya nəzarəti ilə təmin edir. Agentlik ona həvalə olunmuş layihələri həyata keçirir və əməliyyatların tədqiqatı, kəşfiyyatı, müşahidəsi, araşdırmanı, hava komanda və nəzarəti (Döyüş ərazisində Raketdən Müdafiə, Radio-Elektron Mübarizə və Havadan erkən xəbərdarlıq və Nəzarət də daxil olmaqla), eləcə də RİS-ə aid məsələlərlə Strateji Komandanları və digərlərini elmi-texniki məsləhət və dəstəklə təmin edir. NMKNA-in Brüssel, Belçikada Baş Qərargahı mövcuddur, lakin iki məntəqədə Brüsseldə (Planlaşdırma və Əldə etmə) və Haaqada, Niderlandda (Elmi Dəstək) fəaliyyət göstərir.

NATO-nun CIS Xidmətləri Agentliyi (NCSA) NATO C3 İdarə Heyəti tərəfindən ona həvalə olunmuş sistemləri istifadə etməklə, NATO C3 üçün tələb olunan təhlükəsiz informasiya mübadilə xidmətlərinin təmin edilməsinə cavabdehdir. NCSA 2004-cü il avqust tarixində keçmiş NATO CIS Əməliyyat və Dəstək Agentliyinin (NACOSA) əsasında təşkil edilmişdir.

NCSA “cihaz və proqram təminatına” texniki xidmət, texniki məsləhət, konfiqurasiya idarəçiliyi, şəxsi heyətə təlim, qurğu və münasib xidmətlər şəklində əməliyyat dəstəyini təmin edir. Buraya ona həvalə edilmiş CIS və onun istifadəçilərinin təhlükəsizliyinə verilən zəmanət də daxildir. NCSA-dan digər NATO orqanları, kommersiya firmaları və milli agentliklərlə birgə, istifadəçilərlə razılaşmalara müvafiq olaraq və onun Xidmətlər Kataloqunda göstərildiyi kimi səmərəli RİS xidmətlərini təmin etmək tələb olunur.

NCSA Mons, Belçikada Müttəfiq Qüvvələrinin Avropa Ali Baş Qərargahında (SHAPE) yerləşən Mərkəzi Qərargahdan, onların birləşmiş baş qərargahlarını dəstəkləyən on NCSA sektorlarından, iki hazır vəziyyətə gətirilə bilən NATO Rabitə Taborundan və Latina, İtaliyada yerləşən NATO CIS məktəbindən ibarətdir.

Əlavə məlumat:

NATO CIS xidmətləri Agentliyi: www.ncsa.nato.int

Əlavə məlumat eyni zamanda əldə edilə bilər:

NATO Mənzil Qərargahının C3 Qərargahı
NATO Mənzil Qərargahı
1110 Brüssel / Belçika
Tel: +32 2 707 4358
Faks: +32 2 707 5834

NC3A Brüssel
(MQ, Planlaşdırma və Tədarük)
Z Binası
NATO Mənzil Qərargahı
1110 Brüssel / Belçika
Tel: +32 2 707 8213
Faks: +32 2 708 8770

NC3A Haaqa
(Elm və Texniki Məsələlər)
Pİ Qutusu 174
Oude Waalsdorperweg 61
2501 CD Haaqa
Niderland
Tel: +31 70 374 3002
Fax: +31 70 374 3239

NATO Mənzil Qərargahı İnformasiya və Sistemləri İdarəetmə Xidməti (ISMS) İcraçı İdarəetmə Şöbənin bir hissəsini təşkil edir. Baxmayaraq ki, inzibati cəhətdən həm Beynəlxalq Qərargah, həm də Beynəlxalq Hərbi Qərargahın şəxsi heyəti Beynəlxalq Qərargah orqanı olan ISMS-in şəxsi heyətini təşkil edir, o, Şimali Atlantika Şurasını, Müdafiə Planlaşdırma Komitəsini və Hərbi Komitəni, eləcə də onlardan asılı olan komitələri və digər aidiyyəti qərargahları informasiya sistemləri ilə təmin edir. Bununla yanaşı, ISMS Beynəlxalq Qərargahı və NATO-nun Standartlaşdırma üzrə Agentliyini sistemlərin layihələrinin hazırlanması, inkişaf və texniki dəstəklə təmin edir. O, böhranların idarə edilməsi, həmçinin qeydiyyat və sənədlərə nəzarət xidmətləri, maliyyə və şəxsi heyəti idarəetmə informasiya sistemləri və qüvvələrin planlaşdırılması kimi tapşırıqların yerinə yetirilməsinə dəstək verir. O, NATO Mənzil Qərargahında mərkəzləşdirilmiş kompüter avadanlıqlarının fəaliyyəti, xüsusi istifadəçi üçün “proqram təminatının” inkişafı və texniki xidməti, istifadəçilərə yardım və onlara təlimlərin keçirilməsi, NATO Mənzil Qərargahının informasiya sistemlərinə texniki xidmət və informasiya sistemləri məsələləri barədə qərargah rəsmilərinə məlumat verilməsi sahəsində öhdəliklərə malikdir.

40-cı Fəsil

TƏHSİL VƏ TƏLİM

Baxmayaraq ki, NATO üzv dövlətləri öz silahlı qüvvələrinin təhsil və təliminə cavabdehdirlər, milli səviyyədə təklif edilən proqram və kurslar strateji komandanlıqlar, Hərbi Komitə və Şimali Atlantika Şurası tərəfindən beynəlxalq səviyyədə əsası qoyulan az sayda kollec və məktəblər tərəfindən görülən işlərlə tamamlanır.

Təhsil və təlim Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində aparıcı rol oynayır. NATO-un ayrılmaz hissəsi olan təhsil və təlim müəssisələrində aşağıda adları sadalanan Tərəfdaş və Aralıq Dənizi Dialoqu ölkələrinin müntəzəm iştirakına əlavə olaraq, İttifaq müxtəlif üzv və Tərəfdaş ölkələrdə geniş rəsmi SNT Təlim Mərkəzləri təşkil etmişdir. Hal-hazırda, Avstriya, Finlandiya, Yunanıstan, Rumıniya, Slovakiya, Sloveniya, İsveç, İsveçrə, Türkiyə, Ukrayna və Birləşmiş Ştatlarda 11 belə mərkəz fəaliyyət göstərir.

Təhsil və təlim eyni zamanda 2003-cü ildə təsis edilmiş Müttəfiq Qüvvələrinin Transformasiya üzrə Komandanlığı (ACT) mandatının da ayrılmaz tərkib hissəsidir.

Aidiyyəti siyasi komitələr, təşkilatlar və agentliklər

NATO-nun Tərəfdaş və üzv ölkələrdən olan mütəxəssislərə və rəhbər şəxslərə təhsil və təlim keçən əsas təhsil qurumları, NATO Müdafiə Kolleci, NATO-un Oberammerqaudakı Məktəbi və NATO Rabitə və İnformasiya Sistemləri (CIS) məktəbidir. NATO-un həmçinin NATO Təlim Qrupu, NATO Hərbi Dəniz Qüvvələrinin Beynəlxalq Operativ Təlim Mərkəzi, İxtisasartırma Mərkəzləri, Təkmilləşdirilmiş Birgə Simulyasiya və Modulyasiya Proqramı və NATO/SNT Təhsil Şəbəkəsi adlı bir sıra təhsil müəssisələri də mövcuddur.

NATO Müdafiə Kolleci

NATO Müdafiə Kollecinin (NDC) əsas missiyası transatlantik təhlükəsizlik məsələlərində əsas təhsil, elm və tədqiqat mərkəzi kimi öz rolunu inkişaf etdirməklə İttifaqın birlik və səmərəliyinə töhfə verməkdir. O, hər il silahlı qüvvələrin bir çox baş zabitləri, ali dövlət rəsmiləri, akademik və parlament işçilərini üçün Avro-Atlantik təhlükəsizlik vəziyyətinə aidiyyəti olan

sahələrdə kurs və seminarlar təklif edir. NATO ölkələrinin iştirakı ilə yanaşı, praktiki olaraq Kollecin bütün fəaliyyət sahələri nəinki Sülh Naminə Tərəfdaşlıq (SNT) və Aralıq Dənizi Dialoqundan olan ölkələr üçün, eyni zamanda İstanbul Əməkdaşlıq Təşəbbüsü Çərçivəsində Orta Şərq regionu ölkələrinin də iştirakı üçün açıqdır.

NATO Müdafiə Kolleci 1951-ci ildə Parisdə təsis edilmiş, 1966-cı ildə isə Romaya köçürülmüşdür. O, 3 il müddətinə kollecin rəisini təyin edən Hərbi Komitənin rəhbərliyi ilə fəaliyyət göstərir. Rəis isə, yerləşmə ölkəsinin təmin etdiyi hərbi direktor və mülki dekan tərəfindən yardım göstərilən, ən azı general-leytenant və ya buna bərabər rütbəyə malik hərbçi olmalıdır. Hərbi Komitənin Sədri isə Kollecin Akademik Məşvərətçi Şurasına rəhbərlik edir. Kollec adətən üzv ölkələrin xarici işlər və müdafiə nazirliklərindən olan hərbi zabitlər və mülki rəsmilərindən təşkil edilir.

2002-ci ildə Hərbi Komitə və Şimali Atlantika Şurası tərəfindən Kollecə verilmiş təlimata müvafiq olaraq, Kollec təhsil, təkmilləşmə və araşdırma üzrə üç əsas sahədə fəaliyyət göstərir. Kollecin təhsil və araşdırma fəaliyyəti, NATO-nun bütün təhsil və araşdırma fəaliyyətlərinə daha yaxşı töhfələr vermək məqsədilə, NDC-nin Akademik Məşvərətçi Şurasında müvafiq yüksək səviyyədə təmsil edilən Müttəfiq Qüvvələrinin Transformasiya üzrə Komandanlığı tərəfindən əlaqələndirilir.

Təhsil proqramına müvafiq olaraq Kollec NATO və NATO təyinatına aidiyyəti olan sahələrə seçilmiş şəxsi heyətin hazırlığı üçün hərbi-siyasi sahədə strateji səviyyəli kurslar təşkil edir. Kollecin əsas təhsil fəaliyyəti milli kvotalara müvafiq olaraq öz hökumətləri tərəfindən seçilən 90 üzvün iştirak etdiyi Ali Kursdur. Polkovnik və ya polkovnik-leytenant rütbəsi daşıyan zabitlər yaxud da, müvafiq hökumət idarələri və ya milli institutlardan olan bərabər səviyyəli mülki şəxslər onun iştirakçıları ola bilər. Kurs üzvlərinin əksəriyyəti NATO qərargah vəzifələrinə və ya öz ölkələrində NATO-ya aidiyyəti olan milli vəzifələrə təyin edilirlər. 2002-ci ildən etibarən tənqidi düşünmə və risklərin analizi üçün strateji səviyyədə akademik tələb nəzərə alınaraq kurs üçün tədris planında dəyişikliklər edilmişdir.

Gündəlik mühazirələr təcrübəli akademiklər, siyasətçilər, yüksək rütbəli hərbi və mülki dövlət qulluqçuları tərəfindən aparılır. NATO strukturunun konsensus prinsiplərinin vacibliyini əks etdirməklə, hazırlıq işləri və müzakirələr zamanı kurs üzvləri arasında konsensusun əldə edilməsinə böyük əhəmiyyət verilir.

Ali kursların bir hissəsi kimi, NATO Mənzil Qərargahı və strateji komandanlıqlardan seçilmiş zabitlər və rəsmi şəxslərə bir həftəlik müddətə

xüsusi strateji mövzuları öyrənmək məqsədilə Ali kursa qoşulmaq imkanı verən qısa müddətli kurslar təşkil edilir.

1991-ci ildə Kollec, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi indiki Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) üzvləri arasından olan baş zabit və mülki şəxslər üçün iki həftəlik kurslar təqdim etmişdir. Sonrakı illər ərzində isə Ali Kurs çərçivəsində Birgə SNT/ATƏT Kursu kimi fəaliyyətə başladı. NATO SNT proqramının ayrılmaz hissəsi olan bu iki həftəlik kurslar SNT/ATƏT və NATO-un Aralıq Dənizi Dialoqu ölkələrindən olan nümayəndələr və ali Kursun iştirakçıları arasında Avro-Atlantik region haqqında ümumi anlayış inkişaf etdirmək məqsədi daşıyır.

General və Admiral, həmçinin Səfirlər üçün Kurslar ildə iki dəfə yaz və payızda təşkil olunur. Onlar etimad-yaratma, anlaşma, dialoqu inkişaf etdirməklə regional stabilliyin gücləndirilməsinə töhfə vermək məqsədilə təşkil edilir.

Kollecin təkmilləşmə proqramının bir hissəsi kimi hər il keçirilən Komandanların konfransı, akademik baxışlar və təhsil metodları sahəsində fikir mübadiləsi məqsədilə NATO, SNT və Aralıq Dənizi Dialoqu ölkələrinin ali milli müdafiə kolleclərinin rəhbərlərini bir araya gətirir. Kollec həmçinin, Müdafiə Akademiyası Konsorsiumunda, və qeyri-NATO birgə təhsil orqanı olan Təhlükəsizlik məsələləri üzrə İnstitutun tamhüquqlu iştirakçısıdır. Bununla da, Kollec NATO çərçivəsində konsorsiumla əlaqələndirici mərkəz kimi fəaliyyət göstərir. Hər ilin fevral ayında kollec Kiyevdə Ukrayna Milli Müdafiə Akademiyasında Beynəlxalq kursa rəhbərlik edir. Nəhayət, Kollec təkmilləşmə fəaliyyətinin bir hissəsi kimi virtual kurslar təklif edir.

Kollec, araşdırma sahəsində öz işini əhəmiyyətli dərəcədə təkmilləşdirmiş və Alyansa problem yaradan əsas məsələlər üzrə seminar və konfransların məruzələrinə müvafiq olaraq bir çox akademik, ekspert və təcrübəli şəxslərin ideyaları əsasında NATO ali rəsmi şəxslərini yeni perspektivlərlə təmin etmək məqsədi güdür. Bununla yanaşı, Kollec SNT ölkələrindən birinin akademik institutları ilə əməkdaşlıq edərək hər il Avro-Atlantik Təhlükəsizliyi sahəsində Beynəlxalq Tədqiqat Seminarı təşkil edir. Bu cür Beynəlxalq Tədqiqat Seminarı hər il Aralıq Dənizi Dialoqu ölkələri ilə də keçirilir.

Kollec hər il Avro-Atlantik, Avrasiya və Aralıq Dənizi təhlükəsizlik məsələlərinə aid mövzular üzrə elmi tədqiqatları artırmaq məqsədilə Aralıq Dənizi Dialoqu və SNT ölkələrinin hər birindən iki milli nümayəndəyə təhlükəsizlik elmləri sahəsində tədqiqat işi təklif edir.

Kollec, məzunlarının milli assosiasiyalarının fəaliyyəti və məzunlar üçün hər ilin sentyabrında keçirilən seminarlar vasitəsilə, məzunlar arasında

möhkəm əməkdaşlıq ruhu yaradır və bu məzunların bir çoxu Alyans çərçivəsində səlahiyyətli vəzifələr icra edirlər.

Əlavə məlumat:
NATO Müdafiə Kolleci
Via Giorgio Pelosi 1
00143 Roma
İtaliya
Tel: +39 06 505 259 (Kommutator)
Faks: +39 06 505 25799
İnternet səhifəsi: www.ndc.nato.int

NATO Məktəbi, Oberammerqau, Almaniya

Oberammerqaudakı NATO Məktəbi Alyans, Sülh Naminə Tərəfdaşlıq (SNT), Aralıq dənizi Dialoqu və əlaqəli dövlətlərdən olan hərbi və mülki heyət üçün fərdi təhsil və təlim mərkəzi kimi xidmət göstərir. Onun missiyası hazırkı və inkişaf etməkdə olan NATO strategiyası, siyasəti, doktrina və üsullarının dəstəyi ilə təhsil və təlim həyata keçirməkdən ibarətdir. Onun kursları İttifaqın hazırkı əməliyyat inkişafını, Müttəfiq Qüvvələrinin Avropa Ali Baş Komandanının (SACEUR) və Müttəfiq Qüvvələrinin Transformasiya üzrə Ali Baş Komandanının (SACT) prioritetlərini əks etdirir.

Hər il müxtəlif mövzularda geniş miqyaslı kurslar keçirilir. Əsasən fərdi təhsilə üstünlük verən məktəb tələb olunan zaman birgə təlim, məşğələ və əməliyyatları hərtərəfli şəkildə dəstəkləyir. Təhsil və təlim kurslar, seminarlar, müasir dövri təlim, modelləşdirmə və simulyasiya kimi tədris metodlarından istifadə etməklə birgə fəaliyyət incəsənəti üzərində mərkəzləşmişdir. Məktəbin sosial istiqamətli proqramının tərkib hissəsi kimi, Mobil Təhsil-Təlim Qrupları transformasiya, operativ hərbi uyğunlaşma və əməkdaşlığa yardım edən münasib kurslar təmin edilir.

Məktəb SACT-ın əməli nəzarəti altında olsa da hər iki NATO Strateji Komandanlığı üçün NATO təhsil müəssisəsi kimi fəaliyyət göstərir. Məşvərətçi Şura yardım və təlimat təmin edir. Almaniya və Birləşmiş Ştatlar avadanlıq, maddi-texniki dəstək və 60%-dən artıq şəxsi heyətlə töhfə versə də, Məktəb fəaliyyət xərclərini kompensasiya etmək məqsədilə tələbələrdən əldə edilən təhsil ödənişlərinə əsaslanır və mahiyyət etibarilə təsərrüfat hesablıdır.

NATO Məktəbinin əsası İttifaq tarixinin ilk illərində qoyulsa da, nizamnaməsi və hazırkı adı 1975-ci ildə əldə etmişdir. Uzun müddət, onun əsas istiqaməti NATO-nun kollektiv müdafiəsi məsələlərinə həsr olunmuşdu.

Daha sonra, 1999-cu ildə NATO-nun Strateji Konsepsiyasının yenidən nəzərdən keçirilməsi ilə, qeyri-NATO ölkələrindən olan mülki və hərbi şəxslərlə dialoq və əməkdaşlıq da daxil olmaqla, kollektiv təhlükəsizlik üçün NATO-nun hazırkı və inkişaf etməkdə olan strategiya və siyasətini əhatə edən seminar, təlim və kurslar Məktəbin rolunu tamamilə dəyişdi. Bundan əlavə, NATO-nun Balkan əməliyyatları başlayandan etibarən, Məktəb NATO-nun hazırkı hərbi əməliyyatlarını dolayı yolla dəstəklə təmin edir.

Kurslar NATO-nun 4 əsas fəaliyyət sahəsində təşkil edilir: birgə əməliyyatlar, siyasət, hərbi əməliyyatlar və planlar, kütləvi qırğın silahları. Məktəbin müəllim heyətinə qeyri-hökumət təşkilatlarından, NATO və SNT ölkələrindən, NATO Komandanlıqlarından və Mənzil Qərargahından olan qonaq mühazirəçilərin də daxil olduğu NATO ölkələrindən olan şəxsi heyət daxildir. Bütün kursların məqsədi, birlikdə səmərəli işlər görə bilən NATO və qeyri-NATO birgə əməliyyat qərargah işçilərini təkmilləşdirməkdir.

Məktəbin beynəlxalq təşkilatlarla əlaqəsi vasitəsilə, son illər kurslarda qeyri-hərbi iştirakçıların sayı əhəmiyyətli dərəcədə artmışdır. SNT, Aralıq Dənizi Dialoqu və İstanbul Əməkdaşlıq Təşəbbüsü proqramlarının dəstəyi ilə Məktəbin tədris planı xeyli genişlənmişdir.

NATO Məktəbinin tədris planının sonrakı inkişafı, NATO Cavab Qüvvələrinin iştirakçıları üçün qüvvələrin hazırlanması, Balkan və Əfqanıstanda aparılan NATO əməliyyatlarından öyrənilən dərslər barədə nəticələrə gəlinməklə təmin edilmişdir. Bu yaxınlarda isə Məktəb NATO-nun İraqdakı Təlim İcra Missiyasının dəstəyi ilə təlimlər təşkil etmişdir. NATO Məktəbi eyni zamanda terrorizmə qarşı müdafiə və insan alveri ilə mübarizə sahəsində irəlidədir.

Məktəb təhsil və təlim proqramları vasitəsilə, cari və gələcək hərbi əməliyyat imkanlarını təkmilləşdirməyə yardım göstərir. Bütün bu kontekstlərdə, NATO Məktəbi NATO və Tərəfdaş ölkələr üçün milli bacarıqların transformasiyasını təmin etməklə, İttifaqın prioritet məsələlərinə yardım edilməsində iştirak edir.

Əlavə məlumat:
NATO Məktəbi
Am Rainenbichl 54
82487 Oberammerqau
Almaniya
Tel: +49 8822 9481 1304 (Tələbə İdarəsi)
Faks: +49 8822 3680
E-məktub: studentadmin@natoschool.nato.int
İnternet səhifəsi: www.natoschool.nato.int

NATO Rabitə və İnformasiya Sistemləri Məktəbi (NCISS)

NATO Rabitə və İnformasiya Sistemləri (RİS) Məktəbi (NCISS) NATO RİS-in fəaliyyət və texniki xidmət sahələrində mülki və hərbi şəxslər üçün təkmilləşdirilmiş təlimlər təşkil edir. Məktəb, NATO CIS sahəsində istiqamətləndirmə kursları və idarəçilik təlimləri keçməklə yanaşı, Tərəfdaş ölkələr üçün RİS üzrə istiqamətləndirmə kursları təklif edir.

Əsası 1959-cu ildə qoyulan Məktəb o vaxtdan bir çox dəyişikliklərə məruz qalsa da 1989-cu ildən hazırkı adı ilə mövcuddur. 1994-ci ildə Sülh Naminə Tərəfdaşlıq proqramı kontekstində yeni kurslar fəaliyyətə başladı. 1995-ci ildə NATO qüvvələri Bosniya və Herseqovinada yerləşdirildikdən etibarən, Məktəb NATO qüvvələrini hərbi əməliyyatlarda dəstəkləmək üçün kurslar təşkil etmişdir. Hal-hazırda, O, bir həftədən 10 həftəyədək davam edən 50-dən çox kurs təklif edir və burada il ərzində təqribən 2700 tələbə təhsil alır.

Məktəb iki Bölmədən ibarətdir: Təlim və Dəstək. Təlim sahəsi də öz növbəsində radio-ötürmə, kommutasiya və şəbəkə sistemlərinə aid kursları əhatə edən Şəbəkə Sahəsi Bölməsindən; komanda və nəzarət informasiya sistemləri, proqram təminatı mühəndisliyi layihələrinin idarə edilməsi və proqramlaşdırmaya aid kursları əhatə edən İstifadəçi Sahəsi Bölməsindən; əməliyyat, texniki xidmət və şifrləmə avadanlıqlarının təmiri sahələrinə aid kursları əhatə edən İnformasiya Təhlükəsizliyi Sahəsi Bölməsindən ibarətdir. Təlim Bölməsi həmçinin, Tərəfdaş ölkələrə RİS kursları, tezliklərin idarə edilməsi, RİS işçi və istiqamətləndirmə kursları təklif edir. Dəstək Bölməsi Təlim Bölmənin inzibati dəstək və maddi-texniki təchizatı üçün cavabdehdir.

Məktəbin rəisi polkovnik və ya ona bərabər rütbəyə malik İtalyan xidməti zabitidir. Əsas telekommunikasiya mühəndisi isə onun texniki məsləhətçisi kimi fəaliyyət göstərir. Məktəbin Təlim İdarəetmə İdarəsi nəzarət statistikasının, təlim sənədlərinin və illik kurs cədvəlinin tərtib edilməsinə cavabdehdir.

Məktəb hər iki NATO Strateji Komandanlıqları üçün təhsil və təlim qurumu kimi fəaliyyət göstərir. O, Müttəfiqlərin Transformasiya üzrə Komandanlığı ilə yaxından əməkdaşlıq edərək, NATO CIS Xidmətləri Agentliyinin fəaliyyət cavabdehliyi altında Müttəfiq Qüvvələrinin Birləşmiş Komandanlığının Neapol Mənzil Qərargahından inzibati dəstək alır. NCSA nəzarətçi rolunda NATO-nun CIS Birgə Təlim Planlaşdırma Qrupu tərəfindən dəstəklənir. Müttəfiqlərin Transformasiya üzrə Komandanlığı ilk növbədə NRİSM Məşvərətçi Şura tərəfindən dəstəklənən təhsil sisteminin

koordinasiyası üzrə öhdəliyə malikdir. Məktəb, Latinada İtalyan Hərbi-Hava Qüvvələrinin Təlim Briqadası vasitəsilə İtaliya Müdafiə Nazirliyindən dəstək alır.

Əlavə məlumat:

NATO CIS Məktəbi
04010 Borgo Piave
Latina
İtaliya
Tel: +39 0773 6771
Faks: +39 0773 662467

NATO Təlim Qrupu (NTG)

NTQ-un ümumi məqsədi kollektiv və fərdi təlimlər üzrə standartlaşdırılma və əməkdaşlığı təkmilləşdirməklə, İttifaq qüvvələri və Tərəfdaş ölkələr arasında operativ hərbi uyğunlaşmanı gücləndirməkdir. Müttəfiq Qüvvələrinin Transformasiya üzrə Ali Baş Komandanından (SACT) asılı olan NTG NATO hərbi strukturunun bir hissəsi kimi NATO-un Standartlaşdırma üzrə Agentliyi (NSA) ilə sıx əlaqə saxlayır. Bununla yanaşı, NTG milli təlimlər üzrə NATO üzvləri, Sülh Naminə Tərəfdaşlıq, Aralıq Dənizi Dialoqu ölkələri və NATO-un hərbi səlahiyyətli nümayəndələri arasında informasiya mübadiləsi aparılmasına imkan yaradır, kollektiv və fərdi təlim üzrə fikir mübadiləsi və təlimlər üçün forum hazırlayır.

Təlim layihəsinin müəyyənləşdirilməsi və dəstəklənməsi ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığa köməklik göstərərək NTQ, xərclər və işçi qüvvəsinə qənaət, standartlaşdırma və operativ hərbi uyğunlaşma kimi təlim keyfiyyətlərini də inkişaf etdirir. O, həmçinin NATO və Tərəfdaş ölkələrdə təlimlərə məsləhət və dəstək üçün sənədlər, təlimat, proseduralar inkişaf etdirir və məsələn, Müttəfiq Qüvvələrinin Transformasiya üzrə Komandanlığı üçün siyasi sənədlər və yeni təlimatların tərtib olunması sahəsində NATO-un transformasiya səylərini dəstəkləyir. Hər bir ölkənin təlim layihələrində iştirakı təlim mövzusundan asılıdır və milli təlim proqramlarını təkrarlamır və ya əvəz etmir. NTQ NATO üzv ölkələri qrupunun mənfəəti üçün İttifaq adından xüsusi təlim layihələri üzrə məsuliyyəti öz üzərinə götürmək üçün fərdi ölkələri təşviq edir. NTG-un fəaliyyət sahəsi, ümumi təlim layihələri də daxil olmaqla Sülh Naminə Tərəfdaşlıq və Aralıq Dənizi Ölkələri üçün genişləndirilmişdir.

İş NATO və Tərəfdaş ölkələrin təmsil olunduğu xüsusi qrupların asılı olduğu beş altqrup tərəfindən idarə edilir (Birgə, Hərbi Dəniz Qüvvələri,

Ordu, Hərbi-Hava Qüvvələri və Maliyyə). NTG-un fəaliyyəti Norfolk, Virciniya, Birləşmiş Ştatlarda yerləşən SACT-ın Birgə Təhsil və Təlim Alt-Şöbəsinin Dizayn və İnkişaf Bölməsinin NTG Bölməsi tərəfindən əlaqələndirilir.

Əlavə məlumat:
NATO Təlim Qrupu Qərargahı Elementi
Beynəlxalq Hərbi Qərargahın (IMS) Əməliyyat Şöbəsi
NATO Mənzil Qərargahı
1110 Brüssel
Belçika
Tel: +32 2 707 5750
Faks: +32 2 707 5988
E-məktub: ntg@hq.nato.int
İnternet səhifəsi: www.nato.int/structur/ntg

NTG Bölməsi
Birgə Təhsil və Təlim (JET) Şöbəsi
Müttəfiq Qüvvələrinin Transformasiya üzrə Komandanlığının Mənzil Qərargahı (SACT)
7857 Blandy Road, Suite 100
Norfolk, Virciniya 23551-2490
ABŞ
Tel: +1 757 747 3219
Faks: +1 757 747 3863
E-məktub: NTGsection@act.nato.int

NATO-nun Dənizdə Müdaxilə üzrə Beynəlxalq Operativ Təlim Mərkəzi

Bu mərkəz, Souda Buxtasında, Yunanıstanda yerləşən çoxmillətli NATO Təlim mərkəzidir. NATO komandanlıq strukturundan kənarda olmasına baxmayaraq, o, yuxarıda qeyd edilən digər təhsil müəssisələri kimi Müttəfiq Qüvvələrinin Transformasiya üzrə Komandanlığı ilə əlaqədardır. O, dənizdə müdaxilə əməliyyatlarına dəstək vermək məqsədilə yerüstü, sualtı, hava müşahidə və xüsusi əməliyyatları daha yaxşı icra etmək üçün NATO qüvvələrinə birgə təlimlər təşkil edir.

İxtisasartırma Mərkəzləri

İxtisasartırma Mərkəzləri, xüsusilə İttifaqın rifahı naminə transformasiya prosesində bilik və təcrübə təklif edən milli və beynəlxalq səviyyədə maliyyələşdirilən obyektlər kimi tanınır. Bu mərkəzlər NATO və Tərəfdaş ölkələrin rəhbərlərinə və qurumlarına onların təhsil və təlimini artırmaq, operativ hərbi uyğunlaşma və bacarıqlarını təkmilləşdirmək, doktrina inkişafına kömək etmək və təcrübə yolu ilə konsepsiyaları yoxlamaq və təsdiq etmək üçün onlara geniş imkanlar verir. Onlar NATO komandanlığının bir hissəsini deyil, NATO-nu dəstəkləyən geniş təhsil və təlim çərçivəsinin bir hissəsini formalaşdırır. İxtisasartırma Mərkəzləri və Strateji Komandanlıqlar arasındakı xüsusi münasibətlər akkreditasiya meyarına və texniki sazişlərə cəlb olunmuş ölkə və ya ölkələrin anlaşma memorandumuna əsaslanır.

Birgə Təkmilləşdirilmiş Təlim və Simulyasiya Proqramı

Birgə təkmilləşdirilmiş təlim və simulyasiya bacarıqları, “hər yerdə, hər zaman” təlimini təmin etmək və meydana gələn kompüter və rabitə texnologiyalarını istifadə etmək məqsədilə təlim texnologiyalarının inkişafı sahəsində fəaliyyət göstərir. Məsafədən təhsilin təqdim edilməsi, resurslara kifayət qədər qənaət etməklə kursları daha geniş kütləyə təqdim edərək, NATO və Tərəfdaş ölkələrinin hərbi şəxslərinin bütün səviyyələrdə təlim və təhsilini artırmaq və nizamlamaq üçün geniş potensiala malikdir. O, xüsusilə böhranlara qarşı çoxmillətli cavab əməliyyatı üzrə genişmiqyaslı tapşırıqların həyata keçirilməsi üçün hazırlığı artıracaq və Tərəfdaş ölkələrə NATO ilə daha güclü təlimlərə qoşulmaq, operativ hərbi uyğunlaşmanı artırmaq üçün imkan verəcək.

Proqramın idarə edilməsi və nəzarəti Müttəfiq Qüvvələrinin Transformasiya üzrə Komandanlığı tərəfindən yerinə yetirilir. O, hərbi təlim və təhsildə əlverişliliyi, operativ hərbi uyğunlaşmanı, yenidən istifadəni, davamlılığı, tətbiq edilə bilməni və iqtisadi səmərəliliyi səciyyələndirəcək. O, mənfəət baxımından əlverişli internet texnologiya və xidmətlərinin istifadəsi ilə daha tez genişlənəcək və onların təmin etdiyi təhsil və təlim imkanlarını izləmək və qiymətləndirmək bacarığına malik tədris proqramları və tədris idarəçiliyi sistemlərinin inkişaf etdirilməsi sahəsində fikir mübadiləsinə imkan yaradan bütün NATO və milli təhsil qurumlarının işindən istifadə edilməsinə imkan verəcək. Bu, həm dinamik qarşılıqlı əlaqədə olan tədris proqramlarının və simulyasiyadan istifadənin əhatə olunduğu, həmçinin, axtarış sistemlərinin, əməkdaşlıq vasitələrinin və müvafiq məlumat bazasının daxil

olduğu bilik idarəetmə sisteminin təmin olunduğu hərtərəfli proqramdır. Bu, inkişaf etməkdə olan təlim və əməliyyat vəzifələrinə müvafiq olaraq uyğun təlim və təhsillə təmin etməklə, dəyişiklik prosesinə cəlb olunan komandan və çoxmillətli şəxsi heyətin tələblərini qarşılamaq üçün imkanlarla təmin edəcək.

Əlavə məlumat:

NQ SACT
Birgə Təhsil və Təlim (JET) Şöbəsi
7857 Blandy Road, Suite 100
Norfolk, Virciniya 23551-2490
ABŞ
Tel: +1 757 747 3386
Faks: +757 747 3863
E-məktub: adl@act.nato.int
İnternet səhifəsi: www.act.nato.int/adl

NATO/SNT Təhsil Şəbəkəsi

Yuxarıda bəhs edilən təhsil qurumlarına, Sülh Naminə Tərəfdaşlıq (SNT) Təlim Mərkəzlərinə və İxtisasartırma Mərkəzlərinə əlavə olaraq, NATO/SNT Təhsil Şəbəkəsi transformasiya prosesinin təhsil meyarının bir hissəsini təşkil edir. Müttəfiqlərin Transformasiya üzrə Komandanlığının məqsədləri əsasında mərkəzləşdirilmiş əlaqəli şəbəkə daxilində mövcud olan müvafiq milli təhsil qurumları və mərkəzləri, eləcə də yuxarıda bəhs edilən NATO təhsil müəssisələri, SNT Təhsil Mərkəzləri və İxtisasartırma Mərkəzlərini bir araya gətirməklə NATO/SNT Təhsil Şəbəkəsi vəsait və bilikdən istifadə sahəsini təkmilləşdirəcək, tədris planını nizama salacaq və səylərin təkrarlanmasının qarşısını alacaq.

41-cı Fəsil

ELEKTRON MÜBARİZƏ

Elektron mübarizə beynəlxalq razılığa nəzarət və hərbi qüvvələrin qorunmasında əsas rol oynamaqla yanaşı sülhün qorunması və İttifaq tərəfindən təşəbbüs göstərilən digər tapşırıqların da məğzini təşkil edir. 1966-cı ildə əsası qoyulmuş bu orqan Hərbi Komitə, NATO Strateji Komandanı və üzv ölkələri müdafiə etmək və daha güclü NATO elektron mübarizə(EW) bacarığı təşkil etmək üçün təsis edilmişdir.

Aidiyyəti siyasət komitələri, təşkilatlar və agentliklər

NATO Elektron Mübarizə üzrə Məşvərət Komitəsi (NEWAC) birgə çoxmillətli hərbi rəhbərlik daxilində EW icrası, əldə edilmiş nailiyyətə nəzarət və bu məqsədləri həyata keçirmək üçün yaradılmış orqandır. Bu NATO elektron mübarizə siyasətinin inkişafı, doktrina, əməliyyatlar, təhsil tələbləri və komanda və operativ idarəetmə konsepsiyasının inkişafına məsuldur. NEWAC həmçinin Sülh Naminə Tərəfdaşlıq çərçivəsində NATO-un EW fəaliyyətinin Tərəfdaş ölkələrdə tətbiq edilməsinə yardım edir.

Komitə NATO ölkələri və NATO Strateji Komandanlığının nümayəndələrindən ibarətdir. Üzvlər milli elektron mübarizə təşkilatlarında yüksək vəzifə sahibi olan şəxslərdir. Komitənin sədri və katibi daimi olaraq, Beynəlxalq Hərbi Qərargahın Əməliyyat Bölməsinə təyin edilmişdir. Elektron mübarizə üzrə əsaslı müdafiə, təlim və doktrina ilə bağlı bir sıra asılı qruplar vardır.

Əlavə məlumat:
NATO Electronic Warfare Advisory Committee (NEWAC)
Operations Division
International Military Staff, NATO Headquarters
1110 Brussels
Belgium
Tel: +32 2 707 5627

42-cı Fəsil

MADDİ - TEXNİKİ TƏCHİZAT

"Maddi-Texniki təchizat" anlayışı müxtəlif ölkələrdə, müxtəlif kontekstlərdə, müxtəlif mənalar ifadə edə bilər. NATO terminologiyasına görə maddi-texniki təchizat "planlaşdırma elmi, qoşunların hərəkətini yerinə yetirmək və qüvvələrin qorunması" mənasını daşıyır. Bu anlayış NATO-un tərifinə aiddir. Bu termin aşağıdakı hərbi əməliyyatların bir sıra aspektlərinə aiddir:

- quruluş və inkişaf, tədarük, saxlama, daşınma, paylama, nəzarət, boşaltma, təxliyyə və lazımsız materialların tullanması;
- şəxsi heyətin daşınması;
- nəaliyyət, tikinti, nəzarət, əməliyyat və avadanlıqların yerləşdirilməsi;
- xidmətin təminatı və ya alınma;
- tibbi xidmət dəstəyi;

Geniş xidmət və məsuliyyət tələb edən bu kateqoriyalar aşağıdakı alt qruplara bölünür:

- maddi-texniki təchizatın istehsal və tədarük aspektləri (planlaşdırma, planın inkişafı və döyüş texnikasının əldə edilməsi). Bütün bunlar milli cavabdehlik tələb edərək, milli səviyyədə həll edilir. Amma, Silahlanma üzrə Milli Direktorlar Konfransı (CNAD) və ona tabe orqanların himayədarlığı altında NATO daxili bir çox sahədə əməkdaşlıq və koordinasiya aparılır;
- Maddi-texniki təchizatın istehlakçı və əməliyyat aspektləri NATO-un Boru kəməri üzrə Komitəsi və NATO Baş Maddi-texniki təchizat Konfransının məsuliyyəti altında qüvvələrin təminat və müdafiə funksiyaları ilə məşğuldur. Bura aid olan bir çox proqram və fəaliyyət sahələri xüsusi tapşırıqları öz üzərinə götürmək üçün Şimali-Atlantika Şurası və NATO Hərbi Komitəsi tərəfindən əsası qoyulan təşkilat və agentliklər tərəfindən yerinə yetirilir.

Alyansın Strateji Konsepsiyası üzrə maddi-texniki təchizat dəstəyi

Alyansın 1999-cu il Strateji Konsepsiyası NATO qüvvələrinin mobil və çoxmillətli xarakterlərini əks etdirərək onları dəstəkləmək üçün zəngin maddi-texniki təminata ehtiyac duyulduğunu vurğulayır. Milli cavabdehlik, NATO hərbi əməliyyatları üzrə maddi-texniki dəstək təminatı iştirakçı ölkələr arasında bölünən kollektiv məsuliyyətdir və bu sahədə NATO ilə əməkdaşlığı artırmaq üçün yaradılıb. Bura Çoxmillətli Birgə Maddi-Texniki Təchizat Mərkəzi və Çoxmillətli Birləşmiş Maddi-Texniki Təchizat Birliyi kimi NATO Baş maddi-texniki təchizat konfransı və çoxmillətli maddi-texniki təchizat quruluşu daxildir.

Maddi-Texniki Təchizatın prinsip və siyasəti

Yeni maddi-texniki təchizat prinsip və siyasətləri ilk dəfə 1992-ci ildə təsdiq edilmiş və o vaxtdan bəri NATO-un sülh qoruma əməliyyatlarından əldə edilmiş praktik təcrübədə vaxtaşırı nəzərdən keçirilir. 2003-cü ildə Hərbi Komitə, 2004-cü ildə Şimali Atlantika Şurası tərəfindən təsdiqlənən prinsip və siyasətlər maddi-texniki təchizatın tibbi dəstək, külli miqdarda insan dəstəyi, hərəkat və daşınma kimi funksiyalarına aid xüsusi əmrlərin özülü kimi xidmət edir.

Kollektiv məsuliyyət

Alyansa üzv ölkələr və NATO rəsmilərinin NATO-un çoxmillətli əməliyyatlarının maddi-texniki təchizat dəstəyi üzrə kollektiv məsuliyyəti vardır. Xüsusi vurğulanan bu prinsip üzv ölkələri eləcə də, NATO beynəlxalq quruluşlarını maddi-texniki təchizat bacarıqlarının istifadə və təmin edilməsi və çoxmillətli hərbi qüvvə əməliyyatlarını səmərəli və əlverişli şəkildə təmin etmək üçün tələb olunan vəsait yükünü bölməyə ruhlandırır. Maddi-texniki təchizata gəldikdə isə, standartlaşdırma, əməkdaşlıq və çoxmillətlilik maddi-texniki tələbat dəstəyinin səmərəli və möhkəm özülünü qoyur və eləcə də əlverişli hərbi əməliyyatlara köməklik göstərir.

Hakimiyyət

Məsuliyyət və hakimiyyət bir-birindən asılıdır. Üzv ölkələr və NATO orqanları tərəfindən NATO komandanına təyin edilən öhdəliklər hakim nümayəndə heyəti tərəfindən tamamlanmalıdır ki, o da öz üzərinə düşən öhdəliyi lazımınca yerinə yetirsin. Bu da o deməkdir ki, hər bir komandan ən

əlverişli hallarda ona ölkələr tərəfindən təyin edilən qüvvələrin əldə edilməsi, işlədilməsi, saxlanması və yerdəyişmə ixtiyarı əldə etmək üçün maddi-texniki təchizat ehtiyatları üzərində əhəmiyyətli səlahiyyətə malik olmalıdır. Bütün bunlar NATO hərbi əməliyyatlarında iştirak edən çoxmillətli qüvvələrin qeyri-NATO komandanlarına da aiddir.

Hərbi əməliyyat tələbatı başçılığı

Bütün maddi-texniki təchizat dəstəyi hərbi və mülki sektor tərəfindən təmin olunan missiyanın müvəffəqiyyətinə zəmanət vermək üçün ehtiyac duyulan hərbi əməliyyat tələbatlarına tərəf istiqamətləndirilməlidir.

Əməkdaşlıq

Üzv ölkələr, hərbi və mülki sektorlar da daxil olmaqla, üzv ölkələr və NATO orqanları arasındakı əməkdaşlıq maddi-texniki təchizatın xüsusi spektorudur- məhdudlaşdırılmış ehtiyatlardan ən yaxşı istifadə imkanı verir. Beş "non-Article 5" böhran üzrə cavabdehlik əməliyyatları sahəsində bu əməkdaşlıq qeyri-NATO ölkələri, lazım gələrsə, digər münasib təşkilatlar arasında genişləndirilməlidir.

Əlaqələndirmə

Maddi- texniki təchizat dəstəyi bütün hallarda bir fəaliyyət sahəsi kimi iki və ya daha çox üzv ölkələri və NATO orqanları arasında birləşdirilməlidir. Lazım gələrsə, buraya qeyri-NATO ölkələri və digər münasib təşkilatlar da daxildir. Bu proses əvvəlcədən təyin edilmiş maddi-texniki təchizat koordinasiya və əməkdaşlıq razılaşmalarında yerinə yetirilir. Müvafiq NATO orqanlarında belə koordinasiya üzrə tam məsuliyyət vardır. Bütün bu prinsiplər siyasət, doktrina, maddi-texniki təchizatın hərəkat, dəyişmə və tibbi dəstək də daxil olmaqla bütün funksional sahələri üzrə doktrina və siyasətin inkişafına aiddir (Tibbi dəstəyin maddi-texniki təchizat kimi aparılmadığı Almaniyadan başqa).

Çoxmillətli təchizat (MTT)

NATO-nun bugün qarşılaşdığı məsələlər, onun Balkanlarda, Əfqanıstanda və İraqda həyata keçirdiyi missiya və yardım əməliyyatları MTT yardımı sahəsində birgə əməkdaşlıq və çoxmillətliliyin (çevik nəql, istehsalat və təchizat, tibbi imkanlar üçün) əhəmiyyətini nəzərə çatdırır. Adi milli qurumlar tərəfindən MTT-ın təmin edildiyi sahələrdə əməliyyat keçirmək üçün ehtiyac qeyri-mümkündür və qeyri-NATO hərbi qüvvələrinə inteqrasiya və onların MTT yardımı birgə çoxmillətli MTT qurumların əhəmiyyətini nəzərə çatdırır.

Həmçinin çoxmillətli MTT fərdi tədbirlərin həm effektivliyi, həm də maliyyə cəhətdən səmərəliliyini artırmaqla fərdi sürətdə təşkil olunan milli MTT yardımı səylərini optimallaşdırır. Rolları xüsusiləşdirmək və dövlət konsepsiyasını irəli sürmək də daxil olmaqla birgə çoxmillətliliyi yaratmaq üçün bir sıra konsepsiya və təşəbbüslər istifadə olunmuşdur. Belə tədbirlər həm MTT əməliyyatlarının planlaşdırması, həm də həyata keçirmə tərəflərinin uğur əldə etməsinə əhəmiyyətli sürətdə töhfə verə bilər.

Yerdəyişmə və nəql

Geniş miqyaslı vəsait və təchizatın yerləşdirilməsi, mövqe tutması**,** irəliyə doğru hərəkəti də daxil olmaqla qüvvələrin effektli və vaxtaşırı yerdəyişməsi bütün növ hərbi əməliyyatlar üçün əsas şərtdir. NATO münasib yükdaşıma, nəql vasitələri, təchizat və qurumları təmin etməklə qoşun və vəsaitlərin strateji mobilliyini təmin etməyi bacarmalıdır. Bu strateji hava yükdaşıma və dəniz yükdaşımaları üçün maliyyə xartiyası sazişlərinə gətirib çıxaran çoxmillətli təşəbbüslər vasitəsilə mülki resursların mümkün istifadəsi daxildir.

Beynəlxalq Heyət və Beynəlxalq Hərbi Heyət daxilində MTT üçün cavabdeh olan mülki və hərbi heyət rəsmiləri heyətlər, Strateji Komandanlıqlar, müvafiq hərbi və mülki agentliklər daxilindəki siyasət və doktrina məsələlərini əlaqələndirir.

Aidiyyəti siyasət komitələri, təşkilat və agentliklər

Yüksək NATO Maddi-texniki təchizat ekspertlərinin Konfransı (SNIC)

MTT məsələləri üzrə əsas komitə olan SNIC ildə iki dəfə birgə mülki və hərbi sessiyalarda NATO Baş Katibinin sədrliyi altında toplaşır. O, iki

daimi həmsədrə malikdir - müdafiə siyasəti və planlaşdırma məsələlərinə üzrə Baş Katibin müavini və Hərbi Komitənin Sədr Müavini. SNIC həm mülki, həm də hərbi amillər üzrə MTT-dan asılılığı əks etdirməklə həm Şimali Atlantika Şurası, həm də Hərbi Komitəyə birgə hesabat verir.

SNIC-ya üzvlük üzv dövlətlərdəki müdafiə nazirlikləri və ya MTT-ın istehlak məsələlərinə cavabdeh olan müvafiq qurumlarının yüksək milli mülki və hərbi nümayəndələrdən təşkil edilir. NATO nəzdindəki Strateji Komandanlıqlar, NATO Mühafizə və Təchizat Agentliyi, NATO Standartlaş-dırma Agentliyi, Hərbi Tibbi Xidmət Rəhbərlərinin Komitəsi və NATO Baş Qərargah Heyətinin digər sahələrindən olan nümayəndələr SNIC-nın işində iştirak edirlər. SNIC-nın ümumi mandatı Şimali Atlantika Şurası, NATO daxilində hərtərəfli MTT fəaliyyəti ətrafında ümumi əlaqələndirmə səlahiyyətinə malik qurum, adından İttifaq qüvvələrinin hərəkətliliyi, əhəmiyyəti, davamlılığı və döyüş hazırlığı bağlı MTT məsələlərinə istiqamətlənmək və təlim keçməkdir.

SNIC-ın Yerdəyişmə və Nəql Qrupu (M&TG)

NATO-dakı strateji mobillik ilə bağlı məsələlər üçün əsas diqqət mərkəzi hərbi və mülki agentliklər, NATO və üzv dövlətlərin qüvvələri arasında yerdəyişmə, nəql və mobillik məsələlərinə nəzarət ilə bağlı birgə yanaşmanı artırmaq üçün yaradılmış SNIC-ın alt qrupu, Yerdəyişmə və Nəql Qrupu-dur (Y&NQ). Y&NQ nəql imkan və qabiliyyətlərini planlaşdırır və dəyər-ləndirir, siyasi və hərbi tələbatları daha yaxşı qarşılamaq üçün tövsiyələr hazırlayır. O, mülki planlaşdırma şura və komitələrindən tövsiyələr alır: Mülki Aviasiya Planlaşdırma Komitəsi, Okean Gəmiçiliyi üzrə Planlaşdırma Şurası və Daxili Nəql üzrə Planlaşdırma Şurası.

NATO Təminat və Təchizat Təşkilatı (NAMSO)

NATO Təminat və Təchizat Təşkilatı ümumi tədarük**,** ehtiyat hissələrin təchizatı, mühafizə şərtləri və təmir vasitələri ilə iki və ya daha çox NATO üzvü olan dövlətlərin milli qeydiyyatdakı seçilmiş silah sistemlərinin MTT dəstəyi üçün strukturu təmin edir.

NATO Texniki-Təminat və Təchizat Agentliyi (NAMSA)

NATO Texniki-Təminat və Təchizat Agentliyi NAMSO-nun icraçı qoludur. Onun əsas vəzifəsi təchizat, mühafizə, **yoxlama**, tədarük**,** nəqliyyat, texniki dəstək, mühəndislik xidməti, və idarəetmənin konfiqurasiyası sahələrində ümumiləşdirilmiş tədarük vasitəsilə maddi hazırlığı artırmaq, MTT əməliyyatlarının effektivliyini artırmaq və qənaət məqsədilə NATO-ya üzv olan dövlətlərinin malik olduğu ümumi silah və təchizat sistemlərinə MTT xidməti təmin etməkdir. NTTA tərəfindən yaradılan müasir maddi nəzarət və tədarük texnikalarına **SHARE** kimi tanınan – Ehtiyyatların saxlanması və maddi-texniki vasitələr üzrə tələblərin mübadiləsi" (**Stock Holding və Assets Requirements Exchange)** sxemi və "Birgə istifadə olunan maddi-texniki vasitələrin idarəolunması" (**Common İtem Material Management (COMMİT))** daxildir. NTTA həmçinin Milli Silahlanma Direktorları Konfransı adından NATO-nun Kodifikasiya Sistemi və yerləşdirilmiş NATO qüvvələrinin MTT yardımına nəzarət edən Kodifikasiya üzrə Milli Direktorlar Qrupuna yardım edir.

43-cü Fəsil

METEOROLOGİYA

NATO çərçivəsində meteoroloji sahədə əməkdaşlığın məqsədi milli və NATO əmlakından səmərəli istifadə edərək NATO qüvvələrini dəqiq və vaxtlı-vaxtında meteoroloji informasiya ilə təmin etməkdir. Bu işin məsuliyyəti Hərbi Komitənin Meteoroloji Qrupu üzərinə düşür.

Aidiyyəti siyasi komitələr, təşkilatlar və agentliklər

Hərbi Komitənin Meteoroloji Qrupu (MCMG)

Hərbi Komitənin Metereoloji Qrupu milli və NATO Starteji Komandanlığının nümayəndələrindən təşkil olunmuş forumdur. Hərbi Komitənin Meteoroloji Qrupu Hərbi Komitəyə, Strateji Komandanlığa və NATO üzv dövlətlərinə metereoloji bələdçilik edir. Bu işdə Hərbi Komitənin Meteoroloji Qrupuna digər iki daimi qrup- Əməliyyatlar, Planlar və Rabitə üzrə İşçi Qrupu və Döyüş Ərazisi Meteoroloji Sistemi və Dəstəyi İşçi Qrupu yardım göstərir.

Əməliyyatlar, Planlar və Rabitə üzrə İşçi Qrupu NATO təlimlərinin və əməliyyatlarının planlaşdırılması üçün meteoroloji informasiya verir. Bu qrup eyni zamanda meteoroloji rabitə imkanlarını və rabitə prosedur standartlarını, meteoroloji informasiya mübadiləsini təkmilləşdirir. NATO-nun birləşmiş strukturunun yenidən təşkili ilə əlaqədar olaraq bu funksiya Müttəfiqlərin Əməliyyatlar üzrə Komandanlığına verilir.

Döyüş Ərazisi Meteoroloji Sistemi və Dəstəyi İşçi Qrupu tədqiqat işində əməkdaşlığı, təkmilləşməni və yeni meteoroloji ləvazimatların, texnikanın əməliyyat imkanlarına çevrilməsi işinə təkan verir.

Bu qrup NATO-nun digər qruplarına meteorologiya ilə bağlı məsələlərdə texniki məsləhətlər verir və daşqınların proqnozu, dumanın süni yolla dağıdılması kimi tədqiqat işlərini öz üzərinə götürür. Ümumi hava proqnozu taktiki planların və missiyaların həyata keçirilməsi üçün dəqiq informasiya vermir. Buna görə də işçi qrupu üzv ölkələr tərəfindən yaradılmış Qərarın Qəbul olunması üçün Taktiki Yardımın meteoroloji avadanlığının siyahısını saxlayır. Qərarın Qəbul olunması üçün Taktiki Yardımın işini daha da standartlaşdırmaq üçün işçi qrupu NATO ölkələri üçün kitabxana təsis edib.

Hərbi Komitənin Meteoreoloji Qrupu Sülh Naminə Tərəfdaşlıq və Aralıq Dənizi Dialoqu proqramı çərçivəsində Tərəfdaş ölkələrlə illik görüşlər keçirir. Bu qrup Tərəfdaş ölkələrə Meteoroloji Vəsait Dəstəyi verir. Tərəfadaş ölkələr həm də Döyüş Ərazisi Meteoroloji Sistemi və Dəstəyi İşçi Qrupu da fəaliyyət göstərirlər.

Əlavə məlumat:
MCMG Operations Division (IMS)
NATO Headquarters
1110 Brussels
Belgium
Tel: +32 2 707 5538
Fax: +32 2 707 5988
Email: imssmo@hq.nato.int

44-cü Fəsil

HƏRBİ OKEANOQRAFİYA

Hərbi okeanoqrafiya suda aparılan əməliyyatlara təsir göstərən okean şəraitini, temperatur və duzluluq dərəcəsini, sahil xüsusiyyətlərini tədqiq edir. Hərbi Okeanorqrafyanın işi suda aparılan əməliyyatların bir çox aspektinə, xüsusilə də sualtı qayıqlara qarşı mübarizə, minalara qarşı mübarizə, suda və quruda aparılan mübarizə əməliyyatlarına uyğun gəlir. Bu sahədə aparılan işin məqsədi okeanoqrafiyanın imkanlarından NATO-nun xeyrinə maksimum dərəcədə istifadə etməkdir.

Aidiyyəti siyasi komitələr, təşkilat və agentliklər

Hərbi Okeanoqrafiya Qrupu

Hərbi Okeanoqrafiya Qrupu milli nümayəndələr, NATO komandanlığı və Müttəfiqlərin Transformasiya Komandanlığının nümayəndələrindən ibarətdir. Bu qrup NATO Strateji Komandanlığına məsləhətlər verir və özündə kiçik qrupları birləşdirir. Hərbi Okeanoqrafiya Qrupu hərbi okeanoqrafiya işinin Alyansın strategiyası ilə uzlaşmasını təmin edir. NATO əməliyyatlarını və təlimlərini dəstəkləmək, hərbi okeanoqrafiya sahəsinə tətbiq oluna biləcək plan və siyasəti təyin etmək, okeanoqrafiya sahəsində tədqiqat və təkmilləşdirmə işinə yardım etmək, meteorologiya və coğrafiya sahəsində fəaliyyət göstərənləri də özündə birləşdirən milli qruplar və NATO arasında əlaqələndirici rol oynamaq Hərbi Okeanoqrafiya Qrupunun fəaliyyətlərinə daxildir. Hərbi Okeanoqrafiya Qrupu ətraf mühitə dəstək verən konsepsiyaları dəstəkləyir. Qrup həm də NATO-nun ətraf mühitin operativ qiymətləndirilməsi konsepsiyasının təşkil olunmasına məsuldur. Bu metodologiya hərbi istifadəçilərin ehtiyaclarına uyğun vaxtında dəstək vermək üçün təkmilləşmiş texnologiyadan - kompüterdən, sensordan, şəbəkə sistemindən istifadə edir.

Qrup NATO-nun Avropa İttifaqı ilə strateji əməkdaşlığından, Sülh Naminə Tərəfdaşlığın və NATO-nun genişlənməsi prosesindən irəli gələn tələbləri nəzərə alır və qarşılıqlı əməkdaşlığın güclənməsinə yardım göstərir.

Hərbi Okeanoqrafiya Qrupunun yarımqrupları Hərbi Okeanoqrafiya Qrupunun təyin etdiyi tapşırıqları təhlil edir və lazımi tövsiyə və hesabat hazırlayır. Hərbi Okeanoqrafiya Qrupu hər il görüşür və Tərəfdaş ölkələr də

Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində bu görüşlərdə iştiraka sövq edilir.

Əlavə məlumat:
MILOC Group
Strategy Division
HQ SACLANT
7857 Blandy Road, Suite 1000
Norfolk, Virginia 23551-2490
USA
Tel: +1 757 445 3431
Fax: +1 757 445 3271
Website: www.saclant.nato.int

45-ci Fəsil

İCTİMAİ DİPLOMATİYA KOMMUNİKASİYA VƏ MƏLUMAT PROQRAMLARI

Milli müdafiə və təhlükəsizlik siyasətini və İttifaq üzvü kimi öz rolunu ictimaiyyətə izah etmək hər bir üzv hökumətin öz üzərinə düşür. NATO-nun siyasəti və məqsədləri barədə ictimaiyyətə çatdırılacaq informasiya mənbəyini və informasiyanın çatdırılma metodunu təyin etmək də hər bir ölkənin öz üzərinə düşür.

Bütün NATO ölkələri həm öz vətəndaşlarının təhlükəsizliklərinə təminat verən beynəlxalq struktur haqqında məlumat əldə etmək hüququnu, həm də ictimaiyyətin ölkənin təhlükəsizlik siyasətini anlayıb dəstək verməsinin əhəmiyyətini tanıyır.

NATO-nun ictimai diplomatiya sahəsində rolu ölkələrin ictimai informasiya fəaliyyətinə kömək etməkdir. Məqsəd İttifaqın siyasət və məqsədini ictimaiyyətə izah etmək, dialoq və anlaşmaya nail olmaq və beləliklə də cəmiyyətin təhlükəsizlik məsələlərinə dair məlumatını artırmaq və onları təhlükəsizliyə dair konstruktiv müzakirələrə cəlb etməkdir. NATO bu məqsədlə informasiya yayır və jurnalistlər, akademik və parlament qrupları, gənclər, tələbələr və digərləri üçün proqramlar təşkil edir. NATO həm də müzakirələrin davamlı olmasını və beynəlxalq təhlükəsizlik məsələlərinə dair siyasi kursun müəyyənləşdirilməsi prosesinə stimul verir.

NATO İctimai Diplomatiya tərəfindən idarə olunan proqramlar müxtəlif tədbirlərdən - NATO Baş Qərargahında keçirilən tədbirlərdən, NATO heyəti tərəfindən idarə olunan xarici tədbirlərdən, Baş Qərargahın hüdudlarından kənar hökumət yaxud qeyri-hökumət təşkilatlarının himayəsi altında keçirilən və NATO tərəfindən maliyyələşə bilən tədbirlər, NATO-nun birbaşa yaxud dolayı yardımı ilə xarici təşkilatların həyata keçirdikləri tədbirlər.

Rabitə və informasiya tədbirlərini üç yerə ayırmaq olar: mətbuat və media, xarici əlaqələr və elektronik yaxud qeyri-elektronik informasiya yayımı. Hərbi ictimai informasiya üzrə məsləhətçi Hərbi Komitənin Sədrinin nümayəndəsi kimi xidmət göstərir və Hərbi Komitə və Beynəlxalq Hərbi Qərargahla bağlı mətbuat və mediaya gündəlik məlumat verir. Bu cür tapşırıq alan məmur əsas ictimai informasiya şəbəkəsi arasında əlaqələndirici rol oynayır. Hərbi ictimai informasiya üzrə məsləhətçinin vəzifəsi Beynəlxalq Hərbi Qərargahın strukturuna daxildir, lakin koordinasiya və əlaqələndiricilik üçün Beynəlxalq Qərargahın da strukturuna daxildir.

Mətbuat və Media Fəaliyyəti

Mətbuat yığıncağı, məmurlarla müsahibələr, şəkillər, səs və video cihazları, elektron ötürücü xidmətlər bütün il boyu mətbuatın ehtiyaclarını ödəməyə xidmət edir. Zirvə görüşləri yaxud İttifaqda baş verən yeniliklər mindən çox jurnalistin diqqətini NATO-ya yönəldə bilər.

Mətbuat nümayəndəsi və mətbuat məmurları Baş Katibin Şəxsi Ofisi hər gün sıx əlaqə saxlayır və media və mətbuat əlaqələrində Baş Katibə yardım göstərirlər. Onlar NATO-nun siyasəti və əməliyyatları barədə izahat vermək üçün jurnalistlərlə sıx əlaqədə saxlayır və mətbuat səfərləri təşkil edirlər.

NATO-nun internet səhifəsində İttifaq haqqında məlumat yer alır. Rəsmi sənədlər (müqavilə, saziş, bəyanat), nitq və məqalələr, tədris materialları ilə yanaşı internet səhifəsindən son məlumatları da sifariş vermək olar. Çoxsaylı media materialları (video konfranslar, şəkillər, audio sənədlər) internet səhifəsində yerləşdirilib. İstifadəçilər NATO və onunla bağlı sualları internet vasitəsi ilə ünvanlaya bilərlər. NATO internet səhifəsi eyni zamanda jurnalistlər üçün mətbuat yığıncağı, onlar maraqlandıran digər fəaliyyətlər (mətbuat səfərləri və s.) üçün rabitə rolunu oynayır. NATO-nun Baş Qərargahda fəaliyyət göstərən milli və beynəlxalq heyət üçün kitabxanası var. Burada siyasi və hərbi elmə, strateji məsələlərə, silah istehsalına və tərksilah, beynəlxalq təşkilatlara, iqtisadiyyata, hüquqa və s. dair 20 000 kitab və 200 jurnal daxildir. İstifadəçilər NATO kitabxanasının kataloquna daxil olmaqla bu kitabxanadan istifadə edə bilərlər.

Aidiyyəti siyasi komitələr və digər orqanlar

İctimai Diplomatiya Komitəsi informasiya siyasəti məsələlərinə baxır və aidiyyəti işlərdə Şimali Atlantika Şurasına məsləhətlər verir. Komitə NATO-dakı millətlərin nümayəndələrindən ibarətdir. Komitəyə İctimai Diplomatiya üzrə Baş Katibin Köməkçisi rəhbərlik edir. Bu komitə həm də Tərəfdaş ölkələrin nümayəndələrinin iştirakı ilə müntəzəm olaraq Avro-Atlantika Tərəfdaşlıq Şurası formatında və Tərəfdaş ölkələrin paytaxtında yerləşən əlaqə mərkəzi səfirliklərin nümayəndələri ilə vaxtaşırı olaraq görüşlər keçirir. Tərəfadaş ölkələrdə yerləşən NATO üzv dövlətlərinin Səfirlikləri növbə ilə əlaqə mərkəzi səfirlikləri kimi xidmət göstərir.

İslandiyanın mərkəzi Reykyavikdə NATO-nun **Regional İnformasiya Mərkəzi** yerləşir. Bundan başqa NATO-nun heç bir üzv dövlətində regional informasiya mərkəzi yoxdur.

Bu mərkəzin nümayəndəsi 1995 və 2001-ci ildə Moskvada yerləşən və İctimai Diplomatiya Komitəsi tərəfindən idarə olunan və maliyyələşdirilən **NATO Moskva İnformasiya Ofisinə** ezam edilmişdir. Ofis ölkənin hər yerində proqramlar təşkil edir, Rusiya vətəndaşlarına, NATO və təhlükəsizlik məsələləri ilə məşğul olan təşkilatlara layihələrin həyata keçirilməsində, tədqiqat işlərində dəstək verir, lazımı informasiya ilə təmin edir və onları NATO ilə bağlı sənədlər və nəşrlərlə təmin edir. NATO və Rusiyanın birgə reallaşdırdığı layihələr və NATO-Rusiya münasibətlərindən bəhs edən analitik məqalələrin və digər sənədlərin əksəriyyəti Rusiyada nəşr edilir.

İctimai Elmlər üzrə Rusiya Elmi İnformasiya İnstitutunun binasında yerləşən müstəqil **NATO Sənədləşdirmə Mərkəzi** 1998-ci ilin yanvarında Moskvada açılmışdır. Mərkəz təhlükəsizlik məsələləri ilə bağlı nəşrlər və sənədlərlə təminat yaradır, akademik və digər oxucu kütləsi üçün bülletenlər çap etdirir.

Kiyevdə 1996-ci ildə **NATO İnformasiya və Sənədləşdirmə Mərkəzi** açıldı. Moskvadakı informasiya ofisi kimi bura da İctimai Diplomatiya İdarəsinin nəzarəti altında fəaliyyət göstərir və bütün ölkədə informasiya proqramları təşkil edir, layihə və tədqiqat işlərinə dəstək verir, sənəd və nəşrlərlə təmin edir. Mərkəz sənədlərlə təmin etmə, qarşılıqlı əməldaşlıq və fəaliyyətin təmin edilməsində mühüm rol oynayır. Mərkəz Beynəlxalq İşlər üzrə Ukrayna İnstitutunun binasında yerləşir. Mərkəz NATO-ya səfər və seminarların təşkili kimi informativ xidmət göstərir.

NATO ilə yanaşı NATO və Tərəfdaş ölkələrin ictimai informasiya ofisi, NATO Parlament Assambleyası, qeyri hökumət təşkilatları və digər institut və təsisatlar da yazılı materiallar paylamaqla, internet imkanlarından yararlanmaqla və ictimaiyyətin suallarını cavablandırmaqla İttifaqla bağlı informasiya ilə təminat yaradırlar.

46-cı Fəsil

İCTİMAİ DİPLOMATİYA, ELMİ VƏ ƏTRAF-MÜHİT PROQRAMLARI

Universallıq, çətin suallara cavab tapmaq, ölkələr arasında qarşılıqlı əlaqə və beynəlxalq şəbəkə yarada bilmək imkanlarına görə dünyəvi elmlər beynəlxalq dialoq qurmaq üçün ən effektiv vasitədir. NATO Elm Vasitəsilə Təhlükəsizlik Proqramı təhlükəsizlik məsələlərinin həllində elmin imkanlarından istifadəyə, sülh və təhlükəsizliyə qarşı yarana biləcək hədələrin qarşısını almağa, üzv və Tərəfdar ölkələrin elmi əməkdaşlığıyla təklif olunan imkanlar üçün uğurlu mexanizm olmağa yönəlmişdir.

NATO-nun Elm Vasitəsilə Təhlükəsizlik Proqramı

NATO-nun Elm Vasitəsilə Təhlükəsizlik Proqramın məqsədi elmin imkanlarından istifadə etməklə təhlükəsizliyi, sabitliyi və həmrəyliyi qoruyub saxlanılmasına töhfə verməkdir. Qarşılıqlı əməkdaşlıq, şəbəkə halında fəaliyyət bu məqsədlərə çatmaq üçün istifadə olunan vasitələrdir. Digər məqsəd isə proses çərçivəsində NATO Tərəfdaş ölkələrində demokratik islahatları sürətləndirmək və iqtisadi inkişafa təkan verməkdir. Eyni zamanda proqramın qarşısında gənc alimlərlə əlaqə qurmaq, onlara təcrübələrini artırmaq və təlimlərdə iştirak etmək imkanı yarmaqdır.

Proqram alimlərə prioritet tədqiqat sahələrində əməkdaşlıq etmək üçün qrantlar təklif edir və Tərəfdaş ölkələrdə kompüter infrastrukturu yaratmaq işində akademik cəmiyyətləri maliyyələşdirir. Prioritet sahələrə dəstək vermək üçün ərizələr birgə olaraq NATO, Tərəfdaş ölkələr və Aralıq dənizi Dialoqu ölkələrinin alimləri tərəfindən hazırlanır. Xüsusi ərizə formaları proqramın internet səhifəsində (www.nato.int/science) yerləşdirilmişdir. Ərizə formaları il ərzində üç dəfə, elmi-məsləhət panelinin icmal sessiyalarının tarixlərinə uyğun olaraq təqdim edilə bilər.

Proqramın məqsədlərinə nail olmaq üçün birgə əməkdaşlıq qrantları və kompüter şəbəkəsindən istifadə olunur:

- Prioritet tədqiqat sahələrində birgə əməkdaşlıq qrantları:

- Birgə Əməkdaşlıq üzrə Qrant: tədqiqat layihələri üzrə ideya və resurs toplamaq və mükəmməl şəbəkələrin yaradılması üçün qrantlar;

- Ekspert səfərləri: tədqiqatlar işində ekspert mübadiləsi üçün qrantlar;
- Təkmilləşdirilmiş Elmi Tədqiqat İnstitutları: əldə olunan yenilikləri yaymaq məqsədilə təlim kurslarının təşkili üçün qrantlar;
- Təkmilləşdirilmiş Tədqiqatlar üzrə İşçi Görüşü: gələcək fəaliyyətin istiqamətlərini müəyyənləşdir üçün fikir mübadiləsi aparan işçi görüşlərinin təşkili üçün qrantlar;
- Sülh Naminə Elm layihələri; Tərəfdaş və Aralıq Dənizi Dialoqu ölkələrində uzunmüddətli tədqiqat işi və inkişaf layihələri üzrə əməkdaşlıq üçün qrantlar;
- İnteqrasiya Qrantları; NATO ölkələrində çalışan gənc alimlərə öz ölkələrinə qayıtmaq və tədqiqat cəmiyyətlərinə yenidən inteqrasiya etmək imkanı verən qrantlar.

Birgə əməkdaşlıq qrantları Terrorizmə Qarşı Müdafiə və ya Təhlükəsizliyə Yönələn Hədələrin Qarşısının Alınması və Tərəfdaş Ölkələrin Prioritetləri mövzusunda olan tədqiqat işləri üçün ayrılır. Bu layihələr xüsusi olaraq da təyin oluna bilər. “Sadədən-mürəkkəbə” (top-down projects) kimi tanınan Elm Vasitəsilə Təhlükəsizlik layihələri və fəaliyyətləri qısa müddətli ekspert qrupları tərəfindən hazırlanır.

- o <u>Tərəfdaş ölkələr üçün kompüter şəbəkəsi təminatı:</u>

- Şəbəkə İnfrastrukturu Qrantları: telekommunikasiya aparatlarını təkmilləşdirmək üçün Tərəfdaş ölkələrin tədqiqat institutlarına yardım etməyi nəzərdə tutur;
- Təkmilləşdirilmiş Şəbəkə üzrə İşçi Görüşləri: milli və beynəlxalq səviyyədə şəbəkələrin işinin uyğunlaşdırılması üçün işçi qruplarının təşkili və ya peşəkar şəbəkə menecerlərinin biliyinin artırılması üçün təlimlərin təşkili üçün nəzərdə tutulur.

NATO-nun elmi proqramı Tərəfdaş ölkələrdə bir neçə tədqiqat və elmi institutlarını internetə çıxışını təmin etmək üçün lazımı şəbəkə infrastrukturu ilə təmin edilib. Rusiyanın və Ukraynanın şərq regionlarında akademik cəmiyyətin internetə çıxış əldə etməsi üçün mərkəzi internet şəbəkəsi, həmçinin Moldova və Makedoniyada isə milli internet şəbəkəsi yaradılmışdır. Bu ərazidə NATO tərəfindən maliyyələşdirilən ən böyük və mötəbər layihə isə Virtual İpək Yolu layihəsidir. Bu layihəyə əsasən Cənubi Qafqaz və Mərkəzi Asiyanın akademik və elmi cəmiyyətləri peyk-internetlə təmin edilir.

Bu internet şəbəkəsi Əfqanıstana qədər genişləndirilmişdir. Kompüter şəbəkəsi qrantları məqsədinə görə birgə əməkdaşlıq qrantlarından fərqləndiyinə üçün prioritet tədqiqat sahələrinə daxil deyil. Bu qrantlar kompüter şəbəkəsi imkanları zəif inkişaf etmiş Tərəfdaş ölkələrdə şəbəkə infrastrukturunun təkmilləşdirilməsi ilə bağlıdır.

- **NATO-Rusiya elmi əməkdaşlığı**

NATO Elm Vasitəsilə Təhlükəsizlik proqramı çərçivəsində Rusiya və NATO ölkələrində alimlər arasında əməkdaşlığa dəstək vermək üçün yeni bir proqram yaradılıb. NATO-Rusiya Şurası Elmi Komitəsi təhlükəsizliklə bağlı altı sahədə əməkdaşlığı nəzərdə tutan Fəaliyyət Planı hazırlayıb. Əməkdaşlıq sahələri: partlayıcıların aşkar edilməsi, terrorizmin psixoloji və sosial nəticələri, təbii fəlakətlərin proqnozlaşdırılması və qarşısının alınması, Kimyəvi, Bioloji, Radioaktiv və Nüvə silahlarından müdafiə, kiber-təhlükəsizlik və nəqliyyat təhlükəsizliyi. NATO ölkələrinin alimləri ilə birgə əməkdaşlıq şəraitində işləyən Rusiya alimləri bu sahələrdə fəaliyyət göstərmək üçün NATO-ya ərizə təqdim edə bilərlər. Elm Vasitəsilə Təhlükəsizlik proqramı, Birgə Əməkdaşlıq üzrə Qrant, Ekspert Səfərləri, Təkmilləşmiş Elmi Tədqiqatlar İnstitutu və Təkmilləşmiş Tədqiqatlar üzrə İşçi Görüşü dəstəkverici mexanizmlərdir. Təkmilləşmiş Elmi Tədqiqatlar İnstitutu və Təkmilləşmiş Tədqiqatlar üzrə İşçi Görüşü adətən Rusiyada təşkil olunur. Rusiya alimləri həm də Avro-Atlantika Tərəfdaşlıq Şurası çərçivəsində əsas əməkdaşlıq proqramlarında iştirak edə bilərlər.

- **Fondlar, təltiflər və NATO Elmi Əməkdaşlıq Mükafatları**

Təkmilləşmiş Elmi Tədqiqatlar İnstitutu və Təkmilləşmiş Tədqiqatlar üzrə İşçi Görüşünün direktorlarının ixtiyarında NATO-nun fondları var və bu fondlardan NATO, Tərəfdaş ölkələri və Aralıq Dənizi ölkələrindən gələn ixtisaslı nümayəndələrin xərclərini ödəmək üçün istifadə oluna bilər. İclasların yenilənmiş cədvəlini internet səhifəsindən əldə etmək mümkündür. Sözügedən iclaslarda iştirak etmək üçün direktorlara müraciət olunmalıdır.

Elm Vasitəsilə Təhlükəsizlik proqramının əldə etdiyi mükafatlar əsasən elmi jurnallarda yaxud Təkmilləşmiş Elmi Tədqiqatlar İnstitutu və Təkmilləşmiş Tədqiqatlar üzrə İşçi Görüşünün nəticələrini ehtiva edən NATO Elmi Nəşrləri Seriyasında dərc olunur. NATO Elmi Nəşrləri Seriyasının kataloqu təşkilatın internet səhifəsində yerləşdirilmişdir.

İllik mükafat NATO və Tərəfdaş ölkələrin alimləri arasında proqramın işində göstərilən üstünlüyə görə təqdim olunur. NATO Elmi Tərəfdaşlıq

Mükafatı 2002-ci ildə təsis olunmuşdur və bu mükafat NATO Baş Katibi tərəfindən qaliblərə təntənəli şəkildə təqdim olunur.

- **Proqramın İdarəsi**

Bu proqram NATO-nun Brüsseldə yerləşən Baş Qərargahının Beynəlxalq Heyəti tərəfindən idarə olunur. Proqram əməkdaşlıq proqramları həmçinin təhdid və çağırışlar sahəsində inkişaf edir. İctimai Diplomatiya üzrə Baş Katibin köməkçisi Elmi Araşdırmalar Proqramının rəhbəridir. Elmi kooperasiyanın fəaliyyətinin məsuliyyəti Baş Katibin köməkçisi müavininin üzərinə düşür.

Avro-Atlantika Tərəfdaşlıq Şurası NATO-da Avro-Atlantika Tərəfdaşlıq Şurasının üzv ölkələri və NATO-nun Elm Vasitəsilə Təhlükəsizlik proqramı çərçivəsində əməkdaşlıq edən ölkələr üçün siyasi və təhlükəsizliklə bağlı məsləhətləşmələrin istiqamətini müəyyənləşdirir. NATO-Rusiya Şurası tərəfindən yaradılmış NATO-Rusiya Şurasının Elmi Komitəsi NATO ölkələri və Rusiya alim və ekspertlərinin hazırladığı birgə əməkdaşlıq layihələrinə yardım göstərir və onları əlaqələndirir**.**

Aralıq Dənizi Dialoqu ölkələrindən olan alimlər aşağıdakı prioritet tədqiqat sahələrindəki birgə əməkdaşlıq fəaliyyətlərində iştirak edə bilələr: Elm Vasitəsilə Təhlükəsizlik layihələri, Birgə Əməkdaşlıq üzrə Qrantlar, Ekspert Səfərləri, Təkmilləşmiş Elmi Tədqiqatlar İnstitutları, Təkmilləşmiş Tədqiqatlar üzrə İşçi Görüşü, Şəbəkə İnfrastrukturu Qrantı, Şəbəkələşmə Seminarları. Əməkdaşlıq üçün ərizə formaları bir və ya bir neçə NATO ölkəsinin alimləri ilə birgə hazırlanmalıdır.

- **Proqramın qiymətləndirilməsi**

Proqramın əsası 1956-cı ildə Kanada, İtaliya və Norveçin Xarici İşlər Nazirlərinin NATO-da qeyri-hərbi əməkdaşlıq haqqında hesabatının (Üç müdrik adamın hesabatı) qəbulu ilə qoyulmuşdur. Hesabatda elm və texnologiya sahəsində inkişafın ölkələrin təhlükəsizliyi və dünyada tutduğu mövqenin müəyyənləşdirilməsində mühüm rol oynadığı vurğulanır. Hesabatda həmçinin qeyd olunur ki, elm və texnologiya Şimali Atlantika Şurası üçün xüsusi əhəmiyyətə malikdir. Bu məqsədlə elmi əməkdaşlığı artırmaq üçün NATO Elmi Araşdırmalar Proqramı təsis olunmuşdur.

40 il ərzində NATO ölkələrinin alimləri arasında müxtəlif formalarda qarşılıqlı əməkdaşlıq dəstəklənmiş, elmi standartların üstün formaları yaradılmışdır. Soyuq müharibə başa çatdıqdan sonra NATO-ya daxil

olmayan ölkələrin də bu proqrama qoşulmaq imkanı yaranmışdır. 1999-cu ildən etibarən proqram çərçivəsində NATO, Tərəfdaş və Aralıq Dənizi Dialoquna daxil olan ölkələrin alimləri arasında əməkdaşlıq qurulur. Beynəlxalq terrorizmə və müasir dünyada təhlükəsizliyə qarşı yönəlmiş digər hədələrə cavab olaraq 2004-cü ildə proqramda təhlükəsizliklə bağlı əməkdaşlıq istiqamətində əsaslı dəyişikliklər edilmişdir. Əvvəllər NATO Elmi Araşdırmalar Proqramı adlanan bu layihə öz missiyasını adında da əks etdirməsi üçün NATO Elm Vasitəsilə Təhlükəsizlik proqramı adlandırıldı. 2004-cü ildən NATO ölkələri həm bu proqram, həm də Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitə, Ətraf Mühit və Təhlükəsizlik Təşəbbüsləri (ENVSEC), Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP), Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) çərçivəsində bir araya gəliblər. NATO həmçinin Avropa Elmi Araşdırmalar Fondu və Keçmiş Sovetlər İttifaqından ayrılmış Yeni Müstəqil Dövlətlərin alimləri özündə birləşdirən birgə Əməkdaşlığın İnkişafı üzrə Beynəlxalq Assosiasiya ilə birgə fəaliyyət göstərir.

Əlavə məlumat:
Programme for Security through Science
Public Diplomacy Division
NATO Heardquarters
1110 Brussels
Belgium
Tel: +32 2 707 4111
Fax: +32 2 707 4232
Email: science@hq.nato.int
Website: www.nato.int/science

- ***Müasir Cəmiyyətin qarşısında duran təhdidlər***

Müasir Cəmiyyətə Təhdidlər proqramının məqsədi qeyri-ənənəvi silahların təhkükəsizliyə yönələn hədələr, iqtisadiyyata olan risklər, sosial-siyasi qeyri-stabillik və resurs çatışmamazlığı ilə bağlı konfliktlərin qarşısını almaqdır. Bu proqram öz məqsədləri, prinsipləri və iş metoduna görə Elm Vasitəsilə Təhlükəsizlik Proqramından fərqlənir.

Proqram 1969-cu ildə Simali Atlantika Şurası tərərfindən üzv dövlətlərin və onların əhalisinin həyatına mənfi təsir göstərə biləcək problemlərin qarşısının alınması təşəbbüsü ilə yaradılmışdır. Bir neçə ildən sonra Tərəfdaş və Aralıq Dənizi Dialoqu ölkələrinin ekspertlərinin proqrama cəlb

edilməsi və təhlükəsizlik problemlərinin həll üçün həyata keçirilən tədbirlər intensivləşdirilib. Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitə cəmiyyətin həm mülki, həm də hərbi sahələrində ətraf mühit məsələlərinin texniki, elmi və siyasi aspektlərinə dair bilik və təcrübə mübadiləsi aparmaq üçün xüsusi forumdur. Proqram bu işdə mümkün qədər qısa müddət ərzində nəticə əldə etmək üçün NATO və Tərəfdaş ölkələrin ekspert və texnalogiyasından istifadə edərək milli səviyyədə dövlətlərin ətraf mühit təhlükəsizliyi və cəmiyyətdəki problemləri ilə məşğul olur. Proqramın əsas məqsədi hərbi əməliyyatların ətraf mühitə mənfi təsirini azaltmaq, regional və sərhəd-keçid nəzarətilə bağlı seminarlar təşkil etmək, resurs çatışmamazlığı ilə bağlı konfliktlərin qarşısını almaq, iqtisadi, social və siyasi sahədə qeyri-stabilliyə səbəb ola biləcək ətraf mühit və cəmiyyətlə bağlı risklərin öyrənilməsi və qeyri-ənənəvi silahların təhlükəsizliyə yönələn hədələrini aradan qaldırılmasıdır.

Həyata keçirilən tədbirlər üçün əsas meyar, çox sayda ölkənin müasir cəmiyyətə təhdidlər mövzusunda kollektiv şəkildə işləməyə və mövcud imkanlarını sərf etməyə hazırd olmasıdır. Tədbirlər əsasən milli səviyyədə maliyyələşdirilən, 3-4 il davam edən pilot təlimlər və 12-18 ay davam edən müvəqqəti (ad hoc) xüsusi işçı layihələrə bölünür. Bu tədbirlərə həmçinin cari məsələlərə dair təlimlər, birgə maliyyələşdirilən konfrans və seminarlar daxildir. Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitənin işini ehtiva edən hesabatlar böyük tirajla dərc olunur və pulsuz yayılır.

Son illərdə həyata keçirilən layihələrə misal olaraq hərbi sahədə ətraf mühitin idarə olunası sistemi, keçmiş hərbi ərazilərin təmizlənməsi və yenidən istifadə olunması, Çernobl qəzasının fəsadlarının müəyyənləş-dirilməsi, Xəzər dənizində ətraf mühit problemləri, Mərkəzi Asiyanın inkişafı üçün ətraf mühit sahəsində qərarların qəbulu və ərzaq təhlükəsizliyinə dair layihələri göstərək olar. Komitə tədricən əsas diqqəti beynəlxalq ictimaiyyəti narahat edən təhlükəsizlik sahələrində əldə edilmiş elmi və texnoloji nailiyyətlərin qorunmasına yönəldir.

1995-ci ildən iştirakçılara məlumat bazasına daxil olmağa və lazımı informasiyanı əldə etmək, nizama salmaq, bərpa etməyə və yaymağa imkan verən internet əsaslı Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitənin Xüsusi Yardım mexanizmi (Clearing House Mechanism) fəaliyyət göstərir. İnternet səhifəsində Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitənin sınaq tədqiqatları barədə texniki hesabatlar, layihələr və komitənin fəaliyyəti barədə məlu-matlar yerləşdirilir.

Əlavə məlumat:
NATO - CCMS
Public Diplomacy Division
NATO Headquarters
1110 Brussels
Belgium
Tel: +32 2 707 4850
Fax: +32 2 707 4232
Email: ccms@hq.nato.int
Website: www.nato.int/ccms

Aidiyyəti siyasi komitələr, təşkilatlar və agentliklər

NATO Elm Vasitəsilə Sülh Proqramına üzv dövlətləri və ya müstəqil milli elmi tədqiqatlar institutları tərəfindən təyin olunmuş elmi tədqiqat siyasəti üzrə ekspertlərdən ibarət olan NATO Elmi Komitəsi rəhbərlik edir. Komitəyə İctimai Diplomatiya üzrə Baş Katibin Köməkçisi başçılıq edir. Komitə bir qayda olaraq ildə üç dəfə toplantı keçirir. Toplantıların biri Tərəfdaş ölkələrin nümayəndələrinin də iştirak etdiyi Avro-Atlantika Tərəfdaşlıq Şurası formatında keçirilir. Komitə ildə iki dəfə elmi sahədə qarşılıqlı maraq doğuran məsələlərin müzakirə olunduğu NATO-Rusiya Şurası formatında görüş keçirir.

Ərizə formalarını seçməkdə ona NATO Elmi Komitəsi köməklik edir. Sözügedən komitə beynəlxalq elmi cəmiyyətlərin üzvləri, Tərəfdaş ölkələr və Aralıq Dənizi Dialoqu ölkələrinin nümayəndələrindən ibarətdir.

Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitə ildə iki dəfə plenar iclasda və ildə bir dəfə İctimai Diplomatiya üzrə Baş Katibin Köməkçisinin rəhbərlik etdiyi Avro-Atlantika Tərəfdaşlıq Şurası formatında görüş keçirir. Bu komitə ətraf mühit üzrə milli proqramlara cavabdeh olan ekspertlərdən ibarətdir. Komitə NATO və Tərəfdaş ölkələrdə mülki və hərbi sahələrdə ətraf mühit məsələlərinin texniki, elmi və siyasi aspektlərinə dair bilik və təcrübə mübadiləsi aparmaq üçün forumdur. Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitənin başlıca fəaliyyət prinsipi NATO missiyasına uzlaşdırılması üçün 2000-ci ildə istinad müddəti yenilənmişdir.

Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitə siyasi məsələləri və Fəaliyyət Planının tətbiqini təhlil etmək üçün NATO-Rusiya Şurası formatında ildə iki dəfə görüş keçirir. NATO-Rusiya Şurası Fəaliyyət Planı çərçivəsində ətraf mühitin mühafizəsi məsələlərinin də daxil olduğu 12 əməkdaşlıq sahəsi

müəyyənləşdirilmişdir. Elmi Komitə və Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitə eyni zamanda Ukrayna ekspertlərinin gələcəkdə Müasir Cəmiyyətə Təhdidlər proqramının fəaliyyətində və Təhlükəsizlik Naminə Elmi Araşdırmalar Proqramında iştirak imkanlarını nəzərdən keçirmək üçün elmi və ətraf mühit məsələlərində əməkdaşlığa dair xüsusi NATO – Ukrayna Birgə İşçi Qrupu təsis etmişdir.

47-ci Fəsil

ELMİ TƏDQİQAT VƏ TEXNOLOGİYA

İttifaqın hərbi ehtiyacları üzrə toplantının başlıca məqsədi birgə tədqiqat və məlumat mübadiləsi işinin həyata keçirməkdə ona kömək olaraq milli müdafiə üzrə tədqiqat və texnologiyanın səmərəli istifadəsini dəstəkləmək, texnologiya sahəsində inkişafı qoruyub təmin etmək və NATO və milli səviyyədə qərar qəbul edən şəxslərə dəstək yolu ilə məsləhət verməkdən ibarətdir. Bu məsələlər milli ekspertlərin sıx şəbəkəsi, müxtəlif sahələrində tədqiqat və texnologiyanın fərqli tərəflərinə cəlb edilən NATO orqanları arasında əməkdaşlıq tələb edir.

Aidiyyəti siyasi komitələr, təşkilatlar və agentliklər

NATO Tədqiqat və Texnologiya Təşkilatı (RTO) NATO-nun müəyyən edilmiş istiqamət və koordinasiyaya müvafiq inteqrasiyası, müdafiə tədqiqatı və texnologiyası işinin təşkili, milli institutlar arasında birgə tədqiqat, texnologiya informasiyası mübadiləsinə dəstək vermək, uzunmüddətli NATO tədqiqat və texnologiya strategiyasının qurulmasına, tədqiqat və texnologiya məsələləri üzrə ümumi məsləhətləşmələrlə təmin edilməsi kimi vəzifələrə cavabdehdir.

RTO ilkin əməkdaşlığı yeni təşkilatı yaratmaq üçün bir araya gələn keçmiş Aerokosmik Tədqiqatlar və Təkmilləşdirmələr üzrə Məsləhətçi Qrup (NATO Tədqiqat və Texnologiya Təşkilatı nəzdində yenidən təşkil edilmiş Tədqiqat və Texnologiya Agentliyi) başçılığı altında müdafiə tədqiqatı və texnologiyası üzrə qurmuşdur. RTO həm Hərbi Komitə, həm də Silahlanma üzrə Milli Rəhbərliyin müşavirəsinə hesabat verir. Bu, tədqiqat və texnologiya üzrə NATO siyasətini müəyyənləşdirməyə cavabdeh olan və Nyulidə (Fransa) yerləşən Tədqiqat və Texnologiya Agentliyini Baş Qərargahı tərəfindən dəstəklənən Tədqiqat və Texnologiya Şöbəsindən ibarətdir. Tədqiqat və texnologiya sahəsində fəaliyyətlərin tam forması aşağıda qeyd olunan mövzularda öz əksini tapmışdır:

- Tədqiqatlar, təhlil və simulyasiya;
- Sistemlər anlayışı və inteqrasiya;
- Göstərici cihazlar və elektron texnologiyası;
- İnformasiya sistemləri texnologiyası;
- Tətbiqi vasitə texnologiyası;
- İnsan amilləri və səhiyyə;
- NATO modelləşdirmə and simulyasiya qrupu.

Hər sahə yüksək peşəkar ekspertlərin daxil olduğu milli nümayəndələrdən təşkil edilmişdir. Sözügedən fəaliyyət istiqamətlərində hərbi istifadəçilər və digər NATO orqanları ilə əlaqələr qurulur.

RTO-nun elmi və texnoloji işi qeyd edilmiş müəyyən müddət ərzinə, nəzərdə tutulmuş fəaliyyətlər üçün texniki komandalar vasitəsilə həyata keçirilir.

Texniki komandalar ekspertlər şəbəkəsinin davamlılığını təmin etmək üçün seminarlar, simpoziumlar, sahəvi sınaqlar, laboratoriya təcrübələri, mühazirələr və treninqlər təşkil edirlər. Onlar həmçinin uzunmüddətli planların hazırlanmasında mühüm rol oynayırlar. Hərbi istifadəçilər və NATO-nun digər fəaliyyət sahələri ilə əlaqələri gücləndirmək üçün RTA heyətinin bir hissəsi NATO-nun Brüsseldəki Baş Qərargahında Tədqiqat, Texnologiya və Sənaye bölməsində yerləşir Beynəlxalq Hərbi Heyət və Beynəlxalq Heyətin Müdafiə investisiyası şöbəsi ilə əlaqələr qurur. Tərəfdaş ölkələrə istiqamətləndirilmiş səylərin əlaqələndirilməsini Brüssel öz üzərinə götürmüşdür.

NATO strukturlarının digər hissələri ilə tədqiqat və texnologiya fəaliyyətlərinin koordinasiyası RTO nümayəndələrinin iştirakı NATO Məşvərət, Komanda və Nəzarət Şurası, (C3) NATO Elmi Komitəsi kimi idarəedici orqanların toplantıları və müvafiq şuralar vasitəsilə asanlaşdırılır. NATO hərbi imkanlarının transformasiyası əlaqəli texnoloji məsələlər üzrə Müttəfiqlərin Komanda Transformasiyasını müstəqil məsləhətlə təmin etmək üçün Texnologiya üzrə Məşvərətçi Heyət də yaradılmışdır. NATO C3 Agentliyinin Baş Direktoru və NATO Sualtı Tədqiqat Mərkəzinin direktoru Tədqiqat və Texnologiya Heyətinin keçmiş rəsmi üzvləridirlər. Üzv ölkələrlə tədqiqat və texnologiya üzrə fəaliyyətlərin əlaqələndirilməsi, təşkilatın simpozium, heyət toplantıları, mühazirələrin təşkili və məsləhət tapşırıqları kimi fəaliyyət işlərinə yardım edən milli əlaqələndiricilər vasitəsilə həyata keçirilirdi.

Əlavə məlumat üçün:
Research and Technology Agency (RTA)
BP 25
F-92201 Neuilly sur Seine
France
Tel: +33 1 55 61 22 00
Fax: +33 1 55 61 22 98/99
Email: mailbox@rta.nato.int
Website: www.rta.nato.int

48-ci Fəsil

STANDARTLAŞDIRMA

Standatrlaşdırma Alyansın hərbi qüvvələrinin birgə əməliyyatının səmərələliyinə əhəmiyyətli dərəcədə töhfə verməklə, iqtisadi resurslardan daha səmərəli istifadə etmək üçün imkanları dəyərləndirməyə şərait yaradır. Müdafiə sistemlərində əməkdaşlığı inkişaf etdirmək, tədqiqat, inkişaf, istehsal və maddi texniki təminat sahələrdə surətin çıxarılmasının qarşısını almaq üçün, ilk növbədə, STANAGs kimi tanınan NATO Standartlaşdırma üzrə Müqavilələri nəşriyyatı vasitəsilə geniş səylər həyata keçirilmişdir. STANAG-ın tətbiq olunması ölkələrə daxili əməliyyat bacarıqlarının istənilən səviyyəsini əldə etmək, ümumi strateji, əməliyyat və taktiki tapşırıqları daha yaxşı yerinə yetirmək, əmr proseduralarını başa düşmək və icra etmək, texniki vasitə və üsulları, təchizat avadablıqlarını daha səmərəli istifadə olunmasına kömək edir.

Aidiyyəti siyasi komitələr, təşkilatlar və agentliklər

Standartlaşdırma üzrə siyasi inkişaf başlıca forumu **NATO Standartlaşdırma Təşkilatıdır (NSO),** o standartlaşdırmanı Alyansın planlaşdırma prosesinin ayrılmaz tərkib hissəsi hesab edərək onunla əməkdaşlığı həyata keçirir, NATO-nun başlıca orqanları arasında standartlaşdırma tələblərini qarşılamaq üçün əlaqələndirmə mərkəzi kimi fəaliyyət göstərir.

NSO-nun tərkibi NATO Standartlaşdırma üzrə Komitə, NATO Standartlaşdırma üzrə Heyət Qrupu və NATO Standartlaşdırma Agentliyindən ibarətdir.

Yeni təhlükələrin artması və buna müvafiq öz bacarıqlarını göstərərək NATO tərəfindən həyata keçirilən tədbirlər silahlı qüvvələrin əməliyyat tələblərində dəyişikliklər yaratmağa imkan verdi. Bu dəyişikliklər müvafiq olaraq maddi, təlim, taktika, treninq, kommunikasiya və digər sahələrdə hərbi qüvvələrin və onları dəstəkləyən sistemlərin başlıca amili olaraq əməliyyat daxili bacarıqların əhəmiyyətini nəzərəçarpacaq dərəcədə artırdı. Standartlaşdırmanın məqsədi bu sahələri əhatə edən və onunla əlaqəli əməliyyat daxili bacarıqların tələb olunan zəruri səviyyəsini əldə etməkdən ibarətdir.

NSO-nun vəzifəsi əməliyyat daxili bacarıqları artıraraq, Alyansın hərbi qüvvələrinə Tərəfdaş və qeyri-NATO ölkələri öz öhdələrinə düşən tapşırıqların icrası zamanı onlarla birlikdə təlimlərin keçirilməsi və səmərəli fəaliyyət göstərməkdən ibarətdir. Bu Alyansın standartlaşdırma üzrə bütün cəhdlərini onların fəaliyyətlərinə dəstək olmaqla əlaqələndirmək təşəbbüsü vasitəsilə öhdəsindən gəlir. O, həmçinin, NATO Hərbi Komitəsinin adından inkişaf, əlaqələndirmə və əməliyyat üzrə standartlaşdırma sahələrində fəaliyyət göstərir.

Alyansın siyasətinə uyğun olaraq üzv dövlətlərin milli və NATO hakim dairələri doktrinalar hazırlamaq, proseduralar yaratmaq, bu sahədə razılığa gəlmək, onları tətbiq etmək işinə cəlb edilmişlər. Bu iş elə qurulmuşdur ki, onlara əməliyyat qabiliyyətinin yüksəltmək onu qoruyub saxlamağa imkanı versin.

Bu öz növbəsində uyğunlaşdırmanın, daxili dəyişilmənin lazımi səviyyəsini və ya əməliyyat, prosedur qabiliyyətli, maddi, texniki və inzibati sahələrdə ümumilik prinsipini həyata keçirməyi tələb edir.

NSO Şimali Atlantika Şurası tərəfindən 1995-ci ilin yanvar ayında təsis edilmiş, 1999-cu ildə Vaşinqton Zirvə Toplantısında NATO transformasiyası üzrə qəbul edilmiş qərarların tələblərini qarşılamaq üçün təşkil edilmiş Standartlaşdırmaya Baxış proqramı nəticəsi olaraq 2000-ci ildə yenidən təşkil edilmişdir.

NATO-nun Standartlaşdırma üzrə Komitəsi (NCS) bütün standartlaşdırma məsələləri üzrə başlıca NATO orqanıdır və o mütəmadi olaraq Şuraya fəaliyyəti barədə hesabat verir.

Komitənin tam nəzarəti və idarəsi altında nümayəndələr səviyyəsində uyğunlaşdırma və idarə prosesi ilə təmin edən NCS nümayəndələri (NCSREPs) tərəfindən dəstəklənir. NCSREPs-in öhdəsinə götürülmüş olduğu işin əsas məqsədi NATO və milli orqanlar arasında standartlaşdırmanın harmonizasiyası və standartlaşdırma sahəsində onlar arasında qarşılıqlı əlaqənin yaranmasına kömək etməkdən ibarətdir.

NCS-ə əsasən iki daimi həmsədrlə təmsil olunan Baş Katib sədrlik edir, daha dəqiq desək, NCS Müdafiə İnvestisiyası üzrə Baş Katibin Köməkçisi və Beynəlxalq Hərbi Heyətin Direktoru tərəfindən idarə olunur. 2000-ci ilin sentyabr ayından NATO Tərəfdaş ölkələri NCS-in fəaliyyətinə yaxından cəlb olunmuşlar.

NATO Standartlaşdırma üzrə Heyət Qrupu (NSSG) NATO Standartlaşdırma üzrə Komitəsinin tabeçiliyində yaradılmışdır. Onun başlıca vəzifəsi standartlaşdırma siyasətlərini, prosedurları uyğunlaşdırmaq və standartlaşdırma fəaliyyətlərini NATO orqanları ilə əlaqələndirməkdən ibarətdir. Heyət qrupu sənədləşdirmə ilə bağlı hazırlıqların, heyətlə qarşılıqlı əlaqənin, daxili əlaqələrin, Strateji Komandanlıq tərəfindən Hərbi Standartlaşdırma Tələblərinin, NATO Standartlaşdırma üzrə Proqramın Standartlaşdırma Məqsədlərinin qurulması işinə cavabdehdir. Bura Strateji Komandanlıq, Beynəlxalq Hərbi Heyət və Beynəlxalq Heyətin Standartlaşdırma tapşırıqları üzrə Hakim Dairələrini dəstəkləyən nümayəndələri daxildir. Onlar hakim dairələrdən və Birgə Nəşriyyat (AP) daha dəqiq desək, Hərbi Komitə, Silahlanma üzrə Milli Direktorlar Konfransı, NATO maddi-texniki məsələlər üzrə baş rəhbərlərin konfransı, NATO Konsultasiya, Komanda və Nəzarət Şurasından ibarətdir olan və əsas NATO orqanları tərəfindən öz yardımçı qruplarının qarşısına Standartlaşdırma üzrə Razılıq (STANAG) müqavilələrini hazırlamaq tapşırığı qoyulmuş qurumdur. Digər orqanların və təşkilatların şura nümayəndələri də NSSG-nin işində iştirak edirdilər.

NATO Standartlaşdırma Agentliyi (NSA) Şimali Atlantika Şurası tərəfindən yaradılmış hərbi və mülki heyətdən ibarət yeganə tam orqandır. Bu standartlaşdırmanın bütün sahələri arasında əlaqələndirmə məsələlərinə NSC qarşısında cavabdehdir. Bu orqan Alyansın Standartlaşdırma üzrə tətbiq etdiyi prosedur, planlaşdırma və icraedici funksiyaları yerinə yetirir və NCS, NCSREP, NSSG-in görüşləri üçün hazırlıq işlərinin və STANAGs, APs-ın bütün inzibati işlərinin icrasını öz üzərinə götürmüşdür.

NSA Hərbi heyəti tərəfindən təlim də daxil olmaqla nümayəndə kimi göndərilmiş və hər biri əməliyyat üzrə standartlaşdırma tapşırıqlarını yerinə yetirmək sahəsində fəaliyyət göstərən Birgə, Dəniz, Quru, Hava və Tibb üzrə Standartlaşdırma Şuralarının işinə yardım edir. Standartlaşdırma üzrə Şuralar Üzv ölkələr arasında əməliyyat və prosedur üzrə standartlaşdırmanın təşkil olunması işinə cavabdehdirlər. kimi onlar bunu üzv ölkələr və NATO hərbi komandanlığı ilə müvafiq STANAGs və APs-in əlaqələrini inkişaf etdirərək həyata keçirirlər. NSA həmçinin NATO Terminologiya üzrə Əlaqələndirmə idarəsinin işinə də yardım edir. NCS başçılığı altında yaradılan bu qurum NATO Terminologiya Proqramını idarə edir və Terminologiyanın Standartlaşdırılması üzrə NATO Siyasətinə və bütövlükdə NATO daxilində terminologiya üzrə standartlaşdırma prosesi kimi əsas məsuliyyətə və qaydalarının tətbiqinə nəzarət edir.

NSA-nın direktoru agentliyin beş şöbəsinin, daha dəqiq desək, Siyasət, Koordinasiya Şöbəsi, Birgə, Hərbi, Dəniz, Ordu və Hava Şöbələrinin

gündəlik işinə məsuliyyət daşıyır. Xidmət şöbələri əlaqədar heyət və onların birləşmiş işçi qruplarının, panellərinin işinə dəstək olur və öz məsuliyyət dairələrinə aid olan standartlaşdırma işlərini müəyyən edib nəzarəti öz üzərinə götürür.

Şöbələrdə daimi sessiyada hər ölkə bir üzvlə təmsil olunur və ildə rəsmi olaraq 8-12 dəfə görüşür. Qərarlar əsasən yekdilliklə qəbul edilir. Bununla belə, standartlaşdırma könüllü olaraq həyata keçirilən bir iş olduğundan, dövlətlər arasında razılığa əsasən STANAGs-da iştirak edən ölkələr arasında çoxluğun qərarı üzrə də qəbul edilə bilər. Strateji Komandirlərin hər bir şöbədə heyət nümayəndəsi fəaliyyət göstərir.

Əlavə məlumat üçün :
NATO Standardization Agency
NATO Headquarters
1110 Brussels
Belgium
Tel: +32 2 707 5576
Fax: +32 2 707 5718
Email: nsa@hq.nato.int
Website: http://nsa.nato.int

ƏLAVƏ 1

ABREVİATURALAR

ƏLAVƏ 1

ABREVİATURALAR

AAP
Allied Administrative Publication
Müttəfiq İnzibati Nəşriyyat

AAYPL
Atlantic Association of Young Political Leaders
Gənc Siyasi Liderlərin Atlantika Assosiasiyası

ABM
Anti-Ballistic Missile (ABM Treaty of 1972)
Ballistik Raketlər Əleyhinə (1972-ci ilin BRƏ Müqaviləsi)

AC
Alliance Committee
Alyans Komitəsi

ACCIS
Automated Command and Control Information System
Avtomatlaşdırılmış Komanda və Nəzarət İnformasiya Sistemi

ACCS
Air Command and Control System
Hava Komandanlığı və Nəzarəti Sistemi

ACO
Allied Command Operations
Müttəfiqlərin Əməliyyatlar üzrə Komandanlığı

ACT
Allied Command Transformation
Müttəfiqlərin Transformasiya Komandanlığı

ADP
Automated Data Processing
Avtomatlaşdırılmış Məlumat Prosesi

ADREP
Air Defence Representative
Hava Hücumundan Müdafiə üzrə Nümayəndəsi

AEC
Atlantic Education Committee
Atlantik Təhsil Komitəsi

AEW&CS
Airborne Early Warning and Control System
Havadan Erkən Xəbərdarlıq və Nəzarət Sistemi

AGARD
Advisory Group for Aerospace Research and Development (re-organised under the NATO Research and Technology Organisation (RTO) as the Research & Technology Agency)
Aerokosmik Tədqiqatlar və İnkişaf üzrə Məşvərət Qrupu (NATO Tədqiqat və Texnologiya Təşkilatı nəzdində yenidən təşkil edilmiş Tədqiqat və Texnologiya Agentliyi)

AGS
Alliance Ground Surveillance
Alyansın Yerüstü Müşahidə Sistemi

AGS SC
AGS Steering Committee
İttifaqın Yerdən Hava Nəzarəti üzrə Rəhbər Komitəsi

AJP
Allied Joint Publication
Müttəfiq Dövlətlərin Nəşri

ALCM
Air-Launched Cruise Missile
Hava - tipli Qanadlı Raket

ALP
Allied Logistic Publication
Müttəfiq Dövlətlərin Maddi-Texniki Təminat üzrə Nəşri

ALTBMD SC
Active Layered Theatre Ballistic Missile Defence Steering Committee
Çoxsəviyyəli Əməliyyat Ərazisi üzrə Ballistik Raketlərdən Müdafiəyə dair Rəhbər Komitə

AOR
Area of Responsibility
Cavabdehlik Ərazisi

AP
Allied Publication
Müttəfiq Nəşriyyat

APAG
Atlantic Policy Advisory Group
Atlantika Siyasəti üzrə Məşvərət Qrupu

AQAP
Allied Quality Assurance Publication
Keyfiyyətə Zəmanət üzrə Müttəfiq Nəşriyyat

ARW
Advanced Research Workshop (NATO Science Programme)
Ali Tədqiqatlar üzrə seminar (NATO Elmi Araşdırmalar Programı)

ASG
Assistant Secretary General
Baş Katibin Koməkçisi

ASI
Advanced Study Institute (NATO Science Programme)
Təkmilləşmiş Elmi Tədqiqatlar İnstititutu (NATO Elmi Araşdırmalar Programı)

ASR
Alliance Standardization Requirements
Alyansın Standartlaşdırma üzrə Tələbləri

ASW
Anti-Submarine Warfare
Sualtı qayıqlara qarşı hərbi əməliyyatlar

ASZ
Air Safety Zone
Hava Təhlükəsizlik Zonası

ATA
Atlantic Treaty Association
Atlantika Müqaviləsi Assosiasiyası

ATMG
Air Traffic Management Group
Hava Nəqliyyatını İdarəetmə Qrupu

AWACS
Airborne Warning and Control System
Hava Hücumundan Xəbərdarlıq və Nəzarət Sistemi

BICES
Battlefield Information Collection and Exploitation System
Döyüş Ərazisi üzrə Məlumatların Toplanması və İstifadəsi Sistemi

BMEWS
Ballistic Missile Early Warning System
Ballistik Raketlər haqqında Erkən Xəbərdarlıq Sistemi

BoD
Board of Directors
Direktorlar Şurası

BTWC
Biological and Toxic Weapons Convention
Bioloji və Toksik Silahlar üzrə Konvensiya

C&EE
Central and Eastern Europe
Mərkəzi və Şərqi Avropa

C3
Consultation, Command and Control
Məsləhətləşmə, Komanda və Nəzarət

CALS
Continuous Acquisition and Lifecycle Support
Davamlı Təchizat və Texninki İstismarın təminatı

CAPC
Civil Aviation Planning Committee
Mülki Aviasiyanın Planlaşdırılması üzrə Komitə

CAPS
Conventional Armaments Planning System
Adi Silahların Planlaşdırılması Sistemi

CAS
Close Air Support
Birbaşa Hava Dəstəyi

CASG
CNAD Ammunition Safety Group
SMDK Sursatlarının Təhlükəsizliyi üzrə Qrup

CBC
Civil Budget Committee
Mülki Büdcə Komitəsi

CBM
Confidence-Building Measure
Etimad Yaradıcı Tədbirlər

CBRN
Chemical, Biological, Radiological and Nuclear (weapons)
Kimyəvi, Bioloji, Radioaktiv və Nüvə silahları

CCC
Capabilities Coordination Cell
İmkanların Əlaqələndirməsi üzrə Qrup

CCMS
Committee on the Challenges of Modern Society
Müasir Cəmiyyətə Təhdidlər üzrə Komitə

CCPC
Civil Communications Planning Committee
Mülki Əlaqələrin Planlaşdırılması Komitəsi

CDE
Conference on Confidence - and Security-Building Measures and Disarmament in Europe
Avropada Etimad və Təhlükəsizlik Tədbirləri və Tərksilah üzrə Konfrans

CEP
Civil Emergency Planning
Mülki Fövqəladə Planlaşdırma

CEPMA
Central Europe Pipeline Management Agency
Mərkəzi Avropaa Boru - xətlərinin İdarə olunması üzrə Agentlik

CEPMO
Central Europe Pipeline Management Organisation
Mərkəzi Avropa Boru Kəmərlərinin İdarə Olunması üzrə Təşkilat

CEPS
Central Europe Pipeline System
Mərkəzi Avropa Boru Kəməri Sistemi

CESDP
Common European Security and Defence Policy
Ümumavropa Təhlükəsizlik və Müdafiə Siyasəti

CFE
Conventional Armed Forces in Europe (CFE Treaty of 1990)
Avropada Adi Silahlı Qüvvələr (1990-cı ilin Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə)

CFSP
Common Foreign and Security Policy
Ümumi Xarici və Təhlükəsizlik Siyasəti

CHOD
Chief of Defence
Birləşmiş Qərargah Rəisi

CIMIC
Civil-Military Cooperation
Mülki - Hərbi Əməkdaşlıq

CIOMR
Interallied Confederation of Medical Reserve Officers
Ehtiyatda olan Tibb Zabitlərinin Müttəfiqarası Konfederasiyası

CIOR
Interallied Confederation of Reserve Officers
Ehtiyatda olan Zabitlərin Müttəfiqarası Konfederasiyası

CIS
Commonwealth of Independent States
Müstəqil Dövlətlər Birliyi (MDB)

CIS
Communication and Information Systems
Rabitə və İnformasiya Sistemləri

CJTF
Combined Joint Task Force
Çoxmillətli Birgə Əməliyyat Qüvvələri

CLG
Collaborative Linkage Grant
Birgə Qarşılıqlı Əlaqə Qrantı

C-M
Council Memorandum
Şura Memorandumu

CMC
Chairman of the Military Committee
Hərbi Komitənin Sədri

CMTF
Civil-Military Task Force
Mülki - Hərbi Əməlliyyat Qüvvələri

CMX
Crisis Management Exercise
Böhranların İdarəedilməsi üzrə Təlim

CNAD
Conference of National Armaments Directors
Silahlanma üzrə Milli Direktorlar Konfransı (SMDK)

CNIS
Communication, Navigation and Identification Systems
Rabitə, Naviqasiya və Tanıma Sistemləri

CNS
Communications, Navigation and Surveillance Group
Rabitə, Naviqasiya və Müşahidə Qrupu

COEC
Council Operations and Exercise Committee
Şura Əməliyyatları və Təlimlər üzrə Komitə

COMCEN
Communication Centre
Rabitə Mərkəzi

COMEDS
Committee of the Chiefs of Military Medical Services in NATO
NATO-da Hərbi-Tibb Xidməti Rəislərinin Komitəsi

CP
Capability Package
İmkanlar Paketi

CPC
Civil Protection Committee
Mülki Müdafiə Komitəsi

CPC
Conflict Prevention Centre
Münaqişələrin Qarşısını Alma üzrə Mərkəz

CPD
Committee on Public Diplomacy
İctimai Diplomatiya Komitəsi

CPX
Command Post Exercise
Komanda Qərargah Təlimi

CSBM
Confidence- and Security-Building Measure
Etimad və Təhlükəsizliyin Təmin edilməsi üzrə Tədbirlər

CSCE
Conference on Security and Co-operation in Europe (from January 1995, Organization on Security and Co-operation in Europe, or OSCE)
Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (1995-ci ilin yanvarından Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı kimi tanındı ATƏT)

CST
Conventional Stability Talks
Ümumi Sabitlik üzrə Danışıqlar

CTBT
Comprehensive Nuclear Test Ban Treaty
Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması haqqında Müqavilə

C3
Consultation, Command and Control
Məsləhətləşmə, Komanda və Nəzarət

CUSRPG
Canada–United States Regional Planning Group
Kanada-ABŞ Regional Planlaşdırma Qrupu

CWC
Chemical Weapons Convention
Kimyəvi Silahlar üzrə Konvensiya

DCA
Dual-Capable Aircraft
İki Təyinatlı Təyyarə

DCI
Defence Capabilities Initiative
Müdafiə İmkanları Təşəbbüsü

DCMC
Deputy Chairman of the Military Committee
Hərbi Komitənin Sədr Müavini

DGP
Senior Defence Group on Proliferation
Yayılma üzrə Baş Müdafiə Qrupu

DI
Defence Investment Division
Müdafiə Sərmayəsi İdarəsi

DIMS
Director, International Military Staff (IMS)
Beynəlxalq Hərbi Qərargahın Rəisi

DPC
Defence Planning Committee
Müdafiə Planlaşdırması Komitəsi

DPP
Defence Policy and Planning Division
Müdafiə Siyasəti və Planlaşdırması İdarəsi

DPQ
Defence Planning Questionnaire
Müdafiə Planlaşdırması üzrə Sorğular Toplusu

DRC
Defence Review Committee
Müdafiə İcmalı Komitəsi

DRG

Defence Research Group (absorbed into the NATO Research and Technology Organisation (RTO))

Müdafiə məsələləri üzrə Tədqiqat Qrupu (NATO Tədqiqat və Texnologiyaları Təşkilatına daxil edilmişdir)

DSACEUR

Deputy Supreme Allied Commander Europe

Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Komandanının müavini

EADRCC

Euro-Atlantic Disaster Response Coordination Centre

Avro-Atlantika Fəlakətlərə Cavabın Əlaqələndirmə Mərkəzi

EADRU

Euro-Atlantic Disaster Response Unit

Fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə Avro-Atlantik Birlik

EAF

Entity Armed Forces

Mövcud Silahlı Quvvələr

EAPC

Euro-Atlantic Partnership Council

Avro-Atlantika Tərəfdaşlıq Şurası

EAPWP

Euro-Atlantic Partnership Work Plan

Avro-Atlantika Tərəfdaşlığının İşçi Planı

EM

Executive Management Division

İnzibati İcraiyyə Şöbəsi

EPC

European Political Cooperation

Avropa Siyasi Əməkdaşlıq

ESA

European Space Agency

Avropa Kosmik Agentliyi

ESDI

European Security and Defence Identity

Avropa Təhlükəsizlik və Müdafiə Quruluşu

ESDP
European Security and Defence Policy
Avropanın Təhlükəsizlik və Müdafiə Siyasəti

EU
European Union
Avropa İttifaqı

EW
Electronic Warfare
Radio-Elektron Əməliyyatlar

EWG
Executive Working Group
İcraçı İşçi Qrup

FORACS
NATO Naval Forces Sensors and Weapons Accuracy Check Sites
NATO Hərbi Dəniz Qüvvələrinin aşkarlama cihazlarının və silahlarının dəqiqliyinin yoxlanılması üzrə məntəqə

FRP
Financial Rules and Procedures
Maliyyə Qaydaları və Prosedurları

GLCM
Ground-Launched Cruise Missile
Yer-hava tipli Qanadlı Raket

GNW
Group on Nuclear Weapons
Nüvə Silahları üzrə Qrup

GSZ
Ground Safety Zone
Yerüstü Təhlükəsizlik Zonası

HLG
High-Level Group
Yüksək Səviyyəli Qrup

HLSG
High-Level Steering Group
Yüksək Səviyyəli Rəhbər Qrup

HLTF
High-Level Task Force
Yüksək Səviyyəli Əməliyyat Qüvvələri

HNS
Host Nation Support
Qəbul edən Ölkənin Dəstəyi

IATA
International Air Transport Association
Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası

ICAO
International Civil Aviation Organisation
Beynəlxalq Mülki Aviasiya Təşkilatı

ICB
International Competitive Bidding
Tenderlər üzrə Beynəlxalq Rəqabətli təkliflər

ICBM
Intercontinental Ballistic Missile
Qitələrarası Ballistik Raket

ICIG
Istanbul Cooperation Initiative Group
İstanbul Əməkdaşlıq Təşəbbüsü Qrupu

ICRC
International Committee of the Red Cross
Beynəlxalq Qızıl Xaç Komitəsi

ICTY
International Criminal Tribunal for the former Yugoslavia
Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Məhkəməsi

IFOR
Implementation Force
Qüvvələri Həyata keçirmə

IFRC
International Federation of the Red Cross and Red Crescent Societies
Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası

IGC
Intergovernmental Conference
Hökümətlərarası Konfrans

IISS
International Institute for Strategic Studies
Beynəlxalq Strateji Araşdırmalar İnstitutu

IMS
International Military Staff
Beynəlxalq Hərbi Qərargah

INF
Intermediate-range Nuclear Forces (INF Treaty of 1987)
Orta Mənzilli Nüvə Qüvvələri haqqında Saziş (1987-ci ilin OMNQ Müqaviləsi)

INFOSEC
Information Security Branch
İnformasiya Təhlükəsizliyi Şöbəsi

IO
Interoperability Objective
Operativ Uyğunluq Məqsədləri

IPAP
Individual Partnership Action Plan
Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı

IPP
Individual Partnership Programme (PfP)
Fərdi Tərəfdaşlıq Proqramı

IPTF
International Police Task Force (United Nations)
Beynəlxalq Operativ PolisTapşırıq Qüvvələri (Birləşmiş Millətlər Təşkilatı)

IRBM
Intermediate-Range Ballistic Missile
Orta Mənzilli Ballistik Raket

IRF
Immediate Reaction Force(s)
Çevik Reaksiya Qüvvələri

IS
International Staff
Beynəlxalq Qərargah

ISAF
International Security Assistance Force
Beynəlxalq TəhlükəsizliyəYardım Qüvvələri

ISTB
Information Systems and Technology Branch
İnformasiya Sistemləri və Texnologiya Şöbəsi

JCP
Joint Committee on Proliferation
Nüvə SilahlarınınYayılması məsələsi üzrə Birgə Komitə

JMC
Joint Medical Committee
Birgə Tibbi Komitə

JWGDR
(NATO-Ukraine) Joint Working Group on Defence Reform
(NATO – Ukrayna) Müdafiə İslahatları üzrə Birgə İşçi Qrup

KFOR
Kosovo Force
Kosovo Qüvvələri

KLA
Kosovo Liberation Army
Kosovo Azadlıq Ordusu

KPS
Kosovo Police Service
Kosovo Polis Xidməti

KVM
Kosovo Verification Mission
Kosovo Müfəttiş Missiyası

LCC
Logistics Coordination Centre
Maddi-Texniki Təminatın Koordinasiyası Mərkəzi

LCMG
Life Cycle Management Group
Texniki İstismar Müddətinin İdarəedilməsi Qrupu

LTDP
Long-Term Defence Programme
Uzunmüddətli Müdafiə Proqramı

LTS
Long-Term Study
Uzunmüddətli Tədqiqat

M&TG
Movement and Transportation Group
Hərəkət və Nəqliyyat Qrupu

MAP
Membership Action Plan
Üzvlüyün Fəaliyyət Planı

MAPE
Multinational Advisory Police Element
Çoxmillətli Məsləhətçi Polis Bölməsi

MARAIRMED
Maritime Air Forces Mediterranean
Aralıq Dənizi Hərbi Dəniz Quvvələrinin Aviasiyası

MAREQ
Military Assistance Requirement
Hərbi Yardım Tələbləri

MBC
Military Budget Committee
Hərbi Büdcə Komitəsi

MC
Military Committee
Hərbi Komitə

MCDA
Military and Civil Defence Assets
Hərbi və Mülki Müdafiə Vasitələri

MCG
Mediterranean Cooperation Group
Aralıq Dənizi Əməkdaşlıq Qrupu

MCJSB
Military Committee Joint Standardization Board
Birgə Standartlaşdırma İdarəsinin Hərbi Komitəsi

MCM
Mine Countermeasures
Minalar Əleyhinə Mübarizə

MCWG
Military Committee Working Group
Hərbi Komitənin İşçi Qrupu

MDF
Main Defence Force(s)
Əsas Müdafiə Quvvələri

MDFS
Missile Defence Feasibility Study
Raketdən Müdafiə üzrə Texniki Tədqiqat İşi

MEADS
Medium Extended Air Defence System
Ortamiqyaslı Hava Hücumundan Müdafiə Sistemi

MEP
Member of the European Parliament
Avropa Parlamentinin Üzvü

MILREP
Military Representative (to the MC)
Hərbi Nümayəndə

MLM
Military Liaison Mission
Hərbi Əlaqələndirmə Missiyası

MLRS
Multiple Launch Rocket System
Çoxtəyinatlı Raket Sistemi

MNC
Major NATO Command/Commander (renamed NATO Strategic Command/Commander)
NATO Baş Komandanlığı/Komandanı (NATO Strateji Komandanlığı/Komandanı ilə əvəz edilib)

MND
Multinational Division
Çoxmillətli Diviziya

MOB
Main Operating Base
Əsas Əməliyyat Bazası

MoD
Ministry of Defence
Müdafiə Nazirliyi

MOU
Memorandum of Understanding
Qarşılıqlı Anlaşma Memorandumu

MPA
Maritime Patrol Aircraft
Hərbi Dəniz Qüvvələrinin Patrul Təyyarəsi

MRCA
Multi-Role Combat Aircraft (Tornado)
Çoxtəyinatlı Döyüş Təyyarəsi (Tornado)

MSC
Major Subordinate Command/Commander
Əsas Tabeçilikdə olan Komandanlıq

MSIAC
Munitions Safety Information Analysis Centre
Döyüş Sursatı üzrə Məlumatların Təhlükəsizliyi üzrə Təhlil Mərkəzi

MSU
Multinational Specialized Unit
Çoxmillətli İxtisaslaşdırılmış Bölmə

MTCR
Missile Technology Control Regime
Raket Texnologiyasına Nəzarət Rejimi

MTRP
Medium-Term Resource Plan
Ehtiyatların Orta Müddətli Planı

NAADC
NATO Analytical Air Defence Cell
NATO-nun Hava Hücumundan Müdafiə üzrə Analitik Qrupu

NAAG
NATO Army Armaments Group
NATO-nun Ordunu Silahlandırma Qrupu

NAC
North Atlantic Council
Şimali Atlantika Şurası

NACC
North Atlantic Cooperation Council
Şimali Atlantika Əməkdaşlıq Şurası

NACCIS
NATO Automated Command, Control and Information System
NATO Avtomatlaşdırılmış Komanda, Nəzarət və İnformasiya Sistemi

NACMA
NATO ACCS Management Agency
NATO Hava Komandanlığı və Nəzarəti Sisteminin İdarəetmə Agentliyi

NACMO
NATO ACCS Management Organisation
NATO Hava Komandanlığı və Nəzarəti Sisteminin İdarəetmə Təşkilatı

NADC
NATO Air Defence Committee
NATO Hava Hücumundan Müdafiə Komitəsi

NADEFCOL
NATO Defense College (also NDC)
NATO-nun Müdafiə Kolleci

NADGE
NATO Air Defence Ground Environment
NATO Hava Hücumundan Müdafiənin yerüstü vasitələri

NADREPS
National Armaments Director's Representatives
Silahlandırma üzrə Milli İdarə Heyətinin Nümayəndələri

NAEW&C
NATO Airborne Early Warning and Control
NATO-nun Havadan Erkən Xəbərdarlıq və Nəzarət

NAFAG
NATO Air Force Armaments Group
NATO Hərbi Hava Qüvvələrinin Silahlandırma üzrə Qrupu

NAHEMA
NATO Helicopter Design and Development, Production and Logistics Management Agency
NATO-nun Helikopterlərin qurulması və təkmilləşdirilməsi, istehsalı və Maddi-Texniki Təminatının idarə edilməsi üzrə Agentliyi

NAMEADSMA
NATO Medium Extended Air Defense System Design and Development, Production and Logistics Management Agency
NATO-nun Ortamiqyaslı Hava Hücumundan Müdafiə Sisteminin Yaradılması, İstehsalı və Maddi-Texniki Təminatın idarə edilməsi üzrə Agentliyi

NAMFI
NATO Missile Firing Installation
NATO Raketlərin Atəş Qurğuları

NAMMA
NATO Multi-Role Combat Aircraft Development and Production Management Agency
NATO Çoxtəyinatlı döyüş təyyarələrinin təkmilləşdirilməsi və istehsalının İdarəedilməsi Agentliyi

NAMMO
NATO Multi-Role Combat Aircraft Development and Production Management Organization
NATO Çoxtəyinatlı döyüş təyyarələrinin təkmilləşdirilməsi və istehsalının İdarəedilməsi Təşkilatı

NAMP
NATO Annual Manpower Plan
NATO İllik İnsan Ehtiyatları Planı

NAMSA
NATO Maintenance and Supply Agency
NATO-nun Texniki Təminat və Təchizat Agentliyi

NAMSO
NATO Maintenance and Supply Organisation
NATO-nun Texniki Təminat və Təchizat Təşkilatı

NAPMA
NATO Airborne Early Warning and Control (AEW&C) Programme Management Agency
NATO-nun Havadan Erkən Xəbərdarlıq və Nəzarət Proqramının İdarəedilməsi Agentliyi

NAPMO
NATO Airborne Early Warning and Control Programme Management Organisation
NATO-nun Havadan Erkən Xəbərdarlıq və Nəzarət Proqramının İdarəedilməsi Təşkilatı

NAPR
NATO Armaments Planning Review
NATO Silahlanmanın Planlaşdırılmasının İcmalı

NATINADS
NATO Integrated Air Defence System
NATO Hava Hücumundan Birgə Müdafiə Sistemi

NATMC
NATO Air Traffic Management Committee
NATO Hava Nəqliyyatının İdarəedilməsi Komitəsi

NATO
North Atlantic Treaty Organization
Şimali Atlantika Müqaviləsi Təşkilatı

NATO PA
NATO Parliamentary Assembly (also NPA)
NATO Parlament Assambleyası

NAU
NATO Accounting Unit
NATO Mühasibat Birliyi

NBC
Nuclear, Biological and Chemical (weapons)
Kimyəvi, Bioloji və Nüvə Silahları

NC3A
NATO Consultation, Command and Control Agency
NATO-nun Məsləhət, Komanda və Nəzarət üzrə Agentliyi

NC3B
NATO Consultation, Command and Control Board
NATO-nun Məsləhət, Komanda və Nəzarət üzrə İdarəsi

NC3O
NATO Consultation, Command and Control Organisation
NATO-nun Məsləhət, Komanda və Nəzarət üzrə Təşkilatı

NC3REPs
Group of National C3 Representatives
MKN-in Milli C3 Nümayəndələr Qrupu

NCARC
NATO Conventional Armaments Review Committee
NATO Adi Silahların İcmalı Komitəsi

NCISS
NATO Communications and Information Systems School
NATO-nun Rabitə və İnformasiya Sistemləri Məktəbi

NCS
NATO Committee for Standardization
NATO-nun Standartlaşdırma üzrə Komitəsi

NCSA
NATO CIS Services Agency
NATO-nun Rabitə və İnformasiya Sistemlərinə Xidmət Agentliyi

NCSREPs
NCS Representatives
NATO-nun Standartlaşdırma üzrə Komitəsinin Nümayəndələri

NDMAA
NATO Defence Manpower Audit Authority
NATO-nun Müdafiə üzrə İnsan Ehtiyyatlarının Təftişi Orqanı

NEASCOG

NATO/EUROCONTROL ATM Security Coordinating Group

NATO Hava Nəqliyyatının İdarəolunması üzrə Təhlükəsizliyinin Əlaqələndirməsi Qrupu

NEFMA

NATO European Fighter Aircraft (EFA) Development, Production and Logistics Management Agency

NATO-nun Avropa Qırıcı Təyyarələrinin Təkmilləşdirilməsi, İstehsalı və Maddi-Texniki Təminatının İdarəedilməsi üzrə Agentliyi

NEFMO

NATO European Fighter Aircraft (EFA) Development, Production and Logistics Management Organisation

NATO-nun Avropa Qırıcı Təyyarələrinin Təkmilləşdirilməsi, İstehsalı və Maddi-Texniki Təminatının İdarəedilməsi üzrə Təşkilatı

NEPS

North European Pipeline System

Şimali Avropa Boru Xətti Sistemi

NETMA

NATO Eurofighter 2000 and Tornado Development, Production and Logistics Management Agency

NATO Eurofighter 2000 və Tornado Təyyarələrinin Təkmilləşdirilməsi, İstehsalı və Maddi-Texniki Təminatının İdarəedilməsi üzrə Agentliyi

NETMO

NATO Eurofighter 2000 and Tornado Development, Production and Logistics Management Organisation

NATO Eurofighter 2000 və Tornado Təyyarələrinin Təkmilləşdirilməsi, İstehsalı və Maddi-Texniki Təminatının İdarəedilməsi üzrə Təşkilatı

NFR

NATO Financial Regulations

NATO Maliyyə Qaydaları

NGO

Non-Governmental Organisation

Qeyri-Hökümət Təşkilatı

NHMO

NATO HAWK Management Office

NATO HAWK İdarəedilməsi Ofisi

NHPLO
NATO HAWK Production and Logistics Organisation
NATO HAWK İstehsalı və Maddi-Texniki Təminatı Təşkilatı

NHQC3S
NATO Headquarters Consultation, Command and Control Staff
NATO Baş Qərargahının Məsləhət, Komanda və Nəzarət Qərargahı

NIAG
NATO Industrial Advisory Group
NATO Sənaye üzrə Məsləhət Qrupu

NICS
NATO Integrated Communications System
NATO Birləşmiş Rabitə Sistemi

NIDS
NATO Integrated Data Service
NATO Birləşmiş Məlumat Sistemi

NIG
Networking Infrastructure Grant (NATO Science Programme)
Şəbəkə İnfrastrukturu Grantı (NATO Elmi Araşdırmalar Programı)

NIMIC
NATO Insensitive Munitions Information Centre
NATO Qeyri-Həssas Sursatların Məlumat Mərkəzi

NMA
NATO Military Authority
NATO Hərbi Orqanı

NMR
National Military Representative (to)
Milli Hərbi Nümayəndə

NNAG
NATO Naval Armaments Group
NATO Hərbi Dəniz Qüvvələrinin Silahlandırma üzrə Qrupu

NORAD
North American Air Defence System
Şimali Amerika Hava Hücumundan Müdafiə Sistemi

NOS
NATO Office of Security
NATO Təhlükəsizlik İdarəsi

NPA
North Parliamentary Assembly (also NATO PA)
Şimali Parlament Assambleyası

NPC
NATO Pipeline Committee
NATO-nun Boru Xətləri üzrə Komitəsi

NPG
Nuclear Planning Group
Nüvə Planlaşdırma Qrupu

NPLO
NATO Production and Logistics Organisation
NATO-nun İstehsal və Maddi-Texniki Təminatı üzrə Təşkilatı

NPS
NATO Pipeline System
NATO Boru Xətti Sistemi

NPSC
NATO Project Steering Committee
NATO Layihələrin Rəhbər Komitəsi

NPT
Treaty on the Non-Proliferation of Nuclear Weapons (1968)
Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə (1968)

NRC
NATO-Russia Council
NATO-Rusiya Şurası

NRF
NATO Response Force
NATO Cavab Qüvvələri

NSA
NATO Standardization Agency
NATO-nun Standartlaşdırma üzrə Agentliyi

NSC
NATO Security Committee
NATO-nun Təhlükəsizlik Komitəsi

NSC
NATO Supply Centre
NATO Təchizat Mərkəzi

NSIP
NATO Security Investment Programme
NATO-nun Sərmayələrin Təhlükəsizliyi Proqramı

NSLB
NATO Standardization Liaison Board
NATO-nun Standartlaşdırma üzrə Əlaqələndirmə Şöbəsi

NSN
NATO Stock Number
NATO İnventar Nömrəsi

NSO
NATO Standardization Organisation
NATO-nun Standartlaşdırma üzrə Təşkilatı

NSSG
NATO Standardization Staff Group
NATO-nun Standartlaşdırma üzrə Qərargah Qrupu

NTG
NATO Training Group
NATO Təlim Qrupu

NUC
NATO-Ukraine Commission
NATO-Ukrayna Komissiyası

OCC
Operational Capabilities Concept
Əməliyyat İmkanları Konsepsiyası

ODIHR
Office for Democratic Institutions and Human Rights
Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Büro

OECD
Organisation for Economic Cooperation and Development
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı

OHR
Office of the High Representative (Bosnia)
Ali Nümayəndəlik Ofisi (Bosniya)

OMIK
OSCE Mission in Kosovo
ATƏT-in Kosovodakı Missiyası

ONS
Office of NATO Standardization
NATO-nun Standartlaşdırma üzrə Ofisi

OPEC
Organisation of Petroleum Exporting Countries
Neft İxrac edən Ölkələr Təşkilatı

OPLAN
Operational Plan
Əməliyyat Planı

OPS
Operations Division
Əməliyyatlar Bölməsi

OSCE
Organization for Security and Cooperation in Europe (formerly CSCE)
Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (keçmiş ATƏM)

PAD
Panel on Air Defence
Hava Hücumundan Müdafiə Komitəsi

PARP
(PfP) Planning and Review Process
(SNT) Planlaşdırma və Təhlil Prosesi

PASP
Political Affairs and Security Policy Division
Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti Bölməsi

PBEIST
Planning Board for European Inland Surface Transport
Avropa Daxili quru Nəqliyyatı üçün Planlaşdırma İdarəsi

PBOS
Planning Board for Ocean Shipping
Dəniz Gəmiçiliyi üzrə Planlaşdırma İdarəsi

PC
Political Committee
Siyasi Komitə

PCC
Partnership Coordination Cell
Tərəfdaşlığın Əlaqələndirmə Qrupu

PCG
Policy Coordination Group
Siyasət Əlaqələndirmə Qrupu

PDD
Public Diplomacy Division
İctimai Diplomatiya İdarəsi

PERM REP
Permanent Representative (to the NAC)
Daimi Numayəndə

PfP
Partnership for Peace
Sülh Naminə Tərəfdaşlıq

PfP/SC
Political-Military Steering Committee on Partnership for Peace
SNT üzrə Hərbi-Siyasi Rəhbər Komitə

PIA
Public Information Adviser
İctimai İnformasiya üzrə Müşavir

PIC
Peace Implementation Council
Sülhün Tətbiqi Şurası

PMF
Political-Military Framework
Hərbi-Siyasi Çərçivə

PMSC/AHG
Political-Military Steering Committee/Ad Hoc Group on Cooperation in Peacekeeping
Hərbi-siyasi İdarəetmə Komitəsi / Sülhyaratmada Əməkdaşlıq üzrə Xüsusi Qrup

PNET
Peaceful Nuclear Explosions Treaty (1976)
Dinc Məqsədli Nüvə Sınaqları haqqında Müqavilə (1976)

PO
Private Office of the Secretary General
Baş Katibin Şəxsi Ofisi

PCG
Provisional Policy Coordination Group
İlkin Siyasətin Əlaqələndirmə Qrupu

PRT
Provincial Reconstruction Team
Yerli Yenidənqurma Komandası

PSC
Principal Subordinate Command/Commander
Əsas Tabeçilikdə olan Komandanlıq/Komandan

PSE
PfP Staff Element
SNT-nin Qərargah Elementi

PSI
Proliferation Security Initiative (United States)
Nüvə silahlarının yayılmasının qarşısının alınması üçün Təhlükəsizlik Təşəbbüsü (ABŞ)

PSO
Peace Support Operations
Sülhü Dəstəkləmə Əməliyyatları

PST
Advisory Panel on Physical and Engineering Sciences and Technology
Fizika və Mühəndis elmləri və texnologiyası üzrə Məşvərət Komissiyası

PTBT
Partial Test Ban Treaty
Nüvə Təcrübələrinin hissə-hissə qadağan olunması haqqında Müqavilə

PWP
Partnership Work Programme (PfP)
Tərəfdaşlığın İşçi Proqramı

R&D
Research and Development
Tədqiqat və İnkişaf

R&T
Research and Technology
Tədqiqat və Texnologiya

REA
Rapid Environmental Assessment
Ətraf Mühitin Operativ Qiymətləndirilməsi

REACT
Rapid Expert Assistance and Cooperation Team
Operativ Ekspert Dəstəyi və Əməkdaşlığı Qrupu

RPC
Regional Planning Committee
Regional Planlaşdırma Komitəsi

RPC WT
Regional Planning Committee Working Team
Regional Planlaşdırma Komitəsinin İşçi Qrupu

RRF
Rapid Reaction Force
Çevik Reaksiya Quvvələri

RTA
Research and Technology Agency
Tədqiqat və Texnologiya Agentliyi

RTB
Research and Technology Board
Tədqiqat və Texnologiya Heyəti

RTO
Research and Technology Organization
Tədqiqat və Texnologiyalar üzrə Təşkilat

SAC
Strategic Air Command
Strateji Hərbi Hava Qüvvələrinin Komandanlığı

SACEUR
Supreme Allied Commander Europe
Müttəfiqlərin Avropadakı Ali Baş Komandanı

SACT
Supreme Allied Commander Transformation
Müttəfiqlərin Ali Baş Transofrmasiya Komandanı

SALT
Strategic Arms Limitation Talks
Strateji Silahların Məhdudlaşdırılması üzrə danışıqlar

SALW
Small Arms and Light Weapons
Kiçik Atıcı və Yüngül Silahlar

SAM
Sanctions Assistance Missions
Sanksiyalara Dəstək Missiyası

SAM
Surface-to-Air Missile
Yer-Hava tipli Raket

SAR
Search and Rescue
Axtarış və Xilasetmə

SATCOM
Satellite Communications
Peyk Rabitəsi

SC
Science Committee
Elmi Komitə

SC
Strategic Commander
Strateji Komandan

SCEPC
Senior Civil Emergency Planning Committee
Ali Mülki Fövqəladə Planlaşdırma Komitəsi

SCG
Special Consultative Group
Xüsusi Məşvərət Qrupu

SCMM
Standing Committee on Military Matters (Bosnian Peace Agreement)
Hərbi Məsələlər uzrə Daimi Komitə (Bosniya Sülh Sazişi)

SCP
Security Cooperation Programme
Təhlükəsizlik üzrə Əməkdaşlıq Proqramı

SCR
Senior Civilian Representative
Ali Mülki Nümayəndə

SDI
Strategic Defense Initiative
Strateji Mudafiə Təşəbbüsü

SEECAP
South East Europe Common Assessment Paper on Regional Security Challenges and Opportunities
Cənub-Şərqi Avropada regional təhlükəsizlik çağırışları və imkanların ümumi qiymətləndirməsi üzrə Sənəd

SEEGROUP
South East Europe Security Cooperation Steering Group
Cənub-Şərqi Avropada Təhlükəsizlik üzrə Əməkdaşlığın İdarəedilməsi üzrə Qrup

SEEI
South East Europe Initiative
Cənub-Şərqi Avropa Təşəbbüsü

SFOR
Stabilisation Force
Sabitləşdirmə Qüvvələri

SG
Secretary General
Baş Katib

SGP
Senior Politico-Military Group on Proliferation
Yayılmama üzrə Ali Siyasi-Hərbi Qrup

SG PLE
Standing Group of Partner Logistic Experts
Tərəfdaşların Maddi - Texniki Təminat üzrə mütəxəssislərin Daimi Qrupu

SHAPE
Supreme Headquarters Allied Powers Europe
Müttəfiq Qüvvələrin Avropa Ali Baş Qərargahı

SHARE
Stock Holding and Asset Requirements Exchange
Mövcud və Tələb olunan Ehtiyatların Mübadiləsi

SITCEN
Situation Centre
Situasiya Mərkəzi

SLBM
Submarine-Launched Ballistic Missile
Sualtı qayıqdan buraxılan Ballistik Raket

SLCM
Sea-Launched Cruise Missile
Dənizdən buraxılan Qanadlı Raket

SLWPG
Senior-Level Weapons Protection Group
Silahların Mühafizəsi üzrə Ali Səviyyəli Grup

SNF
Short-Range Nuclear Force(s)
Qısa Mənzilli Nüvə Silahları

SNLC
Senior NATO Logisticians Conference
Maddi-Texniki Təminat məsələləri üzrə NATO Ali Konfransı

SO
Standardization Objective
Standartlaşdırma üzrə Məqsədlər

SOFA
Status of Forces Agreement
Qüvvələrin Statusu Haqqında Saziş

SPC
Senior Political Committee
Ali Siyasi Komitə

SRB
Senior Resource Board
Resurslar üzrə Ali İdarə

STANAG
Standardization Agreement
Standartlaşdırma üzrə Saziş

START
Strategic Arms Reduction Talks
Strateji Silahların Azaldılması üzrə Danışıqlar

TDA
Tactical Decision Aid
Qərarın Qəbul olunması üçün Taktiki Yardım

TEEP
Training and Education Enhancement Programme
Təlim və Təhsil üzrə Təkmiləşdirilmə Proqramı

TMD
Theatre Missile Defence
Döyüş sahəsində Raketdən Müdafiə

UN
United Nations
Birləşmiş Millətlər Təşkilatı

UNAMA
United Nations Assistance Mission in Afghanistan
BMT-nin Əfqanistanda Yardım Missiyası

UNESCO
United Nations Educational, Scientific and Cultural Organisation
BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı

UNHCR
United Nations High Commissioner for Refugees
BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı

UNMAC
United Nations Mine Action Centre
BMT-nin Mina əleyhinə Mübarizə Mərkəzi

UNMIK
United Nations Mission in Kosovo
BMT-nin Kosovodakı Missiyası

UNOCHA
United Nations Office for the Coordination of Humanitarian Affairs
BMT-nin Humanitar Məsələlər üzrə Koordinasiya İdarəsi

UNPROFOR
United Nations Protection Force
BMT Mühafizə Quvvəsi

UNSC
United Nations Security Council
BMT Təhlükəsizlik Şurası

VCC
Verification Coordinating Committee
Verifikasiya Koordinasiya Komitəsi

VERITY
NATO Verification database
NATO Verifikasiya üzrə Məlumat Bazası

WCO
Western Consultation Office
Qərbi Məşvərət İdarəsi

WEAG
Western European Armaments Group
Qərbi Avropa Silahlar Qrupu

WEU
Western European Union
Qərbi Avropa İttifaqı

WG
Working Group
İşçi Qrupu

WHO
World Health Organization
Ümumdünya Səhiyyə Təşkilatı

WMD
Weapons of Mass Destruction
Kütləvi Qırğın Silahları

WMDC
Weapons of Mass Destruction Centre
Kütləvi Qırğın Silahları üzrə Mərkəz

WP
Working Party
İşçi Qrupu

YATA
Youth Atlantic Treaty Association
Gənclərin Atlantik Müqaviləsi Assosiasiyası

ƏLAVƏ 2

ŞİMALİ ATLANTİKA MÜQAVİLƏSİ TƏŞKİLATI

Şimali Atlantika Müqaviləsi Təşkilatı
Vaşinqton, Kolumbiya Federal dairəsi,
4 aprel 1949

Müqavilənin Tərəfləri Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinin məqsəd və prinsiplərinə inamlarını və bütün xalqlar və hökumətlərlə sülh şəraitində yaşamaq niyyətini bir daha təsdiqləyirlər.

Onlar demokratiya, fərdi azadlıq və qanunun aliliyi prinsipləri əsasında qurulmuş öz xalqlarının azadlığını, mədəni irsini və sivilizasiyasını müdafiə etmək əzmindədirlər.

Onlar Şimali Atlantika bölgəsində sabitliyin və rifahın yaradılması məqsədini güdürlər.

Onlar kollektiv müdafiə və sülh və təhlükəsizliyin qorunub saxlanılması üçün öz səylərini birləşdirməyi qərara alıblar. Buna görə onlar bu Şimali Atlantika Müqaviləsinə dair razılığa gəlirlər:

Maddə 1

Tərəflər, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində müəyyən olunduğu kimi, beynəlxalq sülh və təhlükəsizliyə və ədalətə təhlükə törətmədən, cəlb oluna biləcəkləri hər hansı beynəlxalq münaqişələri sülh yolu ilə nizamlamağa və öz beynəlxalq münasibətlərində Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə ziddiyyət törədən hər hansı halda təhdid və ya gücdən istifadə etməkdən çəkinməyə öhdəlik götürürlər.

Maddə 2

Tərəflər, özlərinin azad institutlarını gücləndirərək, bu institutların əsasını təşkil edən prinsiplərin daha yaxşı anlaşılmasına nail olmaq və sabitlik və rifah üçün şərait yaradaraq sülhpərvər və dost beynəlxalq münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəklər. Onlar öz beynəlxalq iqtisadi münasibətlərində münaqişələrin qarşısını almağa çalışacaq və onlardan hər hansı biri və ya hamısı arasında iqtisadi əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 3

Hazırkı Müqavilənin məqsədlərinin daha təsirli yerinə yetirilməsi üçün Tərəflər, ayrıca və birlikdə, davamlı və effektiv özünə yardım və qarşılıqlı dəstək vasitəsilə, silahlı hücumlara müqavimət göstərmək üçün fərdi və kollektiv imkanlarını inkişaf etdirəcəklər.

Maddə 4

Tərəflərdən hər hansı birinin fikrinə görə, nə vaxt ki, onlardan hər hansı birinin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya təhlükəsizliyi təhdid olunarsa, Tərəflər birlikdə məsləhətləşəcəklər.

Maddə 5

Tərəflər razılaşır ki, Avropa və yaxud Şimali Amerikada onlardan birinə və ya bir neçəsinə qarşı silahlı hücum onların hamısına qarşı hücum kimi qəbul edilməlidir; və müvafiq olaraq razılaşırlar ki, əgər bu cür hücum baş verərsə, onlardan hər biri, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş fərdi və ya kollektiv özünümüdafiə hüququnu həyata keçirərkən, fərdi və digər Tərəflərlə birlikdə, Şimali Atlantika bölgəsində təhlükəsizliyi bərpa etmək və qoruyub saxlamaq üçün hərbi gücdən istifadə də daxil olmaqla, lazım olan tədbirləri həyata keçirməklə hücuma məruz qalmış Tərəf və ya Tərəflərə dəstək verəcəklər.

Hər hansı belə bir silahlı hücum və bunun nəticəsi olaraq görülən bütün tədbirlər dərhal Təhlükəsizlik Şurasına məruzə edilməlidir. Belə tədbirlər, Təhlükəsizlik Şurası beynəlxalq sülhün və təhlükəsizliyin bərpası və qorunması üçün lazım olan tədbirlər gördükdə dayandırılmalıdır.

Maddə 6 [1]

Beşinci maddənin məqsədinə uyğun olaraq, Tərəflərdən birinə və yaxud bir neçəsinə qarşı silahlı hücum Avropa və yaxud Şimali Amerikada Tərəflərdən hər hansı birinin ərazisinə, Fransanın Əlcəzair departamentlərinə[2], Tərəflərdən hər hansı birinin Avropadakı işğalçı qüvvələrinə, Şimali Atlantika bölgəsində Şimal tropikindən şimalda Tərəflərdən hər hansı birinin yurisdiksiyası altında olan adalara və yaxud bu ərazilərdən Tərəflərdən hər hansı birinin gəmilərinə və ya təyyarələrinə silahlı hücumu da özündə ehtiva etməlidir.

---

1. *6-cı maddəyə Yunanıstan və Türkiyənin üzvlüyə qəbulu ilə bağlı Şimali Atlantika Müqaviləsinə əlavə Protokolun 2-ci maddəsi ilə düzəliş edilmişdir.*
2. *1963-cü il yanvarın 16 da Şimali Atlantik Şura öz qərarı çərçivəsində CR (63)2 maddə V ilə Fransanın Əlcəzair departamentinin müstəqilliyini qəbul etdi*

Maddə 7

Hazırkı Müqavilə Birləşmiş Millətlər Təşkilatının üzvləri olan Tərəflərin Nizamnamə çərçivəsində hüquq və öhdəliklərinə, və yaxud beynəlxalq hüquq və təhlükəsizliyin qorunmasında Təhlükəsizlik Şurasının əsas məsuliyyətinə təsir etmir və bu cür şərh olunmamalıdır.

Maddə 8

Hər bir Tərəf bəyan edir ki, onun və digər Tərəflərdən hər hansı biri və yaxud üçüncü bir dövlət ilə arasında hazırda qüvvədə olan heç bir beynəlxalq öhdəlik bu Müqavilənin müddəaları ilə ziddiyyətdə deyil, və bu Müqavilə ilə ziddiyyətdə olan heç bir beynəlxalq öhdəliyə qoşulmamaq öhdəliyi götürür.

Maddə 9

Tərəflər bununla bu Müqavilənin yerinə yetirilməsi ilə bağlı məsələləri nəzərdən keçirmək üçün hər birinin təmsil olunacağı şura yaradırlar. Bu şura elə təşkil olunmalıdır ki, təcili olaraq istənilən zaman görüş keçirmək mümkün olsun. Bu şura lazım olduğu təqdirdə, alt qurumlar, xüsusilə də 3-cü və 5-ci maddələrin yerinə yetirilməsinə dair məsləhətlər verəcək müdafiə komitəsinin təcili olaraq təsis etməlidir.

Maddə 10

Tərəflər, ümumi razılaşmalar əsasında, bu Müqavilənin prinsiplərini daha da yaymaq və Şimali Atlantika bölgəsinin təhlükəsizliyinə töhfə vermək üçün hər hansı bir digər Avropa dövlətini bu Müqaviləyə qoşulmağa dəvət edə bilərlər. Dəvət olunmuş istənilən dövlət qoşulma vasitəsini Amerika Birləşmiş Ştatları Hökuməti ilə depozitə edərək bu Müqaviləyə tərəf ola bilər. Amerika Birləşmiş Ştatları Hökuməti Tərəflərin hər birini hər bir qoşulma vasitəsi barədə xəbərdar edəcəkdir.

Maddə 11

Bu Müqavilə ratifikasiya olunmalı və tərəflərin konstitusional strukturlarına çıxarılmalıdır. Ratifikasiya məsələsi ABŞ dövləti ilə eyni zamanda bütün dövlətlərlə razılaşdırılmalıdır. Müqavilə çoxluq tərəfindən (Belçika, Kanada, Fransa, Lüksemburq, Niderland, Birləşmiş Krallıq və ABŞ) ratifikasiya olunduqdan sonra başqa dövlətlərə hörmətlə yanaşaraq, ratifikasiya olunan gün qüvvəyə minə bilər.

Maddə 12

Müqavilə on il qüvvədə olduqdan sonra və ya bundan sonra istənilən zaman, Tərəflər, əgər hər hansı biri sorğu edərsə, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün ümumdünya, həmçinin regional qurumların inkişafı da daxil olmaqla, Şimali Atlantika bölgəsində sülhə və təhlükəsizliyə təsir edən faktorları nəzərə alaraq, Müqaviləni nəzərdən keçirmək məqsədilə məsləhətləşməlidirlər.

Maddə 13

Müqavilə 20 il müddətinə qüvvədə olduqdan sonra hər hansı bir Tərəf Amerika Birləşmiş Ştatları Hökumətinə denonsasiya haqqında bildirişi təqdim etməsindən bir il sonra Müqavilədən çıxa bilər ki, Amerika Birləşmiş Ştatları Hökuməti də digər Tərəflərin hökumətlərini hər bir denonsasiya haqqında depozit barədə məlumatlandıracaqdır.

Maddə 14

Hazırkı Müqavilə, hansının ki, ingilis və fransız mətnləri eyni qüvvəyə malikdir, Amerika Birləşmiş Ştatları Hökumətinin arxivlərində saxlanılmalıdır. Müvafiq şəkildə rəsmiləşdirilmiş surətləri bu Hökumət tərəfindən Müqaviləni imzalayan digər Hökumətlərə göndəriləcəkdir.